AZƏRBAYCAN RESPUBLİKASI
**DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN AKADEMİYASI**

**ŞAHİN HÜSEYNOV**

# NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ:

## ELMİ-NƏZƏRİ, HÜQUQİ, TƏCRÜBİ MƏSƏLƏLƏRİ VƏ PROBLEMLƏRİNİN HƏLLİ YOLLARI

***(Dərs vəsaiti)***

*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Elmi Şurasının 01 sentyabr 2015-ci il tarixli 04№-li qərarı ilə nəşr edilməsi tövsiyə edilmişdir.*

**Bakı – Mütərcim – 2016**

**Elmi redaktorlar**: Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı **Aydın Əli oğlu Əliyev**

Məhkəmə Ekspertizası Mərkəzinin rəisi, ədliyyə general-mayoru, hüquq üzrə elmlər doktoru, professor **Fuad Musa oğlu Cavadov**

**Rəy verənlər**: Azərbaycan Respublikası DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis general-mayoru, hüquq üzrə fəlsəfə doktoru **Həzi Arif oğlu Aslanov**

Azərbaycan Respublikası DİN-in Baş Cinayət Axtarış İdarəsinin rəisi, polis general-mayoru **Emin Əkrəm oğlu Şəkinski**

AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun "Cinayət hüququ və cinayət prosesi" şöbəsinin baş elmi işçisi, hüquq üzrə elmlər doktoru, professor, ədliyyə general-mayoru **Mirağa Əşrəf oğlu Cəfərquliyev**

BDU-nun "Kriminalistika və məhkəmə ekspertizası" kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor **Kamil Nazim oğlu Səlimov**

BDU-nun "Cinayət prosesi" kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor **Firuzə Məmməd qızı Abbasova**

Polis Akademiyasının «Kriminalistika» kafedrasının rəisi, polis polkovniki, hüquq üzrə fəlsəfə doktoru **Allahverdi Mirzəağa oğlu Mahmudov**

**Şahin İslam oğlu Hüseynov. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi, təcrübi məsələləri və problemlərinin həlli yolları** *(dərs vəsaiti).* – Bakı: Mütərcim, 2016. – səh.

Kitabda qanunsuz dövriyyədə rast gəlinən narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, habelə onların tanınma və eyniləşdirmə metodlarına, bu sahədə münasibətləri tənzimləyən hüquqi mənbələrə və cinayətlərə qarşı mübarizədə polis orqanları və əməliyyat aparatlarının rəhbərlərinin vəzifələrinə dair qısa və konkret məlumatlar öz əksini tapmışdır.

Dərslikdə həmçinin narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının dövriyyəsi ilə bağlı kriminalistik məlumatlar, qanunsuz dövriyyə sahəsində cinayətlərin istintaqı prosesində müstəntiqlə təhqiqat orqanının qarşılıqlı əlaqələri, əməliyyat-axtarış tədbirlərinin bir sıra elmi hüquqi və təcrübi aspektləri, ƏAF-ın planlaşdırılması ilə bağlı tövsiyələr, vətəndaşların bu növ cinayətlərə qarşı mübarizədə iştirakı ilə bağlı müddəalar əhatə edilmiş, habelə qeyd edilən cinayətlərə qarşı mübarizə istiqamətində mövcud olan problemlərə,onların həlli yollarına və digər əhəmiyyət kəsb edən məsələlərə də toxunulmuşdur.

Kitab DGK, DİN, xüsusi xidmətlər, hüquq-mühafizə orqanlarının tədris müəssisələrinin müdavim və dinləyiciləri, hüquq fakültəsi olan digər ali məktəblərin tələbələri, aspirantları, müəllimləri, prokurorluq və məhkəmə işçiləri, hüquq-mühafizə orqanlarının əməliyyat aparatlarının və digər xidmətlərinin əməkdaşları, habelə bu sahə ilə maraqlanan şəxslər üçün nəzərdə tutulmuşdur.

**Müəllifin bütün hüquqları qanunla qorunur, elmi əsərdə müəllif tərəfindən aparılan tədqiqatlara və onların nəticələrinə dair materialların başqa mənbələrdə istifadəsi müəlliflə razılaşdırılmalıdır.**

N $\frac{4310020000}{026}$ 122-16

© Gömrük Akademiyası, 2016

## MÜNDƏRİCAT

*Ön söz* ..........................................................................................
I Bölmə
Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin
tarixi-hüquqi aspektlərinə dair qısa icmal............................................

II Bölmə
Azərbaycanda narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı
mübarizənin qısa səciyyəsi və təkmilləşdirilməsinin
bəzi istiqamətləri.......................................................................

III Bölmə
Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin
qarşısının alınması və açılmasının ümumi müddəaları..........................

IV Bölmə
Narkotik vasitələrin, psixotrop maddələrin və onların
prekursorlarının dövriyyəsi və narkomanlıqla bağlı
istifadə edilən anlayışlar ...................................................................

V Bölmə
Narkotik vasitələrin, psixotrop maddələrin və onların
prekursorlarının dövriyyəsi ilə mübarizənin hüquqi əsasları .................
5.1. Narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə bağlı
cinayətlərin cinayət-hüquqi xüsusiyyətləri..........................................
5.2. Narkotik vasitələrin, psixotrop maddələrin və onların
prekursorlarının dövriyyəsi ilə mübarizəni tənzimləyən
normativ hüquqi aktların siyahısı və onlardan çıxarışlar .......................
5.3. «Narkotik vasitələrin, psixotrop maddələrin
və onların prekursorlarının dövriyyəsi haqqında» 28 iyun 2005-ci il
tarixli Azərbaycan Respublikası Qanunu (çıxarış)................................

5.4. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vaitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahıları............
5.5. Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak üçün nəzərdə tutulan miqdarı........................................
5.6. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları......................................
5.7. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi qaydası...............................
5.8. Qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilməsi lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi üçün təhvil verilməsi Qaydası .............................................
5.9. Sərxoşluq hallarının bütün növlərinin və insan bədəni daxilində narkotik vasitələrin, psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədilə tibbi müayinənin keçirilməsi Qaydası (Çıxarış)..........................................................
5.10. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması qaydası (çıxarış) ..............................
5.11. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi (çıxarış)...............................................
5.12. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (çıxarış)............
5.13. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (çıxarış) ..................................................

5.14. Azərbaycan Respublikasının Mülki Məcəlləsi ............................
5.15. Azərbayan Respublikasının «ƏAF haqqında»
28.X.1999-cu il tarixli Qanununun bəzi maddələrinin qısa şərhi
və ondan çıxarış...........................................................................
5.16. Azərbaycan Respublikasının «Polis haqqında»
28.X.1999-cu il tarixli Qanunu. (çıxarış)............................................
5.17. «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində
əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında»
Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 19 iyun 2001-ci il.....
5.18. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların
prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikası
Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası
Prezidentinin Fərmanı. 22 may 2007-ci il..........................................

VI Bölmə.
Narkotik vasitələrin və psixotrop maddələrin təsnifatına,
onların təsvirinə, fiziki
cəhətləri və istifadə edilməsinin xüsusiyyətlərinə dair məlumatlar........
6.1. Narkotik vasitələrin və psixotrop maddələrin təsnifatı...................
6.2. Tərkibində narkotik vasitələr olan bitkilər....................................
6.3. Psixotrop maddələrin təsnifatı.....................................................

VII Bölmə.
Narkotik vasitələrin, psixotrop maddələrin və onların
prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı
kriminoloji və kriminalistik məlumatlar.
Onların insan orqanizminə təsiri .......................................................
7.1. Ayrı-ayrı narkotik maddələrin səciyyəvi cəhətləri.........................
7.2. Narkotik vasitələrin, psixotrop maddələrin və onların
prekursorlarının qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə dair
qısa məlumat.......................................................................................
7.3. Narkotik vasitələrin və psixotrop maddələrin istehlakının
insan orqanizminə təsirinin ümumi əlamətləri....................................
7.4. Narkotik sərxoşluq vaxtı narkomanın
davranışının və xarici görkəminin səciyyəvi cəhətləri..........................

7.5. Narkotik aclıq (abstinensiya) zamanı narkomanın
davranışında səciyyəvi cəhətlər........................................................
7.6. Uzunmüddətli narkotik qəbulunun nəticəsi kimi
narkomanın davranışının və görkəminin bəzi xüsusiyyətləri................
7.7. Məişət şəraitində xaşxaşdan kustar üsulla narkotik
maddələrin hazırlanma texnologiyası ................................................
7.8. Hadisə yerinə baxış və axtarış zamanı müstəntiqin
(təhqiqatçının) və əməliyyat müvəkkilinin maddi sübut olan
narkotik vasitələrlə davranışın kriminalistik xüsusiyyətləri..................
7.9. Narkotik vasitələrlə, psixotrop maddələrlə
və onların prekursorları ilə, güclü təsirli və zəhərli
maddələrlə qanunsuz hərəkətlər törədən şəxslərin xarakteristikası........
7.10. Yetkinlik yaşına çatmayan şəxslərin narkotiklərlə
bağlı törətdikləri cinayət işləri üzrə müstəntiqin
profilaktik fəaliyyətinin əsas istiqamətləri .........................................

VIII Bölmə.
Hüquq mühafizə orqanlarının və onların narkotiklərlə mübarizə üzrə
ixtisaslaşan əməliyyat aparatları rəhbərlərinin əsas vəzifələri ...............
8.1. Hüquq mühafizə orqanlarının və onların narkotiklərlə mübarizə üzrə
əməliyyat aparatlarının rəhbərləri narkomanlığa qarşı mübarizəni
səmərəli və uğurla həyata keçirmək üçün öz səlahiyyətləri
çərçivəsində aşağıdakıları təmin etməlidirlər.......................................
8.2. Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı
əməliyyatların keçirildiyi zaman maddi sübutların
götürülməsində hüquq mühafizə orqanlarının əməkdaşlarına verilən tələblər ..........................................................................................

IX Bölmə
Narkotik vasitələrin, psixotrop maddələrin və onların
prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə qarşı
mübarizədə əməliyyat-axtarış fəaliyyəti üzrə tədbirlərin
planlaşdırılmasında və həyata keçirilməsində
nəzərə alınması tövsiyə edilən məlumatlar ........................................

X Bölmə
Gömrük orqanlarının əməkdaşlarına prekursorların
qanunsuz dövriyyəsinin qarşısının alınması üzrə tövsiyələr..................

XI Bölmə
Narkotik vasitələrin, psixotrop maddələrin gizli yolla hazırlanmasında
istifadə edilən kimyəvi maddələrin nəqliyyat vasitələrinə yüklənməsi
və qeyri-leqal hazırlanması yerlərinə daşınması üsulları.........................

XII Bölmə
Gömrük orqanlarının əməkdaşlarına baxışın keçirilməsinə
dair tövsiyələr...........................................................................................

XIII Bölmə
Narkotik vasitələrin, psixotrop maddələrin və onların
prekursorlarının dövriyyəsi ilə bağlı cinayətlərə,
o cümlədən onların qaçaqmalçılığına qarşı mübarizədə
«nəzarətli göndəriş» əməliyyat-axtarış tədbirinin
(əməliyyatının, metodunun) tətbiq edilməsinin
elmi, hüquqi və təcrübi məsələləri və bəzi problemləri.........................

XIV Bölmə
«Nəzarət qaydasında mal alınması» əməliyyat-axtarış tədbirinin narkotik
vasitələrin, psixotrop maddələrin və prekursorlarının
qanunsuz dövriyyəsinə qarşı mübarizədə tətbiq edilməsinin elmi,
hüquqi əsasları, təşkili və həyata keçirilməsi və bəzi problemləri .........

XV Bölmə
Narkotik vasitələrin, psixotrop maddələrin və onların
prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı
cinayətlərə qarşı mübarizədə əməliyyat-axtarış
fəaliyyətinin həyata keçirilməsində vətəndaşların iştirakı .....................

XVI Bölmə
Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı cinayətlər üzrə həyata keçirilən araşdırmaların ümumi proqramı.............................................................................

XVII Bölmə
Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin istintaqı zamanı müstəntiqin təhqiqat orqanı ilə (əməliyyat aparatı) qarşılıqlı əlaqəsi ....................................

XVIII Bölmə
Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının gizlədilmə yerləri və onlarda baxışın keçirilməsinin bəzi taktiki fəndləri .....................................................
18.1. Nəqliyyat vasitələrinə baxış keçirmə .........................................
18.2. Gəmidə baxış keçirmə...............................................................
18.3. Təyyarədə baxış keçirmə...........................................................
18.4. Dəmiryol qatarında daha çox ehtimal olunan yerlərdə narkotik vasitələrin gizlədilməsi ....................................................................
18.5. Otaqlara baxış (axtarış) .............................................................
18.6. Şəxsi baxış..................................................................................

XIX Bölmə
Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrdə narkotik vasitələrin qanunsuz dövriyyəsi, istehlakı ilə məşğul olan şəxslər arasında istifadə edilən bəzi jarqon sözləri və ifadələri ..........................................................

XX Bölmə
Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində aparılan tədqiqatların nəticələrinə əsasən irəli sürülən təkliflər.............................................

XXI Bölmə
ƏAF sahəsində nəzəri əsaslarının və qanunvericiliyinin
təkmilləşdirilməsinə dair irəli sürülən təkliflər ....................................
İstifadə olunan ədəbiyyatların siyahısı ..................................................
Əlavə 1.
Gömrük hüquq pozmalarına qarşı mübarizə üzrə ixtisaslaşan əməliyyat aparatlarının əməkdaşlarına verilən peşə tələbləri.................................
Əlavə 2.
Narkotik vasitələrin, psixotrop maddələrin və onların
prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin
aşkar edilməsi və açılmasında tətbiq edilən bəzi əməliyyat-axtarış
tədbirləri üzrə sənədlərin nümunələri ..................................................
Nümunə №1. Nəzarət qaydasında mal alınması əməliyyat-axtarış
tədbirlərinin keçirilməsinə dair qərar..................................................
Nümunə №2. Nəzarət qaydasında mal alınması barəsində
protokol (akt).........................................................................................
Nümunə №3. DİN-nin Baş Kriminalistik Tədqiqatlar
İdarəsinə sorğu ......................................................................................
Nümunə №4. Nəzarət qaydasında mal alınması haqqında qərar............
Nümunə №5. Nəzarət qaydasında mal alınması protokolu (aktı)...........
Nümunə №6. Əməliyyat-axtarış tədbirlərinin nəticələrinin
müstəntiqə təqdim edilməsi haqqında qərar..........................................
Əlavə 3.
Cinayətkarlığa qarşı mübarizənin vəziyyətinin bəzi statistik
göstəriciləri.........................................................................................
Əlavə 4.
Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyə daxil olan
bəzi normativ-hüquqi aktlar..............................................................
Əlavə 5.
Müdavim, dinləyici, ali məktəb tələbələrinə və əməliyyat-
axtarış fəaliyyətinə aidiyyati olan şəxslərə tövsiyə
edilən ədəbiyyatların (monoqrafiya, dərslik,
dərs vəsaiti, elmi məqalələr) siyahısı...................................................

## *Qısaldılmış sözlərin siyahısı*

BMT - Birləşmiş Millətlər Təşkilatı
DİN - Daxili İşlər Nazirliyi
MTN - Milli Təhlükəsizlik Nazirliyi (DTX və XKX)
FHN - Fövqəladə Hallar Nazirliyi
ƏN - Ədliyyə Nazirliyi
DGK - Dövlət Gömrük Komitəsi
VN - Vergilər Nazirliyi
XDMX - Xüsusi Dövlət Mühafizə Xidməti
DSX - Dövlət Sərhəd Xidməti
ƏAF - əməliyyat-axtarış fəaliyyəti
ƏAT - əməliyyat-axtarış tədbirləri
CPM - Cinayət-Prosessual Məcəllə
CM - Cinayət Məcəlləsi
KTS – kriminalisttik tədqiqat şöbəsi
ƏAO – əməliyyat-axtarış orqanı
HMO – hüquq-mühafizə orqanları
ƏA – əməliyyat-axtarış
RPİ – rayon polis idarəsi
BTİİ – Baş Təşkilati İnspektor İdarəsi
BNMİ – Baş Narkotiklərlə Mübarizə İdarəsi
SSRİ – Sovet Sosialist Respublikaları İttifaqı
DTX – Dövlət Təhlükəsizlik Xidməti
XKX – Xarici Kəşfiyyat Xidməti
ABŞ – Amerika Birləşmiş Ştatları
ƏAİS – Əməliyyat-axtarış informasiya sistemi
HMO – Hüquq mühafizə orqanları
GHQMBİ – Gömrük Hüquqpozmalarına Qarşı Mübarizə Baş İdarəsi

GHQMŞ – Gömrük Hüquqpozmalarına Qarşı Mübarizə Şöbəsi

HNBGİ – Hava Nəqliyyatında Baş Gömrük İdarəsi

MSY – Müvəqqəti saxlama yerləri

İİR – İran İslam Respublikası

RF – Rusiya Federasiyası

AR – Azərbaycan Respublikası

ÜMB – Ümummilli Məlumat Bankı

GO – Gömrük Orqanları

BƏSİİ – Baş Əməliyyat Statistika İdarəsi

BKTİ – Baş Kriminalistik Tədqiqatlar İdarəsi

## ÖN SÖZ

Müasir dövrdə bəşəriyyəti narahat edən ən ağrılı problemlərdən biri də cəmiyyət, xalqlar üçün ciddi təhlükə mənbəyinə çevrilən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər və narkotizmdir. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi bütün bəşəriyyət üçün böyük bəladır. Bu gün narkotik vasitələr və psixotrop maddələr geniş miqyasda yayılma ənənəsinə malik olaraq, genofonda ağır zərbələr yetirir, gənc nəslin inkişafı üçün yüksək təhlükə mənbəyinə çevrilir. Narkomanlıq faktları gənclər arasında artır, narkotikləri istehlak edən şəxslərin sosial dairəsi durmadan genişlənir.

BMT-nin məlumatlarına görə, dünyada narkotikləri qəbul edən şəxslərin sayı da artır.

Narkotik vasitələrin və psixotrop maddələrin kriminal yayılmasının sosial təbiəti narkobizneslə və külli miqdarda pul vəsaitləri ilə əlaqəlidir.

Qeyd edilən pul vəsaitləri cəmiyyət üçün böyük təhlükə mənbəyi olan terrorizm, separatizm, korrupsiya, insan alveri kimi sosial təzahürləri qidalandıran əsas maliyyə dəstəyinə çevrilir.

Beynəlxalq ekspertlərin araşdırmalarına görə dünyada narkotiklərin dövriyyəsindən əldə edilən gəlir təxminən 400 milyard təşkil edir. Son illərdə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı mübarizənin nəticələri göstərir ki, bir çox hallarda hüquq mühafizə orqanlarının bu istiqamətdə

fəaliyyəti, demək olar ki, formal xarakter daşıyır, əsasən də narkotikləri istehlak edən və ya narkotiklərin xırda alverçilərinin ifşa edilməsi ilə məhdudlaşdırılır. Belə vəziyyəti sözsüz ki, narkoişbazlarının fəaliyyətinin, böyük miqdarda narkotik vasitələrin alqı-satqısı ilə məşğul olan şəxslərin, xüsusilə də transmilli xarakter daşıyan cinayət əməlləri törədən şəxslərin aşkar edilməsi və ifşa edilməsi istiqamətində böyük çətinliklərin və problemlərin mövcud olması ilə əsaslandırmaq olar.

Məhz ona görə də hüquq mühafizə orqanlarının ən əsas və mühüm vəzifəsi narkotiki istehlak edən şəxsin, narkomanın cinayət təqibi deyil, yuxarda qeyd edilən dövlətlər üçün yüksək təhlükə mənbəyi təşkil edən subyektlərin ifşa edilməsi istiqamətində fəaliyyətidir.

Artıq dünyanın sağlam düşüncəli insanları dərk edirlər ki, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə, həmçinin narkomanlığa qarşı mübarizədə bütün dövlət orqanları, insanlar səfərbər olmalı və bu istiqamətdə onlarda ideoloji vətəndaşlıq mövqeyi olmalıdır.

Bu bəla ilə mübarizənin elmi, hüquqi, təcrübi əsaslarını dərindən mənimsəmək təkcə bu sahədə peşə fəaliyyətini həyata keçirən əməkdaşlar üçün deyil, həm də mütəxəssislərin geniş dairəsi üçün zəruridir. Bu mənada qeyd edilən cinayətlərlə və narkotizmlə mübarizənin hüquqi əsaslarını əhatə edən normativ hüquqi aktların öyrənilməsi və təcrübədə tətbiqi mühüm əhəmiyyət kəsb edir. Onu da xüsusilə qeyd etmək lazımdır ki, narkotik vasitələrin dövriyyəsi ilə bağlı cinayətlər mütəşəkkil, yüksək latentlik səciyyə daşıyır və bu cinayətlərin xarakterik cəhətlərindən biri də narkotiklərin hazırlanması, yayılması, əldə edilməsi, daşınması, satılması, istehsal və istehlak prosesinə gənclərin və yeniyetmələrin təhrik edilməsidir. Narkotik vasitələrin dövriyyəsi və onlardan sui-istifadə halları başqa

ölkələrdə olduğu kimi, son dövrlərdə ölkəmizdə də yayılmışdır və onların qarşısının alınması və xəbərdar edilməsi ilə bağlı mövcud qanunvericiliyə əsaslanan mübarizə hüquq-mühafizə orqanları əməkdaşlarının daim diqqət mərkəzində olmalıdır.

Təəssüflə qeyd edilməlidir ki, narkotiklərin dövriyyəsi ilə əlaqədar hüquqpozmalara respublikamızın əksər şəhər və rayonlarında rast gəlmək mümkündür. Bu gün cinayətkarlar tərəfindən narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsi, digər ölkələrə daşınması, ərazimizdən tranzit dəhliz vasitəsi kimi istifadə edilməsi, eləcə də vətəndaşlarımızın hüquqa zidd əməllərə meylli dairəsindən olanların cinayət yolu ilə sosial-iqtisadi məsələlərini həll etmək niyyətləri, varlanmaq istəyi üzündən bu qanunsuz əməllərə qoşulması halları baş verir.

Müasir dövrdə bəşəriyyət üçün hədsiz dərəcədə təhlükəli və ciddi dünya problemi olan bu sosial təzahürlər kifayət dərəcədə cəmiyyətin iqtisadi, siyasi və digər fəaliyyətinə mənfi təsir edir.

XX əsrin sonu və XXI əsrin başlanğıcında beynəlxalq narkomafiyanın intensiv formalaşması və inkişafı nəzərə çarpır.

Ölkəmizdə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə dövlətimizin əsas vəzifələrindən biri kimi müəyyən edilmişdir. Məhz müstəqil Azərbaycanın dövlət quruculuğunda misilsiz xidmətləri olan dahi şəxsiyyət və dövlət xadimi Heydər Əliyev cənablarının uzaqgörənliyi, təşəbbüsü və rəhbərliyi altında bu istiqamətdə dövlət orqanlarının, ictimai təşkilatların fəaliyyətinin hüquqi əsasları hazırlanmış və strateji istiqamətləri müəyyən edilmişdir.

26 avqust 1996-cı ildə «Narkomanlığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında» imzalanmış Prezident Fərmanı bu sosial səciyyəli təzahürlə mübarizənin mühüm dövlət vəzifəsi kimi qəbul edilməsini bəyan etmiş, onlara qarşı mübarizənin hüquqi əsaslarının işlənib hazırlanmasında fundamental hüquqi mənbə rolunu oynamışdır.

Fərmana müvafiq olaraq Dövlət Komissiyası, onun işçi qrupu yaradılmış, ümummilli proqramlar hazırlanmış, bir sıra qanun və qanunqüvvəli aktlar qəbul edilmiş, ixtisaslaşmış əməliyyat aparatları yaradılmış və digər tədbirlər görülmüşdür. Bu istiqamətdə geniş, o cümlədən beynəlxalq miqyaslı tədbirlər Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir. Belə ki, 50-dən çox qanun və qanunqüvvəli normativ hüquqi aktlar qəbul edilmiş, dövlətlərarası iki və çoxtərəfli müqavilələr imzalanmışdır.

Azərbaycan dövləti BMT-nin 1961-ci il tarixli «Narkotik vasitələr haqqında» Vahid Konvensiyasına, 1971-ci il tarixli «Psixotrop maddələr haqqında» və 19 dekabr 1988-ci il tarixli «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» Konvensiyalarına qoşulmuşdur. 28 iyun 2005-ci ildə qeyd edilən təzahürlərə qarşı mübarizə sahəsində münasibətləri tənzimləyən yeni qanun qəbul edilmişdir.

Dərs vəsaiti "Azərbaycan Respublikasının narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi" haqqında qanunvericiliyinin, beynəlxalq konvensiyaların və müqavilələrin, dövlət proqramlarının, o cümlədən peşə hazırlığı sahəsində normativlərin tələblərindən irəli gələn vəzifələrə əsasən hazırlanmışdır.

Vəsaitin hazırlanmasında narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsi ilə bağlı müasir elmi-nəzəri mənbələrdən, müəllif tərəfindən 2015-ci ildə nəşr edilmiş "Narkomanlığa qarşı mübarizənin bəzi elmi-nəzəri, hüquqi və təcrübi məsələləri" adlı dərs vəsaitinin materiallarından istifadə edilmişdir. Dərs vəsaitinin əsas xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, onda müəllif tərəfindən 2007-2015-ci illərdə aparılan tədqiqatların nəticələrinə müvafiq olaraq,

elmi-nəzəri və qanunvericilik əsaslarının təkmilləşdirilməsinə və mövcud problemlərin həllinə dair konkret təkliflər verilmişdir.

Dərs vəsaitini digər dərs vəsaitlərindən fərqləndirən əsas məqamlardan biri ondan ibarətdir ki, onda 2 istiqamətdə – narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin, həmçinin əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunvericiliyin və nəzəri aspektlərin təkmilləşdirilməsinə dair geniş təkliflər verilmişdir. Sözsüz ki, irəli sürülən bir sıra təkliflər mübahisə predmeti ola bilər.

Dərs vəsaitində təqdim olunan məlumatlar yalnız maariflənmə, elmi-təhqiqat, təlim-tədris, narkomanlığa və narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə məqsədi daşıyır.

Oxucuya təqdim olunan vəsait tərtibat və məzmun baxımından əvvəlkilərindən fərqlənir. Vəsaitdə narkotiklərin dövriyyəsi ilə bağlı mübarizənin hüquqi əsasları, bu sahədə fəaliyyət göstərən dövlət orqanlarının hüquq və vəzifələri, qeyd edilən cinayətlərə qarşı mübarizədə tətbiq edilən ƏAT-ın elmi, hüquqi, təşkili və keçirilməsinin əsas müddəaları və bəzi problemləri, bu istiqamətlərdə müəllif tərəfindən aparılan tədqiqatların nəticələri əsasında mövcud problemlərin həlli ilə bağlı irəli sürülən təkliflər, hüquq mühafizə orqanlarına verilən bir sıra tövsiyələr, narkotiklərlə bağlı cinayətlərin istintaqında müstəntiqlə əməliyyat aparatı əməkdaşları arasında qarşılıqlı əlaqələr, vətəndaşların bu növ cinayətlərlə bağlı ƏAF-ı həyata keçirən orqanlara köməkliyi, narkotik vasitələrin və psixotrop maddələrin təsnifatı, onların qısa tarixi, özünəməxsus cəhətləri, hazırlanma texnologiyası, insan orqanizminə təsiri, gizlədilmə yerləri və əməliyyat aparatları tərəfindən aparılan araşdırmalarla bağlı tərtib olunan bir sıra əməliyyat-xidməti sənədlərin nümunələri öz əksini tapmışdır.

Dərs vəsaiti əsas etibarı ilə Dövlət Gömrük Komitəsi, Daxili İşlər Nazirliyi, xüsusi xidmətlər, məhkəmə və prokurorluq orqanları, hüquq mühafizə orqanlarının təhsil müəssisələri, bu sahədə çalışan mütəxəssislər üçün yazılmışdır. Əminik ki, dərs vəsaiti bu sahədə çalışan əməkdaşların biliklərinin genişlənməsi və yüksəlməsinə, peşə vərdişlərinin təkmilləşdirilməsinə xidmət edəcəkdir.

Müəllif dərs vəsaitin məzmunu ilə bağlı hər hansı arzu, əsaslı şərh və təkliflər verən hər kəsə qabaqcadan öz minnətdarlığını bildirir.

***Şahin Hüseynov***

# I BÖLMƏ

## NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏNİN TARİXİ-HÜQUQİ ASPEKTLƏRİNƏ DAİR QISA İCMAL

Narkotik vasitələrin insanlar tərəfindən istifadə edilməsinin qədim tarixi vardır. Bir sıra tanınmış alimlərin, arxeoloqların mülahizə və fərziyyələrinə görə insanın narkotik vasitələrlə ilk tanışlığı bizim e.ə. 40-10 min illərə təsadüf edir. Hippokratın fikirlərinə görə narkotiklər Avropaya skiflər tərəfindən 5 min il əvvəl gətirilmişdir.

Qədim dövrlərdən insanlar tərkibində narkotik, psixotrop xassəli maddələr olan bitkilərdən dini mərasim, ayinlərin keçirilməsində, müalicə məqsədləri və sadəcə həzz almaq üçün istifadə edirdilər. Hal-hazırda dünyanın elə bir ölkəsi yoxdur ki, orada narkotik tərkibli bitki bitməsin. Bu növ bitkilərə ilk növbədə aşağıdakılar aiddir: çətənə (kənaf), tiryək xaşxaşı və yağlı xaşxaş, koka, efedra otu, psilosib göbələkləri, peyote kaktusu, kat bitkisi və s.

Arxeoloji mənbələrə (tapıntılara) əsaslanaraq çətənənin (kannabis) istifadə edilməsi (tayvan arxeoloqlarının aşkar etdikləri qabların 10 min il əvvəl kannabis bitkisindən hazırlanması güman edilirdi) daş dövrünə aid edilir. İlk dəfə çətənənin təsvirinə dair məlumatlar Çində bizim eramızdan əvvəl 2800-ci ilə təsadüf edir və bu bitkinin sonradan digər Asiya ölkələrinə yayılması tarixi, elm və arxeoloji mənbələrə və aparılan tədqiqatlara istinad edilməklə əsaslandırılır.

Bəzi mənbələrdə kannabisin (çətənənin) ən əvvəl farmakoloji məqsədlər üçün istifadə edilməsini Çin imperatoru Şen-Nunqomun adı ilə əlaqəli olduğu bildirilir və bizim eramızdan əvvəl III əsrin başlanğıcına aid edilir. O, kannabisi tibbi məqsədlər üçün istifadə edilməsinə dair biliklərə malik idi. Çində onun sakitləşdirici xassələrini nəzərə alaraq xəstəliklərin müalicəsində, əsəb

pozuntularının aradan qaldırılmasında və digər məqsədlər üçün istifadə edilirdi.

Belə güman edilir ki, kannabis Hindistandan Şimali Afrikaya, oradan İspaniyaya və daha sonra isə oradan dəniz vasitəsi ilə Amerikaya gətirilmişdir. Lakin bir sıra dövlətlərdə, o cümlədən XII əsrdə İspaniyada, XIII əsrdə Fransada kannabisin istifadə edilməsinə kilsə tərəfindən qadağalar qoyulmuşdur. Belə qadağalar 150 ildən sonra ləğv edilmişdir.

Hindistanın müstəmləkəyə çevrilməsi və Napaleonun Misirə təcavüzündən sonra Avropada çətənənin məhsullarına maraq daha da artmış və XVIII əsrin sonunda Napaleonun Parisə həşişin müxtəlif növlərini gətirməsindən sonra onun müsbət xassələrinə dair artan təbliğat nəticəsində XIX əsrin birinci yarısında bir çox tanınmış şəxsiyyətlər, o cümlədən T.Qotyl, O.Balzak, A.Dyuma və bir sıra incəsənət xadimləri Sena çayının sahilində yerləşən klubda həşiş qəbul edirdilər. Məhz onların belə hərəkətlərinin nəticəsi olaraq həşişin istehlak edilməsi Avropa mədəniyyəti ənənəsi timsalında bir müddət geniş miqyasda tanınmağa başlamışıdır.

1939-cu ildə ingilis həkimi Kral Elmlər Akademiyasının üzvü U.Şanessi kannabisin (çətənənin) qıcolma, revmatizm və digər xəstəliklərə qarşı uğurla istifadə edilməsinə dair öz tədqiqatları ilə bağlı materialları dərc etdirdi.

Bu dövrdə Avropa və Amerikada kannabis tibbi məqsədlər üçün istifadə edilirdi (çətənənin yarpaqları və çiçəklərinin məhsulundan spazma, sıxıntıların aradan qaldırılması, onun yağından isə iltihabi prosesə və soyuqdəyməyə, sətəlcəmə qarşı). Çətənənin belə bir qeyri-qanuni istehlakı yalnız din xadimlərini narahat edirdi və qanunvericilikdə belə hərəkətlərin təqib edilməsi nəzərdə tutulmuşdu. Misir bu gün mövcud olan ilk dövlətdir ki, 1864-cü ildə çətənənin istehlak edilməsinə qadağan qoydu.

Amerika qitəsində çətənənin nisbətən düzgün tarixi XIV əsrdən başlayır və ispanlar tərəfindən Peru və Çiliyə onun gətirilməsi ilə əlaqələndirilir.

1611-ci ildə ABŞ-ın Virciniya ştatında çətənənin emalına başlanılmışdır. Bu ölkənin prezidentlərinin çətənənin toxuculuqda və tibb sahəsində istifadə edilməsi ilə bağlı xüsusiyyətləri barədə ətraflı məlumatları var idi və bu işlə məşğul olan şəxslərə (fermerlərə və s.) hökumət tərəfindən dotasiyalar verilirdi. 1840-1900-cü illərdə qərbdə çıxan tibb ədəbiyyatlarında kannabisin müalicəvi xassələrinə dair məlumatlar öz əksini tapmışdır. 1937-ci ilə qədər mövcud olan mənbələrdə kannabisin 100-dən çox müxtəlif xəstəliklərin müalicəsində istifadə edilməsinə dair məlumatlar verilmişdir.

Amerika formokologiyasında asma, revmatizm, gerpes, artrit, yuxusuzluq, dizenteriya, müxtəlif nevroloji pozuntular və s. xəstəliklərin müalicəsində çətənədən bir müalicə vasitəsi kimi istifadə edilmişdir. 1937-ci ildə ABŞ-ın 5 ştatında narkotiklər üzrə dövlət Bürosuna rəhbərlik edən Q.Anslindjeunun təşəbbüsü ilə marixuanaya insanda təcavüzə xas hissələr yaradan bir narkotik vasitə kimi hesab edilərək, onun istifadəsinə qadağan qoyulmuşdur və 1941-ci ildə kannabisdən alınan preparatlar ABŞ-da formokologiya siyahısından çıxarılmışdır.

Bu dövrdə Çin və Rusiya dövlətləri kannabisin (çətənənin) sənaye və tibbi məqsədlərlə emalını davam etdirirdilər. 19 noyabr 1948-ci ildə BMT-nin Baş Məclisinin Parisdə keçirilən III sessiyasında narkotik vasitələrə beynəlxalq nəzarət haqqında protokol imzalandı. Bu səbəbdən nəzarət edilən narkotik vasitələr sırasına marixuana da daxil edildi (buna qədər mübarizə əsas etibarı ilə tiryəkə qarşı yönəlirdi).

Tiryəkin yetişdirilməsinə dair ilk məlumatlar b.e. əvvəl 3400-cü ilə təsadüf edir. Mesopatamiyada Ninkur şəhərində tapılan taxta parçası üzərindəki yazılarda səhər sübhdən tiryək şirəsinin yığılması və ondan tiryəkin hazırlanması prosesi əks etdirilmişdir. Arxeoloji tapıntıların tədqiqinin nəticələri göstərir ki, Hippokrat öz işlərində Qədim Yunanıstanda tiryəkin ağrıkəsici xassələrindən istifadə edilməsini qeyd edir. Botanika elminin əsaslarının yaradıcısı olan Feofrast Pedani Dioskorid formokologiyaya aid işlərində tiryək

laləsinin məhsullarının yığılması üsullarını qeyd etmişdir və yuxusuzluğun və digər xəstəliklərin müalicəsində istifadə edilmək üçün tiryəkdən bir sıra dərman preparatlarının hazırlanması texnalogiyasını işləyib hazırlamışdır.

Bizim e.ə. 1300-cü ildə Misirdə xüsusi ayrılmış torpaq sahələrində yetişdirilən tiryək (tiryək xaşxaşı) Aralıq dənizi ölkələrində satış predmetinə çevrilmişdi və b.e. əvvəl 1100-cü ildə Kiprdə də onun yetişdirilməsinə başlanmışdı. Aparılan tədqiqatların nəticələrinə görə, güman edilir ki, ondan yunan təbabətində b.e. əvvəl 5-ci əsrdə, Çin təbabətində isə bizim e.ə. 8-ci əsrdə istifadə edilməyə başlanmışdır.

Tarix elmi sahəsində çalışan alimlər, tədqiqatçılar apardıqları araşdırmaların nəticələrinə görə belə qənaətə gəlirlər ki, tiryək xaşxaşının yetişdirilməsi Aralıq dənizinin şərq ölkələrində başlamış və ərəb tacirləri tərəfindən Asiya ticarət dəhlizləri vasitəsi ilə Çinə gətirilmişdir və XIII əsrdən başlayaraq əkilib orada yetişdirilməyə başlanmışdır.

Sonradan Aralıq dənizinin şərqindən başlayaraq Çinə qədər olan ərazi tiryək xaşxaşının yetişdirildiyi əsas məkan kimi sayılırdı.

Tiryək ilk dəfə müalicəvi vasitə kimi deyil, narkotik vasitə qismində 15-ci əsrdə Böyük Monqol imperiyasının şəhərlərində (Şimali Hindistanın) geniş istifadə edilirdi. 1556-1605-ci illərdə Əkbər I Cəlal ad-dinin yaşadığı və idarəçiliyi dövründə tiryək ticarəti Böyük Monqol İmperiyasının mühüm gəlir mənbəyi idi. Bu dövrdə bütün imperiya ərazisində, əsasən də Hindistanın şərqində, Kəlküttəyə yaxın ərazidə – Qanqa çayının yuxarı vadilərində (benqal tiryəki) və Hindistanın qərbində – Bombeydən şimalda (Malvin tiryəki) tiryək xaşxaşı yetişdirilirdi.

Amerika və Qərbi Avropa ölkələrində narkotik vasitələrdən kifayət dərəcədə geniş istifadə edilməsinə baxmayaraq, XIX əsrin sonunda Çində tiryəkdən daha geniş miqyasda istifadə edilirdi, ölkə əhalisinin 30%-dən çoxu narkotik vasitələrdən istifadə edirdilər. 1773-cü ildə Ost-Hindistan kompaniyası bu narkotik vasitənin istehsalı və satışını kifayət miqdarda genişləndirdi.

Bir sözlə leqal və genişmiqyaslı narkobiznes bərqərar oldu. 1858-ci ildə Çinə ixrac edilən tiryəkin miqdarı 2500 tona çatdı. Bu ərəfədə Çində 20 milyona yaxın narkomanın olmasına dair məlumatlar var idi. Çin hakimiyyətinin narkotiklərin Çinə gətirilməsinin qarşısının alınması səyləri 1840-cı ildə I tiryək müharibəsinin başlanmasına gətirdi. Bu vaxt Çin hakimiyyəti başda mançjur sülaləsinin imperatoru Tsik Dao-Quan olmaqla tiryəkin ingilislər tərəfindən qaçaqmalçılıq yolu ilə Çinə gətirilməsinin qarşısını almaq məqsədi ilə tədbirlərə başladılar. 18 mart 1839-cu ildə ölüm cəzasının ingilislərə tətbiq ediləcəyi barədə əmr verilmişdi və ona görə ingilislərə təklif edilirdi ki, anbarlarda saxlanılan tiryəki təhvil versinlər. İmperator komissarına 22.243 yeşik tiryək təhvil verildikdən sonra məhv edilmişdir. Bu hadisə ingilislər tərəfindən Çinə qarşı müharibəyə başlanması üçün bir bəhanə oldu ("Tiryək müharibələri" (1839-1842 və 1850-1859).

Nəticədə tiryəkin Çinə ixracı get-gedə artaraq 1880-ci ildə 1880 tona çatdı. Bu dövrdə Çinin iqtisadiyyatında sürətli tənəzzül baş verdi, dövlətin idarə edilməsi zəiflədi. Bu proseslərin və dövlətin qızıl ehtiyatlarını ölkədən çıxarılmasının qarşısını almaq məqsədi ilə Çində tiryəkin istehsalına başlanmışdı.

Bu dövrdə Asiyanın hər bir cənub-şərq dövlətində müstəmləkə hökumətləri tiryək ticarətini öz nəzarətləri altında saxlayırdılar, bəziləri isə onu öz monapoliyasına çevirmişdi, digərləri isə ona əxlaqsız tiryək yuvaların açılmasına lisenziya verilməsi yolu ilə nəzarət edirdilər.

1907-ci ildə dünyada ilk dəfə olaraq tiryəkin istehsalı və yayılmasına dair məlumatları özündə əks etdirən sistemləşdirilmiş icmal buraxıldı. Bu icmala əsasən tiryək istehsalı aşağıdakı statistik məlumatlarla səciyyələndirilir:

* Çində 35.364 ton tiryək

* Cənub-qərbi Asiyada (Türkiyə, İran, Hindistan, Əfqanıstan) – 6258 ton

* Cənub şərqi Asiya – 2 ton (digər məlumatlar da mövcuddur)

* Cəmi – 41624 ton

Bir vaxt Çinin 450 mln. sayda əhalisindən təxminən 25 mln narkotikdən istifadə edirdilər.

1907-1940-cı illərdə tiryəkin leqal dövriyyədən qeyri-leqal dövriyyəyə keçməsi hadisəsi müşahidə edilir və bunun da əsas səbəbkarı kimi protestant kilsəsini göstərmək olar. Belə ki, onun təşəbbüsü ilə tiryək ticarətinə qadağan qoyulmasında mübarizəyə başlanılır.

1909-cu ildə 13 dövlətin nümayəndələrinin iştirakı ilə Şanxayın "Palas" mehmanxanasında keçirilən toplantıda "Şanxay" komissiyası adı altında narkobiznesin və narkotik vasitələrin məhdudlaşdırılmasına dair 9 qətnamə qəbul edildi. Məhz bu toplantıda psixotrop maddələrə qarşı mübarizə ilə bağlı ilk beynəlxalq normativ sənəd qəbul edildi.

1912-ci ildə Havanada tiryəkin qadağan olunması ilə bağlı ilk beynəlxalq konvensiya qəbul edildi. Bundan sonra bir çox dövlətlər narkotik vasitələrin istehsalı, idxalı, ixracı, saxlanması və istifadə edilməsinin qadağan edilməsi və ya məhdudlaşdırılmasına dair milli qanunvericiliklərini qəbul etdilər. Buna baxmayaraq 1919-cu ilə qədər Amerikada narkomanlara reseptlə narkotik vasitə almağa icazə verilirdi.

1914-cü ildə ABŞ-da narkotikləri qadağan edən ilk normativ akt ("Harrison Narcotic Act") qəbul edilmişdir.

Beynəlxalq miqyasda keçirilən bu və digər tədbirlər dünyada narkotik vasitələrin leqal istehsalının kəskin dərəcədə azalmasına səbəb oldu.

Bütün bunlara baxmayaraq Asiya ölkələrinin tiryəkin istehsalındakı iştirakçılığının payı dəyişməz olaraq qaldı.

Beynəlxalq miqyasda həyata keçirilən tədbirlər tiryəkin və ondan heroinin istehsalının kriminal strukturlar tərəfindən qeyri-leqal qaydada həyata keçirilməsi ilə nəticələndi. 1930-cu ildə, ilk nəhəng cinayətkar sindikat yarandı. "Shanghais Grean Gang" adı alan bu sindikat heroinin istehsalı ilə məşğul olurdu və Çin artıq onu ixrac edən ölkəyə çevrilmişdi.

İkinci dünya müharibəsi zamanı tiryəkin istehsalı ilə bağlı dəqiq məlumatlar yoxdursa da, bu istiqamətdə mövcud olan ənənələr müəyyən edilmişdir.

Müharibə vaxtı ölkələr arası ticarətə qadağanların qoyulması, o cümlədən sərt qoyulan "liman qadağaları" tiryəkin istehsalı və istehlakının kəskin azalması ilə nəticələndi. Bu zaman ABŞ bazarında satış üçün Meksikada heroinin istehsalı bir qədər artır. Türkiyə və Əfqanıstan isə tiryəki böyük İran bazarına çıxarırdı.

Bu ərəfədə Çin öz istehlakçılarını ölkədə istehsal etdiyi tiryəklə təmin edirdi, Yapon istismarçı ordusu isə narkotiklərin daşınmasında iştirak edirdi.

1948-1972-ci illər ərzində yüksək keyfiyyətli heroinin 80%-i Marseldə korsika cinayətkar sandiqatların nəzarəti altında Türkiyə tiryəkindən alınırdı.

1949-cu ildə Çində kommunist inqilabından sonra mövcud olan xaşxaş əkin sahələri məhv edildi, narkotik ticarətçiləri güllələndilər, 10 milyona yaxın narkoman məcburi müalicəyə cəlb olundular. Bunun nəticəsi kimi dünyada tiryəkin istehsalı kəskin dərəcədə azaldı.

Türkiyə və Əfqanıstan İran üçün tiryək istehsal edirdi, belə ki, ölkənin 10 milyona yaxın əhalisi tiryəkdən istifadə edirdi və onlar Çin inqilabından sonra tiryəkin ən böyük istehsalçısına çevrilmişdi.

"Şanxay yaşıl bandası" adlı cinayətkar sindikat inqilabından sonra Hankonka yerini dəyişərək orada fəaliyyətə başladısa da, qısa müddətdə yerli bandalar onu məhv etdi. Bu bindalar onun kimyaçıları tərəfindən istifadə edilən texnologiyaların Tailand və Birma sərhədində heroinin istehsalı üçün laboratoriyaların yaradılmasında istifadə məqsədilə cəlb etmişdilər. Bu ərəfədə kommunistlər tərəfindən darmadağın edilən "qanunda cinayətkar qruplaşmaların" qalıqları Çindən Birmaya yerlərini dəyişmişdilər. Bu dövrdə müxtəlif dövlətlərin kəşfiyyat xidmətləri ilk dəfə olaraq tiryək narkobaronlarını bir sıra ölkələrdə siyasi vəziyyətin gərginləşməsi və onların hökumətinin devrilməsi üçün istifadə

etmişdi. Bunun nəticəsi kimi “Qızıl üçbucağ” heroinin ən böyük istehsalçısına çevrilmişdi.

1970-ci ildə dünyada tiryəkin istehsalı aşağıdakı göstəricilərlə səciyyələndirilir:

* Birma – 500 ton
* Laos, Vyetnam və Tayland birlikdə – 213 ton
* Türkiyə – 76 ton
* İran, Əfqanıstan və Hindistan – 305 ton
* Meksika – 15 ton

1972-ci ildə ABŞ-ın prezidenti Nikson narkotiklərə qarşı “müharibə” elan etdi və mövcud olan Türkiyə (tiryəkin istehsalçısı) – Marsel (heroin istehsalçısı) – ABŞ (heroinin istehsalçısı) zəncirinin dağıdılmasına qismən nail oldu.

1978-1980-ci illərdə “Qızıl üçbucaq” ölkələrində baş verən quraqlıq nəticəsində onlarda tiryəkin istehsalı azaldı.

Bunun nəticəsində dünya bazarına Türkiyə və “Qızıl üçbucaq” ölkələri tərəfindən çıxarılan tiryək azaldı və əksinə “Qızıl aypara” ölkələrində (İran, Əfqanıstan, Pakistan) tiryəkin istehsalı artdı.

1979-1989-cu illər narkobaronların fəaliyyətinin fəallaşması ilə səciyyələnir. Məsələn, Birmada “tiryək kralı” sayılan Xun şahı, Əfqanıstanda isə Əfqanıstan İslam Partiyasının lideri Qülbəddin Hikmətyarı misal göstərmək olar. “Qızıl üçbucağın” və “Qızıl aypara” ölkələrində tiryəkin istehsalı kəskin dərəcədə artmağa başladı. 10 il ərzində tiryəkin istehsalı 3 dəfə artdı.

Tiryəkin qlobal miqyasda artması XX əsrin son illərinə təsadüf edir. Bu dövrdə “Qızıl üçbucaq” ölkələrindən ABŞ-a heroinin sabit ixrac kanalları formalaşmışdı, həmçinin Sovet ordusu Əfqanıstandan çıxarıldıqdan sonra bu ölkədə tiryəkin istehsalı artdı. SSRİ-nin parçalanmasından sonra işi Tacikistan və Özbəkistan ərazisindən istifadə edilməklə narkotiklərin daşınmasının “Şimal dəhlizi” formalaşmağa başlandı.

Bundan sonra narkodillerlər heroini bütün ölkələrə yaymağa başladılar, onun şərqi Avropada, cənubi Çində, Hindistanda,

Pakistanda və digər ölkələrdə kütləvi satışı başladı. Onun istehsalı Qərbi Avropada və Şimali Amerikada artmışdır. Bu gün tiryəklə mübarizə məsələləri qlobal problemə çevrilmişdir və heç bir ölkə ondan kənarda qalmamışdır.

Koka kolu (eryhoxylum coca) And dağlıq massivində Peru və Boliviya dövlətlərinin ərazisində bitir. Onun yarpaqlarından çox güclü narkotik təsirə malik olan təbii mənşəli kokain alınır. Bu narkotik vasitənin çox qədim tarixi kökləri vardır. Yerli əhali olan inklər kokaindən b.e. III əsrdə istifadə etmişlər. Arxeologiya məlumatlarına görə kokainin istehlakının başlanğıc vaxtı müəyyən edilməmişdir. İnklər əsrlərlə kokain kolunun yarpaqlarını çeynəməklə ürək döyüntülərinin və tənəffüsün tezləşdirilməsinə nail olurdular. Bunu onlar dağlıq şəraitində olan hava seyrəkliyinin (oksigen çatışmamazlığının) orqanizmlərinə neqativ təsirindən qorunmaq məqsədi ilə edirdilər. Koka kolunun yarpaqları dini mərasim və ayinlərin həyata keçirilməsində mühüm rol oynayırdı. Ondan müalicə məqsədi ilə və iş prosesində istifadə edilirdi.

1532-ci ildə İspaniyanın Peruya təcavüzündən sonra gümüş mədənlərində qul kimi işlədilən hindulara kokain yarpaqları verilirdi, belə halda ondan istifadə edən işçilərin əmək məhsuldarlığı, işləmə müddəti xeyli artırdı və bu yolla onların asanlıqla istismar edilməsinə nail olunurdu. İşçilərin əməyi onlara koka yarpaqları verməklə ödənilirdi. İspanlar özləri bu dövrdə kokadan istifadə etmirdilər. Onun yarpaqlarının çeynənilməsini günah hesab edirdilər və ona görə də Avropada yaymırdılar. XIX əsrə qədər avropalıların koka kolu haqqında məlumatları demək olar ki, yox idi.

Bu dövrdə bəzi tədqiqatçılar (alman naturalisti Edvin Poppiqa) koka kolunun yarpaqlarını ölümgətirici kimi, digərləri isə (İtalyan bioloqu Manteqassa) onları müsbət dəyərləndirirdi. Koka kolunun yarpaqlarına dair Manteqassanın fikirləri bütün tarixi tədqiqat materiallarından da çox diqqəti cəlb edirdi.

1859-cu ildə alman kimyaçı-alim Albert Hyuman tərəfindən ilk dəfə koka yarpaqlarından kokain alınmışdır.

Bu dövrdə bir sıra tanınmış alimlər, həmçinin tibb sahəsində çalışan işçilərin dairəsində kokaindən istifadə edilməsi sonradan onun reklam edilməsinə və ona dair məlumatların geniş yayılmasına səbəb oldu.

Ondan cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələri istifadə edirdilər.

Tanınmış Avstriya psixiatoru və psixoloqu Ziqmund Freyd özü bu narkotik vasitədən istifadə etmiş və onun tibbi məqsədlər üçün (depressiyaya, impotentliyə və s. qarşı) istifadə edilməsinin geniş təbliğatı ilə məşğul olmuşdur.

O, kokaini "sehrli maddə" adlandırmış, onun əhəmiyyətindən ağızdolusu danışmış və öz yaxınlarına və xəstələrinə ondan istifadə etməyi məsləhət görmüşdü.

Freyd bu təcrübədən o zaman imtina etdi ki, onun dostu Ernet van Mozexov kokainin qəbulundan sonra həyat üçün təhlükəli olan bir hala düşdü.

XIX əsrin 80-ci illərində həkimlər heç bir resept olmadan xəstələrə kokaini bir sıra xəstəliklərin müalicəsi məqsədi ilə məsləhət görürdülər və o apteklərdə potentləşdirilmiş bir preparat kimi satılırdı. Bu dövrdə müxtəlif spirtli içkilərə kokain qatılaraq satılırdı. Məsələn, "Mariani" adında çaxır Avropada ən çox satılan spirtli içkilərdən biri idi.

Bu dövrdə Şerlok Xolmsun söylədiklərinə görə kokain ona gümrahlıq gətirirdi və onun dedektivliklə bağlı bacarıq və qabiliyyətini artırırdı. Kokain haqqında Tomas Edison, İyul Berk, Emil Zolya, Henrix İbsen, prezident Qrant kimi şəxsiyyətlər müsbət fikirlər söyləyirdilər.

Bəzi natiqlərin, aktyorların, müğənnilərin fikirlərinə görə kokalı çaxır səs bağlamalarını möhkəmləndirir, güc və enerjini artırır.

Beləliklə, XX əsrin 70-ci illərində kokaindən istifadə edilməsi çox sürətlə artmışdı. Onun istifadəçilərinin artması ilə yanaşı insan həyat və sağlamlığı üçün təhlükəli fəsadları da artmışdı.

Bir çox insanlar onun təhlükəli fəsadlarını öz üzərində hiss edirdilər. Ondan istifadənin fəsadları kimi çoxsaylı ölümlərin baş verməsi, kokain psixozu, ağır və xüsusilə ağır cinayətlərin törədilməsi, güclü narkotik asılılıq cəmiyyətdə kokainə qarşı mübarizəyə dair ictimai rəyin formalaşmasına və mübarizənin hüquqi bazasının möhkəmləndirilməsinin zəruriliyini şərtləndirirdi.

2008-ci ilin məlumatlarına görə kokain yayılmasına görə qadağan olunmuş narkotik vasitələrin arasında 2-ci yerdə durur.

**Bəşəriyyət üçün qlobal problemə çevrilən narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə məqsədi ilə beynəlxalq normativ aktların işlənib hazırlanması zəruri idi.**

1925-1953-cü illərdə narkotiklərin istehlakını və narkobiznesin məhdudlaşdırılmasına yönəlmiş aşağıdakı beynəlxalq sənədlər hazırlanıb qəbul edildi:

* 1925-ci il – Tiryəkin qadağan olunmasına dair Cenevrə konvensiyası;

* 1931-ci il – Narkotik vasitələrin istehsalı və bölüşdürülməsinin nizamlanmasına dair Cenevrə konvensiyası;

* 1936-cı il – Təhlükəli dərman maddələrinin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Cenevrə konvensiyası;

* 1946-cı il – BMT-nin narkotik vasitələr üzrə konvensiyası hazırlandı;

*1953-cü il – Xaşxaş bitkisinin məhdudlaşdırılması və tiryəkin və digər narkotik vasitələrin istehsalını nizamlayan Nyu-York protokolu qəbul edildi.

XX əsrin 60-cı illərində Stanislav Qraft tərəfindən hallyusinegenlərdən istifadə edilməklə aparılan tədqiqatların nəticələri böyük maraq doğururdu. Onların psixiatriya təcrübəsində istifadə edilməsinə dair bir sıra məqalələr hazırlanıb nəşr edilmişdir. Bunun nəticəsi kimi hallyusinogenlər “qara bazarda” geniş yayılmağa başladı və onların nəzarətsiz istifadə edilməsinə səbəb oldu.

Onların qeyri-leqal və nəzarətsiz istehlakı istifadəçilərin həyat və sağlamlıqları üçün təhlükəli olan xəstəliklərə məhkum olunması ilə nəticələnirdi.

Bu səbəbdən bir çox dövlətlərdə onların nəinki qeyri-leqal istifadəsinə, həmçinin tibbi məqsədlər üçün tədqiq edilməsinə qadağan qoyuldu.

**Narkotik vasitələrin, psixotrop maddələrin mühüm tarixi məqamlarını, onların istifadəsinin pozitiv və neqativ tərəflərini, həmçinin onların qanunsuz dövriyyəsinə qarşı mübarizəsinin beynəlxalq hüquqi əsaslarını və s. amilləri nəzərə alan dövlətlərin təşəbbüsü ilə BMT aşağıdakı beynəlxalq sənədləri qəbul etdi:**

* 1961-ci il – "Narkotik vasitələr haqqında" Vahid konvensiya

* 1971-ci il – "Psixotrop maddələr haqqında konvensiya"

* 1988-ci il – "narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında konvensiya"

Bu konvensiyalar narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizənin beynəlxalq hüquqi əsaslarını təşkil edir.

**Vahid konvensiya 51 maddədən ibarətdir və onun əsas müddəaları aşağıdakılardan ibarətdir:**

* BMT İqtisadi və Sosial Sürası və "Narkotiklərə Nəzarət üzrə Beynəlxalq Komitəsi" vasitəsi ilə narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə beynəlxalq nəzarətin təşkilini müəyyən edir;

* narkotik vasitələrin idxal və ixracını məhdudlaşdırır və onun qaydalarını müəyyən edir;

* konvensiyanın müddəaları narkotik vasitələrlə yanaşı onların hazırlandığı xammala (ilk növbədə narkotik tərkibli bitkilərə – xaşxaşın, kannabisin bitkisinə, koka kolunun yetişdirilməsinə nəzarət) şamil edilir.

* Konvensiyada narkotik vasitələrin 4 qrupda təsnif edilməsi nəzərdə tutulur və buna müvafiq olaraq narkotik vasitələrin 4

siyahısı verilir (onların təhlükəsizlik dərəcəsindən və s. asılı olaraq – maddə 2).

* Onun müddəalarına əsasən hər bir ölkə istehsal olunan, idxal, ixrac edilən, saxlanılan və qanunsuz dövriyyədən götürülən narkotik vasitələr barədə narkotiklərə nəzarət üzrə Beynəlxalq Komitəyə statistik hesabat təqdim etməlidir (maddələr 13, 20);

* qeyri-hökumət müəssisələri tərəfindən narkotik vasitələrin istehsalı, satışı və bölüşdürülməsinə yalnız hökumət tərəfindən verilən lisenziya əsasında icazə verilə bilər (maddələr 29, 30);

* **Konvensiyanın 36-cı maddəsinə əsasən Konvensiyada iştirakçı ölkələr narkotik vasitələrin dövriyyəsi ilə bağlı aşağıdakı əməlləri tanımalı və öz milli qanunvericiliklərində təsbit edilməsini təmin etməlidirlər:** narkotik hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə, satma, ideal ixrac etmə, tranzit daşıma, narkotik vasitənin istehlakına təhrik etmə, tərkibində narkotik vasitə olan bitkiləri kultivasiya etmə. (Azərbaycan Respublikasının cinayət Məcəlləsinin 206.2., 206.3., 206.4., 234-239-cu maddələri ilə əhatə edilir.) Bu maddədə tövsiyə kimi qeyd edilir ki, göstərilən hüquqa zidd əməllər milli qanunvericilikdə cinayətlərin siyahısına daxil edilsin, onlarda təqsirli olan şəxslər verilsin (ekstradisiya olunsunlar).

1971 və 1988-ci il tarixli konvensiyalar müvafiq olaraq 33 və 34 maddədən ibarətdir.

*Müasir dövrdə bütün dünyanı ciddi narahat edən məsələlərdən biri də beynəlxalq və milli siyahılara daxil edilməmiş tərkibində narkotik vasitə və psixotrop maddələr olan bitkilərdən, həmçinin süni yolla əldə edilmiş narkotik vasitə və psixotrop maddələrdən istifadə edilməsidir. "Dizayner narkotikləri", "leqal narkotiklər", "vanna üçün duzlar", "spays" və digər bir sıra adlar altında tanınan bu yeni psixoaktiv maddələr artıq dünyanın bir çox ölkələrində ciddi bir problem kimi qəbul olunur. Buna səbəb isə qeyd edilən maddələrin insanların səhhətinə yetirə biləcəyi ciddi zərər və hətta insan ölümünə səbəb ola biləcək təhlükədir.*

**Yeni psixoaktiv maddələrin farmakoloji və təsir xüsusiyyətləri beynəlxalq və milli siyahılara daxil edilmiş maddələr ilə oxşarlıq təşkil edir**.

*Birləşmiş MillətlərTəşkilatı Narkotiklər və Cinayətkarlıq İdarəsinin məlumatına əsasən yeni psixoaktiv maddələrin sayı 2009-cu ilin sonunda 166-dan 2012-ci ilin ortalarında 251-ə çataraq dövriyyəsi beynəlxalq nəzarət altında olan maddələrin sayını ötüb keçmişdir.*

**Təəssüflə qeyd olunmalıdır ki, yeni psixoaktiv maddələrin yayılması üçün artıq Azərbaycan Respublikasının ərazisindən istifadə etmək cəhdləri mövcuddur. Belə ki, 20.01.2014-cü il tarixində narkotik maddələrin Çin Xalq Respublikası – Belçika Krallığı- Türkiyə - Azərbaycan hava marşrutu üzrə daşınması haqqında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə daxil olmuş əməliyyat məlumatı əsasında 24.01.2014-cü il tarixində saat 01:20-də TK 336 saylı İstanbul-Bakı aviareysi ilə Bakı şəhərinə gətirilmiş "TNT" poçt daşıyıcı şirkətinin poçt bağlamasına Heydər Əliyev adına Beynəlxalq Hava Limanında baxış keçirilərkən naməlum ağ rəngli toz şəkilli maddə aşkar edilmişdir**.

*Yuxarıda qeyd olunan maddəyə dair Azərbaycan Respublikasının qanunvericiliyi ilə heç bir qadağan və məhdudiyyətlər nəzərdə tutulmaması, Türkiyə Respublikasında isə dövriyyəsinin qadağan olunması və alıcısının Türkiyə Respublikasında məskunlaşması səbəbindən qeyd olunan yükün təyinat yerində saxlanması üçün Türkiyə Respublikası gömrük orqanlarına müvafiq məlumatlar verilmiş və birgə tədbirlər həyata keçirilmişdir.*

*Türkiyə Respublikasının gömrük orqanları və digər hüquq-mühafizə orqanlarının bu ölkənin ərazisində birgə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində 15 kiloqramdan çox (7 kq. 559 qr. «5F-AKB» və 7 kq. 554 qr. «UR-144») «dizayner narkotikləri» kimi tanınan maddələr aşkar olunaraq götürülmüş və 2 nəfər saxlanılmışdır.*

*Qeyd etmək lazımdır ki, «UR-144» hal-hazırda Yeni Zellandiyada, Rusiya Federasiyasında, Birləşmiş Krallıqda, ABŞ-da, «5F-AKB» isə Yeni Zellandiyada, Rusiya Federasiyasında və Yaponiyada təhlükəli maddə kimi qadağan edilmişdir.*

*Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı hüquq siyasətinin ümumiləşdirilməsi məqsədi BMT tərəfindən nümunəvi normativ aktlar hazırlanmış və dövlətlərə öz qanunvericilik yaradıcılığında istifadə edilməsi tövsiyə edilmişdir.*

**Bu normativ aktlara aşağıdakılar aiddir:**

* Nəzarət altında olan maddələrin qanunsuz istehsalı və dövriyyəsinə qarşı mübarizə və narkotik vasitələr və psixotrop maddələrdən istifadə edilməsinə qarşı mübarizə tədbirləri haqqında nümunəvi qanun;

* Tərkibində narkotik maddə olan bitkilərin qanunu kultirasiyasının, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının istehsalı, hazırlanmasının və satışının tənzimlənməsinə dair nümunəvi qanun;

* narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquqi yardım və ekstradisiya haqqında nümunəvi qanun;

* narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar müsadirə haqqında nümunəvi qanun;

* narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə idarəsinin yaradılmasına dair nümunəvi normativ akt.

Beynəlxalq təcrübə və dövlətlərin milli təcrübəsi bir daha göstərir ki, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizədə beynəlxalq və milli qanunvericiliklər zamanın tələbinə, dünyada narkotik vəziyyətə müvafiq olaraq daim təkmilləşməli, hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığı daha yüksək səviyyədə müasir elmi-texniki nailiyyətlərdən maksimum istifadə etməklə həyata keçirilməlidir. Sözsüz ki, bu istiqamətdə mübarizədə sosial reabilitasiya və profilaktiki tədbirlərin yeni üsul və metodlarının

işlənib hazırlanması və tətbiq edilməsi istiqamətində elmi- dədqiqat islərin və araşdırmaların sürətləndirilməsi zəruridir.

**Beynəlxalq ekspertlərin və mütəxəssislərin dünyada narkotik vəziyyətin inkişaf ənənələrinə dair proqnozları əsas əetibarı ilə aşağıdakı istiqamətləri əhatə edir:**

* narkotik vasitələrə və psixotrop maddələrə tələbatın artması;

* narkotik vasitələrin içərisində şərt (ağır) narkotik vasitələrə (heroin, kokain), sintetik narkotiklərə meylliyin artması;

* narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan qruplaşmalar tərəfindən narkotiklərin yeni satış bazarlarının, onların daşınma kanallarının axtarışı və formalaşması;

* narkotik vasitələrin daşınmasında istifadə edilən tranzit ölkələrin əhalisinin narkotiklərin istehlakçılarına çevrilməsi;

* narkotik vasitələrdən əldə edilən gəlirlərin leqallaşdırılması, onlardan terrorizmə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə istifadə edilməsi;

* narkomafiya (narkoişbazlar) tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsində hüquq-mühafizə orqanlarının, hərbi işçilərin, hakimiyyət orqanlarının vəzifəli şəxslərinin, bizneslə məşğul olan və digər şəxslərin imkanlarından istifadə edilməsi;

* narkotik vasitələrin daha çox gənclər arasında yayılması;

* kriminal narkostrukturların cinayətkar fəaliyyət dairəsinin genişlənməsi və möhkəmləndirilməsi və onların maliyyə və hərbi-texniki təchizatının təkmilləşməsi;

* narkomafiyanın üzvlərinin dövlət-hakimiyyət strukturlarına nüfuz etməsi, dövlət-hakimiyyət orqanlarının fəaliyyətinə təsir etmək meylləri və s.;

* yeni sintetik və yarım sintetik narkotik vasitələrin əldə edilməsi meylləri.

**Bəşəriyyət XXI əsrə qədəm qoymuşdur və yenə də əvvəlki dövrlərdə olduğu kimi narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizə kimi ümumdünya probleminin uğurlu həllinin yollarını axtarmaqda davam edir. Əksər dövlətlərin qüvvələrinin səfərbər edilməsinə baxmayaraq, bu**

**istiqamətdə köklü dəyişikliklərə nail olmaq mümkün olmamışdır.**

# II BÖLMƏ

## AZƏRBAYCANDA NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏNİN QISA SƏCİYYƏSİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİNİN BƏZİ İSTİQAMƏTLƏRİ

Müasir dövrdə narkomanlıq və onunla əlaqəli olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər bəşəriyyət üçün ən təhlükəli bir sosial bəla olaraq qalır və bu qlobal səciyyəli problemlərdən heç bir dövlət kənarda qalmamışdır. Qeyd edilən sosial hadisələr insan həyatı və sağlamlığını çox ciddi təhlükə qarşısında qoymaqla yanaşı cəmiyyətin sosial-iqtisadi, siyasi və digər sahələrinə kəskin dərəcədə neqativ təsir edir.

XX əsrin sonu və XXI əsrin əvvəllərində beynəlxalq narkomafiyanın intensiv formalaşması və inkişafı müşahidə olunur və onun hədəfində digər dövlətlərlə yanaşı MDB-yə daxil olan, o cümlədən bizim ölkəmiz də vardır. Bu onunla əlaqədardır ki, müstəqilliyini əldə etmiş postsovet məkamı ölkələri həyatın bir çox sahələrində müxtəlif ciddi problemlərlə üzləşib və narkoişbazları bu ölkələrin ərazilərinin narkotik vasitələrin “qara bazarı” və tranzit nəql edilməsi üçün əlverişli nəqliyyat dəhlizi qismində istifadə etməyə çalışırlar. Bizim ölkəmiz üçün qeyd edilən bu problemlər daha dərin, mürəkkəb səciyyə daşıyır. Belə ki, ölkəmizin ərazisinin 20 faizi erməni qəsbkarlarının təcavüzünə məruz qalmışdır və 1 mln. yaxın insan öz torpaqlarından didərgin düşmüşdür. Əldə edilən dəqiq məlumatlara görə ölkəmizin işğal olunan ərazisi (Dağlıq Qarabağ Muxtar Vilayəti) narkoişbazları tərəfindən narkobiznes məqsədilə narkotik tərkibli bitkilərin yetişdirilməsi, yaxın və orta şərq ölkələrindən narkotik vasitələrin tranzit daşınması üçün istifadə edilir. Bu qeyri-leqal, beynəlxalq qanunvericiliyin tələblərinə zidd

cinayətkar fəaliyyətdə Ermənistanın dövlət orqanları, o cümlədən xüsusi xidmətləri iştirak edir. Tarixi torpaqlarımızın erməni qəsbkarları tərəfindən işğal olunan bu əraziləri dövlətimizin hüquq mühafizə orqanlarının nəzarətindən kənar qalır.

Ölkəmizin təbii şəraiti, coğrafi mövqeyi narkotik tərkibli bitkilərin (tiryək və yağlı xaşxaşın, çətənənin) bitməsi və kultivasiyası üçün əlverişli olduğundan narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin törədilməsi və narkomanlığın yayılması üçün əlverişlidir. Məhz ona görə də ölkəmizin bir sıra bölgələrinin geniş torpaq sahələrində (Lənkəran, Masallı və s.) tiryək xaşxaşının və çətənənin təbii şəraitdə bitməsi halları ilə üzləşirik.

Bu ərazilərdə hüquq mühafizə orqanları tərəfindən həyata keçirilən xüsusi tədbirlər nəticəsində on tonlarla tərkibində narkotik maddə olan yabanı halda bitən bitkilər aşkar olunur və qanunvericiliyə müvafiq olaraq yaşıl kütlə halında məhv edilir.

1991-1997-ci illədrdə ölkə ərazisində narkotik vəziyyətin kəskin dərəcədə gərginləşməsi müşahidə edilmiş, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin sayı 3,5 dəfə artmışdır. Dövlət səviyyəsində keçirilən təşkilati, hüquqi, sosial, ideoloji tədbirlər nəticəsində bu vəziyyət nisbətən stabilləşdirilmiş, müəyyən dərəcədə nəzarətdə saxlanılmışdır. Bütün bunlara baxmayaraq narkomanlıq və narkotik vasitələrlə bağlı cinayətlərə qarşı mübarizədə olan problemlər cəmiyyətdə narahatlıq doğurur.

2003-cü ildə narkotiklərlə bağlı 2044, 2015-ci ildə isə 2935 cinayət qeydə alınmışdır. Bu müddətdə narkotik vasitələrin satışı ilə bağlı cinayətlərin sayı 613-dən 781-ə qədər artmışdır. Qanunsuz dövriyyədən götürülən narkotik vasitələrin miqdarı 161 kq-dan. 1015 kq-a qədər artmışdır. Bu növ cinayətlərin xüsusi çəkisi qeydə alınmış cinayətlərin 13,4%-ni, 2015-ci ildə isə 11,7%-ni təşkil etmişdir. Bu göstəricilərə nəzər saldıqda görünür ki, qeydə alınan cinayətlərin xüsusi çəkisinin azalmasına baxmayaraq, qanunsuz dövriyyədən götürülən narkotik vasitələrin və onların satışı ilə bağlı cinayətlərin artması müşahidə olunur. Yalnız bu göstəricilərə

əsaslnaraq, mövcud olan “ narkotik vəziyyəti” qeyd edilən dövrdə suni və xüsusilə də təbii latentliyin yükək olması ilə izah etmək olar.

Aparılan müqayisəli təhlillərin nəticələri, mövcud ekspert rəyləri və əməliyyat mənbələrin məlumatları, ƏAT-in nəticələri, bu kateqoriyadan olan cinayətlərin yüksək latentlik dərəcəsi və mütəşəkkil xarakter daşıması, dövlətimizin narkotik vasitələrin ölkəmizə qeyri-leqal yolla gətirildiyi ehtimal olunan dövlətlərlə hüquqi yardım məsələlərinin tam həcmdə həll edilməsində olan problemlər, həmçinin peşə hazırlığında olan bəzi çatışmamazlıqlar belə fikirləri əsaslandırmağa imkan verir ki, bu və digər statistik məlumatlar ölkədə real narkotik vəziyyəti (bu sahədə əməliyyat şəraitini) tam əks etdirmir.

Cinayət məsuliyyətinə cəlb edilən 1955 nəfərdən 119 nəfəri qadın, 1816 nəfəri əmək qabiliyyətli işləməyənlər və oxumayanlar, 36 nəfəri xarici ölkə vətəndaşları və vətəndaşlığı olmayanlar (2002-ci ildə), 2505 nəfərdən 43 nəfəri qadın, 2275 nəfəri əmək qabiliyyəti olan işləməyən və oxumayanlar, 44 nəfəri xarici vətəndaşlar və vətəndaşlığı olmayanlardır(2014-cü ildə). Son illərin statistik məlumatların nəticələrinin təhlili göstərir ki, narkotik vasitələrin istehlakına aiddiyyatı olan şəxslərin sosial dairəsinin genişlənməsi etimalı nəzərə çarpır. Səhiyyə Nazirliyinin rəsmi məlumatlarına görə ölkədə narkotik vasitələri istehlak edən 29000 nəfər müəyyən edilmişdir (2011-ci ildə 26717 nəfər). Son illərdə narkomanların yaş həddi 30-dan 17-yə enmişdir. Əgər 1991-ci ildə əhalinin hər 100 min nəfərinə 25,3 narkoman düşürdüsə, 2005-ci ildə bu göstərici 210 nəfər olmuşdur.

Onu da qeyd etmək lazımdır ki, MDB-yə üzv olan dövlətlər arasında Azərbaycan 2014-cü ildə hər 100 min nəfərə olan cinayətlərin sayına görə (256 cinayət – az olan) 2-ci pillədə yer almışdır.

Son illərdə narahatlığa səbəb olan əsas amillərdən biri də narkotik vasitələrin İran, Əfqənistana, MDB-yə daxil olan və digər ölkələrdən Azərbaycana dəniz və quru sərhədlərdən qaçaqmalçılq

yolu ilə gətirilməsi, ölkəmizin tranzit dəhlizə çevrilməsi meyillərinin bir ənənə şəklinə salınması cəhdləridir.

Ölkəmizə əsas etibarı ilə tiryək-xammal və heroin gətirilir. Ölkəyə gətirilən narkotik vasitələr arasında "ağır narkotiklər" (heroin, kokain) və digər (metadon, amfetamin, ekstazi və.) narkotiklər də vardır.

*Azərbaycan Respublikasının MTN-nin müvafiq xidmətlərinin, DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsi və DGK-nin Gömrük Hüquqpozmalarına Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşlarının birgə keçirdikləri əməliyyat axtarış və s. tədbirlər nəticəsində İrandan Azərbaycana narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə ölkəmizin ərazisinə uzun müddət gətirilməsi ilə məşğul olan mütəşəkkil cinayətkar qruplaşmalar ifşa olunmuşdur.*

*19 mart 2003-cü ildə ölkəmizin sərhəd rayonu ərazisində yaşayan sakinlərin və onlarla sıx cinayətkar əlaqələrdə olan İİR-in vətəndaşlarından ibarət cinayətkar qruplaşmalara qarşı həyata keçirilən davamlı əməliyyat-axtarış tədbirləri nəticəsində DİN-in, BNMİ-nin əməkdaşları tərəfindən hər 2 ölkənin vətəndaşlarından ibarət mütəşəkkil cinayətkar qruplaşmanın üzvləri tutulmuşdur. Bu qruplaşmanın üzvləri tərəfindən polis əməkdaşlarına silahlı müqavimət göstərilməsinə baxmayaraq, onlar zərərsizləşdirilmiş və onlardan bir neçə ədəd odlu silah götürülmüşdür. Qeyd edilən mütəşəkkil qruplaşmanın üzvləri uzun müddət narkotik vasitələrin qeyri-leqal yolla Azərbaycana, Gürcüstana və Rusiyaya daşınması və satışı ilə məşğul olmuşdur. Son illərdə ölkəmizin hüquq mühafizə orqanları tərəfindən bir neçə mütəşəkkil cinayətkar qruplaşma, o cümlədən narkotik vasitələrin ölkəmizə, Gürcüstana və daha sonra Rusiyaya daşınması ilə məşğul olan İran və Azərbaycan vətəndaşları olan narkokuryerlər ifşa olunmuşdur.*

*1998-ci ilin yanvar ayında Türkiyə sərhəddində sərnişin avtobusunda hazırlanmış gizlənc yerində yarım tona yaxın heroin aşkar edilmişdir. Heroin sərhədə Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan marşrutu ilə daxil olmuşdur.*

Ümumilli lider Heydər Əliyev cənablarının təşəbbüsü ilə dövlət quluculuğunda, həmçinin hüquq yaradıcılığı sahələrində həyata keçirilən geniş miqyaslı islahatlar HMO-ın, o cümlədən gömrük orqanlarının fəaliyyətinin müasir beynəlxalq səviyyədə təşkil edilməsində mühüm rol oynamışdır Məhz onun nəticəsidir ki, gömrük orqanları dövlətimizin milli və iqtisadi təhlükəsizliyinin təmin edilməsində, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin və onların qanunsuz dövriyyəsinə qarşı mübarizədə fəal iştirak edir, onların fəaliyyəti nəticəsində hər il dövlət gömrük sərhədindən qaçalmalçılıq yolu ilə keçirilən dövriyyəsi qadağan olunmuş ictimai təhlükəli, xüsusi və strateji əhəmiyyət kəsb edən mal, əşya, maddələr aşkar olunur, yüzlərlə "qaçaqmalçılar" cinayət əməllərinə görə ifşa olunur.

Məsələn, 2015-ci ildə gömrük orqanları tərəfindən həyata keçirilən əməliyyat-axtarış və nəzarət rejim tədbirləri nəticəsində 574, o cümlədən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı 213 cinayət aşkar edilmiş və bu cinayətləri törətmiş 250 nəfər, o cümlədən 220 nəfər kişi, 30 nəfər qadın, 220 nəfər Azərbaycan vətəndaşı (o cümlədən 37 nəfər xarici vətəndaş – 33 nəfər İran İslam Respublikasının, 3 nəfər Ukrayna və 1 nəfər Rusi), cinayət məsuliyyətinə cəlb edilmiş, qanunsuz dövriyyədən xeyli miqdarda narkotik vasitə (tiryək, heroin, marixuana, həşiş, amfetamin və s) götürülmüşdür. Son illərdə cinayət törətmiş şəxslər arasında qadınların xüsusi çəkisinin artmasını qeyd etmək olar.

2012-ci ilin oktyabr ayında DGK-nin Biləsuvar Gömrük İdarəsinin GHQMŞ-nin əməkdaşları, əldə edilən əməliyyat məlumatı əsasında, GHQMBİ-nin Əməliyyat İdarəsinin əməkdaşları ilə yüksək peşəkarlıq səviyyəsində əməliyyat ustalığı nümayiş etdirməklə birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri (nəzarət qaydasında mal alınması) nəticəsində 46 kiloqram həşiş narkotik vasitə aşkar edərək götürülmüşlər və bu faktla bağlı 3 nəfər Azərbaycan vətəndaşı Cinayət Məcələsinin 206. 3. maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilmişdir.

Müstəqillik əldə etmiş dövlətimizin gömrük orqanlarının yaranma və fəaliyyət tarixi digər HMO ilə müqayisədə kiçik dövrü əhatə etməsinə baxmayaraq son illərdə onun əməkdaşları narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qaçaqmalçılığı ilə məşğul olan çoxlu sayda cinayətkar qruplaşmalarının ifşa edilməsinə nail olmuşlar.

Son illər ölkəmizin sərhədlərindən narkotik vasitələrin qaçalmalçılıq yolu ilə keçirilməsində çoxsaylı müxtəlif gizli üsullardan (daxili orqanlarda, mədə, uzun bağırsaq, cinsi orqanlarda, ağız boşluğunda, bədənin müxtəlif hissələrində; əl yükündə və baqajda-xüsusi hazırlanmış gizlənc yerlərində; nəqliyyat vasitələrinin müxtəlif hissələrində; müxtəlif makaron, qənnadı və konditer məmulatlarında; mülkü dövriyyəsi qadağan olunmayan malların adları altında zavod-fabrik üsulları ilə qablaşdırılmış halda; uşaq oyuncaqlarında; tikinti materiallarında və s) istifadə edirlər.

Transmilli cinayət qruplaşmalar daim bu üsulları HMO, o cümlədən gömrük orqanlarına məlum olmayan yeni üsullarla əvəz edirlər. Məhz ona görədə ölkəmizin gömrük orqanları bu üsulları müəyyən etmək məqsədi ilə müasir beynəlxalq təcrübədən istifadə edir, risklərlə bağlı məlumatların, həmçinin əməliyyat-axtarış və kəşfiyyat xarakterli əldə edilən məlumatların və mövcud əməliyyat şəraiti ilə bağlı vəziyyəti səciyyələndirən məlumatların təhlilinin nəticələrini nəzərə alaraq müvafiq tədbirlər həyata keçirir, nəzarət rejim formaları tətbiq edir, habelə müasir texniki vasitələrindən istifadə edirlər[1].

*2 sentyabr 2012-ci ildə HNBGİ-nin Əməliyyat İdarəsinin əməkdaşları tərəfindən həyata keıirilən əməliyyat-axtarış tədbirləri nəticəsində Sloveniya dövlətinin vətəndaşında 3 kq. 130 qr. amfetamin aşkar edilərək götürülmüşdür. Bu faktla bağlı həyata keçirilın sonrakı əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı*

---

[1] Ölkəmizin HMO-ın orqanlarının keçirdikləri uğurlu əməliyyatlara dair çoxsaylı misallar göstərmək olar (HMO-ın məlumat bülletenlərindən, internet saytlarından və s.).

*şəhərində yerləşən mənzillərin birindən əlavə olaraq 5 kq. 259 qr. amfetamin aşkar edilərək götürülmüşdür.*

**8 avqust 2014-cü il tarixində Tovuz Gömrük İdarəsinin "Sınıq Körpü" gömrük postunda Azərbaycan Respublikasından tranzit keçməklə İran İslam Respublikasından Gürcüstana gedən Türkiyə Respublikası vətəndaşının idarə etdiyi yük avtomobilinə keçirilmiş gömrük baxışı zamanı qoşqunun içərisindəki döşəmənin altı boyu xüsusi düzəldilmiş taxta lövhənin altında gömrük nəzarətindən gizlədilmiş 116 bağlamada 69 kq. 610 qr.yaxın heroin narkotik vasitəs aşkar edilərək götürülmüşdür.**

**Qeyd etmək lazımdır ki, narkotikin sonradan (Ukrayna-Polşa-Almaniya marşrutu üzrə) son təyinat məntəqəsi kimi Niderland Krallığına daşınması planlaşdrılırdı**.

Dövlət Gömrük Komitəsinin Gömrük Sahəsində Hüquqpozmalara qarşı Mübarizə Baş İdarəsinin Əməliyyat İdarəsinin Hədəf Mərkəzindən boş nəqliyyat vasitəsinin şübhəli hərəkət marşrutu barədə daxil olmuş məlumata əsasən, 08.08.2014-cü il tarixdə saat 10:00 radələrində "Sınıq Körpü" gömrük postunda Azərbaycan Respublikasının ərazisindən tranzit keçməklə İran İslam Respublikasından Gürcüstan Respublikasına gedən, Türkiyə Respublikası vətəndaşı Ateş Rifatın (pasport TUR U05819934) idarə etdiyi "DAF FT XF 95.480" markalı KİK153 / QQ126 dövlət nömrə nişanlı yük avtomobilinə GHQM şöbənin əməkdaşları tərəfindən gömrük nəzarəti zamanı yoxlanılmışdır. Yoxlama zamanı nəgliyyat vasitəsinin qoşqusunun döşəməsi sökülərək qaldırıldıqda onun altında boşluğun olduğu yerdə 116 (bir yüz on altı) ədəd dördkünc formalı polietilen bükümlərin olduğu aşkar edildi. Daha sonra bükümlərin daxilinə baxış keçirilmiş və onların daxilində toz şəklində, açıq qəhvəyi rənqli maddənin olduğu aşkar olunmuşdur. Aşkar edilmiş açıq qəhvəyi rənqli maddənin narkotik vasitələrə aid olub olmamasını müəyyən etmək məqsədilə "Sınıq Körpü" gömrük postunun texniki balansında olan "Narcotics İdentifikation Systems" ekspress-narkotesterdən keçirilmiş və testin

göstəricilərinə əsasən həmin maddənin "HEROİN" narkotik maddəsi olması barədə təsdiedici nəticə əldə edilmişdir.

**2016-cı ilin mart ayında DGK-nin Xaçmaz Gömrük İdarəsinin əməkdaşları Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi DAF markalı avtomaşın liə Azərbaycandan tranzit qaydada keçməklə tranzit yük bəyannaməsi ilə bəyan edilən 17 ton 800 kq. çəkidə "kişmiş" yükünü İran İslam Respublikasından Ukraynaya apararkən Samur gömrük postunun terminalında stasionar-rentgen qurğusundan keıirilən zaman, onun yük hissəsində, digər əşyaların olmasına dair şübhəli görüntülərin mövcud olmasını nəzərə alaraq, nəqliyyat vasitəsinin yük hissəsinə baxış keçirilmiş və onun nəticəsində "kişmiş" qablaşdırılmış 1800 ədəd karton qutuların 114 ədədinin daxilində sellafan paketlərində yerləşdirilmiş və üzərinə qırmızı istiot səpələnmiş, düzbucaqlı formalı bağlamalarda 487 kq. yaxın heroin aşkar etmişlər.**

*Astara Gömrük İdarəsi Gömrük Hüquqpozmalarına Qarşı Mübarizə Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən ƏAT nəticəsində əldə edilən məlumatlarıa əsasən Belarus Respublikası vətəndaşı Kuzmin Aleksandr Antonoviç idarə etdiyi "Volvo" markalı, M737KP60/T3072 nömrəli yük nəqliyyat vasitəsilə Azərbaycan Respublikasından tranzit keçməklə 00136 saylı CMR və XQ76782343 saylı Carnet TİR-lə bəyan edilən 1997 ədəd, 20200 kq çəkidə"kişmiş" yükünü İran İslam Respublikasının "Seyed Jafar Mousavi Co" şirkətindən Belçika Respublikasının "Fort Leper B.V.B.A." şirkətinin ünvanına apararkən, 16.04.2016-cı il tarixdə saat təqribən 21 radələrində Astara Gömrük İdarəsinin Skanlaşdırma şöbəsində "HCVG" markalı stasionar rentgen qurğusundan keçirilmiş, qoşquda olan "kişmiş" yükünün arasında əks olunmuş görüntüdəki dördkünc qaraltılar şübhə doğurduğundan, yükə fiziki baxış keçirilməsi qərara alınmış, lakin iş gününün sonu olduğundan nəqliyyat vasitəsi idarənin həyətində gömrük nəzarəti altında saxlanılmışdır. 17.04.2016-cı il tarixdə saat təqribən 09:30 radələrində nəqliyyat vasitəsində olan kişmiş*

*yükünə "Dik" ləqəbli kinoloji xidmət itini tətbiq etməklə baxış keçirilmiş və xidməti it xüsusi işarə ilə yükün şübhəli olduğunu təsdiqləmişdir. Daha sonra baxış zamanı T3072 nömrəli qoşqudakı 1997 ədəd karton qutular bir-bir boşaldılaraq "Heimann" markalı rentgen aparatından keçirilmiş və onlardan 100 ədədinin içərisində görüntülərə əsasən kişmişlə birlikdə kişmişdən fərqli olan maddələrin olduğu məlum olmuşdur. Daha sonra həmin 100 ədəd karton qutular açıldıqda onların hər birinin daxilində 20 (iyirmi) ədəd 450 qr-lıq üzərində "İlkin Sultan Risins"yazılımış kiçik kişmiş qutularının yığıldığı aşkar olunmuşdur. Qutuların daxilinə bir-bir baxış keçirilərək müəyyən edilmişdir ki, onların daxilində şəffaf rəngli polietilenə qablaşdırılmış kişmişlə birlikdə gömrük nəzarətindən gizlədilmiş narkotik vasitə heroinə oxşar maddələr də yığılmışdır. Baxışın nəticəsinə uyğun olaraq müəyyən edilmişdir ki, cəmi 1000 ədəd 450 qr-lıq üzərində "İlkin Sultan Risins" yazılı kişmiş qutularında kişmiş əvəzinə şəffaf polietilen torbalara qablaşdırılmış narkotik vasitə heroinə oxşar maddələr eyni qəbildən olan malların arasında gömrük nəzarətindən gizlədilmişdir.*

**Nəzərə almaq lazımdır ki, 2016-cı ilin bir ayi ərzində ölkəmizinin gömrük orqanları tərəfindən həyata keçilirən uğurlu əməliyyatlar nəticəsində 2 faktla bağli bir tona yaxın narkotik vasitə-heroin aşkar olunaraq qotürülmüşdur**.

Bu faktla bağlı həyata keçirilən ilkin araşdırmaların nəticələri nəzərə alınaraq qeyd edilən cinayətkar qruplaşmaların aşkar edilib ifşa edilməsi məqsədi ilə müvafiq istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri təşkil edilib keçirilməsi planlaşdırılıb həyata keçirilir.

*Qeyd etmək lazımdırki belə araşdrılmalarda (ibtidai istintaq mərhələsində) İİR və Belçika dövlətlərinin müvafiq HMO ilə qarşiliqli əməktaşlığının beynaxalq hüquqi münasibətlər çərçivəsində operativ həyata keçirilməsi, cinayətkar qruplaşmaların ifşa edilməsində və ölkəmizə narkotik vasitələrin qanunsuz gizli idxal kanallarına sipər qoyulmasında mühum rol oynayır. Məhz ona görə də belə faklarla bağlı araşdırmalarda İnterpolun*

*imkanlarından(o cümlədən DİN –in MMB-nin) istifadə edilməsi zəruri hesab edilir(bu məsələlərə dərs vəsaitini VIII,IX,XIII,XVI və XVII Bölmələrində toxunulmuşdur).*

Bu cür faktlarla bağlı araşdırmaların konkret məqsəd və vəzifələrinə, həmçinin həyata keçirilməsi zəruri olan istintaq hərəkətləri və ƏAT-ə dair məsələlərin elmi-nəzəri hüquqi təcrübi və problemli aspektlərinə dərs vəsaitinin VIII-IX, XIII, XVI, XVII bölmələrində ətraflı toxunulmuşdur.

Transmilli cinayətkar qruplaşmaların ifşa edilməsində əsas problemlərdən biri ondan ibarətdir ki, bir sıra dövlətlərlə (İran, Əfqanıstan və s.) bu kateqoriyadan olan cinayətlərə qarşı mübarizə sahəsində hüquqi yardım və hüquqi münasibətlərə dair iki, çoxtərəfli müqavilələr indiyədək imzalanmayıb, real informasiya mübadiləsi lazımi səviyyədə deyil. Bunun da bir sıra obyektiv və subyektiv səbəbləri əsasən həmin ölkələrin üzərinə düşür.

Belə bir mühüm amili də nəzərə almaq lazımdır ki, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan bu və ya digər beynəlxalq əlaqələri olan mütəşəkkil cinayətkar qruplaşmaların ifşa edilməsi əsas etibarı ilə ölkəmizin hüquq mühafizə orqanlarının qüvvə və imkanlarından istifadə edilməklə və əsas etibarı ilə ölkə daxilində həyata keçirilən tədbirlərlə məhdudlaşır. Bunu cinayət işlərinin materialları təsdiq edir. Məhz bunun nəticəsidir ki, narkotikləri ölkəyə göndərən daha təhlükəli, böyük və əsas cinayətkar qruplaşmalar ifşa edilməmiş olaraq qalır və öz cinayətkar fəaliyyətini davam etdirir.

Qeyd edilən çətinliklərə və problemlemlərə baxmayaraq DGK və digər HMO səyləri, həyata keçirdikləri mürəkkəb, kompleks, peşəkar və kəsəli tədbirlər nəicəsində transmllli cinayətkar qruplaşmalara qarşı mübarizədə müəyyən uğurlu nəticələr əldə olunmuşdur.

**DGK-nin HNBGİ və regional gömrük idarərinin əməkdaşları tərəfindən 2010-ci ildə həyata keçirilən əməliyyat-axtarış və gömrük nəzarəti rejim tədbirləri nəticəsində qanunsuz dövriyədən 17 kq. 272 qr. amfetamin götürurmuş və**

**bu faktlarla bağlı 15 nəfər(7nəfər ölkə və 8 nəfər İİR vətandaşı) cinayət məsuliyyətinə cəlb edilmişdir.**

İstintaq materiallarina və həyata keçirilmiş ƏAT-in nəticələrinə əsasən amfetaminlərin əsas etibari ilə İİR-dan bir sıra istiqamətlər üzrə (Tehran-Baki-Moskva-Bankok; Tehran-Bakı-İstambul-Kaula-Lampur; Bakı-İstanbul-Kaula- Lampur və s.) gizlə yolla daşınmasi müəyyən edilmışdır. Sözsuz ki, bu növ cinayətlərin təbii latentlik dərəcəsini və transmilli mütəşəkil xarakter daşımasini nəzərə alsaq reallıqda (onların rəsmistatistika oz əksini tapmayan) daha çox sayda törədilməsini etiraf etmək olar.

**Aparılan araşdırmaların nəticələri göstərir ki, ölkəmizin ərazisindən narkotik vasitələr müxtəlif qaçaqmalçılıq istiqamətlərində (marşutları ilə) və üsullarla keçirilə bilər. Məsələn, 2010-ci ildə amfetaminlərin qanunsuz dövriyəsi ilə bağlı aşkar olunmuş 11 fakt üzrə onların ünvanlandiğı son məntəqə kimi Malaziya və Tayland meəyyən edilmişdir. Bu cinayətləri törədən mutəşəkkil cinayətkar qruplaşmalar narkotik vasitələrin keçirilməsində əsas etibari ilə hava, avtomobil və bəzi hallarda isə dəmir yol nəqliyyat vasitələrindən istifadə etmişlər. Qeyd edilən cinayətlərdə narkokuryer qismində ölkəmizin vətəndaşları da cəlb edilmışlər. 2009-2010-cu illər ərzində Azərbaycan Respublikasının gömrük orqanlarının tərəfindən ölkəmizin ərazisindən narkotik vasitələrin qacaqmalçılıq yolu ilə keçirilib digər ölkələrə daşınmasi ilə məşgul olan bir sıra cinayətkar qruplaşmalar aşkar olunaraq ifşa edilmişdır, o cümlədən heroini Çinə daşınmasi ilə bağlı qaçaqmalçılıq kanali müəyyən edilmışdir**.

DGK-nin digər HMO ilə birgə keçırdiklıri tədbirlər nəticəsində qanunsuz dövriyədən böyük miqdarda heroin və digər narkotik vasitələr aşkar olunaraq göturmüşdür və 20 nəfərdən ibarət transmilli mütəşəkkil cinayətkar qruplaşmalların üzvləri həbs edilərək məhkum olunmuşdur.Bu cinayətkar qruplaşmaların tərkibi, qaçaqmalçılıqda vasitəçi (narkokuryer), cinayət əlaqələrin

yaradilması, yardimçı və s. qismində iştirak edən və tranzit məqsədlər üçün Rusiyanın, Türkiyənin, Gürgustanın, Niqeriyanın ,Azərbaycannın, Litvanın, Malinin, Qananın və, Ukraynanın (8 nəfər qadın) vətandaşlarından ibarət idi.

**Narkotik vasitələrin qaçaqmalçıiq kanallarının biri də beynaxalq poçt göndərişləridir. Belə ki, 2010-cu ildə gömrük orqanaları tərəfindən keçirilən əməliyyat-axtarış və gömrük rejim tədbirləri nəticəsində 18 fakt üzrə 24 poçt göndərişində bu faktlar üzrə 47kq.658qr. narkotik vasitə(31kq. 285 qr. tirlyək,16 kq. 373qr. heroin) aşkar edilmişdir. Bu faktlarla bağlı cinayətkarlardan "Makarov"markali tapanca, cinayətlərin törədirilməsində istifadə edilən müxtəlif əşyalar (elekron çəkisi, rəsm və şəkil ramkaları, müxtəlif elektrik cihaz və qurquları, drel, kley, folqa və s.) götürurmüşdur.Həyata keçirilən istintaq hərəkətləri və ƏAT-in nəticəsində müəyyən edilmişdirki qeyd edilən əşyalar cinayətlərin törədilməsində istifadə edilmişdir. Həyata keçirilən sonrakı istintaq hərəkətləri və ƏAT tədbirlər nəticəsində müəyyən edilmişdirki, narkotik vasitələr Azərbaycana İrandan gətirilmışdır və daha sonra isə onların ölkənin digər şəhərlərindən port göndərişləri vasitəsi ilə son məntəqə olan Kanada, İsveç və Yunanisdana göndərilməsi planlaşdılırdı. Gömrük orqanlarının tərəfindən davam etdirilən ƏAT və istintaq hərəkatları nəticəsində müəyyən edilmışdir ki, 2010-ci ildə belə poçt göndərişləri həmçinin İsveçrəyə, Norveçə, Danimarkaya və Albaniyaya da göndərilmişdir.Bununla yanaşı müəyyən edilmışdir ki, bu cinayətləri təşkil edənlər əsasən İİR və digər xarici dovlətlərin vətandaşlarından ibarət (ölkəmizin vətəndaşları cəlb edilməklə) transmilli cinayətkar qruplaşmalardır.Poçt göndərişlərinin Kanadanın cənub hissəsində yerləşən ABŞ-la sərhədə yaxın yaşayış məntəqələrinə göndərildiyini nəzərə alaraq onların sonradan ABŞ-a da göndərilməsi ehtimalını istisna etmək düzgün olmazdı**.

Dövlət Gömrük Komitəsi tərəfindən Ümumdünya Gömrük Təşkilatının 2005-ci ilin iyun ayında qəbul etdiyi və dünya gömrük xidmətləri qarşısında yeni müasir tələblər formalaşdıran çərçivə standartları haqqında Qətnamənin müddəalarının həyata keçirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Bu standartlara təchizat zəncirinin kompleks idarə edilməsi, yükə baxış keçirmək hüququ, baxış avadanlıqlarında müasir texnologiyaların tətbiqi, riskləri idarəetmə sistemləri, yüksək riskli yük və ya konteyner, ilkin elektron məlumatı, məqsədli seçim və kommunikasiya, səmərəlilik göstəriciləri, təhlükəsizliyin dəyərləndirilməsi, işçi heyətinin mənəvi və etik keyfiyyətləri və göndərişlər zamanı təhlükəsizlik məqsədilə keçirilən baxışlar daxildir.

Daha çox narahatlıq doğuran səbəblərdən biri də ondan ibarətdir ki, narkotik vasitələr İrandan erməni qəsbkarlarının mütəşəkkil cinayətkar qruplaşmaları tərəfindən Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ Muxtar Vilayətinə, oradan Ermənistana və daha sonra isə Avropaya daşınır. Nəzər almaq lazımdır ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin İranla sərhəddinin uzunluğu 123 kilometrdir.

Azərbaycanda narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə dövlətin əsas vəzifələrindən biri kimi rəsmi hüquqi mənbələrində bəyan edilmiş və bu istiqamətdə fəaliyyətdə hüquq mühafizə orqanları, digər dövlət orqan və müəssisələri, ictimai təşkilatları fəal iştirak edir.

Problemin qloballığını və cəmiyyət üçün böyük təhlükəsini nəzərə alaraq son illərdə ölkəmizdə dövlət səviyyəsində beş illik müddəti əhatə edən bir neçə dövlət proqramları qəbul edilmişdir. Bu proqramlarda ölkənin bütün dövlət orqanları, ictimai təşkilatları qarşısında konkret vəzifələr qoyulmuş və onların icrası ilə bağlı tədbirlər öz əksini tapmışdır. Qeyd edilən tədbirlər təşkilati idarəçilik, hüquqi, sosial-iqtisadi, maariflənmə, mənəvi-psixoloji və profilaktiki mahiyyətə malikdir.

Bizim zənnimizcə, 9 avqust 1994-cü ildə Heydər Əliyev tərəfindən imzalanmış "Cinayətkarlığa qarşı mübarizənin

gücləndirilməsi, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi" haqqında Fərman müasir dövrün tələblərinə müvafiq olaraq cinayət və cinayət prosessual qanunvericiliyin, həmçinin hüquq-mühafizə fəaliyyətinin təkmilləşdirilməsinin və əsaslı hüquqi islahatların təşkilinin başlanğıcını və təməlini təşkil edir. 26 avqust 1996-cı il tarixli "Narkomanlığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirləri haqqında" Prezident Fərmanını isə dövlət orqanları və ictimai təşkilatların fəaliyyətinin strateji istiqamətlərini müəyyən edən əsas normativ hüquqi akt kimi dəyərləndirmək olar. Məhz bu fərmanla qeyd edilən sosial bəla ilə mübarizə dövlətin əsas vəzifələrindən biri kimi bəyan edilmişdir. Məhz bu fərmanın müddəaları rəhbər tutularaq narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı dövlət Komissiyası yaradıldı, onun əsasnaməsi təsdiq edildi və bu sosial bəlaya qarşı mübarizə məqsədilə ümummilli proqramlar qəbul edildi.

Daha sonra isə 18 iyun 1996-cı ildə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" qanun qəbul edildi. Bu qanunun tədbiqi ilə bağlı təcrübənin nəticələri, onun müddəalarında olan qüsurlar, beynəlxalq təcrübə, həmçinin BMT-nin antinarkotik qanunvericiliyinin müdəaları nəzərə alınaraq 28 iyun 2005-ci ildə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" yeni qanun qəbul edildi. Bundan sonra isə müxtəlif illərdə narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarına qarşı mübarizə istiqamətində 50-dən çox normativ-hüquqi aktlar (qanunlar və qanun qüvvəli normativ aktlar) qəbul edildi. Bir sözlə, milli antinarkotik qanunvericilik formalaşdırılaraq onun fundamental bazası yaradıldı.

Onların bir qismi əlavə və dəyişikliklər edilməklə təkmilləşdirilmiş, digərləri isə yeni qəbul edilmiş normativ aktlarla əvəz edilmişdir.

**DİN-in BNMİ-in əməkdaşları tərəfindən həyata keçirilə ƏAT nəticəsində Türkiyə respublikasının vətandaşında**

**“bonzay” adı kimi tanınan “JWH-22” və “JWH-210” narkotik təsirə malik maddə aşkar edilmişdir. Həmçinin DGK-nin əməkdaşları tərəfindən həyata keçirilən ƏAT nəticəsində qeyri-leqal dövriyədən 15 kq. çox “5Ф-48” və “УР-144”(fenil-sianids 2,4,6 trisoproyl) kimyəvi birləşmə cıxarılmışdır. Əldə edilən əməliyyat məlumatlarına görə transmilli mütəşəkkil cinayətkar qruplaşmalar qeyd edilən, güclü narkotik təsirə malik olan bu maddələri Rusiya Federasiyasından Azərbaycana gətirib onların satışını təşkil etmək niyyətlərinə nail olmağa çalışırlar.**

*Lakin son illərdə dünyada “narkotik vəziyyətin” təhlilinə dair beynaxalq ekspertlərin çıxardığı nəticələr, bü növ cinayətlərə qarşı milli və beynaxalq materiallar təstiq edir ki, qeyd edilən sintetik maddələrin dairəsi davamlı olaraq artır. Bu növ narkotik təsirə malik olan, insan hətat və sağlamında ağır fəsadlara səbəb olan maddələr (“AH-7921”, AM-2201”,5F-AKB-48”,”JWH-015, metilon, beta-keto-MDMA, Metedron və s.) Azərbaycan Respublikasının 28iyun 2005-ci il tarixli 961-II QD nömrəli, 28 iyun 2005-ci il tarixli 960-II QD nömrəli və s. qanunlarında dövriyəsi qadağan olunan, məhudlaşdırılan və cinayət məsiliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların küllü miqdarına dair siyahılara daxil edilməmişdir.Qeyd edilən güclu narkotik təsirə malik olan, süni yolla əldə olunmuş bu maddələrin bir qismi Risiya, Yaponiya, İngiltərə və sayr dövlətlərin qanunvericiliyində nəzərdə tutulub və ona görədə bu maddələrin qanunsuz dövriyəsi ilə məşqul olan şəxslərin cinayət məhsuliyatinə cəlb edilməsi üçün hüquqi baxımdan heç bir problem yaranmır. Lakin ölkəmizin HMO bu gün də belə problemlərlə üzləşir.*

**Bu qeyd edilənləri, beynəlxalq təşkilatların və qurumların (BMT, AS ,İNTERPOL və s.) tövsiyələrini, bü nov cinayətlərə qarşı təcrübənin nəticələrini nəzərə alaraq və Azərbaycan Respublikasının Prezidentinin 24 iyun 2013-cu il tarixli Sərəncamı ilə təstiq edilmiş “Narkotik vasitələrin,psixotrop maddələrin və onların prekusorlarının qanunsuz dövriyəsinə və**

**narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramından" irəli gələn vəzifələri rəhbər tutaraq adiyyatı dövlət orqanlarının (DİN, DGK, DTX,digər nazirlik, komitələr və s.) rəyləri və təklifləri əsasında qeyd edilən qanunvericilik aktlarında müvafiq əlavə və dəyişiklərin edilməsi məqsədi ilə konkret qanun layihələri hazırlanmışdır və onlarin baxılması, müzakirə edilib təstiq edliməsi məsəllərinin həlli ilə bağlı, qanunvericilik təşəbbüsü qaydasına, müvafiq olaraq Milli Məclisə təqdim edilmışdir. Bü nov tədbirlərin əsas məqsədi dövlətimizim təhlükəsizliyinin, insan həyat və sağlamliğının qorumasına xidmət edir**.

Azərbaycan dövləti BMT-nin "Narkotik vasitələr haqqında" 1961-ci il, "Psixotrop maddələr haqqında" 1971-ci il, "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" 1988-ci il tarixli konvensiyalarına qoşulmuş, bu istiqamətdə xarici dövlətlərlə dövlət başçıları, hökümət, hüquq-mühafizə orqanları rəhbərləri səviyyəsində çoxsaylı ikitərəfli və çoxtərəfli saziş, müqavilə və protokollar imzalanmışdır.

Ölkəmizin hüquq-mühafizə orqanları narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin təşkili və taktiki, profilaktiki, psixoloji məsələlərinin tənzimlənməsi ilə bağlı normativ aktların hazırlanması istiqamətində davamlı tədbirlər həyata keçirirlər. Lakin etiraf etmək lazımdır ki, bu istiqamətdə həyata keçirilən işlərin vəziyyəti tam həcmdə müasir tələblərə cavab vermir və bu sahədə idarədaxili və idarələrarası yeni normativ aktların hazırlanmasına ehtiyac duyulur.

Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanunun 8 və 9-cu maddələrinin müddəalarının tələblərinə müvafiq olaraq "Ümummilli Məlumat Bankı" və "Milli İnformasiya Mərkəzi" yaradılmışdır.

DİN, MTN, DGK-nin sistemlərində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə məqsədi ilə funksional vəzifələri fərqli olan, təkrarlan-

mayan və müasir tələblər nəzərə alınmaqla müvafiq strukturlar yaradılmışdır. Sözsüz ki, ölkənin yeni təsis edilmiş xüsusi xidmətlərinin fəaliyyətində bu istiqamətdə təşkilati tədbirlər öz əksini tapacaqdır.

1998-ci ildən başlayaraq Azərbaycanda BMT-nin narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə nəzarət üzrə müxtəlif qurumların və xarici dövlətlərin geniş nümayəndələrinin iştirakı ilə bir çox tədbirlər (sessiya, elmi-praktiki konfrans, treninq, seminar və s.) keçirilmişdir və onlarda bu sahədə olan vəziyyət və problemlər geniş müzakirə predmeti olmuşdur.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əsas amillərdən biri ümumilikdə hüquq-mühafizə orqanlarının, xüsusi ilə də bu növ cinayətlərə qarşı mübarizə üzrə ixtisaslaşan qurumların əməkdaşlarının yüksək peşə hazırlığına malik olmasıdır. Bu sahədə fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının əməkdaşları narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə dair milli və beynəlxalq qanunvericiliyin müddəalarına, zəruri nəzəri biliklərə yiyələnməklə yanaşı, onları təcrübədə yaradıcılıqla, yüksək əməliyyat ustalığı ilə tətbiq etmək bacarıq və vərdişlərə malik olmalıdırlar.

Məhz ona görə də kadr hazırlığı dövlət proqramlarında, hüquq-mühafizə orqanlarının peşə hazırlığı ilə bağlı fəaliyyət planlarında və onların ali təhsil ocaqlarının (polis, gömrük akademiyaları və s.) tədris proqramlarında əhatə edilir.

Ölkəmizin hüquq-mühafizə orqanlarının əməkdaşları BMT-nin və digər beynəlxalq təşkilatların müvafiq proqramları çərçivəsində digər dövlətlərin tədris müəssisələrində və hüquq-mühafizə orqanlarında elmi-praktiki konfranslara, treninq, təlim və seminarlara cəlb edilir, qarşılıqlı təcrübə mübadiləsində iştirak edirlər, yeni qabaqcıl təcrübə və biliklərlə bəhrələnirlər.

Dünya dövlətlərinin birgə səyinə baxmayaraq, real vəziyyətin təhlilinin nəticələri göstərir ki, narkomanlığın və narkotik vasitələrin qanunsuz dövriyyəsinin bəşəriyyət üçün təhlükəsi azalmır, həmçinin bu hüquqa zidd əməllər milli və beynəlxalq terrorozm, ekstremizm, transmilli cinayətkarlıq, digər sosial-

təhlükəli hadisələrlə əlaqəlidir və onlar üçün qidalandırıcı mühit rolunu oynayır.

Bütün bunlar bir daha təstiq edir ki, bu sosial təhlükəli hadisələrə qarşı mübarizədə bütün dövlətlərin təşkilati-idarəçilik, hüquqi, maddi, sosial, psixoloji resursları yüksək dərəcədə səfərbər edilməli və daim təkmilləşdirilməlidir.

**Bizim zənnimizcə bu sahədə fəaliyyət aşağıdakı istiqamətlərdə təkmilləşdirilməlidir:**

* antinarkotik qanunvericilik müasir tələblərə müvafiq olaraq təkmilləşdirilməli və onun səmərəli tətbiqi təmin edilməlidir;

* antinarkotik qanunvericiliyin, ümummilli proqramların real maddi-texniki təminatının müəyyən edilməsi və ona ayrılan maliyyə vəsaitlərinin xərclənməsinə dövlət və ictimai nəzarətin təmin edilməsi;

* bu cinayətlə qarşı mübarizə üzrə ixtisaslaşan əməkdaşların (əməliyyat işçilərinin) fəaliyyətinin nəticələrinin qiymətləndirmə meyarlarının müasir tələblərə əsasən konkretləşdirilməsi və onların fəaliyyətinin maddi təminatının stimullaşdırılması qaydalarının beynəlxalq təcrübəyə əsaslanaraq müəyyən edilməsi;

* narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə birgə əməliyyatların keçirilməsinə dair idarələrarası münasibətləri tənzimləyən normativ aktların və tövsiyələrin hazırlanması;

* mütəşəkkil və transmilli cinayətkar qruplaşmalara qarşı mübarizə üzrə əməkdaşların bilik və peşə vərdişlərinə yiyələnməsi məqsədi ilə yüksək dərəcədə reallığa yaxın şəraitlərdə müxtəlif növ təlimlərin həyata keçirilməsi və nəticələrinin təhlili;

* milli və beynəlxalq səviyyədə mövcud olan müasir təcrübi materialların öyrənilməsi və yerli şəraiti nəzərə almaqla tətbiq edilməsi;

* əməliyyat aparatlarının müasir kriminalistik və əməliyyat-texniki vasitələrlə təmin edilməsi;

* əməliyyat-axtarış tədbirlərinin nəticələrinin sənədləşdirilməsi və cinayət prosesində istifadə edilməsinə dair Ədliyyə Nazirliyi

ilə razılaşdırılmış idarələrarası (ƏAF-ın subyektləri) normativ aktın hazırlanması və tətbiqi və s.

* narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı əməliyyat məlumatlarının idarələrarası mərkəzləşdirilmiş informasiya sisteminin yaradılması və istifadə edilməsi qaydalarını (mütəşəkkil cinayətkar qruplaşmalara dair məlumatlar daxil olmaqla) müəyyən edən normativ aktın hazırlanması;

* İnterpolun Azərbaycan Mərkəzi Milli Bürosunun hüquq-mühafizə orqanlarının qeyd edilən cinayətlərə qarşı mübarizə üzrə ixtisaslaşan xidmətləri ilə qarşılıqlı informasiya mübadiləsinin təkmilləşdirilməsi və s.

* Narkomanlığa qarşı mübarizədə qəbul edilən dövlət proqramlarının maliyyə təminatının təhkimləşdirilməsi və icrasının təmin edilməsi;

* Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi sahəsində milli və beynəlxalq qanunvericiliyin narkotik vəziyyətə adekvat olaraq təkmilləşməsi, bu istiqamətdə qanunvericiliyin icra mexanizmində olan problemlərin həlli;

* Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizədə hüquq-mühafizə orqanlarının əməliyyat-axtarış fəaliyyətinin maliyyə təminatının beynəlxalq təcrübəyə uyğunlaşdırılması;

* Hüquq-mühafizə orqanlarının əməliyyat aparatlarının ümumiləşdirilmiş əməliyyat xarakterli məlumatlar bazasının yaradılması və onlardan istifadə edilməsi mexanizminin işlənib hazırlanması;

* Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində ixtisaslaşmış əməliyyat aparatlarına xidmətə seçilmə qaydalarının beynəlxalq təcrübəyə əsaslanaraq müəyyən edilməsi ;

Narkomanlığa, narkotik vasitələri və psixotrop maddələrin maddələrin qanunsuz dvrüyyəsinə qarşı mübarizə üzrə real və-

ziyytə müvafiq, elmi və təcrübi baxımdan əsaslandırılmış xüsusi maarifləndirə (kompleks və sistem səciyyəli) proqramın hazırlanıb tətbiq edilm əsi və s.

# III BÖLMƏ

## NARKOTİKLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ İLƏ BAĞLI CİNAYƏTLƏRİN QARŞISININ ALINMASI VƏ AÇILMASININ ÜMUMİ MÜDDƏALARI

Azərbaycan Respublikasının ərazisində 1988-ci ildən başlayaraq, narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin dinamikasında əsas etibarilə artma meyli müşahidə olunur (1988-ci ildə 436, 1995-ci ildə 2827, 2003-cü ildə 2053, 2013-cü ildə 2709, 2015-ci ildə isə 2935 cinayət qeydə alınmışdır). Cinayətkarlardan götürülmüş narkotik vasitələrdən marixuana, tiryək və heroin üstünlük təşkil edir(ətraflı Əlavə 3-ə bax). Bu cinayətlərə görə cinayət məsuliyyətinə cəlb olunan əcnəbi şəxslər arasında İİR, RF, Gürcüstan və s. dövlətlərin vətəndaşlarının xüsusi çəkisi daha yüksəkdir. Cinayətlərdə iştirak edən şəxslərin sosial dairəsi genişlənir (ziyalılar, vəzifəli şəxslər, HMO-ın əməkdaşdaşları, asan qazanc əldə etmək niyyətləri olan, həmçinin zəif iradəli müxtəlif kateqoriyadan olan şəxslər və s.). Bu cinayətlər üzrə latentlik digər cinayətlərlə müqayisədə daha yüksəkdir. Nəzərdən keçirilən cinayətlərin kriminoloji, əməliyyat-taktiki xarakteristikası BTİİ, BNMİ-nin icmalları, arayışları, DİN-in, DGK-nin və digər HMO-ın müvafiq kollegiya iclaslarının qərarlarının materiallarında və s. daha geniş verilir.

Dünyada «ağ ölüm» adlanan narkomanlığa qarşı mübarizədə bütün ölkələrin sağlam qüvvələrinin səfərbər olunması çox vacibdir. Narkomanlıq cəmiyyət üçün dəhşətli bir bəla olub, genefondu məhv edən bir xəstəlikdir. Məhz bunu nəzərə alaraq, Azərbaycan dövlətində 26.08.1996-cı ildə «Narkomanlığa, narkotik vasitələrin qanun-

suz dövriyyəsinə qarşı tədbirlər haqqında» Prezident Fərmanı imzalanmış, 28.06.2005-ci ildə «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» daha təkmilləşdirilmiş yeni Qanun qəbul olunmuşdur. 15.06.2000-ci il tarixdə 2000-2006-cı illər üçün, 28.06.2007-ci il tarixdə 2007-2012-ci illər üçün, 24.06.2013-cü il tarixində isə 2013-2018-ci illər üçün Azərbaycan Respublikası Prezidentinin Fərmanları ilə «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramlar» təsdiq olunmuşdur. Bununla yanaşı, bu istiqamətdə münasibətlərin nizamlanmasına yönəlmiş bir sıra yeni qanunlar, Nazirlər Kabinetinin qərarları qəbul edilmiş və onlara müvafiq olaraq HMO-ın əmrləri verilmiş və icrası təmin edilir. DİN-in, DGK-nin, xüsusi xidmətlərin və digər hüquq mühafizə orqanlarının müvafiq əmrlərində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət əməllərinin qarşısının alınmasına yönəlmiş tədbirlər sistemi öz əksini tapmışdır.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə – qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları hazırlama, istehsal etmə, saxlama, daşıma, göndərmə və ya satma **(CM, mad. 234)**, bu vasitələri və maddələri talama və ya hədə-qorxu ilə tələb etmə **(CM, mad. 235)**, bu vasitələrin istehlakına təhrik etmə **(CM, mad. 236)**, qanunsuz olaraq narkotik xassəli bitkiləri kultivasiya etmə **(CM, mad. 237)**, tiryəkxanalar təşkil etmə və ya saxlama **(CM, mad. 238)**, reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma **(CM, mad. 239)**, güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi **(CM, mad. 240)**, qaçaqmalçılıq **(CM, mad. 206.2, 206.3, 206.4)** cinayətləri daxildir. Bu cinayətlərin obyektləri – əhalinin sağlamlığının təhlükəsizliyidir. Predmeti – narkotik vasitələr, psixotrop maddələr və prekursorlardır.

**Subyekti – CM-nin müvafiq maddələrinə müvafiq olaraq 14-16 yaşına çatmış anlaqlı şəxslərdir.**

**Narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin törədilməsi üçün səbəb və şərait yaradan amillər:**

- Bu cinayətlərə qarşı mübarizə sahəsində HMO arasında qarşılıqlı əməkdaşlıq münasibətlərini tənzimləyən idarələrarası normativ aktların olmaması, ”antinarkotik qanunvericiliyə” daxil olan mühüm normativ –hüquqi aktların rəsmi şərhlərinin olmaması;
- qanuni yolla tibbi istifadə üçün becərilən yağlı və tiryək xaşxaşının və çətənənin cənub növlərinin əkin sahələrinin mühafizəsinin təşkilində olan nöqsanlar;
- səhiyyə müəssisə və obyektlərində narkotiklərin saxlanması və istifadəsinin lazımi səviyyədə təmin edilməməsi;
- narkotik xassəli bitkilərin gizli əkini (kultivasiya) ilə mübarizənin səmərəli aparılmaması;
- narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin aşkar edilib, ifşa edilməsi ilə bağlı tədbirlərin müasir tələblərə müvafiq olaraq təşkil edilməməsi;
- narkotiklərin hazırlanması, satışı və istehlakı ilə məşğul olan şəxslərin aşkar olunması üçün əməliyyat mövqelərinin müasir tələblərə cavab verməməsi;
- aşkar olunmuş cinayətlər üzrə əsas mənbələrin, narkotiklərin ölkəyə gətirilməsi, daşınmasının əsas kanallarının müəyyən olunmaması və bu faktlar üzrə zəruri olan kompleks tədbirlərin həyata keçirilməməsi və s.
- HMO-ın bu növ cinayətlərə qaşı mübarizə üzrə ixtisaslaıan qurmlarına kadrların seçilib yerləşdirilməsində və peşə hazırlığında olan çatışmamazlıqlar.

**Narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin açılması, cinayətkar hərəkətlərin sənədləşdirilməsinin bəzi istiqamətlərinə aşağıdakıları aid etmək olar:**

*1. narkotikləri istehlak edən şəxslərdən onu istehsal edən şəxslərin «zəncirvari» (istehlakçı – xırda miqdarda satan – satışı təşkil edən – topdan alıb-satan – istehsalçı) üsulla müəyyən olunması məqsədilə həyata keçirilən əməliyyat-axtarış tədbirləri («ƏAF haqqında» Qanunun 10-cu maddəsinin I hissəsinin 1-18-ci bəndlərində və CPM-in 445.1.5 maddəsində qeyd edilən tədbirlər keçirməklə);*

*2. narkotik xassəli bitkilərin becərilməsi ilə məşğul olan şəxslərin aşkar olunması (bu istiqamətdə tədbirlərə məxfi əməkdaşlar, HMO-ın xidmət, hissə və bölmələrinin əməkdaşları, sahə müvəkkilləri, yerli icra orqanlarının əməkdaşları, vətəndaşlar və s. cəlb olunurlar);*

*3. tibb müəssisəsi və obyektlərində narkotiklərin saxlanması, istifadə edilməsi və satışına buraxılmış şəxslərin yoxlanması ilə əlaqədar keçirilən tədbirlər;*

*4. narkotiklərin daşınma kanallarının, nəqliyyat vasitələrində, poçt rabitə bölmələrində onların saxlanması və daşınması ilə bağlı gizli yerlərin hazırlanması, maskalanma üsullarının aşkar edilməsi ilə bağlı görülən tədbirlər;*

*5. istehsalçı və satıcılar arasında olan telefon danışıqlarının, teleqraf, poçt əlaqələrinin, onların görüş yeri və vaxtının müəyyən edilməsi ilə bağlı keçirilən tədbirlər;*

*6. narkotiklərin satışının müşayiət olunması, nəzarətli göndəriş və nəzarət qaydasında mal alınması tədbirlərinin keçirilməsi yolu ilə cinayət hərəkətlərinin sənədləşdirilməsi;*

*7. narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətləri hazırlayan və törədən şəxslərin əməliyyat yolu ilə tədqiq edilməsi, cinayətkar hərəkətlərin ƏAT həyata keçirməklə aşkar edilib sənədləşdirilməsi və bu materialların cinayətlərdə şübhəli olan şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün cinayət prosesində istifadə olunmasının təmin olunması.*

Qeyd edilən cinayətlərin yüksək latentliyə malik olmasını nəzərə alaraq, onların aşkar olunması və açılmasında ən geniş tətbiq olunan ƏAT-i sırasında nəzarət qaydasında mal alınması, cinayətkar qruplara, kriminogen obyektlərə daxil edilməsi, müxtəlif obyektlərin müşahidəsi, insanların güdülməsi, nəzarətli göndəriş və s. göstərmək olar. Məsələn, belə bir amili nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının 28.06.2005-ci il tarixli Qanununun 31-ci maddəsinə və «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorlarının dövriyyəsi haqqında» Qanunun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 22.05.2007-ci il tarixli 578 nömrəli Fərmanına əsasən DİN, MTN, DGK və DSX əməkdaşları öz səlahiyyətləri daxilində nəzarət qaydasında narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını almaq və nəzarətli göndərişini həyata keçirmək hüququna malikdirlər və onlar bu tədbirləri öz səlahiyyətləri çərçivəsində həyata keçirə bilərlər. Belə tədbirlərdə iştirak edən HMO-ın əməkdaşları və onlarla konfidensial əsaslarla əməkdaşlıq edən şəxslər öz idarə mənsubiyyətini və şəxsiyyətini pərdələyə bilərlər və bu halda onlar ƏAF haqqında qanunvericiliyin tələblərinə müvafiq hərəkət ediblərsə cinayət məsuliyyəti daşımırlar. Onu da qeyd etmək lazımdır ki, bu məsələlərin tənzimlənməsində müəyən hüquqi, təşkilati və taktiki xarakterl  problemlər movcuddur.

Bizim fikrimizcə, bu tədbirlərin keçirilməsinin təşkili və taktikasının hüquqi əsaslarının təkmilləşdirilməsinə zəruriyyət vardır.

Azərbaycan Respublikası CM-in 234-240-cı və 206.2, 206.3, 206.4. maddələrində narkotiklərin qanunsuz dövriyyəsi, o cümlədən onların qaçaqmalçılığı sahəsində təsbit edilmiş cinayət əməllərinin aşkar olunmasının əməliyyat-axtarış aspektləri (aşkar və qeyri-aşkar keçirilən tədbirlərin siyahısı və s.) «ƏAF haqqında» Qanunla, qismən Cinayət Prosessual və Gömrük Məcəllələrii ilə, «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının

dövriyyəsi haqqında», “Dövlət Sirri” haqqında və s. qanunlarla, Prezident Fərmanları və digər qanunvericilik aktları ilə tənzimlənir.

# IV BÖLMƏ

## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ DÖVRİYYƏSİ VƏ NARKOMANLIQLA BAĞLI İSTİFADƏ EDİLƏN ANLAYIŞLAR

**Narkotik vasitələr** – BMT-nin 1961-ci il tarixli Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatları, o cümlədən tərkibində narkotik maddələr olan bitkilərdir.

**Psixotrop maddələr** – BMT-nin 1971-ci il tarixli Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatlarıdır.

**Prekursorlar** – narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması məqsədilə istifadə edilən kimyəvi maddələr və onların duzları, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan kimyəvi maddələr və onların duzlarıdır.

**Reagent** – bir və ya bir neçə prekursorlarla qarşılıqlı təsirdə olan, lakin son məhsulun bir hissəli olmayan maddədir.

Məhlul – reagent və prekursorlarla kimyəvi qarşılıqlı təsirdə olmayan və son məhsulun bir hissəsi olmayan maddədir. Bərk halda olan prekursor və reagentlərin həlledicisi, reaksiya qarışıqlarının durulaşdırılması, reaksiya nəticəsində alınan məhsulun ayrılıb çıxarılması və təmizlənməsi üçün istifadə edilir.

**Narkomanlıq** – xroniki intoksikasiya doğuran, narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi nəticəsində yaranmış narkotik vasitələrdən və psixotrop maddələrdən psixi və (və ya) fiziki asılılıqla, o cümlədən psixi və davranış pozuntuları ilə ifadə olunan xəstəlik vəziyyətidir («Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» 28 iyun 2005-ci il tarixli Qanunun 1-ci maddəsindən çıxarış).

**Narkoman** – psixi və ya fiziki cəhətdən hər hansı bir narkotikdən asılı olan şəxs.

**Qanunsuz dövriyyə** – dövlətin nəzarəti altında olan bitki və ya vasitələrlə hər hansı qanunsuz əməliyyat.

**İntoksikasiya**- latınca "in"-daxili və + yunanca "toxikon"-zəhər söz birləşməsindən ibarətdir. Orqanizmin zəhərli, narkotik vasitələr və psixotrop maddələrlə zəhərlənməsi mənasında başa düşülür.

**Hallyusinasiya**- latın sözü olub sayıqlama sərsənləmə mənası dayışır. Narkotik vasitələrinin istehlakı (qəbulu) nəticəsində insan

şüurunda ətrafdakıların dərk edilməsində yaranan kəskin pozuntular, yəni reallıqda mövcüd olmayan obrazlar, əşyalar, rənglər, təhlükəli və dəhşətli mənzərələrin görüntülərinin yaranması, ətrafda olanların təhrif edilmiş şəkldə dərk edilməsi kimi başa düşünülür.

**Tolerantlıq** - latın mənşəli "tolerantia" sözü olub, səbr, höfsələ mənası daşıyır. Narkotik vasitələrin və psixotrop maddələrin uzun müddət davamlı qəbulu nəticəsində onların müəyyən dozasının təsirinə cavab reaksiyasının zəifləməsi və verilməməsi, sonda isə istehlak dozasının artırılması tələbinin yaranması mənasında başa düşülür.

**Eyforiya** – emosional coşqunluq, həzz, sakitlik əhval-ruhiyyəsi, həyat fəaliyyətinin artması hissiyyatıdır. Xüsusilə, narkotiklərin qəbulunun başlanğıc mərhələsində daha güclü təsirə malikdir. Eyforiya əhval-ruhiyyəsi narkotiklərin qeyri-müalicəvi qəbulunun əsas məqsədidir.

**Abstinensiya** (latın sözü olub, nədənsə imtina etmə, özünü saxlama mənası daşıyır) – narkotik vasitənin qəbulunun qəflətən dayandırılması nəticəsində əmələ gələn vəziyyət. Abstinensiya – insan sağlamlığının fiziki, psixi, vegetativ-somatik və ya nevroloji pozulması ilə xarakterizə edilir.

**Analoqlar (narkotik vasitələrin və psixotrop maddələrin analoqları) –** Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzarət edilməyən, lakin öz kimyəvi quruluşuna görə nəzarətdə olan hər hansı narkotik vasitə və psixotrop maddə ilə xeyli dərəcədə oxşar olan və analoji psixoaktiv təsir göstərən maddələrdir.

**Becərilməsi qadağan edilmiş bitkilərin yetişdirilməsi –** belə bitkilərin əkinlərinə və cücərtilərinə yetişmənin müəyyən mərhələsinə çatdırılması məqsədilə qulluq etmə.

**Güclü təsir edən maddələr** – sui-istifadə nəticəsində toksikomaniya törədən, narkotiklərə aid edilməyən kimyəvi maddələr və preparatlar.

**«Qızıl aypara»** - narkotiklərin istehsal edildiyi və ərazisindən Amerika, Avropa və MDB ölkələrinə narkotiklərin qaçaqmalçılığının həyata keçirildiyi Cənubi-Qərbi Asiya bölgəsi (Əfqanıstan, İran, Pakistan).

**«Qızıl üzük»** - narkotiklərin qanunsuz dövriyyəsi üçün tranzit və istehlak bazarı olan, Baltikyanı ölkələr də daxil olmaqla Rusiyanın sərhədyanı rayonlarını əhatə edən bölgə.

**«Qızıl üçbucaq» -** kokain və heroinin istehsal edildiyi və ərazisindən Amerika, Avropa və MDB ölkələrinə narkotiklərin qaçaqmalçılığının həyata keçirildiyi Cənubi-Şərqi Asiya bölgəsi (Birma, Laos, Tayland).

**Narkotizm** – sosial, hüquqi, kriminoloji, iqtisadi, bioloji və ekoloji aspektləri əhatə edən, narkomaniya xəstəliyinə tutulma və narkotik vasitələrlə, psixotrop maddələrlə və prekursorlarla bağlı, sonradan narkotik almaq məqsədilə vəsait əldə etmək üçün və ya narkotik sərxoşluq vəziyyətində törədilmiş hüquqa zidd əməllər məcmusunda ifadə olunan neqativ sosial hadisə.

**Narkotik** – dövlətin nəzarəti altında olan hər hansı bitki, vasitə və ya dərman və ya narkotik vasitələri, psixotrop və güclü təsir edən maddələri ümumiləşdirən termin.

**Narkotik asılılıq** – 1. narkotik vasitələrin qəbulunun dayandırılması zamanı bir neçə patoloji halın yaranması ilə xarakterizə edilən, narkomaniya sindromunun əlamətlərindən biri.

2. narkotik vasitələrin istifadəsinə öhdəsindən gəlmək mümkün olmayan və ya çətin mümkün olan fizioloji, psixoloji meyllik.

**Fizioloji asılılıq** – orqanizmin normal funksiyalarının dəyişilməsi ilə müşayiət edilən narkotik asılılığın forması. Fizioloji asılılıq abstinensiya sindromunun dəf edilməsi üçün orqanizmdə fasiləsiz olaraq narkotikin mövcud olması ilə xarakterizə edilir.

**Psixoloji asılılıq** – narkotik asılılığının forması. Psixoloji asılılıq zamanı narkotiklərdən kömək və dayaq vasitəsi kimi gündəlik

isifadə edilir və şəxs onları qəbul etmədən müstəqil olaraq qərar qəbul etmək qabiliyyətini itirir.

**Narkotiklərə meyllik** – şəxsin dəfələrlə narkotik vasitələrin qəbul edilməsi, lakin onların qəbul edilməsinin müxtəlif vaxt intervalları ilə qeyri-müntəzəm və sistemli xarakterli olması zamanı yaranan vəziyyət.

**Narkotiklərin qaçaqmalçılığı** – əməliyyatçıların şifahi peşəkar danışıq termini. Azərbaycan Respublikasının gömrük sərhədindən barəsində xüsusi qaydalar müəyyən edilən narkotik vasitələrin, psixotrop, güclü təsir edən və zəhərli maddələrin keçirilməsi (bax: Azərbaycan Respublikası CM-in 206-cı maddəsi).

**Narkotiklərin könüllü təhvil verilməsi** – şəxs tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin, onlara digər üsulla sərəncam vermək imkanı olduqda, hakimiyyət nümayəndəsinə könüllü surətdə verilməsi (CM-nin 234-cü maddəsi, qeyd hissə).

**Narkotiklərin gizlədilmə üsulları** – narkotiklərin hüquq-mühafizə və xüsusi xidmət orqanları tərəfindən aşkar edilməsinin çətinləşdirilməsinə şərait yaratmaq üçün müxtəlif hiylə və vasitələr. Azərbaycan Respublikasının dövlət və gömrük sərhədindən qanunsuz keçirilməsi üçün istifadə edilir.

**Narkotiklərin realizasiyası** – istehsal edilən və ya alınıb satılan narkotik vasitələrin pul müdaxilinin və ya gəlirin digər formalarının alınması ilə müşayiət olunan satışı.

**Tiryəkxana saxlayan** – narkotiklərin qanunsuz qəbul edilməsi üçün xüsusi olaraq uyğunlaşdırılmış (düzəldilmiş) və ya sistematik olaraq istifadə edilən bina və digər yerə – tiryəkxana sahibi olan və ya onu icarəyə verən şəxs.

**Toksikomaniya** – narkotiklər siyahısına daxil edilməmiş maddələrdən sui-istifadə nəticəsində yaranmış asılılıq vəziyyəti.

**Tranzit dövləti** – ərazisindən qanunsuz olaraq narkotik vasitələr, psixotrop maddələr və I və II cədvəllərə salınan maddələrin

keçirildiyi dövlət. Tranzit dövləti bu maddə və vasitələrin nə əmələ gəlmə (becərilmə, istehsal) yeri, nə də təyinat yeridir.

**Transmilli narkomafiya** – fəaliyyəti iki və daha çox dövlətin ərazisinə yayılan cinayətkar narkobiznes təşkilatı.

**Narkomanlığın abstinet sindromunun əlamətləri** – bütün bədən üzrə ağrılar, onların müdaxilə edilmədən dayanmaması, get-gedə ağırlaşması, damarlarda ağrılar, ürək bulanması və qusma, baş gicəllənməsi, bədənin hərarətinin artması, həzm sistemində olan pozuntular, arterial təzyiqin artması, daim hərəkətdə olmaq istəyi, bir yerdə oturmağın mümkün olmaması.

Şəxsin psixoloji vəziyyəti dəyişir, yuxusu pozulur, əsəbi olur, aqressivlik nümayiş etdirir, epilepsiya halına düşür.

.

**Narkobiznes** - (çirkli biznes) narkotik vasitələrin qanunsuz dövriyyəsindən gəlir əldə etmək üzrə ixtisaslaşan mütəşəkkir cinayətkar birləşmələr və təşkilatlar mənası daşıyır.

**Maf(f)iya** - italyan sözü olub, Sissilyada geniş torpaq sahələrinin sahibləri və küllü miqdarda pul sələmçilərinin təsiri altında olan və terror aktlarından istifadə ermək yolu ilə onların maraq və üzvülərinin həyatının qorunması məqsədilə XIX əsrdə yaranmış gizli təşkilatlar.

**Narkomafiya** – cinayətkar təşkilatın narkobiznesdə ixtisaslaşan növü.

**Konfident-** latın "konfidentia" sözündən götürülmüşdür etibar, inanmaq mənası daşıyır. ƏAF-da aşağıdakı mənada istifadə edilir:

a) kiməsə gizli köməklik edən şəxs;

b) ƏAF-ın iştirakçılarına aid edilən və onun subyektləri ilə ƏAF haqqında qanunvericiliklə müəyyən edilmiş qaydada məxfi əməkdaşlıq edən şəxs.

**Qeyd: "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanunun,1-ci maddə-**

**sində - “əsas anlayışlar” (1.0.1.-1.0.22.maddələri) istifadə edilən əsas anlayışlar və onların məzmunu açıqlanır.**

# V BÖLMƏ

## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ DÖVRİYYƏSİ İLƏ MÜBARİZƏNİN HÜQUQİ ƏSASLARI

### 5.1. Narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə bağlı cinayətlərin cinayət-hüquqi xüsusiyyətləri

Son illər Azərbaycan Respublikasında narkotizmin qarşısının alınması və onun cəmiyyətə təsirinin neytrallaşdırılması istiqamətində planlı və məqsədəyönlü mübarizə xeyli genişlənmişdir. Ölkədə aparılan sosial-iqtisadi islahatlar bunun üçün əlverişli şərait yaratmışdır.

Narkomaniya ilə mübarizənin məhz dövlət və ümummilli siyasət səviyyəsinə qaldırılması, onun profilaktikasına və dəf edilməsinə son dərəcə çiddi əhəmiyyət verilməsi, ölkə rəhbərliyinin narkotizmin hər cür təzahürünə qarşı prinsipial və barışmaz mövqeyi, hüquq-mühafizə orqanlarının bu mübarizədəki konkret nəticələri bu ümumbəşəri fəlakətin ərazimizdə yayılması təhlükəsinə Azərbaycanın bugünkü münasibətini xarakterizə edir.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin cinayət-hüquqi xüsusiyyətlərinin öyrənilməsi və təhlili, bu cinayətlərə qarşı mübarizəni aparan hüquq-mühafizə orqanlarının, xüsusilə də polis, gömrük orqanlarının və xüsusi xidmətlərin (DTX və XKX) əməkdaşlarının praktik fəaliyyətinin müasir elmi-texniki, elmi əsaslar üzrə təşkilini şərtləndirir. Bu baxımdan təqdim edilən bölmədə əsas məqsəd narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi

ilə əlaqədar cinayətlərin hər birinin ayrılıqda deyil, onların qısa və konkret ümumi xarakterik əlamətlərinin seçilməsi, öyrənilməsi və təhlilidir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində **narkotiklərlə bağlı cinayətlərin aşağıdakı növləri** üçün məsuliyyət müəyyənləşdirilmişdir:

*- qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma (AR CM maddə 234);*

*- narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmə (AR CM maddə 235);*

*- narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə (AR CM maddə 236);*

*- qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə (AR CM maddə 237);*

*- narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama (AR CM maddə 238);*

*- narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma(AR CM maddə 239);*[1]

*– narkotik vasitələrin qaçaqmalçılığı ilə bağlı cinyət əməlləri (CM-nin 206.2., 206.3., 206.4 maddələri)*[2].

Azərbaycan Respublikasının CM-in göstərilən normaları ilə müvafiq cinayət tərkibləri nəzərdə tutulmuşdur. Cinayət hüququnda **cinayət tərkibi** dedikdə cinayət qanunu ilə ictimai təhlükəli əməl kimi xarakterizə edilən obyektiv və subyektiv əlamətlərin məcmusu

---

[1] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, XXVI fəsil. Bakı, Qanun, 2000-ci il.

[2] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, XXIV fəsil, Bakı, Qanun 2000-ci il.

başa düşülür. Cinayət tərkibini dörd ünsür təşkil edir: cinayətin obyekti, obyektiv cəhəti, subyektiv cəhəti və subyekti. Əməldə bu ünsürlərdən hər hansının olmaması cinayətin tərkibinin mövcudluğunu istisna edir.

Narkotiklərlə bağlı yuxarıda sadalanan bütün cinayət növləri (CM-nin 206-cı maddəsi istisna olmaqla XXIV fəsil iqtisadi fəaliyyət sahəsində cinayətlər) qəsd etdikləri obyektin ümumiliyinə görə AR CM-in «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər» adlanan XXVI fəslində əhatə edilmişdir.

**Bu cinayətlərin belə təsnifi də mübahisəli məsələlərdən (problemlərdən) biri kimi müzakirə predmetidir.**

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar **cinayətlərin xüsusi obyekti** ictimai təhlükəsizliyi və ictimai qaydanı, həmçinin əhalinin sağlamlığını tənzimləyən ictimai münasibətlərdir. Bununla yanaşı bu kateqoriya cinayətlərin ümumi xarakterizə edilən predmeti də möcuddur ki, bunlara da aiddir: bitki, sintetik və təbii maddalər, preparatlar, dərman vasitələri şəklində olan narkotik vasitələr və ya psixotrop maddələr. Aparılan təhlildən görünür ki, cinayətin obyekti heç bir maddi cəhəti nəzərdə tutmayan sırf sosial kateqoriyadır. Cinayətin predmeti isə bizi əhatə edən maddi aləmin maddiləşmiş substratlarıdır (əşya və predmetləridir).

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar **cinayətlərin predmeti** ictimai münasibətlərin meydana çıxıb mövcud olması üçün vasitə, zəmindir və cinayətin obyektinin tərkib elementidir. Bu kateqoriya cinayətlərin predmetinin iki cəhəti fərqləndirilir: fiziki və hüququ. Fiziki cəhətdən cinayətin predmeti keyfiyyət və kəmiyyət baxımından əlamətlərlə səciyyələndirilir. Öz növbəsində keyfiyyət əlamətləri a) fiziki və psixi rahatlıq duyğusu ilə müşayiət olunun sərxoşluq vəziyyətinə gətirə bilmə xüsusiyyəti; b) narkotik vasitələrin narkotik sərxoşluğa və sonradan həddən artıq istifadə etdikdə narkomaniyaya səbəb olmağa

hazırlıq vəziyyəti; c) tərkibində narkotik olan bitki və toxum halında həmin vasitələrin təbii vəziyyəti.

Təhlili aparılan cinayətlərin predmetini fiziki cəhətdən xarakterizə edən kəmiyyət əlamətləri narkotik vasitələrin ölçülərindən (miqdarından, həcmindən) ibarətdir. Bu ölçülər əsasən dörd növə bölünür: az miqdar, əhəmiyyətli, külli və hər hansı miqdar.

**Cinayətin obyektiv cəhəti əməl** – (Hərəkət və ya hərəkətsizlik) kimi zəruri əlamətlə, bütün maddi tərkibli cinayətlə xas olan əməllə nəticə arasındakı səbəbiyyət əlaqəsi də daxil olmaqla fakultativ əlamətlərlə xarakterizə edilir.[1]

Narkotik vasitələrin və psixotrop maddələri hazırlama – etimoloji mənada bu termin, bir tərəfdən prosesi, digər tərəfdən isə nəticəni bildirir. Belə fikir mövcuddur ki, cinayətin obyektiv əlaməti kimi hazırlama dedikdə, müvafiq icazə olmadan istifadəyə hazır narkotik vasitə emal edilməsi və ya onların qatılaşdırılması, yəni nəticə başa düşülür.

**Narkotik vasitələrin əldə edilməsi** – narkotiklərin qanunsuz alınması, onların mal və digər əşyalara dəyişdirilməsi, borc və ya hədiyyə olaraq götürülməsi, tapılanların mənimsənilməsi, yabanı çətənə və xaşxaşın, həmçinin yığımdan sonra qalmış qorunmayan əkin sahələrindən narkotik tərkibli bitkilərin yığılmasıdır. Narkotik vasitələr saxlama - əsl sahibi olub – olmamasından, narkotik vasitənin necə saxlamasından (gizli və ya daimi, yaşayış yerində, mənzilində, həyətyanı tikintilərdə və ya başqa yerlərdə) asılı olmayaraq narkotik vasitələrə faktiki sahib olmaqdır.

**Narkotik vasitələr daşıma** onların hər hansı nəqliyyat vasitələri ilə (quru, su və ya hava) bir yerdən digərinə məkanca yerdəyişməsidir. Daşımanı narkotik vasitələrin nəqliyyatdan istifadə etməklə məkanca yerdəyişməsindən, yəni piyada şəkildə aparılmasından,

---

[1] Həsənov E.H. Narkotizm: meyllər və aradan qaldırılma tədbirləri (Azərbaycan Pespublikasnın мaterialları əsasında). Бакı, Azərnəşr ,1999, səh. 131.

narkotik vasitələri gəzdirməkdən fərqləndirmək lazımdır. İstintaq və məhkəmə praktikasında belə yerdəyişmələrə narkotik vasitələrin saxlanılmasının xüsusi halı kimi baxılır.

**Narkotik vasitələrin göndərilməsi** – onların poçt, baqaj və ya başqa şəxs vasitəsilə həm bir məntəqədən digərinə, həm də bir məntəqə hüdudunda qeyri-qanuni göndərilməsidir. Narkotik vasitələrin dövlət sərhədindən keçirilməklə bağlı daşınması və ya göndərilməsi qaçaqmalçılıq sayılır və bu hərəkətə görə məsuliyyət Azərbaycan Respublikası CM-nin 206-cı maddəsi ilə nəzərdə tutulur.

**Narkotik vasitələrin satışı** - narkotik vasitələrin qanunsuz satışı, dəyişdirilməsi, bağışlanması, onlarla borcun və ya xidmət xərclərinin ödənilməsi, narkotik sahiblərinin belə vasitələri digər şəxsə həm əvəzli, həm də əvəzsiz verməsidir.

**Həkim təyinatı olmadan narkotik vasitələrin istehlakı** – çəkmək, nəfəs almaq, inyeksiya və s. yollarla həkim tərəfindən təyin olunmamış narkotik vasitələrin orqanizmin daxilinə ağız boşluğundan bərk və ya maye halında qəbul edilməsidir. Həkim təyin etdiyi narkotik vasitə üçün resept yaza, həmçinin tibb işçisinə xəstəliyin tarixi ilə bağlı sənədlə və ya xüsusi jurnalda qeyd edilən göstəriş verə bilər.[1]

**Narkotik vasitələr istehlakı üçün tiryəkxanalar təşkiletmə** – narkotik vasitələrdən istifadə üçün avadanlığın əldə edilməsi, müştərilərin tapılması və ya göstərilən vasitələrdən istifadə üçün digər şəraitlərin yaradılması kimi başa düşülür. «Təşkiletmə» termini həm tiryəkxana yaradılması prosesini, həm də onun nəticənin əhatə edir. Təşkilin nəticə verdiyi, daha doğrusu, tiryəkxananın narkotik vasitələr qəbul edilməsi üçün hazır olduğu məqam tiryəkxana təşkilin bitməsi anıdır. Belə ana çəkmək, inyeksiya və narkotik vasitələri digər

---

[1] Щясянов Е.Щ. Наркотиклярин ганунсуз дюврийййяси иля ялагядар ъинайятляря эюря мясулийййят (мцгайисяли ъинайят-щцгуги тящлил). Бакы, Азярняшр, 2003, сящ. 109.

formalarda qəbul etmək üçün tiryəkxanaya müştəri gəlməsi və s. kimi edilə bilən faktiki hallar misal göstərilə bilər.

Tərkibində narkotik maddə olan bitkiləri **kultivasiya** həmin bitkilərin yetişdirilməsi nəzərdə tutulan yerlərə toxum və ya şitilin əkilməsi, onlara aqrotexniki qaydada qulluq kimi müəyyənləşdirmək olar. Hər hansı bir torpaq sahəsi, şitillik, istixana və s. belə yer ola bilər. Süni və ya təbii təchizata malik bu və ya digər torpaq sahəsinin əkin yeri sayılmasında həlledici şərt narkotik tərkibli bitkilərin nəzərdə tutulan yetişdirilmə yerindən ibarətdir. Bu zaman göstərilən cinayətin bitməsi məqamı həmin bitkilərin yetişdirilməsi nəzərdə tutulan süni və təbii təchizata malik torpaq sahələrinə toxum və ya şitillərin əkilməsi, gübrə verilməsi, suvarılması, cərgələrarası qulluq etmə məqamı hesab olunmalıdır.

Narkotiklərlə bağlı cinayətlərin əksəriyyətinin **subyekti** ümumidir, yəni müəyyən yaş həddinə çatmış (əsasən 16 yaş), fiziki, anlaqlı şəxslər ola bilər. Bu cinayətlərin xüsusi subyekti yalnız xidməti fəaliyyəti və ya peşə funksiyalarının yerinə yetirilməsi ilə bağlı olaraq göstərilən qaydalara riayət edilməsi tapşırılmış şəxs hesab edilə bilər.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin **subyektiv cəhəti** təqsirli şəxslərin törətdiyi ictimai təhlükəli əmələ psixi münasibətidir. Bu isə üç əlamətlə: təqsir, motiv və məqsədlə xarakterizə olunur. Bu kateqoriya cinayətlər yalnız təqsirin düzünə qəsb formasında ifadə olunur. Təqsirli şəxs AR CM-in müvafiq maddəsinin dispozisiyasında təsvir olunmuş əməli dərk edir və onu törətməyi arzulayır. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin əsas motiv və məqsədi tamah, daha dəqiq desək satış və ya

maddi mənfəət əldə etməkdir.[1] Narkotik vasitələrin və psixotrop maddələrin satış məqsədi – onların satışı, dəyişdirilməsi, hədiyyə olunması, borcun ödənilməsi, hər hansı xidmət üçün əvəzin ödənilməsi, başqa şəxsin mülkiyyətinə, istifadəsinə və ya sərəncamına verilməsidir.

Bu bölmədə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin hüquqi təhlilinə mərkəzi yer ayrılmışdır. Bu təhlil Azərbaycan Respublikasının əməliyyat-axtarış, istintaq və məhkəmə təcrübəsinin, göstərilən cinayətlərə görə məsuliyyət haqqında CM-in normalarının tətbiqinin (məsələn, əməliyyat-axtarış fəaliyyətində - əməliyyat-qeydiyyat işinin açılması, istintaqda – cinayət işinin başlanılması, məhkəmədə – cəzanın təyin olunması və s. məsələlərin həllində) nəzəri əsaslarını təşkil edir, belə tətbiqetmənin texnologiyasını şərtləndirir.

## 5.2. Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsi ilə mübarizəni tənzimləyən normativ hüquqi aktların siyahısı və onlardan çıxarışlar

5.2.1. BMT-nin 14 dekabr 1948-ci il tarixli «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi;

5.2.2. Avropa Şurasının 4 noyabr 1950-ci il tarixli «İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyası;

5.2.3. BMT-nin 1961-ci il tarixli «Narkotik vasitələr haqqında» Vahid Konvensiyası, 1971-ci il tarixli «Psixotrop maddələr haqqında» və 1988-ci il tarixli «Narkotik vasitələr və psixotrop

---

[1] Криминалистическое обеспечение деятельности криминальной милиции и органов предварительного расследования / под ред. Проф. Т.В.Аверяновой и проф. Р.С. Белкина. Москва, 1997, стр 273.

maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Konvensiyaları;

5.2.4. BMT-nin Baş Asssambleyasının 9 dekabr 1988-ci il tarixli Qətnaməsi. «Hər hansı bir formada olmasına baxmayaraq tutulmaya və həbsə məruz qalmış bütün şəxslərin müdafiəsinin prinsipləri toplusu»;

5.2.5. «Polis haqqında» Bəyannamə. Avropa Şurasının Parlament Assambleyasının Qətnaməsi ilə 1979-cu ildə qəbul edilmişdir;

5.2.6. BMT-nin 17 dekabr 1979-cu il tarixli Qətnaməsi ilə təsdiq edilmiş «Hüquq qaydalarının mühafizəsi üzrə vəzifəli şəxslərin davranış məcəlləsi»;

5.2.7. Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyası (mad. 12, 13, 24-71 və s.);

5.2.8. «Polis haqqında» Azərbaycan Respublikasının 11 noyabr 1999-cu il tarixli Qanunu;

5.2.9. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanunu;

5.2.10. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (çıxarış) mad. 234-240;

5.2.11. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. mad. 206, 207, 208, 209;

5.2.12. Azərbaycan Respublikasının Mülki Məcəlləsi (çıxarış) mad. 30, 31, 32;

5.2.13. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanunu;

5.2.14. «Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, lisenziya (xüsusi razılıq) tələb olunan siyahıların təsdiq edilməsi

haqqında» Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanunu;

5.2.15. Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli 564-II Q nömrəli Qanunu.

5.2.18. Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli 565-II Q nömrəli Qanunu.

5.2.19. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 1366-IVQD nömrəli, 6 oktyabr 2015-ci il tarixli Qanunu.

5.2.20. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 1 fevral 2016-cı il tarixli 121 nömrəli VQD nömrəli Qanunu.

5.2.21. «Narkoloji xidmət və nəzarət haqqında» Azərbaycan Respublikasının 17 iyun 2001-ci il tarixli Qanunu və bu Qanunun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 17 sentyabr 2001-ci il tarixli Fərmanı;

5.2.22. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2005-ci il tarixli Fərmanı;

5.2.23. Azərbaycan Respublikası Prezidentinin 26.08.1996-cı il tarixli «Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında» Fərmanı;

5.2.24. Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə və narkomanlığın yayılması ilə mübarizə üzrə 2013-2018-ci illər üçün Dövlət Proqramın təsdiq edilməsi barədə» Fərmanı;

5.2.25. "Rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Qaydalar"ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2 oktyabr 2015-ci il tarixli 638 nömrəli Fərmanı.

5.2.26. "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2 oktyabr 2015-ci il539 nömrəli Fərmanı.

5.2.27. "Xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanılması rejimi, normativləri və müalicəsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 dekabr 1997-ci il tarixli 135 nömrəli qərarı.

5.2.28 "Sərxoşluq hallarının bütün növlərinin və insan bədəni daxilində narkotik vasitələrin və psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədi ilə tibbi müayinənin keçirilməsi qaydası" barədə Nazirlər Kabinetinin 7 avqust 2000-ci il tarixli, 135 nömrəli Qərarı.

5.2.29. “Narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydası və şərtləri, habelə narkoloji xəstələr barəsində tibbi tədbirlərin tətbiq edilməsi qaydası”na dair Nazirlər Kabinetinin 9 fevral 2006-cı il tarixli 165 nömrəli qərarı.

5.2.30. “Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak üçün nəzərdə tutulan miqdarı” barədə Nazirlər Kabinetinin 12 oktyabr 2000-ci il tarixli 191 nömrəli qərarı.

5.2.31. “Narkotik vasitələrin və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlığın siyahısı” barədə Nazirlər Kabinetinin 21 aprel 2001-ci il tarixli 83 nömrəli qərarı.

5.2.32. “Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi qaydaları” barədə nazirlər Kabinetinin 31 may 2001-ci il tarixli qərarı.

5.2.33. “İnsan psixikasına təsir göstərən maddələrin sui-istifadəsi ilə əlaqədar detoksifikasiyanın keçirilməsi qaydası” barədə Nazirlər Kabinetinin 31 iyul 2002-ci il tarixli 120 nömrəli qərarı.

5.2.34. “İnsan həyatı üçün təhlükə yaradan üsullarla narkoloji xəstələrin müalicəsi qaydası” barədə Nazirlər Kabinetinin 12 avqust 2002-ci il tarixli 130 nömrəli qərarı.

5.2.35. “Narkoloji yardımın həyata keçirilməsi zamanı şəxslər üzərində xüsusi müşahidənin aparılması qaydası” barədə Nazirlər Kabinetinin 12 avqust 2002-ci il tarixli 131 nömrəli qərarı.

5.2.36. “Narkoloji tibb müəssisələrində təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi qaydası” barədə Nazirlər

Kabinetinin 12 avqust 2002-ci il tarixli 132 nömrəli qərarı.

5.2.37. "Narkoloji xəstələrin qeydiyyatının aparılması qaydası və onların qeydiyyatda olma müddəti" barədə Nazirlər Kabinetinin 19 avqust 2002-ci il tarixli 136 nömrəli qərarı.

5.2.38. "Narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinin və vəzifələrinin siyahısı və məhdudiyyətin növləri" barədə Nazirlər Kabinetinin 12 sentyabr 2002-ci il tarixli 145 nömrəli qərarı.

5.2.39. "Narkoloji xəstəliklərin siyahısı" barədə Nazirlər Kabinetinin 24 oktyabr 2002-ci il tarixli 163 nömrəli qərarı.

5.2.40. Şəxsin narkoloji xəstəliyə düçar olmasının (narkoloji xəstəliyin diaqnozunun) müəyyən edilməsi və ya təsdiqlənməsi məqsədi ilə tibbi yoxlamanın aparılması qaydası" barədə Nazirlər Kabinetinin 26 noyabr 2002-ci il tarixli 186 nömrəli qərarı.

5.2.41. "Dövlət büdcəsinin vəsaiti hesabına göstərilən narkoloji yardımın minimal standartları" barədə Nazirlər Kabinetinin 10 dekabr 2002-ci il tarixli 193 nömrəli qərarı.

5.2.42. "Peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslərin dövlət narkoloji tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi qaydası" barədə Nazirlər Kabinetinin 8 fevral 2003-cü il tarixli 18 nömrəli qərarı.

5.2.43. "Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi,

onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların keçirilməsi qaydası" barədə Nazirlər Kabinetinin 13 may 2003-cü il tarixli 57 nömrəli qərarı (NK-nin 9 mart 2006-cı il tarixli 67 nömrəli qərarı ilə əlavə və dəyişikliklərlə).

5.2.44. "Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması qaydası" barədə Nazirlər Kabinetinin 6 oktyabr 2005-ci il tarixli 181 nömrəli qərarı.

5.2.45. "Qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi mədsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi üçün təhvil verilməsi qaydası" barədə Nazirlər Kabinetinin 6 oktyabr 2005-ci il tarixli 181 nömrəli qərarı.

5.2.46. "Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən mülki dövriyyədən çıxarılmış və mülki dövriyyəsi məhdudlaşdırılmış malların götürüldüyü hallar və bunun qaydasının tətbiq edilməsi haqqında" Nazirlər Kabinetinin 27 avqust 2013-cü il tarixli 231 nömrəli qərarı.

5.2.47. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə dair

cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 4 mart 2011-ci il tarixli qərarı.

5.2.48. "Qaçaqmalçılıq işləri üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikasının Ali Məhkəməsi Plenumunun 3 may 1993-cü il tarixli 1 nömrəli qərarı.

5.2.49. "Narkotik vasitələrin və psixotrop maddələrin sayı və vəziyyəti haqqında jurnalların aparılması və saxlanılması Qaydası"nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 16 fevral 2006-cı il tarixli 49 nömrəli qərarı.

5.2.50. "Baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısı və onlardan istifadə Qaydaları"nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 5 iyun 2006-cı il tarixli 136 nömrəli qərarı.

5.2.51. "Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xəstənin müalicəsini davam etdirmək üçün narkotik vasitələrə və psixotrop maddələrə yaranmış əlavə tələbatın ödənilməsi Qaydası" barədə Nazirlər Kabinetinin təsdiq edilməsi barədə 1 iyul 2006-cı il tarixli 162 nömrəli qərarı.

5.2.52. "Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xəstənin müalicə məqsədilə narkotik vasitələr və psixotrop maddələr aparması Qaydası və onlardan istifadə miqdarı həddi"nin təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 1 iyul 2006-cı il tarixli 163 nömrəli qərarı.

5.2.53. "Onkoloji xəstələrin müalicəsi üçün illik ayrılan dərman vasitələrinin, o cümlədən narkotik və qeyri-narkotik ağrıkəsici preparatların siyahısı və

miqdarı”nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 29 yanvar 2007-ci il tarixli 39 nömrəli qərarı.

5.2.54. “Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhv edilməsi nəzərdə tutulan narkotik vasitələrdən müvafiq icra hakimiyyəti orqanlarının kinoloji xidmətləri tərəfindən narkotik vasitələrin axtarışı aparılan təlimlərdə istifadə olunması Qaydası”nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 19 mart 2009-cu il tarixli 39 nömrəli qərarı.

5.2.55. “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılmasında, terrorçuluğun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməsində, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan dövlətlərin (ərazilərin) siyahısının müəyyən edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 25 iyun 2010-cu il tarixli qərarı.

5.2.56 “Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Konstitutsiyası Məhkəməsi Plenumu”nun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237 və 445.2. maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair 25 fevral 2013-cü il tarixli Qərarı.

5.2.57. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi qaydası (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 noyabr 2005-ci il tarixli 181

nömrəli qərarı ilə təsdiq edilmişdir, 30 mart 2009-cu il tarixli, 47№-li qərarı ilə əlavə edilmişdir).

5.2.58. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin "Risklərə dair məlumatların və gömrük kəşfiyyat məlumatların mübadiləsi Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 22 iyul 2014-cü il tarixli 100/02/003 nömrəli Kollegiya Qərarı.

## 5.3. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu (çıxarış)

Bu Qanun narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləyən və bu sahədə dövlət orqanlarının fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini müəyyən edir.

**Maddə 8. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə, onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair ümummilli məlumat bankının yaradılması**

8.1. Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə, onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair ümummilli məlumat bankı yaradılır və bununla bağlı məlumatlar daxil edilir.

8.2. ümummilli məlumat bankı üç bölmədən ibarətdir:

8.2.1. narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair, habelə belə dövriyyədə iştirak edən şəxslərə dair məlumat bölməsi;

8.2.2. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair, habelə belə dövriyyədə iştirak edən şəxslərə dair məlumat bölməsi;

8.2.3. narkomanlıq xəstəliyinə düçar olan və narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərə dair məlumat bölməsi.

8.3. Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin qeydiyyatını aparan narkoloji – tibb müəssisəsi həmin şəxslər, habelə narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən digər şəxslər barəsində yalnız kəmiyyət göstəricilərini əks etdirən məlumatları ümummilli məlumat bankına daxil edir.

**Maddə 9. Narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsinə dair Milli İnformasiya Mərkəzinin yaradılması**

9.1. Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair Milli İnformasiya Mərkəzi yaradılır.

9.2. Milli İnformasiya Mərkəzinin əsas məqsədi narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair şəxsi həyat sirri olmayan və obyektiv məlumatların məcmusunu təşkil etməkdir.

9.3. Milli İnformasiya Mərkəzi aşağıdakı məlumatları özündə əks etdirir:

9.3.1. narkotik vasitələrin və psixotrop maddələrin qeyri-tibbi və tibbi istifadəsi, onların tibbi, iqtisadi və digər nəticələri haqqında;

9.3.2. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və onun nəticələri haqqında;

9.3.3. narkotik vasitələrə və psixotrop maddələrə olan tibbi və qeyri-tibbi tələbat haqqında;

9.3.4. narkotik vasitələrin və psixotrop maddələrin insanlara və cəmiyyətə vura biləcəyi zərərin və onlara olan qeyri-tibbi məqsədlərlə təklifin azaldılmasına yönəlmiş tədbirlər haqqında;

9.3.5. narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və reabilitasiyası ilə bağlı şəxsi həyat sirri olmayan məlumatlar;

9.3.6. narkotik vasitələrin və psixotrop maddəlrin yayılmasına qarşı mübarizə sahəsində qeyri-hökumət təşkilatlarının həyata keçirdikləri tədbirlər haqqında;

9.3.7. narkotik vasitələrə və psixotrop maddələrə dair ölkədə aparılan epidemioloji tədqiqatların yekunları və ölkədə mövcud epidemioloji vəziyyətin qiymətləndirilməsi haqqında;

9.3.8. narkotik vasitələrə dair dövlət siyasətini və normativ-hüquqi tənzimlənmə məsələləri əhatə edən məlumatlar.

**Maddə 15. Əməliyyat-axtarış fəaliyyətində narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından istifadə**

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından istifadə Azərbaycan Respublikasının "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 21. Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak miqdarı**

21.1. Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak üçün nəzərdə tutulan miqdarı şəxsi istehlak üçün mümkün, hər bir narkotik vasitənin və ya psixotrop maddənin ayrı-ayrılıqda birdəfəlik istehlakı həcminə əsasən müəyyən edilir. Şəxsi istehlak üçün nəzərdə tutulan narkotik vasitələrin və psixotrop maddələrin miqdarı onların təmiz və qarışıq vəziyyətində ayrılıqda müəyyən olunur.

21.2. Qazanc əldə etmək məqsədilə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən edilməsi, belə şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarı, habelə onların külli miqdarı müəyyən edilir.

21.3. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilir.

**Maddə 24. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar həyata keçirilən tədbirlər**

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına qarşı mübarizəni həyata keçirən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada nəzarətli göndərişi həyata keçirmək, göndərilən yükləri, poçt göndərişlərini yoxlamaq, nəzarət qaydasında narkotik vasitələri və psixotrop maddələri almaq və qanunla nəzərdə tutulmuş digər əməliyyat-axtarış tədbirlərindən istifadə etmək hüququna malikdirlər.

**Maddə 29. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar əməliyyat-axtarış fəaliyyəti**

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar hüquq pozuntularının aşkar edilməsi məqsədilə bu Qanunun 24-cü maddəsində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

**Maddə 30. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi**

30.1. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi - narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanun-

suz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində ibtidai araşdırma aparmaq səlahiyyətinə malik olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının nəzarəti altında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının ərazisində qanunsuz hesab edilən və ya şübhə doğuran narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının daşınması, göndərilməsi və ya digər üsulla yerinin dəyişdirilməsidir.

30.2. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişinin həyata keçirilməsinə yalnız mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı sahəsində törədilən və ya hazırlanan cinayətlərin qarşısının alınması, açılması, həmin cinayətləri törədən şəxslərin vaxtında aşkar edilməsi və onların cinayət məsuliyyətinə cəlb edilməsi məqsədilə yol verilir.

30.3. Nəzarətli göndərişin keçirilməsinə dair qərar yalnız narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində ibtidai araşdırma aparmaq səlahiyyətinə malik olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul edilir. Həmin qərarda istifadə edilən narkotik vasitənin, psixotrop maddənin və ya onların prekursorlarının əldə edilməsinin mənbəyi və miqdarı barədə məlumatlar mütləq göstərilməlidir.

30.4. Nəzarətli göndərişin həyata keçirilməsinə dair qərarı qəbul etmək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları həmin əməliyyatın Azərbaycan Respublikasının ərazisində aparılmasına bilavasitə rəhbərlik edirlər.

**Maddə 31. Nəzarət qaydasında qanunsuz hesab edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının alınması**

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranizt nəql edilməsi və istehsalı ilə əlaqədar cinayətkar fəaliyyət haqqında sübut əldə etmək məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşları «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzarət qaydasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarını almaq hüququna malikdirlər.

## 5.4. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahıları

2005-ci il 28 iyun tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir

### I SİYAHI

**Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələr və psixotrop maddələr**

1. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələr:

1. Alliloprodin
2. Alfameprodin
3. Alfametadol
4. Alfa-metilfentanil
5. Alfa-metiltiofentanil
6. Alfaprodin
7. Alfasetilmetadol
8. Anileridin
9. Asetil-alfa-metilfentanil
10. Asetilmetadol
11. Asetorfin
12. Asetildihidrokodein
13. Bezitramid
14. Benzetidin
15. Benzilmorfin
16. Beta-hidroksi-3-metilfentanil
17. Beta-hidroksientanil

18.Betameprodin
19.Betametadol
20.Betaprodin
21.Betasetiemetadol
22.Dezomorfin
23.Dekstromoramid
24.Dekstropropoksifen
25. Diampromid
26.Dihidroetorfin
27.Dihidromorfin
28.Dimenoksadol
29.Dimepgeptanol
30.Dimetiltiambuten
31.Dioksafetil-butirat
32.Dipipanon
33.Difenoksilat
34.Difenoksin
35.Dietiltiambuten
36.Drobetanol
37.Ekqonin
38.Etilmetiltianbuten
39.Etokseridin
40.Etonitazen
41.Etorfin
42.Fenadokson
43.Fenazosin
44.Fenampromid
45.Fenomorfan
46.Fenoperidin
47.Furetidin
48.Folkodin
49.Heroin

50.Hidrokodon
51.Hidroksipetidin
52.Hidromorfinol
53.Hidromorfon
54.Xaşxaş kütləsinin konsentratı
55.İzometadon
56.Kannabis qətranı, ekstraktı və cövhəri
57.Ketobemidon
58.Klonitazen
59.Kodoksin
60.Kokain
61.Koka yarpağı
62.Levometorfan
63.Levomoramid
64.Levorfanol
65.Levofenasilmorfan
66.Metadonun aralıq məhsulu
67.Metazosin
68.Metildezorfin
69.Metildihidromorfin
70.3-metiltiofentanil
71.3-metilfentanil
72.Metopon
73.Mirofin
74.Moramidin aralıq məhsulu
75.Moreridin
76.Morfinmetobromid
77.Morfin-N-oksid
78.MFPP
79.Nikodikodin
80.Nikokodin
81.Norkodein

82.Nikomorfin
83.Norasetimetadol
84. Norlevorfanol
85.Normetadon
86.Normorfin
87.Norpipanon
88.Oksikodon
89.Oksimorfon
90.PEPAP
91.Petidin
92.Petidinin aralıq məhsulu A
93.Petidinin aralıq məhsulu V
94.Petidinin aralıq məhsulu S
95.Pimipodin
96.Progeptazin
97.Properidin
98.Rasemetorfan
99.Rasemoramid
100.Rasemorfan
101.Remifentanil
102.Tiryək
103.Tebakon

Bu siyahıda göstərilmiş narkotik vasitələrin başqa adlarla, habelə onların bütün duzlarının və birləşmələrinin Azərbaycan Respublikasına idxalı həmçinin qadağandır.

**2. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən psixotrop maddələr:**

1. Amineptin
2. Amfetamin
3. Brolamfetamin DQB
4. DMA
5. DMQP

6. DMT
7. DOET
8. DET
9. Deksamfetamin
10.Delta-9-tetrahidrokannabinol
11.Etisiklidin FSQ
12.Etriptamin
13.Fenetillin
14.Fenmetrazin
15.Fensiklidin (FSP)
16.Katinon
17.Lizergid (LSD, LSD-25)
18.Levamfetamin
19. Levometamfetamin
20. MDMA
21. Meksalin
22. 4-metilamironeks
23. MTA
24. Metakatinon
25. MMDA
26. Meklokvalon
27. Metamfetamin
28. Metamfetamin rasemat
29. Metakvalon
30. Metilfenidat
31. N-li MDA
32. N-hidroksi MDA
33. Paradeksil
34. PMA
35. Psilosin, Psilotsin
36. Psilosibin
37. Rolisiklidin (FQP, FSPİ)

38. STP, DOM
39. Sekobarbital
40. Sipeperol
41. TMA
42. Tenamfetamin (MDA)
43. Tenoksiklidin (TSP)
44. Tetrahidrokannabinol izomerii
45. 2S-B

Bu siyahıda göstərilmiş psixotrop maddələrin başqa adlarla Azərbaycan Respublikasına idxalı həmçinin qadağandır.

## II SİYAHI

**Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr və psixotrop maddələr**

1. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr:

1. Alfentanil
2. Dihidrokodein
3. Etilmorfin
4. Fentanil
5. Kodein və duzları (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır)
6. Metadon
7. Morfin və duzları
8. Para-fluorofentanil
9. Pritramid
10.Proreridin
11.Papaveratum (pantapon, omporon)
12.Sufentanil
13.Tebain
14.Tilidin

15.Tiofentanil

16.Trimeperidin

Bu siyahıda göstərilmiş narkotik vasitələrin başqa adlarla, başqa tərkibdə və onların başqa birləşmələrinin Azərbaycan Respublikasına idxalı həmçinin məhdudlaşdırılır.

Bu siyahıda göstərilmiş narkotik vasitələr Azərbaycan Respublikasının ərazisinə yalnız dövlət orqanları tərəfindən gətirilir.

2. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılmış psixotrop maddələr:

1. Amobarbital
2. Buprenorfin
3. Butalbital
4. Katin
5. Qlyutetimid
6. Pentazosin
7. Pentobarbital
8. Siklobarbital

Bu siyahıda göstərilmiş psixotrop maddələrin beynəlxalq adı göstərilmədən, başqa adlarla Azərbaycan Respublikasına idxalı həmçinin məhdudlaşdırılır.

Bu siyahıda göstərilmiş psixotrop maddələr Azərbaycan Respublikasının ərazisinə yalnız dövlət orqanları tərəfindən gətirilir.

## III SİYAHI

**Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr**

Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr:

1. Allobarbital
2. Alprozolam
3. Aminoreks

4. Amfepramon
5. Barbital
6. Benzfetamin
7. Bromazepam
8. Brotizolam
9. Butobarbital
10.Delorazepam
11.Diazepam
12.Estazolam
13.Etilamfetamin
14.Etil loflazepat
15.Etinamat
16.Etxlorvinol
17.Fendimetrazin
18.Fenkafamin
19.Fenobarbital (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır)
20.Fenproporeks
21.Fentermin
22.Fludiazepam
23.Flurazepam
24.Flunitrazepam
25.Xlordiazepoksid
26.Kamazepam
27.Ketazolam
28.Kloksazolam
29.Klobazam
30.Klonazepam
31.Klorazepat
32.Klotiazepam
33.Qalazepam
34.Qaloksazolam

35.QOMK
36.Loprazolam
37.Lorazepam
38.Lormetazepam
39.Lefetamin (SPA)
40.Mazindol
41.Medazepam
42.Mezokarb
43.Meprobamat
44.Metilfenobarbital
45.Metiprilon
46.Mefenoreks
47.Midazolam
48.Nimetazepam
49.Nitrazepam
50.Nordazepam
51.Oksazepam
52.Oksazolam
53.Pemolin
54.Pinazepam
55.Pipradrol
56.Pirovaleron
57.Prazepam
58.Sekbutabarbital
59.Temazepam
60.Tetrazepam
61.Triazolam
62.Vinibital
63.Zolpidem

Bu siyahıda göstərilmiş psixotrop maddələrin beynəlxalq adı göstərilmədən, başqa adlarla Azərbaycan Respublikasına idxalı həmçinin qadağandır.

**IV SİYAHI**

**Azərbaycan Respublikasının ərazisindən idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorlar**

Azərbaycan Respublikasının ərazisindən idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorlar:

1. Antranil turşusu
2. Aseton
3. Erqotamin
4. Efedrin (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır)
5. Etil efiri
6. Erqotermin
7. Fenilsirkə turşusu
8. Xlorid turşusu
9. İzosafrol
10. Kalium permanqanat
11. Lizergin turşusu
12. Metiletilketon (MEK)
13. Norefedrin
14. N-asetilantranit turşusu
15. Piperenol
16. Psevdoefedrin (başqa mürəkkəb tərkibli dərman prepatatlarının tərkibində nəzarətdə saxlanılmır)
17. Piperidin
18. Sirkə turşusunun anhidridi

19.Safrol
20.Sulfat turşusu
21.Toluol
22.1-fenil-2-propanon
23.3,4-metilendioksifenil-2-propanon

## 5.5. Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak üçün nəzərdə tutulan miqdarı

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 12 oktyabr 191 nömrəli qərarı ilə təsdiq edilmişdir.

### 1. Narkotik vasitələr

| № | Beynəlxalq adı | Ticarət adı | Birdəfəlik qəbulun miqdarı mq-la | Sutkalıq qəbulun miqdarı mq-la |
|---|---|---|---|---|
| 1 | Alfentanil | Alfentanil | 0,1 | 0,4 |
| 2 | Piritramid | Dipidolor | 15 | 30 |
| 3 | Metilmorfin | Kodein | 50 | 200 |
| 4 | Metilmorfin fosfat | Kodein fosfat | 100 | 300 |
| 5 | Morfin | Morfin | 20 | 50 |
| 6 | Metadon | Metadon | 10 | 20 |
| 7 | Metadon intermediat | Metadon intermediat | 10 | 20 |
| 8 | Morfin hidroxlorid | Morfin hidroxlorid | 20 | 50 |
| 9 | Morfin preparatları | Morfin preparatları | 20 | 50 |
| 10 | Paraveratum | Omporon | 30 | 100 |
| 11 | Papaveratum preparatları | Omporon preparatları | 30 | 100 |
| 12 | Tiryək | Tiryək | 50 | 500 |
| 13 | Tiryəkin preparatları | Tiryəkin preparatları | 50 | 500 |
| 14 | Trimeperidin | Promedol | 50 | 200 |
| 15 | Trimeperidin preparatları | Promedol preparatları | 50 | 200 |

| | | | | |
|---|---|---|---|---|
| 16 | Sulfentanil | Sulfentanil | 0,1 | 0,4 |
| 17 | Tebain | Tebain | 30 | 100 |
| 18 | Tilidin | Tilidin | 100 | 200 |
| 19 | Tilidin preparatları | Tilidin preparatları | 100 | 200 |
| 20 | Fentanil | Fentanil | 5 | 5 |
| 21 | Fentanil preparatları | Fentanil preparatları | 5 | 5 |
| 22 | Dimenoksadol | Estosin | 60 | 180 |
| 23 | Dimenoksadol hidroxlorid | Estosin | 60 | 180 |
| 24 | Dimenoksadol hidroxlorid preparatları | Estosin | 60 | 180 |
| 25 | Etilmorfin | Dionin | 30 | 100 |
| 26 | Etilmorfin hidroxlorid | Dionin | 30 | 100 |
| 27 | Etilmorfin hidro-xlorid preparatları | Dionin | 30 | 100 |
| 28 | Dekstropropoksifen | Dekstropropoksifen | 300 | 600 |
| 29 | Propanidid | Sombrevin | 500 | 500 |
| 30 | Kokain preparatları | Kokain preparatları | 30 | 30 |

**2. Psixotrop maddələr**

| № | Beynəlxalq adı | Ticarət adı | Birdəfəlik qəbulun miqdarı mq-la | Sutkalıq qəbulun miqdarı mq-la |
|---|---|---|---|---|
| 1 | Alprozolam | Ksanaks | 1 | 3 |
| 2 | Bromazepam | Bromedem, Leksotan, Lendormin | 12 | 36 |
| 3 | Klobazam | Frizium | 30 | 80 |
| 4 | Lorazepam | Tavor, Ativan, Merlit | 5 | 15 |

| | | | | |
|---|---|---|---|---|
| 5 | Nitrozepam | Radedorm, Neozepam, Eunoktin, Moqadon | 10 | 30 |
| 6 | Flunitrozepam | Rogipnol | 2 | 2 |
| 7 | Klonazepam | Antilepsin, Rivotril | 7 | 20 |
| 8 | Meprobotam | Meprobotam, Meprotan | 80 | 300 |
| 9 | Diazepam | Sibazon, Relanium, Apaurin, Velizon | 10 | 45 |
| 10 | Oksazepam | Nozepam, Tazepam | 30 | 90 |
| 11 | Xlordiazepoksid | Elenium, Xlozepid, Librium, Napoton | 15 | 50 |
| 12 | Fenobarbibal | Luminal | 200 | 500 |
| 13 | Qlutetimid | Noksiron | 250 | 500 |
| 14 | Pentazosin | Pentazosin | 50 | 350 |
| 15 | Pentobarbital | Etaminal-natriya, Nembutal | 300 | 600 |
| 16 | Barbital | Veranol | 500 | 1000 |
| 17 | Barbital-natriya | Medinal | 500 | 1000 |
| 18 | Medazepam | Rudotel, Medazepam | 33,5 | 70 |
| 19 | Buprenorfin | Temgezik | 0,4 | 1,2 |
| 20 | Efedrin hidroxlorid | Efedrin hidroxlorid | 50 | 150 |
| 21 | Defedrin | Defedrin | 60 | 180 |
| 22 | Efedrin dimedrolla | Efedrin dimedrolla | 60 | 180 |
| 23 | Klofelin | Klofelin | 3 | 15 |
| 24 | Tramadol | Tramal | 100 | 400 |
| 25 | Triperiden | Norakin | 2 | 6 |
| 26 | Triheksefenidil | Sikladol, Romparkin, Parkinsan, Parkopan | 2 | 6 |

| | | | | |
|---|---|---|---|---|
| 27 | Bromizoval | Bromural | 1000 | 2000 |
| 28 | Fenazepam | Fenazepam | 2,5 | 10 |
| 29 | Trimetozin | Trioksazin | 300 | 1200 |
| 30 | Tofizopam | Qrandaksin | 100 | 300 |

## 5.6. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə SİYAHILARI

(2005-ci il 28 iyun tarixli 961-HQ saylı Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir).

### I SİYAHI
### Narkotik vasitələr

| № | Dərman preparatlarının beynəlxalq adı | Şəxsi istehlak miqdarından artıq miqdar (təmiz halda qramlarla) daxil olmaqla yuxarı hədləri | Külli miqdar (təmiz halda qramlarla) daxil olmaqla yuxarı hədləri |
|---|---|---|---|
| 1 | Asetilə edilən tiryək | 0,5 | 50 |
| 2 | BDB (əsası və duzları) | 0,2 | 1 |
| 3 | Etilmorfin | 0,2 | 10 |
| 4 | Fentanil | 0,0004 | 0,002 |
| 5 | Heroin | 0,15 | 2 |
| 6 | Həşiş | 1 | 100 |
| 7 | Həşiş qətranı | 0,4 | 40 |
| 8 | Həşiş yağı | 0,5 | 50 |
| 9 | Xaşxaş kütləsi:<br>a) qurudulmuş<br>b)qurudulmamış | <br>10<br>50 | <br>1000<br>5000 |

| | | | |
|---|---|---|---|
| 10 | Kokain | 0,02 | 1 |
| 11 | Kodein (əsası və duzları) | 0,2 | 10 |
| 12 | Marixuana-Kannabis<br>a) qurudulmuş<br>b) qurudulmamış | <br>5<br>25 | <br>500<br>2500 |
| 13 | Metadon | 0,02 | 1,6 |
| 14 | Morfin (əsası və duzları) | 0,05 | 2,5 |
| 15 | MBDB (əsası və duzları) | 0,2 | 1 |
| 16 | Omporon-pantopon | 0,05 | 2,5 |
| 17 | Piritramid | 0,05 | 2,5 |
| 18 | Propanidid | 0,5 | 3 |
| 19 | Tiryək (o cümlədən ekstraksiya edilən) | 0,5 | 50 |
| 20 | Trimeperidin | 0,05 | 2 |

## II SİYAHI
## Psixotrop maddələr

| **№** | **Dərman preparatlarının beynəlxalq adı** | **Şəxsi istehlak miqdarından artıq miqdar (təmiz halda qramlarla) daxil olmaqla yuxarı hədləri** | **Külli miqdar (təmiz halda qramlarla) daxil olmaqla yuxarı hədləri** |
|---|---|---|---|
| 1 | Amfetamin | 0,15 | 2 |
| 2 | Amobarbital | 0,6 | 3,0 |
| 3 | Alprazolam | 0,03 | 0,1 |
| 4 | Alobarbital | 1 | 10 |
| 5 | Aminoreks | 0,01 | 0,1 |
| 6 | Asetildihidrokodein | 0,01 | 1 |
| 7 | Brolamfetamin | 0,001 | 1,002 |
| 8 | Buprenorfin | 0,05 | 2,5 |
| 9 | Butalbital | 0,75 | 7,5 |

| | | | |
|---|---|---|---|
| 10 | Barbital | 0,6 | 15 |
| 11 | Benzfetamin | 0,75 | 7,5 |
| 12 | Bromazepam | 1 | 10 |
| 13 | Butobarbital | 1,5 | 1,5 |
| 14 | DET | 0,02 | 1 |
| 15 | DMA | 0,02 | 1 |
| 16 | DMQP | 0,05 | 5 |
| 17 | DOET | 0,001 | 0,01 |
| 18 | Deksafetamin | 0,15 | 1,5 |
| 19 | Delorazepam | 0,03 | 0,5 |
| 20 | Diazepam | 2 | 50 |
| 21 | Estazolam | 0,2 | 0,5 |
| 22 | Etxlorvinol | 5 | 50 |
| 23 | Etinamat | 5 | 50 |
| 24 | Etil Loflazepat | 0,02 | 0,2 |
| 25 | Etilamfetamin | 0,3 | 3 |
| 26 | Etisiklidin | 0,01 | 0,02 |
| 27 | Efedron | 0,3 | 3 |
| 28 | Efedrindən kustar yolla alınan preparatlar | 1 | 100 |
| 29 | Fenetillin | 0,5 | 5 |
| 30 | Fenmetrazin | 0,5 | 5 |
| 31 | Flunitrazepam | 0,1 | 0,5 |
| 32 | Fenkamfamin | 0,8 | 8 |
| 33 | Fenproporeks | 0,2 | 2 |
| 34 | Fludiazepam | 0,05 | 0,5 |
| 35 | Flurazepam | 0,3 | 3 |
| 36 | Fendimetrazin | 0,7 | 7 |
| 37 | Fenobarbital | 2,5 | 15 |
| 38 | Fentermin | 0,15 | 1,5 |
| 39 | Fepranon | 0,2 | 1,6 |
| 40 | Xlordiazepoksid | 1 | 10 |
| 41 | Katinon | 0,02 | 1 |

| | | | |
|---|---|---|---|
| 42 | Katazepam | 0,3 | 3 |
| 43 | Klobazam | 0,2 | 2 |
| 44 | Klonazepam | 0,1 | 1 |
| 45 | Klorazepat | 0,2 | 2 |
| 46 | Klotiazepam | 0,15 | 1,5 |
| 47 | Kloksazolam | 0,1 | 1 |
| 48 | Katin | 0,2 | 2 |
| 49 | Ketazolam | 0,3 | 3 |
| 50 | QOMK | 40 | 300 |
| 51 | Qalazepam | 1 | 10 |
| 52 | Qaloksazolam | 0,5 | 5 |
| 53 | Qlütetimid | 2,5 | 25 |
| 54 | Levamfetamin | 0,15 | 1,5 |
| 55 | Levometamfetamin | 0,15 | 1,5 |
| 56 | Lefetamin | 0,75 | 7,5 |
| 57 | Loprazolam | 0,2 | 2 |
| 58 | Lorazepam | 0,15 | 1 |
| 59 | Lormetazepam | 0,1 | 0,5 |
| 60 | (+)-Lizergid | 0,0001 | 0,0001-dən yuxarı |
| 61 | MDE, N-etil MDA | 0,02 | 1 |
| 62 | MDMA (MDMA) | 0,03 | 5 |
| 63 | Meskalin | 0,03 | 5 |
| 64 | Metkatinon | 0,15 | 1,5 |
| 65 | 4-metilamironeks | 0,01 | 0,01-dən yuxarı |
| 66 | MMDA | 0,02 | 1 |
| 67 | Metafetamin | 0,15 | 2 |
| 68 | Metafetamin resemat | 0,15 | 1,5 |
| 69 | Metakvalon | 0,05 | 1 |
| 70 | Mazindol | 0,1 | 1 |
| 71 | Medazepam | 0,2 | 2 |
| 72 | Meferoneks | 0,6 | 6 |

| | | | |
|---|---|---|---|
| 73 | Meprobatam | 5 | 25 |
| 74 | Metilfenobarbital | 1 | 10 |
| 75 | Metiprinol | 2 | 20 |
| 76 | Midazolam | 1,5 | 10 |
| 77 | N-gidrooksi MDA | 0,02 | 1 |
| 78 | Nimetazepam | 1,5 | 10 |
| 79 | Nitrazepam | 1 | 5 |
| 80 | Oksazepam | 1,5 | 10 |
| 81 | Oksazolam | 1 | 10 |
| 82 | Parageksil | 0,05 | 5 |
| 83 | PMA | 0,02 | 1 |
| 84 | Psilosin, psilotsin | 0,01 | 0,1 |
| 85 | Pentozosin | 0,03 | 1,5 |
| 86 | Psilosibin | 0,01 | 0,1 |
| 87 | Pemolin | 0,4 | 4 |
| 88 | Pinazepam | 0,15 | 1,5 |
| 89 | Pipradol | 0,3 | 13 |
| 90 | Prazepam | 0,3 | 3 |
| 91 | Pirvaleron | 0,4 | 4 |
| 92 | Pentobarbital | 0,6 | 30 |
| 93 | Polisiklidin | 0,01 | 10,01 |
| 94 | Sekobarbatil | 0,75 | 7,5 |
| 95 | Siperol | 0,5 | 3 |
| 96 | STR, DOM | 0,002 | 0,002-dən yuxarı |
| 97 | Siklobarbital | 0,2 | 20 |
| 98 | Tenosiklidin | 0,01 | 0,01-dən yuxarı |
| 99 | Tenamretamin | 0,002 | 1 |
| 10 | Temazepam | 0,2 | 2 |
| 101 | Tetrazepam | 1 | 10 |
| 102 | Triazolam | 0,015 | 0,02 |
| 103 | Vinilbital | 1,5 | 15 |

| | | | |
|---|---|---|---|
| 104 | Zolpidem | 1 | 10 |

## III SİYAHI
## Qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilər

| **Bitkilərin adı** | **Qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin ölçü vahidləri (külli miqdar)** |
|---|---|
| Azərbaycan Respublikasında bitən, lakin kultivasiyası qadağan olunmuş və tərkibində narkotik maddələr olan bitkilər:<br>1. Tiryək xaşxaşı, yağlı xaşxaşın digər növləri<br>2. Çətənə növlü bitkilər | 10 ədəddən yuxarı<br>15 ədəddən yuxarı |
| Yetişdirmək məqsədilə qanunsuz becərilməsi təşkil edilmiş, çoxillik xaşxaşın və yabanı bitmiş çətənələrin kolkosları | 50 ədəddən yuxarı |
| Azərbaycan Respublikasının ərazisində iqlim şəraitinə görə bitməyən və kultivasiyası qadağan olunan bitkilər:<br>1. Kokain kolu<br>2. Kat | 1 ədəd<br>2 ədəd |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 6 oktyabr tarixli 181 nömrəli qərarı ilə təsdiq edilmişdir

## 5.7. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi

## QAYDASI

1. Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları ekspert rəyi ilə qanunvericilikdə nəzərdə tutulmuş məqsədlər üçün istifadə edilməsi məqsədəmüvafiq hesab edilmədikdə, tam həcmdə məhv edilməlidir.

2. Müsadirə edilmiş və üzərinə həbs qoyulmuş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları məhkəmə baxışı zamanı və ya istintaq prosesi aparan orqanlara məxsus xüsusi təchiz olunmuş otaqlarda maddi sübutların saxlanılması barədə müəyyən olunmuş qaydalara əsasən müvəqqəti olaraq ciddi nəzarət altında saxlanılmalıdır.

3. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üçün əsas kimi məhkəmənin qərarı, habelə müstəntiqin, yaxud təhqiqat orqanının qanunvericilikdə nəzərdə tutulmuş hallarda cinayət işinə xitam verilməsi və ya cinayət işinin başlanılmasının rədd edilməsi barədə qərarı hesab olunur.

Məhvetmə qərarını qəbul edən orqan müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını qərar qəbul edildikdən sonra 3 gün müddətində bu Qaydanın 4-cü bəndində nəzərdə tutulan komissiyaya təhvil verir.

4. Müsadirə edilmiş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları Azərbaycan Respublikasının məhkəmə, prokurorluq orqanlarının və Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Ədliyyə Nazirliyinin (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyyə Nazirliyinin), Səhiyyə Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Dövlət

Sərhəd Xidmətinin nümayəndələrindən ibarət tərkibdə yaradılmış müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını məhvetmə komissiyası (bundan sonra – Komissiya) tərəfindən aktlaşdırılaraq məhv edilir.

Komissiya Narkomanlığa və Narkotik Vasitələrin Qanun Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri tərəfindən formalaşdırılır və görülmüş işlər barədə ona hesabat verir.

5. Barəsində məhvetmə qərarı qəbul edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını məhvetmə üsulu, yeri və vaxtı Komissiya tərəfindən müəyyən edilir.

6. Komissiyanın tərtib etdiyi aktda aşağıdakılar göstərilməlidir:

- aktın tərtib olunduğu yer və tarix;
- məhvetmədə iştirak etmiş şəxslərin iş yeri, vəzifəsi, adı, atasının adı, soyadı;
- məhvetmənin əsası;
- məhv olunan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının adı, miqdarı, onların saxlandığı qab barədə məlumatlar.

Aktın nüsxələrinin sayı məhvedilmədə iştirak etmiş şəxslərin sayına uyğun olaraq müəyyən edilir.

Məhvetmə aktının bir nüsxəsi cinayət işinin materiallarına əlavə olunur.

Həmin aktların nümunəsi məhvetmədə iştirak etmiş dövlət orqanlarında saxlanılır. Aktların saxlanılma müddəti cinayət işinin və ya materiallarının saxlanılma müddəti ilə eyni olmalıdır.

7. Barəsində məhvedilmə qərarı çıxarılmış narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının sonrakı istifadəyə verilməsi qadağandır.

8. Bu Qaydanın pozulmasına görə vəzifəli şəxslər qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

## 5.8. Qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilməsi, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi üçün təhvil verilməsi QAYDASI

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 6 oktyabr tarixli 181 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

1. Qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan müsadirə edilmiş narkotik vasitələrin və psixotrop maddələrin nümunələri ibtidai araşdırmanı aparan müvafiq orqan tərəfindən analiz edilməsi üçün Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə təqdim edilir.

2. Analiz üçün göndərilən narkotik vasitələrin və psixotrop maddələrin nümunələrinin miqdarı aşağıdakı kimi müəyyənləşdirilir:

- toz şəklində – 2 qr.;
- həb şəklində – 20 əd.;
- ampula şəklində – 10 qr.

3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin Mərkəzi Nəzarət Laboratoriyası tərəfindən analiz edilmiş narkotik vasitələrin və psixotrop maddələrin nümunələri tibbi məqsədlərlə istifadə üçün yararlı hesab olunarsa, bu barədə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi narkotik vasitələri və psixotrop maddələri analiz üçün təqdim etmiş orqana məlumat verir.

4. Qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan müsadirə edilmiş narkotik vasitələr və psixotrop maddələr ibtidai araşdırmanı aparan müvafiq orqan tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə təhvil verilir.

Yalnız bundan sonra həmin narkotik vasitələrdən və psixotrop maddələrdən Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının saxlanılması, alınması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əməliyyatların keçirilməsi qaydasına uyğun olaraq tibb müəssisələrində istifadə oluna bilər.

## 5.9. Sərxoşluq hallarının bütün növlərinin və insan bədəni daxilində narkotik vasitələrin və psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədilə tibbi müayinənin keçirilməsi QAYDASI (çıxarış)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 07 avqust 2000-ci il tarixli 135 nömrəli qərarı ilə təsdiq edilmişdir (9 iyun 2003-cü il tarixli 78 saylı qərara əsasən əlavə və dəyişikliklərlə)

1. İnsan psixikasına təsir göstərən maddələrdən sui-istifadə edilməsi nəticəsində yaranan sərxoşluq hallarının bütün növlərinin

müəyyən edilməsi məqsədilə aparılan tibbi müayinə yalnız narkoloji tibb müəssisəsinin həkim-narkoloqu tərəfindən həyata keçirilir.

Tibbi müayinə təhqiqat, istintaq orqanlarının və ya məhkəmənin qərarı əsasında, habelə işəgötürənin nəzarəti və ya müayinə olunan şəxsin təşəbbüsü əsasında həyata keçirilir.

2. Tibbi müayinə vasitəsilə yoxlanılan şəxsin sərxoşluq vəziyyətində olub-olmaması, orqanizmdə olan narkotik vasitələrin və psixotrop maddələrin növü, ehtiyac olduqda miqdarı və istehlak etmə vaxtı təyin olunur.

Tibbi müayinənin keçirilməsinin səbəbi, gedişi, aparılan təhqiqatın növləri və nəticəsi tərtib edilmiş rəydə öz əksini tapır.

9. Narkotik vasitələr və psixotrop maddələr daşınması haqqında əsaslı şübhələr olan şəxsin narkotik sərxoşluq vəziyyətində olub-olmaması ümumi qaydalarla aşkar edilir, həmin şəxs tibbi müayinədən keçirilməklə yanaşı, xüsusi ayrılmış yerdə, eyni cinsdən olan tibb işçisi tərəfindən bilavasitə yoxlanılır və rentgenoloji müayinədən keçirilir.

## 5.10. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması QAYDASI (çıxarış)

*(Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 6 oktyabr tarixli, 181 nömrəli qərarı ilə təsdiq edilmişdir)*

1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində təşkil edilmiş ümummilli məlumat bankına narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair məlumatlar daxil edilir.

2. Ümummilli məlumat bankı aşağıdakı üç bölmədən ibarətdir:

2.1. narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair, habelə belə dövriyyədə iştirak edən şəxslərə dair məlumat bölməsi;

2.2. narkomanlıq xəstəliyinə düçar olan və narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərə dair məlumat bölməsi.

Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin qeydiyyatını aparan narkoloji-tibb müəssisəsi, həmin şəxslər, habelə narkotik va-

sitələrdən və psixotrop maddələrdən sui-istifadə edən digər şəxslər barəsində yalnız kəmiyyət göstəricilərini əks etdirən məlumatları ümummilli məlumat bankına daxil edilməsi üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə göndərir.

3. Ümummilli məlumat bankına məlumatlar aşağıdakı qaydada göndərilir:

3.1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müvafiq idarə və şöbələri:

- tibbi məqsədlə istifadə etmək üçün idxal, ixrac, tranzit nəql olunan və istehsal edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısı və miqdarı barədə məlumatı;
- narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını istifadə edən ixtisaslaşdırılmış dövlət və qeyri-dövlət tibb müəssisələrinin aldıqları məlumatları;
- məhkəmə-narkoloji ekspert komissiyalarının keçirdikləri ekspertizalar əsasında əldə edilən məlumatları;
- narkoloji tibb müəssisələrində ümumi əsaslarla müalicə olunan şəxslər haqqında məlumatları;
- narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsində, onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən şəxslərə verilmiş hər bir lisenziya (xüsusi razılıq) barədə bildirişi (bildirişdə hüquqi və fiziki şəxsin tam adı, fəaliyyət növü, istifadə olunan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının adı (azərbaycanca və latınca), saxlanma yeri, istifadə üçün yararlılıq müddəti və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş digər məlumatlar göstərilməlidir) ümummilli məlumat bankına göndərir.

3.2. Narkoloji tibb müəssisələri hər bir narkomanın müalicəsi barədə, narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində detoksifikasiyanın aparıldığı hər bir hal barədə məlumatları, aparılan tibbi müayinə nəticəsində şəxsin narkotik vasitələri və psixotrop maddələri istehlak etməsi müəyyən edildikdə, bu barədə

məlumatı və könüllü olaraq anonim müalicə kursu keçmək üçün müraciət etmiş narkoman şəxslər haqqında məlumatı ümummilli məlumat bankına göndərirlər. Bu məlumatlar ümummilli məlumat bankında kodlaşdırılmış qapalı bölmədə saxlanılır.

3.3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Ədliyyə Nazirliyi, Baş Prokurorluğu, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti öz işlərində respublika ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən şəxslərə dair məlumatı ümummilli məlumat bankına göndərirlər.

3.4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi azadlıqdan məhrum etmə yerlərində narkomaniyaya qarşı müalicə keçən şəxslər, məcburi müalicənin tətbiq edilməsi, cəzanın müddəti və onun icra olunduğu yer, narkoloji xəstənin cəzanı icra edən müəssisədən azad olunması, habelə barəsində məcburi tədbirlərin dayandırılması, təxirə salınması qərarı olan şəxslər haqqında məlumatları ümummilli məlumat bankına təqdim edir.

3.5. Səlahiyyətli dövlət orqanları narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının dövriyyəsinə, habelə qanunsuz dövriyyəsinə aid məlumatları ümummilli məlumat bankına təqdim etməyə borcludurlar.

4. Ümummilli məlumat bankına məlumatlar dəqiqləşdirildikdən sonra 10 gün müddətində göndərilir.

5. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Ədliyyə Nazirliyinin, İqtisadi İnkişaf Nazirliyinin, Baş Prokurorluğunun, Dövlət Gömrük Komitəsinin, Dövlət Sərhəd Xidmətinin, digər aidiyyəti dövlət orqanlarının nəzdində fəaliyyət göstərən idarələr, komissiyalar, istintaq orqanları ümummilli məlumat bankının informasiya mər-

kəzlərindən onlara aid məlumatları almaq üçün təsdiq edilmiş xüsusi sorğu tərtib edib, ümummilli məlumat bankına müraciət edirlər.

Ümummilli məlumat bankında sorğu öyrənilir, onun qanunauyğun, aidiyyəti olduğunu müəyyən edir və qanunvericilikdə nəzərdə tutulmuş vaxt ərzində sorğu barədə məlumat verir.

Narkoloji tibb müəssisələrində könüllü olaraq anonim müalicə kursu keçmiş narkoman şəxslər haqqında məlumatlar ümummilli məlumat bankından yalnız həmin şəxs inzibati, yaxud cinayət məsuliyyətinə cəlb edildikdə, hüquq-mühafizə orqanına verilə bilər.

Narkoloji xidməti və nəzarəti həyata keçirən, habelə xidməti vəzifələri həyata keçirərkən, qulluq mövqeyinə görə narkoloji xəstələr barəsində məlumatları əldə edən digər şəxslər həmin məlumatların yayılmasına yol verməməlidirlər.

6. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyində, Daxili İşlər Nazirliyində, Milli Təhlükəsizlik Nazirliyində, Ədliyyə Nazirliyində, İqtisadi İnkişaf Nazirliyində, Baş Prokurorluğunda, Dövlət Gömrük Komitəsində, Dövlət Sərhəd Xidmətində və digər aidiyyəti dövlət orqanlarında ümummilli məlumat bankına informasiya göndərilməsinin vaxtlı-vaxtında yerinə yetirilməsinə nəzarət etmək və oradan məlumat alınmasını təşkil etmək üçün cavabdeh şəxs təyin olunur.

## 5.11. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi (çıxarış)

.

**Maddə 84. Prokuror**

84.5. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işi üzrə aparılan təhqiqata və ibtidai istintaqa nəzarət edərkən aşağıdakı hüquqları həyata keçirir;

84.5.17. cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;

**Maddə 85. Müstəntiq**

85.4.5. müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;

85.4.7. müvafiq təhqiqat orqanına və ya təhqiqatçıya ayrı-ayrı istintaq hərəkətlərinin keçirilməsini tapşırmaq;

**Maddə 86. Təhqiqatçı**

86.4.5. müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;

86.5. Təhqiqatçı öz icraatında olan işlə əlaqədar qeyri-aşkar üsullarla əməliyyat-axtarış tədbirlərini keçirməyə haqlı deyil;

**Maddə 124. Sübutların anlayışı və növləri**

Maddə 124.1. Məhkəmənin və ya cinayət prosesi tərəfinin əldə etdiyi mötəbər dəlillər (məlumatlar, sənədlər, əşyalar) cinayət təqibi üzrə sübutlar hesab olunur.

124.2. Cinayət prosesində aşağıdakılar sübut kimi qəbul olunur;

124.2.1. şübhəli, təqsirləndirilən və zərər çəkmiş və şahidlərin ifadələri;

124.2.2. ekspertin rəyi;

124.2.3. maddi sübutlar;

124.2.4. istintaq və məhkəmə hərəkətlərinin protokolları;

124.2.5. digər sənədlər

**Maddə 137. Əməliyyat-axtarış fəaliyyətinin gedişində əldə edilmiş materiallardan sübut kimi istifadə edilməsi əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun əldə olunduqda və bu Məcəllənin tələblərinə uyğun təqdim edildikdə və yoxlandıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.**

**Maddə 148. Cinayət törədilməsinə şübhə yarandıqda şəxsin tutulması**

148.2. Şəxsin cinayət törətməsinə bilavasitə şübhə yarandıqda təhqiqatçı, təhqiqat orqanının digər əməkdaşı, müstəntiq və ya prokuror onun tutulmasını aşağıdakı hallarda tətbiq edə bilər:

148.2.1. şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törədərkən, yaxud bilavasitə bundan sonra cinayət başında yaxalandıqda;

148.2.2. zərər çəkmiş şəxs, yaxud hadisəni görən digər şəxslər cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin həmin şəxs tərəfindən törədilməsini birbaşa göstərdikdə;

148.2.3. şəxsin bədənində, üstündə, paltarında və ya istifadə etdiyi digər əşyalarda, yaşayış yerində, nəqliyyat vasitəsində cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsini göstərən aşkar izlər müəyyən olunduqda;

148.3. Şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsindən şübhələnməyə əsas verən digər məlumatlar olduqda, o, təhqiqatçı, təhqiqat orqanının digər əməkdaşı, müstəntiq və ya prokuror tərəfindən aşağıdakı hallarda tutula bilər;

148.3.1. hadisə yerindən qaçıb gizlənməyə, yaxud cinayət prosesini həyata keçirən orqandan gizlənməyə cəhd göstərdikdə;

148.3.2. daimi yaşayış yeri olmadıqda və ya başqa ərazidə yaşadıqda;

148.3.3. şəxsiyyəti müəyyən edilmədikdə.

**Maddə 445. Məhkəmənin qərarı əsasında həyata keçirilən əməliyyat-axtarış tədbirləri**

445.1. Məhkəmənin qərarı əsasında aşağıdakı əməliyyat-axtarış tədbirləri həyata keçirilir:

445.1.1. telefon danışıqlarına qulaqasma;

445.1.2. poçt, teleqraf və digər göndərişlərin yoxlanılması;

445.1.3. texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatın çıxarılması;

445.1.4. yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğu və ya torpaq sahələrinə daxil olma və onlara baxış keçirilməsi;

445.1.5. texniki vasitələrdən istifadə etməklə və ya səs yazan, video, foto və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə mənzilin müşahidə edilməsi;

445.1.6. insanların güdülməsi;

445.2. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş hallarda bu Məcəllənin 445.1-ci maddəsində göstərilən əməliyyat-axtarış tədbirləri məhkəmənin qərarı olmadan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsinin əsaslandırılmış qərarı ilə həyata keçirilə bilər. Bu halda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsi müvafiq tədbir aparıldıqdan sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirinin aparılması barədə əsaslandırılmış qərarı məhkəmə nəzarətini həyata keçirən məhkəməyə təqdim etməlidir.

**Maddə 446. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələlərinin həlli üçün məhkəməyə müraciət etmə**

446.1. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış təd-

birinin həyata keçirilməsi məsələlərinin məhkəmədə baxılması üçün aşağıdakılar əsasdır:

446.1.1. istintaq hərəkətinin məcburi aparılması üçün müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı;

446.1.2. prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi üçün müstəntiqin və ya digər səlahiyyətli şəxsin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı.

446.1.3. əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi üçün əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsinin əsaslandırılmış vəsatəti.

446.2. Bu Məcəllənin 446.1-ci maddəsində nəzərdə tutulmuş hər hansı vəsatətdə aşağıdakılar göstərilməlidir:

446.2.1. onun tərtib edildiyi tarix, vaxt və yer;

446.2.2. onu tərtib edən şəxsin soyadı, adı, atasının adı və vəzifəsi;

446.2.3. cinayət işinin olduğu halda, o nə vaxt, kim tərəfindən və nə ilə əlaqədar başlandığı;

446.2.4. istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi ilə əlaqədar törədilən, qarşısı alınan və ya xəbərdar edilən cinayət haqqında məlumatlar;

446.2.5. istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində kimin və hansı hüquq və azadlıqlarının məhdudlaşdırıla biləcəyi;

446.2.6. barəsində vəsatət verilən istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyinin əsaslandırılması;

446.2.7. istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində hansı nəticənin əldə edilməli olduğu və nə üçün həmin nəticənin digər üsul və vasitələrlə əldə edilməsinin mümkün olmaması;

446.2.8. istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsini və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin hansı müddətdə, harada və hansı üsullarla nəzərdə tutulduğu;

446.2.9. əməliyyat-axtarış tədbirinin hansı nəticələrin əldə edilməsinin güman edildiyi və həmin nəticənin hansı üsulla rəsmiləşdiriləcəyi;

446.2.10. istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin kimə həvalə edilməli olduğu;

446.2.11. məsələyə dair qanuni və əsaslı qərarın qəbul edilməsi üçün zəruri olan digər məlumatlar.

## 5.12. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
## II Bölmə. "Cinayət haqqında"
### VIII Fəsil. Əməlin cinayət olmasını aradan qaldıran hallar.

**Maddə 37. Cinayət törətmiş şəxs tutularkən ona zərər vurulması.**

37.1. Cinayət törətmiş şəxsin səlahiyyətli dövlət hakimiyyəti orqanına gətirilməsi və ya yeni cinayətlər törətməsinin qarşısının alınması məqsədilə tutulduğu zaman ona zərər yetirilməsi əgər həmin məqsəd üçün digər təsir imkanlarından istifadə lazımı nəticə verməmişsə və bunun üçün zəruri olan tədbirlərin həddi aşılmamışdırsa, cinayət sayılmır.

37.2. Cinayət törətmiş şəxsin tutulması üçün tətbiq edilən vasitələrin və üsulların törədilmiş əməlin və həmin əməli törətmiş şəxsin ictimai təhlükəlilik dərəcəsinə, habelə tutulmanın hallarına aşkar surətdə uyğun gəlməməsi və zərurət olmayan şəxsə açıq-aşkar həddən artıq zərər vurulması şəxsin tutulması üçün zəruri tədbirlərin həddini aşmaq hesab olunur. Həddi bu qaydada aşma, yalnız qəsdən zərər vurulduqda cinayət məsuliyyətinə səbəb olur.

**Maddə 39. Əsaslı risk.**

39.1. İctimai faydalı məqsədə nail olmaq üçün əsaslı risk nəticəsində bu Məcəllə ilə qorunan obyektlərə zərər vurulması cinayət sayılmır.

39.2. Göstərilən məqsədə risk ilə əlaqədar olmayan hərəkətlərlə (hərəkətsizliklə) nail olmaq mümkün deyildirsə və risk edən şəxs bu Məcəllə ilə qorunan obyektlərə zərər dəyməsini aradan qaldırmaq üçün zəruri tədbirləri görmüşdürsə, risk əsaslı hesab olunur.

39.3. Bilə-bilə insanların həyatı üçün təhlükə ilə, ekoloji və ya digər fəlakət təhlükəsi ilə müşayiət olunan risk əsaslı hesab edilmir

**(çıxarış)**

## IX Bölmə. İqtisadi sahədə cinayətlər

## XXIV Fəsil. İqtisadi fəaliyyət sahəsində olan cinayətlər.

Maddə 206. Qaçaqmalçılıq.

206.2. Narkotik vasitələrin, psixotrop maddələrin, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi silahın və texnikanın (yivsiz odlu silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), odlu silah və yaxud döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən və Azərbaycan Respublikası gömrük sərhədindən keçirilməsinin xüsusi qaydaları müəyyən edilmiş materialların və avadanlıqların, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üçün müvafiq qaydalar müəyyən edilmiş strateji əhəmiyyətli xammalın, mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə keçirilməsi – əmlakı müsadirə olunmaqla və ya olunmamaqla üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

206.3. Bu Məcəllənin 206.1. və ya 206.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

206.3.1. təkrar törədildikdə;

206.3.2. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədikdə;

206.3.3. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

206.3.4. gömrük nəzarətini həyata keçirən şəxsə zor tətbiq etməklə törədildikdə - əmlakı müsadirə olunmaqla və ya olunmamaqla beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

206.4. Bu Məcəllənin 206.1-206.3 maddələrində nəzərdə tutulmuş əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə - əmlakı müsadirə olunmaqla yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd: Bu maddədə "külli miqdar" dedikdə, keçirilən qaçaqmalçılıq əşyalarının dəyərinin dörd min manatdan yuxarı olan məbləğ başa düşülür.**

**X Bölmə. İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər**

**XXVI Fəsil. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər**

**Maddə 234. Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları, onların prekursorlarını (37) hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma**

234.1. Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama – üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.2. Satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psxiotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq nar-

kotik vasitələri və ya psixotrop maddələri satma – əmlakı müsadirə olunmaqla və ya olunmamaqla üç ildən yeddiilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.3. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları hazırlama, əldə etmə, saxlama, göndərmə, daşıma və ya satma – əmlakı müsadirə olunmaqla və ya olunmamaqla üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.4. Bu Məcəllənin 234.2 və 234.3-cü maddəsində nəzərdə tutulmuş əməllər:

234.4.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

234.4.2. təkrar törədildikdə;

234.4.3. külli miqdarda törədildikdə – əmlakı müsadirə olunmaqla beş ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.5. Narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlamaq üçün istifadə edilən və xüsusi nəzarət altında olan xammalın, prekursorların alətlərin və ya avadanlıqların, habelə narkotik vasitələrin və ya psixotrop maddələrin istehsalı, hazırlanması, emalı, saxlanması, buraxılması, satılması, bölüşdürülməsi, verilməsi, daşınması, göndərilməsi, əldə edilməsi, istifadə edilməsi, idxalı, ixracı, tranzit nəql edilməsi və ya məhv edilməsi qaydalarının bu qaydalara riayət etməli olan şəxs tərəfindən pozulması – şərti maliyyə vahidinin iki yüz mislindən min mislinədək miqdarda cərimə və ya beş ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:**

1. Narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını könüllü surətdə təhvil verən və ya narkotik vasitələrin,

psixotrop maddələrin və ya prekursornların onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmiş şəxs cinayət məsuliyyətindən azad edilir.

2. Bu fəsildə göstərilən narkotik vasitələrin və ya psixotrop maddələrin şəxsi istehlak miqdarından artıq miqdarı və digər miqdarları müvafiq normativ-hüquqi aktlar ilə qanunla müəyyən edilir.

**Maddə 235. Narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmə**

235.1. Narkotik vasitələri və ya psixotrop maddələri talama və ya hədə-qorxu ilə tələb etmə – üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

235.2. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədilə prekursorları talama və ya hədə-qorxu ilə tələb etmə –

əmlakı müsadirə olunmaqla və ya olunmamaqla iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

235.3. Bu Məcəllənin 235.1. və 235.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

235.3.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

235.3.2. təkrar törədildikdə;

235.3.3. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

235.3.4. həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə –

əmlakı müsadirə olunmaqla və ya olunmamaqla altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

235.4. Bu Məcəllənin 235.1-235.3-cü maddələrində nəzərdə tutulmuş əməllər;

235.4.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

235.4.2. külli miqdarda törədildikdə;

235.4.3. həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə;

235.4.4. əvvəllər tamala və ya hədə-qorxu ilə tələb etməyə görə iki dəfə və ya daha çox məhkum edilmiş şəxs tərəfindən törədildikdə – əmlakı müsadirə olunmaqla səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 236. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə**

236.1. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə – üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

236.2. Eyni hərəkətlər:

236.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

236.2.2. təkrar törədildikdə;

236.2.3. yetkinlik yaşına çatmayan, iki və ya daha çox şəxs barəsində bilə-bilə törədildikdə;

236.2.4. zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə – beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

236.3. Bu Məcəllənin 236.1 və 236.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya başqa ağır nəticələrə səbəb olduqda – yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 237. Qanunsuz olaraq narkotik xassəli tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə**

237.1. Qanunsuz olaraq narkotik xassəli tərkibində narkotik maddələr olan bitkiləri əkmə, yetişdirmə, onları (onların hissələrini) toplama, habelə çətənə, xaşxaş növlərini və ya tərkibində narkotik

maddələr olan digər bitkiləri kultivasiya etmə – şərti maliyyə vahidi məbləğinin iki yüz mislindən min mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

237.2. Eyni hərəkətlər:

237.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

237.2.2. təkrar törədildikdə;

237.2.3. külli miqdarda törədildikdə –

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 238. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama**

238.1. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün binalar vermə – dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

238.2. Eyni hərəkətlər:

238.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

238.2.2. təkrar törədildikdə – üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 239. Narkotik vasitələri və ya psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma**

Narkotik vasitələri və ya psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma – üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 240. Güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi**

240.1. Narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələri satış məqsədil ilə qanunsuz hazırlama, emal etmə, əldə etmə, saxlama, daşıma və ya göndərmə, habelə bu maddələri və ya onları hazırlamaq, yaxud emal etmək üçün avadanlığı qanunsuz satma – üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.2. Eyni hərəkətlər:

240.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

240.2.2. təkrar törədildikdə – iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.3. Bu Məcəllənin 240.1 və 240.2-ci maddələrində göstərilən əməllər:

240.3.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

240.3.2. külli miqdarda törədildikdə – dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.4. Güclü təsir edən və ya zəhərli maddələrin istehsalı, əldə edilməsi, uçotu, saxlanması, buraxılması, daşınması və ya göndərilməsi qaydalarının pozulması ehtiyatsızlıqdan onların talanmasına və ya başqa mühüm ziyan vurulmasına səbəb olduqda –
şərti maliyyə vahidi məbləğinin iki yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

## 5.13. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi (çıxarış)

**Maddə 206. Narkotik vasitələrin, psixotrop maddələrin istehlakı, narkotik vasitələrin, psixotrop maddələrin satış məq-**

**sədi olmadan şəxsi istehlak miqdarında hazırlanması, əldə edilməsi, saxlanılması, daşınması və ya göndərilməsi**

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin, psixotrop maddələrin istehlakına, narkotik vasitələrin, psixotrop maddələrin satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, daşınmasına və ya göndərilməsinə görə – üç yüz manatdan dörd yüz manatadək miqdarda cərimə edilir, işin hallarına görə və xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə – iki ayadək müddətə inzibati həbs tətbiq edilir.

**Qeyd: Satış məqsədi olmadan hazırladığı, əldə etdiyi, saxladığı, daşıdığı və ya göndərdiyi şəxsi istehlak miqdarında narkotik vasitələri, psixotrop maddələri könüllü surətdə təhvil verən şəxs bu maddədə nəzərdə tutulan hərəkətlərə görə inzibati məsuliyyətdən azad edilir.**

**Maddə 207. Narkotik vasitələrin, psixotrop maddələrin istehlakı və ya daşınması hallarının, habelə belə istehlak nəticəsində yaranmış sərxoşluq vəziyyətinin müəyyən edilməsi məqsədilə keçirilən tibbi müayinədən boyun qaçırmaq**

Narkotik vasitələrin, psixotrop maddələrin istehlakı və ya daşınması hallarının, habelə belə istehlak nəticəsində yaranmış sərxoşluq vəziyyətinin müəyyən edilməsi məqsədilə keçirilən tibbi müayinədən boyun qaçırmağa görə – üç yüz manatdan dörd yüz manatadək miqdarda cərimə edilir

**Qeyd:** Satış məqsədi olmadan hazırladığı, əldə etdiyi, saxladığı, daşıdığı və ya göndərdiyi şəxsi istehlak miqdarında narkotik vasitələri, psixotrop maddələri könüllü surətdə təşvil verən şəxs bu qeyddə nəzərdə tutulan hərəkətlərə görə inzibati məsuliyyətdən azad edilir.

**Maddə 208. Satış məqsədi olmadan tərkibində narkotik maddələr olan bitkilərin şəxsi istehlak miqdarında kultivasiyası**

Satış məqsədi olmadan tərkibində narkotik maddələr olan bitkilərin şəxsi istehlak miqdarında əkilməsi, yetişdirilməsi və ya toplanılmasına görə – yüz əlli manatdan iki yüz manatadək miqdarda cərimə edilir.

**Maddə 209. Tərkibində narkotik maddələr olan yabanı bitkilərin məhv edilməsi üzrə tədbirlər görülməməsi.**

Yerli özünüidarəetmə orqanlarının mülkiyyətində, bitkiçilik üzrə kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin icarəsində, istifadəsində və ya mülkiyyətində olan torpaq sahələrində aşkar edilmiş, tərkibində narkotik maddələr olan yabanı bitkilərin məhv edilməsi üzrə tədbirlər görülməməsinə görə – fiziki şəxslər yüz əlli manat məbləğində, vəzifəli şəxslər dörd yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir.

**Maddə 452. Fiziki şəxslərə dərman vasitələrinin buraxılması qaydalarının pozulması**

230.1. Apteklərdə resept təqdim edilməklə buraxılmalı olan dərman vasitələrinin reseptsiz buraxılmasına və ya yetkinlik yaşına çatmayanlara dərman vasitələrinin buraxılması qaydalarının pozulmasına görə – yüz əlli manatdan iki yüz əlli manatadək miqdarda cərimə edilir.

230.2. Aptek təşkilatlarında dərman vasitələri, optik ləvazimatları, ətriyyat-kosmetika, uşaq yeməkləri, müalicəvi mineral sular, bioloji fəallığa malik qida əlavələri və şəxsi sanitariya-gigiyena malları istisna olmaqla, digər malların satılmasına görə – üç yüz manatadək miqdarda cərimə edilir.

## 5.14. Azərbaycan Respublikasının Mülki Məcəlləsi (Çıxarış)

**Maddə 32. Fiziki şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması**

32.1. Spirtli içkilərdən və ya narkotik vasitələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salan fiziki şəxsin fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırıla bilər. Belə şəxsin üzərində himayəçilik təyin edilir. Onun xırda məişət əqdləri bağlamaq ixtiyarı vardır. O, yalnız himayəçisinin razılığı ilə başqa əqdlər bağlaya bilər, habelə qazanc, pensiya və digər gəlirlər götürə bilər və bunlar barəsində sərəncam verə bilər. Lakin bu cür fiziki şəxs bağladığı əqdlər üzrə və vurduğu ziyan üçün müstəqil surətdə əmlak məsuliyyəti daşıyır.

32.2. Fiziki şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasına səbəb olan əsaslar aradan qalxdıqda, məhkəmə onun fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasını ləğv edir. Fiziki şəxsin üzərində təyin edilmiş himayəçilik məhkəmənin qərarına əsasən ləğv olunur.

## 5.15. Azərbaycan Respublikasının «ƏAF haqqında» 28.X.1999-cu il tarixli Qanununun bəzi maddələrinin qısa şərhi və ondan çıxarış

**Əməliyyat-axtarış fəaliyyətinin subyektləri.**

**1. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri və onların səlahiyyət bölgüsü**

Əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş təhqiqat orqanları, korrupsiya ilə bağlı cinayətlər üzrə isə korrupsiyaya qarşı

mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanları həyata keçirir («ƏAF haqqında» Qanunun 5-ci maddəsi).

«ƏAF haqqında» Qanunun 5-ci maddəsi, CPM-nin 214-cü maddəsinə (cinayət işi üzrə təhqiqatın aparılması), «Azərbaycan Respublikası CPM-nin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanunun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikası CPM-nin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il tarixli Fərmanının 2-ci bəndinə, Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinin təşkil edilməsi haqqında» 28 fevral 2006-cı il tarixli Fərmanına və s. qanunvericilik aktlarına əsasən, ƏAF subyektlərinə DİN, MTN, ƏN, DGK, VN, XDMX, DSX, FHN, korrupsiya ilə bağlı cinayətlər üzrə isə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı aid edilir.

CPM-nin 86-cı (təhqiqatçı) maddəsində qeyd olunmuşdur ki, «təhqiqatçı öz icraatında olan işlə əlaqədar qeyri-aşkar üsullarla əməliyyat-axtarış tədbirləri keçirməyə haqlı deyil».

Əməliyyat-axtarış tədbirlərinin hansı subyekt tərəfindən və hansı həcmdə tətbiqi və subyektlərin səlahiyyət bölgüsü Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 507 saylı fərmanı ilə (2001 və 2016-cı illərədək edilən əlavə və dəyişikliklərlə) müəyyən edilir (onlar dərs vəsaitinin hüquqi əsaslar bölməsində və Əlavə 4-də qeyd edilmişdir).

Göstərilən fərmana əsasən, əməliyyat-axtarış tədbirləri Azərbaycan Respublikası Milli Təhlükəsizlik, Daxili İşlər, Ədliyyə, Vergilər Nazirlikləri, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, Xüsusi Dövlət Mühafizə Xidməti, Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikası Baş Prokurorunun yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi tərəfindən bu orqanların səlahiyyətləri daxilində, onların tələbatları və aşağıdakı məhdudiyyətlər nəzərə alınmaqla tətbiq edilir:

- telefon danışıqlarına qulaqasmanı, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılmasını milli təhlükəsizlik və daxili işlər nazirlikləri həyata keçirirlər;

- insanların güdülməsini, yaşayış yerlərinin, hasarlanmış tikililərin, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsini milli təhlükəsizlik, daxili işlər nazirlikləri, Azərbaycan Respublikası dövlət sərhədlərinin mühafizəsi ilə əlaqədar Dövlət Sərhəd Xidməti həyata keçirirlər.

İqtisadi sahədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə ilə əlaqədar öz səlahiyyətləri çərçivəsində binaların, yaşayış yerlərinin, hasarlanmış tikililərin, habelə qapalı tikililərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsini Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir;

- məhkumların məktublarının yoxlanılması ədliyyə nazirlikləri, korrupsiya ilə bağlı cinayətlər üzrə əməliyyat-axtarış fəaliyyəti Azərbaycan Respublikası Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi tərəfindən həyata keçirilir;

- hərbi hissələrdə və hərbi idarələrdə əməliyyat-axtarış tədbirlərinin tətbiqini təhlükəsizlik orqanları üçün müəyyən edilmiş həcmdə Milli Təhlükəsizlik Nazirliyi həyata keçirir;

- mühafizə edilən şəxslərin və obyektlərin təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış fəaliyyətini Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirir;

- əməliyyat-axtarış fəaliyyəti prosesində hüquqi şəxsin yaradılması milli təhlükəsizlik, daxili işlər və vergilər nazirliklərinə həvalə edilir.

Qeyd edilən Fərmanın 2-ci bənbinə əsasən, ƏAF subyektləri bu Fərmanın 1-ci bəndi ilə tətbiqi məhdudlaşdırılmış əməliyyat-ax-

tarış tədbirlərini qanunvericiliklə müəyyən edilmiş qaydada onların icrası həvalə edilmiş orqanlara sorğu göndərməklə həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin 22 may 2007-ci il tarixli «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanının 1.4-cü bəndinə əsasən qeyd edilən vasitə, maddələrin və onların prekursorlarının nəzarətli göndərişi və nəzarət qaydasında mal alınması əməliyyat-axtarış tədbirlərinin Azərbaycan Respublikasının MTN, DİN, DGK, DSX öz səlahiyyətləri çərçivəsində həyata keçirirlər.

Azərbaycan Respublikası Prezidentinin 13 aprel 2010-cu il tarixli «ƏAT-ın həyata keçirilməsində ƏAF subyektlərinin səlahiyyət bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin və 19 iyun 2001-ci il tarixli Fərmanına dəyişikliklər və əlavələr edilməsi barədə Fərmanına əsasən, iqtisadi sahədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə ilə əlaqədar Vergilər Nazirliyi öz səlahiyyətləri həddində hüquqi şəxsin yaradılması əməliyyat-axtarış tədbirlərini, habelə öz səlahiyyətləri çərçivəsində «ƏAF haqqında» Qanunun 10-cu maddəsinin I hissəsinin 9-cu bölməsində göstərilən obyektlərə müşahidəni həyata keçirmək hüququna malikdirlər.

Rabitə xidmətləri göstərən hüquqi və fiziki şəxslər üçün rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin təminatına dair texniki-təşkilati şərtlərin müəyyənləşdirilməsi MTN tərəfindən, DİN-in səlahiyyətlərinə aid olan hissədə DİN ilə razılaşdırmaqla XDMX tərəfindən həyata keçirilir. Rabitə şəbəkələrində aparılan ƏAT üzrə DİN və MTN-nin rabitə şəbəkələrinə qoşulması Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş hüquqi və fiziki şəxslər tərəfindən gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin işlə-

nilməsi, istehsalı, satışı, alınması, ölkəyə gətirilməsi və ölkədən çıxarılması Milli Təhlükəsizlik Nazirliyinə həvalə olunmuşdur.

**2. Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifələri**

Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifələri «ƏAF haqqında» Qanunun 6-cı maddəsində öz əksini tapmışdır.

Bu Qanunun 1-ci maddəsində göstərilən məqsədlərə nail olmaq üçün əməliyyat-axtarış fəaliyyəti subyektlərinin aşağıdakı vəzifələri vardır:

1) insan və vətəndaş hüquq və azadlıqlarının, fiziki və hüquqi şəxslərin qanunla müdafiə olunan mənafelərinin, ictimai və dövlət təhlükəsizliyinin qorunması üçün öz səlahiyyətləri daxilində bütün qanuni tədbirləri görmək;

2) əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair məhkəmə qərarlarını, istintaq orqanlarının qərarlarını və ya cinayət işləri üzrə yazılı tapşırıqlarını, habelə əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarlarını yerinə yetirmək;

3) əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş məlumatları, onların mənbəyini və əldə edilməsi üsullarını yaymadan, konkret cinayət işi üzrə təhqiqatı və ya istintaqı aparan şəxsə və yaxud məhkəməyə vermək;

4) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və müvafiq beynəlxalq təşkilatların sorğularına cavab vermək;

5) Azərbaycan Respublikasının ərazisində əməliyyat-axtarış fəaliyyətinin digər subyektlərinin səlahiyyətinə aid olan faktların aşkar edildiyi təqdirdə təxirəsalınmaz tədbirlər keçirməklə, onları xəbərdar etmək və lazımi kömək göstərmək;

6) əməliyyat-axtarış fəaliyyətini həyata keçirərkən konspirasiya qaydalarına riayət edilməsi üçün müvafiq tədbirlər görmək;

7) öz qulluq mövqeyinə görə məxfi məlumatlara və ya xüsusi icazə tələb edən işlərə buraxılan şəxsləri yoxlamaq;

8) öz əməkdaşlarının, onların yaxın qohumlarının, əməliyyat-axtarış fəaliyyəti subyektlərinə kömək edən şəxslərin, onların yaxın qohumlarının, habelə cinayət prosesi iştirakçılarının, onların yaxın qohumlarının şəxsi təhlükəsizliyini və əmlakının hüquqazidd qəsdlərdən qorunmasını təmin etmək;

9) hər hansı şəxslə əməkdaşlığın məxfiliyini və anonimliyini təmin etmək;

10) hadisələrin, faktların, əşyaların və digər informasiya mənbələrinin əməliyyat uçotunu aparmaq.

**3. Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin hüquqları**

Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin hüquqları «ƏAF haqqında» Qanunun 7-ci maddəsində öz əksini tapmışdır.

Əməliyyat-axtarış fəaliyyətinin subyektləri öz səlahiyyətlərini bilavasitə yerinə yetirərkən, qanunla müəyyən olunmuş aşağıdakı hüquqlara malikdirlər:

- «ƏAF haqqında» Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş qaydada əməliyyat-axtarış tədbirlərini aşkar və gizli üsullarla həyata keçirmək;
- əməliyyat-axtarış fəaliyyəti subyektlərinə məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq etmək;
- əməliyyat-axtarış fəaliyyətini təmin etmək üçün informasiya sistemi yaratmaq və ondan istifadə etmək;
- əməliyyat-axtarış fəaliyyəti zamanı müqavilə və ya şifahi razılığa əsasən fiziki və hüquqi şəxslərin yaşayış və qeyri-yaşayış binalarından və otaqlarından, nəqliyyat vasitələrindən və digər əmlakından istifadə etmək;
- konspirasiya məqsədilə uydurma idarə, müəssisə və ya təşkilat (hüquqi şəxs) yaratmaq, bu məqsədlə əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxslərinin şəxsiyyətini, bu orqanların bölmə, təşkilat, bina və nəqliyyat vasitələrinin idarə mənsubiyyətini, eləcə də bu orqanlarla məxfilik əsasında əməkdaşlıq

edən vətəndaşların şəxsiyyətini pərdələndirən sənədlərdən istifadə etmək.

Qeyd edilən hüquqlara malik əməliyyat-axtarış fəaliyyətinin subyektlərindən biri olan DİN-in (onların əməliyyat aparatları) ilk növbədə «Polis haqqında» Qanunla təsbit olunmuş «polis əməkdaşlanın ümumi hüquqları» (17-ci maddə), «cinayətlərin qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşlarının hüququ»nu (19-cu maddə), polis tərəfindən mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılmasını (24-cü maddə), CPM-nin 86 və 214-cü maddələrini (təhqiqatçı və təhqiqat orqanının səlahiyyətləri) və s. hüquq normalarını bilməli və onları rəhbər tutmalıdır.

**4. Əməliyyat-axtarış tədbirləri**

Əməliyyat-axtarış fəaliyyəti elmində əməliyyat-axtarış tədbirləri dedikdə, əməliyyat-axtarış fəaliyyətinin qarşısında duran vəzifələrin həlli üçün mühüm olan məlumatların əldə olunması və realizə (istifadə) edilməsi məqsədilə tətbiq olunan üsul və fəndlər sistemi başa düşülür.

«ƏAF haqqında» Qanunla (maddə 10, I hissə) müəyyən olunmuşdur ki, əməliyyat-axtarış fəaliyyətinin subyektləri aşağıdakı əməliyyat-axtarış tədbirləri tətbiq edə bilərlər:

1. vətəndaşların sorğusu;
2. soraqlaşma;
3. telefon danışıqlarına qulaqasma;
4. poçt, teleqraf və digər göndərişlərin yoxlanılması;
5. texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması;
6. məhkumların məktublarının yoxlanılması;
7. nəqliyyat vasitələrinə baxış keçirilməsi;
8. binalara, o cümlədən yaşayış binalarına, habelə digər qapalı tikililərə, qurğulara və torpaq sahələrinə daxil olma və baxış keçirmə;

9. binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, torpaq sahələrinin, qurğuların, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi;

10. insanların güdülməsi;

11. şəxsiyyətin eyniləşdirilməsi;

12. nəzarət qaydasında mal alınması;

13. əşya və sənədlərin tədqiqi;

14. müqayisəli tədqiq üçün nümunələrin toplanması;

15. nəzarətli göndəriş;

16. cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi;

17. hüquqi şəxsin yaradılması;

18. əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi.

Qeyd edilən əməliyyat-axtarış tədbirlərinin siyahısı yalnız qanunla dəyişdirilə bilər.

«ƏAF haqqında» Qanunun 10-cu maddəsinin I hissəsinin 3-5, 8 və 10-cu bəndlərində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə başqa yolla nail olmaq mümkün olmadıqda, məhkəmənin (hakimin) qərarı əsasında həyata keçirilə bilər. Qanunvericiliklə müəyyən edilmiş əsaslar olduğu hallarda əməliyyat-axtarış fəaliyyətinin subyektləri hakimin qərarı olmadan:

- şəxsiyyət əleyhinə ağır cinayətlərin və ya xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması üçün telefon danışıqlarına qulaq asa, poçt, teleqraf və digər göndərişlərini yoxlaya, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanı çıxara, habelə insanları güdə bilərlər;

- cinayəti hazırlayan, törədən, törətmiş, azadlıqdan məhrumetmə yerlərindən və ya həbsdən qaçmış və gizlənən şəxslərin yaxalanması, yanğın, partlayış və ictimai təhlükəsizliyə qəsd edən və ya qəsd edə biləcək halların aradan qaldırılması üçün binalara, o

cümlədən yaşayış binalarına, habelə digər qapalı tikililərə, qurğulara və torpaq sahələrinə baxış keçirə bilərlər. Həyata keçirilmiş tədbirlər barəsində 48 saat ərzində məhkəməyə əsaslandırılmış qərar təqdim edilməlidir.

«ƏAF haqqında» Qanunla (10-cu maddənin VII hissəsində, həmçinin müəyyən olunmuşdur ki, əməliyyat-axtarış tədbirlərinin siyahısında (10-cu maddənin I hissəsi) 16 və 17-ci bəndlərdə göstərilən əməliyyat-axtarış tədbirlərinin, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişinin tətbiqinə yalnız mütəşəkkil cinayətkar qruplar tərəfindən hazırlanan və ya törədilən ağır cinayətlərin, habelə xüsusi təhlükəli dövləti cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar yol verilir.

**5. Nəzarət qaydasında mal alınması**

Nəzarət qaydasında mal alınması – istehlakçıların aldadılması, dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış malların səlahiyyətli subyektlərin razılığı və nəzarəti altında uydurma alqı-satqısının həyata keçirilməsidir.

Bu tədbirin predmeti kimi, mülki dövriyyədə olan əşya, predmet və maddələr, dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış – silah, döyüş sursatı, narkotik vasitələr, psixotrop maddələr, prekursorlar, saxta pul əskinazları və xarici valyuta, radioaktiv və zəhərli maddələr, qaçaqmalçılığın predmetləri və s. ola bilər.

Göstərilən tədbir ƏAF subyektinin qərarı əsasında keçirilir. Tədbirin keçirilməsində ƏAF subyektlərinin həm aşkar, həm də məxfi əməkdaşları iştirak edə bilər.

Keçirilmə formasına görə bu tədbir aşkar və gizli ola bilər. Aşkar forma əsasən istehlakçıların aldadılması faktları ilə bağlı həyata keçirilir. Bu formanın mahiyyəti ondan ibarətdir ki, malın alınması açıq-aşkar həyata keçirilir. Lakin nəzarət qaydasında dövriyyəsi qadağan olunmuş və məhdudlaşdırılmış əşyaların, maddələrin xassə və xüsusiyyətlərindən asılı olaraq, bu tədbirin keçirilməsi

səlahiyyəti verilmiş subyektlər də müxtəlif ola bilər. Məsələn, «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunun 31-ci maddəsinə, Prezidentin 22.05.2007-ci il tarixli Fərmanına əsasən, nəzarət qaydasında qanunsuz narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların nəzarət qaydasında alınması hüquqları DİN, DGK, DSX və MTN-ə verilmişdir. Ancaq tədbirin məqsədi satıcıdan və ya maraq kəsb edən şəxsdən gizlədilir. Mal alındıqdan sonra dərhal satıcıya alıcının məqsədi elan olunur. Tədbiri keçirən hal şahidlərinin və satıcının iştirakı ilə alınmış mallar təkrar çəkilir, ölçülür və onların dəqiq çəkisi, miqdarı, ölçüsü və qiyməti müəyyən edilir və bu proses aktla rəsmiləşdirilir.

Bu tədbirin gizli forması, bir qayda olaraq, dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış malların, əşya və predmetlərin alınması məqsədilə tətbiq olunur. Gizli formada mal alınmasının nəticələri raportla, arayışla (arayış-memorandum) rəsmiləşdirilir. Zəruri hallarda tədbirdə iştirak edənlərin razılığı ilə onlardan izahatlar alına bilər.

Nəzarət qaydasında mal alınmasında alqı-satqını qeydə almaq üçün xüsusi texniki vasitələrdən istifadə edilə bilər, həmçinin onun gedişatına nəzarət etməklə, nəticələrindən gələcəkdə sübut kimi istifadə edilməsi üçün pul və digər ödəmə vasitələri nişanlana bilər. Nəzarət qaydasında mal alınmasının nəticələrinə dair tərtib olunan sənədlər əməliyyat-axtarış subyektlərinə, konfidensial əsaslarla köməklik göstərən şəxslərin iştirakı ilə keçirilən hallar istisna olunmaqla, ibtidai istintaqı həyata keçirən şəxsə cinayət prosesində sübut kimi istifadə olunması üçün verilə bilər.

**6. Nəzarətli göndəriş**

Nəzarətli göndəriş – cinayətkar fəaliyyət haqqında məlumatların əldə edilməsi məqsədilə sərbəst dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış, həmçinin cinayətkar qəsdlərin obyektləri və alətləri olan predmet, əşya və məhsulların göndərilməsi, alqı-satqısı,

yerinin dəyişdirilməsi üzərində gizli nəzarətin təyin edilməsi kimi başa düşülür.

Milli qanunvericilikdə «nəzarətli göndəriş» tədbiri ilk dəfə olaraq Gömrük Məcəlləsində və «ƏAF haqqında» Qanunda (maddə 10, I hissə, 15-ci bənd) öz əksini tapmışdır.

Bu tədbirdən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı dünya təcrübəsində (beynəlxalq) çoxdan istifadə olunur. BMT-nin 1988-ci il tarixli «Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» Konvensiyası, Azərbaycan Respublikasının 28.06.2005-ci il tarixli «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunu, Azərbaycan Respublikası Prezidentinin 22.05.2007-ci il tarixli Fərmanı və s. normativ aktlar bu tədbirin keçirilməsinin hüquqi əsasını təşkil edir.

Tədbirin obyektinin predmetinə istənilən məhsulları aid etmək olar: həm dövriyyəsi qadağan və ya məhdudlaşdırılmış predmet, əşya və məmulatlar (narkotik vasitələr, silah, döyüş sursatı, əntiq əşya, incəsənət nümunələri, qiymətli və nadir metal və s.), həm də cinayət yolu ilə əldə olunmuş və cinayətin izlərini özündə saxlayan və cinayətin törədilməsində istifadə olunan əşya, predmet, alət və vasitələr.

Gömrük məcəlləsinin 216-cı maddəsində bu tədbirin anlayışı aşağıdakı redaksiyada verilmişdir: "Nəzarətli göndəriş-qanunsuz dövriyyəyə daxil edilmiş ayrı-ayır malların xarici dövlətlərin gömrük və başqa səlahiyyətli orqanları ilə razılaşdırılmalara və beynəlxalq müqavilələrə uyğun olaraq ƏAF subyektlərinin nəzarəti altında gömrük ərazsinə gətirilməsi, bu ərazidən aparılması və ya tranzitlə keçirilməsi üzrə əməliyyat-axtarış tədbiridir. Gömrük sərhədindən keçirilən malların nəzarətli göndərişi haqqında qərarı DGK və ya onunla razılaşdırılmaqla ƏAF-ın digər subyektini qəbul edir ("Azərbaycan Respublikasının GM-nin təsdiq edilməsi haqqında"

Azərbaycan Respublikasının Qanununun təsdiq edilməsi barədə Fərmanın 28.7 bəndinə əsasən).

Bu tədbir əvvəlcədən hazırlanmış və səlahiyyətli subyekt tərəfindən təsdiq edilmiş plan əsasında həyata keçirilir.

Planda tədbirin məqsədi, əməliyyatın kombinasiyası, iştirak edəcək qüvvə və vasitələr, icraçıların vəzifələri, onların maddi və texniki təminatları və s. kimi təşkilati məsələlər öz əksini tapır.

Nəzarətli göndərişlər əsas üç növə bölünür: daxili, xarici və tranzit göndərişlər. Xarici və tranzit göndərişləri ancaq səlahiyyətli subyektlərin mərkəzi aparatlarının rəhbərlərinin icazəsi və xarici dövlətlərin hüquq-mühafizə orqanları ilə razılaşdırılmış şəkildə həyata keçirilir (belə tədbirin keçirilməsi dövlətlər, hökumətlərarası müqavilə, sazişlərdə nəzərdə tutula bilər və s.).

Nəzarətli göndərişlərin nəticələri raportla, arayışla, mədaxil-məxaric qaimələri ilə, aktla, izahatla və s. kimi xidməti sənədlərlə rəsmiləşdirilə bilər.

Göstərilən tədbir «ƏAF haqqında» Qanunun 11-ci maddəsində göstərilən səbəb və əsaslar olduqda, səlahiyyətli subyektin qərarı ilə həyata keçirilir.

«Əməliyyat-axtarış fəaliyyətinin subyektlərinin səlahiyyət bölgüsü haqqında» 19 iyun 2001-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən, DİN respublika daxili poçt göndərişlərin yoxlanılması səlahiyyətlərinə malik deyil, bu səlahiyyətlər MTN-ə verilmişdir. Beynəlxalq göndərişlərin yoxlanılmasını həyata keçirmək səlahiyyətlərinə malik olan subyektlərə isə MTN və Gömrük Komitəsi aid edilmişdir.

### 7. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəblər və əsaslar

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün əməliyyat-axtarış fəaliyyətinin subyektlərində «ƏAF haqqında» Qanunun 11-ci maddəsində nəzərdə tutulmuş səbəb və əsaslar olmalıdır (11-ci maddə, I hissə).

**Səbəblər aşağıdakılardır (11-ci maddə, II hissə):**

- fiziki şəxslərin ərizələri;
- müəssisə, idarə və təşkilatların vəzifəli şəxslərinin müraciətləri;
- kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlar;
- əməliyyat-axtarış fəaliyyəti subyektlərinin bilavasitə əldə etdikləri məlumatlar;
- əməliyyat-axtarış fəaliyyəti digər subyektlərinin yazılı sorğuları;
- Azərbaycan Respublikasının ali dövlət hakimiyyəti orqanlarının və xüsusi obyektlərini mühafizə edən orqanların yazılı sorğuları;
- cinayət işləri üzrə təhqiqatı və ya istintaq aparan şəxslərin yazılı tapşırıqları;
- xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və ya müvafiq beynəlxalq təşkilatların rəsmi sorğuları.

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün əsaslar aşağıdakılardır (11-ci maddə, III hissə):

- məhkəmənin (hakimin) qərarları;
- istintaq orqanlarının qərarları;
- əməliyyat-axtarış fəaliyyəti səlahiyyətli subyektlərinin qərarları.

**Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi barədə məhkəmənin (hakimin), istintaq orqanının və ya əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektinin qərarı yalnız aşağıdakı hallarda qəbul oluna bilər:**

- başlanmış cinayət işi mövcud olduqda;
- cinayət işinin başlanmasına kifayət qədər əsaslar olmasa da, cinayəti hazırlayan, törədən və ya törətmiş şəxs barəsində etimad doğuran, məlum və qərəzsiz mənbədən məlumat daxil olduqda;
- dövlət təhlükəsizliyinə və ya müdafiə qabiliyyətinə təhlükə yaradan hadisə baş verdikdə, yaxud onun qarşısı alındıqda;

- şəxs məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizləndikdə, cəza çəkməkdən boyun qaçırdıqda, yaxud itkin düşdükdə;

- naməlum meyit aşkar edildikdə.

**8. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair qərarlar, yazılı tapşırıqlar və sorğular**

Azərbaycan Respublikasının «ƏAF haqqında» Qanununa əsasən, əməliyyat-axtarış tədbirlərinin keçirilməsi barədə qərar, yazılı tapşırıq və ya rəsmi sorğu yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə belə səlahiyyətə malik olan şəxs tərəfindən verilə bilər.

Göstərilən sənədlərdə tədbirin zəruriliyi əsaslandırılmalıdır. «ƏAF haqqında» Qanunun 10-cu maddəsinin mətnində nəzərdə tutulmuş telefon danışıqlarına qulaqasma, poçt, teleqraf və digər göndərişlərin yoxlanılması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması, yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, habelə digər qapalı tikililərə, qurğulara və torpaq sahələrinə daxil olma və baxış keçirmə, həmçinin insanların güdülməsi tədbirlərinin keçirilməsi barədə **qərarda bundan başqa aşağıdakılar mütləq öz əksini tapmalıdır:**

- müvafiq tədbir keçirmək təklifi verən əməkdaşın soyadı, adı, atasının adı və vəzifəsi;

- haqqında tədbir keçirilməsi təklif edilən şəxsin soyadı, adı, atasının adı və ya obyektin təsviri;

- müdaxilə xarakterli üsul və vasitələrin tətbiq olunması haqqında tələbi əsaslandıran faktlar;

- adi təhqiqat üsulu vasitəsi ilə zəruri məlumatın alınmasının qeyri-mümkünlüyünün əsaslandırılması;

- müdaxilə xarakterli üsul və vasitələrin tətbiqinin nəzərdə tutulan müddəti;

- tədbir keçirilməsi ilə əlaqədar əldə edilə bilən nəticə.

Qərarın, yazılı tapşırığın, sorğunun forması, məzmunu, onun hansı idarəçilik səviyyəsində DİO-nun polis orqanları və onların əməliyyat aparatlarının rəhbərləri tərəfindən təsdiq olunması məsələləri təşkilati normativ aktlarla nizamlanmalıdır. Lakin bu münasibətləri tənzimləyən normativ aktla bu günə kimi hazırlanmayıbdır. Gömrük Məcəlləsinə əsasən, nəzarətli beynəlxalq göndərişlərin təşkili və həyata keçirilməsinə dair qərarı DGK-nın sədri qəbul edə bilər. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında 28 iyun 2005-ci il tarixli Qanuna edilən dəyişiklərə əsasən belə tədbiri (əməliyyatı)

DİN və MTN (MTN-in hüquqlarının DSX və XKX arasında bölünməsi nəzərə alnacaqdır) öz qərarı ilə DGK ilə razılaşdırmaq şərti ilə keçirilə bilər. Digər belə misal da göstərmək olar. "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin III və IV hissələrinə görə vətəndaşların əsas konstitusion hüquqlarının məhdudlaşdırılmasından asılı olaraq bu və ya digər əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair qərarı, HMO-in normativ aktları ilə müəyyən edilmiş HMO-ın və onların əməliyyat aparatının rəhbərləri, əməliyyat işləri üzrə rəis müavini, digər vəzifəli şəxslər və s. qəbul edə bilər.

**9.** «ƏAF haqqında» Qanunun 14-2-ci maddəsinə əsasən həbs yerlərində və CÇM-də əməliyyat-axtarış fəaliyyətini onların müdiriyyəti həyata keçirir. Müvafiq icra hakimiyyəti orqanları (DİN, MTN) öz səlahiyyətlərinə aid edilmiş cinayətlər üzrə ƏAF-ı həmin yerlərin və CÇM-nin müdiriyyəti ilə birgə həyata keçirirlər. Həmin yerlərdə və CÇM-də ƏAF-ın keçirilməsi zamanı qanunların icrasına nəzarəti bu Qanunun 20-ci maddəsində müəyyən edilmiş qaydada prokurorluq orqanları həyata keçirir.

**Maddə 12. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair qərarlar, yazılı tapşırıqlar və sorğular.**

I. Əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə qərar, yazılı tapşırıq və ya rəsmi sorğu yalnız Azərbaycan Respublikasının

qanunvericiliyi əsasında belə səlahiyyətə malik olan şəxs tərəfindən verilə bilər.

II. Əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə qərarda, yazılı tapşırıqda və ya rəsmi sorğuda belə tədbirin zəruriliyi əsaslandırılmalıdır.

III. Bu Qanunun 10-cu maddəsinin I hissəsinin 3-5, 8, 10-cu bəndlərində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə qərarda bundan başqa aşağıdakılar mütləq öz əksini tapmalıdır:

1) müvafiq təklifi verən əməkdaşın soyadı, adı, atasının adı və tədbir keçirmək vəzifəsi;

2) haqqında tədbir keçirilməsi təklif edilən şəxsin soyadı, adı, atasının adı və ya obyektiv təsviri;

3) müdaxilə xarakterli üsul və vasitələrin tətbiq olunması haqqında tələbi əsaslandıran faktlar;

4) adi təhqiqat üsulu vasitəsi ilə zəruri məlumatların alınmasının qeyri-mümkünlüyünün əsaslandırılması;

5) müdaxilə xarakterli üsul və vasitələrin tətbiqinin nəzərdə tutan müddəti;

6) tədbirin keçirilməsi ilə əlaqədar əldə edilə bilən nəticə.

**Maddə 14. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi.**

I. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi əməliyyat-axtarış fəaliyyəti subyektinin rəhbərliyinin nəzarəti altında həyata keçirilir.

II. Əməliyyat-axtarış tədbirlərinin keçirilməsi zamanı informasiya sistemlərindən, video və səsyazmadan, kino və fotoşəkillərdən, həmçinin vətəndaşların həyat və sağlamlığına, ətraf mühitə zərər vurmayan digər texniki vasitələrdən istifadə edilə bilər.

III. Həyata keçirilən əməliyyat-axtarış tədbirlərinə aşağıdakı hallarda son qoyulur:

1) Bu qanunun 1-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə nail olduqda;

2) haqqında keçirilən şəxsin hərəkətlərində cinayət tərkibinin mövcudluğu 6 ay ərzində müəyyən edilmədikdə.

VIII. Əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi, habelə əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunvericilikdə nəzərdə tutulmuş digər məlumatlar dövlət sirrinin bir növü kimi müvafiq qanunla müəyyən edilmiş qaydada mühafizə olunur.

IX. Əməliyyat-axtarış fəaliyyəti həyata keçirərkən dövlət sirri və xidməti sirr sayılan əməliyyat-axtarış fəaliyyətinin təşkilinə, əməliyyat məlumatlarının mənbəyinə, üsul və metodlarına, eləcə də vətəndaşların şəxsi və ailə həyatına dair məlumatlar aşkarlanmamalıdır.

X. Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə məxfi əməkdaşlıq etmiş və edən şəxslər barədə məlumatlar yalnız həmin şəxslərin yazılı razılığı qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda aşkarlana bilər.

**Maddə 15. Əməliyyat-qeydiyyat işi.**

I. Əməliyyat-axtarış tədbirlərinin keçirilməsi olduqda, bu qanunun 11-ci maddəsinin III hissəsində nəzərdə tutulmuş qərarların əsasında əməliyyat-qeydiyyat işi başlanmalı və bu iş əməliyyat-axtarış fəaliyyətinin subyekti tərəfindən mütləq qeydiyyata alınmalıdır (keçirilməsi sözündən sonra “zərurətin sözü rəsmi mətnlərdə qeyd edilməmişdir).

II. Əməliyyat-axtarış fəaliyyətinin subyektində məhkəmə istintaq və ya təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran, cinayət törətməkdə şübhəli olan və ya itkin düşən şəxslər haqqında eyni hüquqa zidd hərəkətlərə görə yalnız bir əməliyyat-qeydiyyat işi aparılmalıdır.

III. Əməliyyat-axtarış tədbirlərinin nəticələri əməliyyat-qeydiyyat işində əks edilməli və sistemləşdirilməlidir.

**Maddə 16. Əməliyyat-axtarış tədbirlərinin nəticələrindən istifadə edilməsi.**

I. Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar bu qanuna müvafiq əldə edildikdə və Azərbaycan

Respublikasının Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun təqdim edildikdə və yoxlandıqda, cinayət təqibi üzrə sübut kimi istifadə edilə bilər.

III. Şəxs haqqında xüsusi texnikanın köməyi ildə əldə edilmiş məlumatlar açıqlandıqda, həmin şəxs bu məlumatların qanunsuz əldə edilməsinə və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsində xüsusi texnikanın tətbiqinə icazə alınmasına əsaslanaraq ifadələrdən imtina və məhkəməyə şikayət edə bilər. Belə vəziyyətdə məhkəmə əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi qanuniliyi araşdırıb, mübahisəli məlumatların qanuni yolla əldə edilməsini və ya hüquqi baxımdan qüvvəsiz hesab olunmasını elan edir.

IV. Bu qanunun tələblərinə riayət olunmadan əldə edilmiş məlumatlar dərhal məhv edilməlidir.

VII. Hər hansı bir cinayətin törədilməsi ilə bağlı əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş məlumatlarla tanış olmaq hüququ məlumatların mənbəyini aşkarlamamaq şərti ilə yalnız həmin cinayət işi üzrə istintaq aparan şəxsə, prokurora və ya məhkəməyə verilir.

**Maddə 17. Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərin hüquqi və sosial müdafiəsi.**

I. Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslər dövlət tərəfindən müdafiə olunurlar.

II. Əməliyyat-axtarış tədbirlərində şəxslərin könüllü iştirakı bağlanmış müqavilə əsasında həyata keçirilə bilər.

III. Əməliyyat-axtarış fəaliyyəti subyektləri əməkdaşlıq edən şəxslərin əmək haqqı, mükafat və ya digər maddi təminatlar almaq hüququ vardır.

VIII. Əməliyyat-axtarış fəaliyyətinin subyekti ilə əməkdaşlığa cəlb olunmuş və cinayətin açılmasında fəal iştirak etmiş cinayətkar qrupun üzvü, tərkibində cinayət əməlləri olan və ağır nəticələrə səbəb olmayan əməllər törədibsə və vurulmuş zərəri ödəyibsə, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq cinayət məsuliyyətindən azad olunur.

**Maddə 19. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində qanunçuluğun təminatı.**

Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin rəhbərləri əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi zamanı qanunçuluğa əməl olunmasına nəzarət edirlər və buna görə fərdi məsuliyyət daşıyırlar.

**Maddə 20. Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarəti.**

III. Cinayət məsuliyyətinə cəlb olunması halları istisna edilməklə, cinayətkar qruplara və ya kriminagen obyektlərə daxil olmuş şəxslərin, əməliyyat-axtarış subyektlərinin ştatdan kənar və məxfi əməkdaşlarının şəxsiyyəti haqqında məlumatlar həmin şəxslərin yazılığı razılığı olduqda qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda prokuror nəzarətinin subyektinə təqdim edilə bilər.

IV. Əməliyyat-axtarış tədbirlərinin təşkili, taktikası, üsul və vasitələrinə dair məlumatlar (korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanının əməliyyat-axtarış tədbirləri ilə bağlı məlumatları istisna olmaqla) prokuror nəzarətinin predmetinə daxil deyil.

V. Əməliyyat-axtarış fəaliyyətinə nəzarəti həyata keçirən Azərbaycan Respublikasının baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar onlara verilən sənədlərdə əks olunan məlumatların məxfiliyini təmin etməlidirlər.

Maddə 21. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı qanunçuluğun pozulmasına görə məsuliyyət.

III. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən bu Qanunda nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirlərinin tətbiqi istisna olmaqla, şəxsin onun xəbəri olmadan və ya etirazına baxmayaraq, kütləvi informasiya vasitələrinin nümayəndələri və başqa şəxslər tərəfindən izlənməsi, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qalması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

## 5.16. Azərbaycan Respublikasının «Polis haqqında» 28.X.1999-cu il tarixli Qanunu (çıxarış)

**Maddə 3. Polisin təyinatı və əsas vəzifələri**

I. Azərbaycan Respublikasında polisin təyinatı insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqa zidd əməllərdən qorumaqdan ibarətdir.

**II. Polisin əsas vəzifələri aşağıdakılardır:**

1) ictimai qaydanı qorumaq və ictimai təhlükəsizliyi təmin etmək;

2) cinayətlərin və digər xətaların qarşısının alınması üçün tədbirlər görmək;

*2-1) yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində fəaliyyət göstərmək.*

3) şəxsiyyəti, insan hüquq və azadlıqlarını və mülkiyyəti hüquqa zidd əməllərdən qorumaq;

4) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda dövlət idarələrini və digər obyektləri mühafizə etmək;

5) törədilmiş cinayətləri açmaq;

6) cinayətlərin qeydiyyatını və uçotunu aparmaq;

7) cinayətkarları aşkara çıxarmaq və tutmaq;

8) səlahiyyətlərinə aid edilmiş işlər üzrə təhqiqat və istintaq aparmaq;

9) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər daxilində inzibati tənbeh və ya başqa təsir tədbirləri tətbiq etmək, tutulmuş və inzibati xətaya görə həbsə alınmış şəxsləri saxlamaq;

10) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək

11) kriminalistik və başqa tədqiqatların aparılmasını təmin etmək;

12) Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada istintaq təcridxanalarında əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;

13) hüquqi və fiziki şəxslərin əmlakını hüquqa zidd əməllərdən qorumaq məqsədi ilə müqavilələr bağlamaq;

14) Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş icazə-qeydiyyat işlərini aparmaq;

15) yol hərəkəti qaydalarına və hərəkət təhlükəsizliyinə riayət olunmasına nəzarət etmək;

16) yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görmək;

17) yol hərəkəti və onun təhlükəsizliyi göstəricilərinin vahid dövlət uçotu sistemini təşkil etmək.

III. Polisi bu Qanunla müəyyən edilməmiş vəzifələrin icrasına cəlb etmək qadağandır.

**Maddə 13. Polis əməkdaşının ümumi vəzifələri**

I. Polis əməkdaşının ümumi vəzifələri aşağıdakılardır:

1) hazırlanan cinayət və ya digər hüquqpozmaların qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər görmək;

2) cinayət və ya digər hüquqpozmalar törətmiş şəxsin tutulması və polisə gətirilməsi üçün tədbirlər görmək;

3) cinayətin baş verdiyi hadisə yerinin mühafizəsini təşkil etmək və şahidlərin müəyyənləşdirilməsi üçün tədbirlər görmək;

4) cinayətdən və digər hüquqpozmalardan, bədbəxt hadisədən zərərçəkmişlərə, həmçinin köməksiz, həyatı və sağlamlığı üçün təhlükəli vəziyyətə düşmüş şəxsə kömək və ilk tibbi yardımın göstərilməsini təmin etmək;

5) tutulmuş və ya həbsə alınmış şəxsin hüquqlarının və qanuni mənafelərinin pozulmamasını təmin etmək;

6) təbii fəlakətlər, qəzalar və digər fövqəladə hallar baş verdikdə insanların və əmlakın xilasetmə tədbirlərində iştirak etmək;

*6-1) yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınmasına yönəldilmiş tədbirlər həyata keçirmək;*

7) səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş davranış qaydalarına riayət etmək.

II. Polis əməkdaşları öz vəzifələrini həyata keçirərkən ayrıca əmr və ya göstəriş gözləmədən əməkdaşlıq etməyə, qarşılıqlı fəaliyyət göstərməyə və bir-birinə hərtərəfli kömək etməyə borcludurlar.

III. Hər hansı şəxsə müraciət edərkən polis əməkdaşı adını, soyadını, rütbəsini bildirməli və xidməti vəsiqəsini göstərməklə özünü təqdim etməlidir.

IV. Polis əməkdaşı öz səlahiyyətlərini həyata keçirərkən bilavasitə və birbaşa rəisinə tabedir.

V. Polis əməkdaşı həmçinin tabelik üzrə yuxarı rəisin əmr və göstərişlərini icra etməyə borcludur.

VI. Hər hansı vəzifələrin yerinə yetirilməsinə cəlb edildikdə, polis əməkdaşı xidmət üzrə tabeliyi olmayan polisin yuxarı rütbəli şəxsinin əmr və göstərişlərini icra etməyə borcludur.

VII. Polis əməkdaşı açıq-aşkar qanuna zidd əmr və ya göstəriş aldıqda qanunu rəhbər tutmalı, bu barədə polisin rəhbərliyinə məlumat verməlidir.

VIII. Açıq-aşkar qanunsuz əmri və ya göstərişi icra etməmək məsuliyyətə səbəb olmur. Belə əmri və ya göstərişi icra edən polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır.

**Maddə 15. Cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının vəzifələri**

Cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının vəzifələri aşağıdakılardır:

1) cinayətin və digər hüquqpozmanın qarşısının alınması, baş vermiş cinayət hadisəsinin aşkara çıxarılması və onu törədən şəxsin müəyyənləşdirilməsi, cinayəti doğuran səbəblərin öyrənilməsi və aradan qaldırılması üçün tədbirlər görmək;

2) cinayət və digər hüquqpozmalar haqqında daxil olan ərizələrin və məlumatların qəbul edilməsini, qeydiyyatdan keçirilməsini və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada tədbirlərin görülməsini təmin etmək;

3) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda və qaydada cinayət işlərini başlamaq, təhqiqat və istintaq aparmaq;

4) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;

5) bu maddənin 1-4-cü bəndlərində göstərilən məsələlər üzrə məhkəmənin (hakimin) və ya prokurorun qərarlarını, habelə müstəntiqin və ya təhqiqatçının qərarlarını və yazılı tapşırıqlarını icra etmək.

**Maddə 15-1. Yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində polis əməkdaşının vəzifələri**

Yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində polis əməkdaşının vəzifələri aşağıdakılardır:

1) yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında qanunvericilikdə göstərilmiş yetkinlik yaşına çatmayanlar, habelə onların tərbiyəsi, təhsili və saxlanması üzrə öz vəzifələrini yerinə yetirməyən və ya onların davranışına mənfi təsir göstərən, yaxud onlarla qəddar rəftar edən valideynlər və ya digər qanuni nümayəndələr barəsində profilaktik iş aparmaq;

2) yetkinlik yaşına çatmayanların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi barədə məhkəmənin qərarını yetkinlik yaşına çatmayanın qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə çatdırılması hissəsini icra etmək;

3) inzibati məsuliyyətə və ya cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş yaş həddinə çatmamış və yetkinlik yaşına çatmayanlar tərəfindən ictimai təhlükəli əməllərin törədilməsi, habelə yetkinlik yaşına çatmayanların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən valideynlər və ya digər qanuni nümayəndələr, yaxud vəzifəli şəxslər barəsində müraciətlərə öz səlahiyyətləri daxilində baxmaq;

4) müvafiq dövlət orqanlarına və müəssisələrə yetkinlik yaşına çatmayanların baxımsızlığına, qanunazidd əməllər törətməsinə imkan yaradan səbəb və hallar barədə məlumat vermək.

**Maddə 17. Polis əməkdaşının ümumi hüquqları**

Üzərinə düşən vəzifələrin yerinə yetirilməsi üçün polis əməkdaşının aşağıdakı hüquqları vardır:

1) hər bir şəxsdən cinayətlərə və digər hüquqpozmalara, şəxsiyyət və ictimai asayiş üçün təhlükə törədən və onlara şərait yaradan hərəkətlərə son qoyulmasını tələb etmək;

2) cinayət və ya inzibati xəta törətməkdə şübhə edilənlərin şəxsiyyətini müəyyənləşdirmək üçün sənədlərini yoxlamaq;

3) qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada cinayət və ya digər hüquqpozma törətmiş, yaxud törədilməsində şübhələnilən şəxsi tutmaq;

4) cinayətin və digər hüquqpozmanın törədilməsinə şərait yaradan halların aradan qaldırılması üçün qanunla müəyyənləşdirilmiş qaydada dövlət və qeyri-dövlət orqanlarına, müəssisələrə, idarələrə, təşkilatlara, siyasi partiyalara, ictimai birliklərə, həmkarlar ittifaqları təşkilatlarına və vəzifəli şəxslərə baxılması məcburi olan təqdimatlar vermək;

5) qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada yaşayış binalarına və ya digər tikililərə, torpaq sahələrinə, müəssisə, idarə, təşkilatların ərazilərinə və tikililərinə daxil olmaq;

6) xarici dövlətlərin diplomatik, konsulluq və başqa nümayəndəliklərinə, beynəlxalq təşkilatlara məxsus olan və xüsusi təyinatlı nəqliyyat vasitələri istisna edilməklə, son zərurət vəziyyətində hüquqi və fiziki şəxslərə məxsus olan nəqliyyat vasitələrində hadisə yerinə getmək, təcili tibbi yardıma ehtiyacı olan şəxsləri tibb müəssisələrinə çatdırmaq və cinayət törətmiş şəxsləri təqib etmək üçün bu nəqliyyat vasitələrindən istifadə etmək (belə hallarda nəqliyyat vasitələri sahiblərinin tələbi ilə onlara dəymiş ziyan polis tərəfindən ödənilməlidir);

7) dəbilqə, qalxan, zirehli köynək və digər fərdi mühafizə vasitələrindən istifadə etmək;

8) bu Qanunla müəyyənləşdirilmiş qaydada və hallarda fiziki qüvvə işlətmək, habelə xüsusi vasitələr və odlu silah saxlamaq, gəzdirmək və onları tətbiq etmək.

**Maddə 19. Cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının hüquqları**

Cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının aşağıdakı hüquqları vardır:

1) hazırlanan və törədilmiş cinayətlər haqqında ərizə və məlumatları yoxlamaq;

2) cinayətin açılması, təhqiqatın və istintaqın aparılması ilə əlaqədar hüquqi və fiziki şəxslərdən, dövlət sirri təşkil edən sənədlər istisna olmaqla, zəruri izahatlar, məlumatlar, arayışlar, sənədlər almaq, cinayət törətməkdə şübhələnilən şəxslərin barmaq izlərini götürmək, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada prosessual hərəkətləri həyata keçirmək;

3) əməliyyat-axtarış fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hüquqları həyata keçirmək;

4) cinayətin törədilməsi şəraitinin, onu törədən şəxsin, zərərçəkənlərin və şahidlərin müəyyənləşdirilməsi, gizlənən cinayətkarların və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı üçün dövlət informasiya vasitələrinin imkanlarından pulsuz istifadə etmək.

**Maddə 19-1. Yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində polis əməkdaşının hüquqları**

Yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində polis əməkdaşının aşağıdakı hüquqları vardır:

1) yetkinlik yaşına çatmayanları cinayətkar fəaliyyətə, fahişəliyə və ya digər əxlaqsız əməllərə cəlb etmiş, yaxud yetkinlik yaşına çatmayanlar barəsində digər qanunazidd əməllər törətmiş şəxsləri, habelə yetkinlik yaşına çatmayanların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən valideynləri və ya digər qanuni nümayəndələri, vəzifəli şəxsləri aşkar etmək, onlar barəsində öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlər görmək;

2) yetkinlik yaşına çatmayanlar tərəfindən hüquq pozuntularının törədilməsinə şərait yaradan səbəb və halların aradan qaldırılması üzrə öz səlahiyyətləri daxilində tədbirlər görmək, bu barədə müvafiq dövlət orqanlarına, idarə, təşkilat və müəssisələrə təkliflər vermək;

3) hüquq pozuntuları törətmiş yetkinlik yaşına çatmayanlar barəsində, habelə onların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən və ya onların tərbiyəsinə mənfi təsir göstərən, yaxud onlarla qəddar rəftar edən valideynlər və ya digər qanuni nümayəndələr, yaxud vəzifəli şəxslər barəsində Azərbaycan Respublikasının qanunvericiliyi

ilə nəzərdə tutulmuş qaydada tədbirlər görmək, habelə müvafiq təsir tədbirlərinin tətbiq edilməsi haqqında müvafiq dövlət orqanlarına təkliflər vermək;

4) qanunla müəyyənləşdirilmiş hallarda və qaydada məhkəmənin qərarına əsasən yetkinlik yaşına çatmayan şəxsi saxlamaq və yetkinlik yaşına çatmayanlar üçün müvəqqəti təcridetmə mərkəzinə gətirmək, habelə qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsini icazəsiz tərk etmiş yetkinlik yaşına çatmayan şəxsin müəssisəyə qaytarılması üçün tədbirlər görmək.

**Maddə 21. Polis tərəfindən azadlıq hüququnun məhdudlaşdırılması**

I. Polis əməkdaşı şəxsin azadlıq hüququnu hakimin qərarına əsasən tutulma və həbsəalma yolu ilə yalnız aşağıdakı hallarda məhdudlaşdıra bilər:

1) cinayət və ya inzibati hüquqpozma törədilməsində şübhəli olduqda, yaxud cinayət və ya inzibati hüquqpozma törətməsinə görə həbs olunduqda;

2) yetkinlik yaşına çatmamış şəxs üzərində tərbiyəvi nəzarət həyata keçirildikdə və ya səlahiyyətli orqana gətirildikdə;

3) yoluxucu xəstəliklərin yayılmasının qarşısı alındıqda, habelə ruhi xəstələr, alkoqoliklər, narkomanlar və avaralıqla məşğul olanlar zərərsizləşdirildikdə;

4) şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısı alındıqda və ya şəxs ölkədən çıxarıldıqda, yaxud başqa dövlətə verildikdə;

5) təqsirləndirilən şəxsin, cavabdehin, şahidin məhkəmə iclasına gəlməsini təmin etdikdə, atalığın müəyyənləşdirilməsi üçün test keçirildikdə, psixi müayinə aparıldıqda və ya hər hansı öhdəliyin yerinə yetirilməsi (müqavilə öhdəlikləri istisna olmaqla) təmin edildikdə.

II. Polis əməkdaşı hər hansı şəxsi o vaxt tuta və ya həbsə ala bilər ki, məhkəmənin (hakimin) qərarında məhz həmin şəxsin azadlıq hüququnun məhdudlaşdırılması nəzərdə tutulsun.

III. Polis əməkdaşı tərəfindən məhkəmənin (hakimin) qərarı olmadan hər hansı şəxsin təxirəsalınmadan tutulmasına yalnız aşağıdakı hallarda yol verilə bilər:

1) şəxs cinayət və ya inzibati xəta törədərkən, yaxud törətdikdən bilavasitə sonra yaxalandıqda;

2) hadisəni bilavasitə görənlər, o cümlədən zərər çəkmiş şəxslər məhz həmin şəxsin cinayət və ya inzibati xəta törətdiyini göstərdikdə;

3) şübhə edilən şəxsdə və ya onun paltarında, ona məxsus digər əşyalarda və ya mənzilində cinayətin və ya inzibati xətanın izləri tapıldıqda.

IV. ***AR-in 5 mart 2004-cü il tarixli Qanunu ilə çıxarılmışdır.***

V. Şəxsin qanunsuz tutulmasına və ya həbsə alınmasına yol vermiş polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş məsuliyyət daşıyır.

**Maddə 22. Polis tərəfindən azadlıq hüququnun məhdudlaşdırılma müddətləri**

I. Bu Qanunun 21-ci maddəsinin I hissəsində nəzərdə tutulmuş hallarda hər hansı şəxsin azadlıq hüququnun məhdudlaşdırılma müddəti yalnız qanunla müəyyənləşdirilir.

II. Bu Qanunun 21-ci maddəsinin III hissəsində nəzərdə tutulmuş hallarda hər hansı şəxsin azadlıq hüququnun məhdudlaşdırılması müddətləri inzibati xətanın törədilməsi ilə əlaqədar Azərbaycan Respublikasının inzibati xətalar haqqında qanunvericiliyi ilə, cinayətin törədilməsi ilə əlaqədar isə Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə müəyyənləşdirilir.

**Maddə 24. Polis tərəfindən mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılması**

I. Polis əməkdaşı tərəfindən hər hansı şəxsin mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılmasına və mənzilə orada yaşayanların iradəsi ziddinə daxil olmasına yalnız aşağıdakı hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada yol verilir:

1) hakimin qərarı olduqda;

2) digər şəxslərin hüquq və azadlıqlarının qorunması, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması və yaxud ağır cinayətlərin, bədbəxt hadisələrin, təbii fəlakətlərin, qəzaların, epidemiyaların və epizootiyaların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması məqsədi ilə təxirəsalınmaz tədbirlər həyata keçirildikdə.

II. Hakimin qərarı olmadan polis əməkdaşı mənzilə orada yaşayanların iradəsi ziddinə aşağıdakı əsaslardan birinin olduğu barədə dəqiq məlumatı və ya əsaslı şübhələri olduğu halda qanunvericiliklə müəyyən edilmiş qaydada daxil ola bilər:

1) mənzildə şəxsiyyət əleyhinə ağır cinayətin və ya xüsusi təhlükəli dövləti cinayətin törədilməsi;

2) cinayət törətmiş, həbsdən və ya cəzaçəkmə müəssisələrindən qaçmış şəxsin həmin mənzildə gizlənilməsi;

3) cinayət törətmiş şəxsin bilavasitə «isti izlərlə» təqib edilməsi;

4) mənzildə insan meyidinin olması;

5) mənzildə insan həyatı və ya sağlamlığı üçün real təhlükənin olması, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən cinayət məsuliyyətinə səbəb ola bilən əxlaqsız hərəkətlərin edilməsi.

III. Məhkəmənin (hakimin) qərarı və ya bu maddənin I və II hissələrində göstərilmiş hallardan və əsaslardan hər hansı biri olmadan mənzil toxunulmazlığı hüququnu məqsədəuyğunluq, müvəqqəti zərurilik və ya digər mülahizələrlə məhdudlaşdırmaq qadağandır.

IV. ***AR-in 5 mart 2004-cü il tarixli Qanunu ilə çıxarılmışdır***.

V. Bu maddənin müddəaları fiziki və ya hüquqi şəxslərə məxsus qeyri-yaşayış binalarına, tikililərə, torpaq sahələrinə və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş digər obyektlərinə daxilolma hallarına da şamil edilir.

VI. Mənzil toxunulmazlığı hüququnun qanunsuz məhdudlaşdırılmasına yol vermiş polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş məsuliyyət daşıyır.

**Maddə 25. Mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılması ilə bağlı polis əməkdaşının vəzifələri**

I. Mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılması ilə bağlı səlahiyyətlərini həyata keçirən polis əməkdaşı:

1) bu Qanunun 24-cü maddəsinin I və II hissələrində göstərilmiş hallar və əsaslar olmadan mənzilə orada yaşayanların iradəsi ziddinə əsassız daxil olmamalıdır;

2) mənzilə daxil olmazdan əvvəl orada yaşayan və ya müvəqqəti qalan başqa şəxsə mənzilə daxilolmanın əsaslarını bildirməlidir;

3) mənzilə daxilolma ilə əlaqədar mənzildə yaşayan şəxsə onun hüquqlarını, həmin şəxs mənzilə daxil olmağa icazə vermədikdə isə onun qanuna zidd hərəkət etdiyini izah etməlidir;

4) mənzilə orada yaşayanların iradəsi ziddinə daxilolma zamanı zəruri müdafiə və ya son zərurət halları istisna olmaqla, təhlükəsiz üsul və vasitələrdən istifadə etməli, mənzildə olan şəxslərin şərəf və ləyaqətinə, həyatı və sağlamlığına, mülkiyyətinə hörmətlə yanaşmalı, zərurət olmadan zərər vurulmasına yol verməməlidir;

5) mənzilə orada yaşayanların iradəsi ziddinə daxilolma faktını Azərbaycan Respublikasının qanunları ilə müəyyənləşdirilmiş qaydada təxirəsalınmadan protokollaşdırmalı və müvafiq polis orqanında qeydiyyatdan keçirməlidir;

6) ***AR-in 5 mart 2004-cü il tarixli Qanunu ilə çıxarılmışdır***;

7) mənzilə daxilolma ilə əlaqədar mənzildə yaşayanların şəxsi və ailə həyatının ona məlum olmuş hallarını açıqlamamalıdır.

II. Polis əməkdaşı mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılması ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirməlidir.

## 5.17. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 22 may 2007-ci il.

«Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində və 7.1-ci maddəsində (7.1.1-ci, 7.1.5-ci və 7.1.9-cu maddələrə münasibətdə) nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. həmin qanunun 5.3-cü maddəsinin ikinci cümləsində, 6.1-ci maddəsində, 6.4-cü maddəsinin ikinci və üçüncü cümlələrində, 10.3-cü maddəsində, 17-ci maddəsində, 26.3-cü maddəsinin birinci cümləsində və 26.5-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

1.3. həmin qanunun 6.2-ci maddəsinin birinci cümləsində, 7.1-ci maddəsində (narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankının təşkil edilməsi ilə əlaqədar 7.1.6-cı maddəyə münasibətdə), 18.2-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

1.4. həmin qanunun 24-cü maddəsində, 30.1-ci maddəsində, 30.3-cü maddəsinin birinci cümləsində, 30.4-cü maddəsində və 31-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi), Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Milli Təhlükəsizlik Nazirliyi), Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi) və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti öz səlahiyyətləri daxilində həyata keçirirlər;

1.5. həmin qanunun 32.2-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi), Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Milli Təhlükəsizlik Nazirliyi), Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi), Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi), Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi) və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti öz səlahiyyətləri daxilində həyata keçirirlər.

2. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, N 12, maddə 718) ilə təsdiq edil-

miş «**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə**»nin 9.7-ci bəndi aşağıdakı redaksiyada verilsin:

«narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların, eləcə də qanunvericiliklə nəzərdə tutulmuş digər əşyaların, habelə Azərbaycan Respublikasının dövlət sərhədlərindən keçirilməsinin qanunvericiliklə müəyyən edilmiş qaydada qarşısının alınmasını təmin edir».

**3. «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 174 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, N 8, maddə 484; 2002-ci il, N 8, maddə 478; 2004-cü il, N 1, maddə 19) qüvvədən düşmüş hesab edilsin.

4. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

## 5.18. Gömrük Məcəlləsindən (çıxarış)

24 iyun 2011-ci il tarixli 164-IV Q №li Qanunla təsdiq edilmişdir.

**Maddə 8. Gömrük orqanlarının vəzifələri.**

8.0.10. gömrük işi sahəsində cinayətlərə, həmçinin gömrük qaydaları əleyhinə inzibati xətalara və digər hüquqpozmalara qarşı mübarizə aparmaq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, silahların, ozonlaşdırıcı maddələrin, xalqların mədəni, tarixi və arxeoloji sərvətlərinin, əqli mülkiyyət hüquqları obyektlərinin, yox olmaq təhlükəsi altında olan heyvanların və bitki növlərinin, başqa malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq;

**Maddə 9. Gömrük orqanlarının hüquqları.**

9.0.6. malların, nəqliyyat vasitələrinin buraxılışından sonra şəxslərin bunlar barəsində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət etmək öhdəliklərinin yerinə yetirilməsini yoxlamaq, gömrük prosedurlarına nəzarəti həyata keçirmək, hüquqpozmaların operativ surətdə qarşısını almaq, əməliyyat-axtarış fəaliyyətini sürətləndirmək və digər məqsədlər üçün gömrük orqanlarının sistemi daxilində mobil qruplar yaratmaq;

9.0.7. təhqiqatı, istintaqı gömrük orqanlarının səlahiyyətinə aid edilmiş cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması, onları hazırlayan, törədən və törətmiş şəxsləri müəyyənləşdirmək məqsədilə qanunvericiliklə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;

9.0.8. cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təhqiqat və ibtidai istintaq aparmaq;

9.0.13. bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda və qaydada fiziki qüvvədən, xüsusi vasitələrdən (o cümlədən texniki vasitələrdən) və odlu silahdan istifadə etmək;

Maddə 19. Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti.

19.1. Gömrük orqanları təhqiqatının və istintaqının aparılması səlahiyyətlərinə aid edilmiş cinayətlərin qarşısının alınması, açkar edilməsi və açılması, onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi məqsədi ilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirirlər.

19.2. Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu və əməliyyat-axtarış fəaliyyətini tənzimləyən digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 214. Malların gömrük ərazisinə gətirilməsinin və bu ərazidən aparılmasının qadağan edilməsi.**

214.1. Milli təhlükəsizliyin, ictimai asayişin, insanların mənəviyyatının, həyat və sağlamlığının, mülkiyyət hüququnun, o cümlədən əqli mülkiyyət hüquqları obyektlərinin, heyvanlar və bitkilər aləminin, ətraf mühitin, xalqların bədii, tarixi və arxeoloji sərvətlərinin qorunması baxımından və Azərbaycan Respublikasının başqa maraqları nəzərə alınaraq, qanunvericiliyə və beynəlxalq müqavilələrə uyğun olaraq aşağıdakı malların gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması qadağandır:

214.1.1. saxta kağız və metal pullar;

214.1.2. gömrük ərazisinə idxalı və bu ərazidən ixracı qanunvericiliklə qadağan edilmiş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları;

214.1.3. pornoqrafik materiallar və əşyalar;

214.1.4. gömrük ərazisinə gətirilməsi və bu ərazidən aparılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən qadağan olunmuş mallar.

**Maddə 216. Gömrük sərhədindən keçirilən malların nəzarətli göndərişinin xüsusiyyətləri.**

216.1. Nəzarətli göndəriş – qanunsuz dövriyyəyə daxil edilmiş ayrı-ayrı malların xarici dövlətlərin gömrük və başqa səlahiyyətli orqanları ilə razılaşdırılmış mallara və ya beynəlxalq

müqavilələrə uyğun olaraq əməliyyat-axtarış fəaliyyəti subyektlərinin nəzarəti altında gömrük ərazisinə gətirilməsi, bu ərazidən aparılması və ya tranzitlə keçirilməsi üzrə əməliyyat-axtarış tədbiridir.

216.2. Gömrük sərhədindən keçirilən malların nəzarətli göndərişinə, malların qanunsuz beynəlxalq dövriyyəsi ilə bağlı törədilən və ya hazırlanan cinayətlərin qarşısının alınması, açılması və dövriyyədə iştirak edən şəxslərin aşkar edilməsi məqsədi ilə yol verilir.

216.3. Gömrük sərhədindən keçirilən malların nəzarətli göndərişi haqqında qərarı müvafiq icra hakimiyyəti orqanı və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla digər əməliyyat-axtarış fəaliyyətinin subyektləri qəbul edir.

216.4. Gömrük sərhədindən keçirilən malların nəzarətli göndərişi metodundan istifadə haqqında qərar qəbul edildikdə və malların təyinat yeri xarici ölkə olduqda, əməliyyat-axtarış işi açılmaqla, dərhal Azərbaycan Respublikasının Baş prokuroruna məlumat verilir və əməliyyat-axtarış tədbirlərinin nəticələrindən asılı olaraq, qanunvericiliklə müəyyən edilmiş qaydada cinayət işinin başlanılıb-başlanılmaması məsələləri həll edilir.

**Maddə 217. Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən malların götürülməsi.**

Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış mallar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda və qaydada götürülə bilər.

5.20. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən mülki dövriyyədən çıxarılmış və mülki dövriyyəsi məhdudlaşdırılmış malların götürüldüyü hallar və bunun Qaydasının təsdiq edilməsi haqqında" 27 avqust 232 №li Qərar (çıxarılış)

"Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci

il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 1.2.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

**5.19. "Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən mülki dövriyyədən çıxarılmış və mülki dövriyyəsi məhdudlaşdırılmış malların götürüldüyü hallar və bunun Qaydası" təsdiq edilsin (əlavə olunur).**

1.1. Bu Qayda Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 217-ci maddəsinə əsasən hazırlanmışdır və nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən mülki dövriyyədən çıxarılmış və mülki dövriyyəsi məhdudlaşdırılmış malların götürüldüyü halları və götürülmə qaydasını müəyyən edir.

1.3. Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış mallar (bundan sonra mallar) barədə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti əvvəlcədən məlumatlandırılır.

3. Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən malların götürülməsi halları.

3.1. Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən mallar aşağıdakı hallarda götürülür:

3.1.1. malların nəzarət altında təyinat yerinə çatdırılması üçün kifayət qədər qüvvə, vəsait və təminat olmadıqda;

3.1.2. nəzarətli göndəriş metodundan istifadə edilməsinə zərurət aradan qalxdıqda;

3.1.3. nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən mallar insanların həyat və sağlamlığına, habelə ətraf mühitə təhlükə yaratdıqda.

4. Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən malların götürülməsi qaydası.

4.1. Gömrük sərhədindən keçirilən malların götürülməsi (tam və ya qismən götürülməsi və ya əvəz edilməsi) hər bir halda nəzarətli göndərişin həyata keçirilməsində iştirak edən xarici

ölkənin gömrük və ya digər səlahiyyətli orqanları ilə razılaşma əsasında həyata keçirilir.

4.2. Gömrük sərhədindən keçirilən malların götürülməsini Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən gömrük orqanlarının və əməliyyat-axtarış fəaliyyətinin digər subyektlərinin nümayəndələrindən ibarət yaradılan komissiya həyata keçirir. Malların götürülməsi komissiyanın bu Qaydanın əlavəsində göstərilən aktı ilə rəsmiləşdirilir.

4.3. Gömrük sərhədindən keçirilən malların götürülməsi gömrük sərhəd buraxılış məntəqələrində keçirilməsi zamanı komissiyanın tərkibində müvafiq sərhəd-nəzarət-buraxılış məntəqəsinin əməkdaşları da daxil edilirlər.

**5.21. "Peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslərin dövlət narkoloji tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan keçməsi Qaydası" haqqında Nazirlər Kabinetinin 2003-cü il 8 fevral tarixli 18 nömrəli Qərarından çıxarılış**

1. Əhalinin hüquqlarının, qanuni manefələrinin və dövlətin təhlükəsizliyinin müdafiəsi məqsədilə peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslər işə qəbul olunduqda, işlədiyi müddətdə isə ildə bir dəfədən az olmayaraq dövlət narkoloji tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan) keçməlidirlər.

5. Dövlət narkoloji tibb müəssisəsi tərəfindən tibbi müayinə (tibbi yoxlama) haqqında rəy tərtib edilməli, onun əsli isə işə götürən idarəyə və ya müəssisəyə göndərilməli və işçinin şəxsi işinə tikilməlidir. İşçinin vaxtlı-vaxtında tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi təmin olunmalıdır.

**5.20. "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli 565-IIQ nömrəli Qanunu (çıxarılış)**

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı aşağıdakı kimi müəyyən edilsin:

8. Qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr, psixotrop maddələr və prekursorlar, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr və prekursorlar, narkotik vasitə və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlıq.

5.23. "Narkotik vasitələrin və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlığın siyahısı" barədə Nazirlər Kabinetinin 2001-ci il 21 aprel tarixli 83 nömrəli Qərarı.

Narkotik vasitələrin və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlığın siyahısına öz texniki və istifadə meyarlarına görə aşağıdakılar daxil edilir.

1. Məişətdə istifadə olunmayan xüsusi təyinatlı, texniki təsvirinə və texniki xarakteristikasına görə narkotik vasitələrin və psixotrop maddələrin sintezi və ya istehsalı prosesində tətbiqi üçün istifadə edilən avadanlıqlar.

2. Maddələrin qablaşdırılması üçün istifadə edilən mətbəx komplektlərinə daxil olmayan avtomat və ya əl qarışdırıcıları.

3. Yarımfabrikatları, boş ampulları, şpris-tübikləri və müxtəlif həcmli kapsulları hazırlayan avadanlıqlar.

4. Ampulların, şpris-tübiklərin, kapsulların markalaşdırılması üçün maşınlar və ləvazimatlar.

5. Ekstraksiya və süzülmə zamanı məhlulların soyudulması üçün istifadə olunan (məişət soyuducularından başqa) qurğular, habelə ekstraksiya və süzülmə üçün istifadə edilən digər qurğular.

6. Vakuum altında məhlulların təmizlənməsi üçün istifadə edilən qurğular;

**3.21. "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 avqust 1996-cı il tarixli 485 nömrəli Qərarı (çıxarış).**

Narkomanlığın və onunla bağlı cinayətkarlığın cəmiyyətin inkişafına mənfi təsir göstərməsi bu təhlükəli təzahürə qarşı əsaslı sosial-hüquqi tədbirlərin həyata keçirilməsi zərurətini yaratmışdır.

Azərbaycan Respublikasında narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək qərara alıram:

10. Narkotik vasitələrin və psixotrop maddələrin yeni növlərindən xəbərdar olmaları məqsədilə hüquq-mühafizə orqanları əməkdaşlarının təlimatlar və tövsiyələrlə təmin edilməsi, qeyri-qanuni saxlanan və dövriyyədə olan yeni növ narkotik vasitələr barədə mütəmadi olaraq siyahı-xülasənin tərtib olunması Azərbaycan Respublikası səhiyyə, daxili işlər, ədliyyə, milli təhlükəsizlik nazirliklərinə, Azərbaycan Respublikası Prokurorluğuna və Dövlət Gömrük Komitəsinə tapşırılsın.

12. Azərbaycan Respublikası Prokurorluğu, milli təhlükəsizlik, daxili işlər, səhiyyə nazirliklərinə və Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, narkomanlığa və narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə ixtisaslaşan xidmətlərin əməkdaşlarının peşə hazırlığının artırılması sahəsində kompleks tədbirlər hazırlayıb həyata keçirsinlər.

**3.22. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 4 mart 2011-ci il tarixli Qərarı (çıxarılış)**

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri üzrə qanunvericiliyin məhkəmələr tərəfindən düzgün və eyni cür tətbiq olunmasını, vahid məhkəmə təcrübəsinin formalaşdırılmasını təmin

etmək məqsədi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitutsiyasının 131-ci, "Məhkəmələr və hakimlər haqqında" Qanunun 79, 80-ci maddələrini rəhbər tutaraq Qərara alır:

Qanunun mənasına görə, narkotik vasitənin, psixotrop maddənin və prekursorların şəxsin özündə, nəqliyyat vasitəsi ilə və ya belə vasitələrdən istifadə etməklə yerinin dəyişdirilməsi onların daşınması kimi, belə maddələrin poçtla, baqajla, həmin maddələrdən xəbəri olmayan şəxsin vasitəsi ilə bu maddənin yerinin dəyişdirilməsi onların göndərilməsi kimi qiymətləndirilməlidir. Bu cinayətin subyekti təkcə narkotik vasitələrin və psixotrop maddələrin sahibi və onları müvəqqəti saxlayan şəxs deyil, həm də digər şəxslər ola bilər.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz olaraq Azərbaycan Respublikasının gömrük sərhədindən daşınmaqla və ya göndərməklə keçirilməsinin, həm də qaçaqmalçılıq cinayətinin tərkibini yaratdığı müəyyən edildikdə, təqsirkarın əməli cinayətin məcmusu qaydasında, yəni həm narkotik vasitələri və psixotrop maddələri qanunsuz daşımağa və ya göndərməyə görə və həm də qaçaqmalçılığa görə tövsif olunmalıdır.

7. Məhkəmələrin diqqətinə çatdırılsın ki, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" 28 iyun 2005-ci il tarixli Qanunda narkotik vasitələrin emalı və istehsal edilməsi anlayışlarına ayrıca şərh verilməmiş, onların emalı və istehsalı ilə bağlı hərəkətlər narkotik vasitələrin hazırlanması anlayışına daxil edilmişdir.

12. Dəstənin mütəşəkkil olması bir qrup şəxsin ediləcək cinayəti əvvəlcədən planlaşdırılması, cinayətkar qəsdin həyata keçirilməsi üçün vasitələrin hazırlanması, cinayətin iştirakçılarının seçilməsi və dəstəyə cəlb edilməsi, dəstəyə cəlb olunanların arasında rolların bölüşdürülməsi, cinayətin gizlədilməsini təmin edən tədbirlərin görülməsi və sair əlamətlərlə xarakterizə oluna bilər.

23. Cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında, qeyd olunan cinayətləri törətmiş şəxslərin aşkar edilməsində fəal iştirak etmə dedikdə, təkcə bu cinayətin predmetinin saxlandığı, hazırlandığı və satıldığı yer haqqında deyil, onların qanunsuz dövriyyədən əldə edilən əmlakın olduğu yer haqqında hüquq-mühafizə orqanlarına məlumat vermə başa düşülməlidir.

24. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 234-cü maddəsinin qeydinin 2-ci bəndində istinad edilən qanunda (siyahılarda) müəyyən olunmayan maddənin (o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin analoqlarının) əldə edilməsi və ya saxlanılması cinayət məsuliyyəti yaratmır.

**3.23. “Qaçaqmalçılıq işləri üzrə məhkəmə təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 1993-cü il 1 nömrəli Qərarı**

**(çıxarılış)**

2. İnzibati məsuliyyətə səbəb olan qaçaqmalçılıqdan fərqli olaraq, cinayət məsuliyyətinə səbəb olan qaçaqmalçılığın, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 71-ci maddəsinin (yeni Cinayət Məcəlləsinin 206-cı maddəsinin) tərkibini aşağıda göstərilən əlamətlər – Azərbaycan Respublikasının dövlət gömrük sərhədindən əşyaların külli miqdarda, ya da qaçaqmalçılıq ilə məşğul olmaq üçün təşkil edilmiş bir qrup şəxs tərəfindən gömrük nəzarətindən kənarda və ya ondan gizli keçirilməsi əlamətləri təşkil edir.

İstintaq orqanı tərəfindən müttəhimə cinayət məsuliyyətinə səbəb olan qaçaqmalçılığın konkret olaraq hansı əlamətinə görə ittiham verilmədiyi halda, iş əlavə ibtidai istintaq aparılması üçün göndərilməlidir.

Narkotik vasitələrin, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin, silahın və hərbi sursatın qaçaqmalçılığını törətmiş şəxs, yuxarıda göstərilən əlamətlərin olub-olmamasından asılı olmayaraq, cinayət məsuliyyətinə cəlb edilə bilər.

3. Qaçaqmalçılığın predmeti kimi tutulmuş əşyalar dedikdə, pul, qiymətli kağızlar və zinət əşyaları, mal-qara, narkotik vasitələr, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələr, Azərbaycan Respublikasının bədii, tarixi və başqa mədəni sərvətləri, azad dövriyyəsi qadağan edilmiş digər predmetlər başa düşülür.

4. Əşyaların Azərbaycan Respublikasının gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi dedikdə, boru kəməri nəqliyyatı və elektrik ötürücüsü xətləri də daxil olmaqla, hər hansı yolla əşyaların və digər predmetlərin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi, həmin ərazidən çıxarılması, yaxud Azərbaycan Respublikasının ərazisindən tranzit edilməsi başa düşülməlidir.

5. Əşyaların Azərbaycan Respublikasının gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi dedikdə, gömrük idarələrinin qanuni razılığı olmadan əşyaların Azərbaycan Respublikasının sərhədindən onlar tərəfindən müəyyən edilmiş yer və vaxta riayət edilmədən, habelə gömrük nəzarətindən gizli şəkildə keçirilməsi nəzərdə tutulmalıdır (məsələn, əşyalar haqqında mütləq elan edilməli və ya təqdim olunmalı məlumatları bilə-bilə gömrük nəzarətinə xəbər verməmək, əşyaların aşkar edilməsini və yoxlanılmasını çətinləşdirən üsulla keçirmək, onları öz adlarına uyğun olmadan təqdim etmək və s).

Qaçaq mal kimi tutulmuş əşyanın dəyəri müəyyən edilərkən, həmin əşyanın qaçaqmalçılığın aşkar edildiyi günə olan pərakəndə dövlət satış qiyməti əsas götürülməlidir. Həmin əşyaların dəyəri xüsusi normativ aktlarla müəyyən edildikdə, bu aktlar rəhbər tutulmalıdır.

Qaçaq mal kimi tutulmuş əşyaların pərakəndə qiymətləri, habelə onun dəyərini hesablamaq haqqında xüsusi normativ aktlar olmadıqda, əşyanın dəyəri oxşar mallar üçün olan pərakəndə qiymətlərə müvafiq surətdə müəyyən edilə bilər. Bu hallarda, qaçaq mal kimi tutulmuş əşyaların dəyəri ekspertlərin rəyinə əsasən müəyyən edilməlidir.

Götürülmüş xarici valyutanı qiymətləndirərkən, onun Azərbaycan Respublikasının valyutası ilə hesablanması Milli Bankın qaçaqmalçılığın aşkar edildiyi günə olan xarici iqtisadi əməliyyatlar üzrə hesablamalar üçün tətbiq edilən kursu ilə aparılmalıdır.

Əşyaların qaçaqmalçılıq ilə məşğul olmaq üçün təşkil edilmiş bir qrup şəxs tərəfindən gömrük nəzarətindən kənarda və ya ondan gizli keçirilməsi kimi tövsifedici əlamət kimi qaçaqmalçılıq predmetinin qiymətinin əhəmiyyəti yoxdur.

7. Dəstənin mütəşəkkil olmasını bir qrup şəxsin ediləcək cinayəti əvvəlcədən planlaşdırılması, cinayətkar qəsdin həyata keçirilməsi üçün vasitələrin hazırlanması, cinayətin iştirakçılarının seçilməsi və dəstəyə cəlb edilməsi, dəstəyə cəlb olunanların arasında rolların bölünməsi, cinayətin gizlədilməsini təmin edən tədbirlərin görülməsi və s. əlamətlər xarakterizə edə bilər.

9. Qaçaqmalçılıq faktiki olaraq əşyaların dövlət gömrük sərhədindən keçirildiyi andan bitmiş hesab olunur. Bu cür keçirməyə cəhd göstərmə, şəxsin iradəsindən asılı olmayan səbəblərə görə başa çatdırılmamışdırsa, qaçaqmalçılığa sui-qəsd hesab olunmalı və Cinayət Məcəlləsinin 15-ci (yeni Cinayət Məcəlləsində 29-cu) və 71-ci (yeni Cinayət Məcəlləsində 206-cı) maddələri ilə tövsif olunmalıdır.

11. Qaçaqmalçılığın predmetləri CPM-in 80-ci (yeni CPM-in 132-ci) maddəsinə əsasən, maddi sübut kimi dövlət gəlirinə müsadirə edilməlidir. Həmçinin dövlət sərhədindən əşyaların gizli yolla keçirilməsi üçün xüsusi saxlanc yerləri ilə təchiz edilmiş qaçaqmalçılığa görə məsuliyyətə cəlb edilmiş şəxslərə məxsus nəqliyyat vasitələri və digər cinayət alətləri də dövlət gəlirinə müsadirə olunmalıdır. Qaçaqmalçılığın predmetləri təqsirkar tərəfindən satıldığı halda, məhkəmə onların dəyərinin məhkumdan alınıb dövlət gəlirinə keçirilməsi məsələsini həll etməlidir.

## VI BÖLMƏ

# NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN TƏSNİFATINA, ONLARIN TƏSVİRİNƏ, FİZİKİ CƏHƏTLƏRİ VƏ İSTİFADƏ EDİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİNƏ DAİR MƏLUMATLAR

## 6.1. Narkotik vasitələrin və psixotrop maddələrin təsnifatı

Narkotik vasitələrin və psixotrop maddələrin təsnifatı müxtəlif meyarlara əsaslanaraq həyata keçirilir. Birləşmiş Millətlər Təşkilatının "Narkotik vasitələr haqqında" 1961-ci il Vahid Konvensiyasına əsas təsnifat narkotik vasitələrin təhlükəlik dərəcəsinə görə IV qrupla əhatə edilir. Belə təsnifata görə narkotik vasitələrin bu və ya digər qruplara aidiyyatı, onların təhlükəlik dərəcəsi BMT-nin "Psixotrop maddələr haqqında" 1971-ci il Konvensiyasına əsasən IV qrupa təsnif edilir. Bu prinsip BMT-nin Nümunəvi Qanununda da öz əksini tapmışdır. **Narkotik vasitələrin təsnifatı aşağıdakı meyarlara əsasən həyata keçirilə bilər:**

- *onların hazırlanmasında istifadə edilən ilkin maddələrə (xammala) görə;*
- *kimyəvi tərkibinə görə;*
- *kimyəvi təsirinə görə;*

**"Nümunəvi Qanun"a əsasən narkotik vasitələr və psixotrop maddələr aşağıda qeyd edilən 2 meyar rəhbər tutulmaqla təsnif olunur:**

- bitkilərin və maddələrin insan orqanizminə təsiri;

- bitkilərin və maddələrin tibbi məqsədlər üçün istifadə edilməsindən ötrü maraq və əhəmiyyət kəsb etməsi.

**Bu meyarlara əsaslanaraq narkotik vasitələr və psixotrop maddələr 3 qrupa bölünür:**

1. Xüsusi təhlükə təşkil edən və tibbi məqsədlər üçün istifadə edilməsi maraq kəsb etməyən bitkilər və maddələr (kannabiş, heroin, fantanilin törəmələri, psilosin, psilosibin, LSD, meskalin, DMA və onun analoqları və s);

2. Xüsusi təhlükəli olan və istifadə edilməsi tibbi məqsədlər üçün maraq və əhəmiyyət kəsb edən bitkilər və maddələr (morfin, kokain, tiryək, oksikodon, fentalin, metadon, kodein, fensiklidin, fenmetrazin və s);

3. Müəyyən təhlükəli xarakterli və istifadə edilməsi tibbi məqsədlər üçün maraq və əhəmiyyət kəsb edən bitkilər və maddələr (amobarbital, buprenorfin, barbitol, fenazepam, fenobarbitol, mezindol və s).

**Narkotik vasitələr öz mənşəyinə görə aşağıdakı qaydada təsnif olunur:**

* Bitki mənşəli narkotik vasitələr – marixuana, həşiş, tiryək küləşi, tiryək, psilosibin tərkibli köbələklər (bitki mənşəli xammaldan alınır);

* Adi sintetik mənşəli narkotik vasitələr – heroin, LSD (bitki mənşəli xammaldan alınan tərkibin sonradan kimyəvi yolla işlənməsi vasitəsi ilə əldə edilir);

* Sintetik mənşəli narkotik vasitələr – fensiklidin, promedol, fenamin, MDA, MDMA, alfa-metilfentanil, 3-metilfentonil, sufentanil.

**Narkotik vasitələr hazırlanma üsuluna görə aşağıdakı qaydada təsnif olunurlar:**

1. Kustar üsulla hazırlanan narkotik vasitələr (məişət avadanlıqlarından və alətlərindən, həmçinin mülki dövriyyədə olan reaktiv və həllediciləردən istifadə etməklə hazırlanır. Hazırlanma texnologiyası çox sadədir).

**1.1. Bitki mənşəli xammaldan alınan narkotik vasitələr:**

1.1.1. Mexaniki və termiki təsir (istiliyin təsiri) altında bitki mənşəli xammalın işlənməsi (marixuana, həşiş, lalə küləşi, tiryək, psilosibin tərkibli göbələklər və s.);

– bitki mənşəli xammalın mexaniki işlənməsi, yəni xırdalanması, preslənməsi və ya termiki işlənməsi (qurudulması).

1.1.2. Bitki mənşəli xammalın kimyəvi işlənməsi yolu ilə hazırlanan narkotik vasitələr (ekstraksiya edilmiş tiryək, həşiş yağı, asetilləşdirilmiş tiryək) – narkotik tərkibli bitki mənşəli xammalın tərkibindəki həlledicilər vasitəsilə narkotik xassəli maddələrin çıxarılması və kimyəvi reaktivlər vasitəsilə işlənilməsi yolu ilə həmin maddələrin alınması.

1.2. Dərman vasitələrindən hazırlanan narkotik vasitələr (efedrindən və psevdoefedrindən, N-metilefedrindən kustar yolla hazırlanan vasitələr) – müalicə məqsədi nəzərdə tutulmuş narkotikin sintezi üçün tərkibində maddə-pekursor olan dərman vasitələrindən istifadə etməklə hazırlanır;

1.3. Kimyəvi maddələrdən alınan narkotik vasitələr (metamfetamin, pervitin, fensiklidin) – kimyəvi maddələrdən sadələşdirilmiş texnologiya ilə hazırlanma yolu ilə əldə olunur;

2. Laborator üsulu ilə hazırlanan narkotik vasitələr (müxtəlif növ sintetik və yarımsintetik narkotiklər – xüsusi laborator avadanlıqlardan istifadə edilməklə alınır).

2.1. Narkotiklərin standartlaşdırılmış təsviri proseslərə müvafiq olaraq, hazırlanması yolu ilə əldə olunan narkotik vasitələr (fenadon, efedron, MDA, MDMA) – standartlaşdırılmış metodika əsasında müəyyən olunmuş hasilat miqdarında və fiziki-kimyəvi göstəricilərlə hazırlanır;

**3. Sənaye üsulu ilə hazırlanan narkotik vasitələr:**

3.1. Narkotiklərin standartlaşdırılmış təsviri proseslərə müvafiq olaraq (bütün hazırlanma prosesini dəqiqliklə əks etdirən sənəd) hazırlanması yolu ilə əldə olunan narkotik vasitələr (promedol-substansiya (toz), ampulada promedol məhlulu, ampulada fentanil-substansiya (toz) məhlulu, fenaminin həbləri və s.) – hazırlanma prosesini dəqiqliklə göstərən sənəd əsasında hazırlanır. Hazırlanan narkotik vasitələr müəyyən olunmuş xarici görünüşə, fiziki-kimyəvi göstəricilərə malik olur. Onlar standart formada maddənin adı yazılmış, qablaşdırılmış qaydada buraxılır.

Qeyri-leqal və leqal dövriyyədə müxtəlif adlara malikdirlər.

## 6.2. Tərkibində narkotik vasitələr olan bitkilər

**Hind halvası otu (latınca Areca catechu)**

Palma bitkiləri ailəsinə Areka nəslinə aid edilən ağac görünüşünə malik olan bitkidir. Bəzi hallarda onu Areka Palması və ya sadəcə Areka adlandırırlar. Lakin bu, o qədər də düzgün deyildir, belə ki, o, Areka nəslinə aid olan 50 növ bitkinin yalnız bir növüdür. Onun hündürlüyü 30 metrə qədər, hamar gövdəsinin diametri isə 20-50 sm. olur. O, toxumlarından istifadə etmək məqsədilə əkilib becərilir. Bu toxumlar əhənglə bitkinin

yarpaqlarına bükülərək onu yetişdiyi ərazilərin əhalisi tərəfindən çeynənilir. Bu toxumların tərkibində arekolin alkaloidi olur. Həmin alkaloid əsəb sistemini yüksək dərəcədə oyadır, tüpürcək ifrazatını artırır və yüngül narkotik effekt yaradır. Onu çeynəyənin ağızının içəri hissəsi və dili toxumda olan piqmentin qırmızı-kərpic rəngi ilə boyanır. Bu piqment pambıq-kağız parçaların rənglənməsində və tibb sahəsində göz xəstəlikləri ilə bağlı təcrübədə göz təzyiqinin azaldılması məqsədilə istifadə edilir. Bu bitki yabanı halda İndoneziyada, Vyetnamda, habelə tropik ölkələrdə bitir. Rusiyada oronjereyalarda becərilir.

**Areka katexy**





**Areka katexy** – (latın mənşəli sözdür). Betel palması – Areca catechu ağaca bənzər Areka və Palmalar ailəsinə məxsus bitkidir. Bəzən onu areka palması və ya sadəcə areka da adlandırırlar. Lakin nəzərə almaq lazımdır ki, o, Areka nəslinə məxsus olan 50-dən çox növdən biridir. O, əsas etibarı ilə toxumlarından istifadə etmək məqsədilə əkilib becərilir. Bu toxumlar əhənglə birlikdə bitkinin yarpaqlarına büküləcək yerli əhali tərəfindən çeynənilir və "moma"

adlanır. Toxumların tərkibində “arekolin”, “arkaidin”, “kuvakolin”, “quvasin” adlı alkaloidlər olur. Bu maddələr tüpürcəyin ifrazını gücləndirir, əlavə olaraq əsəb sistemini qızışdırır və yüngül narkotik effekt yaradır.

Asiyanın cənub-şərq ölkələrinin əhalisi “betel” deyilən saqqızdan çeynəməklə narkotik sərxoşluq vəziyyətinə düşürlər, belə ki, qeyd edilən alkoloidlər bu saqqızın tərkibində olur. Onun yarpaqları antiseptik xassəyə malikdir, meyvələri isə betel saqqızının hazırlanmasında istifadə edilir. Bitkidən qurd, dəri xəstəliklərinin müalicəsində istifadə edilir. Onun tibbi məqsədlər üçün hazırlanmış 8-10 qramının istehlakı zəhərlənmə ilə nəticələnə bilər, tez-tez qəbul etdikdə isə ürək bulanması, qusma, baş gicəllənmələri, ishal, qıctutma vəziyyətləri yaranır. Mütəmadi qəbul edilməsi ona öyrəşməyə, alışmağa (narkotik asılılığa) səbəb olur (Bu məlumat internet saytlarından əldə edilmişdir).

**Aroyreia nervoso**




**<u>Havay qızılgülü</u>** – (kiçik ağaca bənzər havaya qızılgülü, ingiliscə Hawaiian babu woodrose, latınca Aroyreia nervoso). Çoxillik ot bitkisidir. Onun təzə toxumlarının çəkisinin 0.3 %-ni

erqin, izoerqin, erqometrin, lizerqol, xanoklavin kimi lizerqin turşusunun (LSD) alkaloidləri təşkil edir. Onları ümumiləşdirilmiş "lizerqin turşusunun amidi" adı ilə ifadə edirlər. Havaya, Qaiti və Puerto-Rikoda, əhalinin yoxsullaşmış hissəsi ondan (onun toxumlarından) "ucuz keyf" olmaq üçün spirtli içkilərin alternativi kimi istifadə edirdilər. Hindistanda isə ənənəvi olaraq onun yarpaq və köklərindən antiseptik və soyuqdəyməyə qarşı istifadə edirlər. Onun qəbulu nəticəsində gözdə məkanda olmayan dəyişikliklər görünür, səslərin dəyişikliklərlə (təhrif edilmiş) qəbulu baş verir, halyusinasiya halları yaranır. 31 dekabr 2009-cu ildə Rusiyada onun toxumları nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların siyahısına daxil edilmişdir.

**Glaucium flavum**






**<u>Sarı qlausium</u>** (latınca Glaucium flavum), Qladiolus (Qladiolus L) iki illik çiçəklənən ot bitkisi, xaşxaş ailəsinin, Qlasium (Glaucium) nəslinə aid olan bir növüdür. Onun tərkibində apomorfim qrupunun izopinopinovin alkoloidləri olur ki, onlardan da ən əsasını qlausin təşkil edir. Bu ot bitkisində müxtəlif alkaloidlərin birlikdə miqdarı 3-4 % təşkil edir (1.5-2 % qlausin). Bitkidə qlausindən başqa, aurotenzin, kopridin, izokoridin,

xolidonin, xelirubin, sanqvinarin, xeleritrin də olur. Bu otda 15 alkaloid olur. Bitkidən alınan alkaloidlərdən bronxial asma, xroniki pnevmoniyanın müalicəsində istifadə edirlər. Çiçəkləri və yarpaqlarından alınan həlimdən orqanizmin kəskin dərəcədə oyanması, qıcıqlandırılması və ona qüvvə verən vasitə kimi xalq təbabətində istifadə edilir. Onun tinkturası tiryəkin alkaloidlərinin təsiri kimi özünü göstərir.

## Durman









**Durman** (latınca Datura) Dəlibənd (Datiscal L) – bir illik, xoşa gəlməyən iyə malik, 50 sm hündürlüyündə olan ot bitkisidir, nadir hallarda ağaca bənzər formada ola bilər. Meyvəsi qoz boyda formada, içərisində isə çoxsaylı toxumları olur. Bitkinin tərkibində əsasən qiossiomin, atropin və skopolamin üstünlük təşkil etməklə digər alkaloidlər olur. Onun vətəni Meksika və Mərkəzi

Amerikadır. O, hallyusinogen xassəyə malikdir, qədim vaxtlardan xalq təbabətində və cadugarlıq ayinlərində istifadə edilirdi. Onun qəbul edilməsi nəticəsində insanda reallıqla fantaziya arasında seçim qabiliyyəti itir, aqressivlik, işıqdan qorxma, həyəcanlanma, bədən hərarətinin yüksəlməsi, yaddaşın itirilməsi (amneziya), ürək döyüntülərinin artması kimi hallar yarana bilər. Onun tinkturasından revmatizmin və radikulitin müalicəsində istifadə edilir.

**Nymphaea caerulea**



**Mavi lotos, Mavi şanaqullə (Nelumbium spesiosim M.B rus dilində "qoluboy kuvşin" (latınca Nymphaea caerulea)** Kivşipkovoe nəslinin Kuvşinnovo ailəsinə aid su bitkisinin bir növüdür. Bu bitkinin tərkibinə daxil olan psixoaktiv təsirə malik maddələr aşağıdakılardır: aporfin, apomorfin, nusiferin, bioflavonoidlər, fitosteroplər və mürəkkəb efir yağları. Rusiya Federasiyası hökümətinin 31 dekabr 2009-cu il tarixli qərarına

əsasən bu bitkinin çiçəkləri və yarpaqları narkotik vasitələrin I siyahısına daxil edilmişdir.

Bu bitki Misirdə, Fələstində daha geniş yayılmışdır, onun çox gözəl çiçəkləri olur, günəşin çıxması ilə çiçəklər açılır, batması ilə onlar bükülür. Bitki suda və su vadilərində bitir, lakin onun yarpaqları suyun üzərində olur. Ondan qədim Misirdə dini mərasimlərdə istifadə edirlər. Qədim Misirdə ondan qaraciyərin müalicəsində, zəhərlərə və müxtəlif növ zəhərlənmələrə qarşı istifadə edilirdi. Onun yarpaqları və mavi səhənginin çiçəkləri narkotik xassəyə malikdir. Bitkinin istehlakı nəticəsində əqli proses güclənir, vizual (görmə) prosesi yaxşılaşır, həmçinin görmə halyusinasiya prosesləri baş verə bilər.

**Kaleya zakateçiçi** (latınca Calea zacatechichi, ispanca loja de dios – "Allah yarpağı") – çoxşaxələnmiş kol, Astrovıe ailəsinə aid olan, hündürlüyü 1-1.5 m olan, Cənubi Meksikadan Şimali Kosta-Rika arasında məkanda yabanı halda bitən bitkidir. Onun tərkibində (seskviterpenlərdən) flavonoidlərdən ibarət, lakin hələ təmiz halda əldə edilməyən alkaloidlərin qarışığı olur ki, o da psixoaktiv təsirə malikdir. Onun tərkibində 15 növ alkaloid olur. Qeyd edilən ölkələrin yerli əhalisi mədə-bağırsaq pozuntularına qarşı və yüksək hərarətin aşağı salınmasında müalicə vasitəsi kimi istifadə edirlər. O, həmçinin, sakitləşdirici və yüngül yuxugətirici xassəyə malikdir. Onun dadı acı olur, yarpaq və çiçəkləri siqaret halında və ya çay dəmləməklə istifadə edilir.

**Kat** (latınca Catha) – daimi yaşıl olan, xarici görünüşünə görə çay koluna oxşayan bitkidir. Bu bitki narkotik xassəli maddəyə malikdir və ona görə də onun haqqında geniş məlumat var. Bu bitkinin qurudulması nəticəsində ən aktiv maddə olan kation buxarlanır və bitkinin qurudulmuş kütləsində daha yüngül təsirə malik katin qalır (səh. 225-də daha geniş qeydlər var).

**Çətənə** (kənaf, latınca Cannabis) – səh. 195-200-ə bax.

**Kokain kolu və ya koka** (latınca Erythroxylum coca – səh. 206-210-a bax).

**Uilyamsın Lofoforası** (Lophophora Williamsii) – Şimali Amerikanın kaktusu olan və Peyot ailəsinə aid bitkidir. Bu kaktusun baş (təpə) hissəsində bir qədər göbələyə bənzər tumurcuqlar yerləşir. Məhz bu tumurcuqlarda maskalin adı daşıyan narkotik təsirə malik olan maddə olur. Yerli əhali bu "butonları", narkomanlar isə həm onları, həm də bütün bitkini yeyirlər.

## Mandraqora





**Mandraqora** (latınca Mandraqora) Danaqıran – çoxillik Quşüzümü (Paslenovıe) ailəsinə aid olan ot bitkisidir. Onun kökləri bəzi hallarda jenşen (həyat kökü) kimi insanın bədən formasına bənzəyir və ona görə də onun sehirli (ecazkar) təsirə malik olmasına dair şaiyələr yayılmışdır.

Bitkinin meyvələri, kökü və toxumlarının tərkibində atropik, qiossiamin, mandraqorin, skopolamin kimi alkaloidlər daxildir. Bitkinin meyvələri kiçik sarı almaları xatırladır, şirin dada və incə iyə malikdir. Misirlilər onun hisslərin oyadılması vasitəsi kimi hesab edirdilər. Meyvələri sübh vaxtı işıq saçır, buna səbəb onun tərkibində olan fosfordur. Onun ağrıkəsici, sakitləşdirici narkotik, anesteziya xassələri var və çox miqdarı hallyusinasiya halı yaradır.

**Tiryək Xaşxaşı** (latınca Papaver) – ətraflı 182-185 səhifədə verilmişdir.

## Mimoza



**Mimoza,** Pişik dırnağı, tenuiflora (latınca Mimosa – çiçəklənən bitkilər nəslinin mimozalar ailəsinə aid olan otdur, kol və ya kiçik ağac formasında olur. Mimoza tərkibində psixoaktiv maddələr daşıyır. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, onun tərkibində olan DMT, 5-MeO-DMT və betakarboliklər insan psixikasına təsir edir. Cənubi Amerikanın hinduları ondan ənənəvi hesab edilən "Ayyaski" adlı psixoaktiv qarışıq maddə alırlar.

Rusiyada və bir sıra Avropa ölkələrində onun, Salvinorın və Salvia divinorum üzərində nəzarət qanunvericilikdə nəzərdə tutulmuşdur.

**Girz, Muskat ağacı** (latınca Myristika cövüz, muskat qozu) iki evli daim yaşıllar nəslinin Muskatlar ailəsinə aid olan bitkidir. Muskat qozunun tərkibində metilendioksidin və onun əvəzedilən

birləşmələri – miristisin, elemişin, safrol olur. Onlar psixodepik effekt verirlər. Miristisin MDMA-nın, elemisin isə və safrol isə TMA və MDA-nın prekursorları sayılırlar.

**<u>Muxomor,</u> mamır** (latınca Amanita – plastik göbələklərin mikroyaranan nəslinin Amaitlər ailəsinə aiddir. Bu nəslə aid olan əksər göbələklər zəhərli olduqları üçün qida üçün yararsızdırlar, onun dərhal ölümə səbəb olan növləri də vardır ki, onları da bəzən qidada yararlı olan göbələklərlə dəyişik salırlar. Qırmızı muxomorun orta taksiki təsirdən başqa, həm də hallyusinogen təsiri vardır. Onun tərkibində daha aktiv hallyusinogen təsirə malik mussimol maddəsi vardır. Onun tərkibində xolin, muskarin və mussilin kimi alkoloidlər var. Göbələyin bəzi növlərində psixotrop maddələr olur. Onlar əsəb sisteminə təsir edərək insanlarda hallyusinasiya, baş gicəllənməsi, qıcolma və s. hallar yaradır.

**İpomeya**



**Mavi, göy ipomeya** (latınca ipomoea violaeea) – İpomeya nəslinin Vyukovıe ailəsinə aid bitkidir. O, MDB ölkələrində rus dilində "Утренная слова" və "Утренее сияние" adı altında məlumdur. Bu bitkinin qismində dörd növü mövcuddur ("Heavenly Blue", "Pearly Gates", "Flying Saucers" və "Blue Star") və onlar psixoaktiv xassəyə malikdirlər.

Bitkinin toxumları psixoaktiv maddələrə malikdir və Amerikanın yerli kökü olan əhalisi tərəfindən keçirilən ecazkar (sehrbaz) ayinlərdə (mərasimlərdə) istifadə edilir. Onun tərkibində psixoaktiv təsirə malik və LSD-yə qohum olan ergin (lizergin turşusunun amidi) olur. Bundan əlavə, az miqdarda erqometrin və lizergin turşusunun a-hidroksietilamidi onun tərkibinə daxildir.

Onun psixoaktiv növləri erqotik alkaloidlərinə malikdir (erqin, erqobazin, lizergin turşusunun hidroksietilamidi). O, insanın psixikasına təsir edir, orqanizmdə baş gicəllənməsi, qusma, mədədə ağrılar, əzələlərin gərginləşməsi baş verir. Onun təsirindən qaraciyər sıradan çıxır. Onun təsiri nəticəsində aqressivlik, idarə etmək mümkün olmayan davranış, insanın özünü və ətrafını dərk etməməsi və bir sıra psixoz vəziyyətlər yaranır.

## Kava-kava



**<u>Sərxoşedici bibar, kava, kava-kava</u>** (latınca Piper methysticum). O, kol halında, hündürlüyü 2-2.5 m olan ot bitkisidir. Onun toxumları olmur, veqetativ yolla çoxalır, kökləri ətirli olur. Bitkinin kökündə vitamin C, ketonlar, şəkər, zülal, mikroelemetlər (kalium, maqnezium, alyuminum, dəmir, nişasta, flavonabinlər) olur. Onun çox miqdarda və ya ardıcıl qəbulu dəridə səpkilər, hallyusinasiya, kor olma, iflic halına gətirə bilər. Bu bitki kava-paktonlar (5-12 % kavapironlar) maddələri daşıyır ki, onların da əsas komponentləri Kavain, Diqidrokavin, Metistisin, Diqidrometistisin, Yanqonin, Desmetoksiyanqonindir. Onun köklərindən ənənəvi olaraq sakitləşdirici kimi, lakin yağlı ekstratından isə hallyusinogen qismində istifadə edilir. Bu bitkini və ondan hazırlanmış içkini kava adlandırırlar. Kava orqanizmə, o cümlədən sinir sisteminə sakitləşdirici kimi təsir edir və bu halda insanın düşüncə aydınlığına mane olmur.

**<u>Psilosibe</u>** (latınca Psilocybe) – Strofarievıe ailəsinin göbələklər sinfinə aiddir (ətraflı səh. 241-243-ə bax).

**Salviya divinorum**








**<u>Salviya divinorum,</u> Salviniya** (latınca salvia divinorum, rus dilində "шалфей предсказателей" və ya "шалфей наркотический" – Şalfsu nəslinə aid bitkidir, onun yarpaqlarından dissosiativ xassəyə malik psixoaktiv hallyusinogen olan salvinorin – A və salvinorin – B alınır: O, çoxillik bitkidir, subtropik olan ərazilərdə bitir, əvvəl ot, sonradan isə yarım kol halını ala bilər, təbii şəraitdə 1-1.5 m hündürlükdə olur. Onun 1000-dən çox növü mövcuddur, vətəni Meksika sayılır. Bitkidən hindular "şaman"

mərasimlərində, az dozalarından isə baş ağrıları və revmatizmin müalicəsində istifadə edilir.

**San-Pedro** (latınca Echinopsis pachanoi) – Cənubi Amerika sütun görünüşlü, tez yetişən Exinopsis nəslinə malik olan kaktus bitkisidir. Onun tərkibində Peyotun tərkibinə daxil olan maskalin olur (ətraflı 257-259 səh.bax).

## Xeymiya ivolistaya



**Xeymiya ivolistaya** (latınca Heimia Salicifolia, Sinickichi) – kiçik, tünd-yaşıl yarpaqları və adətən həddən artıq dərəcədə çoxsaylı parlaq sarı çiçəklərə malik, kol formasında olan bitkidir. Amerika hinduları ondan müəyyən ecazkar ayinlərin (mərasimlərin) keçirilməsində istifadə edir. Bu bitki hallyusinogen xassəyə malikdir. Ondan aşağıdakı alkaloidlər alınır: 9-beta-hidroksivertin, lizrin, dehidrodekadin, litridin, vertin, xeymidin, lifolin, epilifolin. O ən çox Kolumbiya və Argentina meşələrində, Meksikada və Amerikanın cənubunda (Texas ştatında) bitir. O, sedativ təsirlə yanaşı, qulaqlarda səs hallyusinasiyası yaradır. Orqanizmə ən təsir edən maddə krioqenindir. Tibbdə əsas 2 alkoloid vertin (digər adı krioqenin) və nezodik istifadə edilir. Xeymiyanı qəbul edən şəxsdə

yaddaş yaxşılaşa bilər, lakin səslərin təhrik edilmiş dərk edilməsi baş verir, bəzən isə eyforiya hissləri yarana bilər. Eyni zamanda, yüksək yuxubasma, görmə qabiliyyətinin pisləşməsi, temperaturun aşağı düşməsi, qusma, başın "ağırlaşması" halları ola bilər.

**Efedra** (latınca Ephedra) – Efedra ailəsinin kollar nəslinə aid bitkidir. Onun tərkibinə zəhərli alkaloidlər olan efedrin və psevdoefedrin (2%) və s. maddələr daxildir (ətraflı səh. 223-224-ə bax).

**Tərkibində narkotik vasitələr olan bitkilərin bir qismi bəzi obyektiv və subyektiv səbəblərdən bir sıra dövlətlərin milli qanunvericiliyində, həmçinin beynəlxalq qanunvericilikdə dövriyyəsi qadağan olunan, məhdudlaşdırılan və ya nəzarət altında dövriyyəsinə icazə verilən narkotik vasitələrin siyahısına daxil edilməmişdir. Məhz ona görə də onların qanunsuz dövriyyəsinə qarşı mübarizənin müxtəlif istiqamətlərində (cinayət - hüquqi, kriminoloji, sosial-iqtisadi, psixoloji və s.) problemlər mövcuddur. Bu istiqamətdə bir sıra alimlər tərəfindən elmi araşdırmalar aparılmışdır (onlar arasında yekdil bir fikir yoxdur, bu isə bir sıra problemlərin mövcud olması ilə bağlıdır). Məsələn, hüquq üzrə fəlsəfə doktoru H.A.Aslanov tərəfindən həyata keçirilən tədqiqatlar nəticəsində tərkibində narkotik vasitələr olan bitkilərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin cinayət-hüquqi, kriminoloji və s. aspektlərinə dair maraqlı təkliflər verilmişdir**.

**Zənnimizcə qeyd edilən bitkilərin qadağan edilən, tərkibinidə narkotik vasitələr və psixotrop maddələr olan bitkilərin siyahısına daxil edilməməsinin əsas səbəblərinə aşağıdakıları aid etmək olar: bir sıra dövlətlərdə onlardan uzun illər ənənəvi olaraq bir çox xəstəliklərin müalicə edilməsində ("xalq təbabətində") istifadəsi; milli mərasimlərin, dini ayinlərdin və müxtəlif şənliklərin keçirilməsində istifadəsi; dekorativ bitki qismində əkilib becərilməsi; bir sıra dövlətlərdə əsas etibarı ilə əvvəldə qeyd edilən məqsədlər üçün istifadə**

**edilməsi; bəzilərinin insan orqanizminə təsrinin və digər "ağır" narkotik vasitələrlə müqayisədə onlardan asıllığın zəif olması, tibb sənayesində, bəzi istehsal sahələrində xammal kimi istifdə edilməsi və s.**

## 6.3. Psixotrop maddələrin təsnifatı

Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli "Azərbaycan Respublikası ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahıları" haqqında Qanun I, II, III siyahılarına daxil olan qanunda göstərilənlər katin (kat bitkisinin alkaloididir) istisna olmaqla, sintetik mənşəyə malikdirlər.

İnsan orqanizminə təsirinə görə psixotrop maddələri 3 qrupa bölmək olar.

1. Psixoleptiklər: neyroleptiklər, yuxugətirici vasitələr, trankvilizatorlar, narkoz üçün istifadə edilən vasitələr;

2. Psixoanaleptiklər: antidepresantlar, psixostimulyatorlar, neotrop vasitələr, antoprotektorlar;

3. Psixodisleptiklər (hallyusinogenlər): xolinoblokatorlar, brom adrenomimetiklər, digər hallyusinogenlər.

## Narkotik vasitələrin və psixotrop maddələrin prekursorlarının təsnifatı

Narkotik vasitələrin və psixotrop maddələrin prekursorlarını hüquqi baxımdan 4 qrupa bölmək olar:

1. IV siyahıya daxil edilmiş Azərbaycan Respublikasında dövriyyəsi məhdudlaşdırılmış (lisenziya, xüsusi razılıq tələb

olunan), milli və beynəlxalq qanunvericiliyə görə nəzarət olunan prekursor maddələr;

2. Narkotik vasitələrin və psixotrop maddələrin hazırlanmasında istifadə edilən və güclü təsirə malik maddələrin siyahısına daxil edilən maddələr ("Solutanın" preparatları, psevdoefedrin, efedra otu və s).

3. Narkotik vasitələrin və psixotrop maddələrin hazırlanmasında zəhərli maddələrin siyahısına daxil edilən prekursorlar (antranil turşusu, piperonal, metil spirti, sinil turşusu, kalium sianid, 3.4-metilendioksifekil-2-propanon, fenil sirkə turşusu və s).

4. Narkotik vasitələrin və psixotrop maddələrin hazırlanmasında istifadə edilən və dövriyyəsinə nəzarət qanunvericilikdə nəzərdə tutulmayan prekursorlar (1-fenilsikloheksankarbonitril, alymohidrit və s).

Nəzərdə saxlamaq lazımdır ki, nəzarət olunan bir sıra narkotik vasitələr, psixotrop maddələr və prekursorlar IV siyahıya daxil olmaqla yanaşı, həmçinin güclü təsiredici və zəhərli maddələrin siyahısına da daxil edilə bilər.

**Narkotik vasitələrin və psixotrop maddələrin hazırlanmasında istifadə edilən prekursorlar**

| Prekursorun adı | Narkotik vasitə və psixotrop maddənin hazırlanmasında istifadə edilən prekursor |
|---|---|
| Sirkə turşusunun anhidridi | metakvalonun, fenil-2-propanonun, heroinin və həmçinin kokainin hazırlanmasında reaktiv qismində istifadə olunur |
| Antranil turşusu | metakvalonun və 4-metilaminpeksinin |
| N-Asetil-antranil turşusu | metakvalonun |
| Aseton | bir çox narkotik vasitələrin və psixotrop maddələrin, o cümlədən pervitinin, metakatinonun, LSD-nin, kokainin, heroinin və s. |
| İzosafrol | MDA-nın hazırlanmasında |
| Qırmızı fosfor | pervitinin hazırlanmasında reaktiv qismində istifadə edilir |
| Lizergen turşusu və onun duzları | LSD-nin hazırlanmasında |
| N-Metilefedrin və onun duzları | 1-femil-2-propanonun hazırlanmasında |
| 3.4-Metilendioksifenil- | MDMA və MDEA-nın |

| | |
|---|---|
| 2-propanon, metiletilketon | hazırlanmasında |
| Kalium permanqanat | metkatinonun və kokainin hazırlanmasında |
| Piperonal | amfetaminlərin törəmələrinin hazırlanmasında |
| Piperidin | fenilsiklidinin və s. alınmasında |
| Psevdoefedrin və onun duzları | pervitinin və 1-fenil-2-propanonun hazırlanmasında |
| Safrol | MDEA-nın və 3.4-metilendioksifenil-2-propanonun hazırlanmasında |
| Sulfat turşusu | bir çox narkotik vasitələrin və psixotrop maddələrin, o cümlədən pervitinin hazırlanmasında |
| Xlorid turşusu | bir çox narkotik vasitələrin və psixotrop maddələrin, o cümlədən pervitinin, MDA-nın, psilosinin və s. hazırlanmasında reaktiv qismində istifadə olunur |
| Toluol | prekursor qismində fenil sirkə turşusunun hazırlanmasında, narkotik vasitələrin və psixotrop maddələrin, o cümlədən fentanilin, psilosinin, metkatinonun, MDA-nın, alfa-metilfentanilin hazırlanmasında həlledici kimi istifadə olunur |

| | |
|---|---|
| Fenil sirkə turşusu | fenil-2-propananın hazırlanmasında |
| Etil efiri | bir çox narkotik vasitələrin və psixotrop maddələrin, o cümlədən p-ftorfentanilin, psilosinin, pervitinin hazırlanmasında həlledici kimi |
| 1-fenil-2-propanon | amfetaminlərin hazırlanmasında |
| Efedrin və onun duzları | 1-fenil-2-propanonun, pervitinin, metakvalonun hazırlanmasında |
| Erqometrin və onun duzları | LSD-nin hazırlanmasında |
| Erqotamin və onun duzları | lizergin turşusunun və LSD-nin hazırlanmasında |

# I. TİRYƏK QRUPU









**1.1. Tiryək** – tiryək laləsi (Papaver soniferum) şirəsinin (lachryma papaveris) qurudulması nəticəsində alınan güclü təsiredici narkotik vasitədir. MDB ölkələri ərazisində lalənin 50-dən çox növləri bitir və onlardan ən çox yayılan yuxugətirici lalədir.

Xaşxaş laləsi dikduran gövdəyə malik, yuxarı hissələrində qırmızımtıl bənövşəyi rəngli ləçəkləri olan, çılpaq çəlləyəbənzər formada olan yaşıl rəngli bir və ya bir neçə qozaları olan və kənarları mişarvari, enli yaşıl rəngli yarpaqlardan ibarət bitkidir. Onun qozalarının içərisində kiçik ölçülü, nüvəcik formalı, açıq qəhvəyi rəngli çöxsaylı toxumlar olur. Bitkinin fraqmentləri xaşxaş üçün xarakterik ətirə malikdir. Müəyyən inkişaf dövrü keçdikdən sonra bitkinin qozaları kəsici alətlərlə çərtilir və ondan axan südə bənzər şirə yığılır.

Qeyd edilən narkotik vasitələrə aiddir: morfin, kodein, telain, tiryək (tiryək laləsindən alınır, morfin və kodein daxil olan alkalloidlərin qarışığından ibarətdir, morfindən kimyəvi yolla alınır), asetilləşdirilmiş tiryək (“rur heroini”, “qara heroin”), lalə küləşi, həmçinin morfinin sintetik əvəzediciləri (metodon, promedol, dipidolar).

Tiryək laləsinin Azərbaycanda əkilməsinə icazə verilmir, ölkə ərazisində bir sıra rayonlarda onun yabanı növləri bitir. Bu bitkinin 100-ə yaxın yabanı və dekorativ növləri mövcuddur. Xaşxaşın tiryək və yağlı xaşxaş kimi növləri mövcuddur. Onlar tərkibində olan alkolloidin (morfinin və s) miqdarına görə fərqlənirlər. Yağlı xaşxaşın toxumlarında və onlardan alınan yağların tərkibində narkotik vasitələr olmur və qeyd edilənlər yeyinti

sənayesində istifadə edilir. Tiryəkin "cinayətkar aləmdə" (jarqon adı)[1] istifadə edilən adları: karaxan, omyuxa, ximxanka, çernaye, qara çernyaşka, blek cablet və s (1 qr xammal tiryək "çek" adlanır).

**Alınması üsulu:** Dəyməmiş tiryək laləsi qozalarının ləçəklərinin düşməsindən sonra çərtilməsi zamanı axıb çıxan süd şirəsinin günəş şüaları altında quruması nəticəsində alınır. Axaraq çıxan qətranlı süd şirəsi tədricən bərk hala keçir və qəhvəyi rəng alır. Yığılması və işlənməsinin müasir metodu maşınlardan istifadə etməkdir. Şirə qurudulduqdan sonra adətən briket halına salınır. Gizli satış məqsədi ilə tiryək qaynadılır və nəticədə tünd qəhvəyi, qara rəngə çalan qatı kütlə əmələ gəlir.

Tiryək və yağlı xaşxaşın (lalənin) istənilən üsulla yığılan (bütün xırdalanmış, qurudulmuş və qurudulmamış, dəymiş toxumları istisna olunmaqla) hissələri xaşxaş küləsi adlanır.

Adətən "qara bazarda" sarıdan qəhvəyi rəngə çalan xırdalanmış kütlə halında istifadə edilir.

Son illər narkotik vasitələri istehlak edənlər, o cümlədən "narkomanlar" xaşxaş kütləsindən kusfar üsulla ekstraksiya və asetilləşdirilmiş tiryək hazırlamaqla istifadə edirlər.

Ekstraksiya tiryəki narkotik alkolloidlərin (morfin, kodein, tebain) xaşxaş kütləsindən su və ya üzvü həllediciələrin vasitəsilə ekstraksiya edilməsi və sonradan həllediciələrin çıxarılması, buxarlandırılması nəticəsində alınır. Bu proseslərdə həlledici qismində aseton, ammonyak və sirkə turşusunun auhidridindən istifadə edilir.

---

[1] Jarqon (argot) fransız sözü olub, hansı bir ictimai qruplaşmaların, birləşmələrin ətrafdakılar tərəfindən başa düşülməyən ünsiyyət dili (xüsusi sözlərdən ibarət), təmasda olması mənasını daşıyır. С.М.Лапшина Словарь иностранных слов, ГИИНС, М. 1948.

Tiryəkin spesifik qoxusu təkrar qaynadıldıqdan sonra da qalır, məhz ona görə də onun daşınmasında və saxlanılmasında adətən polietilnə bükürlər və ya ağızı bağlı qab-qacağın içinə, digər gizləng yerlərinə kəskin qoxusu olan maddələrlə birgə yerləşdirirlər.

**Tərkibi:** Tiryəkin tərkibində 20-yə yaxın aktiv narkotik alkoloidlər mövcuddur, o cümlədən morfin (12%), kodein (0,5%) və qeyri-narkotik alkaloidlər olan tebain, papaverin və noskapin.

**Fiziki xüsusiyyətləri:** Xoşagəlməz iyə və kəskin dada malikdir. Rəngi əvvəl ağ, havada qaldıqda isə tünd qəhvəyi olur. Qurudulub briket halına salınmış tiryək zahirən tünd boz, kəsik tərəfdən (kənarlarından) açıq rəngə çala bilər. O bir müddət saxlanıldıqda tərkibində olan rütubətin buxarlanması nəticəsində qaralır.

**İstifadə olunması xüsusiyyətləri:**

Dərman preparatlarının hazırlanmasında istifadə edilir. Dünyada istehsal olunan tiryəkin əsas hissəsi morfinin, kodeinin və heroinin hazırlanmasında istifadə olunur.Ənənəvi tibbdə güclü ağrıkəsən vasitə kimi istifadə edilirdi, lakin çox tez bir zamanda narkotik asılılıq yaratdığından indi yalnız dərman preparatlarının (morfin, kodein, papaverin və digərləri) hazırlanması, eləcə də heroinin sintezi üçün xammal qismində istifadə edilir

**Ən çox becərildiyi ərazilər:**

İndiki dövrdə tiryək laləsinin əsas əkin sahələri «Qızıl Üçbucaq» adlandırılan Şimali Tayland, Laos və Birma, eləcə də Əfqanıstan (xüsusilə bu ölkənin Hilmend əyaləti) sayılır. Onun digər ən çox becərildiyi ölkələr – Pakistan, Şimali Hindistan, Türkiyə, Meksika, Kolumbiya, Macarıstandır.

**Becərilməsinə dair bəzi ölkələrin qanunvericilik tələbləri:**

MDB ölkələrində tiryək laləsinin becərilməsi üçün şirkətlərdən lisenziya tələb olunur. Taylandda isə son zamanlarda bu bitkinin becərilməsi qadağan olunmuşdur.

**Tiryəklə bağlı bəzi terminlərin anlayışı:**

*Koknar (kuknar, kuxnar, kukiş)* – 1.Tiryək laləsinin xırdalanmış qozaları (tinkturanın istehsalı üçün hazırlanmış olan) 2.Tiryək laləsinin tinkturası 3.Tiryək laləsinin qurudulmuş qozaları

*Laudanum* – spirtli tiryək tinkturası

Mekonium (Meconium) – tarixən tiryək laləsinin və ya onun bəzi növlərinin digər hissələrindən hazırlanan zəif təsirli preparatlar

**Qiymətləri:**

Topdan satış qiyməti – 3000 $ (1 kq üçün)

Pərakəndə satış qiyməti – 1600 $ (1 kq. üçün)

**Ən çox istehlak olunduğu ölkə -** ABŞ, MDB ölkələri və s.

## 1.2. MORFİN








**Kimyəvi formulu**: $C_{17}H_{19}NO_3$.

Morfin tiryək lalənin əsas narkotik fəal alkoloididir. 1803-cü ildə iyirmi yaşlı alman əczixanaçısı Setyuzner çox böyük bir kəşf edərək tiryəkin parçalanmasına və ondan ağ toz halında (az miqdarının insana dərin yuxu gətirən) maddənin alınmasına nail olmuşdur. O, əldə etdiyi maddənin adını yunan Allahı Morfeyin oğlunun şərəfinə adlandırmış və zahirən qanadları və başında lalənin gülləri olan insan qismində təsvir etmişdi.

Narkomanlar morfini onun kəşfindən bir müddət sonra istehlak etməyə başlamışlar. Belə faktlar 1871-ci il Fransa-Prussiya müharibəsi baş verən ərəfəyə təsadüf edir. Morfin bütövlükdə hər yerdə ağrıkəsici vasitə kimi istifadə edilirdi və yaralılar ondan istifadə edərək ona alışmağa başlamışdılar. Morfindən istifadə edənlər ondan yaxa qurtarmaqda çətinlik çəkirdilər. Onun təsirindən abstinent sindromu (narkomanın dilində “lomka” (bədəndə qıctutma, “qırılma”) yaranır. Belə halda bədəndə əzablı və dəhşətli ağrılar baş verir, narahatlıq və qəmginlik hissləri əmələ gəlir. Bu vəziyyətdə olanın bədəninə morfindən istifadə edilməklə iynə vurulduqda o bir anda tam dəyişir, sanki canlanır, “dirilir” və şənlənir, əvvəlki vəziyyətdən bir müddət əsər-əlamət qalmır. Morfinin sintezi isə onun kəşfindən bir əsr yarım sonra, 1952-ci ildə onun strukturu müəyyən edildikdən sonra həyata keçirilmişdir. Onun sintezi baha başa gəldiyi üçün, onu xammal tiryəkdən kimyəvi yolla alırlar.

Belə proses nəticəsində alınan morfinin miqdarı ilkin xammal-tiryəkin miqdarının 10 %-ni təşkil edir. Eyni miqdarda götürülmüş morfinin orqanizmə təsiri həmin miqdarda olan tiryəkin təsirindən 10-20 dəfə çoxdur.

Morfin tiryək laləsinin əsas narkotik xassəli alkaloididir. Morfindən 250-dən çox ağrıkəsici və yuxugətirici dərman vasitələri alınır.

**Morfin** – tiryəkin əsas alkoloidlərindən biridir. Emal olunmamış tiryəkdə təxminən 10-12% morfin olur. Qurudulmuş morfinin çəkisi onun hazırlanmasında istifadə edilən tiryəkin çəkisinin təxminən 10% bərabər olur.

**Alınması üsulu:** Morfin tiryəkdən alınan zaman təmizləmə və filtrasiya proseslərinə məruz qalır və ağ dənəciklər formasında olur.

**Fiziki xüsusiyyətləri:** Maye, həb və toz şəklində olur, hiss edilə bilən iyə malik olmur. İynəvari kristal formada da ola bilər. Rəngi adətən ağ olur saxlandıqda isə rəngi saralır və tünd sarı və ya boz rəng alır. Morfin inyeksiyasının təsiri onunla eyni miqdarda olan tiryək inyeksiyasının təsirindən 10-20 dəfə artıqdır. Güclü ağrıkəsici maddədir.

## Dionin (etilmorfin)

Adətən ağ tozabənzər, iysiz, acı dad verən hidroxloridin duzu halında rast gəlir, farmakologiya istehsalı yolu ilə əldə olunur və dərman vasitəsi kimi istifadə edilir (həbb və toz halında).

### 1.3. HEROİN









**Kimyəvi formulu:** $C_{21}H_{23}NO_5$ – diosetil morfin

Heroin mürəkkəb çox pilləli təmizləmə prosesi nəticəsində morfindən alınan yarımsintetik narkotikdir.

Morfinin kəşfindən 70 il sonra ingilis kimyaçısı Rayt morfindən ağ toz halında yeni maddə aldı, lakin onun tətbiqi sahəsini müəyyən edə bilmədi. 1898-ci ildə alman kimyaçıları həmin maddəni (heroini) kimyəvi yolla aldılar

və belə nəticəyə gəldilər ki, o, çox möcüzəli dərman vasitəsidir.

Heroin morfindən mürəkkəb və çox pilləli mərhələlərdə təmizlənmə prosesində alınır. 10 kq təmizlənmiş morfindən ekvivalent miqdarda, təmizliyi 80%-lə 90 % arasında olan heroin almaq olur. Öz narkotik təsirinə görə heroin morfindən bir neçə dəfə güclüdür.

"Qara bazara" (qeyri-qanuni dövriyyəyə) daxil olan heroin öz forma və rənginə görə müxtəlif ola bilər (ağ toz və qranula formasında; qəhvəyi, boz-qəhvəyi və qara rəngdə). Rənglərin müxtəlifliyi onun təmizliyindən və ona edilən əlavələrdən asılıdır. Ona əlavələr kimi aşağıdakılardan istifadə edilir: indifferent maddələr (qlyukoza, kraxmal, un, şəkər), heroinin təsirini gücləndirən dərman vasitələri (baribaturatlar, kofein, analgin, novokain, parasetomol və s), qeyri-üzvi aşqarlar (kalsium karbonat, barium sulfat və s) və digər narkotik vasitələr (metakvalon və s). Heroin nisbətən təmiz halda alınmasına baxmayaraq, "qara bazara" ona edilən əlavələr (aşqarlar) daxil olmaqla qarışıq halda satılır.

**Alınma üsulu:** 10 kq təmizlənmiş morfindən təxminən eyni miqdarda 80-99%-lik heroin əldə etmək olar.

**Fiziki xüsusiyyətləri:** Təsir gucünə görə heroin morfini bir neçə dəfə üstəliyir. Təmizləmə üsulundan və edilmiş əlavələrdən asılı olaraq rəngi ağ, qəhvəyi və ya qara olur. Təmiz heroin adətən nadir hallarda alınır. İstehlak bazarına əksər hallarda laktoza əlavə edilmiş heroin daxil olur. Bəzi hallarda heroinə narkotik vasitənin təsirini artıran dərman preparatları da əlavə edilir. Effektli ağrıkəsici vasitə olmasına baxmayaraq tibbdə istifadə olunmur.

**Onun qeyri-leqal dövriyyədə adı** (jarqon)[1] adı: ağ, ağ quyruq, qera, qerman, qerdos, qerbalayt, qerasim.

**İstifadə olunması:** İynənilmə, çəkmə və ya inyeksiya yolu ilə istifadə olunur.

## 1.4 KODEİN







**Formulu:** $C_{18}H_{21}NO_3$ – metil morfin

Kodein lalə bitkisindən (tiryək xaşxaşı) alınır. O həmçinin farmakoloji istehsalda morfindən yarımsintetik yolla da alınır.

Adətən terpinhidrat kimi maddələrlə birgə, mərkəzi sinir sisteminə təsir etmək xüsusiyyətinə malik olub, öskürəyə qarşı istifadə edilən vasitədir. Zəif narkotik təsirə malikdir və ağrıkəsici effektə malikdir. Pentalgin adlı dərmanın tərkibində mövcuddur. Geniş şəkildə və qanuni yolla farmokoloji istifadəsi yayılıb. Qanuni şəkildə Avstraliya, Danimarka, Fransa, Almaniya, İsveçrə, Avstriya, Yunanıstan və s. kimi ölkələrdə istifadə olunur.

Ondan dərman vasitəsi kimi istifadə edilir (toz və həbb halında), həmçinin bir çox kombinələşdirilmiş dərman vasitələrinin tərkibinə əlavə edilir (“Kodterpın”, “Pentalqin”, “Sedalqin”, “Vikodil”, “Solpadein” –

öskürəyə qarşı istifadə üçün həblərin tərkibinə). Kodein böyük miqdarda morfindən alınır. O, tiryək xaşxaşında (laləsində) 0.7-2.5 % miqdarında olur. Onun təsiri morfinin analoji təsirindən çox azdır.

Qeyri-leqal dövriyyədə adı (jarqon): dopinq, kaliki, purn.

## Omnopon (pontopon)

Omnopon tiryəkin alkoloidlərinin qarışığından ibarət olub qəhvəyi-qaramtıl və ya açıq-qəhvəyi rəngdə olur, suda həll olur. O, farkoloji sənayedə dərman vasitəsi kimi istehsal olunur, toz və həblər halında buraxılır.

Sulu məhlulunu çalxaladıqda köpüklənir.

Dərman vasitəsinin tərkibində 48-50 % morfin və 32-35 % digər alkolidlər olur. Ondan uzunmüddətli istifadə etdikdə insan ona alışır və müxtəlif növ asılılıq yarana bilər.

## Promedol

Promedol – sintetik narkotik dərman vasitəsidir, öz təsirinə görə morfinə oxşardır. Ağ toza bənzər kristal halında xarici görünüşə malikdir, suda və spirtdə həll olur, farmakoloji sənaye yolu ilə həblərlə və ampulalarda məhlulda buraxılır.

**Fiziki xüsusiyyətləri:** Rəngsiz kristal və ya ağ rəngli iysiz kristal toz şəklindədir, acı dada malikdir. Açıq havada küləyə sovrulur.

**İstifadə olunması:** Morfindən dəfələrlə zəif gücə malik olsa da yüksək dozada güclü narkotik effekt verir. Eyforiya yaradır. Həblərin qəbulu şəklində istifadə olunur.

## II. ÇƏTƏNƏ QRUPU
### 2.1. Çətənə





**Formulu: $C_{21}H_{30}O_2$**

**Çətənənin qısa tarixi:** Arxeoloji mənbələrə, tapıntılara əsaslanaraq (Tayvan arxeoloqlarının 10 min

əvvəl aşkar etdikləri qabların kannabis bitkisindən hazırlanması güman edilirdi) kannabiş bitkisinin (çətənənin) istifadə edilməsini daş dövrünə aid edirlər. İlk dəfə çətənənin təsvirinə dair məlumatlar Çində bizim eramızdan əvvəl 2800-cü ilə təsadüf edir. Bu bitki Çindən digər Asiya ölkələrinə yayılmışdır:

Rəsmi mənbələrdə kannabisin ən əvvəl farmokoloji məqsədlər üçün istifadə edilməsini Çin imperatoru Şen-Nunqomun adı ilə əlaqəli olduğu bildirilir və bizim eramızdan əvvəl III əsrin başlanğıcına aid edilir. O, çətənənin tibbi məqsədlər üçün istifadə edilməsinə dair biliklərə malik olan bir şəxs idi. Çində onun sakitləşdirici xassələrini nəzərə alaraq xəstəliklərin müalicəsində, ağrıların, əsəb pozuntularının aradan qaldırılması və digər məqsədlər üçün istifadə edilirdi. Belə güman edilir ki, çətənə Hindistandan Şimali Afrikaya, oradan İspaniyaya və oradan isə dəniz vasitəsilə Amerikaya gətirilmişdir. Bir sıra dövlətlərdə, o cümlədən İspaniyada (XII əsrdə), Fransada (XIII əsrdə) kilsə tərəfindən kannabisin istifadə edilməsinə qadağanlar qoyulmuşdu. Belə qadağalar 150 ildən sonra ləğv edilmişdi. Hindistanın koloniyaya çevrilməsi və Napoleonun Misirə təcavüzündən sonra Avropada çətənənin məhsullarına maraq daha da artır və XVIII əsrin sonunda Napoleon Parisə həşişin müxtəlif növlərini gətirdikdən sonra və onun müsbət xüsusiyyətlərinə dair aparılan təbliğatın nəticəsində XIX əsrin birinci yarısında tanınmış ədəbiyyatşünasları T.Qotye, O.Balzak, A.Dyuma və incəsənət xadimləri Sena çayının sahilində yerləşən klubda həşiş qəbul edirdilər.

Məhz onların hərəkətlərinin nəticəsi olaraq, həşiş Avropa mədəniyyəti ənənəsində geniş miqyasda tanındı.

1839-cu ildə ingilis həkimi, Kral Elmlər Akademiyasının üzvü U.Şonessi kannabisin qıcolma, revmatizm və konvusiyalara qarşı uğurla istifadə edilməsinə dair öz tədqiqatları ilə bağlı materialları dərc etdirdi və bu dövrdə Avropa və Amerikada kannabis tibbi məqsədlər üçün istifadə edilirdi (çətənənin yarpaqlarının və çiçəklərinin tinkturası spazma və sıxıntıları aradan qaldırması və yuxu vasitəsi kimi, çətənə yağı isə iltihabı prosesə və soyuqdəyməyə qarşı).

Çətənənin belə qeyri-qanuni istehlakı yalnız din xadimlərini narahat edirdi və qanunvericiliklə təqib edilmirdi.

1864-cü ildə Misir ilk dövlət idi ki, çətənənin istifadə edilməsinə qadağa qoydu.

Amerika qitəsində çətənənin digər tarixi XIV əsrdən başlayır və bu ispanlar tərəfindən Peru və Çiliyə çətənənin gətirilməsi ilə əlaqəlidir.

1611-ci ildə Virciniya ştatında çətənənin emalına başlanmışdır. Amerika prezidentlərinin onun toxuculuq və tibbi xüsusiyyətləri barədə ətraflı məlumatları var idi və hökumət tərəfindən bu işlə məşğul olan fermerlərə dotasiyalar verilirdi.

1840-1900-cü illərdə qərb tibb ədəbiyyatlarında kannabisin müalicəvi xassələrinə dair 100-dən çox materiallar öz əksini tapmışdır. 1937-ci ilə qədər onun 100-dən çox müxtəlif xəstəliklərin müalicəsində istifadə edilməsinə dair məlumatlar verilmişdir.

Amerika farmakologiyasında asma, revmatizm miqren, qerpes, artrit, dizenteriya, yuxusuzluq, müxtəlif nervoloji pozuntular və s. xəstəliklərin müalicə vasitəsi kimi istifadə edilmişdir.

1937-ci ildə narkotiklər üzrə dövlət Bürosuna rəhbərlik edən Q.Anslindjerunun təşəbbüsü ilə ABŞ-ın 5 ştatında marixuanaya "təcavüzə gətirən" bir narkotik vasitə kimi qadağan qoyuldu. 1941-ci ildə kannabisdən alınan preparatlar ABŞ-da farmakologiya siyahısından çıxarıldı.

Bu dövrdə Rusiya və Çin dövlətləri çətənənin sənaye və tibbi məqsədlərlə emalını davam etdirirdilər. 1948-ci ilin 19 noyabrında Parisdə keçirilən BMT-nin Baş Məclisinin III sessiyasında "narkotik vasitələrə beynəlxalq nəzarət haqqında" Protokol imzalandı və bu sənəddə narkotik vasitələr arasında marixuana da daxil edildi (buna qədər mübarizə əsasən tiryəkə qarşı yönəlirdi). Ümumiyyətlə, 1925-1953-cü illərdə bir neçə beynəlxalq sənədlər qəbul edilmişdir.

1961-1988-ci illərdə narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə aid aşağıdakı beynəlxalq sənədlər qəbul edilmişdir:

1961-ci il – "Narkotik vasitələr haqqında" vahid Konvensiya;

1971-ci il – "Psixotrop maddələr haqqında" Konvensiya;

1988-ci il – "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiya

Çətənə (beynəlxalq elmi adı Cannabis) birillik, ağacvari kol bitkisidir. Çətənə isti iqlimdə bitir və 4 metr hüdürlüyə qədər uzana bilir. Bu bitkidən tarixən parça istehsalında istifadə olunmuşdur. Çətənənin tərkibində aktiv tertahidrokannabinol maddəsi var. Beynəlxalq hüquqi aktlarda kannabis ifadəsi vahid ümumiləşdirici termin kimi işlədilir. Bu termin çətənənin bütün sortlarını və narkotik vasitələrini özündə cəmləşdirilmiş şəkildə ifadə edir.

**Bitkinin Növləri:** Cannabis sativa, Cannabis indica, Cannabis ruderalis. Çətənə psixoaktiv maddələrlə zəngindir və bu səbəbdən bu bitkidən psixotropların hazırlanmasında istifadə olunur.

Cannabis Indicadan hazırlanan narkotiklərin növləri: 1- "Bang" (bxanq) - ən ucuz və zəif təsirə malik olan narkotikdır. Bang qurudulmuş və xırdalanmış toxumlardan və bitkinin gövdəsindən hazırlanır. 2- "Qandja" çətənədən hazırlanan Bangdan 3 dəfə güclü təsirə malik bir narkotikdır, bitkinin hamaşçiçəklərinin dişiciklərindən becərilərək hazırlanır. 3- "Şaras" (Çaras) Yaxın Şərqdə həşiş adlandırılan təmiz qətrandır.

Çətənə (Cannabis L) – birillik ot bitkisidir, milli qanunvericiliyə əsasən ölkə ərazisində əkilib becərilməsinə yol verilmir, lakin onun yabanı növü ölkəmizin cənub və digər regionlarında bitir. Çətənənin vətəni Türkmənistan çölləri, Orta Asiya ölkələri, Çinin şimal-qərb əraziləri sayılır. Bəzi elmi və arxeoloji mənbələrə istinad edilərək həmin ərazilərdə çətənənin hissələrinin fraqmentlərinin tapılması faktları təsdiq edilir. Çətənə (kannabis) bitkisi – kökü ilə birlikdə dik duran gövdəyə, yanlara istiqamətlənmiş iri və xırda budaqlara, əl falanqası formasında bir-birindən dərin ayrılmış və səthləri sarımtıl-yaşıl maye ifraz edən sıx parlaq tükcüklərlə örtülmüş yarpaqlara, üzüm saplaqlarının

uclarında toplanmış çiçəklərə, çiçək yanlıqlarına, toxumlara və ümumilikdə kəskin spesifik ətrə malikdir. Onun çoxsaylı yabanı və qulluq edilmiş sortları mövcuddur.

Qulluq edilmiş çətənənin gövdəsindən, saplaqlarından liflərin, onun toxumlarından isə əlifin, müxtəlif lakların və boyaların alınması üçün istifadə edilən yağın alınmasında istifadə edilir.

**Çətənə qrupu narkotikləri:** üç əsas narkotik vasitə alınır – həşiş (tərkibində tertahidrokannabinol 9-12%), marixuana (tərkibində tetraqidrakarbonol 6% qədər) və həşiş yağı (tərkibində tertahidrokannabinol 20-60%).

**Çətənənin və ondan alınan narkotik vasitələrin qeyri-leqal dövriyyədə adı:** an-des, bonq, kanabka, paclaça, pakluça, kruşka və s.

## 2.2. HƏŞİŞ






**Həşiş** – çətənədən hazırlanır. "Həşiş" – çətənə (kannabis) bitkisinin ayrılmış qətranın, tozcuğunun qarışığı və ya onun yuxarı hissəciklərinə müxtəlif əlavələr edilməklə emalı (xırdalanması, preslənməsi və s) nəticəsində alınan məhsuldur.

**Narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər arasında o** (jarqon adı) plan, bonq, duz, nəşə, bxanq, xarras, doqqa, andes, nufa, “drap”, “dud”, “mal”, “pesok”, “xurus”, “jan” və s. adları altında işlədilir.

**Fiziki xüsusiyyətləri:** Açıq boz, qara, qəhvəyi və ya tünd yaşıl rəngdə olur. Həşişin sıxlığı və rəngi istehsal texnologiyasından və çətənənin bitdiyi ərazidən asılıdır. Belə hesab olunur ki, şərq ərazilərdə bitmiş çətənədən qara rəngli həşiş alınır. O, çətənəyə məxsus iyə malikdir. Həşişin əsas aktiv komponenti tetrahidrokannabinoldur.

**Həşişin növləri: “**Toz” növü – həşişin yarıfabrikat variantıdır “qurutma-ələnmə-presləmə” yolu ilə hazırlanır.

“Xaki” növü pəncab həşişinin ən yüksək sortudur. Ələnmə zamanı dəriyə yapışan tozdan hazırlanır. Boz-yaşıl rəngə çalır.

“Ximka” növü ekstraksion həşiş adlanır. Onun hazırlanması üçün çətənə xammalı üzvü məhlulda isladılır, sonra süzülür və hisə verilir. Dibdə qalan qara yapışqan toz hazır narkotik hesab edilir və o adətən kürəcikli, yumrulanmış və ya düzbucaqlı və s. formalara salına bilinər.

Ekstrasiya üçün benzin, spirt, heksan və digər həlledicilərdən istifadə edilir. “Qara bazarda” tünd yaşıl rəngli, yapışqanlı, ədviyyəyə xarakterik iyli kütlə kimi qeyri-qanuni dövriyyədə olur.

“Keyif” – şimali Afrika həşişinin növüdür, ənənəvi hazırlanma yolu var – “qurutma-ələnmə-presləmə”.

“Plastik” – çətənə tozu ilə qətranın qatışığından hazırlanır, rahatlıqla əzilir və bu səbəbdən adı “plastik” qoyulmuşdur.

**İstifadə qaydası:** Həşiş əsasən siqaret çəkmə üsulu ilə və qida əlavəsi kimi istifadə olunur. Çəkilmə zamanı həşişin təsiri bir neçə dəqiqədən sonra başlayaraq 3-4 saat davam edir.

**2.3 Həşiş yağı:** müəyyən kimyəvi maddələrdən istifadə etməklə çətənədən alınır. Yapışqan maye formasında olur. Tünd qəhvəyi və yə tünd yaşıl rəngdə olur. Həşiş yağı hopdurulmuş siqaretlərin çəkilməsi üsulu ilə və ya nadir hallarda qida əlavəsi kimi istifadə olunur.

## MARİXUANA





Marixuana çətənənin psixoaktiv maddələrlə zəngin olan növündən alınan psixotrop maddədir. Marixuananın hazırlanmasında çətənənin baş hissəsindən və yarpaqlarından istifadə olunur.

Marixuananın güclü təsirə malik növü "Hidroponik" adlanır. Bu narkotik torpaqsız qidalandırıcı məhlulda, intensiv süni işıqlan-

dırmada hazırlanır. Marixuananın seleksiya yolu ilə hazırlanan “Holland hibridi” və “Amsterdam boşkası” növləri də vardır. Marixuananın “Sensimilya” növü toxumsuz, tozlandırılmamış dişi bitkilərdən hazırlanan yüksək təsirə malik narkotikdır.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan, o cümlədən onları istehlak edən şəxslər arasında o travka, süd, duz, xeş, nəşə, klever, plan adları (“jarqon” adları) altında istifadə edilir.

**Fiziki xüsusiyyətləri:** Acıq yaşıl və qəhvəyi rəngdə olur. Çətənəyə məxsus iyə malikdir.

**Kimyəvi tərkibi:** Adi halda marixuanada 2-4% tetraqidro-kanabinol, 0,30 % kanabinol və 0,05% digər kanabinol turşusu maddələri olur.

**İstifadə qaydası:** Marixuanadan tütün ilə qarışıq və ya təmiz halda siqaret çəkilmə üsulu ilə istifadə edilir.

## III. KOKA QRUPU







**Kimyəvi formulu:** $C_{17}H_{21}NO_4$

Kokain – koka ağacının (kolunun) yarpağının əsas alkoloidi olaraq bu yarpaqdan kimyəvi üsülla alınır. O, daha cox Cənubi Amerikada (Kolumbiya, Peru, Venesuella) yayılıb. Qiyməti baha olduğu üçün əsasən maddi durumu yüksək olan şəxslər tərəfindən istifadə edilir. 500 qram kokaini təxminən 300 kq koka yarpağından almaq olur.

Onun yarpağından çox güclü təsirə malik təbii mənşəli kokain alınır. Bu narkotik vasitənin qədim tarixi kökləri vardır. Arxeoloji mənbələrdən əldə edilən məlumatların tədqiqinə əsaslanaraq müəyyən edilmişdir ki, Peru və Boliviya ərazilərində yaşayan inkilər koka bitkisindən bizim eramıza qədər təxminən III əsrdə istifadə etmişlər. Onlar koka bitkisinin (kolunun, ağacının) yarpaqlarını çeynəməklə ürək döyüntülərinin və tənəffüsetmənin tezləşdirilməsinə nail olurdular. Bunu onlar dağlıq şəraitində “hava seyrəkliyinin” (oksigen

çatışmazlığının) orqanizmə mənfi təsirindən qorunmaq məqsədilə edirdilər. Bitkinin yarpaqlarını dini ayinlərdə və mərasimlərdə, habelə tibbi məqsədlərlə də istifadə edirdilər.

1532-ci ildə İspaniyanın Peruya təcavüzündən sonra gümüş mədənlərində qul kimi istifadə edilən hindulara istehlak məqsədilə kokanın yarpaqları verilirdi. Bu proses işləyənləri asan istismar etmək məqsədi güdürdü. Qulların əməyi onlara koka verməklə ödənilirdi.

İlk dəfə kokain 1859-cu ildə alman kimyaçı-alimi Albert Hyuman tərəfindən kokainin yarpaqlarından alınmışdır və ona görə də ona doktorluq elmi dərəcəsi verilmişdir. XIX əsrin 80-ci illərinə qədər kokain haqqında geniş məlumatlar olmayıb və onun tibb işçiləri dairəsində reklam edilməsindən sonra ona dair geniş miqyasda məlumatlar yayılmağa başlanmışdır.

Tanınmış Avstriya psixiatoru və psixoloqu Ziqmund Freyd özü bu narkotik vasitələri istehlak etmiş və onu tibbi məqsədlər üçün (depresiyaya və impotentliyə qarşı) istifadə edilməsinin geniş təbliğatı ilə məşğul olmuşdur. O, kokaini “sehirli maddə” adlandırmış və onun əhəmiyyətindən ağızdolusu fikirlər söyləmişdir və öz yaxınlarına onlardan istifadə etməyi məsləhət görmüşdür. Sonradan onun tərəfindən xəstələrə təyin edilən kokain dozasının qəbulu nəticəsində sonuncuların səhhətinin pisləşməsi və həyatı üçün təhlükə fəsadların yaranması Freydi kokain haqqında söylədikləri fikirlərdən çəkindirmişdi.

XX əsrin 70-ci illərində kokain cəmiyyətdə incəsənət və bizneslə məşğul olan insanlar arasında yeni bir narkotik vasitə kimi səhnəyə çıxmışdı.

2008-ci ilin məlumatlarına əsasən geniş miqyasda yayılmasına görə kokain qadağan olunmuş narkotik vasitələrin arasında 2-ci mövqedə yer almışdır.

**Fiziki xüsusiyyətləri:** Əsasən ağ rəngli, iysiz, sodaya oxşar, kristal maddədir. "Qara bazarda" onun 2 növünə rast gəlmək olar: duza oxşar halda (adi) və ağ toz halında və ya rəngsiz iynəvari kristallar halında. O bəzi hallarda zəif metilbenzoata bənzər iyə, acı dada malik olur, dilə düşdükdə yandırma və keyləşdirmə hissləri yaradır.

**"Cinayətkar aləmdə" müxtəlif dillərdə və adlarda- koks, kokos, se, aktrasit, sneq, ledenes, ağ, ağ quyruq, koka, marafet, marafet adları altında istifadə edilir.**

**İstifadə qaydası:** İyləmə, siqaret çəkmə və inyeksiya yolu ilə istifadə edilir.

**Koka qrupuna daxil olan narkotiklər:**

"Koka pastası" – koka bitkisinin yarpaqlarının ilkin ekstraksiyası yolu ilə ucuz əldə edilən narkotik məhsuldur. Ağımtıl, krem rəngli və ya boz rəngli tozdur. Adətən nəm olur və yumşaq, barmağın təsiri ilə rahat dağılan və əzilən aqreqatlardan ibarət olur. Göründüyü kimi tərkibi kokaindən başqa ekstraksiya üçün əlavə olunan maddələrdən, nümunə kimi marqans korbanatdan ibarət olur. Tərkibindən kokanın miqdarı 40%-dan 90%-a kimi dəyişir.

"Kokain hidroxlorid" – kokain duzudur, kokanın klassik istehsalının bir növüdür. Ağ rəngli, bir qədər sarımtıl və krem rəngli

olur və bəzən kristallik şəkildə olur. Onun tərkibi 80%-dan 90%-a kimi kokadan ibarət olur və bəzən digər narkotik vasitələrlə birgə qarışdırılaraq orqanizmə təsir dozası artırılır.

"Krek" – kokainin populyar, nisbətən ucuz və təhlükəli növüdür. Krek kokainin hidroxloridindən qida sodasi və sudan istifadə etməklə alınır. Ağ və qəhvəyi rəngdə olur. Krek iyləmə zamanı 10 saniyə ərzində beyinə təsir edir. Təsir etməsinə görə kokaindən qüvvətlidir.

"Spidbol" (Speedball) – Krek və heroinin qarışığından hazırlanan kokanın ən təhlükəli növüdür. İnsan orqanizminə kəskin təhlükəsi kokanın psixostimulyator xüsusiyyəti ilə heroinin "opioid" təsirinin qarşılıqlı əlaqədə olmasıdır. Bu təsir ürək-qandamar sisteminə çox pis təsir göstərir və üstəlik şiddətli ağrılara səbəb olaraq insanda ondan möhkəm asılılıq yaradır.

Kokain dünyada ən çox istifadə olunan narkotik vasitələrdən biridir. Onun dünya üzrə illik ehtimal olunan istifadə miqdarı 750 tondur və ən çox istifadə edən ölkələrdən biri ABŞ-dır. Ən çox istifadə olunan narkotik kimi bir çox istifadə yolları mövcuddur: İyləmə, tüstüsü ilə nəfəs alma, udma, inyeksiya yolu ilə, dil altına qoyularaq və dişlərə sürtülərək selikli qişa ilə, rektal və vaginal yolla.

## LSD
## (Lysergsaurediethylamid)










**Kimyəvi formulu:** $C_{20}H_{25}N_3O$

**LSD (Lysergsaurediethylamid)** d-lizergin turşusunun dietilamidi. Psixoaktiv xassəsi nəzərə alınaraq əksər ölkələrdə hüquqi baxımdan narkotik vasitə kimi qeyd olunur. LSD fiziki asılılıq yaratmır və az miqdarda qəbulu insan orqanizminin sağlamlığına o qədər də neqativ təsir etməsə də psixoloji asılılıq yaradır. Lakin çox təhlükəli psixoloji pozuntular yaradır. Şərti olaraq LSD, LSD-25, lysergide, Delysid kimi də adlandırılır. Kimyaçılar tərəfindən lizergidlər ailəsinə mənsub olan yarısintetik psixoaktiv maddə kimi dəyərləndirilir. LSD ən çox istifadə olunan və ən effektiv psixodeliklərdən hesab olunur. LSD psixoloji təsirə malik olan göbələkdən çıxarılan lizergindən əldə olunur. İlk dəfə LSD-25 İsveçrəli kimyaçı Albert Xofman tərəfindən 1938-ci ildə aşkar edilibdir və psixotrop maddə kimi 1943-cü ildən istifadə olunubdur.

**Fiziki xüsusiyyətləri:** Təmiz halda demək olar ki, rast gəlmir, LSD heç bir rəngə və iyə malik olmur və bir qədər acı dad verir. Əsasən həb-kapsula və toz şəklində olur.

**İstifadə qaydası:** Peroral, damcı şəklində, inyeksiya yolu ilə.

**Qeyri-leqal dövriyyədə "turşu", "Qorbacyov", "velosiped", "slon" jarqon sözləri ilə adlandırılır.**

Narkotikin bir dozası "trip" (səyahət) jarqon sözü ilə tanınır.

**MDMA**
**(Ekstazi)**





XX əsrin 80-ci illərində Hollandiyada MDMA-1 (3.4-metilendioksi-N-alfadimetilfeniletilamin) sintez yolu ilə alınmışdır, reklam məqsədi ilə “ekstazi” jarqon adı almışdır.

Ona inyeksiya üçün, rəngi açıq-sarıdan qəhvəyi rəngə qədər dəyişən, məhlul halında, həmçinin, ağ toz,

kürəciklər şəklində və kapsulalarda rast gəlinir, lakin çox hallarda xüsusi qaydada qablaşdırılmış və üzərində müəyyən şəkillər əks edilən (delfin, quş, çəkic və oraq və s.) möhürlənmiş ağdan qəhvəyiyə qədər rənglərdə olan həblər şəklində olur.

"Ekstazi" amfetamin qrupundan olan sintetik narkotiklərin ümumi adıdır. Bu qrupun sıralarına MDA, MDMA, MDEA, BDB, MBDB sintetik narkotiklər də aid edilir. MDMA (ekstazi) əsas etibarı ilə udma, burunla nəfəs almaq və inyeksiya yolu ilə insan orqanizminə daxil edilir. Orta oral doza 100-150 mqr. təşkil edir. Narkotik təsir 20-60 dəqiqədən sonra başlayır və 6-8 saat davam edir. O, mərkəzi sinir (əsəb) sisteminə təsir edir və nəticədə orqanizmin tonusu yüksəlir, əzələlərin gücü artır, digər insanlara psixoloji təsir meyilləri yüksəlir. Onun təsiri sona çatdıqda orqanizmdə yorğunluq, yuxusuzluq, əzginlik, dilxorluq, sarsılmış hallar yaranır. Ekstazi yüksək psixoloji aslılıq yaradır və orqanizmdə müəyyən miqdarda qalır və yığılır, bir neçə dəfə qəbul etdikdə isə beyin hüceyrələri parçalanır, psixi meyilli davranış halları yaranır. Bu qrupdan olan narkotiklər onu qəbul edənlərdə bundan əlavə baş gicəllənmələri, narahatlıq, bəbəklərin genişlənməsi, tərləmə, qıcolma, yüksək qan təzyiqi və s. kimi hallar yaradır.

Ekstazi Estoniya, Hollandiya, Almaniya və Şərqi Avropa və s. ölkələrdən gətirilir.

MDMA – Metilendioksimetamfetamin, amfetaminlər sırasına və feniletilamin qrupuna aid olan, "ekstazi" adı ilə geniş tanınan yarısintetik psixoaktiv birləşmədir. MDMA unikal psixoaktiv xarakterlərə malikdir- eyforiya yaratmaq, intim yaxınlığa meyllik və

digər insanlara etibar göstərmək hissi yaradır, qorxu və narahatçılıq hissini aşağı salır, emosional gərginliyi aradan qaldırır və s. psixoloji təsirlərə malikdir. MDMA psixoaktivlik yaradan narkotiklər arasında ön yerlərdən birin tutur. MDMA-ın çoxlu qəbulu zamanı hollyusinogen təsiri də mövcuddur. Bir çox kimyaçı-alimlər MDMA-i psixostimulyator ilə psixodelik arasındakı kateqoriyaya aid edir. O, fiziki asılılıq yaratmır və fiziki xətər demək olar yetirmir, lakin çox güclü psixoloji zərər vurur ki, bu da güclü psixoloji asılılıq xəstəliyinə gətirib çıxarır. MDMA psixoloji xəstəliklərin və xərcəngin müalicəsində istifadə olunur.

**Fiziki xüsusiyyətləri:** Əsasən həb şəklində olur və rəngi müxtəlif olur.

**İstifadə qaydaları:** Həb kimi udmaq və nadir hallarda inyeksiya yolu ilə istifadə.

**Qeyri-leqal dövriyyədə adı:** ekstazi, adam, fido, betman, bumeranq, mersedes, supermen, snejok və s.[1]

## MDA

MDA (3,4 metilendioksiamfetamin) ilk dəfə 1910-cu ildə sintez edilmişdir və ilk sintetik amfetaminlərdən biridir. Qeyri-leqal dövriyyədə 60-cı illərin sonunda Amerikada geniş yayılmışdı. MDA daxil olan vasitələrin, demək olar ki, böyük əksəriyyəti qeyri-qanuni dövriyyəyə həblər və kapsulalarda daxil olur.

Onun təsiri orqanizmə daxil olan miqdarından asılıdır. Böyük dozalarla qəbulu hallyusinasiya halları əmələ gətirir. Onun orta dozalarda qəbulu əhval-

[1] Qeyri-leqal dövriyyədə narkotik vasitələrin çoxsaylı müxtəlif dillərdə və adlarda "jarqon" sözləri və ifadələri var. Bax: А.В.Кузменко, А.М.Щукин, Е.С.Игнатьева. Словарь терминов и выражений принятых в среди молодёжы вовлеченных в незаконный оборот наркотиков. МВД РФ. Барнаульский Ю.И. 2008.

ruhiyyənin yüksəlməsi, özünə və keçmişinə müsbət münasibət, özündən razı, insanlarla ünsiyyət yaratmağa meyllərinin artması kimi psixotrop vəziyyətlər yaradır. Onun narkotik təsiri 30-60 dəqiqədən sonra başlayır və 10-12 saat davam edir.

Onun ardıcıl qəbulu psixoloji alışmaya, aslılığa səbəb olur, 500 mqr. isə ölümlə nəticələnə bilər.

Qeyri-qanuni dövriyyədə "ekstazi", "harmoniya", "məhəbbət", "sevginin tezləşdirilməsi" və s. adları ilə istifadə edilir.

**AMFETAMİN**





**Kimyəvi formulu:** $C_9H_{13}N$

Amfetaminlər - (Alfametilfeniletilamin, Amfetamin, metaamfetamin) psixoaktiv maddələrdir. Mərkəzi sinir sisteminin

stimulyatoru hesab olunur. Onların bəzi törəmələri halyusinogen və psixotrop təsirə malikdirlər. Adrenalin və noradrenalin hormonlarının analoqu hesab olunur. Strukturuna görə amfetamin fenilalkilamin qrupuna aiddir. Amfetamin hərbi təyinatlıdır və bir çox ölkələrdə “hərbi aptekə” daxildir.

Amfetaminin istifadəsi zamanı aktivlik və gümrahlıq artır, yorğunluq hissi yox olur, əhval yüksəlir, diqqəti cəmləmək imkanı artır, iştah azalır və ya ümumiyyətlə olmur, yuxusuzluq yaranır. İnsanın zahiri görkəmində yaşına xas olmayan qocalma effekti yaradır. Bədən tonusu qəfil düşür, arterial təzyiq artır, dil dişləmə xüsusiyyəti yaranır, dişləri bir-birinə sürtmə (bruksizm) yaranır.




**Fiziki xüsusiyyətləri:** Rəngsizdir, daşına bilinəndir, az buxarlanan maye halında və ağ toz halında olur, əksər aminlər kimi köhnə balıq iyi verir.

**İstifadə qaydası:** həb, inyeksiya, iyləmə.

**Qeyri-leqal dövriyyədə adı:** dopinq, vint və s.

**METMFETAMİN (Pervitin)**






**Kimyəvi formulu:** $C_{10}H_{15}N$

Metamfetamin çox tez təsir edən narkotik vasitədir. İkinci dünya müharibəsində Hitlerin hava və tank hissələri, xüsusi təyinatlı birləşmələri tərəfindən istifadə edilirdi. Ondan yapon kamikadzeləri tərəfindən də istifadə edilmişdi.

Hələ XX əsrin 60-70-ci illərində ABŞ və Yaponiyanı metamfetaminlərdən sui-istifadə halları böyük həcmdə bürümüşdü. Bu gün də onlardan qeyri-qanuni istifadə edilməsi Avropa, Yaponiya, Şimali Amerika və Avstraliya üçün problem olaraq qalır. Əsas etibarı ilə hidroxlorid və sulfat (həblər və ya ağ qəhvəyi və ya bənövşəyi rənglərdə) növündə rast gəlinir. Kusfar üsulla tərkibində efedrin olan dərman vasitələrindən hazırlanır, almaya oxşar xarakterik iyə malikdir. Öz xarici görünüşü nəzərə alınaraq metamfetamin - əsasən “buz” və ya “şüşə” sözləri ilə adlandırılır. O, suda asan həll olur. Kustar yolla efedrindən kristal yod, qırmızı fosfor və sirkə turşusunun təsiri ilə əldə edilir.

Qeyri-leqal dövriyyədə kusfar yolla alınan pervitin şəffaf və ya bulannıq məhlul halında, rəngsiz, sarı və ya qəhvəyi rəngdə rast gəlir.

Amfetamin (Pervitin) kokain sinfinə mənsub olan çox güclü, küçə narkotiki hesab edilir, gecə klublarında, diskotekalarda istifadə olunur.

Ona “qara bazarda” şəffaf və ya yüngül bulanıq, sarı və ya qəhvəyi rəngli maye halında da rast gəlinir.

**Onun jarqon adı:** şirka, vint, mel, lyod, amfa, fen, buz, mef, fenamin.

O, Amfetamin adlı stimulyator-narkotikdan törəmə olan ağ kristalik maddədir. Çox yüksək davamlı təsir gücünə malik olan psixostimulyator olduğundan narkotik kimi geniş yayılmışdır. Kimyəvi baxımdan adrenalinə oxşayır. Mərkəzi sinir sisteminə çox güclü təsir edərək psixostimulyator effekt yaradır. Beyinə tez sovrulur və əsl adrenalindən fərqli olaraq gec parçalanır və uzun müddətli təsirə malik olur. Yorğunluq hissini aradan qaldırır və əlavə güc verir. Fiziki və zehni fəaliyyəti artırır və gücləndirir. Ondan dini sektoların fəaliyyətində istifadə edilməsi halları vardır. Dünyanın ən təhlükəli narkotiklərindən biri hesab olunur.

O, qısa müddətdə fiziki asılılıq yaradır.

Onu istehsal edən ölkələr əsasən ABŞ və Yaponiyadır.

**Fiziki xüsusiyyətləri:** Toz, həb və nisbətən böyük kristallar və maye şəklində olur.

**İstifadə qaydaları:** həb şəklində udma, iynə, iyləmə, siqaret çəkmə.

## Fenamin (amfetamin sulfat)

Fenamin (amfetamin sulfat) insanın mərkəzi əsəb sisteminə güclü təsirə malik olan narkotik vasitədir. O, 1938-ci ildə kimyəvi üsulla alınıb, depressiyanı, xroniki yorğunluğu, çəkinin tənzimlənməsi üçün istifadə edilir. Ondan insanın zehni, əqli proseslərin gücləndirilməsi məqsədilə də istifadə edilir. Lakin onun ümumilikdə insan orqanizminə mənfi təsirini nəzərə alaraq bir çox ölkələrdə onun istifadəsindən imtina edilmişdir. Qeyri-aşkar dövriyyədə o, ağ və ya çəhrayı rəngli xırda kristal tozdan (tipi və tərkibində olan aşqarlardan asılı olaraq), həb və ya ampulada (kapsulada), acı dad verən, almanın iyinə oxşar spesifik iyi olan maddə halında rast gəlinir. Estoniya,

Polşa, Hollandiya və s. ölkələr onu əsas istehsal edən dövlətlərdir.

**Qeyri-leqal dövriyyədə jarqon adı:** dopinq, fena, fen və s.

## Efedron (metkatinon)

Efedron (2-metilamino-1-fenil-1-propanon) – narkotik vasitədir (mərkəzi sinir sisteminin güclü stimulyatorudur). O, qatırquyruqlu efedranın (Ephedraceae) köklərindən və baş hissəsinin saplaqlarından hazırlanır. Bu bitki Orta Asiya ölkələrinin ərazisində bitir və efedrinin və psevdoefedrinin sənaye üsulu ilə alınmasında istifadə edilir.

O, təmiz halda ağ rəngli toz halında olur, acı dad verir. Efedron, həmçinin tərkibində efedron olan dərman vasitələrindən də alınır (L-efedrinin bixromat natriumu vasitəsilə oksidləşməsi yolu ilə sintez edilir).

Amerika qitəsində efedron metakatinon adı ilə istifadə edilir (bu onunla əlaqədardır ki, bu narkotik metamfetaminin və katinonun analoqudur).

Ehtimallara görə, bu narkotik hələ beş min əvvəl çinlilərə məlum idi və səhiyyədə "ma xuanq" (Ephedra) bitkisindən öskürəyə qarşı və tərgətirici vasitə kimi istifadə edilirdi: "Vegeterian" pəhrizi saxlayan rus kəndlisi Fedor Moxovikov revmatizmin müalicəsində tərkibində efedrin olan "biryçina" adlı giləmeyvədən istifadə etmişdir.

1910-cu ildə kimyaçı alimlər benzedirini sintez etdilər, 1925-ci ildə efedrinin tam sintezinə, 1938-ci ildə

isə alman pervitinin və sovet fenamininin dövriyyəyə buraxılmasına nail olundu.

Alimlər onları yorğunluğun və yuxusuzluğun aradan qaldırılması üçün tövsiyə edirdilər və əminliklə etiraf edirdilər ki, onların birdəfəlik qəbulu heç bir təhlükə yaratmır.

Onun rəngi istehsal üsulundan asılı olaraq, rəngsizdən, sarı şəffaf və qəhvəyi qədər dəyişən rəngdə ola bilər. Efedron kəsəkli toz və ya rəngsiz, habelə bulannıq məhlul halında rast gəlinir.

Narkotik vasitələri istehlak edən şəxslər arasında aparılan sorğuların nəticələrinə görə, efedronun təsiri metamfetaminin və ya kokainin təsiri ilə müqayisə edilə bilər.

O, daxili damar inyeksiyası, burunla nəfəs alma, siqaret çəkmə və udma yolu ilə qəbul edilə bilər.

Efedron insanın psixomotor fəaliyyətini tezləşdirir, eyforiya, özünəinam halı yaradır, seksuallığı yüksəldir.

Vizual baxımdan bəbəklərin genişlənməsi, həddən artıq fiziki fəallığın yüksəlişi müşahidə olunur.

Onun qəbulundan bir neçə həftə toksiki psixoz baş verir. Daha sonra onu qəbul edəndə, “panaroya” əlamətləri əmələ gəlir, daimi qorxu, kim tərəfindənsə təqib edilməsi, həmçinin mövcud olmayan təhlükələrə çox aqressiv cavab vermək hissləri və istəyinin yaranması müşahidə edilir, özü və ətrafdakılar üçün təhlükə mənbəyinə çevrilir. Onda intihar etmək fikirləri də yaranır.

Efedrondan narkotik vasitələrin istehsalı ilə məşğul olan əsas ölkələr Qırğızıstan və Qazaxıstandır.

**Onun “jarqon” adı:** kokteyl, Djef, kosmos, efekdi, mulka, pomeşutka və s.

Efedron kustar yolla efedrinin sirkə turşusu daxil olmaqla, kalium permanqanatla oksidləşməsi (qızdırmaqla) yolu ilə alınır. Əldə olunan belə məhlulun tərkibində əlavə olaraq kalium permanqanatın asetatı əmələ gəlir, məhz bu sonuncu damarların divarlarını qıcıqlandırır. Belə məhlul saxlandıqda kalium permanqanat assetat parçalanır və məhlulun rəngi bir neçə rənglərin qarışığının (rəngsiz, açıq sarı, qəhvəyi və bəzən də qırmızı) rənglərindən ibarət ola bilər. Belə məhlul badama xarakterik olan iy verir.

## Katin və katinon

Katin və katinon kat (Catha edulis) bitkisinin alkaloididir. Bu bitki Şərqi Afrikada və Cənubi Amerikada bitir, daim yaşıl olan, 3-6 metr hündürlüyündə kol şəklində olur.

Ərəb həkimi Nəcib Al-Din katin yarpaqlarından depressiya halının müalicəsi üçün istifadə edilməsini təklif etmişdir. Qədim vaxtlardan bitkinin yarpaqlarından dini ayinlərin keçirilməsində istifadə edilirdi, həmçinin toy mərasimlərində və bayramlarda onu qida kimi qəbul edirdilər. Bu bitkinin satışına qadağan qoyulmamışdır və beynəlxalq normativ aktlarla ona nəzarət lazımi həcmdə tənzimlənmir, lakin onun idxal və ixracına müvafiq razılıq tələb olunur. Hal-hazırda "qeyri-leqal bazarda" "ket" adında onun sintetik analoqu meydana çıxmışdır.

Bu qrupdan olan bütün narkotiklər tolerantlıq halı yaratmaq xüsusiyyətinə malikdirlər və qısa bir zamanda aslılıq yaradırlar. Onların narkotik təsiri 4-6 saat davam edir.

Bu bitki aşkar edilərkən onun təxirə salınmadan ekspertizası keçirilməlidir. Belə ki, onun aktiv olan alkaloidləri tez parçalanır (2 həftə ərzində öz narkotik təsirini itirir).

Onun yarpaqları bənövşəyi-qəhvəyi rəngə, parlaq cilali səthə malik olur və müəyyən müddətdən sonra tündləşir. Öz keyfiyyətinin itirilməməsi üçün onları banan yarpaqlarına bükürlər. Onları sərhədlərdən soyuducuları olan nəqliyyat vasitələrində bitki mənşəli xammal qismində keçirirlər.

Onu əsas ixrac edən ölkələr – Somali, Efiopiya, Keniya və Yəməndir.

## Spays






**<u>Spays</u>** ("spice" ingilis sözü olub, ədviyyə mənası verir) – tərkibində sintetik maddələr – endeoqenlər olan siqaret çəkmək üçün bitki (tərkibində psixotrop təsirli maddələr olan) qarışığının xüsusi bir növüdür.

Bu bitki qarışığına onun xarici görünüşündə dəyişiklik məqsədilə adi bitkilər də əlavə edilir. Spayslar Avropada XXI əsrdə meydana çıxmış və ətirli bir bitki qarışığı kimi satılır. Endeoqenlərə bir çox bitkilər aid edilir. Onlardan bəzilərinə Rusiyada qadağan qoyulmuşdur.

Spaysların tərkibinə qeyd edilənlərdən əlavə xüsusi maddə - JWH-018 (və sintetik kannabis) daxildir ki, onun da təsiri təbii kannabisdən 5-6 dəfə zərərlidir. Bu maddə (1-pektyl-3-naphthoylindole) yüzlərlə JWH-xxx maddəsinin bir törəməsidir. Bu maddələr ABŞ-ın Klemsone Universitetinin kimyaçı professoru John Hufman tərəfindən laboratoriya üsulu ilə əldə edilərək

müəyyən edilmişdir və onun şərəfinə adlandırılmışdır. Alimin tədqiqatlarının əsas məqsədi tetrahidrokannabinolun analoqlarını (marixuananın aktiv komponentini) sintez etmək idi. Hal-hazırda onun 1000-dən çox analoqu mövcuddur.

Spaysı ardıcıl qəbul edən şəxslərdə hallyusinasiya, həyəcan, narahatlıq, qusma və yüksək dərəcədə qorxu hissləri yaranır, bir çox hallarda onu istehlak edən şəxslər psixonevroloji və ruhi xəstələr üçün xəstəxanalara düşürlər.

Onu qəbul edən şəxslərdə ağciyər, qaraciyər və sair orqanlar sıradan çıxır. O, birbaşa mərkəzi sinir sisteminə təsir edir, qan damarları kəskin daralır, beyin hüceyrələrinə qanla oksigenin çatdırılması prosesi kəskin dərəcədə azalır və hüceyrələrin məhv edilməsi prosesi gedir.

Kişilərdə notensiya prosesi zəifləyir, qadınlarda sonsuzluğa səbəb olur. Onların təsiri, həşişdən 5-10 dəfə güclüdür. Spaysın qəbulunun miqdarından asılı olaraq çox dəhşətli nəticələr baş verə bilər. Məsələn, hərəkət edən avtomobilin təkərləri altına atılmaq, çoxmərtəbəli binanın sonuncu mərtəbəsindən, yaxud damından özünü atmaq və ya digər ağlasığmayan təhlükəli hərəkət etmək kimi istəyin yaranması vəziyyətləri ola bilər.

Spayslar Rusiyada qanunvericilikdə qadağan olunmuşdur, lakin onun aludəçiləri sərbəst olaraq internet-mağazalar vasitəsilə onu ətir qismində əldə edə bilirlər.

**TEBAİN**
**(Paramorfin)**




**Kimyəvi formulu:** $C_{19}H_{21}NO_3$

Tebain (paramorfin) orqanik (üzvi) birləşmədir, alkoloiddir, tiryəkin tərkibində olur. Adətən dərman preparatlarının hazırlanması üçün bir xammal kimi istifadə olunur. Tiryəkin tərkibinin ən kiçik hissəsidir və kimyəvi baxımdan kodein və morfiyə bənzərdir. Lakin tormozlayıcı xüsusiyyətdən daha çox həyəcan və əsəbilik gətirən xüsusiyyətə malikdir. Tiryəkin tərkibində Tebain miqdari 0,2 %-dır.

**Fiziki xüsusiyyətləri:** Toz və həb şəklində olur.

**İstifadə qaydası:** İyləmə və həb kimi udmaq, daha çox digər narkotiklərlə birlikdə istifadə olunur.

**HİDROMORFON**







**Kimyəvi formulu:** $C_{17}H_{19}NO_3$

Hidromorfon tiryək qrupuna aid olan ağrıkəsici xüsusiyyətə malik olan narkotikdir. Morfindən törəmə narkotikdir. İstifadəsi və daşınması qanunla məhdudlaşdırılmış narkotik vasitələrə aiddir və dövriyyəsi qanunvericiliklə tənzimlənir. Farmokoloji xüsusiyyətləri morfinlə oxşardır. İstifadəsi zamanı eyforiya, nəfəs çatışmamazlığı, genişlənən göz bəbəkləri və ürəkbulanma vəziyyətləri yaranır.

**Fiziki xüsusiyyətləri:** Toz və həb şəklində olur.

**İstifadə qaydası:** Həb kimi udmaq, inyeksiya yolu ilə.

## ETORFİN

**Kimyəvi Formulu:** $C_{25}H_{33}NO_4$

Etorfin adlı maddənin əldə olunmasında əsas sintez maddəsi kimi tiryəkin tərkibində 0,5%-dan 2%-dək miqdarda olan alkoloid hesab edilən Tebaindir. Etorfin morfini 1000 dəfə üstələyir. Baytarlıqda vəhşi heyvanları uydurmaq, onların bədəninin tam və ya müəyyən hissələrinin hərəkətsiz hala salmaq məqsədilə istifadə edilir. Etorfinin 4 mg. kifayətdir ki, 5 tonluq Fili yuxuya aparsın. Antiterror əməliyyatlarında etorfin ayrozolundan istifadə olunur. Etorfindən istifadə etdikdən 3-4 dəqiqə sonra orqanizmə təsir etməyə başlayır, 15 dəqiqəyə tam gücü ilə təsir edir. Onun təsir müddəti 1 saatdır.

**Fiziki xüsusiyyətləri:** Toz və həb şəklində olur.

**İstifadə qaydası:** 50 mq. həcmində - peroral (daxilə) yolla istifadə olunur, 10 mq. qədər həçimdə olan dimetilsulfoksidlə qarışdırılaraq dərinin üstü ilə daxil edilə bilər.

## ASETORFİN

**Kimyəvi formulu:** $C_{27}H_{35}NO_5$ Asetorfin morfidən bir neçə min dəfə güclü təsirə malik olan ağrıkəsici narkotik vasitədir. Asetorfin daha tanınmış olan etorfin adlı opioiddən törəmədir. Asetorfin baytarlıqda güclü ağrıkəsici və həmçinin güclü keyləşdirici preparat kimi də istifadə olunur. Asetorfin 1966-cı ildə Reckitt adlı araşdırma qrupu tərəfindən etorfindən əldə olunub. Asetorfinin əldə edilməsində ilkin məqsəd elə etorfində olduğu kimi böyük heyvanlara qarşı baytarlıqda güclü keyləşdirici vasitə əldə olunması idi. Asetorfinin keyləşdirici və uyuşdurucu xüsusiyyəti ondan narkotik vasitə kimi istifadəsinə gətirib çıxarmışdır.

**Fiziki xüsusiyyətləri:** Toz və həb şəklində olur.

**İstifadə qaydası:** Peroral və müəyyən qarışıqlarla dəri üstü ilə.

## OKSİKODON

**Kimyəvi Tərkibi:** $C_{18}H_{21}NO_4$

Oksikodon – ağrıkəsici, uyuşdurucu xüsusiyyətə malik olan, yarısintetik narkotik vasitədir, tebaindən əldə olunur. Oksikodonun əldə olunması üçün istifadə olunan əsas reaksiya növü Dilsa-Aldera adlanır. Onu qəbul edən şəxsdə açıq psixi və fiziki asılılıq yaranır.

**Fiziki xüsusiyyətləri:** Bərk maddədir. Qarışıq maye və kapsul kimi növləri də vardır. Etil spirtində həll olur. Suda həll olmur.

**İstifadə qaydası:** Həb kimi, inyeksiya yolu ilə.

**Digər adları:** Perkoset, perkodon, roksitet, roksikodon, tiloks.

**DEZOMORFİN**
**(permonid)**






**Kimyəvi Formulu:** $C_{17}H_{21}NO_2$

Morfinin strukturunun modifikasiya olunması nəticəsində əldə olunmuşdur. Güclü ağrıkəsici və analgetik xüsusiyyətlərə malikdir, güclü narkotik asılılıq yaradır. İsveçrədə permonid adı altında istifadə olunub. Dezomorfin morfindən fərqli olaraq qandan gec sovrulduğu üçün çox pis fəsadlar verir. Rusiyada Dezomorfin "krokodil" adlandırılır. İstifadə zamanı insan dərisində baş verən deformasiyalar onu timsah dərisinə oxsadir. İnsan orqanizminə kəskin məhvedici təsiri ilə fərqlənir.







**Fiziki xüsusiyyətləri:** Həb, toz, inyeksiya üçün kapsula şəklində olur.

**İstifadə qaydası:** Həb kimi udulur və ya dəriyə sürtülərək ona hopdurulur.

## KETOBEMİDON

**Kimyəvi formulu:** $C_{15}H_{21}NO_2$

Ketobemidon morfinlə eyni təsirə malik olan güclü ağrıkəsici narkotik vasitələrə aiddir. Güclü narkotik asılılıq yaradır. Farmokoloji məqsədlər üçün istifadə edilməsinə baxmayaraq, narkotik təsiri güclü olduğundan ayrıca şəkildə narkotik kimi və ya digər narkotiklərlə qatışıq kimi istifadə olunur. Xüsusən Skandinaviya ölkələrində və bir sıra digər ölkələrdə qanuni şəkildə ağrıkəsici kimi istifadə olunur.

**Fiziki xüsusiyyətləri:** toz, kapsula, həb və inyeksiya üçün hazır maye şəklində olur.

**İstifadə qaydası:** inyeksiya və həb yolu ilə.

**BARBİTURATLAR**







Barbituratlar xüsusi növ dərman qrupudur ki, barbiturat turşusundan hazırlanır. Mərkəzi sinir sisteminə əzici və yorucu təsir göstərir. İlkin dövrdə barbituratlardan sakitləşdirici və yuxu gətirən dərman kimi istifadə edirdilər. Lakin sonra barbituratların narkotik təsiri ortaya çıxdı. Belə ki, yüksək dozada onların qəbulu narkotik effekt yaradır. Hazırda barbituratlar çox məhdud sferaya malikdir və az rast gəlinir. Bunun səbəbləri kimi birinci – barbituratlar zəhərlənmə yarada bilir və ikincisi – asılılıq yaratmaq xüsusiyyətinə malikdirlər. Barbiturat effektlərinə aşağıdakılar aiddir: Sedativlik, yuxu gətirici, narkotik, qıcolmaya qarşı, anksiolitik (trankvilizator), əzələ rahatlayıcı (zəiflədici), amnistik.

**Barbituromanların əsas xüsusiyyətləri:** koordinasiya qabiliyyəti itir, qəfil yuxuya getmələr olur, əsəbi gərginlik yaranır və s.

Hal-hazırda 2500-ə yaxın barbiturat sintez edilmişdir və onlardan bir çoxu BMT-nin 1971-ci il tarixli Vahid Konvensiyasına əsasən nəzarət edilən siyahıya daxil edilməmişdir.

Barbiturların istehlakı heroin qəbul edən və daha çox effekt almaq istəyən və ya "narkotik aclıq" vəziyyətindən çıxmaq cəhdi göstərən narkomanlar arasında daha geniş yayılmışdır.

**Barbiturat növləri:**

**Luminal** – ölümcül doza 800-1000mg, uzun müddətli təsirə malik barbituratdır. Adətən luminal qırmızı (16mg), ağ (32mg) və yaşıl rəngli (100mg) üstü şırımlı həblər şəklində satılır.

**Amutal** – Uzun müddətli təsirə malik barbituratlardandır. Ölüm dozası 100-250 mg-dır. Adətən açıq-yaşıl (15mg), çəhrayi (100mg) rəngdə kapsul və həb şəklində satılır və üzərində "Lilly" yazılır.

**Natri Amutal** – xüsusiyyətlərinə görə amutala çox bənzəyir lakin açıq-mavi və tünd mavi rəngli xətlərin iki yerə böldüyü həblər şəklində satılır.

**Natri Butizol** – Ölüm dozası 150mg. Üzərində “McNeil” yazılan yaşıl, mavi və çəhrayi həblər şəklində satılır.

**Nembutal** – Sedativ və hipnoz xüsusiyyətlərinə malik olan güclü barbituratdır.Ölüm dozası və ya “sarı köynək” adlanan dozası 200 mg-dir. Digər barbituratlar kimi çox təhlükəlidir. Zəif və ya xəstə insan onu qəbul etsə bu çox təhlükəli fəsadlar baş verə bilər. 30 mg-lik sarı kapsullarda, 50 mg-lik üzəri ağ altı mavi kapsullarda satılır və bu ikisinin üzərində “a” yazılır. 100 mg-lik ağ kapsulların üzərində isə “Abbott” yazılır.

**Sekonal** – qara bazarda ən geniş yayılmış barbituratdır. Bu barbiturat kapsulasının rənginə görə “Qırmızı İblis”, “Qırmızı mələk” və “Ənlik” kimi adlarla tanınır. Ölüm dozası 150 mg-dir və 32 mg-lik kapsullarda satılır.

**Librium (Chlordiazepoxide)** – Zəif trankvilizatordur. Adətən gündə 3-4 dəfə, 5-15 mg qəbul etməyi məsləhət görülür. Bu depressantı əldə etmək çox rahatdır, ona görə ki, həkimlər onu yuxusuzluq və nervoza qarşı dərman kimi məsləhət görürlər. Onların yerləşdirildiyi kapsulaların qeyd edilir: üzərində “Roche 5” yazılan yaşıl və sarı kapsullarda, üzərində “Roche 10” yazılan qəhvəyi və yaşıl (10-mg) kapsullarda, “Roche 25” yazılan ağ və yaşıl (25mg) kapsullarda.

**Valium** – Yüngül təsirə malik trankvilizatordur və gündə 2-3 dəfə 5-10 mg həcmində istifadəsi məsləhət görülür. Üzərində “Roche” yazılan (5 mg) həblər formasında olar.

**Terazin** – Çox güclü narkotik hesab olunur və istifadəsi çox ehtiyatla və nəzarətlə olmalıdır. Daha çox ağır xəstələrin saxlandığı psixoloji dispanserlərdə, vəhşilik, aqressivlik göstərən xəstələri sakitləşdirmək üçün istifadə edilir. Adi istifadə dozası 25 mg-dir. Əksər hallarda insanı yatırdaraq sinir sistemini iflic edir və öldürür.

**Fiziki xüsusiyyətləri:** Həb, toz və kapsula şəklində.

**İstifadə qaydaları:** Həb atmaq, inyeksiya yolu ilə istifadə.

**METAKVALON**

**Kimyəvi formulu:**$C_{16}H_{14}N_2O$

Metakvalon (MTO) – trankvilizatorlar qrupuna daxil olan sintetik narkotik vasitədir. O, sənaye üsulu və laborator şəraitində kustar üsulla alınır. Onun "qara bazara" böyük miqdarda idxal edən ölkə Hindistandır. Metakvalon oradan Cənubi Amerika ölkələri vasitəsi ilə qaçaqmalçılıq yolu ilə Avropaya gətirilir. Onun qeyri-qanuni yolla hazırlanması faktlarına şərq və cənubi Afrika ölkələrində də rast gəlmək olur. Bu ölkələrdə o, gizli laboratoriyalarda həbb formasında hazırlanırdı.

Bir sıra ölkələrdə onun satışı müxtəlif adlarla həyata keçirilir (Macarıstanda – motolok, ABŞ-da mekvin, optimil, somnafan).

Sakitləşdirici və yuxu gətirən dərman vasitəsi kimi istifadə edilir. Həmçinin qıcolmaya qarşı effektli bir müalicə vasitəsi kimi də tətbiq edilir. O barbituratların, anagetiklərin, neyroleptiklərin, həmçinin kodeinin təsirini gücləndirir. Əsas xüsusiyyətlərinə görə barbituratlardan geri qalmır.Uzun müddətli istifadədən sonra asılılıq yaradır.

**Sinonim adları:** Kvaalud (quaalude), Sopor, Dormigen, Motolon, Ortonal (orthonal), Aquanol, Bendor, Siteksal və s.

**Fiziki xüsusiyyətləri:** Ağ kristalik toz şəklindədir və suda az həll olur, 10 dənəlik qutucuqlarda həb şəklində istehsal olunur.

**İstifadə qaydaları:** Həb kimi udmaq, nadir hallarda inyeksiya yolu ilə.

**FENSİKLİDİN**
**(PSP)**

**Kimyəvi formulu:** $C_{17}H_{25}N$

Fenisiklidin – ağ və ya qəhvəyi toz halında, həblər, rəngsiz spirtli və su məhlulları halında ola bilər, o, mərkəzi əsəb (sinir) sisteminə stimulyator təsirli hallyusinogendir. O, 1950-ci ildə sintez edilmişdir və ən təhlükəli narkotik vasitələrə aid edilir.

Ondan XX əsrin 60-cı illərində baytarlıqda qeyri-leqal yolla iri heyvanların sakitləşdirilməsi məqsədilə istifadə edilirdi. O, “Sernalin” ticarət adı ilə buraxılır. 1978-ci ildə onun istehsalı dayandırılmışdı, lakin gizli laboratoriyalarda istehsalı davam etdirilir. Qeyri-leqal yolla alınan nümunələrdə, əlavə kimi kokain, metametamin, metakvalondan istifadə edilir. Ona həblər, kapsul, məhlul halında rast gəlinir.

Fensiklidin (fenilsikloqeksil-piperidin) daxili narkoz üçün sintetik-narkotik maddədir. 50-ci illərin ortalarında ABŞ tərəfindən SERNYL adı altında tibbi praktikada istifadə olunur. Əksər narkotik vasitələrdən fərqli olaraq bu dərman ürək və qan-damar sisteminə və tənəffüs orqanlarına mənfi təsir göstərmir. Lakin istifadə zamanı toksikoloji problem yaratdığından və cərrahiyə əməliyyatından sonra istifadə edən xəstədə hollusinasiya, gərginlik, mental pozğunluq və depressiv vəziyyət yaratdığından dərman kimi tibbi istifadədən kənarlaşdırıldı. Əksər ölkələrdə bu narkotik vasitə narkotik xüsusiyyətlərinə və asılılıq yaratdığına görə qəti şəkildə qadağan olunmuşdur və əsas istehsal yeri ABŞ-da qeyri-qanuni fəaliyyət göstərən laboratoriyalardır. Onun məhlulunu siqaretə hopdurmaqla da istifadə edirlər.

**Jarqon adı:** “Fyodor”

**Sinonim adları:** Peace pill (sülh həbi), Angel dust (mələk tozu), HOG (donuz və ya xoq), killer weed (qatil alaq), KJ, Embalming fluid (mumiyalanmış maye), Rocker fuel, Sherms.

**Fiziki xüsusiyyətləri:** Təmiz halda fensiklidin ağ kristalik toz şəklində və ya ağımtıl yaşıl rəngli möhkəm sıxılmış kürə şəklində olur.

**İstifadə qaydası:** Həb şəklində, inyeksiya yolu ilə, marixuana ilə, tütün ilə, dəri altı və s. yollarla istifadə olunur. Əksər hallarda isə onunla marixuananı, çəfərini, nanəni yaşdadaraq siqaret kimi çəkirlər.

## PSİLOSİBİN və PSİLOSİN







**Kimyəvi formulu:** $C_{12}H_{17}N_2O_4P$

Psilosin və psilosibin – narkotik xassəli aktiv alkoidlərə aiddir, “Psylocybe mexicana” göbələyindən alınır. Qeyd edilən göbələk çürümüş ağacda, torfda, heyvan ifrazatında, çürüntüdə, otlaq yerlərində (çəmənlikdə) bitir. Tərkibində psilosibin olan göbələklər bitki mənşəli narkotiklərə – narkotik xassəli təsirinə görə narkotik hallyusinogenlərə aid edilir. Xarici görünüşünə görə nazik gövdəsi olan qəhvəyi rəngli zəhərli göbələklərə oxşayır. Onun “ponaqcığı” bənövşəyi rəngə çalır. Hal-hazırda bu göbələkləri asan və sərbəst yolla əldə etmək mümkün olduğundan nisbətən ucuz narkotik vasitə hesab olunur. Ona ən çox Rusiyanın Şimal-Qərb ərazilərində, xüsusilə onun təbii bitən növlərinə rast gəlmək olur. Rusiyanın ərazisində onun üç - Psylocybe semilanceata, İnocybe corydalina, Panaeolis subalteatus növləri bitir.

10-15 göbələyin təsiri öz təsirinə görə 1 doza LSD-nin təsiri kimidir. O, qurudulmuş və ya təbii halda

çeynəyib-udma yolu ilə də qəbul edilə bilər. İnsan orqanizmindən və qəbul edilən dozadan asılı olaraq, 4-12 saat ərzində onun təsiri hiss olunur. O, psixi asılılıq yaradır.

Psilosibin psixodelikdir, fosforidləşdirilmiş psilosin (izah-triptaminlər ailəsinə aid olan alkoloid və psixoaktiv maddədir) törəməsidir, ona "Psilocybe" adlı göbələklərin tərkibində daha çox rast gəlinir. Psilosibinin təsiri uzunmüddətli olmayam LSD-trip ilə müqayisədə ona oxşardır. Lakin onlar arasında bəzi fərqlər vardır – LSD ilə müqayisədə emosionallıq çox olur və təbiilik mövcuddur. Təsiri 4-7 saat arasında dəyişir. Psilosibin yalnız Psilocybe adlı göbələklərin içində deyil, həm də aşağıdakı bitkilərdə də rast gəlinir:

Paneolus (Panaeolus)

Straforiya (Stropharia)

Himnopil (Gymnopilus)

Lifli göbələk (Inocybe)

Psilosibin maddəsi bitkilərdən lobarator şəraitdə alınır və müxtəlif dərman şəkillərinə salınaraq istifadə olunur.Tibbdə daha çox ampulalar şəklində və bəzən həblər şəklində rast gəlinir.

**METADON**






**Kimyəvi formulu:** $C_{21}H_{27}NO$

## Metadon (fenadon)

Metadon ikinci dünya müharibəsi zamanı morfinin çatışmazlığı səbəbindən sintez edilirdi, o, morfinə bənzər xassəyə malikdir, ağ toz halında və rəngsiz maye halında olur. Sənaye üsulu ilə həbb halında buraxılır. Onu istehsal edən ölkədən asılı olaraq müxtəlif rənglərdə olur.

Məsələn, Rusiyada ağ rəngli həbb formasında fenadon adı ilə və toz halında, ABŞ-da isə açıq bənövşəyi, açıq sarımtıl rənglərdə həb formasında buraxılır. Qeyri-qanuni dövriyyədə ağ rəngdə, toz halında və ya ampulalarda (məhlul halında) rast gəlinir. Metadonun təsiri morfindən daha davamlı olur və 24 saata qədər uzana bilər.

O, tiryək qrupuna daxil olan sintetik narkotik vasitədir. Analgetik kimi istifadə olunur. Narkomanlığın müalicəsi zamanı da istifadə olunur. Bu narkotik maddənin özəl xüsusiyyətinə görə bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda ondan narkomanlığın ağır növlərinin (tiryək və heroin istifadəçiləri və s.) müalicəsində istifadəsi geniş yayılmış və bu müalicə metodu “Metadon proqramı”adlanır.

**Fiziki xüsusiyyətləri:** Həb, ağ toz və kapsula şəklində olur.

**Sinonim adları:** Amidon (amidone), anadon (anadon), fenadon (phenadone), dolofin (dolophine), fizepton (physeptone), geptadon (heptadone); jarqon adı – “meta”.

**İstifadə qaydaları:** inyeksiya və həb udaraq.

## Buprenorfin (norfin, yunifin)

Buprenorfin – sintetik narkotik vasitəsidir, dərman vasitəsi kimi istifadə edilir, tebainin törəməsidir. O, farmokoloji sənaye yolu ilə hazırlanır, ağ kristalik toz halında xarici görünüşə malik suda həll olan narkotik vasitədir, həb halında və ya ampulada məhlul halında buraxılır.

O, Hindistandan qeyri-leqal yolla digər ölkələrə aparılır.

# FENTANİL




2 mL
FENTANYL CITRATE
Injection, USP
100 mcg Fentanyl/2 mL


NDC 0591-3198-72
Fentanyl
Transdermal System
25 mcg/h
NOT FOR ACUTE OR POSTOPERATIVE USE
DO NOT USE IF SEAL ON POUCH IS BROKEN
KEEP OUT OF REACH OF CHILDREN
WATSON
Rx only
Five (25 mcg/h) Systems
FOR USE IN OPIOID TOLERANT PATIENTS

**Kimyəvi formul:** $C_{22}H_{28}N_2O$

Fentanil və onun analoqları sintetik narkotiklər sinfinə (qrupuna) daxildir, onların əksəriyyəti qeyri-leqal laboratoriyalarda adi kimyəvi maddələrdən və sadə kimyəvi cihazlardan istifadə etməklə alınır. O, ağ toz, həblər şəklində, rəngsiz maye halında, kapsulalarda ola bilər. Hal-hazırda fentanilin 100-dən çox analoqu sintez olunur, onlar öz təsirinin gücünə və müddətinə görə bir-birindən fərqlənirlər. Onlar sadə sintez yolu ilə alınmasına görə əlverişli hesab edilir və təsirinə görə morfin və heroindən 100 dəfə güclüdürlər. Fentanil XX əsrin 50-ci illərində Belçikada farmakoloji şirkət tərəfindən əldə edilmişdir. Onun təsiri 1-2 dəqiqədən sonra başlayır və 30-60 dəqiqə davam edir. Ondan dopinq qismində at cıdırlarında da istifadə olunur.

Fentanilinin sintez edilən analoqlarından Alfentanil və Sufentanil cərrahiyyə əməliyyatlarında ağrıkəsici kimi istifadə edilir. Onun digər analoqlarından Karfentanil silah-sursat kapsulalarında, vəhşi heyvanların hərəkətsiz hala salınmasında, Lofentanil isə uzunmüddətli təsiri ilə seçildiyinə görə travmatologiyada istifadə edilir.

Fentanilinin gizli yolla sintezinə 1979-cu ildə ABŞ-da nail olunmuşdu, belə ki, Kaliforniya ştatında (ABŞ) küçələrdə heroin adı altında yayılan naməlum narkotikdən istifadə nəticəsində çoxsaylı insanlar öz dünyasını dəyişmişdi. Sonradan məlum olmuşdu ki, bu narkotik Alfa-metilfentanildir ki, onun təsiri fentanildən 2 dəfə, morfindən isə 200 dəfə güclüdür.

Fentanilin istehlakının ən yüksək dövrü 1985-ci ilə təsadüf edir, sonradan onun (1988-ci ilədək) kəskin azalması müşahidə edilmişdi. Buna əsas səbəb qeyri-leqal

dövriyyəyə sintez edilmiş çox dəhşətli təsirə malik olan 3-Metilfentalinin daxil olması idi.

Fentanilin bu analoqu çox güclü və təhlükəli olub morfindən 6000 və heroindən isə 1000 dəfə çox təsirə malikdir.

Fentanil tiryək analgetikdir. Adətən anestesiologiyada istifadə olunur. Kombinasiya edilmiş talamonal dərmanının tərkibində neyroleptanalgeziyada neyroleptiklərlə istifadə olunur. Fentanil ümumiyyətlə, süni analgetikdir və fenilliperidindən törəmə dərmandır. Özünə bənzər digər narkotik təsirə malik dərmanlardan fərqli olaraq təsir müddəti azdır. Bu dərmandan kiçik dozalarda tibbdə geniş istifadə olunur. Dərmanın uzun müddət istifadəsi kəskin psixi və fiziki asılılığa (narkomanlığa) gətirib çıxarır. Morfindən fərqli olaraq bu dərmanın çox rəngarəng toksikoloji xüsusiyyətləri var. Fentanil heroindən 1000 dəfə güclü olmasına baxmayaraq, orqanizmə verdiyi ziyan və mənfi təsir heroinlə oxşardır. Fentanil yeni olmasına baxmayaraq, artıq bəzi Avropa ölkələrində heroini bazardan sıxışdırıb çıxarmışdır.

**Fiziki xüsusiyyətləri:** Ağ kristalik, toz şəklində və şəffaf rəngli məhlul halında.

**İstifadə qaydaları:** İynəmə, udma, çəkmə, inyeksiya yolu ilə.

## 3-metil fentanil

XX əsrin 70-ci illərində ABŞ-da qeyri-qanuni dövriyyədə fentanil qrupuna daxil olan alfa-metilfentanil adlı yeni sintetik narkotik vasitə meydana çıxdı. Bu illərdə o, ən çox Honkoqda istehsal olunurdu. Belə şayiələr yayılmışdı ki, onun nəzəri strukturunu hələ Stalinin

hakimiyyəti zamanı sovet alimləri kəşf etmişdi, lakin bu kəşfi reallaşdıra bilməmişdilər. Sonradan isə Stalin bu elmi-nəzəri kəşfi Mao-Tszeduna bağışlamışdı.

**Rusiyada fentanilin analoqu olan 3-metil fentanil (jarqon adları: "belıy kitayes", "krokodil", "caynıy-uayt" və s.)  1991-ci ilin sonunda meydana çıxmışdı.** Sonradan müəyyən olundu ki, onu Kazan və Moskva Dövlət Universitetlərinin tələbələri də hazırlayırlar. Bu tələbələr 1990-cı illərdə keçirilən Berlin kimya tələbə olimpiadasının qalibləri idilər. Onlar çox nadir (unikal) sintez üsulunu kəşf edərək bu sintetik narkotik vasitənin istehsalını təşkil etmiş, Tatarıstan cinayətkar qruplaşmalar vasitəsilə Tatarıstan və Moskvada satışını həyata keçirirdilər. Hüquq mühafizə orqanları əməkdaşlarının həyata keçirdikləri xüsusi əməliyyat-axtarış tədbirləri nəticəsində narkotikləri hazırlayan, yayan və onun hazırlanmasını sifariş edən şəxslər həbs edilmiş və sonradan məhkum edilmişlər.

Bu sahəyə aid və ictimai rezonansa səbəb olan digər cinayət işi ilə bağlı bir fakt da ondan ibarət idi ki, Qertsen adına Sankt-Peterburq Universitetinin müəllimi Mixail Rebin kirayə götürdüyü mənzildə bu narkotikin hazırlanması üçün laboratoriya təşkil etmiş və ilk hazırlanan narkotik vasitəni gizli (qaçaqmalçılıq yolu ilə) olaraq xaricə göndərmişdir. Belə cinayət əməlinin nəticəsində Rusiya və Finlandiyada 100-dən çox insan dünyasını dəyişmişdi.

Bu narkotik qeyri-leqal dövriyyəyə rəngsiz, şəffaf məhlul halında daxil olur. Son zamanlar 3-metilfentanil bərk daşıyıcı maddələrə də əlavə edilir.

Bu narkotik vasitəni istehlak edən şəxs çox qısa bir müddətdə ona alışır və ondan yüksək dərəcədə asılı olur və sonradan onu tez-tez qəbul edir ki, narkotik abstinent halına düşməsin. O, daxili damar sistemi vasitəsilə (inyeksiya) orqanizmə daxil edilir.

Ondan dəfələrlə istifadə edilməsi tolerantlıq yaradır və ona görə də daha çox effekt (ləzzət, kef, eyforiya) almaq üçün çox miqdarda qəbul etmək istəyi əmələ gəlir. Onun istehlakından imtina etdikdə, absinensiya yaranır (damarlarda dözülməz ağrılar əmələ gəlir, tüpürcək və göz yaşları axını artır, yuxu pozulur, qıctutma, titrəmə və s. hallar).

**Onun "jarqon" adı:** kokteyl, Djef, kosmos, efendi, mulka, pomeşutka.

## HAMMAHİDROSİBUTİRAT (GHB)







Yeniyetmələr arasında "təhlükəsiz narkotik" adı altında geniş şəkildə yayılmış bir narkotikdır. Lakin bu heç də təhlükəsiz narkotik deyildir və hətta ölümlə də nəticələnən hallar qeydə alınmışdır. Gənclər arasında "maye ekstaz" adı altında geniş tanınır. Adətən ekstazın özü ilə və alkoqollu içki ilə istifadə olunur. GHB və MDMA ilə birgə şəkildə hazırlanmış narkokokteyldən istifadəçilər arasında ölənlərin sayı çoxdur. Əvvəl bu dərmandan idmançılar istifadə edirdilər. Çünki dərman insanda boyu ucaldan hormonların

ifrazını artırır. 90-cı illərdə ABŞ apteklərində bu dərman açıq şəkildə satılırdı. Aktivlik və stimulyasiya effekti yaradan ekstazdan fərqli olaraq yuxu və rahatlıq gətirən təsirə malikdir. Onun qəbuldan 15 dəqiqə sonra orqanizmə təsiri başlayır və nadir hallarda 3 saata kimi təsir edə bilir. Ekstaz kimi şənlik və rahatlıq gətirməsinə baxmayaraq, səbəbsiz yuxu da gətirir. Narkotik eyni dozada cəmi bir dəfə təsir göstərdiyindən hər dəfə dozanı təzələməyə ehtiyac duyulur. İnsanda güclü doza asılılığı yaradaraq ölümə səbəb ola bilər.

**Fiziki xüsusiyyətləri:** Toz, kristalik formada və maye halında olur.

**İstifadə qaydaları:** İnyeksiya yolu ilə.

## KETAMİN


Ketamin 500 mg
Pharma GmbH
Ketamin 50 mg
i.v., i.m. Inj. und
nach Verdunnen
10 mg/
5 ml
Zur i.v.
i.m.
2 ml mit
Ketamin
i.v. Infusion
GmbH









**Kimyəvi Formul:** $C_{13}H_{16}ClNO$

Narkoz vasitəsi kimi istifadə olunur. Bu dərman fensiklidin əvəzləyicisi kimi ixtira edilib. Narkotik xüsusiyyətləri genişdir. Doza miqdarının nisbətən artırılması ölümlə nəticələnir. İnkişaf etmiş ölkələrin ordusunda ketamindən keyidici kimi istifadə edirlər. Onda baytarlıq təcrübəsində də istifadə olunur.

**Fiziki xüsusiyyətləri:** Struktur baxımdan fensiklidinə oxşardır. Ağ və ya ağımtıl kristalik toz kimidir. Zəif hiss olunan iyə malikdir.

**İstifadə qaydası:** İnyeksiya yolu ilə istifadə olunur. Başqa yolla istifadə qaydaları olsa da toksikoloji effekt yaratdığından geniş yayılmamışdır.

**PEYOTE**
**(Lophophora williamsii)**









Kiçik qəhvəyi, yaşıl kaktusdur, yerdən çox da yuxarı qalxmayaraq yetişir. Peyotl və ya Peyot (Peyote: Lophoppora Williamsii) – kaktusun və ya ondan hazırlanan içkinin adıdır. Çox qədim yazılardan məlumdur ki, peyot 3000 ildir ki, Şimali Meksika və

ABŞ-ın cənub-qərb hissəsinin aborqiyenləri tərəfindən dini ayinlərində və müalicə bitkisi kimi istifadə edilir.

Meksikanın və Amerikanın cənub-şərq hissəsinin əhalisi peyotlara bir ilahi kimi hörmət bəsləyirdilər. Bu bitkinin tərkibində meskalin, tiramin, qardenin, kadisin, anqalamin, lofoforik, dopamin, anqalinin, anqalidin, anqalotin və digər alkaloidlər var. Peyotun alkoloidi olan maskalin kaktusun digər növlərinin tərkibində də olur. **Maskalindən** istifadə edən çoxsaylı tanınmış alimlər onu öz bədii kitablarında yada salırlar. Məşhur kimyaçı-farmakoloq alim Aleksandr Şulqin öz tərcümeyi halında "Feniletilaminlər, hansıları ki, mən tanıyıram və sevirəm: Kimyəvi məhəbbətin tarixi" ifadələri işlətmişdir. Maskalin alman alimi (Artur Xeffter) tərəfindən ilk dəfə 1897-ci ildə göbələkdən çıxarılmış və eyniləşdirilmişdir. Onun sintezi isə 1919-cu ildə Ernest Şpet tərəfindən həyata keçirilmişdir. Hindular kaktusun qurudulmuş yuxarı hissələrini aclığı, yorğunluğu aradan qaldırmaq və dini ayinlər zamanı onlarda müvafiq vəziyyətin yaranması üçün istifadə edirdilər. Təmiz halda maskalin rəngsiz yağlı maddədir, onun duzları ağ rəngli toz halında olur.

O, udma, siqaret çəkmə və iyeksiya yolu ilə istehlak olunur.

Onun qəbulu nəticəsində insanlarda hissiyyatın kəskinləşməsi, hallyusinasiya halının yaranması, seksual fəallığın artması baş verir. Bununla yanaşı, aqressivlik, həyəcan, narahatlıq, ətrafın həqiqətdən (reallıqdan) uzaq olan və təhrif edilmiş dərk edilməsi, hər hansı bir fikrin və rənglərin düzgün müəyyən edilməməsi halları da yarana bilər. O, yüksək hollyusinogen xüsusiyyətə malikdir.

**Digər adları:** Meskal, Kökə, Lofofora.

**Fiziki xüsusiyyətləri:** Bu kaktusun üstündə bir neçə göbələyə bənzər tikansız qönçə vardır. Həmin qönçələrdə meskalin vardır.

**İstifadə qaydası:** Kaktusun üzərindəki qönçələri yeyərək və ya əzərək tərkibindəki meskalini çıxararaq istifadə edirlər, bəzən isə bitkinin özü ilə birgə əzərək yeyirlər. Daha çox istifadə edilən ənənəvi metod yayılmışıdır – kaktusun üzərindəki qönçələri kəsərək xırdalayırlar və günün altında qurudurlar. Həmin qurudulmuş hissələri isə çay kimi dəmləyib içirlər.

# VII BÖLMƏ

## NARKOTİK VASİTƏLƏRİN, PSIXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ DÖVRİYYƏSİ İLƏ BAĞLI KRİMİNOLOJİ VƏ KRIMINALİSTİK MƏLUMATLAR. ONLARIN İNSAN ORQANİZMİNƏ TƏSİRİ

### 7.1. Ayrı-ayrı narkotik maddələrin səciyyəvi cəhətləri

Narkotik vasitələr orqanizmin qıcıqlandırıcılara qarşı hissiyyatın itirilməsi, onların qəbul edilməməsi ilə bağlı neqativ fəsadları yaradan (mərkəzi sinir sisteminə təsiri nəticəsində) dərman maddələrinə deyilir. **Daha geniş tərif:** eyforiya vəziyyəti yaradan bitki, yaxud sintetik maddələr. Bu tərifdə həm də dərman vasitələrinə aid olmayan maddələr də göstərilir (məsələn, kokain, həşiş).

Belə maddələr kifayət qədər çoxdur. Müxtəlif ölkələrdə müxtəlif narkotik maddələr yayılıb. Onların elmi mənbələrdə müxtəlif əlamətlər əsasında təsnifatı verilir.

Aşağıda çox yayılmış narkotik maddələrin təsviri və xarakteristikası verilir. Narkomanlığa qarşı mübarizə məqsədilə narkotik vasitələri ehtimal olunan alınma mənbələrinə görə belə bölüşdürmək (təsnif etmək) olar:

1. tibbi xidmətdə istifadə olunan dərman təyinatlı narkotik maddələr;

2. müalicə məqsədləri ilə istifadə olunmayan, yaxud bu və ya digər dərmanların hazırlanmasında yarımfabrikat kimi işlənən maddələr;

3. başqa dövlətlərdə hazırlanan, istifadə edilən və müxtəlif yollarla ölkəyə daxil ola bilən preparatlar.

| № | Tibbi adı | Görünüşü |
|---|---|---|
| 1 | Hidrokodan fosfat | Ağ kristal şəkildə, qoxusuz (toz), acı dadlı, həblər ağ rəngdə |
| 2 | Dimorfin | Ağ kristal şəkilli, yaxud rəngli həblər |
| 3 | Difeneksilat | Ağ kristal şəkilli, yaxud ağ rəngli həblər |
| 4 | Kodein | Ağ kristal toz |
| 5 | Kodein fosfat | Rəngsiz kristallar, yaxud qoxusuz ağ kristal toz, ağ rəngdə həblər |
| 6 | Kokain hidroxlorid | Ağ həblər, rəngsiz iynəvari kristallar, yaxud ağ kristal toz, acı, qoxusuz, dili yandırır |
| 7 | Noksiron | Ağ rəngli həblər (yuxu dərmanı) |
| 8 | Toz şəklində tiryək | Ağ-sarıdan ağ-boz rəngə qədər toz, özünəməxsus qoxulu |
| 9 | Omnopon | İynə vurmaq üçün omporon məhlulu ilə şəffaf rəngsiz, ya sarımtıl maye. Tozu krem rəngindən qəhvəyi-sarımtıl rəngə qədər |
| 10 | Pervitin | Ağ kristal toz, ya ağ rəngli həblər |
| 11 | Promedol | Ağ kristal toz, iysiz, ya zəif iyli. Məhlulu ağ rəngsiz mayedir. Həblər ağ rəngdədir |
| 12 | Tekodin | Ağ kristal toz, qoxusuz. Məhlul şəklində rəngsiz şəffaf maye. Həblər ağdır |
| 13 | Fenadon | Ağ kristal toz, qoxusuz. Həblər ağ rəngdədir |
| 14 | Tiryəkin quru ekstratı | Boz rəngli toz, tiryəkin özünəməxsus qoxusu olur, su ilə birlikdə tutqun məhlul əmələ gətirir |

Narkotik dərmanlar həb, toz və məhlul halında buraxılır.

Konvalyuta və şüşə borucuqlarda apteklərə xüsusi anbarlardan pərakəndə satış üçün daxil olur. Bankalara yığılmış (500 dənə) həblər müalicə-profilaktik müəssisələr üçün nəzərdə tutulur.

Əczaçılıq müəssisələrində ampulalar apteklər üçün karton qutulara (100 ampul) yığılır. Qutuların üzərində etiket olur. Orada dərmanın adı, dozası, ampulaların sayı, istehsal seriyasının nömrəsi və hazırlanma tarixi, istifadə müddəti, hazırlayan zavodun adı göstərilir.

Morfin hazırlanarkən (habelə, morfin hidroxlorid, omnopon və promedol) qablaşdırma üçün flakonlardan istifadə edilir. Sadə tiryək tinkturası (məhlulu (0,95-1,05%)) 10 ml. həcmdə, xüsusi qaydada qablaşdırılır. Toz şəklində nisbətən az-az hidrokodon fosfat, kodein, kodein fosfat, morfin hidroxlorid, tiryək, omnopon, promedol, itekodin, fenadon, etilmorfin hidroxlorid hazırlana bilər. Apteklərdə hazırlanmış tozlar balaca kağız paketə qoyulur. Ümumi qablaşdırmada hazırlanmış tozların tərkibi, tərkib hissələrin dozası, onların ümumi sayı və hazırlama tarixi göstərilir.

| **Adı** | **1 həbdə narkotiklərin miqdarı** | **Qablaşmanın növü** | **Bağlamada sayı** |
|---|---|---|---|
| Kodein şəkərlə | 0,015 | Konvalyutalar, şüşə bankalar | 6500 |
| Kodein natrium hidrokarbonatı ilə | 0,015 | Konvalyutalar, şüşə bankalar | 6500 |
| Kodein fosfat şəkərlə | 0,015 | Konvalyutalar | 6 |
| Kodein fosfat natrium | 0,015 | Konvalyutalar | 6 |

| | | | |
|---|---|---|---|
| hidrokarbonatı ilə | | | |
| Pervitin | 0,003 | Konvalyutalar | 20 |
| Promedol | 0,025 | Konvalyutalar, şüşə bankalar | 10500 |
| Fenamin | 0,01 | Şüşə borucuqlar | 20 |
| Etilmorfin hidroxlorid | 0,015 | Konvalyutalar | 10 |

**Məhlul və tinktura halında buraxılan narkotik dərmanların adı**

| Adı | Məhlulun miqdarı və narkotikin faizi |
|---|---|
| Morfin hidroxlorid | 1 ml – 1 % |
| Omnopon | 1 ml – 1 və 2 % |
| Promedol | 1 ml – 1 və 2 % |
| Tekodin | 1 ml – 1 % |

Dərman maddəsi olmayan narkotik vasitə gizli satışa xam tiryək, kustar şəklində hazırlanmış tiryək, həşiş kimi daxil olur.

**Tiryək** havada qurudulmuş süd rəngli şirədir. Tiryək (xaşxaşın) laləsinin qozalarının üzərindəki kəsik yerlərdən axan şirə yığılır. O, morfinin alınması üçün xammaldır. Tibbi müalicədə tiryəkin özü də təmizlənmiş halda (tiryək cövhəri, toz halında tiryək, quru tiryək (ekstratı)) istifadə edilir.

**Tiryək (yuxu) laləsinin** hüquqi əsaslar baxımından ölkəmizdə əkilməsinə icazə verilmir. Morfin alınmaq üçün yağlı lalənin qozaları və saplağı istifadə olunur. Xammal şəklində tiryək tünd qəhvəyi, özünəməxsus qoxusu olan (torpaq qoxusuna bənzər) mayedir. Adətən, onu qurudurlar və briket şəklinə salırlar.

Briketlərdə tiryək zahiri tərəfdən tünd-boz, kəsik tərəfdən bir qədər açıq rəngdə olur. Açıq-boz rəngli tozun özünəməxsus kəskin qoxusu vardır.

Gizli satış üçün tiryəki təkrar qaynadırlar. Nəticədə tünd qəhvəyi, qara rəngə yaxın qatı kütlə əmələ gəlir. O, rütubətin dərəcəsindən asılı olaraq qətrana oxşar yapışqanlı, yaxud kövrək quru maddə forması alır. Tiryəkin spesifik qoxusu təkrar qaynadıldıqdan sonra da qalır, ona görə nəql edilən və saxlanılan zaman onu adətən polietilenə bükürlər, ağzı bağlı qab-qacağın içinə qoyurlar, kəskin qoxusu olan maddələrlə üstünü örtürlər. Çəkib bükəndən sonra tiryəki kiçiç, çox vaxt polietilen paketlərin arasına qoyurlar (çəkisi 1 qr.-dan bir neçə qr-a. və  s. qədər olan).

**Morfi** tiryəkdən alınmış texniki əsasdır. Bu, boz-sarı, boz-çəhrayı, tünd-boz rəngli sonrakı emal üçün yarımfabrikat şəklindəki preslənmiş kütlədir.

**Küknar (koknar)** kustar üsulu ilə tiryək, yaxud yağlı lalədən hazırlanmış istifadə edilmək, ya gizli qəbul etmək üçün hazırlanmış qəhvəyi-boz mayedir.

**Həşiş (anaşa).** Onun bir çox yerli adları vardır (marixuana, banq, xurrus). Ən çox yayılmış narkotikdir. Tibb sahəsində istifadə edilmir.

Zahirən bu, yaşıl-boz, sarımtıl-yaşıl, qaraya yaxın, boz preslənmiş kütlə, çox və ya az dərəcədə toz şəklinə salınmış, yaxud sadəcə olaraq əzilmiş bitkinin hissələrindən ibarətdir. Onun kütləsinin içində bitkinin hissəcikləri yaxşı görünür (tozundan və ovuntu qalıqlarından asılı olaraq). Qoxusu spesifik, özünəməxsusdur.

Narkotikin fəallığı yığım vaxtından, çətənənin növündən, saxlama müddətindən asılıdır. Bu bitkilərin tərkibində olan fəal narkotik maddə **tetrahidrokannabinoldur.**

Həşişi çətənənin inkişaf etmiş və qurumuş budaqlarından hazırlayırlar. Alınmış tozşəkilli kütləni bitkinin ovuntuları ilə birlikdə

yığıb, ələyirlər, kisəciklərə tökürlər və presin altına qoyurlar. Bəzən yığılmış kütləni bir qədər isladırlar, sonra isə presləyirlər. Daha da asan üsullar mövcuddur: çiçək açan çətənənin baş hissəsini kəsib qurudurlar və siqaret düzəldib çəkirlər.

Tibb sahəsində işlədilməyən, lakin narkomanlar tərəfindən istifadə edilən narkotik vasitələr içərisində heroini qeyd etmək lazımdır.

**Heroin (asetilmorfin)** – morfindən hazırlanmış çox güclü narkotik maddədir (təqribən 5 dəfə morfindən artıq təsirə malikdir). O, formasız xırda, ağ, yaxud sarımtıl rəngli, qoxusuz tozdur. ABŞ və başqa ölkələrdə narkomanlar arasında çox geniş yayılıb. İstifadəsi tez müddətdə bədənin ona alışması ilə nəticələnir və çətin müalicə olunur.

**LSD (lizergin turşusunun dietilamidi)** – sintetik narkotikdir, hallüsinasiya yaradan narkotiklərə aiddir. Tibb sahəsində istifadə edilmir. Rəngsiz mayedir, mikrohəblər (nitroqliserin tipində), yaxud kristal toz şəklində, habelə maddənin mikromiqdarı hopdurulmuş qənd parçaları şəklində də olur.

**Krek** – kokain hidroxloridinin süni mayasının (bişirmə üçün sodanın) və suyun möhkəm qızdırılması yolu ilə hazırlanan distilatdır (distilat – distillə nəticəsində alınmış mayedir). Əvvəl kokaini (süni mayeni) və suyu eyni cür qatıldığı olan pasta alınana qədər qarışdırırlar. Sonra qızdırılma nəticəsində kokainin əsası (alkoloid) hidroxloridlərdən (duzlardan) ayrılır. Bərkimiş maddəni narın əzərək, sıxırlar və 125 mq həblər şəklinə salırlar. Həblər qəhvəyi rəngdə olur və ölçüsünə görə adi noxuddan böyük olmurlar. Onları gizli satış üçün flakonlara və yaxud sınaq şüşələrinə tökürlər. Bu metodun əsas «üstünlüyü» ondan ibarətdir ki, uçan mayelər (məsələn, efir) daha artıq lazım olmur. Buna görə narkotikin satışı üçün daha ucuz, etibarlı və rahat sayılır.

### 7.2. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə dair qısa məlumat

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsirə malik olan və zəhərli maddələrin qanunsuz dövriyyəsi ilə bağlı olan maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxsləri şərti olaraq 2 qrupa bölmək olar:

- *qeyd edilən vasitə və maddələrin saxlanması, daşınması, göndərilməsi və satılması ilə məşğul olan şəxslər;*
- *onların hazırlanması və istehsalı ilə məşğul olan şəxslər.*

***Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin xarakterizə edən məlumatların təhlilinin nəticələri aşağıdakı ümumiləşdirilmiş fikirləri söyləməyə əsas verir:***

*a) bu növ cinayətləri törədən şəxslər arasında kişi cinsi yüksək dərəcədə üstünlük təşkil edir;*

*b) cinayət törədən şəxslərin böyük hissəsinin yaş həddi 30-35 yaşına qədərdir;*

*c) a və b bəndlərində qeyd edilən şəxslər arasında əməklə məşğul olmayan, tüfeyli həyat sürən şəxslər, təhsildən kənar qalanlar üstünlük təşkil edir;*

*d) bu növ cinayətlərin törədilməsi şəraiti və ehtimalı olan ərazilərdə (o cümlədən sərhəd şəhər və rayonlarında) yaşayanlar tərəfindən nisbətən daha çox qeyd edilən cinayətlərin törədilməsi faktları;*

*e) qeyd edilən cinayətlərin bu cinayətlərə görə əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilməsi faktlarının xüsusi çəkisinin artması;*

*j) qeyd edilən cinayətlərin transmilli səciyyəsi və onların törədilməsində xarici vətəndaşların iştirakı faktlarının artması;*

*i) cinayəti törədən şəxslərin sosial dairəsinin genişlənməsi.*

**Bu növ cinayətləri törədən şəxsləri aşağıdakı qaydada təsnif etmək olar:**

*1. qeyd edilən vasitə və maddələrin topdan alqı və satqısı ilə məşğul olan və ya bu cinayətlərin törədilməsi faktları çox olan, həmçinin onların törədilmə şəraiti və ehtimalı yüksək olan ərazilərdə yaşayan, heç bir əsası olmadan maddi cəhətdən yüksək təminata malik olan şəxslər;*

*2. kiçik miqdarda alqı-satışla məşğul olan şəxslər (bu şəxslər arasında narkotiklərin istehlakı ilə məşğul olan və olmayan şəxslər ola bilər);*

*3. narkotiklərin istehlakı ilə məşğul olan şəxslər (o cümlədən narkomanlar); onlar bir qayda olaraq heç bir yerdə işləmir, tüfeyli həyat tərzi keçirirlər, əsasən narkotiklərin axtarışı ilə məşğul olurlar və bu məqsədlə cinayət törədirlər;*

*4. ara-sıra qeyd edilən maddə və vasitələri istehlak edən şəxslər;*

*5. narkotikləri hazırlayan, istehsal edən şəxslər (bu şəxslər arasında adətən kimya elmi sahəsində müəyyən biliklərə malik olan şəxslər də ola bilər); bir qayda olaraq bu cinayətlər cinayətkar qruplaşmalar – mütəşəkkil dəstə, birləşmə, təşkilat səviyyəsində fəaliyyət göstərirlər);*

*6. xarici vətəndaşlar (əcnəbilər).*

Həyata keçirilən tədqiqatların, müxtəlif məkan səviyyələrində cinayətkarlığın vəziyyətinin təhlili göstərir ki, bu qruplaşmalar arasında, eləcə də onların daxilində bir çox konfliktlər, üstüörtülü çəkişmələr, narazılıqlar, narkotik vasitələrin və psixotrop maddələrin realizə edilməsi və əldə olunan gəlirlə bağlı dezinformasiya faktları mövcud olur, həmçinin rəqabətlə əlaqədar digər qruplaşmaların məhv edilməsi, onların ifşa edilməsinə yönəlmiş, pərdələnmiş tədbirlərin görülməsi və bu tədbirlərdə hüquq-mühafizə orqanlarının imkanlarından istifadə edilməsi istiqamətində məqsədyönlü işlər görülür.

Bu növ cinayətlərin açılmasının ən vacib xüsusiyyətlərindən biri ondan ibarətdir ki, narkotik vasitəni və psixotrop maddənin

istifadəçisi (istehlakçısı) ilə onu satan şəxs arasında qarşılıqlı əlaqənin xarakteri, narkotik vasitəni və psixotrop maddənin istehlakının əsas cəhətləri, narkotikə alışma mexanizmi və narkomanlıq xəstəliyinin başvermə mexanizmi araşdırılıb müəyyən edilsin. Ara-sıra narkotik vasitənin və psixotrop maddənin qəbulu bir neçə aydan bir neçə ilə qədər davam edə bilər. Məhz istehlakın tezliyi və miqdarından və orqanizmdən asılı olaraq narkomanlıq xəstəliyi yaranır (psixi və ya fiziki asılılıq, abstinesiya və tolerantlıq).

Bir çox hallarda narkomanlar bir narkotikin qəbulundan o biri narkotikə keçirlər.

Əksər hallarda narkomanlarda intellektual və emosional səviyyədə ciddi dəyişikliklər baş verir, yaddaş, diqqət, düşünmə qabiliyyəti zəifləyir, tez-tez əsəbləşmə halları, ağıl və iradə gərginliyi tələb edən fəaliyyət üçün dözümlülüyün və qabiliyyətin itirilməsi vəziyyəti yaranır. Bir çox hallarda narkomanlar özlərinin cəmiyyət üçün lazımsız olduğunu başa düşür və bu işə onlarda cəmiyyətə yaxın ətrafına, tanışlarına qarşı əsassız nifrət hisslərinin yaranması və öz ətrafının narkotik vasitələrin və psixotrop maddələrin istehlakına cəlb etməsi istəyinin yaranmasına səbəb olur.

Belə niyyət onların həmçinin qeyd edilən vasitə və maddələrin yeni mənbələrinin əldə etməsi ilə də əsaslandırılır. **Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əməliyyat aparatlarının və istintaq orqanlarının əməkdaşları yuxarıda qeyd edilən məsələləri nəzərə almalıdırlar.**

Praktiki işçilər, tədqiqat aparan alimlər və narkomanlığın profilaktikası istiqamətində ixtisaslaşan tibb işçilərinin əksər hissəsinin fikirlərinə görə narkotik vasitələrin və psixotrop maddələrin istehlaçıları adətən qeyri-tibbi istehlak üçün bir növ narkotik vasitədən istifadə edirlər. Digər mütəxəssislərin fikirləri ilə qismən razılaşaraq zənnimizcə müəyyən müddətdə narkoman narkotiklərin hər hansı bir qrupuna aid olan narkotik vasitə (onların

təsirinə görə) qəbul edir, sonradan isə digər "ağır" növ narkotiklərə də alışa bilər.

Onlar "yüngül" hallysinogenlərdən (marixuana, həşiş) daha "ağırlara" ASD, MDA, MDM və MDEA-ya, psilosibin tərkibli göbələklərə və fensiklidinə, psixostimulyatorlara (kokain, fenamin, pervitin, efedrinin kustar preparatları), tiryək narkotiklərinə (lalə küləşi və çöpü, tiryək, asetilləşdirilmiş tiryək, morfin, heroin, fenodon, fentanil) keçirlər.

Bəzi hallarda narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə görə məhkum olunmuş şəxslər cəzanı çəkdikdən sonra öz cinayətkar fəaliyyətini bərpa edirlər və onların narkotiklərin qanunsuz dövriyyəsi istiqamətində fəaliyyəti daha mütəşəkkil səciyyə daşıyır və geniş miqyaslı olur.

**Məsələn, 1987-ci ildə keçmiş SSRİ-nin 10-dan çox şəhərində yayılmış fenilsiklidinin hazırlanması və satışı məqsədilə laboratoriyanın təşkili və 6 il ərzində qeyri-leqal fəaliyyətinə görə məhkum olunmuş şəxs cəzaçəkmə müəssisəsindən vaxtından əvvəl azad olduqdan sonra 1994-cü ildə yenidən Vyatsk şəhəri Dövlət Universitetinin kimyəvi reaktivlər saxlanılan anbarında yuxarıda qeyd edilən narkotik vasitələrin istehsalı məqsədilə laboratoriya təşkil etmişdir. Həmin laboratoriyanın ləğv edilməsi prosesində 142 qr. fensiklidin, onun sintezində istifadə edilən 270 qr. prekursor, 66 ədəd odlu və qaz silahı, habelə cinayətkar fəaliyyətə aid digər əşyalar aşkar olaraq götürülmüşdür.**

Sintetik narkotik vasitələr hazırlayan cinayətkarların şəxsiyyətini səciyyələndirən cəhətlər narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan cinayətkarlardan seçilir. Bu şəxslərin əksər hissəsini ali məktəblərdə kimya fakültələrində təhsil prosesində yüksək bilikləri ilə seçilən, elmi olimpiadaların iştirakçıları və qalibləri olan tələbələr, elmi layihələrin müəllifləri, elmi qrantlara layiq görülmüş şəxslər, ali və elmi-tədqiqat müəssisələrinin işçiləri, aspirantları, elmi dərəcəsi olan alimlər və s. təşkil edir.

**Məsələn, sintetik narkotik vasitəni hazırlayan şəxs "H" yaşayış yeri üzrə müsbət xarakterizə edilirdi, orta məktəbi gümüş medalla bitirmişdir. O, 7-ci sinifdən başlayaraq çoxsaylı respublika, ümumrusiya, SSRİ məktəblilərarası kimya olimpiadalarında iştirak etmiş, onların fəxri fərmanları və diplomları ilə təltif edilmişdir. 1987-89-cu illərdə SSRİ yığma komandasının üzvü qismində Almaniya Demokratik Respublikasında keçirilən beynəlxalq kimya olimpiadasında iştirak etmişdir. M.V.Lomonosov adına Moskva Dövlət Universitetində təhsil alan müddətdə tələbə kollektivinin və müəllim heyətinin hörmətinin qazanmışdır.**

*Başqa bir cinayətdə təqsirli olan "B" onun narkotik vasitənin hazırlanması ilə məşğul olmağa vadar edən həvəs, maraq və istəyi yaradan səbəbi kimi aşağıdakıları söyləmişdir:*

"Bir gənc kimi biz tələbə illəri fikirləşirdik ki, qazanc əldə edək. Əvvəllər öz aramızda olan danışıqlarda təmiz leqal fəaliyyətlə məşğul olub biliklərimizdən istifadə etməklə necə qazanc əldə etmək haqqında düşüncələr barədə fikir mübadiləsi aparırdıq. İlkin vaxtlarda ziyan yetirməyən dərman preparatlarını, ya da tibbi istehsalı üçün maddələrin, testlərin, daha sonra özünümüdafiə üçün istifadə edilən qaz balonları üçün gözyaşardıcı maddələrin hazırlanması ilə məşğul olmağa başladıq. Tədricən məndə belə bir fikir yarandı ki, bir dəfə çox güclü narkotik təsirə malik olan maddə hazırlamaqla cinayət törədib lazımi miqdarda ilkin vəsait əldə edərək insanlara xeyir gətirən hər hansı leqal fəaliyyətə başlamaq olar". **Sözsüz ki, belə fikri, mülahizəni heç bir baxımdan əsaslandırmaq mümkün deyil, lakin cəmiyyətdə yüksək intellektə və elmi potensiala malik olan şəxslərin, xüsusilə də gənclərin aşkar edilib seçilməsi və onların imkanlarından dövlətin, insanların mənafeyi naminə istifadə edilməsi istiqamətində həyata keçirilən tədbirlərdə müəyyən ciddi problemlərin mövcudluğunu söyləmək düzgün olardı.**

## 7.3. Narkotik vasitələrin və psixotrop maddələrin istehlakının insan orqanizminə təsirinin ümumi əlamətləri

* xarici görünüşü və davranışı bu və ya digər dərəcədə spirtli içkilər qəbul edən şəxsin halını xatırladır və bu vəziyyətdə ağzından spirtli içkinin iyinin olmaması və zahirən ona uyğun olmayan fiziki cəhətdən zəifliyi;

* şüurun dəyişməsi: təhrif etmə, məhdudlaşma, daralma, kədərlənmə, qəmginlik;

* əhval-ruhiyyəsinin dəyişməsi: səbəbsiz gülmə və şənlənmə, gülməli hala düşmə, qəzəblilik, vəziyyətə uyğun olmayan aqressivlik, boşboğazlıq, çərənləmə;

* hərəkət fəallığının dəyişməsi, əl-qol hərəkətlərinin tezliyinin artması, həddən artıq və ya yersiz hərəkətlərin edilməsi, bir yerdə durmaqla sanki xəyala getmə və tam hərəkətsizlik, zəiflik, süstlük, vəziyyətdən asılı olmayaraq sakitliyə və dincliyə meyllik;

* hərəkət zamanı dəyişikliklər: səlislik, rəvanlıq, sürət, tarazlıq, dəqiq olmayan əl-qol atma, sərtlik (kobudluq), bədənin (o cümlədən oturaq halda) yelləndirilməsi, xəttində və danışığında, habelə əmək fəaliyyətində olan dəyişikliklər;

* dəri örtüyünün rənginin dəyişməsi: üzünün və dərisinin solğunluğu, saralması və əksinə qızarması;

* gözünün parıltısı: işığın təsirinə cavab verməməklə bəbəyin daralması və ya genişlənməsi;

* tüpürcək ifrazının dəyişməsi: tüpürcək ifrazının artması və əksinə kəskin azalması ilə əlaqədar ağız və dodağın quruması, səsin batması və ya xırıltılı olması;

* digər dəyişikliklər: nitqin zəifləməsi, asta olması; danışıq zamanı sözlərin uzadılması və hirslə ucadan tez-tez danışma, eyni fikirləri təkrarlama, xarici təsirlərdən ağrıları hiss etmək qabiliyyətinin itirilməsi; narkotik sərxoşluq vəziyyətinin sonunda iştahın həddən artıq artması; sərxoşluq vəziyyətindən çıxdıqdan sonra narkotikdən fiziki asılılıq vəziyyətində “abstinesiya” halının yaranması, bəbəklərin genişlənməsi, ürək bulanma, qarında ağrıların

baş verməsi, bədənin müxtəlif yerlərində ağrıların olması, bədənin hərarətinin qalxması, nəbz və ürək döyüntülərinin yüksəlməsi, burundan ifrazatın və göz yaşlarının artması, tərləmənin baş verməsi; psixi vəziyyət – aqressivlik, ətrafdakılara sərt və kəskin hirsli münasibət, yersiz inadkarlıq və s. hallarla müşaiyət edilə bilər.

## Müxtəlif növ narkotik vasitələrin insan orqanizminə təsiri (marixuana, həşiş, həşiş yağı)

Çətənədən alınan narkotiklər çox tez bir zamanda qana sovrulur və qanda olan tetrahidrokannabinolun miqdarı tez bir zamanda yüksəlir. Onların qəbulunun miqdarından asılı olaraq orqanizmə təsiri 2-3 saata və daha çox vaxta qədər davam edə bilər. Mədə-bağırsaq sistemi ilə qəbul edilməsi nəticəsində tetrahidrokannabinolun miqdarı tədricən artır və 1-3 saat ərzində maksimal səviyyəyə çatır. Əyləncə məqsədilə qəbul edilən narkotiklərin təsirindən dərk etmə prosesi bəzi dəyişikliklər ilə (işıq və səsin çox kəskin dəyişikliklərlə dərk edilməsi, bədəndə yüngüllük hissləri, eyforiya və s.) müşayət olunur. Sonradan mürgüləmə, aclıq hissləri və s. vəziyyətlər yaranır.

Şüurda fasiləli dəyişikliklər baş verir, yaddaş pozuntuları yaranır. Narkotik vasitə artıq miqdarda qəbul edildikdə, çox ciddi şüur pozuntuları baş verir, hallyusinasiya vəziyyətləri yarana bilər. Böyük m

iqdarda narkotik qəbul edən şəxsdə genişlənmiş bəbəklərlə müşayiət olunan qızarmış gözlər müşahidə edilir.

Bu növ narkotiklərin mütəmadi olaraq qəbul edilməsi nəticəsində beyin hüceyrələri ölür, onun fəaliyyətində ciddi neqativ dəyişikliklər baş verir, məntiq aşağı səviyyəyə düşür, yaddaş hiss ediləcək dərəcədə pisləşir, şəxsiyyətin "ikiləşməsi" prosesi baş verir və sonda müalicəsi mümkün olmayan psixi xəstəlik yaranır.

Bu narkotiklərdən dəfələrlə istifadə ediləndə, onlardan yüksək dərəcədə psixoloji asılılıq əmələ gəlir ki, onlardan yaxa qurtarmaq mümkün olmur. Onun istehlakından qısa və tez bir zamanda ayrılmaq istədikdə isə insanlarda yorğunluq, depressiya, əsəbilik, daim həyəcan, qorxu, narahatlıq, pis yuxu, iştahanın pozulması hallarının yaranmasına səbəb olur. Bir çox hallarda bu narkotik vasitələrdən mütəmadi istifadə edilməsi ilə yaranan vəziyyət digər güclü təsirə malik olan "ağır narkotiklərin" istehlakına sövq etdirilməsinə səbəb olur.

## Tiryək qrupuna daxil olan narkotiklərin insan orqanizminə təsiri

**(tiryək, asetilləşdirilmiş tiryək, tiryək küləşinin ekstraktı, tiryək küləşi – koknar, morfin, heroin – diasetilmorfin, kodein – metilmorfin, omnopon, promedol, etorfin, metadon, bupenorfin – norfin, kodein)**

Bu qrup narkotiklər çox böyük psixoloji və fizioloji asılılıq yaratmağa qadirdir. Hətta ilk dəfə böyük miqdarda insan orqanizminə düşməsi ilk öncə psixoloji, daha sonradan isə qısa müddətdə fizioloji asılılıq yaranmasına səbəb olur. Onları qəbul edən şəxs əvvəldə keçirdiyi (kefə, eyforiya) hallara nail olmaq üçün sonradan qəbul edəcəyi narkotikin miqdarını artırmaq məcburiyyətində olur.

"Tiryək narkomanı" müəyyən müddətdən sonra normal insan üçün ölümcül təsirə malik olan narkotikin miqdarından 50 dəfə çox olan miqdarda narkotik qəbul edə bilər.

**Bu narkotikləri istehlak edən və narkotik sərxoşluq vəziyyətində olan şəxsə xarakterik olan əlamətlər aşağıdakılardır:**

* "ürəkaçıqlığı", passivlik, xəbərdaredici davranış;

* şüurun ləngliyi və asta nitq, yuxulu hal, nəyəsə fikirlərini cəmləşdirmək qabiliyyətinin itirməsi;

* işığa reaksiya verməməklə göz bəbəklərinin qeyri-təbii daralması;

Narkotik vasitələrin orqanizmindən çıxarılması prosesində onda abstinent sindromu – qırılma, qıctutma (rus dilində "lomka" adlanan) güclü fizioloji reaksiya müşahidə olunur. Qey edilən hal damarlarda ağrıların olması, baş ağrıları, ümumi halın pisləşməsi, mədə-bağırsaq pozuntuları, ürək bulanması, qusma ilə müşayiət oluna bilər. Belə hal narkotik vasitənin qəbulundan 12-16 saat sonra müşahidə olunur. "Qırılma" (qıctutma) vəziyyətində narkomanda gözlərin qızarması, göz bəbəyinin kəskin və güclü genişlənməsi, ümumi narahatlıq, səbəbsiz əsəbləşmə, yüngül titrəmə halları müşahidə edilir.

**Əgər "tiryək narkomanı" bu qrupdan olan narkotik vasitənin artıq miqdarını qəbul edəndən 1-3 il sonra dünyasını dəyişməmişsə və narkotik vasitənin qəbulunu davam etdirirsə, belə halda onun ölümünə səbəb olan müxtəlif ağır və yolxucu infeksion xəstəliklərə tutulmasına təxminən bir neçə il qalır.**

## Kokain qrupundan olan narkotik vasitələrin insan orqanizminə təsiri (kokain, krek)

Koka bitkisindən alınan narkotiklər mərkəzi əsəb sisteminə, beyinə və əzələlərin işinə təsir edir. Kokainin qəbulu nəticəsində tez bir zaman kəsiyində insanın psixoloji və fizioloji halı dəyişir, əhval-ruhiyyəsi yüksəlir və özünü yaxşı hiss edir. Bununla yanaşı, qüvvənin və dözümlülüyün artması hissləri yaranır, yeməyə və yuxuya olan təlabat itir. Narkotikin qəbulundan sonra ilk anda fizioloji amillər zəifləyir, sonradan isə ürək döyüntüləri, qan təzyiqi artır, ağızda quruluq yaranır, göz bəbəkləri genişlənir. Bir vaxtdan sonra sanki insandan əl çəkməyən ("beyindən çıxmayan") həyəcan hissləri, "hallyusinasiya" halı və digər psixotik effektlər yaranır. Qeyd edilənlərlə yanaşı, depressiya, yuxusuzluq, seksual

münasibətlərdə zəiflik müşahidə edilir. Bu qrupdan olan narkotik vasitələr güclü psixoloji və fizioloji asılılıq yaradır.

Heyvanlar üzərində aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, kokain onlarda o dərəcədə asılılıq yaradır ki, onları yeni, keyfiyyətli, adi halda onların tələbatı olduğu qida seçimi ilə təmin etdikdə, onlar tədricən miqdarı artırılan narkotikdən məhrum olmaqdansa, ac ölümü seçirlər (siçovul kokainə görə ac ölümə getməyə hazırdır).

**Amfetaminlərin insan orqanizminə təsiri (fenamin – amfetamin sulfat, efedron – metakatinon, pervitin – metamfetamin, MMDA – ekzfazi, MDA)**

Bütün fenilalkilaminlər həddindən artıq güclü mərkəzi əsəb sisteminin stumulyatorlarıdır (qıcıqlandırıcılarıdır). Öz təsirinə görə adrenalinlə müqayisə olunur. Onlar tez bir zamanda mədə-bağırsaq traktına sovrulur (daxil olur), onun qəbulundan 20-30 dəqiqə sonra öz təsirini göstərir. Onun qəbulundan sonra maddələr mübadiləsi kəskin dərəcədə yüksəlir, ürək sıxıntılarının tezliyi artır, arterial qan təzyiqi yüksəlir, yuxusuzluq, yorğunluq və aclıq hissiyatı aradan qalxır. Yaxşı əhval-ruhiyyə, gümrahlıq halı yaranır və o, 3-6 saata qədər davam edir, hərəkətlərin koordinasiyası pozulur, bu hərəkətlərdə tezlik və sərtlik müşahidə edilir.

Amfetamin qəbul etmiş şəxsə özünü kəskin dərəcədə büruzə verən hərəkət fəallığı, boşboğazlıq, aclığın olmaması, seksual azadlığa meyllik və s. cəhətlər xarakterikdir. Amfetaminləri böyük miqdarda qəbul edən şəxslərdə beyin qabığına daxil olan sensor axınının kəsilməsi halı yaranır. Belə olan halda şüur kəskin dərəcədə fəallaşaraq şüursuz materiala daxil olmaq imkanı əldə edir. Belə vəziyyət ona nəzarətə imkan vermir və insan tərəfindən adekvat dərk edilmir, sonda onu psixoloji asılılığa gətirib çıxarır. Bu növ narkotik-hallyusinogen venadaxili, burunla nəfəsalma proseslərini pozur və hava ağız vasitəsilə qəbul edilir. Onlar tez bir zamanda aslılıq yaradır, çox yüksək toleratlıq dərəcəsinə

malikdirlər, 2-3 aydan sonra 1 dəfəyə qəbul edilən miqdar (doza) təxminən 100 dəfə artır.

Onun təsiri qurtardıqdan sonra insanda narahatlıq hissləri, əsəbilik yaranır, eşitmə qabiliyyəti itir, danışığında sözlər arasındakı əlaqəlik və məntiqlik pozulur, müxtəlif qorxu, əsassız nədənsə ehtiyatlanma hissiləri yaranır. Bu narkotik vasitə orqanizmdə yığılır və onun xroniki istehlakı sayıqlama vəziyyətinə gətirir, orqanizmin ürək-damar sisteminə ciddi zərər vurulur.

## Hallyusinogenlərin insan orqanizminə təsiri (LSD – lizergin turşusunun alfa dietilamidi, fenilsiklidin, 3-metilfentanil, meskalin, psilosin, psilosibin, katin və katinon)

LSD-nin qəbul edilməsindən 20-30 dəqiqə sonra onun təsiri başlayır və insanın orqanizminin fərdi xüsusiyyətlərindən asılı olaraq 6 saatdan 36 saata qədər davam edir. Onu qəbul etdikdən dərhal sonra baş ağrıları yaranır, tərləmə baş verir və daha sonra onlar yox olur, insan özünə qapanır. Gözdə rənglər parıltılı və digər rənglər kimi görünür, əşyalar öz real vəziyyətindən başqa formada (təhrif olunmuş) dərk edilir. Narkotikin təsiri onun qəbul edilmədiyinə baxmayaraq, bir müddətdən sonra da təkrarlana bilər. Belə hal “Flash-back” adı ilə adlanır. LSD-nin hətta bir dəfə qəbul edilməsi orqanizmdə bəzi genetik dəyişikliklər əmələ gətirə bilər.

## Digər hallyusinogenlərin insan orqanizminə təsiri

Bütün hallyusinogenlər əvvəldən görmək mümkün olmayan fəsadların – gözlənilməz əhval-ruhiyyənin, fikir və düşüncələrin dəyişməsi, ətrafın, vaxtın, insanın özünün reallıqda dərk edilməsi ilə bağlı pozuntulara səbəb olmasına gətirib çıxara bilər. Bununla yanaşı, bütün hisslərin kəskin dərəcədə gərginləşməsinə, son dərəcə həyəcanlanmadan və yaxşı əhval-ruhiyyəyədək, həmçinin hədsiz dərəcədə dəhşətli hallara, keçidlərə səbəb ola bilər. Eyni zamanda fikir söyləmək proseslərində fasilələrin olması, psixi və fiziki

reaksiyalara gözlənilməz və qabaqcadan adekvat cavab verməyin mümkünsüzlüyü vəziyyətləri yaranır.

Əksər hallarda hallyusinogen-narkotikləri qəbul edən insanlar sonda həyatlarını özünə intiharla (suisidlə) başa vururlar.

## Barıbaturatların insan orqanizminə təsiri

Baribaturatlar insanın mərkəzi əsəb sisteminin fəaliyyətinə tormozlayıcı, məhdudlaşdırıcı təsir göstərir. Onun qəbulu yuxuya meylliyə, aktivliyin azalmasına, qarışıq, məntiqsiz fikirləri söyləməyə səbəb olur. Baributaratların müntəzəm qəbul edilməsi nəticəsində istifadəçilərdə 2-3 aydan sonra tolerantlıq əmələ gəlir, psixi və fiziki asılılıq yaranır, yaddaş, sosial məsuliyyət, fikir söyləmək qabiliyyəti zəifləyir, seksual münasibətlərdə iştirakı zəifləyir.

Onun uzun müddətli qəbulu kəskin psixoz vəziyyətlərə, ağır xəstəliklərə, o cümlədən qaraciyərin zədələnməsinə gətirib çıxarır.

## 7.4. Narkotik sərxoşluq vaxtı narkomanın davranışının və xarici görkəminin səciyyəvi cəhətləri

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizədə narkotik sərxoşluq vəziyyətinin əlamətlərini bilmək vacibdir.

**Bəzi hallarda sərxoşluq əlamətləri özünü belə biruzə verir:** süstlük, az hərəkətlilik, hərdən "yüngül" yuxuya getmə, hərəkətlərdə bəsitlik, monotonluq, nitqdə olan məntiqsizlik, ifadələrin anlaşılmazlığı, hərəkətlərin, koordinasiya tarazlığının və yerişin bir qədər pozulması.

Digər hallarda əsasən, yüksək əhval-ruhiyyə, səbəbsiz şənlik, hərəkətlərdə qeyri-ardıcıllıq, fikir dağınıqlığı üstünlük təşkil edir. Danışıq sürəti tezləşir, nitq bəzən qəfil mənasız gülüşlə kəsilir. Suallara adətən yersiz cavab verilir. Qayğısızlıq və özündən razılıq əlamətləri üstünlük təşkil edir, sifətdə lüzumsuz gülüş, bəzən isə xəyala qapılmış vəziyyətdə "donuqluq" ifadəsi olur. Narkotik sərxoşluq vəziyyətində daha çox şəxsin əsəbi, çılğın olması gözə çarpır. Normal hərəkətlər pozulur, dəri örtüyü qızarır və ya avazıyır, gözlərdə «parıltı» və ya bulanıqlıq müşahidə olunur, bəbəklər kəskin genəlir və yaxud daralır.

Nəzərə almaq lazımdır ki, narkotik sərxoşluq epizodları (vəziyyətləri) gün ərzində təkrarlana və qısa müddətli ola bilər.

Narkomanların narkotiklərdən məhrum olduqları dövrdə onların ovqat və davranışlarındakı dəyişikliklərə diqqət yetirmək lazımdır. Bunlar əzələ və oynaqlarda səbəbsiz ağrılar, ümumi əzginlik, qarında ağrılar, ishal, soyuqlama əlamətləri olmadan asqırma, ağız suyunun axması və sairədir. Yeniyetmələr narahat, kobud, hirsli, yaxud məzlum vəziyyətdə olaraq, narkotik maddələr axtarışı ilə əlaqədar ağlasığmaz hərəkətlər edə bilərlər. Bəzi hallarda isə xəstələr süst və yuxulu görünür, onların xarici görünüşləri dəyişir, kəskin arıqlamaya məruz qalır, gözləri düşkünləşmiş, sifətləri solğunlaşmış olur.

Narkotik maddələrin təkrar qəbulu nəticəsində xüsusən yeniyetmələrin davranışında baş verən və qısa müddətdə daimi xarakter alan dəyişikliklərə diqqət yetirilməlidir. Yeniyetmənin davranış və xarakterində əvvəllər müşahidə olunmayan süstlük və ya yüksək oyanıqlıq, əsəbilik, aqressivlik müşahidə olunur. Onlarda həmçinin diqqəti cəmləşdirmək çətinləşir, yaddaş zəifləyir, fikir dağınıq olur.

**Opiatların təsiri (tiryək alkoloidləri)**. Morfinin damara yeridilməsindən sonra narkomanın sifəti qızarır, göz qapaqları daralır, burnunun ucu, çənəsi, alnı gicişir, hərəkətləri ləngiyir.

Subyektiv cəhətdən insan xoş hisslər keçirir, sevinir (bu halı narkomanlar «gəliş» adlandırırlar). Sonradan onlar sərxoş adamı xatırladır, çətinliklə hərəkət edir, demək olar ki, xarici qıcıqlandırıcıları hiss etmir. Bu dövrdə sakit, mülayim vəziyyətdə olur, xəyala dalırlar.

**Kodein** qədul etdikdə sifət qızarır, sonra isə həyəcanlar, ehtiraslar əmələ gəlir: insan fəallaşır, səbəbsiz gülür, tez-tez və əlaqəsiz və məntiqsiz danışır. Belə hal 3-4 saat davam edir (qəbul edilən miqdardan asılı olaraq bu müddət dəyişir).

**Morfin, yaxud** tiryək qəbul edən yuxuya gedir, kodein yuxu gətirmir, narkomanın davranışı spirtli içki qəbul etmiş (lakin onun iyi olmayan) şəxslərin davranışına bənzəyir.

**Yuxu vasitələrinin (barbituratların) təsiri**. Yuxu vasitələrini bədənə yeridərkən sifət və bədənin yuxarı hissəsi qızarır, ətraf mühit dərk edilmir (narkoman bir neçə saniyə «təcrid olunur»). Sonra sərxoş olmuş şəxs sərbəstləşir, səbəbsiz şənlənir. Lakin bu hal asanlıqla hirslənməklə əvəz oluna bilər. Onun səsi daha cingiltili, nitqi uzun, anlaşılmaz olur, yol gedərkən yırğalanır. Belə hal 2-3 saat davam edir. Sonra 3-4 saatlıq yuxu gəlir. Yuxudan sonra yorğunluq, əzələlərdə zəiflik yaranır, bu, özünü hərəkətlərin yöndəmsizliyində, əllərin titrəməsində göstərir. Bu hal spirtli içkidən yaranmış, lakin iyi gəlməyən hala bənzəyir.

**Həşişin təsiri.** Həşiş qəbul edən şəxsdə bir neçə dəfə istifadədən sonra yüngüllük hissi, bərkdən gülüş, ətrafı qeyri-real dərketmə halları baş verir. Əşyaların formaları, ölçüləri təhrif olunur (məsələn, balaca daş nəhəng görünür). Buna görə onların hərəkətləri gülünc görünür: onlar ayaqlarını yuxarı qaldırırlar və addımlarını geniş atırlar ki, guya balaca gölməçənin və yaxud yoldakı taxtanın üstündən keçsinlər. Bəzən öz fiziki qüvvələrini düzgün qiymətləndirmirlər. Bəzilərində təcavüz hissi yaranır, bu halda onlar davaya girişirlər, xuliqanlıq edirlər; başqalarının cinsi fəaliyyəti artır və onlar cinsi cinayətlər törədirlər.

Hərəkətlərin fəallığı əsas etibarı ilə artır, iştahanın artması və susuzluqla əvəz olunur. Həşiş çəkən bu halda çox yeyir, içir, şirniyyata üstünlük verir. Sonra yuxu gəlir və bundan sonra yenə iştaha artır və susuzluq əmələ gəlir.

Sərxoş vəziyyətdə dəridə qızartı və qeyri-təbii ağarma, göz qapaqlarında qızartı, gözlərin qeyri-təbii parlaqlığı, nəfəsin sürətlə alınıb-verilməsi, hərəkətlərin pozulması baş verir.

Həşiş çəkənləri müəyyən edən xarakterik cəhətlərindən biri də onların qrup şəklində siqaret çəkmələri və ümumiyyətlə qrupda davranışlarıdır. Bir qrup papiros çəkən çox vaxt eyni siqaretdən, yaxud əldəqayırma həşişli siqaretdən istifadə edir. Siqaret çəkən bir-iki dəfə dərindən qullab vurur və udduğu tüstünü ciyərlərində mümkün qədər çox saxlamağa çalışır. Bu zaman o, siqareti iki ovucun arasında saxlayır ki, tüstü uçub getməsin. Sonra siqareti o birisinə verir və s. (yanan siqaretin özünəməxsus iyi var və ətrafdakıların diqqətini cəlb edə bilər). Siqaret çəkənlər yaxınlaşan adama demək olar ki, diqqət vermirlər. Elə təəssürat yaranır ki, onlar sanki hipnozun təsiri altındadırlar. Eyni zamanda qrupun özündə hər bir gülüş, qorxu hissi ətrafdakılar tərəfindən asanlıqla dərk edilir.

**Kokainin təsiri**. Kokain qəbul edən rahatlıq hissi, artan fiziki qüvvə (əslində bu baş vermir), bəzən həyəcan, qorxu, qarabasma hisslərini keçirə bilər.

İnsan həddindən artıq hər şeydən qıcıqlanır. Çox hərəkətlər edir, danışır, göz bəbəyi genişlənir, bəzilərində təcavüz hissi əmələ gəlir. Onun çox böyük dozalarda qəbulu ölümlə nəticələnir. Çəkməkdən uzaqlaşarkən depressiya (ruh düşkünlüyü), qəzəbli əhval-ruhiyyə, yəni psixi asılılıq baş verir, bu zaman fiziki asılılıq baş vermir.

**LSD (lizergin dietilamidi)**. Bundan çox istifadə edərkən, ətrafı real dərk edilməməklə müşayiət olunan dəyişikliklər baş verir, eşitmə, görmə, toxunma hissi, hərəkətlərin idarə edilməsi pozulur, əşyalar sanki hərəkətə gəlmiş, canlı kimi görünür. Eşitmə, görmə qallyusinasiyaları baş verir, insan bədən hissiyyatını itirir, fiziki imkanlarını düzgün qiymətləndirə bilmir (məsələn, elə bilir ki, uça bilər və bunu etməyə cəhd göstərir). Təfəkkür fantastik ideyalardan ibarət olur. LSD-ni qəbul edən adamın davranışı və görkəmi qeyri-adidir: onun bədəni titrəyir, hərəkətləri idarə olunmur, o, hönkürtülü ağlamaqdan gülüşə və tamamilə hisetmə qabiliyyətinin itirilməsi halına keçə bilər; şüursuz hərəkətlər mümkündür (soyunma, dəlicəsinə qaçma, hündürlükdən tullanma və s.); intihar cəhdi halları da baş verir. LSD-ni qəbul edən şəxsin hərəkətləri ləngimiş, süst halda ola bilər. Fiziki asılılıq baş vermir, lakin güclü psixi asılılıq inkişaf edir.

**Krek** orqanizmə kokain kimi təsir edir. Onu qəlyanlarda, adi tənbəki çubuqlarında və hətta siqaretlərdə təmiz halda, yaxud tütün və ya marixuana ilə qarışıq çəkirlər. Krekə alışma başqa narkotiklərə nisbətən (heroin daxil olmaqla) daha tez baş verir, çünki ondan istifadə edəndə baş beyinin biokimyəvi xassəsi dəyişir. Bircə dəfə krekin təsirinə məruz qalanda insan adətən bu narkotikdən yaxa qurtara bilmir. Buna görə narkomanlar arasında onu **«şeytan həbi»** adlandırırlar.

**Krekin istifadə olunmasının daha çox müşahidə edilən əlamətləri:**

* boğazın xroniki iltibahı, səsin xırıltılı olması;

* boğulma, ürəyin tez-tez döyünməsi, ağ ciyərə hava yığılması, dərinin gicicməsi;

* iştahanın pozulması, çəkinin azalması, bədənin həddindən artıq zəifləməsi;

* əzələlərdə ağrılar, soyuqdəymələr, yüksək hərarət.

Krek qan damarlarının sıxılmasına səbəb olur. Buna görə qan təzyiqi 10-15 faiz artır. Bəzi narkomanlar gördükləri əşyaların ətrafında reallıqda olmayan ildırım və şüalanma hadisələrini müşahidə edirlər.

## 7.5. Narkotik aclıq (abstinensiya) zamanı narkomanın davranışında xarakterik cəhətlər

**Tiryək qrupuna daxil olan narkotikləri qəbul edənlər.** Narkotik aclığın əlamətləri narkotikin axırıncı qəbulundan 8-12 saat sonra əmələ gəlir: narazılıq, gərginlik halları, göz bəbəyinin genişlənməsi, əsnəmə, göz yaşının axması, zökəm, asqırma, dərinin qızarması. Narkomanlığın daha ağır mərhələsində qeyd edilən əlamətlərə – titrəmə, qızdırma, tərləmə, zəiflik, əzələlərdə uzun çəkən ağrılar, həyəcanlı hərəkətlər, aramsız asqırma, ağız suyunun axması, daimi əsnəmə də əlavə olunur.

Uzunmüddətli narkotikləşmədə asbtinensiyanın ən ağır simptomları yaranır: kəskin əzələ ağrıları, gərginlik, hirslənmə, əsəbilik narkotik qəbul etmək üçün çox güclü cəhdlər. Bu dövrdə narkomanlar narkotik əldə etmək üçün hər şeyə, istənilən hüquqa zidd hərəkətlərə, hətta zorakılığa da hazırdırlar.

**“Yuxu” maddələri**. Narkomanı narkotikləri qəbul etməsindən məhrum etdikdən sonra xəstəlik əlaməti olan

simptomlar ilk günlər ərzində inkişaf edir: bəbəyin genişlənməsi, əsnəmə, dərinin ağarması, narazılıq, narahatlıq, yuxusuzluq, iştahanın yoxluğu, əsəbilik, baldır əzələlərinin qıcolma vəziyyətinə düşməsi, ayaq-pəncə barmaqlarının titrəməsi, addım atanda yırğalanma, mədə ağrıları, ögümə, gün ərzində bir neçə dəfə ürəkkeçmə, psixoz.

Bütün bu əlamətlərin təzahürü qəbul olunan narkotiklərin müddətindən və dozasından asılıdır. Abstinensiya halında narkomanlar (barbiturat qəbul edənlər də) təcavüzkarlıq, aqresivlik meylləri və cəhdləri göstərirlər. Həkimlər abstinent sindromunun narkotikin əldə edildiyi halda həyat üçün təhlükəli an hesab edirlər.

**Həşiş.** Narkotikin qəbul edilməsindən 4-5 saat sonra bəbəklər genişlənir, əsnəmə gəlir, titrəmə, halsızlıq, narahatlıq, yuxusuzluq, iştahanın yox olması, nəfəsin daralması, dəridə və dərinin altında güclü qaşınma yaranır. Psixoz hallarının yaranma ehtimalı da olur. Ən uzunmüddətli simptom narkotikə qarşısıalınmaz meylidir. Narkomanın daimi bərk narahatçılığı, zəhlətökənliyi, müxtəlif nalayiq hərəkətləri (narkotik maddə tapmaq məqsədilə) bundan irəli gəlir.

## 7.6. Uzunmüddətli narkotik qəbulunun nəticəsi kimi narkomanın davranışının və görkəminin bəzi xüsusiyyətləri

Narkotiklərin uzunmüddətli qəbulu vaxtı (tiryək qrupu) narkomanda onun üçün səciyyəvi olan zahiri əlamətlər əmələ gəlir: o, əldən düşmüş (çəkisi normadan 10-15 kq az olur), tez qocalmış görünür (30 yaşında narkoman qoca kimi görünə bilər); saçlar seyrəlir və sınır, keçəllik başlayır, sifətdə çoxlu qırış əmələ gəlir, sifətin rəngi ağarır və ya saralmış rəng alır, dişlər sınır, tökülür, dırnaqlar hissə-hissə qopur.

Narkotik vasitə inyeksiya yolu ilə orqanizmə daxil edilərkən bədəndə çoxlu iynə yerləri, zolaqlar, çapıqlar nəzərə çarpır, tiryəkin məhlulunun damara yeridilməsi zamanı onlardakı zədələr görünür. Davranışda halsızlıq, yorulma müşahidə edilir.

Uzun müddət həşiş çəkən şəxslər də zahirən əldən düşmüş, vaxtsız qocalmış (dəridə qırışlar, saçların, dişlərin düşməsi) görünürlər. Tiryək çəkənlərdən fərqli olaraq üzün- uzadı danışıq onlarda intellektual çatışmazlıq (süstlük) əlamətini göstərir. Ümumiyyətlə, onların zahiri görünüşündə düşkünlük, səliqəsizlik, laqeydlik, kobudluq nəzər çarpır.

Əlavə əlamət – siqaret çəkən zaman paltara hopan qoxu ola bilər.

Barbirturomanın xarici görünüşü çox səciyyəvidir. Onun sifəti ağarmış pastoz şəklində (bir növ şişmə), hərəkətsiz (maskaya bənzər) olur, çirklə qarışmış torpağa çalır, dəridə irin səpməsi görünür, nitqdə ləngimə, məhdud söz ehtiyatı müşahidə edilir, onlar öz zahiri görkəmlərinə tamamilə laqeyd olurlar. Buna görə də geyimləri və saç düzümü səliqəsiz olur. Xroniki barbituromanlara özünə qəsd cəhdləri səciyyəvidir.

Uzun müddət amfetamin tipli dərmanları ifrat dərəcədə qəbul edən şəxslər yüksək fəallıqla, əsəbiliklə, bir yerdə qərar tutmamaqla fərqlənirlər. Göz bəbəkləri hətta gur işıqda da genişlənmiş halda olur.

Amfetaminlər burun-boğaz yolunun selikli qişasında xeyli quruluq əmələ gətirirlər. Buna görə nəfəs alarkən spesifik qoxu hiss olunur, dodaqlar çatlayır, məhz ona görə də narkoman həmişə dodaqlarını yalayır ki, onlar yumşalsın. Belə adamlar üçün burunun selikli qışasının qaşınması səciyyəvidir. Bundan başqa ətrafdakılar uzunmüddətli yuxusuzluğu və iştahanın olmamasını da müşahidə edirlər.

**Narkotiklərin uzunmüddətli qəbulunun nəticəsi.** Hər bir növ narkomanlığın inkişafı nəticəsində insanın fəaliyyətinin aşağı

düşməsi, ictimai maraqların yox olması, real həyatı tələbatların azalması, orqanizmin zəifləməsinin artması müşahidə olunur. Narkomanlıq irsiyyətə, genefonda təsir edərək bərpaolunmaz, çox ağır və dəhşətli nəticələrə gətirib çıxarır.

## 7.7. Məişət şəraitində xaşxaşdan kustar üsulla narkotik maddələrin hazırlanma texnologiyası

Xaşxaşın qozalarında və saplaqlarının yuxarı hissələrində orta hesabla bu maddələr vardır: 0,6% morfin, 0,04% kodein, 0,025% tebain, 0,03% papaverin, 0,05% digər narkotiklər.

**Birinci üsul**. Xaşxaşın xırdalanmış başları və saplaqlarının yuxarı hissələrini müəyyən nisbətdə aseton və ya etil spirti ilə, yaxud 646, 647, İPS, BLO tipli həllediciləriə qarışdırırlar. Qarışığı bir qədərdən sonra süzürlər. Bundan sonra alınmış məhlulu odun üzərində qaynadırlar. Qabda qalmış tünd qəhvəyi kütləni pambıq tampona yığırlar və qurudurlar. İstifadədən qabaq (damara daxil edildikdən qabaq) tamponu suda qaynadırlar.

**İkinci üsul**. Xaşxaşın əzilmiş baş hissələrinə tibbi spirt tökürlər, sonra ammonyak (naşatır spirti) əlavə edirlər və bir müddət saxlayırlar. Alınmış kütləni süzürlər, boş qaba yığırlar və yandırırlar. Qalmış tünd rəngli qalığı qaşıyırlar və hissələrə bölürlər. İstifadə etdikdən qabaq maddənin üzərinə su töküb qaynadırlar. Alınmış məhlulu pambıq tamponla damara vurmaq üçün şprisə yığırlar.

**Üçüncü üsul**. Xaşxaşın çiçəklənməsi, qozaların əmələ gəlməsi vaxtı onları azca kəsirlər. Bitkinin qozalarının kəsilmiş hissələrindən axan şirə qaba, yaxud bintlərə yığılır, sonra qurudulur. İstifadə edildikdən qabaq bintlər suda qaynadılır və alınmış məhlul damara yeridilir.

**Dördüncü üsul** (sadələşmiş). Xaşxaşın baş hissəsini əzib xırdalayırlar («saman» hazırlayırlar), su, şirə ilə çeynəyərək içirlər.

**Çətənənin tozundan və güllərindən narkotik maddələrin hazırlama texnologiyası və istifadə üsulu**

Çətənə bitkisində həşiş (tetrahidrokanabinol) narkotik maddəsi vardır (cənub növlərində 0,6%, orta Rusiya növlərində 0,18%). Tozlar, yaxud xırdalanmış və ələnmiş quru süpürgəciklər (güllər) kisəciyə tökülür, əzişdirilir və presin altında bir müddət saxlanılır. Bəzən preslənməkdən qabaq kütləni isladırlar. Alınmış maddəni hissə-hissə tütünlə qarışdırırlar və siqar

et (papiros) gilizinə doldurulur, sonradan isə siqaret çəkmək vasitəsilə qəbul olunur.

Çətənənin tozları və əzişdirilmiş gülləri çox vaxt narkomanlar tərəfindən preslənməmiş də istifadə olunur.

**Narkotik vasitələrin, psixotrop maddələrin hazırlanması və istehlakı ilə bağlı olan yerlərdə** *(yaşayış yerləri, bina, mənzil, nəqliyyat vasitələri, tiryəkxanalar və sair) hüquq-mühafizə orqanlarının, o cümlədən polis, dövlət təhlükəsizlik və gömrük orqanlarının əməkdaşları əsas diqqəti aşağıdakı əşya, maddə, məişət və tibbi ləvazimatlara yetirməlidirlər:* ***ətçəkənlər, mətbəx kombaynları, mikserlər, qəhvəüyüdənlər, şpris, cuna, pambıq, rezin burma (jqut), qəlyan, kolba, kimyəvi vakuum cihazları, çay qutusunun gümüşü kağızı, spirt, ammonyak, brombenzol, susuz dietilefir, aseton, etil efiri, sirkə turşusunun anhidridi, efedrin, soda, kalium permanqanat, sulfat, xlorid, sirkə turşuları, yod və s.***

**Narkotik vasitələrin istifadə üsulları və şəxsi istehlakına dair bəzi məlumatlar**

| **Maddənin adı** | **İstehlak qaydası** | **Birdəfəlik doza** | **Alışma vaxtı** |
|---|---|---|---|
| Tiryək | Udma, iynə vurma | 25 mq | 2-3 həftə qeyri-müntəzəm və 2 |

| | | | |
|---|---|---|---|
| | | | həftə müntəzəm damara iynə vurma |
| Morfin | İynə vurma | 10-15 mq | 10-15 iynə vurma |
| Kodein (kodeinli) | Udma, iynə vurma | 30 mq | 2 həftəyə qədər iynə vurmaqla və 2 aya qədər qeyri-müntəzəm |
| Həşiş | çəkmə | 1-2 dənə siqaret | 1-2 il |
| Kokain | Buruna çəkmə yolu ilə | 20 mq qədər | Bir neçə dəfədən sonra |
| Heroin | Çəkmə, iynə vurma | 10 mq qədər | Bir neçə gündən sonra |
| Barbituratlar | Udma, iynə vurma | 50-1000 mq | 3-4 ay iynə vurma |

## 7.8. Hadisə yerinə baxış və axtarış zamanı müstəntiqin (təhqiqatçının) və əməliyyat müvəkkilinin maddi sübut olan narkotik vasitələrlə davranışın kriminalistik xüsusiyyətləri

Son illər ölkəmizdə narkotik vasitələrdən qeyri-tibbi istifadə getdikcə geniş yayılmaqdadır. Bunun səbəblərindən biri kimi ictimai təhlükəsi hamıya məlum olan narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı olan cinayətlərin artması meyllərinin müşahidə olunmasıdır. Narkotiklərlə bağlı cinayətlərin aşkar edilməsi və açılması və onlar üzrə araşdırılmaların aparılması prosesində narkotik tərkibli maddələrin aşkar olunması, onlarla bağlı hüquqa zidd əməllərin təsbit edilməsi (prosessual və əməliyyat-xidməti sənədlərdə təsvir edilməsi, fotoşəkillərinin və videoəkslərinin çəkilməsi və s.), narkotik vasitələrin götürülməsi, qablaşdırılması, tədqiqi müstəsna əhəmiyyət kəsb edir.

Narkotik vasitələrin aşkar edilməsi, qeydə alınması və götürülməsi üzrə hərəkətlər çox vaxt hadisə yerinə baxış və axtarış kimi istintaq hərəkətləri aparılarkən həyata keçirilir. Yadda saxlamaq lazımdır ki, nəzərdən keçirilən kateqoriyaya aid cinayətlərin törədildiyi tipik yerlər qismində, əsasən, ictimai yerləri, yaşayış yerlərini, tarlaları, nəqliyyat vasitələrini, əxlaqsızlıq yuvalarını ("pritonlar", tiryəkxanalar), müalicə müəssisələrini, poçt şöbələrini və s. misal göstərmək olar.

Narkotik vasitələrin gizlədilmə yerləri də müxtəlifdir, bundan ötrü geyim və digər əşyalardan, yaşayış yerlərindən, nəqliyyat vasitələrindən və s. gizli saxlanclardan istifadə olunur.

Məlum olduğu kimi, cinayətkarın istənilən hərəkəti iz buraxır və istintaq üçün mühüm informasiyanın itirilməsinə yol verməmək üçün hadisə yerlərinə diqqətli və səriştəli baxış keçirilməsi zəruridir. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair işlər üzrə axtarış da hadisə yerinə baxışda olduğu kimi sübutların əldə edilməsinin

mənbəyi qismində çıxış edən ən mühüm təxirəsalınmaz istintaq hərəkətidir. Bu kateqoriyadan olan işlər üzrə **baxışın** və **axtarışın** əsas obyektləri aşağıdakılardan ibarətdir: idarə və təşkilatlar (apteklər, xəstəxanalar, anbarlar və s.); hadisə yerinə yaxın ərazilər, torpaq və əkin sahələri; binalar (mənzillər, zirzəmilər, qarajlar, hamamlar, çardaqlar və s.); yaşayış yerləri (CPM-in 7.0.34. mad.); nəqliyyat vasitələri (avtomobillər, dəmiryol vaqonları və s.).

Qeyd edək ki, binalara, yaşayış yerlərinə baxış və axtarış çox vaxt oradakı obyektlərin quruluşu, xüsusiyyətləri, sayları və s. ilə əlaqədar çətinliklərlə bağlıdır. Bu halda istintaq hərəkətlərinin həyata keçirilməsi binanın dəqiq müəyyən olunmuş hissələrə ayrılmasını və onlardan hər birinin diqqətlə tədqiq olunmasını nəzərdə tutur.

Hər bir istintaq-əməliyyat qrupu baxış üçün frontal baxış metodunu, ya «qövsvari» baxışı tətbiq edə bilər. Belə ki, baxış zamanı nəzərəçarpan dəyişikliklərə, məsələn, divarlardakı təzə suvaq, ağartma, rəng izlərinə, təzə yapışdırılmış divar kağızlarına və gizli saxlanclara işarə verən hər şeyə xüsusi diqqət yetirilməlidir.

Predmet və əşyaların öyrənilməsi də maraqlı nəticələr verə bilər, çünki bu obyektlər çox vaxt narkotik vasitələrin daşınması, yaxud nəqli zamanı «səyyar saxlanc» kimi istifadə edilə bilər. Narkotiklərin mobil telefonlarda, cib fənərinin batareyalarında, alışqanda, siqaret qutusunda, dərman, qablaşdırmalarında, "fotoplyonka", konfet qabında, konserv bankalarında və s. gizlədilməsi hallarına rast gəlinir. Qoxunu itirmək məqsədilə narkotik vasitələrin üstünə mum və ya vazelin, istiot, ətir və s. iyləri dəf edə bilən maddələrdən istifadə edilməsi, sürtülməsi halları da məlumdur. Narkotiklər qida məhsullarının – çörəyin, şokoladın, tortun, qənnadi, makotron məmulatların və s. içəriçində gizlədilə bilər. Bunlar nəzərə alınmaqla hadisə yerində əşyalara baxış və axtarış zamanı maksimal dərəcədə diqqətli olmalı, ciddilik, hövsələlik, təmkinlilik, müşahidəçilik, məntiqli, sistemli yanaşma

və ardıcıllıq, psixoloji təsir prinsiplərinin təmin edilməsi zəruridir. Narkotiklərin gözlənilməz yerlərdə və oybektlərdə gizlədilməsinin mümkünlüyünü nəzərə alaraq, müstəntiq və ya əməliyyatçı şübhəli əşyaları müəyyən qanuni əsaslara (CPM-in və "ƏAF haqqında" Qanunun tələbləri rəhbər tutulmaqla) istinad etməklə rəsmi qaydada götürməlidir.

Nəqliyyat vasitələrinə baxışın və onlarda axtarış keçirilməsinin xüsusiyyətləri də maraq doğurur. Dəniz, çay və hava nəqliyyat vasitələrinə (gəmilərinə) baxış keçirilərkən müvafiq idarələrin mütəxəssislərinin cəlb edilməsi tələb olunur.

**Avtomobil nəqliyyatı vasitələrinə baxış və onlarda axtarış aparılması qaydalarına diqqət yetirək.** Adətən avtomobil üç axtarış zonasına bölünür: ön, arxa hissələr və salon. Birinci mərhələdə salona baxış keçirilir. Avtomobil nə qədər müasirdirsə, orada narkotik vasitələrin gizlədilməsi imkanları bir o qədər artır. Narkotik vasitələr qapılarda, oturacaqlarda, oturacaqlar və kresloların çiyinliyi arasındakı hissələrdə, salon örtüyündə, dekorativ balışda, talisman və dezodorantların içində, radioqəbuledicinin arxasındakı hissədə, əşya qutusunun yuxarı və yan hissələrində və s. gizlədilə bilər.

Salondakı xalçalara, pedalların əks tərəfinə, təhlükəsizlik kəmərinin ətalət sahəsinin gövdəsinə, salonda nəzərəçarpan yerlərdə qoyulmuş əşyalara (o cümlədən uşaq oyuncaqlarına) diqqət yetirilməlidir, çünki onları aparan şəxslər hüquq mühafizə, o cümlədən gömrük, polis və digər hüquq-mühafizə orqanlarının əməkdaşlarının narkotik vasitələrin gizli saxlanclarda axtarılmasına və aşkar edilməsinə səy göstərərək, göz qabağındakı əşyaların maraq doğurmayacağına ümid bəsləyir.

Salonda axtarış səliqə ilə aparılmalıdır, çünki əmlaka səliqəsiz münasibət onun sahibinin mənfi münasibətinə və istintaq hərəkətlərinə müdaxiləsinə (konfliktə) səbəb ola bilər. Salonda axtarış aparıldıqdan sonra avtomobilin ön hissəsi axtarılır. Narkotik vasitələrin gizlədilə biləcəyi mühərrik, radiator boşluğu, hava kəməri, ventilya-

siya sistemi, yuyucu bakı, akkumulyator batareyaları sahəsi və s. xüsusi diqqətlə yoxlanır.

Yük yeri yoxlanarkən onun içindəkilərə, o cümlədən ehtiyat təkərlərinə, arxa qanadlara, bamperə, qabarit işıqlarına xüsusi diqqət yetirilir. Yük yerində çox vaxt heç də təmiz olmayan əşyalar və predmetlər olur və onlarda saxlanclar quraşdırılır. Narkotik vasitələri bu yolla gizlədən şəxslər axtarış aparan əməkdaşın natəmiz əşyalara baxmayacağına ümid bəsləyirlər.

Axtarış aparılan avtomobil xüsusi estakadaya yerləşdirilə bilər, orada axtarış hissə və aqreqatların ardıcıl surətdə sökülməklə, habelə texniki vasitələrdən istifadə olunmaqla aparılır. Avtomobildə quraşdırılmış saxlanclar stasionar və müvəqqəti saxlanclara ayrıla bilər.

Narkotik vasitələrin bərkidilməsi üçün maqnitli alətlər, gizli quraşdırma qablar, yapışqanlı lent və digər materiallar tətbiq olunur.

Baxış və axtarış prosesində narkotik vasitələrin axtarışı üzrə hazırlanmış axtarış itlərindən istifadə edilməsi vacibdir.

Axtarış prosesində bir əməkdaş axtarış yerinə aidiyyatı olan, o cümlədən cinayətdə şübhəli şəxslər üzərində müşahidə aparmalıdır.

Hadisə yeninə baxışın və axtarışın məqsədi və nəticəsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair məlumatın yoxlanması və maddi sübutların əldə olunmasıdır. **Çox vaxt belə informasiya mənbələri qismində narkotik vasitələrin hazırlanması və saxlanılmasının izlərini özündə daşıya bilən aşağıdakılar ola bilər:** *yəni bərk, (toz və həb şəklində), maz şəkilli və duru narkotik vasitələr; naməlum maddələr və mayelər; narkotik vasitələrin izlərinin qaldığı məişət qabları, kimyəvi, aptek qabları, narkotik vasitələrin istifadə edilməsi üçün ləvazimatlar – şprislər, iynələr, qəlyanlar, siqaretlər və s.; qan izləri və bioloji mənşəli digər obyektlər, o cümlədən qoxulu izlər; narkotiklərin saxlandığı qablar.*

**Mühüm informasiya mənbəyi ola biləcək digər izlərə və obyektlərə də diqqət yetirilməlidir. Buna görə də çox vaxt**

**aşağıdakı mühüm əhəmiyyət kəsb edən izlərin obyekt kimi götürmək zərurəti yaranır:** *narkotik maddələr və onlara bənzəyən obyektlər; ciblərində və üzərində narkotik izinin qala biləcəyi geyim; bitkilərin (xaşxaş, çətənə) hissələri; narkotik istehlakı üçün vasitələr, yaxud narkotik istehlakının izləri; ehtimala görə saxta olan reseptlər və müxtəlif sənədlər; üzərində becərilməsi qadağan olunmuş bitki qalıqlarının olması ehtimal olunan kənd təsərrüfatı inventarı; narkotik vasitələrin daşınması və oğurlanması ehtimalını göstərə biləcək sənədlər (blanklar, qaimələr və s.); üzərində narkotik izlərinin olması ehtimal olunan əşyalar (qablar, plyonkalar, bağlamalar və s.); narkotiklərin çəkilməsi, yaxud həcminin ölçülməsi üçün istifadə oluna biləcək tərəzi və digər ölçmə vasitələri (məsələn, ölçmə silindrləri); narkotik hazırlanmasında istifadə oluna biləcək qurğular və maddələr; cinayət yolu ilə toplanması ehtimal olunan pul və sərvətlər; tərkibində narkotik olması ehtimal olunan dərmanlar; ölkənin başqa regionlarından gətirilmiş qəzet və jurnallar; saxta olması ehtimal olunan möhürlər, ştamplar, saxlanılan şəxsin, yaxud onun ailə üzvlərinin narkotik vasitənin tətbiqini tələb edən xəstəliklə bağlı qəbulunu göstərən tibbi sənədlər və s.*

Narkotik vasitələr və narkotik izlərinin olduğu obyektlər aşkar olunduqda işıqlandırma vasitələrinə (fənərlər, elektrik lampaları və s.); müxtəlif böyütmə dərəcəsinə malik lupalara malik olmaq faydalıdır; ultrabənövşəyi şüalarda işıqlanan obyektlərin (qan, sperma, tüpürcək, yanacaq-sürtkü materialı və s.) müəyyən edilməsi üçün ultrabənövşəyi işıqlandırıcılar fayda verə bilər.

**Xüsusi təlim keçmiş, narkotikləri tapmaq üçün hazırlanmış xidməti axtarış iti (biodetektor) ilə kinoloq mütəxəssis böyük rol oynaya bilər.**

Qeyd etmək zəruridir ki, cinayətlərin araşdırılması təcrübəsində kinoloq mütəxəssisin rolu daim artır və narkotik vasitələrin ola

biləcəyi saxlancların aşkar edilməsi məqsədilə onun cəlb edilməsi məqsədəuyğundur.

Buna misal olaraq aşağıdakıları qeyd etmək olar:

**DGK-nın Gömrük Hüquqpozmalarına qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş əməliyyat məlumatı əsasında Biləsuvar Gömrük İdarəsinin "Qoşa Təpə" gömrük postunda İran İslam Respublikasından ölkəmizə gələn Türkiyə Respublikası vətəndaşı Aras Osman Alaetin oğlunun idarə etdiyi "Scania" markalı yük avtomobilinə "Muxtar" ləqəbli kinoloji xidmət itinin tətbiq edilməsi yolu ilə gömrük baxışı həyata keçirilmiş və itin reaksiyasına əsasən malların aşkar edilməsini çətinləşdirən üsullardan istifadə edilməklə qoşqunun içərisindəki döşəmədə xüsusi düzəldilmiş metal löhvənin altında gömrük nəzarətindən gizlədilmiş 52 bağlamada ümumi çəkisi 26 kq. 60 qr. olan narkotik vasitə – heroin aşkar edilərək götürülmüşdür.**

Həyata keçirilən tədbirin nəticəsinin araşdırılması nəticəsində belə qənaətə gəlmək olur ki, axtarış itindən istifadə edilmədiyi halda həyata keçirilən fiziki baxışla narkotik vasitənin yerinin müəyyən edilməsində əməliyyat işçiləri çox böyük çətinliklərlə üzləşə (o cümlədən vaxt itkisi, əlavə qüvvə nin cəlb edilməsi) və yaxud heroinin aşkar edilməsində uğursuzluğa düçar ola bilərdilər. Axtarış itlərinin tədbiq edilməsi, həmçinin baxışa qədər həyata keçirilən ƏAT-ın və ƏAF-ın metodlarının məxfiliyinin təmin edilməsinə də xidmət edir.

Gizli metal obyektlərin (məsələn, konteynerlərin) aşkara çıxarılması üçün müxtəlif maqnit axtarıcılarından istifadə olunması mümkündür.

Sübutedici informasiya möhkəmləndirilərkən hadisə yerinin şəraitinin və aşkar olunmuş obyektlərin qeydə alınması mühüm əhəmiyyət kəsb edir. **Məlum olduğu kimi, qeydiyyatın əsas üsullarından birini protokollaşdırma təşkil edir.** Bu məsələdə

bəzi müstəntiqlərin və əməliyyat aparatları əməkdaşlarının yetərincə peşə hazırlığına malik olmaması səbəbindən çox vaxt mühüm sübutların itirilməsinə gətirib çıxarır ki, bu da yolverilməzdir. Bütün götürülmüş maddi sübutlar və işə aidiyyatı olan digər əşyalar protoklda ətraflı təsvir olunmalıdır.

Kriminalistik fotoçəkiliş və videoyazı vasitə və metodlarının tətbiqi hadisə yerinə baxış və axtarış zamanı zəruri hesab olunur. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı olan baxışlar və axtarışlar zamanı çox vaxt spesifik çalara malik bioloji mənşəli müxtəlif obyektlər aşkar olunur, buna görə də rəngli fotoqrafiyadan istifadə olunması məqsədəuyğundur. Videoçəkiliş rəngli fotoqrafiyanın və audioyazının üstünlüklərini birləşdirir ki, bununla əlaqədar videoçəkilişin tətbiqi mütərəqqi hesab olunur.

Yadda saxlamaq lazımdır ki, hadisə yerində foto-videoçəkilişi mütəxəssis-kriminalist yerinə yetirməlidir, çünki bu çəkiliş növlərinin həyata keçirilməsi spesifik kriminalistik üsullardan, metodlardan, fəndlərdən istifadə olunmaqla aparılır, ona görə də bu halda kriminalistika sahəsində biliklərə malik olmayan şəxsin mütəxəssis qismində cəlb edilməsi məqsədəuyğun deyildir. **Xatırladaq ki, videoyazının tətbiq olunduğu istintaq hərəkətinin protokolunda aşağıdakılar əks etdirilməlidir:** *çəkilişi kim tətbiq etmişdir (müstəntiq, yoxsa mütəxəssis) və bu zaman kim iştirak etmişdir; çəkiliş zamanı tətbiq olunan texniki vasitələr; videokameranın adı və modeli; işıq filtrinin adı; videoplyonkanın növü; çəkiliş şəraiti – hansı obyektlər və hərəkətlər çəkilmişdir; çəkilişin aparıldığı yer; çəkilişin aparıldığı işıqlandırma; çəkilmiş, yaxud yazılmış plyonkanın ümumi sayı; videoçəkilişin tətbiqindən və çəkilmiş materiala baxıldıqdan sonra iştirakçıların qeydləri. Titrlərin çəkilişindən sonra videolent müvafiq istintaq hərəkətinin protokoluna əlavə olunur.*

Hadisə yerinə baxış protokolu tərtib edilərkən fotoşəkillər hələ əlavə oluna bilmədiyindən, protokolda çəkilişin aparılması

faktı əks etdirilir, özü də fotoşəklin tətbiqi istintaq hərəkətinin protokolunda kifayət qədər geniş əks olunmalıdır. **Protokolda aşağıdakılar göstərilməlidir:** *çəkiliş obyektinin adı, fotoaparatın modeli, obyektivin markası, fokus məsafəsi və işığın qüvvəsi, işıqlandırmanın növü (gün, yoxsa süni), neqativ fotomaterialının spektral hissiyyatı, fotoqrafiya üsulu, təkrar kadrlar istisna olmaqla, çəkilmiş şəkillərin sayı. Çəkiliş zamanı fotoaparatın yerləşdirildiyi nöqtələri hadisə yerinin planında, yaxud sxemində sıra nömrələri ilə işarələmək tövsiyə olunur.*

Yadda saxlamaq lazımdır ki, istintaq hərəkəti həyata keçirilərkən fotoqrafiya tətbiq olunduqda və bu barədə protokolda müvafiq qeydlər olduqda sonradan hazırlanmış şəkillər mütləq fotocədvəl şəklində protokola əlavə olunmalıdır (neqativlər fotocədvələ əlavə olunur).

Hadisə yerində sübutedici informasiyanın qeydə alınmasının növbəti üsulu sxemlərin, çertyojların, rəsmlərin (şəkillərin) tərtib edilməsidir ki, bu da çox vaxt mühüm yardımçı vasitə kimi çıxış edir, çünki aralarındakı dəqiq məsafə göstərilməklə obyektlərin düzülüşünü göstərməyə imkan verir.

Deməli, narkotik vasitələrin qanunsuz dövriyyəsi üzrə işlərə dair informasiya qeydə alınarkən foto-, videotexnika, az işıqlandırılan yerlərdə və gecə vaxtı işıqlandırma vasitələri, ölçmə vasitələri (xətkeşlər, ruletkalar), sxem və çertyojların tərtib edilməsi vasitələri (kağız, karandaş dəsti, transportir, zabit xətkeşi), baxış açıq ərazidə keçirildikdə səmttapma vasitələri (kompas) nəzərdə tutulmalıdır.

İstintaq hərəkəti nəticəsində alınmış maddi sübutların götürülməsi mühüm proses olub, alınmış informasiyanın gələcəkdə tədqiq olunmaq məqsədilə saxlanmasına xidmət edir.

Narkotik vasitələr götürülərkən onların çəkilməsi çox vaxt istintaq hərəkəti protokolunda və ekspert rəyində (mütəxəssis arayışında) götürülmüş maddələrin çəki göstəricilərində fərqlərə gətirib çıxarır. Bu hal tərəzilərin qüsurlu olması və götürülərkən çəkmə

zamanı səhvlər nəticəsində baş verir. Bundan başqa, az miqdarda maddənin çəkilməsi çox vaxt çəkinin qramın onda birinə (bəzən yüzdə birinə) qədər dəqiqliklə ölçülməsi tələbi ilə bağlı olur ki, səhra şəraitində istintaq hərəkətləri yerinə yetirilərkən bunu etmək praktik olaraq mümkün deyildir. Bu vəziyyətdən çıxış yolu ondan ibarətdir ki, aşkara çıxarılan maddənin çəkisi istintaq hərəkətləri yerinə yetirilərkən ölçülməsin, bununla yanaşı, götürülmüş maddə protokolda ətraflı təsvir olunaraq mütləq qaydada obyektin foto-videoçəkilişləri həyata keçirilsin.

Götürülmüş narkotik vasitələr və üzərində onların izlərinin olduğu obyektlər hal şahidlərinin iştirakı ilə qablaşdırılaraq möhürlənməli və işin materiallarına, yaxud istintaq hərəkəti protokoluna əlavə edilməlidir. Ümumi qaydaya görə, narkotik vasitələrin öz qabında (yəni aşkar olunduğu qabda) götürülərək müvafiq rekvizitləri – içindəkilərin göstərildiyi müşayiətçi mətni, müstəntiqin və hal şahidlərinin imzaları, möhürün əksi olan başqa qabda yerləşdirilməsi zəruridir. Qabın kənardan təsadüfi, yaxud digər təsirdən qorunmasını təmin etmək zəruridir.

**Narkotik vasitəni öz qabı ilə birlikdə götürmək mümkün olmadıqda isə aşağıdakı qaydalara riayət etmək zəruridir (bütün hallarda qabın üzərində rekvizitlərin olması məcburidir):**

*- götürülərkən quru dənəvər maddələr, bitki qatışıqları, əşyalar kağız paketlərə, qalın kağızdan, yaxud polimer plyonkadan olan bağlamalara qablaşdırılır;*

*- rütubətli bitki qatışıqları götürüldükdən sonra onların çürüməsinin qarşısını almaq üçün otaq temperaturunda qurudulur;*

*- hadisə yerində aşkar olunmuş mayelər tıxaclarla ağzı möhkəm bağlanmış şüşə bankalarda, flakonlarda, butulkalarda saxlanmalıdır;*

*- üzərində narkotik vasitə izi olan obyektlər bütünlüklə götürülməlidir.*

**Yadda saxlamaq lazımdır ki,** bəzi narkotik vasitələrin (məsələn, efedrin) qısa vaxt ərzində işığın və havanın təsiri altında məhv olur ki, bu da onların təyin edilməsini qeyri-mümkün edir. Buna görə də belə maddi sübutlar götürüldükdən sonra mümkün qədər qısa müddətdə bağlı qaranlıq qabda tədqiq olunmağa göndərilməlidir.

**Ona diqqət yetirilməlidir ki,** bütövlükdə narkotik vasitələrin tədqiq olunmağa göndərilməsi təxirə salınmasın, çünki uzun müddət saxlandıqda götürülmüş maddələrin kimyəvi tərkibində dəyişikliklər baş verə bilər ki, bu da tədqiqat prosesini çətinləşdirə, yaxud qeyri-mümkün edə bilər. Bundan başqa, quruma və ya nəmlənmə, yaxud mayenin buxarlanması nəticəsində narkotik vasitələrin çəkisinin və həcminin dəyişməsi mümkündür ki, bu da həmin əməlin cinayət-hüququ tövsifini çətinləşdirə bilər. Parçanın üzərində narkotik vasitə izlərinin aşkar edilməsi halında həmin obyekti bütövlükdə götürmək mümkün olmadıqda həmin əşyanın bir hissəsi (fraqmenti) kəsilməli və ümumi qaydalar əsasında qablaşdırılmalıdır. Bu zaman həmin materialın nəzarət nümunəsi, məsələn, parçanın üzərində narkotik vasitə izləri olmayan hissəsi də kəsilməli və müvafiq qaydada qablaşdırılmalıdır.

Bunu xüsusi ilə yadda saxlamaq lazımdır ki, üzərində narkotik vasitə izlərinin olduğu götürülmüş obyektlərlə, xüsusilə istifadə olunmuş şprislərlə, ülgüclərlə rəftar etmək **hepatit, QİÇS** və s. virusuna yoluxmaq baxımından olduqca təhlükəlidir.

Buna görə də həmin obyektlərlə iş zamanı xüsusi ehtiyat tədbirlərinə riayət etmək – qalın əlcəklərlə işləmək, onları elə qablaşdırmaq lazımdır ki, həm işləyən şəxsin özünün, həm də digər şəxslərin təsadüfən yoluxması təhlükəsi yaranmasın. Məsələn, həmin obyektlər plastik, yaxud taxta qutulara qablaşdırılmalıdır. Bundan başqa, qabın üzərində onun içərisində təhlükəli maddənin olması haqqında qeyd edilməlidir. Ən geniş yayılmış narkotik maddələrin

hadisə yerində təxirə salınmadan tədqiqi üçün **«Ekspress»** və **«Politest»** və s. bu kimi narkotestlər nəzərdə tutulmuşdur.

Lakin yadda saxlamaq lazımdır ki, bu testlərin tətbiqi yalnız istiqamətləndirici informasiya verə bilər və aşkar olunmuş maddənin ekspert tədqiqini əvəz etmir.

Bundan başqa, nəzərə almaq lazımdır ki, elm və texnikanın müasir inkişaf səviyyəsi müstəntiqdən yüksək peşəkarlıq, geniş və dərin bilik tələb edir ki, bununla əlaqədar olaraq onlar mütəxəssislərin ekspertiza apararkən məhz hansı vasitə və metodlardan istifadə etməsi haqqında infopmasiyaya malik olması vacibdir.

Yekunda belə nəticəyə gəlmək olar ki, narkotik vasitələrin qanunsuz dövriyyəsi haqqında işlərə dair obyektlərin aşkar edilməsi, qeydə alınması və götürülməsi üzrə hərək

ətlər müstəntiqdən, əməliyyat işçisindən yüksək peşə hazırlığı, həyata keçirilən hərəkətlərə diqqətli və ciddi münasibət, habelə şəxsi təhlükəsizlik tədbirlərinə riayət olunmasını tələb edir. Müstəntiqin bütün peşəkarlığına baxmayaraq, hadisə yerinə baxış aparılarkən mütəxəssisin iştirakı (kimyaçı mütəxəssisin və kinoloq mütəxəssisin iştirakı tövsiyə olunur), kriminalistik texnikanın, xüsusi metod və vasitələrin tətbiqi zəruri hesab olunur.

## 7.9. Narkotik vasitələrlə, psixotrop maddələrlə və onların prekursorları ilə, güclü təsirli və zəhərli maddələrlə qanunsuz hərəkətlər törədən şəxslərin xarakteristikası

Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, güclü təsirli və zəhərli maddələrlə bağlı cinayət törətmiş şəxsləri üç qrupa bölmək olar: *narkotik vasitələrin və psixotrop maddələrin saxlanması, daşınması, göndərilməsi, satışı üzrə cinayətlər törətmiş şəxslər; narkotik vasitələrin və psixotrop maddələrin hazır-*

*lanması ilə bağlı cinayətlər törətmiş şəxslər; güclü təsirli və zəhərli maddələrin satışı ilə bağlı cinayətlər törətmiş şəxslər.*

**Narkotiklərlə bağlı cinayət törətmiş şəxsləri aşağıdakı kimi təsnif etmək olar:**

*1) narkotik işbazları – narkotik vasitələrin və psixotrop maddələrin topdan və pərakəndə satışı ilə məşğul olan şəxslər. Bunlar ictimai-faydalı əməkdən yayınır, narkotik tərkibli bitkilərin yetişdiyi rayonlarda yaşayır və ya tanışlara malikdir, tədarükçülərlə və digər şəxslər vasitəsilə əlaqədə olurlar;*

*2) narkotik vasitələrin və psixotrop maddələrin xırda alıcısı, alveri və satışı ilə məşğul olan şəxslər: onların içərisində həm narkomanlar, həm də epizodik (fasiləli) narkotik qəbul edənlər var;*

*3) narkomanlar. Onlar bir qayda olaraq, əvvəllər məhkum olunmuş bir çoxları işləməyən, asudə vaxtını narkotik və ya onları əldə etmək üçün pul axtarışı ilə keçirən şəxslərdir;*

*4) epizodik olaraq narkotik və psixotrop maddə qəbul edən şəxslər. Belə şəxslərə adətən hüquq pozuntusu törətməyə meylli olan yetkinlik yaşına çatmayanlar aid edilir;*

*5) narkotik vasitələr hazırlamaqla məşğul olan şəxslər. Bu qrupa hökmən kimya sahəsində biliyə malik olan şəxslər daxildir.*

Narkotiklərlə qanunsuz əməliyyatlar həyata keçirən cinayətkar qrupları xarakterizə edən əlamətlər qismində qrup üzvlərinin bir-birinə inamının olmamasını, realizə faktlarına münasibətdə bir-birini aldatmasını, saxta informasiyalar vermələrini, götürülmüş gəlirin miqdarını gizlətməsini və s. qeyd etmək olar.

Artıq qeyd olunduğu kimi, nəzərdən keçirilən cinayətlərin xüsusiyyətləri ondan ibarətdir ki, burada narkotik vasitələrin istehlakçıları da iştirak edirlər. Buna görə də əməliyyat işçisinin, müstəntiqin, yaşından asılı olmayaraq narkotik vasitə istehlakçısının tipik cəhətləri, xəstəlik kimi narkomanlığın inkişaf xüsusiyyətləri, narkotiklərin qeyri-tibbi istehlakının yayılma mexanizmi və satıcı-

larla narkotik istehlakçıları arasında qarşılıqlı münasibətin xarakteri barədə məlumatlı olması xüsusi əhəmiyyət kəsb edir.

Narkotiklərin epizodlarla istehlakı bir neçə aydan bir neçə ilədək davam edə bilər. Sonra isə bir sıra simptomlar (əlamətlər) – psixi və fiziki asılılıq, abstinensiya, tolerantlıq və s. mövcud olur ki, onların da əsasında narkomanlıq diaqnozu qoyulur. Narkomanlar çox vaxt bir narkotikdən digərinin qəbuluna keçirlər. Narkomanlarda, bir qayda olaraq, əqli və emosional sahələrdə dəyişikliklər, yaddaşın, diqqətin, düşüncənin aşağı düşməsi, yüksək qıcıqlanma və s. müşahidə olunur.

Əksər hallarda narkomanlar özlərinin yararsızlığını dərk edir ki, bu da onlarda yaxın ətrafa qarşı əsassız nifrət, qohumları və tanışları narkotik qəbuluna cəlb etmək arzusu oyadır. Böyük sayda insanların narkotik vasitələr qəbuluna sövq marağı yeni mənbələrdən narkotik vasitələr və psixotrop maddələr əldə etmək imkanlarının genişlənməsi ilə izah olunur.

Adətən narkotiklərin təsiri altında olmayan narkotik istifadəçisini tanımaq çətin olur. Narkotikin təsiri altında olan istifadəçini və narkomanı tanımaq isə mümkündür. Burada daha tez-tez rast gələn bir neçə əlaməti göstərmək kifayətdir: genişlənmiş və ya daralmış bəbəklər, səbəbsiz gülüş, inamsız yerişi, məntiqsiz ifadələr, qeyri-adekvat davranış və s.

Empirik materialların təhlil və xüsusi ədəbiyyatlarda əks olunan məlumatlar göstərir ki, nəzərdən keçirdiyimiz kateqoriyadan olan cinayət işləri üzrə cinayətkarlar əvvəlcədən şəraiti öyrənir, cinayətkar hərəkətlər törətmək üçün müvafiq üsulu, yeri və vaxtı seçirlər. Sintetik narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanmasına, saxlanmasına və satışına hazırlıq adətən əqli və texniki fəaliyyət hissələrindən ibarətdir.

Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, sintetik narkotiklərin və psixotrop maddələrin hazırlanması ilə məşğul olan bir çox cinayətkar qruplar bu fəaliyyətə digər şəxsləri cəlb edə, elmi-

tədqiqat müəssisələrinin laboratoriyalarından istifadə edə bilər və ya narkotik vasitələrin və psixotrop maddələrin sintezinin aralıq məhsulunun hazırlanmasını qarşılıqlı sövdələşməyə və ya digər qanuna zidd yollardan istifadə etməklə, o cümlədən zor tətbiq etməklə onlara tapşıra bilər. Bu zaman cəlb edilən şəxslər bu və ya digər maddənin hansı məqsədlərlə hazırlandığı barədə məlumata malik olmaya da bilər və yaxud onlara dezinformasiya xarakterli məlumatlar verilə bilər.

## 7.10. Yetkinlik yaşına çatmayan şəxslərin narkotiklərlə bağlı törətdikləri cinayət işləri üzrə müstəntiqin profilaktik fəaliyyətinin əsas istiqamətləri

Yetkinlik yaşına çatmayan şəxslərin narkotiklərlə bağlı törətdikləri cinayət işləri üzrə müstəntiqin profilaktik fəaliyyətinin başlıca məqsədi – konkret cinayətin törədilməsinə və ya gələcəkdə residivin baş verməməsinə kömək edən səbəb və şəraitin aradan qaldırılmasıdır. **Yetkinlik yaşına çatmayan şəxslərdə cəmiyyətəzidd və cinayətkar davranışın formalaşmasına şərait yaradan hallar aşağıdakılardır:**

- *yetkinlik yaşına çatmayanın tərbiyəsinə ailənin (qəyyumun, himayəçinin, müəssisə tərbiyəçisinin) məsuliyyətsiz münasibəti, məktəbdə, istehsalatda lazımi səviyyədə tərbiyə işinin təşkil olmaması;*
- *yetkinlik yaşına çatmayana yaşadığı mühitin (ailədə, məktəbdə, istehsalatda, internat məktəbdə) mənfi təsiri;*
- *yaşlı şəxslər və ya daha yaşlı yeniyetmələr tərəfindən cinayət törətməyə birbaşa təhrikçilik;*
- *yetkinlik yaşına çatmayanlar arasında profilaktika işini həyata keçirən orqanların işindəki qüsurlar və s.*

Profilaktik tövsiyələr işləyib hazırlamaq üçün müstəntiq qeyri-qənaətbəxş tərbiyəyə görə təqsirkar olan və ya yeniyetməyə mənfi təsir göstərən şəxslərin dairəsini aşkar etməlidir. Bu iş yetkinlik yaşına çatmayanın tərbiyələndirilməsi və onların zərərli təsirlərdən mühafizəsi üzrə kimin üzərinə və hansı vəzifələrin qoyulduğunu müəyyən edən qanunvericilik aktları sistemi nəzərə alınmaqla aparılmalıdır.

Profilaktik tədbirlər qismində yeniyetmə işlə təmin edilir, ümumtəhsil məktəblərinə qaytarılır və ya xüsusi təhsil məktəblərinə göndərilir.

Yetkinlik yaşına çatmayan şəxsə mənfi təsir göstərən şəxslərin valideynlik hüququndan məhrum edilməsi, onların məcburi qaydada yaşayış sahəsindən çıxarılması və qəyyum (himayəçi) təyin edilməsi və s. üzrə tədbirlər mühüm profilaktik tədbirlər qismində həyata keçirilə bilər.

Əgər yeniyetmənin cinayət törətməsinə ətraf mühit təsir göstərmişdirsə, bu mühitin neytrallaşdırılması və ya dəyişdirilməsi üzrə tədbirlər görülür. Hazırda imkanlar məhdud olsa da, pedaqoqlar kollektivi, yaşayış yeri üzrə ictimai təşkilatlar, idman cəmiyyətləri və idman-sağlamlıq kollektivləri, polisin sahə müvəkkilləri, yetkinlik yaşına çatmayanların işləri üzrə ixtisaslaşan polis orqanlarının müvafiq bölmələri, həmçinin əməliyyat müvəkkilləri tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş bəzi xüsusi tədbirlər realizə oluna bilər. Bu məqsədlə müstəntiq rəsmi təşkilatlara təqdimat göndərə, sakinlər kollektivinin yığıncağı qarşısında çıxış edə bilər və s. Adətən istintaqdan sonra keçirilən bu çıxışlarda müstəntiq cinayətin törədilməsinə kömək edən halları xüsusi qeyd etməli, yeniyetmənin tərbiyəsi üzrə hansı hüquqi aktların pozulmasını nümayiş etdirməli, bu pozuntuya yol vermiş şəxslərin məsuliyyətini əsaslandırmalı və belə pozuntuların aradan qaldırılması yollarını göstərməlidir.

Yetkinlik yaşına çatmayan şəxslərin hüquqi tərbiyələndirilməsi və onların cinayətlərinin profilaktikası məqsədilə kütləvi informasiya vasitələrinin köməyindən də istifadə etmək olar.

Profilaktika işi yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət işinə məcburi tərbiyəvi təsir tədbirləri tətbiq edilməklə xitam verildiyi hallarda da keçirilməlidir. Əgər cinayət işinə yetkinlik yaşına çatmayanın cinayət məsuliyyəti yaşına çatmaması səbəbindən xitam verilmişdirsə, onda müstəntiq bütün maraqlı şəxslərə cinayət məsuliyyətindən azad etmənin cəzasızlıq olmadığını izah etməlidir. Cinayət törətmiş yetkinlik yaşına çatmayanın daxil olduğu yeniyetmələr qrupuna təsirinə xüsusi diqqət yetirilməlidir.

Qeyd edilən profilaktik tədbirlərin ikili xarakteri hüquq pozuntularının və onları doğuran halların kollektivin iclaslarında müzakirəsi zamanı və ya müstəntiqin (hakimin) mətbuatda, radioda və televiziyada çıxışlarında özünü daha aydın büruzə verir. Hər bir belə müzakirə və ya çıxış yalnız tənqidə məruz qalmış şəxslərə (yetkinlik yaşına çatmayan cinayətkarlara, onların valideynlərinə, onlara mənfi təsir göstərən şəxslərə) deyil, həmçinin də yığıncaq iştirakçılarının böyük qrupuna, qəzet oxucularına, radio dinləyicilərinə və nəhayət, televeziya tamaşaçılarına tərbiyəvi təsir göstərir.

Müstəntiq tərəfindən hazırlanan təqdimatlar və məhkəmə tərəfindən qəbul edilən xüsusi qərardadlar da onların məzmunundan asılı olaraq, həm konkret yetkinlik yaşına çatmayana aid olan neqativ halların aradan qaldırılmasına, həm də bütövlükdə cinayətlərin törədilməsinə şərait yaradan halların aradan qaldırılmasına yönələ bilər.

Lakin bəzən elə olur ki, profilaktiki tədbir ümumi xəbərdarlıq xarakteri daşıyır, xüsusi xəbərdarlıq məqsədi isə sanki ikinci plana çəkilir və ya bir çox hallarda ümumiyyətlə tətbiq edilmir. Məsələn, biz, müstəntiqin kollektivdə çıxışı zamanı həmin kollektivdə çalışmış, hazırda isə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş yetkinlik yaşına çatmayan tərəfindən törədilən cinayət

barədə məruzə edərkən belə halların şahidi oluruq. **Müstəntiq, hakim və ya əməliyyat işçisi öz çıxışında yetkinlik yaşına çatmayan şəxslər tərəfindən cinayətlərin törədilməsi səbəblərini və ona şərait yaradan halları göstərir. O, belə hallara, bir qayda olaraq, aşağıdakıları aid edir:**

- *bu yetkinlik yaşına çatmayanla lazımi tərbiyəvi işin aparılmaması;*
- *onun istehsalat təlimindəki çatışmazlıqlar;*
- *müəssisə, idarə və ya təşkilatın müdiriyyəti tərəfindən yetkinlik yaşına çatmayanların əməyinin mühafizəsi qanunvericiliyinin pozulması və s.*

Qeyd etmək lazımdır ki, yetkinlik yaşına çatmayan şəxslərə mənfi təsir göstərən halların tam aradan qaldırmaq heç də həmişə müyəssər olmur. Bu halların bəziləri uzaq keçmişə aid olur və istintaq anında öz əhəmiyyətini itirirlər. **Məsələn: istintaq prosesində məlum olur ki, yetkinlik yaşına çatmayanın bir neçə il əvvəl vəfat etmiş atası xroniki alkoqolik olmuşdur, özünü pis aparmışdır, oğlunun tərbiyəsinə pozucu təsir göstərmişdir. Məhz bu mənfi təsirlər son nəticədə yetkinlik yaşına çatmayanı cinayət törətməyə sövq etməsinə səbəb olmuşdur.**

Yetkinlik yaşına çatmayanın ailəsinin maddi vəziyyətinin qiymətləndirilməsinə də diqqətlə yanaşmaq lazımdır. Ailənin aztəminatlı olması səbəbləri araşdırılmalıdır. Qeyd etmək lazımdır ki, bizim cəmiyyətdə işləmək arzusunda olan hər bir insan öz bacarığını nümayiş etdirmək və əməyinin kəmiyyət və keyfiyyətinə görə əmək haqqı almaq imkanına malikdir. Buna görə də yetkinlik yaşına çatmayanın ailəsinin çətin maddi vəziyyətinin heç də həmişə işsizliklə əlaqədar olması fikirini söyləmək düzgün olmazdı. Bu, daha çox valideyinlərin alkoqoldan sui-istifadə etməsi ilə, öz ixtisasını artırmaması ilə, ümumiyyətlə işləmək arzusunda olmaması, tüfeyli həyat tərzi keçirməsi ilə əlaqəndirilməlidir. Əgər qeyd edilən mənfi hallar aşkar edilməzsə, müstəntiq və ya hakim ayrı-ayrı

ictimai təşkilatların köməyindən istifadə edərək, yetkinlik yaşına çatmayanların valideyinlərinin ixtisaslarına və əmək qabiliyyətlərinə müvafiq işlə təmin olunması qayğısına qalmalıdırlar.

Təcrübə göstərir ki, müstəntiqlər yetkinlik yaşına çatmayanlar tərəfindən cinayətlərin törədilməsinə gətirib çıxaran halların aradan qaldırılmasına dair təqdimatlar və xüsusi qərardadlar çıxararkən qanunun tələblərini heç də həmişə yerinə yetirmirlər. Bu təqdimat və xüsusi qərardadlarda aşkar olunan ən geniş yayılmış nöqsanlar ondan ibarətdir ki, bu sənədlər bu günədək yalnız ümumi xarakter daşıyır və burada cinayətin törədilməsinə kömək edən səbəb və şərait dərindən təhlil edilmir. Bu onunla izah olunur ki, istintaq prosesində və məhkəmə baxışında müstəntiqlər və hakimlər yetkinlik yaşına çatmayanların cinayətkarlığını doğuran halları dərindən öyrənmir və buna görə də qəbul etdikləri sənədlərdə onlara istinad etmirlər. Çox vaxt yetkinlik yaşına çatmayanların təhsil aldığı təhsil müəssisəsinin və ya işlədiyi müəssisənin rəhbərliyinə ünvanlanmış sənədlərdə sadəcə olaraq törədilmiş hüquq pozuntusunun xarakteri izah olunur və ümumi şəkildə aparılan tərbiyəvi tədbirlərin gücləndirilməsi xahişi öz əksini tapır. Nəhayət, bu sənədlərdə çox vaxt hansı nöqsanların aşkar edilməsi və onların aradan qaldırılması üçün hansı tədbirlərin görülməsinin vacibliyi göstərilmir.

Bəzən təcrübədə elə hallara rast gəlinir ki, müstəntiq və ya hakim cinayət törətmiş yetkinlik yaşına çatmayananın valideynlərinin işlədikləri müəssisə, idarə və təşkilatlara təqdimat və ya xüsusi qərardad göndərərək, yetkinlik yaşına çatmayanın törətdiyi əməli izah edirlər, sonda isə valideynlərə ictimai təsir göstərilməsini xahiş edirlər. Bu sənədlərdə valideynlərin təqsirinin məhz nədən ibarət olması, onların öz uşaqlarının mənfi davranışına nə ilə kömək etmələri və ya kifayət qədər əkstəsir göstərməmələri qeyd olunmur.

Müstəntiqlər özlərinin hazırladıqları təqdimatlarda və xüsusi məzmunlu məktublarda qanunların, Azərbaycan Respublikası Na-

zirlər Kabinetinin qərarlarının pozulmasını demək olar ki, heç göstərmirlər. Təcrübədə məhz belə pozuntulara tez-tez rast gəlinir. ***Məsələn, yetkinlik yaşına çatmayanların əməyinin mühafizəsi qanunvericiliyinin, təhsil qanunvericiliyinin, qəyyumluq və himayəçilik haqqında qanunların və s. tez-tez pozulması faktları mövcuddur.***

Qanunların pozulması çox vaxt yetkinlik yaşına çatmayanların düzgün yoldan çıxmasının səbəblərindən biri kimi çıxış edir. ***Məsələn, çox vaxt elə olur ki, təhsilini başa vurmadan məktəbdən qovulmuş yetkinlik yaşına çatmayan işə düzəlməkdə çətinlik çəkir. O, günün çox hissəsini küçələrdə keçirir və qısa müddətdə mənfi təsirə məruz qalır.***

Ayrı-ayrı müəssisələrdə əmək qanunvericiliyinin pozulması nəticəsində yetkinlik yaşına çatmayanları iş vaxtından artıq işlərə, gecə vaxtı işlərə və ya əmək şəraiti zərərli olan istehsalatlarda işlərə cəlb edirlər. Onların bir çoxu işi atır və asan gəlir əldə etmək axtarışına başlayırlar. Bütün bunlar da onlara mənfi təsir üçün əlverişli zəmin yaradır.

Yetkinlik yaşına çatmayanların cinayətlərini doğuran səbəblərin aradan qaldırılması üçün müstəntiqlər və hakimlər tərəfindən göndərilmiş təqdimatlarda və xüsusi qərardadlarda işin fabulasının izahı ilə yanaşı, cinayətin törədilməsinin konkret səbəbi də (məsələn, yetkinlik yaşına çatmayanın ailədə, məktəbdə və ya müəssisədə tərbiyələndirilməsindəki nöqsanlar, qanunun tələblərinin pozulması və s.) konkret olaraq göstərilməlidir.

Mütəxəssislərin fikrincə, qeyd edilən sənədlərdə imkan daxilində cinayətlərin törədilməsinə şərait yaradan səbəblərin aradan qaldırılması üçün hansı tədbirlərin görülməsi göstərilməlidir. Lakin müstəntiqlər və hakimlər konkret təklif və tövsiyələr irəli sürərkən özlərinin səlahiyyətləri hüdudundan kənara çıxmamalıdırlar. Əgər aşkar edilmiş qanun pozuntusundan söhbət gedirsə, burada hökmən qəti və konkret təkliflər irəli sürülməlidir. Digər hallarda isə bu və

ya digər təklif irəli sürərkən, müstəntiqlər bu təkliflərin ünvanlandığı şəxslərin və ya müəssisələrin real imkanlarını nəzərə almalıdırlar.

Müstəntiqlərin profilaktiki fəaliyyəti ilə tanışlıq göstərir ki, profilaktika fəaliyyətində ən zəif iş təqdimatların icrasına nəzarətdir. Bəzən elə olur ki, müstəntiq tərəfindən göndərilmiş təqdimat təşkilatda müzakirə olunmur, onun barəsində heç bir tədbir görülmür, müstəntiq isə cinayətin baş verməsinə şərait yaratmış səbəblərin aradan qaldırılması üzrə tədbirlərin görülüb-görülməməsi ilə maraqlanmır. Belə təcrübə qüsurlu sayılmalıdır. Çünki müstəntiq qanunun tələblərini pozur.

Yuxarıda qeyd edilən halların aradan qaldırılması artıq yetkinlik yaşına çatmayan cinayətkarın davranışına müsbət təsir göstərmiş olar. Müstəntiqin profilaktik fəaliyyəti ilə əlaqədar görülən tədbirlər eyni zamanda digər yetkinlik yaşına çatmayanların cinayətkar mühitə cəlb olunmasının qarşısını almağa da yönəlməlidir.

# VIII BÖLMƏ

## HÜQUQ MÜHAFİZƏ ORQANLARININ VƏ ONLARIN NARKOTİKLƏRLƏ MÜBARİZƏ ÜZRƏ İXTİSASLAŞAN ƏMƏLİYYAT APARATLARI RƏHBƏRLƏRİNİN ƏSAS VƏZİFƏLƏRİ

### 8.1. Hüquq mühafizə orqanlarının və onların narkotiklərlə mübarizə üzrə əməliyyat aparatlarının rəhbərləri narkomanlığa qarşı mübarizəni səmərəli və uğurla həyata keçirmək üçün öz səlahiyyətləri çərçivəsində aşağıdakıları təmin etməlidirlər:

- xidməti ərazidə narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə işinin vəziyyətinin təhlili və ona qarşı mübarizə tədbirlərinin müəyyən olunması və planlaşdırılmasını;
- narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə qarşı mübarizənin forma, metod və fəndlərinin əməkdaşlar tərəfindən öyrənilməsini;
- narkotiklər istehlak edilən, narkotik tərkibli əkinlərin, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı digər hüquqpozmalar törədilən yerlərdə və obyektlərdə əməliyyat mövqelərinin yaradılmasını və orada müvafiq əməliyyat-axtarış tədbirlərinin keçirilməsini;
- bu kateqoriyadan olan cinayətləri hazırlayan, onların törədilməsində şübhəli olan şəxslərin qanunvericiliyə müvafiq əməliyyat uçotlarına alınmasınını və tədqiqinini;

- əməliyyat-qeydiyyat işləri üzrə icraata nəzarətin təşkilini;
- əməliyyat aparatları, xüsusi və digər xidmətlər, həmçinin digər dövlət orqanları, təşkilatlarla narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizənin təşkili və taktikası üçün əhəmiyyət kəsb edən qarşılıqlı əlaqələrin, o cümlədən informasiya mübadiləsinin təşkilini;
- narkotik vasitələrin və psixotrop maddələrin qeyri-leqal yollarla ölkəyə gətirilməsi və ölkədən aparılması kanallarının aşkar edilməsi və onların qarşısının alınması istiqamətində digər HMO orqanları, o cümlədən İnterpolla (DİN-in MMB), xarici dövlətlərin HMO orqanları ilə qarşılıqlı əməkdaşlığın həyata keçirilməsinin təşkilini;
- bu kateqoriyadan olan cinayətlərin qarşısının alınması və aşkar edilməsi üçün qanunvericiliyə müvafiq olaraq əməliyyat-axtarış tədbirlərinin, o cümlədən nəzarət qaydasında mal alınmasına, nəzarətli göndəriş, əməliyyat eksperimentlərinə və cinayətkar qruplara daxil olması tədbirlərinin keçirilməsinə dair qərarların qəbul edilməsi və onların icrasının təmin edilməsini;
- mütəşəkkil cinayətkar qruplaşmalar, xarici vətəndaşlar tərəfindən törədilməsi halları ilə bağlı cinayətlərin aşkar olunması və s. zəruri olan hallarda keçirilən əməliyyatlara bilavasitə rəhbərlik edilməsini;
- Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərdə, o cümlədən onların qaçaqmalçılığında əsaslı şübhə doğuran cinayətkar qruplaşmaların əməliyyat tədqiqinin nəticələrinin təhlili əsasında zəruri tədbirlərin keçirilməsini;
- ƏAİ sisteminin daim təkmilləşdirilməsi tədbirlərinin həyata keçirilməsini;
- bu kateqoriyadan olan cinayətlərin aşkar olunmasında xüsusi əməliyyatların, həmçinin axtarış-kəşfiyyat səciyyəli tədbirlərin keçirilməsni və s.;

- bu növ cinayətlərə mübarizədə fərdi və ümumi profilaktik tədbirlərin təşkilini;
- şəxsi heyətin peşə hazırlığının artırılmasına dair tədbirlərin təkmilləşdirilməsi, qabaqcıl iş təcrübəsinin öyrənilməsi və tətbiqinin təşkilini və s.
- bu növ cinayətlərlə bağlı risk amillərinin proqnozlaşdırılması və ona müvafiq tədbirlərin həyata keçirilməsinin təşkilini;
- bu cinayətlərə qarşı mübarizədə digər xidmət və hissələrin fəaliyyətinin kordinasiyasının təşkilini;
- ƏAF-ın maddi-texniki və maliyyə təminatının vəziyyətinin təhlili əsasında onun təkmilləşdirilməsi məqsədilə tədbirlərin görülməsini;
- İldə 2 dəfədən az olmayaraq bu növ cinayətlərə qarşı mübarizə üzrə ixtisaslaşan əməliyyat aparatlarının bütövlükdə və onların hər bir əməkdaşının fəaliyyətinin nəticələrinin təhlili və qiymətləndirilməsi əsasında mövcud nöqsanların aşkar edilib, aradan qaldırılması və problemlərin həllinə yönəlmiş tədbirlərin keçirilməsini.

## 8.2. Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı əməliyyatların keçirildiyi zaman maddi sübutların götürülməsində hüquq mühafizə orqanlarının əməkdaşlarına verilən tələblər

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı əməliyyatların keçirildiyi zaman maddi sübutların götürülməsinə xüsusi diqqət tələb edən və hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən aşağıda göstərilən tələblərə ciddi qaydada riayət edilməlidir:

*1. götürülən əmlakın, bütü maddi əşyaların üzərində HMO-nun nəzarətini təmin etməli;*

*2. götürülən əşyaların onları götürən əməkdaş tərəfindən qanunvericiliklə (CPM və "ƏAF haqqında Qanun) tələb olunan qaydada qablaşdırıldığı və möhürləndiyini yəqin etməli;*

*3. lazım gəldikdə hər hansı əşyanı daktiloskopik və s. ekspertiza üçün, habelə hadisə yerinin çəkilmiş fotoşəkli üçün saxlamalı.*

*4. götürülən bütün əşyaların lazımi qaydada siyahısının dəqiq tərtib edilməsi.*

*5. yerlərinin dəyişdirilməsini qeyd edilmək yolu ilə maddi sübutların müqəddəratını daim nəzarət altında saxlanılması.*

*6. götürülən bütün əşyaların toxunulmazlığının təmin edilməsi.*

*7. hadisə yerində HMO-nun əməkdaşları tərəfindən maddi sübutlar qismində istifadə edilə bilcək əşya, maddə və səndlərlə bağlı müvafiq istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində qanunvericiliyin tələblərinə riayət edilməsinin təmin edilməsi və s.*

*8. CPM-in 129, 130, 131, 132 və 133-cü maddələrinin tələbləri təmin edilməlidir.*

# IX BÖLMƏ

## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ DÖVRİYYƏSİ İLƏ BAĞLI CİNAYƏTLƏRƏ QARŞI MÜBARİZƏDƏ ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİ ÜZRƏ TƏDBİRLƏRİN PLANLAŞDIRILMASINDA VƏ HƏYATA KEÇİRİLMƏSİNDƏ NƏZƏRƏ ALINMASI TÖVSİYƏ EDİLƏN MƏLUMATLAR

**8.3. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı cinayətlərə qarşı**

**mübarizədə əməliyyat-axtarış fəaliyyətini planlaşdırarkən aşağıdakı məlumatların nəzərə alınması tövsiyə olunur:**

- *bu kateqoriyadan olan cinayətlərin əməliyyat-taktiki xarakteristikasına dair (cinayətlərin sayı, növləri, törədilmə üsulları və yerləri, narkotik vasitələrin, psixotrop maddələrin ölkəyə daxil olma kanalları, mənbələri, onların növü, miqdarı, xırıd edilmə və qablaşdırılması üsulları, bağlı qalan cinayətlər, axtarışda olan şəxslər, cinayətləri törədən şəxslərin kriminoloji xarakteristikası, əməliyyat-axtarış səciyyəli, risklərə və gömrük kəşfiyyatına dair bu cinayətlərlə mübarizədə əməliyyat mövqelərinin rolu və digər HMO-ın və xidmətlərin iştirakı və s.);*
- *qeydiyyatda olan narkomanlar və narkotik istehlak edən şəxslər, narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı inzibati və cinayət məsuliyyətinə cəlb olunanlar barədə;*

- *ƏAİ sistemindən, xüsusi texniki vasitələrdən, müasir təcrübədən istifadə edilməsinin vəziyyətinə dair;*
- *inzibati xəta və cinayətlərlə bağlı dövriyyədən götürülmüş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının növləri, miqdarı, yaşıl kütlə halında aşkar olunan və məhv edilən narkotik tərkibli bitkilər barədə;*
- *ölkə ərazisinə xaricdən qaçaqmalçılıq yolu ilə gətirilən narkotik vasitələr, psixotrop maddələr və onların gətirilməsi yolları (kanalları) və üsulları haqqında;*
- *narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, istifadə olunan və saxlanan xəstəxana, əczaxana, müalicə-profilaktik müəssisələr, narkoloji dispanserlər və s. yerlər barədə;*

*-tiryək xaşxaşının, çətənənin gizli əkini və yetişdirilməsi ilə məşğul olan şəxslərin yaşadığı ərazilər, çətənənin yabanı növlərinin bitdiyi ərazilər;*

*- HMO-ın əmrləri, kollegiya iclaslarının qərarları, BNMİ-in, GHPQMBİ icmalları, hesabatları, istintaq və təhqiqat materialları, elmi-tədqiqat materialları;*

*- əməliyyat-axtarış fəaliyyətinin metod və tədbirlərinin tətbiqi nəticəsində əldə olunan materiallar;*

*-HMO-ın bu cinayətlərlə əlaqəli məlumat-informasiya bazalarının məlumatları, həmçinin interpolun DİN, MMB-nin, KTİ-nin və ÜMB-nin məlumatları;*

*- bu növ cinayətlər və onlara aidiyyati olan şəxslər barədə əməliyyat məlumatlarının əldə edilmə mənbələri, onların fəaliyyətinin nəticələri barədə;*

*- qeyd edilən cinayətlərə qarşı mübarizədə ƏAF-ın digər subyektləri ilə qarşılıqlı əlaqələrin vəziyyəti barədə;*

*- ƏAF-ın keçirilməsində xüsusi texniki vasitələrdən, müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməsinin vəziyyəti barədə;*

- *istintaq orqanları və təhqiqat orqanları (əməliyyat aparatları) arasında qarşılıqlı əlaqənin vəziyyəti barədə;*

- *bu növ cinayətlər üzrə ixtisaslaşan əməkdaşların peşə hazırlığının vəziyyəti və onların peşə bacarıq və vərdişlərinin artırılmasına* dair görülən tədbirlər barədə;

- *əməliyyat xidmətlərinin və ayrı-ayrı əməliyyat işçilərinin fəaliyyətinin nəticələri, mövcud olan nöqsanlar və s. barədə.*

# X BÖLMƏ

## GÖMRÜK ORQANLARININ ƏMƏKDAŞLARINA PREKURSORLARIN QANUNSUZ DÖVRİYYƏSİNİN QARŞISININ ALINMASI ÜZRƏ TÖVSİYƏLƏR

Bir sıra bitki mənşəli narkotik vasitələr istisna olmaqla, hər bir narkotik vasitə (xüsusən də yarımsintetik və sintetik) onun əldə edilməsi prosesində kimyəvi yolla işlənməsinə məruz qalır. Qeyri-leqal laboratoriyalarda istifadə edilən kimyəvi maddələri cinayətkar ünsürlər qanuni yolla istehsal edən müəssisələrdən, onların anbarlarından, farmakalogiya və kimya sənayesinin obyektlərindən oğurluq və ya həmin müəssisələrin maddi-məsul şəxslərlə cinayətkar əlaqələrə girərək talama yolu ilə əldə edirlər. Bir çox hallarda bu yolla əldə edilən maddələri saxtalaşdırıcı sənədlərlə leqallaşdırmağa çalışır və bu yolla öz cinayətkar fəaliyyətlərini müxtəlif yollarla pərdələyirlər. Bu maddələrin ixracı və idxalının, daha sonradan onların qanuni dövriyyə ilə yanaşı, qeyri-qanuni dövriyyədə istifadə edilməsi ilə bağlı məsələlər çox vacib beynəlxalq problemlərdən biridir.

Hüquq-mühafizə orqanlarının, o cümlədən gömrük orqanlarının əməkdaşları tərəfindən bu maddələrin ixrac və idxalına nəzarət prosesində onların identifikasiyası (eyniləşdirilməsi), qanuni dövriyyədə istifadə edilməsi məsələlərinin müəyyənləşdirilməsi istiqamətində obyektiv və subyektiv xarakterli çətinliklər yaranır. Nəzərə almaq lazımdır ki, bir çox maddələr müxtəlif adlara (sənaye, səhiyyə, kimyəvi və s.) malik ola bilərlər. Bundan əlavə, bu maddələrin əsl adları deyil, onlar başqa adlar altında rəsmi sənədlərlə idxal, ixrac və tranzit edilə bilər.

Bundan əlavə maddənin qablaşdırılmasında saxta etiketdən istifadə edə bilərlər, həmçinin malın müşayiət sənədlərində saxta məlumatlar ola bilər. Nəzərə almaq lazımdır ki, bir çox maddələr

xarici görünüşünə görə oxşar olduğundan onları seçmək çətin olur, Məhz bunları nəzərə alaraq onların müxtəlif kombinasiyalarından istifadə edilə bilər.

Qeyd edilənləri və cinayətkarlar tərəfindən istifadə edilən digər üsul və metodları nəzərə alaraq **gömrük orqanlarının əməkdaşlarına yüklərin və sənədlərin yoxlanması ilə bağlı aşağıdakı tövsiyələrin verilməsini vacib bilirik:**

- *idxal, ixrac tranzit nəql olunan maddələr qanunvericiliklə nəzərdə tutulmuş siyahıya daxildirmi;*
- *nəzarət altında olan idxal, ixrac tranzit nəql edilən maddələrə xüsusi razılıq (lisenziya, sertifikat) varmı və onlar beynəlxalq və ya başqa adlara malikdirmi;*
- *Xüsusi razılıq verilmiş sənəddə (lisenziyada) müvafiq ştamp, möhür və imza varmı və onlarda saxtalıq əlamətlərinin izləri varmı;*
- *Gömrük yük bəyannaməsində və digər müşayiətedici sənədlərdə qanunvericilikdə nəzərdə tutulmuş yükün kodu, ticarət adı, maddənin kimyəvi, həqiqi adı və ya sinonimi göstərilmişdirmi;*
- *İdxal, ixrac fəaliyyətinin profili yükün xarakterinə uyğundurmu?*
- *Yük tranzitlə kimyəvi maddəni istehsal edən ölkənin ərazisindən əsaslı səbəb olmadan aparılır;*
- *Nəqliyyatın hərəkət marşurutu sərfəli deyil və ya həmin nəqliyyat təşkilatına məqsədə müvafiq (uyğun) deyil;*
- *Yük poçt və ya şəxsi ünvana nəzərdə tutulmayıbdır ki;*
- *İdxal, ixrac edənin dəqiq və konkret ünvanı göstərilibdirmi, yoxsa yalnız şəhər və ölkə göstərilmişdir, bu qeydlər əvvəllər keçirilən belə yüklərlə eynidirmi;*
- *Yükün qiyməti və onun yol və s. xərcləri ilə müqayisədə nə dərəcədə sərfəlidir;*
- *Yük hansı qaydada ödənilibdir;*
- *Yükün təhvil verilməsi hərəkət marşurutu və qəbul edən tərəfindən əldə edilməsi məsələləri qaçaqmalçılığa xarakterik olan xüsusi təlimat əsasında keçirilirmi və s.*

Sənədlərdə idxal-ixrac əməliyyatının məqsədi də göstərilməlidir. Sözsüz ki, sənədlərdə saxtalıq, qeydlərdə düzəliş və anlaşılmazlıq, ifadə üslubu və s. məsələlərə də nəzər salmaq lazımdır, nəqliyyat vasitələrinin xarici hissəsində olan eyniləşdirmə vasitələrində olan (normativ hüquqi aktlara və bu istiqamətdə milli və beynəlxalq təcrübəyə əsaslanaraq) şübhəli məqamlara diqqətlə yanaşmaq lazımdır.

# XI BÖLMƏ

# NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN GİZLİ YOLLA HAZIRLANMASINDA İSTİFADƏ EDİLƏN KİMYƏVİ MADDƏLƏRİN NƏQLİYYAT VASİTƏLƏRİNƏ YÜKLƏNMƏSİ VƏ QEYRİ-LEQAL HAZIRLANMASI YERLƏRİNƏ DAŞINMASI ÜSULLARI

Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni yolla hazırlanmasında istifadə edilən kimyəvi maddələrin dövriyyəsinə nəzarətlə bağlı milli və beynəlxalq təcrübənin nəticələrinin təhlili, bu maddələrin qeyri-qanuni idxal, ixrac və tranzit kanallarını və onların hazırlanması üçün istifadə edilmə yerlərinə (qeyri-leqal laboratoriyalara) dair mühüm məlumatlar əldə etməyə imkan verir. Bunları nəzərə alan cinayətkarlar kimyəvi maddələrin əldə edilməsi, daşınması, göndərilməsi və kimyəvi laboratoriyalara çatdırılmasının elə üsullarından istifadə etməyə çalışırlar ki, hüquq-mühafizə orqanları, o cümlədən gömrük orqanları onları aşkar edə bilməsinlər və ya bu istiqamətdə aparılan araşdırmaların nəticələri onların cinayətkar fəaliyyətinə maneçilik törətməsin.

**Onlar öz məqsədlərinə nail olmaq üçün aşağıdakı hüquqa zidd hərəkətlər edirlər:**

- *kimyəvi maddələri o dövlətlərdən əldə edirlər ki, onlarda bu maddələrin istehsalı, məhsulun istehlakçıları arasında bölüşdürülməsinə ciddi nəzarət yoxdur və yaxud o istehsalçılarla sövdələşməyə cəhd edirlər ki, onlar müəyyən pərdələndirici üsullarla öz maddi və yaxud digər maraqları naminə, hökumətin qərarlarını icra etmirlər;*
- *kimyəvi maddələri əldə etmək məqsədilə uydurma (saxta) şirkət və firmalar yaradır və vəziyyətdən asılı olaraq və ya məqsədlərinə nail olduqdan sonra onları ləğv edirlər;*

*- kimya müəssisələrinin fəaliyyətinə maliyyə dəstəyi göstərirlər, onların rəhbərlərini pul vəsaitləri vasitəsi ilə ələ alırlar və nəticədə öz cinayətkar məqsədlərinə nail olurlar;*

*- kimyəvi maddələrin əldə edilməsinin ödənişində əlbəəl pul vasitələri ilə hesablaşırlar və bu yolla bank hesablaşma üsullarından istifadə etməməklə maliyyə sənədləri qismində maddi sübutlar qoymurlar;*

*- Öz istehsalatlarında bu kimyəvi maddələrdən istifadə edən şirkət, müəssisə qismində sifarişçi kimi iştirak edirlər.*

Belə halda rəhbər işçiləri satın almaqla özlərinin tələbatından çox miqdarda kimyəvi maddə sifariş edirlər. Bu yolla əldə etdikləri məhsulun artıq miqdarını sonradan narkotik işbazlarına satırlar.

- Məhsulun bu yolla əldə edilməsinə dair saxta sənədlər sonradan məhv edilir və bu sənədlərin qeydiyyatına dair heç bir rəsmiləşdirmə barəsində izlər qalmır;

- İstehsalçının bu maddələrin saxlandığı anbarlarından müxtəlif talama üsullarından istifadə etməklə əldə edilməsi;

**Kimyəvi maddələrin nəqliyyat vasitələrinə yüklənməsi və boşaldılması, onların ödənişləri, gömrük nəzarəti ilə bağlı proseslərdə cinayətkarlar daha çox aşağıdakı üsullardan istifadə edirlər:**

*- yükün markirovkasının təhrif edilməsi; kimyəvi maddələrin ümumiləşdirilmiş adlarından istifadə edilməsi yolu ilə gömrük sərhədindən keçirilən yükün eyniləşdirilməsinə, reallığa uyğunluğun müəyyən edilməsinə maneələrin yaradılması; yükün həqiqi adının yerinə daşınması qanunvericiliklə qadağan olunmayan və məhdudlaşdırılmayan maddə adı altında qeyd edilməsi (daşınan maddənin keyfiyyətinə, xarici görünüşünə oxşar olan, lakin beynəlxalq və milli səviyyədə nəzarəti nəzərdə tutulmayan);*

*- daşınma, göndərişlərdə bir neçə vasitəçilərdən (kuryerlərdən) və nəqliyyat müəssisələrindən istifadə edilir;*

*- kimyəvi maddələrin göndərildiyi ünvan və təşkilatın adı saxtalaşdırılır;*

*- bir çox hallarda yükün ünvanlandığı aralıq ünvan məntəqəsi göstərilir və qeyd olunur ki, yükün sonrakı yerinin dəyişməsi bu məntəqədə müəyyən olunmuş təlimat əsasında həyata keçiriləcəkdir;*

*- yük kiçik hissələrlə, müxtəlif marşrutlarla və müxtəlif nəqliyyat vasitələri növləri ilə çatdırılır;*

*- bəzi hallarda kimyəvi maddələri rəsmi, real sənədlərlə xarici dövlətə ixrac edirlər, sonradan isə onu import yükü qismində həmin dövlətə qaytarırlar;*

Yüklərin təyinatı üzrə daşınması və göndərilməsini cinayətkar qruplaşmalar ən təhlükəli və mühüm əməliyyat kimi dəyərləndirirlər, belə ki, bu yüklər narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması yerlərinə (qeyri-leqal laboratoriyalara) gətirilir. **Bu əməliyyatların keçirilməsində aşağıda göstərilən tədbirlər həyata keçirirlər.**

*- bu yüklər xüsusi anbarlarda yığılır və davamlı müddətdə saxlanılır. Bu proses hüquq-mühafizə orqanları tərəfindən yüklərin gizli nişanlanması, müxtəlif sensorlar, o cümlədən gizli əməliyyat texniki vasitələrlə təmin edilməsi faktlarının müəyyən edilməsi və onların sıradan çıxarılıb zərərsizləşdirilməsi məqsədilə edilir;*

*- yüklərin yerləşdirilib saxlanması yerləri dəyişdirilir, daha sonra onlar gizli son yerlərdə (anbarlarda) saxlanılır və hissələrlə gizli laboratoriyalara daşınır, həmin yerlərin və laboratoriyaların yerləri də müəyyən vaxtlardan sonra onların aşkar olunma təhlükəsindən asılı olaraq dəyişdirilir. Belə laboratoriyalar qanuni fəaliyyət göstərən özəl şirkətlərin müəssisələrində və dövlət müəssisələrində gizli fəaliyyət göstərə bilərlər.*

Cinayətkar qruplaşmalar kimyəvi maddələrin milli və beynəlxalq nəzarətindən yayındırmaq məqsədi ilə bu maddələrin əldə olunması, yüklənib daşınması, göndərilməsinin digər pərdələndirici üsullarından da istifadə edə bilərlər. **Onlara misal olaraq aşağıdakıları göstərmək olar:**

*- kimyəvi maddələrin böyük miqdarda ehtiyat bazasını yaradırlar ki, onların əldə etmə mənbələrindən gətirilməsində*

*müəyyən səbəblərdən fasilə yaranarsa (və ya mümkün olmazsa) narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması prosesi dayandırılmasın;*

*- nəzarət altında olan kimyəvi maddələrin başqa maddələrlə əvəz edilməsi imkanlarını öyrənirlər;*

*- işlənmiş reaktivlərin regenerasiyası və resirkulyasiyasını həyata keçirirlər ki, onlardan qənaətli istifadə edilsin və istehsal prosesində təkrar istifadə edilsin;*

*- kimya sahəsində lazımi bilik və təcrübəyə malik olan alimlər və mütəxəssislər müəyyən yollarla bu kimyəvi maddələrin alınması proseslərinə cəlb edilir;*

Gömrük orqanlarının əməkdaşlarının yuxarıda qeyd edilən istiqamətlərdə geniş və ətraflı biliklərə malik olması qeyd edilən kimyəvi maddələrin dövlət sərhədindən keçirilməsinin qarşısını almağa və bu sahədə cinayətkar fəaliyyətlə məşğul olan qruplaşmaları ifşa etməyə və sonda narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin müxtəlif istiqamətlərində öz töhvələrini verməyə imkan verir.

# XII BÖLMƏ
# GÖMRÜK ORQANLARININ ƏMƏKDAŞLARINA BAXIŞIN KEÇİRİLMƏSİNƏ DAİR TÖVSİYƏLƏR

Gömrük orqanlarının əməkdaşları tərəfindən baxışın təşkili və keçirilməsi prosesində əsasən aşağıdakılar nəzərə alınmalıdır:

1. Baxışın məqsədinin müəyyən edilməsi – narkotik vasitələrin hazırlanması üçün xammalın, hazırlanmış narkotik vasitə psixotrop maddələrin, onların hazırlanmasında istifadə edilən prekursorların, əşya, avadanlıqların, qablaşdırma üçün istifadə edilən əşyaların, qeydiyyat kitabçalarının, fotoşəkillərin, məktub, pul vasitələrinin köçürülməsinə və poçt göndərişlərinə dair sənədlərin, əmanət kitabçalarının, pul vəsaitlərinin və s. aşkar edilib götürülməsi;

2. Əməliyyat şəraitindən və yaranmış vəziyyətdən asılı olaraq baxışın təşkili və keçirilməsinə mütəxəssislərin – ekspert-kriminalistik xidmətlərin, kimyəvi laboratoriyaların, Səhiyyə Nazirliyinin məhkəmə-tibbi ekspertizası, Ədliyyə Nazirliyinin elmi-tədqiqat laboratoriyalarının, kənd təsərrüfatı müəssisələrinin əməkdaşlarının cəlb edilməsi, xüsusi hazırlanmış xidməti itlərdən istifadə edilməsinin vacibliyi məsələlərinin müəyyən edilməsi;

3. Baxış keçirilən yerin quruluşu, xüsusiyyətlərinin müəyyən edilməsi, cinayətdə şübhəli olan şəxslər barəsində mümkün qədər maksimal dərəcədə məlumatların əldə edilməsi. Baxışda iştirak edən şəxslərin baxış aparılan yerlərə yaxınlaşma və daxil olma, habelə yarana biləcək ekstremal vəziyyətlərdə taktiki hərəkətlərin qabaqcadan müəyyən edilməsini;

4. Lazımi əməliyyat – texniki, kriminalistik və xüsusi vasitələrlə, müəyyən ölçmə, çəki və digər lazımi vasitələrlə təmin edilməsi;

5. Baxışda iştirak edən şəxslər arasında vəzifə bölgüsünün dəqiq müəyyənləşdirilməsi, digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqə məsələlərinin həll edilməsi;

**Baxış prosesində cinayətdə şübhəli şəxsin cinayətkar qrupda hansı rol daşıması nəzərə alınmalıdır:**

• ***Narkomanla və narkotik vasitələri istehsal edən şəxslə əlaqəli olan baxışda aşkar olunub müəyyən edilən məsələlərə aiddir:***

– narkotik vasitələr, psixotrop maddələr;

– narkotik vasitələrin, psixotrop maddələrin satılması və istehsal edilməsi üçün istifadə edilən ləvazimatlar;

– pul vasitələri, qiymətli və dəyərli əşyalar;

– narkotik vasitələrin və psixotrop maddələrin əldə edilməsi üçün satmaq məqsədilə cinayət yolu ilə əldə edilməsi ehtimal olunan əşyalar;

– məktublar, fotoşəkillər, qəbzlər, qeydiyyat kitabçaları və s.

• ***Narkotik vasitəni hazırlayan şəxslə əlaqəli baxışda aşağıdakı məsələlərin müəyyən edilməsi tövsiyə edilir:***

– narkotik vasitə və psixotrop maddənin müəyyən edilərək aşkar edilməsi;

– xammalın aşkar edilməsi;

– saxlanma, hazırlanma, göndərmə, daşıma üçün istifadə edilən ləvazimatların aşkar edilməsi;

– tullantı və məhv edilmə üçün istifadə edilən yerlərin mövcud olması;

– pul vəsaitləri və qiymətli və dəyərli əşyaların aşkar edilməsi.

• ***Narkotiklərin daşınması (narkokuryer) ilə məşğul olan şəxslə əlaqəli baxışda aşağıdakı məsələlərin müəyyən edilməsi tövsiyə olunur:***

– narkotik vasitə və psixotrop maddələrin aşkar edilməsi;

– onların saxlanması, daşınması və göndərilməsi üçün əşyalar, avtomobil və digər hərəkət vasitələrinə dair sənədlər, gediş sənədlərin aşkar edilməsi.

• ***Narkotik vasitəni, psixotrop maddəni yayan şəxsdə əlaqəli baxış zamanı aşağıdakı məsələlərin müəyyən edilməsi tövsiyə edilir:***

– narkotik vasitə və psixotrop maddənin müəyyən edilib aşkar edilməsi;

– onların saxlanması və daşınması üçün istifadə edilən əşyalar, qablaşdırmada istifadə edilən ləvazimatlar: çəki, çəki daşları, kağız, polietilen, kibrit qutusu və s. aşkar edilməsi;

– tənbəkinin qalıqları, qırıntı və toz halında olan maddələrin aşkar edilməsi;

– məktub, poçt və teleqraf göndərişlərinə dair qəbzlər, ünvan və telefon nömrələrinə dair qeydlər və s. mövcud olması.

# XIII BÖLMƏ

## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ DÖVRİYYƏSİ İLƏ BAĞLI CİNAYƏTLƏRƏ, O CÜMLƏDƏN ONLARIN QAÇAQMALÇILIĞINA QARŞI MÜBARİZƏDƏ «NƏZARƏTLİ GÖNDƏRİŞ» ƏMƏLİYYAT-AXTARIŞ TƏDBİRİNİN (ƏMƏLİYYATININ, METODUNUN) TƏTBİQ EDİLMƏSININ ELMI, HÜQUQİ VƏ TƏCRÜBİ MƏSƏLƏLƏRİ VƏ BƏZİ PROBLEMLƏRİ

Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, onların istehlakı və qaçaqmalçılığı ilə əlaqəli olan cinayətlər bütün dövlətlər üçün ən ciddi və dəhşətli təhlükə mənbəyidir. Qeyd edilən cinayətlərin əsasən mütəşəkkil və transmilli xarakter daşıması, yüksək latentliyi, onlara qarşı mübarizədə əməliyyat-axtarış fəaliyyətinin qeyri-aşkar üsul və metodlarından istifadə edilməsini tələb edir.

Hüquq-mühafizə orqanlarının bu cinayətlərə qarşı mübarizə təcrübəsinin nəticələri göstərir ki, əksər hallarda mütəşəkkil cinayətkar dəstələrin (təşkilat və birliklərin) tam ifşa olunmasına nail olmaq, narkotik vasitələrin, psixotrop maddələrin istehlakının konkret mənbələrini və onların daşınma kanallarını, qanunazidd fəaliyyətinin mexanizmini, korrupsiya əlaqələrini müəyyən etmək mümkün olmur. Əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin qiymətləndirilməsində əksər hallarda azsaylı cinayətkar qrupların ifşa edilməsi qənaətbəxş hesab edilir, onların arxasında duran mütəşəkkil cinayətkar dəstələrin (təşkilat və birliklərin) ifşa edilməsi məsələləri

nəzərdən qaçırılır. Məhz bunun nəticəsi olaraq həmin mütəşəkkil qruplaşmalar öz cinayətkar fəaliyyətini davam etdirirlər.

Bu kateqoriyadan olan cinayətkar qruplaşmaların ifşa edilməsində istifadə edilən əməliyyat-axtarış tədbirləri sırasında (19 növ) «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 10-cu maddəsinin I hissəsinin 15-ci bəndində təsbit edilən «nəzarətli göndəriş» əməliyyat-axtarış tədbiri mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-240, 206-cı maddələri ilə təsbit edilən cinayət əməllərinin aşkar edilib ifşa edilməsində bu tədbirin (metodun, əməliyyatın) tətbiq edilməsi daha uğurlu nəticələr verir.

Bu tədbirin (metodun, əməliyyatın) səmərəli və uğurlu keçirilməsinin əsas şərtlərindən biri onu təşkil edib keçirən əməkdaşın yüksək peşə hazırlığına malik olmasıdır.

Belə ki, bu tədbirin təşkili və keçirilməsinin mürəkkəbliyi yüksək konspirativ şəraitdə keçirilməsi, çoxsaylı qüvvə, vasitə və maliyyə təminatı, habelə digər əməliyyat-axtarış tədbirlərinin kompleksindən istifadə edilməsi, əməliyyat-axtarış fəaliyyətinin digər subyektləri ilə qarşılıqlı əlaqələrin həyata keçirilməsi bu tədbirin rəhbər və iştirakçılarından yüksək bilik və bacarıq tələb edir.

«Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların nəzarətli göndərişi» əməliyyat-axtarış tədbirinin (metodunun, əməliyyatının) digər tədbirlərlə müqayisədə üstünlüyü ondan ibarətdir ki, onun yüksək peşəkarlıq səviyyəsində keçirilməsi prosesində ayrı-ayrı cinayətkarların aşkar olunub ifşa edilməsi deyil, cinayətin təşkilatçılarını, mütəşəkkil cinayətkar qruplaşmaların üzvlərini, narkotiklərin, psixotrop maddələrin və prekursorların mənbələrini, onların gətirilmə, daşınma kanallarını və s. müəyyən etməyə nail olmaq olar.

***Məsələn, Rusiya Federasiyasının təhlükəsizlik orqanları və Dövlət Gömrük Komitəsinin Almaniya təhlükəsizlik orqanları ilə «nəzarətli göndəriş» əməliyyatının (tədbirinin) birgə keçirilməsi***

***nəticəsində beynəlxalq mütəşəkkil cinayətkar qruplaşmanın cinayətkar fəaliyyətinin qarşısının alınmasına nail olunmuşdur. Bu cinayətkar qruplaşma tərəfindən Nigeriyadan Rusiya ərazisindən tranzitlə Hollandiyaya böyük miqdarda narkotik vasitə daşınırdı. Rusiya hüquq-mühafizə orqanlarının yüksək bacarıq və ustalıqla keçirdikləri tədbirlər nəticəsində narkoişbazları 6,5 milyon dollar dəyərində olan, 2,5 ton marixuananı xüsusi hazırlanmış gizli yerə boşaldan zaman yaxalanmışlar.***

***«Nəzarətli göndərişlərin» poçt rabitə kanallarında müvəffəqiyyətlə keçirilməsinə dair çoxsaylı misallar göstərmək olar. Orta Asiya ölkələrinin birinin paytaxtından Rusiyaya göndərilən sovqatda gömrük nəzarəti qaydasında keçirilən baxış zamanı 1,5 kq. tiryək aşkar edilmişdir. Onun aşkar olunması faktının gizliliyi təmin edilməsinə əmin olduqdan sonra, gömrük orqanı tərəfindən təhlükəsizlik orqanları ilə birgə «nəzarətli göndəriş» əməliyyatının (əməliyyat-axtarış tədbirinin) keçirilməsinə dair qərar qəbul edilmişdir. Bir sıra əməliyyat-axtarış tədbirləri keçirməklə, bu əməliyyat başa çatdırılaraq, sovqatı alan şəxs saxlanılmış, cinayətin iştirakçısı qismində həbs edilmişdir. Gömrük orqanlarının sonradan saxlanılan şəxslə əlaqədar paytaxt şəhərin hüquq-mühafizə orqanları ilə birgə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində 7 nəfərdən ibarət cinayətkar qruplaşmanın üzvləri müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilmişdir.***

«Nəzarətli göndəriş» əməliyyat-axtarış tədbiri Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli «ƏAF haqqında» Qanununun 10-cu maddəsinin I hissəsinin 15-ci bəndində öz əksini tapmışdır. Lakin həmin Qanunda bu tədbirin məzmun tutumuna aydınlıq gətirilməmişdir. Qeyd edilən tədbir bir metod kimi ilk dəfə milli səviyyədə Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixdə qəbul edilmiş Gömrük Məcəlləsinin 222-ci maddəsində (narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarət altında göndərilməsi) aşağıdakı redaksiyada əhatə

edilmişdir: «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz beynəlxalq dövriyyəsinin qarşısını almaq və dövriyyədə iştirak edən şəxsləri aşkar etmək məqsədilə Azərbaycan Respublikası gömrük orqanları ayrılıqda götürülmüş hər bir halda xarici dövlətlərin gömrük və səlahiyyətli orqanları ilə razılaşmalara uyğun olaraq və Azərbaycan Respublikasının beynəlxalq müqavilələri əsasında «nəzarət altında göndərilmə» metodundan istifadə edirlər, yəni qanunsuz dövriyyəyə daxil edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarət altında göndərilməsi öz nəzarəti altında Azərbaycan Respublikasına gətirilməsinə, Azərbaycan Respublikasından aparılmasına və onun ərazisindən tranzitlə keçirilməsinə yol verilir.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərilməsinin həyata keçirilməsinə yalnız mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı sahəsində törədilən və hazırlanan cinayətlərin qarşısının alınması, açılması, məsuliyyətə cəlb edilməsi məqsədilə yol verilir.

Nəzarət altında göndərilmə metodundan istifadə haqqında qərarı Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı qəbul edir.

Nəzarət altında göndərilmə metodundan istifadə haqqında qərar qəbul edildiyi hallarda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının təyinat ölkəsi xarici dövlətdirsə, bu halda Azərbaycan Respublikasında cinayət işi qaldırılmır, qəbul edilmiş qərar barəsində isə dərhal Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikası Baş Prokuroruna məlumat verilir.

Qeyd edilən Məcəllənin 223-cü maddəsində (digər əşyalarla əlaqədar nəzarət altında götürülmə metodundan istifadə edilməsi)

bu metodun Məcəllənin 222-ci maddəsində nəzərdə tutulan qaydanı tətbiq etməklə, cinayət törədilməsi üçün alət və vasitə olan, həmçinin cinayətkar yolla əldə edilmiş digər əşyalarla əlaqədar keçirilmə

sinə yol verilməsi təsbit edilir.

Məcəllənin 224-cü maddəsinə əsasən nəzarət altında göndərilmə metodundan istifadə zamanı müsadirə edilən pul vəsaiti və əmlaka sərəncam vermə əsasən bu metoddan istifadə etməklə açılan və qarşısı alınan cinayətlər haqqında işlər üzrə Azərbaycan Respublikasının və xarici dövlətlərin məhkəmələrinin qərarı ilə müsadirə edilən əmlakın realizə olunmasından əldə edilən pul vəsaitləri Azərbaycan Respublikasının gömrük işini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı və xarici dövlətlərin səlahiyyətli idarələrinin və digər səlahiyyətli orqanların nəzarəti altında göndərilmə metodundan istifadədə iştirak edən dövlətlər arasında bölünür. **Lakin qeyd edilən normalarla müəyyən edilən münasibətlərin bir qismi yeni qəbul edilmiş Gömrük Məcəlləsində öz əksini tapmadığı üçün bu məsələ mübahisəlidir və araşdırılmasına ehtiyac vardır.**

«Nəzarətli göndəriş» əməliyyat-axtarış tədbirinin (əməliyyatının, metodun) anlayışı bir sıra tanınmış alimlər tərəfindən müxtəlif, lakin məzmun etibarilə nisbətən fərqlənən və oxşar redaksiyalarda verilmişdir.

Bu tədbirin (əməliyyatın, metodun) anlayışının məzmun tutumunu aşağıdakı redaksiyada verməyi təklif edirik: «Nəzarətli göndəriş» əməliyyat-axtarış tədbiri (metodu, əməliyyatı) cinayətlərin xəbərdarlığı, qarşısının alınması, aşkar edilməsi, açılması və əməliyyat-axtarış fəaliyyətinin digər vəzifələrinin həlli məqsədilə malların, maddi sərvətlərin, valyutanın, həmçinin sərbəst dövriyyəsi qadağan edilmiş və məhdudlaşdırılmış predmet, maddə və məhsulların, cinayət yolu ilə əldə edilmiş və ya özündə cinayətin izlərini saxlamış əşyaların, habelə cinayətin törədilmə alət və vasitələrinin qa-

nunvericiliyin tələbləri rəhbər tutulmaqla əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların gizli nəzarəti altında yerinin dəyişdirilməsinə yol verilməsidir».

**«Nəzarətli gödəriş»lərin predmetinə aşağıdakılar aid edilir:**

- *narkotik vasitələr, psixotrop maddələr və prekursorlar, onların istehsalı və emalı üçün istifadə edilən qurğu və alətlər, silahlar, döyüş sursatları, partlayıcı qurğular və maddələr, kütləvi qırğın silahları və onların hissələri, radioaktiv və zəhərli maddələr, mədəni, tarixi və arxeoloji sərvətlər, qiymətli metal və daşlar, strateji əhəmiyyətli məhsullar.*

**«Nəzarətli göndəriş»lərin ümumiləşdirilmiş halda predmetinə rəsmi daşınma müqaviləsində olan istənilən əşya və həmçinin cinayətlərin törədilmə alət və vasitələrini və ya cinayət yolu ilə əldə edilmiş əşya, pul vəsaitləri, əmlakı, cinayətin obyekti olan maddi aləmin predmetlərini və sərbəst dövriyyəsi qadağan olunan və ya məhdudlaşdırılan əşya, maddələri və s. aid etmək olar.**

«Nəzarətli göndəriş» bir qayda olaraq davam etmə xarakterinə malik olan cinayətlər üzrə həyata keçirilir. Belə ki, nəzarət edilən əşya, maddə və s. ilə bağlı hərəkətlər vaxt etibarilə uzadılmış olur, onların bir yerdən başqa yerə daşınması, göndərilməsi, bir şəxsdən (qrup şəxslərdən) digər şəxsə (qrup şəxslərə) verilməsi nəzərdə tutulur. Bu tədbirin (əməliyyatın, metodun) obyektiv tərəfi törədilmiş, başa çatmış cinayətlər üzrə də keçirilməsi istisna edilmir.

Azərbaycan Respublikasının qüvvədə olan Gömrük Məcəlləsinin 216.3-cü maddəsinə əsasən, bu tədbirin təşəbbüskarı qismində gömrük orqanları ilə yanaşı, digər hüquq-mühafizə orqanları iştirak edə bilər. Lakin Gömrük Məcəlləsinin tələblərinə müvafiq olaraq və tədbirin uğurlu, maneəsiz keçirilməsi üçün, xüsusən də yük və malların gömrük sərhədlərindən keçməsini nəzərə alaraq, gömrük or-

qanları bu tədbirin keçirilməsinin zəruri iştirakçısı qismində çıxış edir.

Azərbaycan Respublikasının və beynəlxalq qanunvericiliyin tələbləri rəhbər tutularaq, nəzarətli göndərişin keçirilməsində müşahidənin tətbiq edilmə üsullarından, nəzarətin predmetinə müvafiq olaraq taktikanın seçilməsindən, onu müşayiət edən şəxslərin dairəsindən, göndərişin predmetinin tam və ya qismən götürülməsi və dəyişdirilməsindən asılı olaraq, şərti olaraq **bu tədbirin (əməliyyatın, metodun) bir neçə növünü fərqləndirirlər:**

- *adi (gizli nəzarətin predmeti sona çatmamış dövriyyədən götürülmür);*

- *təmiz (gizli nəzarət edilən predmetin itirilmə təhlükəsi və ya təhlükəsizlik nöqteyi-nəzərdən əməliyyatın başlanğıcında nəzarət edilən predmet tam və ya qismən əvəz edilir və ona oxşar olanla (mulyajla) əvəz olunur, insan həyat və sağlamlığı üçün təhlükəsi olan əşya, maddə, kütləvi qırğın silahları, radioaktiv maddələr və s. şərtsiz olaraq tam əvəz olunur);*

- *xarici (bir neçə dövlətin ərazisində beynəlxalq konvensiya, müqavilə və razılaşmalara müvafiq olaraq həyata keçirilir);*

- *daxili (dövlətin ərazisindən keçirilməklə, məsələn, Azərbaycan Respublikasının ərazisindən keçirilib daşınan və ya ölkə ərazisində daşınan);*

- *müşayiət olunan (gizli nəzarətin predmeti hər hansı bir şəxsin müşayiəti altında aparılır, daşınır, göndərilir);*

- *müşayiət olunmayan (gizli nəzarətin müşayiət olunmayan yüklə poçtla göndərilir).*

**Hindistanın xüsusi orqanlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində gizli yerdə 3 kq. tiryək aşkar edilmişdir. Bu faktla bağlı davam etdirilən əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilmişdir ki, baqaj (yük) yeri Avstriya vətəndaşı olan sərnişinə məxsusdur və o, Hindistandan Moskva şəhərindən tranzitlə İsveçə gedir. Hindistan,**

**Rusiya və İsveç dövlətlərinin hüquq-mühafizə orqanları tərəfindən birgə keçirilən «nəzarətli göndəriş» əməliyyatı tədbiri, metodu nəticəsində narkotik vasitənin qaçaqmalçılığında təqsirli olan Avstriya vətəndaşı Stoqholm şəhərində tutulmuşdur. Cinayət işi üzrə həyata keçirilən istintaq hərəkətləri və sonrakı əməliyyat-axtarış tədbirləri narkotik vasitənin əldə edilmə mənbələri və tutulan şəxsin digər cinayət əməllərinin və əlaqələrinin aşkar edilməsi istiqamətlərində həyata keçirilmişdir.**

**Moskva şəhəri Şeremetyevo gömrük idarəsinə İngiltərə gömrük orqanlarından əməliyyat məlumatı daxil olmuşdur ki, Moskva şəhərinə Rio de Janeyrodan kokainin qaçaqmalçılığında şübhəli bilinən bir qadın gəlməlidir və o, kokaini öz çantasının xüsusi hazırlanmış gizli yerində aparacaqdır. Həyata keçirilən yoxlama tədbirləri nəticəsində müəyyən edilmişdir ki, həmin qadın Rusiya ərazisindən tranzitlə Budapeşt şəhərinə yollanır. Rusiya dövlət gömrük orqanları ilə əlaqə yaradaraq, «nəzarətli göndəriş» əməliyyatının keçirilməsi barədə qərar qəbul etmişdir. Birgə keçirilən tədbirlər nəticəsində narkotik vasitənin daşıyıcısı (narkokuryer) Budapeşt şəhərində tutularaq, ona məxsus çantadan 4,3 kq. kokain götürülmüşdür. Faktla bağlı cinayət işi üzrə istintaq hərəkətləri və sonrakı əməliyyat-axtarış tədbirləri cinayətkar qruplaşmaların üzvlərinin, onların cinayət əlaqələri və digər cinayət əməllərinin aşkar edilib müəyyən edilməsinə yönəldilmişdir.**

Təəssüflər olsun ki, transmilli səciyyə daşıyan bu növ cinayətlərə qarşı mübarizə sahəsində hüquq-mühafizə orqanlarının fəaliyyətində bir sıra obyektiv və subyektiv amillərlə bağlı nöqsanlar mövcuddur.

Bu tədbirlərin məqsədi «ƏAF haqqında» Qanunun 1-ci maddəsinin III hissəsində nəzərdə tutulan vəzifələrlə üst-üstə düşür.

**«Nəzarətli göndəriş»in taktiki vəzifələri aşağıdakılardan ibarətdir:**

*- dövriyyəsi məhdudlaşdırılmış və qadağan olunmuş əşya, maddələrin və s. daxil olma kanallarının müəyyən edilməsi;*

*- onları göndərənlərin və alanların müəyyən edilməsi;*

*- cinayətləri törədən və törətmiş şəxslərin müəyyən edilməsi;*

*- cinayətkar fəaliyyətin sübut edilməsinin təmin edilməsi, yəni cinayətin törədilməsinə dair izlərin cinayət-prosessual qanunvericiliyi ilə yol verilən mənbələrdə saxlanması üçün şəraitin yaradılması.*

**«Nəzarətli göndəriş»in keçirilməsinin hüquqi əsasları**

Bu əməliyyatın (tədbirin, metodun) keçirilməsi müxtəlif, habelə digər dövlətlərin hüquq-mühafizə və digər orqanların (gömrük, təhlükəsizlik, sərhəd xidmətləri, daxili işlər orqanları) cəlb edilən qüvvə və vasitələrinin çox dəqiq və mükəmməl hazırlığını, habelə qanunvericiliyin müddəalarına ciddi riayət edilməsini tələb edir. Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli «ƏAF haqqında» Qanununun 5-ci maddəsinin I hissəsində qeyd edilir ki, əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş təhqiqat orqanları, korrupsiya ilə bağlı cinayətlər üzrə isə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı həyata keçirir. Bu maddənin II hissəsinə əsasən, əməliyyat-axtarış tədbirlərinin əməliyyat-axtarış fəaliyyətinin hansı subyekti tərəfindən və hansı həcmdə tətbiqinin mümkünlüyünü Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı (prezident) müəyyən edir. Qeyd edilən maddənin III hissəsinə əsasən isə bu fəaliyyətin subyektlərinin müvəkkil olunmuş şəxsləri öz vəzifələrini yalnız bu orqanların səlahiyyətləri daxilində həyata keçirirlər.

Qanunun 10-cu maddəsinin I hissəsinin 15-ci bəndində «nəzarətli göndəriş» əməliyyat-axtarış tədbiri göstərilmişdir və bu maddənin VII hissəsində qeyd edilir ki, «narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişini yalnız mütəşəkkil cinayətkar qurumlar tərəfindən hazırlanan və törədilən

ağır cinayətlərin, habelə xüsusi təhlükəli cinayətlərin qarşısının alınması, açılması və onları hazırlayan, törədən və törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar yol verilir. Bu tədbirin keçirilməsi üçün səbəblərə dair müddəalar «ƏAF haqqında» Qanunun 11-ci maddəsinin II hissəsində və tədbirin keçirilməsinə dair qərarın qəbul edildiyi halları isə IV hissənin, 1, 3-6-cı bəndlərində öz əksini tapmışdır.

«Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanununun 24, 29-31-ci maddələrinə müvafiq olaraq, narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalına qarşı mübarizədə müvafiq icra hakimiyyəti orqanları «ƏAF haqqında» Qanunla müəyyən edilmiş qaydada «nəzarətli göndəriş», «göndərilən yükləri, poçt göndərişlərini yoxlamaq», «nəzarət qaydasında narkotik vasitələri və psixotrop maddələri almaq» və qanunda nəzərdə tutulmuş digər əməliyyat-axtarış tədbirlərindən istifadə etmək hüququna malikdirlər.

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Fərmanının 1-ci bəndinə əsasən, «beynəlxalq göndərişlərin» yoxlanılmasını həyata keçirmək səlahiyyəti MTN-lə yanaşı DGK-ya verilmişdir.

Prezidentin digər, 22 may 2007-ci il tarixli «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə» Fərmanının 1.4-cü bəndinə əsasən, «narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi», «nəzarət qaydasında qanunsuz hesab edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının alınması» əməliyyat-axtarış tədbirlərini Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi (Naxçıvan Muxtar Respublikası ərazisində

onun Daxili İşlər Nazirliyi), MTN, DGK (Naxçıvan Muxtar Respublikası ərazisində onun DGK) və DSX öz səlahiyyətləri daxilində həyata keçirirlər.

22 iyun 2005-ci il tarixli Qanunun 30-cu maddəsində («Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi) bu tədbirin məzmun tutumu aşağıdakı redaksiyada verilmişdir: «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi – narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində ibtidai araşdırma aparmaq səlahiyyətinə malik olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının nəzarəti altında Azərbaycan Respublikasının ərazisində qanunsuz hesab edilən və ya şübhə doğuran narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının daşınması, göndərilməsi və ya digər üsulla yerinin dəyişdirilməsidir».

Qeyd edilən Qanunun 30.2-ci maddəsinə əsasən, «nəzarətli göndəriş»lər yuxarıda göstərilən sahədə mütəşəkkil dəstə və cinayətkar birlik (təşkilat) tərəfindən törədilən və hazırlanan cinayətlərin qarşısının alınması, açılması, həmin cinayətləri törədən şəxslərin aşkar edilməsi və onların cinayət məsuliyyətinə cəlb edilməsi məqsədilə həyata keçirilə bilər.

Gömrük Məcəlləsinin 8-ci maddəsində gömrük orqanlarının vəzifələri sırasıqnda (maddə 8.0.10) «gömrük işi sahəsində cinayətlərə, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq» vəzifəsi öz əksini tapmışdır». Məcəllənin 9-cu maddəsində bu orqanların hüquqları sırasında (maddə 9.0.7) təhqiqatı və istintaqı gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması, onları hazırlayan, törədən və ya törətmiş şəxsləri müəyyənləşdirmək məqsədilə qanunvericiliklə müəyyən edilmiş qaydada əməliyyat-axtarış

fəaliyyətini həyata keçirmək hüququ da yer almışdır. Məcəllənin 19.1, 19.2-ci maddələrinin müddəaları da gömrük orqanları tərəfindən əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinin hüquqi əsaslarını təşkil edir.

Məcəllənin 216.1-ci maddəsində «nəzarətli göndəriş» əməliyyat-axtarış tədbiri anlayışı aşağıdakı redaksiyada əhatə edilmişdir: «Nəzarətli göndəriş – qanunsuz dövriyyəyə daxil edilmiş ayrı-ayrı malların, xarici dövlətlərin gömrük və başqa səlahiyyətli orqanları ilə razılaşmalara və ya beynəlxalq müqavilələrə uyğun olaraq ƏAF subyektlərinin nəzarəti altında gömrük ərazisinə gətirilməsi, bu ərazidən aparılması və ya tranzitlə keçirilməsi üzrə əməliyyat-axtarış tədbiridir».

Məcəllənin 216.2-ci maddəsində bu tədbirin gömrük sərhədindən keçirilən malların qanunsuz beynəlxalq dövriyyəsi ilə bağlı törədilən və ya hazırlanan cinayətlərin qarşısının alınması, açılması və dövriyyədə iştirak edən şəxslərin aşkar edilməsi məqsədilə keçirilməsi göstərilir. 216.3-cü maddədə bu tədbirin keçirilməsi haqqında qərarın müvafiq icra hakimiyyəti (Dövlət Gömrük Komitəsi) və ya onunla razılaşdırılmaqla ƏAF-ın digər subyektləri tərəfindən qəbul edilməsi vurğulanır. Məcəllənin 216.4-cü maddəsində təsbit edilir ki, gömrük sərhədlərindən keçirilən malların nəzarətli göndərişi metodundan istifadə haqqında qərar qəbul edildikdə və malların təyinat yeri xarici ölkə olduqda, əməliyyat-qeydiyyat işi açılmaqla, dərhal Azərbaycan Respublikasının Baş Prokuroruna məlumat verilir və ƏAT-ın nəticələrindən asılı olaraq, qanunvericiliklə müəyyən edilmiş qaydada cinayət işinin başlanıb-başlanmaması məsələləri həll edilir. Qeyd edilən Məcəllənin 217-ci maddəsində «nəzarətli göndəriş» metodundan istifadə etməklə gömrük sərhdəindən keçirilən mülki dövriyyədən çıxarılmış və mülki dövriyyəsi məhdudlaşdırılmış malların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda və qaydada götürülməsinin mümkünlüyü vurğulanır (burada müvafiq icra hakimiyyəti orqanı səlahiyyətlərini Azərbay-

can Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla həyata keçirir). 216-cı maddədə «nəzarətli göndəriş» əməliyyat-axtarış tədbiri həm də «nəzarətli göndəriş» metodu adı ilə ifadə olunur.

**Beynəlxalq miqyasda «nəzarətli göndəriş»lərin keçirilməsinin normativ hüquqi əsasları**

«Nəzarətli göndəriş»in keçirilməsinin beynəlxalq normativ hüquqi əsaslarına ilk növbədə BMT-nin 19 dekabr 1988-ci il tarixli «Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» Konvensiyasını aid etmək olar. Konvensiyanın 1-ci maddəsinin («Anlayışlar») «g» bəndinə əsasən, «nəzarətli göndəriş» Konvensiyaya əlavələrin I və II cədvəlinə daxil olan qanunsuz və şübhə doğuran narkotik vasitələrin, psixotrop maddələrin və onları əvəz edən maddələrin bir və ya bir neçə ölkənin ərazisinə idxalı, ixracı və tranzit nəql edilməsinə, səlahiyyətli orqanların nəzarəti və xəbəri olmaqla yol verilməsini nəzərdə tutan bir metod olub, bu Konvensiyanın 3-cü maddəsinin (hüquqpozmalar və sanksiyalar) 1-ci bəndinə müvafiq olaraq müəyyən edilmiş hüquqpozmalarda iştirak edən şəxslərin aşkar edilməsi məqsədilə tətbiq edilir.

Konvensiyanın 11-ci maddəsində («Nəzarətli göndəriş») beynəlxalq səviyyədə bu metodun tətbiq edilməsinin ümumi prinsip və qaydaları öz əksini tapmışdır. Həmin prinsip və qaydalar Azərbaycan Respublikasının bu istiqamətdə milli qanunvericiliyinə daxil olan müvafiq normativ hüquqi aktlarda da öz əksini tapır.

BMT-nin «Transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə haqqında» 2000-ci il tarixli, «Korrupsiyaya qarşı mübarizə haqqında» 2003-cü il tarixli Konvensiyalarında «nəzarətli göndəriş»lərin keçirilməsi, elektron müşahidələr və agentura əməliyyatlarında istifadə edilməsinə dair müddəalar təsbit edilmişdir. «Transmilli cinayətkarlığa qarşı mübarizə haqqında» Konvensiyanın 2-ci maddəsində «nəzarətli göndəriş»in anlayışı verilir və 1988-ci il ta-

rixli Konvensiyada təsbit edildiyi şərtlər və məqsədlər üçün istifadə edilən bir metod kimi səciyyələndirilir.

Adı çəkilən Konvensiyalarda qeyd olunur ki, bu metod Konvensiyaya qoşulmuş dövlətlərin səlahiyyətli orqanları tərəfindən onların daxili qanunvericiliklə müəyyən edilmiş şərtlər və imkanlar hədlərində tətbiq edilir. «Nəzarətli göndəriş» əməliyyat-axtarış tədbiri kimi 2000-ci il tarixli Avropa İttifaqının Konvensiyasında da nəzərdə tutulmuşdur. Bu beynəlxalq hüquqi sənədin 12-ci maddəsində Avropa İttifaqı üzvü olan dövlətlərin ərazisində «nəzarətli göndəriş»in keçirilməsinə icazə verilməsinə dair sorğuların verilməsinə dair müddəa öz əksini tapmışdır. Bu tədbirin keçirilməsi prinsipləri, şərtləri onun ərazisində keçirilən dövlətin qanunvericiliyi ilə tənzimlənir.

Analoji qaydalar 1990-cı il tarixli Şengen Konvensiyasının 73-cü maddəsinin müddəaları (III bölməsinin 6-cı başlığında) narkotiklər narkotik vasitələrin və psixotrop maddələrin "nəzarətli göndəriş"lərin hüquqi əsaslarına aid edilir. Bu tədbirin (metodun, əməliyyatın) keçirilməsinin beynəlxalq səciyyəli hüquqi əsaslarını, həmçinin dövlətlərarası hüquqi yardım barədə iki və çoxtərəfli müqavilələr, habelə onlarla hüquq-mühafizə orqanları arasında cinayətkarlığa qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlığa dair müqavilələr təşkil edir.

MDB-yə daxil olan dövlətlərdə «nəzarətli göndəriş»in hüquqi tənzimlənməsi bu dövlətlər arasında bağlanan müqavilələr və digər normativ aktlar təşkil edir. Məsələn, «Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər barədə» MDB-nin 2002-ci il tarixli Konvensiyasının 108-ci maddəsində «nəzarətli göndəriş»lərdən istifadə edilməsinə dair müddəalar öz əksini tapmışdır.

Digər xarici dövlətlərlə bağlı "Nəzarətli göndəriş" əməliyyatlarının keçirilməsində qarşıya çıxa biləcək çətinlikləri, vaxt məhdudiyyətini, cəlb ediləcək qüvvə və vasitələrin həcmini,

cinayətkar qruplaşmaların mütəşəkkillik və korrupsiyalıq dərəcəsini və digər vacib amilləri nəzərə alaraq İnterpolun və onun DİN-in MMB-nin imkanlarından (qüvvə, vasitələri və informasiya sistemlərindən) istifadə edilməsi ilə bağlı məsələlərin həll edilməsi mühüm rol oynayır.

**Ümumilikdə bu müqavilələrdə hüquqi yardıma aşağıdakılar daxildir:**

*- ifadələrin, ərizə və materialların alınması, sənəd və predmetlərin təqdim edilməsi, şəxsiyyətin və şəxslərin yerinin müəyyən edilməsi, əmlaka həbsin qoyulması və onun müsadirə edilməsinə dair tədbirlərin görülməsi, cərimələrin tutulması, cinayət işləri üzrə cinayət-prosessual, o cümlədən baxış, axtarış və götürmə və s. hərəkətlərin və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi, istintaq orqanları və onların tapşırığı ilə əməliyyat aparatları digər dövlətdən daxil olan sorğular əsasında prokurorun razılığı və məhkəmə qərarı tələb etməyən prosessual və digər hərəkətləri (dindirmə, baxış, yaşayış yerinin müayinə edilməsi və s.).*

Ekstradisiya, cinayət təqibi, habelə insan hüquq və azadlıqlarına toxunan, prokurorun razılığı və məhkəmə qərarları tələb edən istintaq tapşırıqlarının icrası Konvensiya iştirakçı dövlətlərin baş prokurorları və ali məhkəmələri vasitəsilə həyata keçirilir.

Dövlətlərarası müqavilələrin, o cümlədən Konvensiyaların üstünlüyü ondan ibarətdir ki, onlar çoxtərəfli dövlətlərarası müqavilələrdir və ona görə də onlar öz təsirinə görə çox geniş hüquqi məkanı əhatə edir, habelə onlarda bir neçə dövlətin cinayətkarlığa qarşı mübarizədə qarşılıqlı əməkdaşlıq mexanizmi öz əksini tapır. Bu mexanizmlər, xüsusilə də icra prosesləri müəyyən vaxt tələb edir və Azərbaycan Respublikası CPM-in 124, 125, 138, 139, 488-505 və s. maddələrinin tələbləri ilə demək olar ki, uzlaşır.

Belə müqavilələr cinayətkarlığa qarşı mübarizənin bütün istiqamətlərinə, qarşılıqlı əməkdaşlığın səmərəli və müvəffəqiyyətlə aparılmasına müsbət təsir edir. ***Qeyd edilənlərəi, həmçinin bu***

***istiqamətdə qüvvə və vasitələrin birgə istifadə edilməsində göstərilən saylərə baxmayaraq, ƏAF sahəsində qarşılıqlı əməkdaşlıq və bir dövlətin hüquq-mühafizə orqanları əməkdaşının xidməti vəzifələrinin icrası ilə əlaqədar digər dövlətin ərazisində xidməti vəzifələrlə bağlı fəaliyyəti, müvafiq istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirlərinin keçirilməsi ilə bağlı və s. məsələlərdə mövcud olan müəyyən problemlər həll edilməmiş qalır.***

Beynəlxalq normativ aktların icra edilməsində hər bir dövlət digər dövlətlərlə qarşılıqlı əməkdaşlıq haqqında müqavilənin icra edilməsi qaydalarını müəyyən edən normativ aktların tələblərini rəhbər tutmalıdır.

«Nəzarətli göndəriş» əməliyyat-axtarış tədbirini (xüsusən, beynəlxalq miqyasda həyata keçirilən) bir əməliyyat kimi dəyərləndirilməsi ilk növbədə onun təşkili və keçirilməsində çoxsaylı və müxtəlif hüquq-mühafizə orqanlarının iştirak etməsi, müxtəlif növ əməliyyat-axtarış tədbirlərinin (əsasən qeyri-aşkar) həyata keçirilməsində yüksək dərəcədə riskin olması, onun gedişatı prosesində məlumat məhdudluğunun artma ehtimalı, ən yüksək dərəcədə konfidensiallığın təmin edilməsi zəruriliyi, əməliyyatda iştirak edən əməkdaşların yüksək peşəkarlığa malik olması tələbi və s. amillərlə əsaslandırılır. Belə əməliyyatlarda iştirak edən əməkdaşlara xüsusi tələblər verilir. Onlar özlərini bir növ «cinayətkarların yerində hesab etməyi və onların fikir və niyyətlərini dərk etməyi» bacarmalı, yaradıcılıq, əsaslı risk və təşəbbüs göstərməli, qəflətən yaranmış və ekstremal şəraitdə tez və düzgün qərar qəbul etmək vərdişlərinə və s. keyfiyyətlərə malik olmalıdırlar.

**Belə əməliyyatın, xüsusilə də onların beynəlxalq və tranzit növlərinin keçirilməsi üçün zəruri hesab edilən aşağıdakı şərtlər təmin edilməlidir:**

- *ərazisində nəzarətli göndəriş keçirilməsi nəzərdə tutulan ölkədə qanunvericiliklə nəzərdə tutulan və digər maneələrin olmaması;*

*- nəzarət ediləcək mal, əşya və maddələrin aşkar edilməsi faktı haqqında məlumat o dərəcədədir ki, "nəzarətli göndəriş"in həyata keçirilməsinə yol verilir (yəni, fakt haqqında çox məhdud sayda, bilavasitə onu aşkar edən əməkdaşlar məlumatlıdır, konfidensiallıq lazımi dərəcədə təmin olunmuşdur, kənar şəxslər və narkoişbazları aşkarlanma faktı barədə heç nə bilmirlər);*

*- cinayətin iştirakçılarının müəyyən edilməsi ehtimalı əməliyyatın keçirilməsinin zəruriliyini şərtləndirir (o cümlədən lazımi qüvvə, vasitə və maliyyə xərclərini və s.);*

*- əməliyyatın keçirilməsində iştirak edən orqanların qarşılıqlı əlaqəli fəaliyyətinin razılaşdırılması üçün kifayət qədər ehtiyat vaxtın olması;*

*- nəzarət edilən əşya, maddə və s. göndərişlərin təşkilatçılarının, satışı həyata keçirən və onları alan şəxslərin aşkar edilib ifşa edilməsi ehtimalı yüksəkdir və əməliyyatın keçirilməsi düzgün və məqsədəuyğundur;*

*- istifadə edilməsi nəzərdə tutulan qüvvə və vasitələr göndərişin keçirilməsinin bütün mərhələlərində konfidensiallığı, lazımi və etibarlı nəzarəti təmin etməyə qadirdir və zəruri və təxirəsalınmaz hallarda maneəsiz nəzarət edilən əşya, maddə və s. götürə bilər;*

*- əməliyyatın keçirilməsində iştirak edən dövlətlərin hüquq-mühafizə orqanları arasında istifadə edilən rabitə əlaqələrinin etibarlılığının və konfidensiallığının təmin edilməsi və s.*

Əməliyyatların keçirilməsində qeyd edilən şərtlərdən hər hansı birinin nəzərə alınmaması və onlara etinasız yanaşma mənfi nəticələrə gətirib çıxara bilər.

**Moskva şəhərinin «Şeremetyevo» hava limanında gömrük orqanlarının əməkdaşları tərəfindən Dehli şəhərindən Praqa şəhərinə uçan sərnişinin yükündə əvvəlcədən hazırlanmış gizli yerdə ümumi dəyəri («qara bazar» qiymətləri ilə) təxminən 2 milyon dollar olan narkotik vasitə aşkar edilmişdir. Yükün sahibinin onun yükünə (baqajına) əməliyyat aparatı əməkdaşları**

**tərəfindən texniki vasitələrdən istifadə etməklə gizli baxışın keçirilməsi barədə məlumatının olmadığını və onun özünü sakit aparmasını və uçuşu davam etdirmək niyyətində olmasını nəzərə alaraq, Çexiya dövlətinin gömrük orqanları ilə razılaşdırılmaqla «nəzarətli göndəriş» metodundan istifadə etməklə, əməliyyatın keçirilməsinə dair qərar qəbul edilmişdir. Həmin şəxs (qaçaqmalçı) Praqa şəhərində təyyarədən düşdükdən sonra Çexiya dövlətinin xüsusi xidmət əməkdaşlarının gizli nəzarəti altında müşayiət edilməklə Almaniyanın Nyurnberq şəhərinə gedən qatara minmişdir. Əməliyyatın keçirilməsinə Çexiya həmkarları tərəfindən 50 agent (ştatda olan məxfi əməkdaş) cəlb edilmiş və qatarın hərəkəti istiqamətində yerləşən stansiyalarda onlarla avtomaşından istifadə edilmişdir.**

**Almaniya ilə sərhəddə alman həmkarları müşahidənin davam etdirilməsinə hazır olduqlarını bildirməsinə baxmayaraq, Nyurnberq şəhərinin prokuroru qaçaqmalçının Almaniyaya buraxılmasına razılıq vermədiyindən, o, Çexiyanın sərhədində saxlamaq məcburiyyətində tutulmuşdur. Belə ki, prokuror öz qərarında milli qanunvericiliyin müddəalarına əsaslanmışdır. Yaxşı olardı ki, prokurorun belə qərar verməsinin mümkünlüyü əvvəlcədən proqnozlaşdırılardı. Göründüyü kimi, narkotik vasitənin kimə ünvanlandığını və mütəşəkkil cinayətkar qruplaşmanın üzvlərini bu əməliyyatın sonunda müəyyən etmək mümkün olmadı və çoxsaylı insan, maliyyə resursları, vasitələri və s. istifadə edildi.**

Azərbaycan Respublikasının «Poçt rabitəsi haqqında» 29 iyun 2004-cü il tarixli Qanunun, «Rabitə haqqında» 20 iyun 1997-ci il tarixli Qanunun və «ƏAF haqqında» 28 oktyabr 1999-cu il tarixli Qanunun (6, 7, 10-12-ci maddələrinin) tələbləri rəhbər tutulmaqla, poçt işçiləri və gömrük orqanlarının əməkdaşları poçt göndərişlərində yollanmasına icazə verilməyən (o cümlədən, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, silahlar, döyüş sursat-

ları, kütləvi qırğın silahları, radioaktiv maddələr və s.) əşya, maddə və s. olmasını güman etmək üçün obyektiv əsaslar olduğu hallarda onları açıb yoxlamaq hüququna malikdirlər. Belə halda «ƏAF haqqında» Qanunun 10-12-ci maddələrinin müddəaları rəhbər tutulur. Bunun üçün poçt və gömrük postlarında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının axtarışı üzrə xüsusi öyrədilmiş axtarış itlərindən istifadə edilə bilər. Belə halda poçt göndərişinin ünvana çatdırılması poçt xidmətlərinin işçiləri tərəfindən həyata keçirilir.

Nəzərə almaq lazımdır ki, poçt göndərişinin daxil olma və ünvana çatdırılma müddətləri qanunvericiliyə uyğun olmalıdır. Belə bir məqamı da nəzərə almaq lazımdır ki, bu yolla ünvana çatdırılan beynəlxalq poçt göndərişləri (banderollar, kiçik paketlənr, bağlamalar, xüsusi «M» kisələri və s.) poçt müəssisələrində gömrük nəzarət məntəqəsində qeydiyyata alındıqdan sonra qəbul edilə bilər.

Tədbirin keçirilməsinin son mərhələsində meydana çıxan əsas və çətin məsələlərdən biri narkotik vasitə, psixotrop maddə çatdırılan binaya, mənzilə açıq daxil olma anının seçilməsidir. Adətən, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə məşğul olan cinayətkarlar aldıqları poçt göndərişini bir neçə saat açmırlar və təhlükənin olmadığına əmin olduqdan sonra onu açırlar. Belə halda da onlar tərəfindən müəyyən alibilər irəli sürülə bilər, bəzi hallarda isə poçt göndərişindən göndərilən narkotik vasitə və s. gizlədilə və ya həmin yerdən digər yerə aparıla bilər. Məhz ona görə də bu tədbirin (əməliyyatın) müvəffəqiyyətlə həyata keçirilməsi ilk növbədə onun gedişatının bütün mərhələlərində əməliyyat-axtarış və əməliyyat-texniki imkanlardan düzgün və səmərəli istifadə edilməsindən, o cümlədən zəruri əməliyyat məlumatlarının vaxtında əldə edilməsindən və cinayətin iştirakçılarının qanunvericiliyin tələbləri rəhbər tutulmaqla sənədləşdirilməsindən asılıdır.

***Məsələn, ABŞ, İngiltərə və RF-nın hüquq-mühafizə orqanlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirlərinin, o cümlədən «nəzarətli göndəriş» əməliyyatının gedişatı prosesində Rusiya iş adamı V.Petrov tərəfindən təşkil edilmiş mütəşəkkil cinayətkar qruplaşma ifşa edilmişdir. Onun rəhbərliyi ilə 10 il müddətində konteynerlərdə tonlarla sintetik narkotik və Kolumbiya kokaini Avropa və Afrikaya daşınmışdır.***

Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Parlamentlərarası Məclisinin 6 dekabr 1997-ci il tarixli «ƏAF haqqında» Model Qanununun 6-cı maddəsinin (əməliyyat-axtarış tədbirləri, cəmi 15 növ) 9-cu bəndində poçt, teleqraf və digər göndərişlərə nəzarət, 14-cü bəndində «nəzarətli göndəriş» əməliyyat-axtarış tədbiri nəzərdə tutulmuşdur. Model Qanununun 13-cü maddəsinin müddəalarına görə, hər hansı bir dövlətin ərazisində əməliyyat-axtarış tədbirlərini həyata keçirmək hüququ həmin dövlətin orqanlarına verilir. **Qeyd edilənlərə və qanunun digər maddələrinin təhlilinə əsasən müəyyən etmək olmur ki, bir dövlətin hüquq-mühafizə orqanının əməkdaşı əməliyyat-axtarış tədbirini həmin dövlətin müvafiq orqanları ilə razılaşdırmaqla, sərbəst və ya onunla birgə keçirə bilərmi? Bu normativ aktın bir çox müddəaları mübahisə doğurur, həmçinin ƏAF sahəsində zəruri hesab edilən bəzi münasibətlərə (o cümlədən agentur işi, vətəndaşların ƏAT-ın keçirilməsinə cəlb edilməsi, gizli müşahidə və s. tədbirlərin həyata keçirilməsi və s.) aydınlıq gətirmir.**

Beynəlxalq transmilli cinayətkarlığa, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə «nəzarətli göndərişlərin» tətbiq edilməsi mühüm əhəmiyyət kəsb edir. İnterpolun Azərbaycan Respublikası üzrə Mərkəzi Milli Bürosu DİN strukturuna Baş İdarə statusunda daxildir. Azərbaycan Respublikasında İnterpolun Mərkəzi Milli Bürosu Nazirlər Kabinetinin 9 fevral 1993-cü il tarixli qərarı ilə yaradılmışdır. İnterpol öz fəaliyyətində 13 iyun 1956-cı ildə qəbul edilmiş Nizamnamə və beynəlxalq təş-

kilatların konvensiyalarını və Azərbaycan Respublikasının qanunvericiliyinin müddəalarını rəhbər tutur. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində isə öz fəaliyyətində BMT-nin 1961, 1971 və 1988-ci il tarixli Konvensiyasının müddəalarını rəhbər tutmaqla həyata keçirir. Qeyd edilən istiqamətdə məlumatlar mübadiləsi aparmaq və hüquqi yardımla bağlı məsələləri həll etmək üçün ölkəmizin hüquq-mühafizə, o cümlədən gömrük orqanları Azərbaycan Respublikası MMB vasitəsilə İnterpolun Baş Katibliyi tərəfindən hazırlanmış sorğu formalarından istifadə edir. **Ölkəmizin hüquq-mühafizə orqanları, o cümlədən DGK (onun əməliyyat aparatları) narkotik vasitələrin qanunsuz dövriyyəsi haqqında İnterpoldan aşağıdakı məlumatları almaq imkanlarına malikdirlər:**

*- narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar işlərə aidiyyati olan şəxslər barədə;*

*- narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan cinayətkar dəstə (birlik, təşkilat) barədə;*

*- narkotiklərin götürülməsi barədə;*

*- qanunsuz dövriyyədə olan narkotik vasitələrin və psixotrop maddələr barədə;*

*- dövriyyədə olan narkotiklərin yeni növləri barədə;*

*- narkotiklərin istehsalının gizli üsulları və laboratoriyaları və onların daha çox qablaşdırılması üsulları barədə;*

*- narkotiklərin daşınmasının nəqliyyat növləri, kanalları və gizlətmə üsulları barədə;*

*- bu növ cinayətlərə qarşı mübarizədə mövcud olan problemlərə dair beynəlxalq konfrans, simpozium, işçi görüşlərin materialları barədə;*

*- hüquq tətbiqi və statistik məlumatları və s.*

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi digər dövlətlərin müvafiq gömrük orqanları ilə yanaşı, Ümumdünya Gömrük Təşkilatı Avropa Komissiyasının

hüquq-mühafizə sahəsində fəaliyyət göstərən qurumları çərçivəsində öz əməkdaşlığını daim inkişaf etdirir və təkmilləşdirir. Gömrük hüquqpozmalarına qarşı mübarizə ilə bağlı vəzifələrin həllində DGK-nin «Gömrük Hüquqpozmalarına Qarşı Baş İdarəsi» digər dövlətlərin gömrük orqanlarının müvafiq xidmətləri ilə əməkdaşlıq edirlər.

**«Nəzarətli göndəriş»in təşkilinin ümumi xarakteristikası**

«Nəzarətli göndəriş» vəsaitin əvvəlki hissələrində qeyd edildiyi kimi, adətən xüsusi taktiki səciyyəli əməliyyat çərçivəsində həyata keçirilir. Bu tədbir (əməliyyat, metod) vahid niyyəti (fikri) nəzərdə tutan və vahid məqsədə istiqamətlənən təşkilati, istintaq və əməliyyat-axtarış tədbirlərindən ibarət bir xüsusi əməliyyat kimi dəyərləndirilir.

**Bu əməliyyatın hazırlanması və həyata keçirilməsində aşağıdakı prinsiplərin rəhbər tutulması zəruri hesab edilir:**

- *qüvvə, vəsait və səylərin səfərbər edilməsini təmin edən mərkəzi rəhbərlik və idarəetmə;*
- *çeviklik və operativlik;*
- *fəallıq və səmərəlilik;*
- *etibarlılıq;*
- *təhlükəsizlik;*
- *hərtərəfli təminat.*

Xüsusi əməliyyatın keçirilməsində əsas mərhələlər sırasında təşkilati və yekun mərhələlər mühüm rol oynayır.

**Təşkilati mərhələyə daxildir:** əməliyyat-taktiki niyyətin (fikrin, düşüncənin) müəyyən edilməsi (hazırlanması) və təsdiq edilməsi, tədbirlərin müəyyən edilməsi və qeyd olunması, məqsədə nail olmaq üçün niyyət və vasitələrin realizə edilmə yolları, nəzərdə tutulan tədbirlərin icraçılarının müəyyən edilməsi, bu sistemi idarə edən orqanın yaradılması, planın hazırlanması, mümkün ola bilən neqativ nəticələrin qiymətləndirilməsi və onların neytrallaşdırılmasına yönələn tədbirlərin hazırlanması və s.

**Yekun mərhələyə daxildir:** əməliyyatın nəticələri ümumiləşdirilir, təhlil edilərək qiymətləndirilir, əldə edilmiş nəticələr istifadə edilir.

**Əməliyyatın keçirilməsi aşağıdakı mərhələlərdən ibarətdir:**

- *vəzifələrin müəyyən edilməsi;*
- *əməliyyat şəraitinin müəyyən edilməsi;*
- *əməliyyat niyyətinin müəyyən edilməsi;*
- *zəruri olan qüvvə və vasitələrin müəyyən edilməsi və ayrılması;*
- *icraçılar arasında vəzifələrin səmərəli bölüşdürülməsi;*
- *iştirakçılara əvvəlcədən göstərişlərin verilməsi;*
- *əməliyyatın keçirilməsinə dair qərarın qəbul və təsdiq edilməsi;*
- *əməliyyatın keçirilməsi planının tərtib edilməsi;*
- *idarəetmə sisteminin yaradılması və onun gedişatına nəzarət;*
- *icraçılara konkret vəzifələrin tapşırılması və onların bu vəzifələrin icra olunması üçün hazırlığının təşkili;*
- *əməliyyatın niyyətinin realizə edilməsinə başlamaq məqsədilə köməkçi şəraitin formalaşdırılması;*
- *icraçıların bütün növ ləvazimat, vasitə və s. (maddi, texniki, maliyyə, rabitə, nəqliyyat və s.) təmin edilməsi;*
- *idarəetmə sisteminin, rabitə və informasiyanın ötürülməsi sisteminin yoxlanılması;*
- *icraçıların onlara həvalə edilmiş tədbirlərin keçirilməsinə hazırlıqlarının yoxlanılması, aşkar olunmuş nöqsanların aradan qaldırılması və s.*

Mütləq qaydada əməliyyatın əvvəlki bölmədə göstərilən şərtləri təmin edilməlidir.

**«Nəzarətli göndəriş»in təşkilinin digər əsas mərhələsindən biri bu tədbirin (əməliyyatın) həyata keçirilməsinə dair yazılı**

**qərarın tərtib edilməsidir.** Bu qərarın çıxarılmasının hüquqi əsasları vəsaitin müvafiq bölməsində əhatə edilmişdir. Bu qərarda aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

- hansı vəzifəli şəxs tərəfindən qərar qəbul edilir, əldə olunan məlumatların qısa mahiyyəti, bu məlumatlarda cinayətin əlamətləri (CM-in konkret maddəsinə istinad etməklə) və onlara aidiyyati olan fakt, hadisə və şəxslərə dair informasiya, habelə harada, nə vaxt və hansı narkotik vasitə və s. ilə bağlı «nəzarətli göndəriş»in keçirilməsi nəzərdə tutulmuşdur və s.

Təəssüflər olsun ki, 28 iyun 2005-ci il tarixli «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunun 30.3-cü maddəsində qeyd edilir ki, qərarda istifadə edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının əldə edilməsinin mənbəyi və miqdarı barədə məlumatların miqdarının mütləq göstərilməsi qeyd edilmişdir. İstər elmi, istərsə də dünya təcrübəsinə əsaslanaraq, birmənalı olaraq demək olar ki, qanunda öz əksini tapmış bu norma «nəzarətli göndəriş» əməliyyatının keçirilməsinə əsas etibarilə maneə yaradır. Belə ki, belə əməliyyatların keçirilməsinin nəticələri göstərir ki, narkotik vasitə hüquq-mühafizə orqanları tərəfindən aşkar edildikdə və onunla bağlı "nəzarətli göndəriş" tədbirinin keçirilməsinə dair qərar qəbul edildikdə, demək olar ki, bir çox hallarda nə onların mənbələri ilə, nə də miqdarına dair məlumatları dəqiqliklə müəyyən etmək olmur. **Qeyd edilənləri nəzərə alaraq, Qanunun 30.3-cü maddəsinin yuxarıda göstərilən normasının təkmilləşdirilməsini zəruri hesab edirik.**

**«Nəzarətli göndəriş» vaxt məhdudiyyəti, cinayətkarların peşəkarlığı, onun aşkar edilməsinin mürəkkəbliyi, əməliyyat şəraiti nəzərə alınmaqla, əsasən xüsusi hazırlanmış yazılı və səlahiyyətli vəzifəli şəxs tərəfindən təsdiq olunmuş plan əsasında həyata keçirilir. Planda aşağıdakılar əks etdirilir:**

*- «nəzarətli göndəriş»in keçirilməsinin məqsədinin əsaslandırılması;*

*- əməliyyat niyyətinin realizə edilməsinə imkan verən qüvvə və vasitələrin olması;*

*- ölkənin müxtəlif, zəruri olan hallarda isə digər dövlətlərin hüquq-mühafizə orqanları arasında birgə tədbirlərin keçirilməsi məqsədilə onların fəaliyyətinin əlaqələndirilməsi, təhlükəsizlik və konspirativ tədbirləri, ekstremal vəziyyətlərlə bağlı sərf edilməsi nəzərdə tutulan və ya ehtimal edilən maliyyə vəsaitlərinin ayrılmasının səlahiyyətli vəzifəli şəxslərlə razılaşdırılması.*

Əməliyyatın nəticələri barədə onun keçirilməsinə dair qərar qəbul etmiş şəxsə raportla məruzə olunur.

Bu sənəddə əməliyyatın mərhələləri və mühüm nəticələrinə dair məlumatlar, əldə edilən məlumatların realizə edilməsinə dair təkliflər, təhlükəsizlik tədbirləri, maliyyə hesabatı və digər zəruri məlumatlar əhatə edilir. Raporta həmçinin izahatlar, əməliyyatın keçirilməsinə dair qərar, habelə cinayət işi üzrə sübutetmədə istifadə ediləcək texniki vasitələrin tətbiq edilməsinin və digər ƏAT-ın nəticələrinə dair sənədlər və s. əlavə edilə bilər.

«Nəzarətli göndəriş» əməliyyatının təşkili və keçirilməsində müasir elmi və texniki nailiyyətlərdən, müasir informasiya texnologiyalarından istifadə etmək lazımdır.

Yadda saxlamaq lazımdır ki, müasir narkoişbazlar öz cinayətkar fəaliyyətində qeyd edilən məsələlərə xüsusi önəm verir və hüquq-mühafizə orqanları əməkdaşlarının imkanlarından öz cinayətkar niyyətləri üçün istifadə etmək məqsədilə məqsədyönlü tədbirlər keçirirlər.

# XIV BÖLMƏ

## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ PREKURSORLARIN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏDƏ «NƏZARƏT QAYDASINDA MAL ALINMASI» ƏMƏLİYYAT-AXTARIŞ TƏDBİRİNİN TƏTBİQ EDİLMƏSİNİN ELMİ, HÜQUQİ ƏSASLARI, TƏŞKİLİ VƏ HƏYATA KEÇİRİLMƏSİ VƏ BƏZİ PROBLEMLƏRİ

Hüquq-mühafizə orqanlarının təcrübi materiallarının təhlili göstərir ki, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı cinayətlərin və onu törədən şəxslərin aşkar edilməsində «nəzarətli göndəriş» əməliyyat-axtarış tədbirinin tətbiq edilməsi nəticəsində daha yüksək nəticələr əldə edilir.

Qeyd edilən tədbirin həyata keçirilməsinin hüquqi əsaslarını Azərbaycan Respublikasının müvafiq qanun və qanunqüvvəli aktları təşkil edir.

«ƏAF haqqında» Qanunun 10-cu maddəsinin (əməliyyat-axtarış tədbirləri) I hissəsinin 12-ci bəndində 18 növ tədbirlər sırasında «nəzarətli göndəriş» tədbiri öz əksini tapmışdır. Bu tədbirin həyata keçirilməsində və nəticələrinin istifadə edilməsində ilk növbədə Qanunun 7-12, 16, 17-ci, CPM-in 137-ci maddələrinin müddəaları rəhbər tutulmalıdır.

Qanunun preambulasında onun ƏAF-ın həyata keçirilməsi ilə bağlı hüquqi münasibətlərin tənzimlənməsi və ƏAT-ın tətbiqində hüquqi təminatlar sistemini müəyyən etməsi təsbit edilirsə də, təəssüflər olsun ki, **qanunda bu tədbirin məzmun tutumuna, onun qanunsuz dövriyyədə olan (narkotik vasitə, psixotrop maddə və onların prekursorları, habelə onların istehsalı və emalında istifadə edilən alət, qurğu, silah, döyüş sursatı, kütləvi qırğın silahları, radioaktiv maddələr, tarixi incəsənət, mədəni və arxiv sərvətləri və s.) əşya, maddə və s. ilə bağlı cinayətlərin aşkar edilib açılmasına aydınlıq gətirilməmişdir.**

«Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» 28 iyun 2005-ci il tarixli Qanunun 31-ci maddəsində (nəzarət qaydasında qanunsuz hesab edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının alınması) bu tədbirin ümumi səciyyə daşımayan məzmun tutumu aşağıdakı (məhdud səciyyəli) redaksiyada verilmişdir:

«Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayətkar fəaliyyət haqqında sübut əldə etmək məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşları, «ƏAF haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzarət qaydasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarını almaq hüququna malikdirlər».

**CPM-in 124, 125, 137-139-cu və «ƏAF haqqında» Qanunun 16-cı maddəsinin müddəalarını rəhbər tutaraq, yuxarıdakı anlayışda «sübut əldə etmək məqsədi» ifadəsinin uğursuz, düzgün olmamasını təsdiq etmək olar. Belə ki, bu tədbirin həyata keçirilməsi nəticəsində bilavasitə sübutlar deyil, CPM-ə müvafiq olaraq təqdim edildikdən və yoxlandıqdan sonra sübut kimi istifadə edilən faktiki məlumatlar əldə edilir.**

Qeyd edilən tədbirin həyata keçirilməsində «ƏAF haqqında» Qanun əvvəldə qeyd edilmiş müddəaları ilə yanaşı, 28 iyun 2005-ci il tarixli Qanunun 15, 24 və 31-ci maddələrinin tələbləri də rəhbər tutulmalıdır.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 9-cu (gömrük orqanlarının hüquqları) və 19-cu (gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti), o cümlədən 19.1 və 19.2-ci maddələrinin müddəaları gömrük orqanlarının ƏAF-ın hüquqi əsaslarına daxildir.

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli (26 may 2011-ci ilə qədər olan dəyişikliklərlə) «ƏAT-ın həyata keçirilməsində ƏAF subyektlərinin səlahiyyət bölgüsü haqqında» Fərmanında ƏAF-ın 9 subyekti tərəfindən əməliyyat-axtarış tədbirlərinin onların səlahiyyətləri daxilində bu Fərmanla müəyyən edilmiş məhdudiyyətləri nəzərə alınmaqla həyata keçirilməsi qeyd edilir. Bu Fərmana əsasən, DGK-nin bu tədbirlərin bilavasitə keçirilməsi səlahiyyətlərinə «ƏAF haqqında» Qanunun 10-cu maddəsinin I hissəsinin 1, 2, 4 (yalnız beynəlxalq göndərişlərin), 7, 8, 11-16, 18-ci bəndlərində əhatə edilən tədbirlər aid edilmişdir. Fərmanın III hissəsində qeyd edilir ki, ƏAF-ın subyektləri bu Fərmanla tətbiqi məhdudlaşdırılmış ƏAT-ri qanunvericiliklə müəyyən edilmiş qaydada onların icrası həvalə edilmiş orqanlara (ƏAF-ın digər subyektlərinə) sorğu göndərməklə həyata keçirir.

Bu tədbirlərin tətbiqi və keçirilməsi ilə bağlı səlahiyyətlərin bölüşdürülməsində də bir sıra mühüm, mübahisəli problemlər mövcuddur və onların həlli güman edirəm ki, cinayətkarlığa qarşı mübarizə təcrübəsinə öz müsbət təsirini göstərəcəkdir. Bununla bağlı bir sıra tədqiqatlar aparılmış və nəticələri 2005-2011-ci illərdə aparılmış dissertasiya tədqiqatları materiallarında öz əksini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin «Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi

barədə» 22 may 2007-ci il tarixli Fərmanının 1.4-cü bəndinə müvafiq olaraq, bu Qanunun 31-ci maddəsində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirini DİN, MTN, DSX ilə yanaşı, öz səlahiyyətləri daxilində DGK həyata keçirmək hüququna malikdir.

**Aparılan araşdırma və tədqiqatlar prosesində tərəfimizdən müəyyən edilmişdir ki, təcrübədə tətbiq edilməsinə baxmayaraq, qanunvericilikdə güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahları ilə kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən material və avadanlıqlarla, eləcə də mülki dövriyyəsi qadağan olunmuş, məhdudlaşdırılmış əşyalarla və dövriyyəsinə xüsusi icazə tələb edilən əşyalar, maddələr və s. siyahısının və onlarla bağlı nəzarətli göndəriş və nəzarət qaydasında mal alınması tədbirlərinin tətbiqi və keçirilməsi hüquqları verilmiş ƏAF-ın subyektləri qanunvericiliklə konkret müddəalarla tam həcmdə müəyyən edilməmişdir.**

Bu tədbirlərin keçirilməsində həmçinin Azərbaycan Respublikasının «Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında» 23 dekabr 2003-cü il tarixli Qanunu, Azərbaycan Respublikası Prezidentinin «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısının təsdiq edən» Fərmanının, 2 sentyabr 2002-ci il tarixli, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 avqust 2000-ci il tarixli «ƏAF prosesində gizli qaydada informasiyanın alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin növlərinin siyahısı haqqında» və 21 aprel 2001-ci il tarixli «Narkotik vasitələrin və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlıqların siyahısı haqqında» 31 may 2001-ci il tarixli «Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikası-

nın gömrük sərhədindən keçirilməsi qaydaları haqqında» Qərarlarının, 23 dekabr 2003-cü il tarixli «Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında» Qanunları və s. normativ hüquqi aktların tələblərini də rəhbər tutmaq vacibdir.

**«Nəzarət qaydasında mal alınması» tədbirinin bəzi elmi, hüquqi və təcrübi məsələlərinin səciyyəsi**

Bu tədbir adətən latent xarakterli cinayətlərin aşkar edilməsi və onu törədən şəxslərin müəyyən edilib cinayət məsuliyyətinə cəlb edilməsi məqsədilə keçirilir. «Nəzarət qaydasında mal alınması» tədbiri müqayisəli tədqiq üçün nümunələrin götürülməsi və sonradan onların tədqiq etməklə ƏAF-ın obyektinin cinayətkar fəaliyyəti haqqında dəqiq məlumatların alınması məqsədilə həyata keçirilə bilər.

Bu tədbirin keçirilməsi üçün «ƏAF haqqında» Qanunun 11-ci maddəsinin II hissəsində öz əksini tapmış səbəblər və III hissəsində qeyd edilən əsaslar olmalıdır. Qanunda bu əsaslar sırasında ümumilikdə məhkəmənin (hakimin), istintaq orqanlarının və ƏAF-ın səlahiyyətli subyektlərinin qərarları göstərilmişdir. ƏAF haqqında qanunvericiliyə daxil olan normativ hüquqi aktların müddəalarının təhlili əsasında belə demək olar ki, əməliyyat-axtarış fəaliyyətinin subyektləri ümumiyyətlə, ƏAT-ın seçilib keçirilməsində müstəqildirlər (məhkəmə nəzarəti tələb edən hallar istisna edilməklə) yuxarıda qeyd edilən tədbirlərin keçirilməsi ilə bağlı istintaq orqanları və məhkəmə (hakim) heç bir qərar qəbul edə bilməz və konkret tədbirin keçirilməsinə dair göstəriş verə bilməz. **Qanunda bu məsələlərə aydınlığın gətirilməsini və 10-cu maddənin III hissəsinin təkmilləşdirilməsi zəruri hesab edilir. Bu istiqamətdə də bizim tərəfimizdən 2005-2015-ci illərdə tədqiqatlar aparılmış və onun nəticələrinə dair elmi məqalələr dərc edilmişdir** (ətraflı XX, XXI bölmələrə və ədəbiyyat siyahısına bax).

Tədbirin keçirilməsi üçün ƏAF-ın səlahiyyətli vəzifəli şəxsi tərəfindən «ƏAF haqqında» Qanunun 12-ci maddəsinin tələbləri

rəhbər tutulmaqla, ƏAF subyektlərinin səlahiyyətli vəzifəli şəxsi tərəfindən tərtib edilmiş yazılı qərar çıxarılmalıdır və bu qərar əməliyyat aparatında qeydiyyata alınmalıdır. Qanunun 15-ci maddəsinin tələbləri rəhbər tutulmaqla, bu tədbirin keçirilməsi üçün əməliyyat-qeydiyyat işi açılmalıdır. **Tədbirin keçirilməsi ilə bağlı əməliyyat-qeydiyyat işinin açılmasının zəruriliyinin qanunda öz əksini tapması da mübahisəlidir və təcrübi baxımdan uğursuzdur.** Bu qərar giriş, təsviri və tədbirin keçirilməsinə icazə və başlanmasına işarə edən göstəriş hissələrindən ibarət olur. **Həmin qərarda aşağıdakılar öz əksini tapır:** onun tərtib edildiyi yer, vaxt, sənədi tərtib edən vəzifəli şəxsin adı, soyadı, atasının adı, rütbəsi, “nəzarətli göndəriş”in keçirilməsi üçün səbəb və əsaslar (konkret faktların qısa məzmunu və s.), nəzarət qaydasında alınacaq əşya, maddə və s., tədbirin keçirilməsi yeri, tədbirin keçirilməsinin hüquqi əsaslarını özündə ehtiva edən maddələr (Qanunun 7, 10-12-ci maddələri), tədbirdə şərti alıcı qismində iştirak edən şəxs və təhlükəsizlik tədbirləri haqqında məlumatlar və s.

Təcrübədə «nəzarət qaydasında mal alınmasının» keçirilməsi nəticəsində narkotik vasitəni, psixotrop maddəni və onların prekursorlarını satan şəxsin birbaşa yaxalanıb cinayət məsuliyyətinə cəlb edilməsi nəzərdə tutulmuşdursa, belə halda alıcı qismində əməliyyat işçisi çıxış edir və ya onun tapşırığı ilə belə tədbirdə iştirak etməyə razılıq verən (müqavilə əsasında) şəxs iştirak edir. Tədbirdə sonuncu iştirak edirsə, belə halda «ƏAF haqqında Qanunun 9-cu maddəsinin II hissəsi, 14-cü maddənin X hissəsi, 16-cı maddənin VII hissəsi, 17-ci maddənin II hissəsinin müddəalarının tələbləri rəhbər tutulmalıdır. Əgər alıcı qismində iştirak edən şəxs ƏAF subyektləri ilə məxfi əməkdaşlıq edirsə, bu halda «ƏAF haqqında» Qanunun 14-cü maddəsinin X hissəsinin tələbləri mütləq qaydada təmin edilməlidir, yəni həmin şəxs barəsində məlumatlar yalnız onun razılığı ilə qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda aşkarlana bilər. Əgər qeyd edilən şəxs belə aşkarlanmaya razılıq

verməsə, bu halda bu tədbirin gedişatı gizli həyata keçirilir və tədbirin keçirilməsi və nəticələrini əks etdirən əməliyyat-xidməti sənədlər əməliyyat-qeydiyyat işinə əlavə edilir.

**Qeyd edilən halda şərti alıcı (ƏAF-ın subyekti ilə əməkdaşlıq edən şəxs) tərəfindən alınan narkotik vasitənin saxlanması, zərurət olan hallarda bu tədbirin nəticələrinin sonradan cinayət prosesində istifadə edilməsi məsələləri, habelə alıcının statusundan asılı olmayaraq tədbirin bir neçə dəfə keçirilməsinin (əsas mənbəni, cinayətkar dəstənin üzvlərini, daşınma, göndərilmə kanallarını və s. məqsədlə) mümkünlüyü məsələləri normativ hüquqi aktlarda öz əksini tapmamışdır. *Qeyd edilən məsələlərin müvafiq normativ aktlarda təsbit edilməsi (xüsusilə də ƏN-də qeydiyyatdan keçmiş ƏAF subyektlərinin normativ aktlarında) sözsüz ki, cinayətkarlığa qarşı mübarizədə daha yüksək nəticələr əldə etməyə imkan verəcəkdir.***

**Mühüm məsələlərdən biri də ondan ibarətdir ki, mülki dövriyyəsi qadağan olunmuş, məhdudlaşdırılmış əşya, maddələrin, qaçaqmalçılığın predmeti olan əşya, maddə və s. nəzarət qaydasında mal alınmasında alıcı qismində əməliyyat işçisinin bilavasitə iştirak etməsinin mümkünlüyünə də milli qanunvericilikdə aydınlıq gətirilməmişdir.**

Bəzi hallarda bir sıra mütəxəssis və alimlər bu məsələlərdə hüquq tətbiqinin əsas prinsiplərindən olan "qanunvericilikdə nəyə qadağa qoyulmayıbsa, ona icazə verilir" prinsipinə əsaslanaraq, əvvəldə qeyd edilmiş məsələlərin həll edilmiş olduğunu etiraf edirlər. Belə halda onlar hüquq tətbiqinin digər əsas prinsiplərindən biri olan «qanunda nəyə icazə verilibsə, nə göstərilibsə, ona da icazə verilir» prinsipini nəzərdən qaçırırlar.

ƏAT-ın həyata keçirilməsi ƏAF subyektinin rəhbərliyinin nəzarəti altında həyata keçirilir («ƏAF haqqında» Qanunun 14-cü maddəsinin I hissəsi).

Bu tədbirin həyata keçirilməsində digər tədbirlərdə olduğu kimi, ƏAF subyektlərinin rəhbərləri onun təşkili və keçirilməsi zamanı qanunçuluğa əməl olunmasına nəzarət edirlər və buna görə fərdi məsuliyyət daşıyırlar («ƏAF haqqında» Qanunun 19-cu maddəsi).

Əməliyyat şəraitindən, tədbirin keçirilməsi ərəfəsində yaranmış əməliyyat vəziyyətindən (situasiyadan), cinayətkarın kriminal aləmdəki statusundan, tədbirin keçirilməsi nəzərdə tutulan və ehtimal olunan yer və vaxtın dəyişməsi ehtimalından və vaxt ehtiyatının olmasından və s. amillərdən asılı olaraq, tədbirin təşkili və keçirilməsi tərtib edilmiş plan əsasında həyata keçirilə bilər. Bu planda tədbirin keçirilməsinə cəlb edilmiş şəxslərin mövcud olması və yaranması ehtimal olunan vəziyyətlərdə hərəkətləri, təhlükəsizlik və konspirasiya tədbirləri, gizli rabitə üsulları, texniki vasitələrdən istifadə edilməsi və s. məsələlər öz əksini tapır.

**Bu tədbirin uğurlu təşkili və keçirilməsində cinayətdə şübhəli olan şəxslərin tədbirin sonunda cinayət məsuliyyətindən azad olmaq üçün irəli sürəcəkləri, ehtimal oluna bilən fərziyyələr nəzərə alınaraq, onların təkzib edilməsi imkanları araşdırılıb müəyyən edilməli və konkret əks tədbirlərin əvvəlcədən hazırlanması və tələb olunan hallarda tətbiq edilməsi təmin edilməlidir.**

Bir çox hallarda cinayətdə şübhəli olan şəxslər narkotik vasitəni, psixotrop maddəni və ya onların prekursorlarını alan şəxsin şərti alıcı qismində əməliyyat işçilərinin onları cinayət əməllərinə sövq etdirdiklərini bir “alibi” kimi ortaya qoyurlar[1].

---

[1] alibi – latınca “alibi” sözündən götürülüb “başqa yerdə” mənası daşıyır. Bir sıra dövlətlərin cinayət prosesində cinayətdə şübhəli (təqsirli) şəxsin cinayətin törədilməsində iştirak etməməsini və ya törədilmə yerində olmamasını istisna edən vəziyyəti əks etdirən halların mövcud olması (belə hallar qeyd edilən şəxslər tərəfindən əvvəlcədən

Tədbirin keçirilmə prosesindən əvvəl və onun gedişatı prosesində əvvəldə qeyd etdiyimiz şərait, vəziyyət və digər amillərdən asılı olaraq, şərti alıcı qismində iştirak edən şəxs tərəfindən informasiyanın əldə edilməsi üçün texniki vasitələrdən istifadə edilə bilər. Belə halda «ƏAF haqqında» Qanunun 10-cu maddəsinin VIII hissəsi, 13-cü maddəsinin III hissəsi, 14-cü maddəsinin IV hissəsinin müddəaları rəhbər tutulmalıdır.

Tədbirin keçirilməsi üçün səbəblərdən biri «ƏAF haqqında» Qanunun 11-ci maddəsinin 4-cü bəndində təsbit edilmiş normadır (ƏAF subyektlərinin bilavasitə əldə etdikləri məlumatlar). Belə məlumatlar narkotik vasitənin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərlə əməliyyat işçisinin (öz şəxsiyyətini, idarə mənsubiyyətini pərdələməklə) və ya onun tapşırığı ilə ƏAF subyektləri ilə məxfi əməkdaşlıq edən şəxsin yaratdığı etibarlı münasibətlər prosesində əldə edilir. Belə münasibətlərə isə əsasən, «ƏAF haqqında» Qanunun 10-cu maddəsinin I hissəsinin 16-cı bəndində təsbit edilmiş cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi əməliyyat-axtarış tədbiri nəticəsində nail olmaq mümkün olur. Bir çox hallarda qeyd edilən şəxslər nəzarət qaydasında mal alınması tədbirinin keçirilməsi prosesində şərti alıcı qismində iştirak edir.

Tədbirin keçirilməsi prosesində yuxarıda qeyd edilən amillərdən asılı olaraq zərurət olan hallarda qanunvericiliklə nəzərdə tutulmuş digər tədbirlərdən, xüsusən insanların güdülməsi, telefon danışıqlarına qulaq asma, vətəndaşların sorğusu, binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsindən və digər tədbirlərdən istifadə edilə bilər.

---

düşünülmüş, həqiqətdə olmayan, lakin cinayət təqibi orqanı tərəfindən təkzib edilməsinə zərurət olan ) mənasında başa düşülür. Bax. С.М.Локшина. Словарь Иностранных слов. М. ГИИНС, 1949; В.Ю.Голувовский «Оперативно-розыскная деятельность, словарь-справотник Изд. «Лан», Санкт-Петербург, 2001.

**Bizim tərəfimizdən aparılan tədqiqatların nəticələrinə əsasən belə nəticəyə gəlmək olar ki, nəzarət qaydasında mal alınması tədbirinin keçirilməsinə başlanana qədər və onun keçirilməsi prosesində digər ƏAT-ın tətbiqinin qanunvericilik və elmi əsasları, hüquq yaradıcılığı prinsiplərinin müasir təcrübənin, cinayətkarlığa qarşı mübarizə siyasətinin tələblərinə uyğun deyil və təkmilləşməlidir. Bu və digər problemlərin aradan qaldırılması ilə bağlı bizim təkliflərimiz vəsaitin son hissəsində verilən milli mənbələrdə və müəlliflərin elmi araşdırmalarında əhatə edilmişdir və apardığımız elmi araşdırmaların nəticələrinə əsaslanır.**

*Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarət qaydasında mal alınması tədbirlərinin həyata keçirilməsi ilə bağlı cinayət işləri üzrə materialların təhlili göstərir ki, onların təşkili və həyata keçirilməsi prosesində aparılan sənədləşdirmədə bir sıra ciddi nöqsanlara yol verilir. Qeyd edilənlər ilk növbədə bu istiqamətdə məsələlərə qanunvericilikdə kifayət qədər aydınlığın gətirilməməsi, bir sıra hüquq-mühafizə orqanlarının ƏAT-ın təşkili, həyata keçirilməsi, onların nəticələrinin rəsmiləşdirilməsi və cinayət prosesində istifadə edilməsinə dair Təlimatların (DGK istisna olmaqla) olmaması ilə əlaqədardır. Məhz bu nöqsanlar öz növbəsində ƏAT nəticəsində əldə olunmuş faktiki məlumatların cinayət təqibi prosesində sübut qismində istifadə edilməsində müəyyən problemlərin yaranmasına səbəb olur və bəzi hallarda isə cinayətdə şübhəli olan şəxslərin məsuliyyətdən azad olmasına gətirib çıxarır.*

*Apardığımız araşdırmaların nəticələrinə əsaslanaraq narkotik vasitələrin, psixotrop maddələrin, prekursorların və onların analoqlarının qanunsuz dövriyyəsinə qarşı mübarizədə bu tədbirin təşkili və həyata keçirilməsi prosesində tərtib olunması zəruri olan sənədlərə aşağıdakıları aid etmək olar və sənədləşmənin təcrübədə*

*qeyd olunacaq formada aparılması zəruriliyi elmi və praktiki baxımdan da düzgündür və məqsədəuyğundur:*

*- cinayət əlamətlərinin və cinayətdə şübhəli şəxslərin aşkar edilməsi haqqında əməliyyat işçisinin raportu və ya qeyd edilənlər barədə etimad doğuran, məlum və qərəzsiz mənbələrdən daxil olan məlumatları əks etdirən əməliyyat-xidməti sənədlər;*

*- nəzarət qaydasında mal alınmasına dair yazılı qərar (texniki vasitələrdən istifadə edilirsə, bu qərarda öz əksini tapmalıdır);*

*- hazırlanan, törədilən və ya törədilmiş cinayət barəsində daxil olan məlumat (şifahi ərizə protokolu və s.);*

*- tədbirdə istifadə ediləcək pul əskinazlarının təhvil-təslim və nişanlanması və həmin əskinazların kserosurətlərinin çıxarılması protokolu (aktı);*

*- tədbirdə gizli qaydada informasiya alınması üçün istifadə ediləcək xüsusi texniki vasitələrin təhvil-qəbul protokolu (aktı);*

*- alıcı qismində iştirak edən şəxs üzərində baxışın keçirilməsinə dair protokol (akt);*

*- nəzarət qaydasında mal alınmasının keçirilməsinə dair protokol (akt);*

*- pul əskinazlarının satıcıdan götürülməsinə dair protokol (akt);*

*- şərti alıcıdan malın, maddənin götürülməsi faktına dair protokol (akt);*

*- xüsusi texniki və digər texniki vasitələrin götürülməsi və baxışdan keçirilməsinə dair protokol (akt);*

*- tədbirin təşkili, keçirilməsi və nəticələrinə dair əməliyyat işçisinin raportu;*

*- toplanmış materialların aidiyyati üzrə istintaq orqanlarına verilməsinə dair qərar.*

Bəzi hallarda götürülmüş narkotik vasitənin nümunəsi ekspert-kriminalistik xidmətlərinə tədqiq üçün də göndərilə və onun nəticəsinə dair arayış alınaraq toplanmış materiallara əlavə edilə bilər.

«Nəzarət qaydasında mal alınması» tədbiri sona çatdırıldıqdan sonra istintaq orqanı ilə əməliyyat aparatlarının əməkdaşları cinayət faktı ilə bağlı narkotik vasitənin, psixotrop maddələrin və onların prekursorlarının saxlanılması ehtimal olunan yerlərdə axtarış istintaq hərəkətlərinin keçirilməsinin zəruriliyi məsələlərini təxirə salmadan, operativ qaydada nəzərdən keçirməlidirlər. Təcrübədə bu tədbirin təşkili, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsini əks etdirən sənədlərin məzmunu (rekvizitləri) CPM-də nəzərdə tutulmuş istintaq hərəkətlərinin rəsmiləşdirilməsi ilə bağlı müvafiq sənədlərə qismən oxşar olduğundan bir növ qanun analogiyası prinsipinə əsasən müəyyən edilir. **Bu və digər problemli məsələlərin də qanunvericiliklə xüsusi normalarda ehtiva edilməsini zəruri hesab edirik.**

# XV BÖLMƏ

## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ DÖVRİYYƏSİ İLƏ BAĞLI CİNAYƏTLƏRƏ QARŞI MÜBARİZƏDƏ ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ VƏTƏNDAŞLARIN İŞTİRAKI

Bir çox cinayətlərin ƏAF həyata keçirən orqan və bölmələrin iştirakı olmadan uğurla qarşısını almaq, açmaq və araşdırmaq mümkün deyil.

Təcrübə göstərir ki, cinayətkarların kriminal fəaliyyətinə qarşı kompleks, məqsədyönlü ƏAT və istintaq hərəkətləri istifadə edilməsə cəzasının labüdlüyünü təmin etmək mümkün olmaz. Bu mübarizənin təmin edilməsi üçün hüquq-mühafizə orqanları vətəndaşları əməkdaşlığa cəlb etməli, onların köməyindən aşkar və qeyri-aşkar formada istifadə edilməlidir. Bu halda məhz məxfi əməkdaşların, vətəndaşlarfın qeyri-aşkar yardımının istifadəsi bütün ƏAF-ın özəyini təşkil edir.

İ.Karpetsin qeyd etdiyi kimi, əməliyyatçılar nə qədər fəal, sayıq, diribaş, təhlil etmək, çevik və düzgün qərar qəbul etmək bacarığına malik olsalar da, cinayətkar qrupun daxilindən onlara yardım edən olmasa, onlar heç vaxt gizli, mütəşəkkil cinayətkar qrupların daxilində qurulan planlar barədə məlumatlı ola bilməzlər.[1]

Deyilənlər eyni ilə narkotiklərin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə də aiddir. Bu cinayətlər əksər hallarda mütəşəkkil qruplar tərəfindən törədilir, onların törədilməsi üçün ciddi hazırlıq aparılır. Onu törədən şəxsləri müəyyən

---

[1] И.Карпец. Сыск (записки начальника уголовного розыска). М. 1994, с. 183

etmək olduqca çətindir və belə cinayətlərin açılmasında ƏAF orqanları ilə əməkdaşlıq edən vətəndaşlar əvəzolunmaz yardım göstərirlər.

Hal-hazırda ƏAF-ı həyata keçirən orqanların vətəndaşlarla əməkdaşlıq məsələləri Azərbaycan Respublikasında bir sıra qanunlarla (qanunqüvvəli normativ aktlarla) tənzimlənir. Onlar arasında ən əsası 28 oktyabr 1999-cu il tarixli «ƏAF haqqında» Qanundur. ƏAF ilə bağlı vəzifələrin həllində belə yardımın mümkünlüyü «ƏAF haqqında» Qanunun 7-ci maddəsinin 2-ci bəndin, 9-cu maddəsinin II hissəsində və 17-ci maddəsində öz əksini tapıb. Qanunun 7-ci maddəsinə, 9-cu maddəsinin II hissəsinə əsasən, «ƏAF-ı həyata keçirən orqanların vəzifəli şəxsləri, vətəndaşların razılığı ilə gizli və aşkar əsaslarla onların köməyindən istifadə edə və Azərbaycan Respublikasının ərazisində olan hər bir şəxs əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə onların səlahiyyətlərinin yerinə yetirilməsində könüllülük əsasında kömək göstərə bilər». Heç kim ƏAF-da məcburi qaydada iştirak etməyə cəlb edilə bilməz. Qanunun 17-ci maddəsinin II hissəsində qeyd edilir ki, ƏAT-da şəxslərin könüllü iştirakı bağlanmış müqavilə əsasında keçirilə bilər. Zəruri hallarda əməkdaşlığa xüsusi elmi, texniki biliyi olan mütəxəssislər də cəlb oluna bilərlər.

**ƏAF-ı həyata keçirən orqanlara ayrı-ayrı vətəndaşların yardımının 2 növünü göstərmək olar:**

- birincisi, ƏAT-ın hazırlanmasına cəlb etmə;
- ikincisi, ƏAT-ın keçirilməsinə cəlb etmə (ƏAT-da bilavasitə iştirak).

Hər hansı halda «ƏAF haqqında» Qanunun 7-ci maddəsində göstərildiyi kimi, konfidensial əsaslarla yardım etməyə razılıq verən şəxslərlə əvəzli və ya əvəzsiz qaydada ƏAO-nun əməkdaşları əməkdaşlıq münasibətlərini qura bilərlər.

Əməkdaşlıq münasibətlərini «ƏAF haqqında» Qanunda qeyd olunmuş istisna hallardan başqa həm Azərbaycan Respublikasının

vətəndaşları ilə, həm də əcnəbi və vətəndaşlığı olmayan şəxslərlə qurmaq olar.

Nəzərə almaq lazımdır ki, ƏAO ilə vətəndaşların konfidensial əməkdaşlığının ayrılmaz şərti ƏAT-ın hazırlanması və keçirilməsi zamanı onlara bəlli olmuş informasiyanı gizli saxlamaq və düzgün leqalizə (realizə) olunmasıdır.

ƏAF orqanlarına yardım edən şəxsləri ƏAT-da iştirakı zamanı onların həyat və sağlamlığına, ətraf mühitə zərər yetirməyən texniki vasitələr, infomasiya sistemləri, audioyazı və video-foto-çəkiliş istifadə oluna bilər.

Ayrı-ayrı vətəndaşların yardımının istifadəsinə dair ən səciyyəvi misal kimi narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət törədən qruplaşmalara və ya kriminogen obyektlərə onların daxil edilməsini göstərmək olar.

«ƏAF haqqında» Qanunun 11-12-ci maddələrinə uyğun olaraq narkotik vasitə və psixotrop maddələrin nəzarət qaydasında alınması ƏAF-ı həyata keçirən orqanın rəhbəri tərəfindən təsdiq olunmuş qərar əsasında həyata keçirilə bilər. Bu halda bilavasitə mal alışını (müştəri qismində) həm əməliyyat işçisi, həm də ƏAF-ın subyektinə köməklik edən digər şəxslər həyata keçirə bilər. Nəzarət qaydasında mal alma prsesində bu ƏAT-ın gedişatını qeydə alan xüsusi texniki vasitələrdən istifadə oluna bilər.

Nəzarət qaydasında mal almanın nəticələri raport, arayış və tədbirdə iştirak edən vətəndaşların yazılı izahatları ilə sənədləşdirilir. Bu tədbirə aid tərtib olunan sənədlərə tədbirin keçirilməsi prosesində çəkilmiş audio-video yazılar əlavə olunur.

Nəzarət qaydasında mal alma narkotik vasitə, psixotrop və güclü təsirli maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin cinayət başında yaxalanması ilə müşayiət oluna bilər. Bu halda iş başında ələ keçirmə AR CPM-in 208-ci maddəsi ilə cinayət işinin başlanması üçün əsas kimi baxılır, ƏAT-ın iştirakçıları isə gələcəkdə cinayət işi üzrə şahid kimi dindirilir.

Narkotik vasitə və psixotrop maddələrin satışı ilə məşğul olan şəxsin iş başında yaxalanması yolu ilə əməliyyat materiallarının reallaşdırılması barədə qərar qəbul edildikdə, bu tədbirin həyata keçirilməsinə əməliyyat aparatına aşkar əsaslarla yardım edən şəxslər cəlb edilir.

**ƏAT-ın təşkili və keçirilməsinə ciddi hazırlıq aparılmalıdır. Ona hazırlıq prosesində aşağıdakılar tövsiyə edilir:**

1. Narkotik vasitə, psixotrop və ya güclü təsirli maddələrin alışı üçün göndərilən şəxsə verilməli əsginasların hal şahidləri qarşısında nömrələrinin yazıb götürülməsi və ya imkan varsa, xüsusi vasitələrlə nişanlanması barədə akt tərtib edilir (protokol) və burada əsginasların kim tərəfindən, kimə, hansı məqsədlə verilməsi, hansı vasitə ilə nişanlanması və bunun yoxlanması üsulu göstərilir.

2. ƏAT-a cəlb edilmiş şəxsin (alıcının) narkotik vasitə və psixotrop maddələrin satıcısı ilə arasında danışıqların qeydə alınması üçün alıcının diktofonla təmin edilməsi (maqnitofonla radiomikrofonla). Belə vasitələrin tətbiqi barədə də hal şahidlərinin iştirakı ilə akt tərtib edilir, həmin texniki vasitənin xarakteri, nömrəsi göstərilir. Audiokasetin əvvəlində həmçinin harada, kim tərəfindən, kimə və hansı məqsədlə müvafiq texnikanın verilməsi barədə informasiyanı yerləşdirmək, aktın (protokolun) tərtib edilməsində iştirak etmiş şəxslərin adlarını göstərmək də tövsiyə edilir. Bu məqam həmçinin aktda da əks olunur.

3. Qarşıda keçirilməli olan nəzarət qaydasında mal almanın amillərindən asılı olaraq tədbirlərdə iştirak edəcək şəxsin də baxışdan keçirilməsi tələb oluna bilər, çünki həmin şəxsin üzərində tədbirə yollanarkən, heç bir narkotik vasitə və ya psixotrop maddə olmamalıdır. Müvafiq olaraq bu fakt da tərtib olunan protokolda əks olunur.

4. Mümkün olduqca alıcı ilə narkotik vasitə satıcısı arasında baş tutan görüşün müşahidə yolu ilə fotoçəkilişi və ya videoyazısının həyata keçirilməsi məsləhətdir. Sonradan ƏAT-ın keçiril-

məsi vaxtı, yeri və iştirak edən şəxslər barədə, istifadə edilmiş texniki vasitələr, alıcı ilə narkotik vasitə və psixotrop maddələrin satıcısının görüşünün gedişatı, malın ötürülməsi, saxlanılmış qrupun hərəkətləri barədə akt tərtib edilir.

5. Satıcı saxlandıqdan sonra onun və alıcının üzərində baxış keçirilir, aşkar olunan əsginaslar qabaqcadan nişanlanıbsa, müvafiq qaydada yoxlanılır, narkotik vasitə və ya psixotrop maddələrin mövcudluğu, onların qablaşdırılması yoxlanılır. Bu halda pullar, göstərilən maddələr, qanunsuz əməli təsdiq edən digər əşyalar götürülür, qablaşdırılır, hal şahidlərinin və satıcının özünün (razıdırsa) imzası ilə təsdiq edilir. Sonra hal şahidlərinin qarşısında ƏAT-ın keçirilməsində istifadə edilmiş texniki vasitələr baxışdan keçirilir və götürülür. Yekun protokolun tərtib edilməsi prosesində iştirakçılara onların vəzifələri izah olunur.

6. ƏAT-ın bütün iştirakçılarından, hal şahidlərindən, həmçinin saxlanmış şəxslərdən izahat alınır.

Əlbəttə ki, hərəkətlərin belə ardıcıllığı o halda həyata keçirilə bilər ki, tədbirin ayrı-ayrı iştirakçıları aşkar əsaslarla əməkdaşlığa cəlb edilsin, sonra onların şəxsiyyəti açıqlansın və cinayət işi üzrə şahid kimi çıxış edə bilsinlər.

Əgər şəxs gizli əsaslarla yardım göstərirsə, açıqlanan sxemlə nəzarət qaydasında mal almada onun iştirakı istisna edilir. Bu halda satıcıdan narkotik vasitə, psixotrop maddə və güclü təsirli maddələrin olmasını yoxlamaq üçün həmin maddələr kiçik miqdarda (şəxsi istehlak miqdarında) alına bilər və yaxud elə şərait yaradılmalıdır ki, satıcı həmin narkotik vasitə və psixotrop maddələrin qanunsuz saxlanması və ya daşınmasına görə ifşa edilsin, konkret şəxsin əməliyyat-axtarış orqanına məxfi yardım etməsi faktı isə gizli qalsın. Bu məsələlərin hüquqi tənzimlənməsində bir sıra problemlər mövcuddur və onların həlli hüquqi müstəvidə mümkündür. **Bu münasibətlərin qanunvericilikdə təsbit edilməsi cinayətkarlığa qarşı mübarizədə mühüm əhəmiyyətə malikdir.**

**Beləliklə, nəzarət qaydasında mal alınmanın 2 növü seçilir:**

- şifrələnmiş formada nəzarət qaydasında mal alınması (bu halda alqı-satqının süni qurulması güman edilir, bundan sonra tədbirin keçirilməsi faktını satıcıya ƏAT-ı keçirən şəxslər elan edir);
- qeyri-aşkar formada nəzarət qaydasında mal alma (bu halda ƏAT-ın keçirilməsi faktının satıcıdan gizlədilməsi güman edilir).

Əməliyyat-axtarış orqanlarına gizli və aşkar yardım göstərən şəxslərin iştirakı ilə həm də müqayisəli tədqiqat üçün nümunələrin toplanması kimi ƏAT-ı həyata keçirə bilər.

Bu halda müqayisəli tədqiq üçün nümunə kimi maddi obyektləri – narkotik vasitələri, psixotrop və güclü təsirli maddələri, konkret şəxslərin narkotik vasitələrin qanunsuz dövriyyəsində aidiyyatının olmasını müəyyən etməyə imkan verən əşya və sənədləri hesab etmək lazımdır.

Müqayisəli tədqiq üçün nümunələr narkotik vasitə, psixotrop maddələri verən (satan) şəxsdən aşkar formada götürülür və o, konkret şəxs tərəfindən həmin maddə və ya vasitələrin əldə edilməsi barədə agah olur. Təbii ki, ƏAT-ın keçirilməsi zamanı maddələrin belə götürülməsi şifrələnmiş formada həyata keçirilir, yəni uydurulmuş bəhanə altında və nümunələrin əldə edilməsinin əsl məqsədi yoxlanılan şəxsdən gizlin saxlanılır.

Nümunələrin qeyri-aşkar əldə edilməsi faktı tədqiq olunan şəxsdən gizli saxlanılır.

Müqayisəli tədqiq üçün nümunələrin götürülməsi haqqında ƏAF orqanının vəzifəli şəxsi akt və ya arayış tərtib edir və burada nümunələrin nə vaxt, harada, kimdən götürülməsi, icra olunmuş hərəkətlərin məzmunu, götürülən obyektin əlamətləri, qablaşdırma haqqında məlumatlar öz əksini tapır.

Əgər yardım edən şəxs məxfi əsaslarla tədbirdə iştirak edibsə, onda ümumi qayda ilə onun adının açıqlanması istisna edilir.

Müqayisəli tədqiq üçün nümunələrin götürülməsi haqqında sənədlər əməliyyat qeydiyyat işinin materiallarına əlavə edilməlidir. Onlar əşya və sənədlərin tədqiqi (müayinəsi) zamanı istifadə oluna bilər.

Müqayisəli tədqiq üçün nümunələrin əldə edilməsi tədqiq olunan şəxsdə narkotik vasitələrin və ya psixotrop maddələrin olmasını təsdiq etməyə və cinayət başında onun yaxalanmasını təşkil edərək, məsuliyyətə cəlb olunmasına imkan verir.

Əməliyyat eksperimenti ƏAT-nin tətbiqi zamanı da ayrı-ayrı vətəndaşların yardımından istifadə etmək mümkündür.

Bu halda nəzərə almaq lazımdır ki, əməliyyat eksperimenti cinayətin ağırlıq dərəcəsindən asılı olmayaraq onların aşkar edilməsi, qarşısının alınması və açılması məqsədilə həyata keçirilə bilər.

ƏAT kimi əməliyyat eksperimenti qanunazidd fəaliyyətlə (o cümlədən, narkotik vasitə, psixotrop və güclü təsirli maddələrin qanunsuz dövriyyəsi ilə) məşğul olan şəxslərin cinayətkar niyyətlərinin büruzə verilməsi məqsədilə əlverişli şəraitin yaradılması yolu ilə informasiyanın əldə edilməsi üsuludur.

Əməliyyat eksperimenti digər ƏAT-la yanaşı keçirilə bilər. **Məsələn, nəzarət qaydasında mal alınması, müşahidə, mənzil, tikili, bina, torpaq sahəsi və nəqliyyat vasitələrinin baxışı, poçt göndərişləri, teleqraf və digər məlumatların yoxlanması, telefon danışıqlarının izlənməsi və s.**

Əməliyyat eksperimenti həm narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsinə aidiyyatı olan konkret şəxslər barəsində, həm də göstərilən xarakterli qanunsuz hərəkətlər törədən naməlum şəxslərin aşkar edilməsi üçün aparıla bilər.

Bu halda niyyətində qanunsuz hərəkət olmayan şəxsləri bu cür əməlləri törətməyə sövq etmək yolverilməzdir, yəni təhrikə və provakasiyaya yol vermək olmaz.

Hüquqi ədəbiyyatda haqlı olaraq göstərilir ki, bu kimi tədbirlərdə vətəndaşların iştirakının müəyyən səmərəsi o halda mümkün-

dür ki, onların hərəkətləri əməliyyat marağı kəsb edən şəxslərdən şifrələnmiş (gizli) keçirilsin. Buna görə də ƏAT-da iştirak üçün etibarlı köməkçilər, tədbirin hazırlığı və keçirilməsini sirr kimi saxlaya bilən şəxslər seçilməlidir.

Narkotik vasitə, psixotrop və güclü təsiredici maddələrin qanunsuz dövriyyəsi sahəsində cinayətlərin aşkar edilməsi, açılması və onları törədən, törətmiş şəxslərin ifşa edilməsi üzrə ƏAF orqanlarının əməliyyat bölmələrinə ayrı-ayrı şəxslərin yardım etməsi həmin orqanların qarşısında duran vəzifələri səmərəli həll etməyə imkan verir.

Belə ki, ayrı-ayrı şəxslərin DİO və GO-nun əməliyyat aparatlarının işinə könüllü olaraq (o cümlədən məxfi əməkdaşlığa) cəlb edilməsi konkret ərazidə (məsələn, narkotik satılan yerlərdə) əməliyyat şəraiti barədə əlavə və daha geniş (ətraflı) informasiya əldə etməyə yardım edir. Vətəndaşların yardımı tədqiq edilən şəxslərin cinayətkar əlaqələri barədə, onlar tərəfindən cinayətlərin hazırlanması və ya törədilməsi haqqında məlumat əldə etməyə imkan verir.

Belə yardımdan bəhrələnmə HMO-ın əməliyyat aparatlarında geniş yayılmışdır. Bu yalnız bizim deyil, bütün dünya miqyasında polis təcrübəsi üçün səciyyəvidir, çünki məxfi köməkçilər (konfidentlər) institutu istifadə olunmadan törədilən cinayətlərin üstünü açmaq bəzən qeyri-mümkün olur.

Sadalananları nəzərə almaqla, bir sıra müəlliflər məxfi əməkdaşlara və digər informasiya mənbələrindən istifadə edilməsini hüquq-mühafizə orqanlarının fəaliyyətinin əsas prinsiplərindən biri kimi hesab edirlər.

ƏAF-ı həyata keçirən orqanlarla vətəndaşların konfidensial əməkdaşlığının təşkilati və taktiki aspektləri həmin orqanların idarə normativ aktları ilə müəyyən edilir.

Bədii ədəbiyyatlarda o cümlədən, “detektiv”[1] janrı istiqamətində yazılan kitablarda, kriminal[2] silsilədən olan videofilmlərdə və son illərdə MDB-yə üzv olan və digər xarici dövlətlərdə nəşr edilmiş rəsmi elmi-nəzəri, hüquq və təcrübi bilikləri əhatə edən ədəbiyyatlarda, habelə “ƏAF haqqında” Qanunun özündə, ƏAT-in həyata keçirilməsində vətəndaşların məxfi əməkdaşlığa cəlb edilməsinin bir sıra təşkili və taktiki aspektləri (bir çox hallarda məxfi hesab edilən) açıqlanır. İnkişaf etmiş xarici dövlətlərdə bu məsələlər daha geniş əhatə edilir. Bütün bunların əsas səbəbi “Dövlət sirri haqqında” və “ƏAF haqqında” Qanunun tam, konkret məzmunla əhatə edilən rəsmi şərhinin olmaması, keçmiş SSRİ dövlətlərində olan məxfilik xofunun bu gün mövcud olması, bir sıra mütəxəssis və alimlərin ƏAF-da dövlət sirrinin predmetinə dair tam və dərin biliklərinin olmamasıdır. Məhz ona görə də dövlət sirri ilə əlaqəli olan şəxslərin onun mahiyyətini, hüququ əsaslarının şərhinin dərindən dərk etməsi dövlətimizin təhlükəsizliyinin təmin edilməsi üçün çox mühüm həyat əhəmiyyətli məsələdir. Müasir dövrdə “Dövlət sirri haqqında” Qanunun təkmilləşdirilməsinə və şərhinə böyük ehtiyac duyulur. Ölkə prezidentinin 2014-cü ildə imzaladığı sərəncam da qeyd edilən məsələlərin həllinə xidmət edir.

---

[1] detektiv – ingiliscə “detective”, latınca “detektiv” sözlərindən götürülüb açılma mənası daşıyır. Bir sıra ölkələrdə fərdi axtarış fəaliyyəti ilə məşğul olmağa icazə verilmiş (lisenziya verilmiş) şəxs kimi də başa düşülür.

[2] kriminal – latınca – “criminalis” sözü olub, cinayət mənasında başa düşülür. Bax. əvvəlki səh. С.М.Лапшина.

## XVI BÖLMƏ
## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ DÖVRİYYƏSİ İLƏ BAĞLI CİNAYƏTLƏR ÜZRƏ HƏYATA KEÇİRİLƏN ARAŞDIRMALARIN ÜMUMİ PROQRAMI

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsir edən və zəhərli maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin ibtidai istintaqının nəzəri və praktiki əsaslarına müvafiq olaraq, habelə milli qanunvericiliyin, o cümlədən cinayət-prosessual məcəlləsinin tələbləri rəhbər tutulmaqla ibtidai istintaqın ümumi proqramının aşağıdakı vəzifələri müəyyən edilmişdir:

1. Cinayətin törədilməsi və gizlədilməsi üsulunun sübut edilməsi.
2. Bütün cinayət əməllərinin törədilməsinin yerinin və vaxtının müəyyən edilməsi.
3. Qeyd edilən vasitə və maddələrin adının, növünün, miqdarının, alış və satış qiymətinin, gəlirin həcminin müəyyən edilməsi.
4. Onların mənşəyinin, daxil olma kanallarının, emalı və hazırlanması üsullarının müəyyən edilməsi.
5. Onların daxilə gətirilməsi və daşınmasının digər kanallarının gizlədilməsi üsulları, istehlak yerləri və üsullarının müəyyən edilməsi.
6. Cinayətkar qrupun üzvlərinin cinayət əməllərinin sübut edilməsi və onların cinayətlərdə rolunun müəyyən edilməsi.
7. Cinayətkar qrupun üzvlərinin davranışının motiv və məqsədinin (o cümlədən satış məqsədi) müəyyən edilməsi.
8. Cinayətin bütün iştirakçıların müdafiə fərziyyələrinin ibtidai araşdırmanın keçirilməsi prosesində yoxlanılması.
9. Onların qeyd edilən vasitə və maddələri istehlak edib – etməməsi, qeydiyyatda olub olmaması, əvvəllər bu növ cinayətlərdə iştirakının müəyyən edilməsi.

10. İstintaq materialların vəı əldə edilən əməliyyat məlumatlarını, xüsusi ilə də onların transmilli səciyyə daşıyan cinayətlərə aid olmasını, nəzərə alaraq İnterpolun (DİN-in, MMB-nin imkanlarından) istifadə edilməsi məsələlərinin həlli;

11. Cinayət əməli nəticəsində vurulan ziyanın xarakteri və həcmi, habelə digər zərərin müəyyən edilməsi.

12. Cinayətlərin törədilmə səbəb və şəraitinin müəyyən edilməsi.

13. İbtidai istintaqı aparılan cinayətlə əlaqəsi olan və olmayan digər cinayətlərin törədilməsi faktlarının və s. müəyyən edilməsi.

**Qeyd: Bu gün mühüm problemlərdən biri ondan ibarətdir ki, əsas etibarı ilə bu növ cinayətlərin əksər hissələri üzrə vurulan maddi və mənəvi zərər istintaq materiallarında və məhkəmə hökmlərində öz əksini tapmır.**

**Məsələn, vurulan ziyanın ölçüsü tiryəkxanada, əxlaqsız yuvada narkotikdən istifadə edən narkomanların sayı, cinayətdə ittiham olunan şəxsin buraxdığı iş günləri, onun müalicəsinə sərf olunan xərclər ilə, yetkinlik yaşına çatmayanları və digər şəxsləri narkotik vasitələrin istehlakına cəlb edilməsi və bu halda onların yaxınlarında yaranan müxtəlif sarsıntı, xəstəlik və digər fəsadlara və s. görə müəyyən edilə bilər. Sözsüz ki, qeyd edilən məsələlərin həllində bir çox mübahisəli məsələlər və problemlər mövcuddur və onların hüquqi müstəvidə həll edilməsi vacibdr.**

### *Şəxsin narkotik vasitələr, psixotrop maddələrlə tutulduğu vəziyyətdə ibtidai istintaqın xüsusi (fərdi) proqramı*

Təcrübədə belə vəziyyətlərə daha çox rast gəlir. Qeyd edilən vəziyyətlərdə aşağıdakı hərəkətlərdən ibarət (alqoritm) xüsusi (fərdi) proqram tətbiq edilir.

1. Cinayətdə şübhəli olan şəxsin tutulması və onun şəxsi axtarışı.
2. Qeyd edilən vasitə və maddələrin çəkisinin müəyyənləşdirilməsi, onların qablaşdırıldığı obyektlərin hazırlanması və istehlakı üçün istifadə edilən avadanlıq (o cümlədən məişətdə olan), ləvazimatların baxışı.
3. Şəraitdən asılı olaraq şəxsin (şəxslərin) narkotik sərxoşluq vəziyyətinin müəyyən edilməsi və qeyd edilən vasitə və maddələrlə təmasda olması ilə bağlı məsələləri müəyyən etmək məqsədi ilə müəyyən nümunələrin götürülməsi: dodaq və ağız suyunun, qanın, sidiyin, tüpürcəyin, ovucun yuyuntusu və yaxmasının, dırnaq altı hissəciklərin və dırnaq kəsintilərinin nümunələrinin.
4. Narkoloji müayinə.
5. Axtarışlar: yaşayış yerlərində, nəqliyyat vasitələrində, iş yerində, evdə və digər şəxslərdə.
6. Qeyd edilən vasitə və maddələrin ekspertizası.
7. Tutulan şəxsin dindirilməsi.
8. Narkoloji ekspertizanın təyin edilməsi.
9. Hadisə yerinə baxış (tutulan şəxsin iştirakı ilə də aparıla bilər).
10. Şahidlərin dindirilməsi (o cümlədən tədbirdə, əməliyyatda iştirak edən əməkdaşların)
11. Poçt, teleqraf göndərişlərinin üzərinə həbs qoyulması, telefon və digər qurğularla aparılan danışıqların rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və başqa məlumatların ələ keçirilməsi.

12. Yaşayış, iş yeri və səhiyyə orqanları (narkoloji dispanser və s.) üzrə sorğular.

13. cinayətin iştirakçılarının, qeyd edilən vasitə və maddələrin daxil olma, çıxış və satış kanallarının və istintaq üçün vacib olan digər məsələlərin müəyyən edilməsi məqsədi ilə fəal və təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair tapşırığın verilməsi.

**Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə, o cümlədən qaçaqmalçılığa qarşı mübarizədə bu cinayətlərə aidiyyatı olan şəxslərin, o cümlədən törədilməsində şübhəli, təqsirli olan şəxslərlə bağlı həyata keçirilən, istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirlərində ilk növbədə bu kateqoriyadan olan şəxslər tərəfindən irəli sürülən fərziyyələri (alibiləri) nəzərə almaq lazımdır:**

– *narkotik vasitə və psixotrop maddələri naməlum şəxs, o cümlədən hüquq mühafizə orqanının əməkdaşı tərəfindən mənim maşınıma, mənzilimə, həyatimə və s. yerə atılmışdır, cibimə qoyulmuşdur;*

– *narkotik vasitə və psixotrop maddə qablaşdırılmış əşya, predmeti tapmışam və orada nə olduğunu yoxlamağa macal tapmamış yaxalandım;*

– *qeyd edilənləri tapdım və polisə təhvil vermək üçün gedirdim (bəzi hallarda şəxsdə onun tərəfindən polis orqanına tapıntı barədə tərtib edilmiş ərizə olur);*

– *məndə aşkar edilənləri birinci dəfə görürəm;*

– *məndən bir nəfər xahiş etdi ki, onu saxlayım və 3-5 dəqiqədən sonra qayıdıb götürəcəyəm (müxtəlif reallığa müvafiq səbəblər göstərməklə);*

– *narkotik vasitəni və psixotrop maddəni özüm istehlak etmək üçün bir şəxsdən almışam (əksər hallarda uydurulmuş adı deyilir və əlamətləri təsvir edilir);*

– *toxumları əkmək üçün deyil, heyvanları, quşları yemləmək üçün almışam;*

*– qeyd edilənləri müalicəvi vasitə kimi almışam (müxtəlif xəstəliklərin adlarını çəkir);*

*– narkotik vasitə, psixotrop maddə yerləşdirilmiş əşyanı mənə xarici dövlətin vətəndaşı verdi ki, sərhədi keçəndən sonra "N" adlı bir şəxsə verim. O dedi ki, həmin əşyada qənnadı məmulatlar var;*

*– sərnişin avtobusunun sürücüsü yük hissəsində olan narkotik vasitə, psixotrop maddə olan əşyanın kimə məxsus olduğunu bilmir;*

*– içərisində narkotik vasitə (psixotrop maddə) poçt göndərişini alan şəxs göndərişi imzalayan şəxsi tanımadığını bildirir;*

*– göndərilən əşyanın daxilində narkotik vasitənin (psixotrop maddənin) olduğunu bilmir və onu müəyyən edilmiş vaxt və yerdə "N" adlı şəxs ondan götürəcəkdir;*

**Narkotik vasitə, psixotrop maddə ilə tutulan şəxslə aparılan, dindirmə və sorğu prosesində aşağıdakı mənbələr və məlumatlar müəyyən edilməlidir:**

- tutulan, yoxlanılan, tədqiq edilən şəxsin şəxsiyyət-psixoloji xüsusiyyətləri, cinayətkar aləmə aidiyyatı və əlaqələri;
- qeyd edilən vasitə və maddələri kimdən, harada, nə vaxt və hansı şəraitdə və şərtlə əldə etmişdir;
- hansı məqsədlə əldə etmişdir: özü tərəfindən istehlak üçün, başqa şəxsə vermək və ya satmaq üçün;
- hansı əlamətlərə görə, kimin vasitəsi ilə qeyd edilən vasitə və maddələri satan şəxsi tapmışdır;
- satan şəxsi əvvəllər tanıması, əgər tanış idisə, belə halda hansı şəraitdə tanış olmuşdur, ondan neçə dəfə narkotik vasitə, psixotrop maddə almışdır. Satan şəxsin məşğuliyyəti, peşəsi, adı, soyadı, ləqəbi, xarici əlamətləri, əlaqələri, vaxt keçirdiyi yerlər və s.;
- bu dəfə hansı miqdarda almışdır, "mal" hansı qablaşdırılmış şəkildə satılır, onun xarakterik cəhətləri;
- narkotik və psixotrop maddələri satan haradan, kimdən və hansı miqdarda və qiymətə, hansı əsginaslarla hesablaşır;

- narkotik və psixotrop maddələrin əldə edilməsi prosesi necə keçir;
- qeyd edilən narkotik vasitəni və psixotrop maddəni alan şəxslərdən kimi tanıyır;
- tutulan halla bağlı qeyd edilən vasitə və maddələri satandan hansı gizli üsulla alır, onların alınmasının başqa üsullarını da bilirmi və bu üsullardan istifadə edə bilirmi;
- satandan daha hansı vasitə və maddələri almaq olar, satışla məşğul olan onları kimdən, hansı yolla, haradan alır və daha kimlərə satır;
- qeyd edilən vasitə və maddələrin satışı ilə məşğul olan digər şəxsləri tanıyırmı, bu vasitə və maddələrin daxilolma, daşınma və satış kanallarına dair məlumatlara malikdirmi;
- narkotik vasitə və psixotrop maddələrin satılmayan, istifadə edilməyən hissəsi harada saxlanılır;
- satışla məşğul olan şəxs qeyd edilən vasitə və maddələrin əldə edilməsi üçün pul vəsaitlərini hansı mənbədən əldə edir və s.

**Narkotik vasitə, psixotrop maddələrin saxlanılması, daşınması və göndərilməsi ilə məşğul olan şəxslə aparılan dindirmənin və sorğunun planına daxildir:**

- *kim, nə vaxt, hansı şəraitdə narkotik vasitə və psixotrop maddəni saxlamağa (daşımağa. göndərməyə) vermişdir;*
- *əldə etdiyi və saxlamağa verilən qeyd edilən vasitə və maddələri o hansı müddət ərzində saxlayır;*
- *onları harada, hansı yerlərdə, necə qablaşdırılmaqla saxlayırdı;*
- *onların maskalanması və gizlədilməsi üsullarından istifadə etmişdirmi, etmişdirsə onlar hansılardır;*
- *qeyd edilən vasitə və maddələri kimə, hansı şəraitdə və nə vaxt verilməsi nəzərdə tutulmuşdur;*
- *onların verilməsi, ötürülməsi, daşınması hansı qaydada həyata keşirilməli idi (onların dalınca gəlməli idilər, ötürülmə, verilmə müəyyən edilmiş yerdə olmalı və ya gizlədilməli idi və s.)*

- *onlar necə daşınır və göndərilirdi, hansı nəqliyyat və s. vasitələrindən, poçt göndərişlərindən, qablaşdırmadan istifadə edilirdi;*
- *onların daşınması hansı vaxtlarda və tezliklərdə baş verirdi, digər şəxslər də bu işdə iştirak edirdimi, hansı poçt bölmələrindən, hansı ünvanlara daşınır və göndərilirdi və göndərənin və təyinatı nəzərdə tutulanın ünvanı və şəxsiyyəti barədə məlumatlar bu prosesdə düzgün göstərilirdimi, digər şəxslərin sənədlərindən istifadə edilirdimi;*
- *qablaşdırılma materiallarında və sənədlərdə qeydlər kimin tərəfindən edilirdi, kimin göstərişi, xahişi ilə daşınma və göndərilmə həyata keçirilirdi;*
- *göndərilməni təsdiq edən sənədlər saxlanılıbdırsa, onlar haradadır;*

**Narkotik vasitələrin, psixotrop maddələrin satışı ilə məşğul olan şəxsin dindirilməsi və sorğusu prosesində aşağıdakı məsələlər müəyyən edilməlidir:**

*hansı miqdarda narkotik vasitə, psixotrop maddəni satmaq mümkün olmuşdur, onların realizə edilməmiş hissəsi harada saxlanılır;*

*onların satışı hansı qaydada həyata keçirilir, (satışın özü və digər şəxslər tərəfindən həyata keçirilməsi, kimlərin, harada az və ya çox miqdarda satması və s.);*

*o şəxsləri tanıyırmı və əksinə onlar onu tanıyırmı, alıcılar onu tanımırsa, alqı-satqı prosesi necə baş verir;*

*narkotik vasitəni və psixotrop maddələri hansı qiymətə satmağı planlaşdırılırdı, əvvəllər hansı qiymətə satırdı;*

*onları qablaşdırırdımı, belə halda hansı üsullar, cihaz və alətlərdən istifadə edirdi;*

*narkotik vasitəni, psixotrop maddəni satmaq məqsədi ilə harada, hansı şəraitdə, necə əldə edirdi və bu zaman kim iştirak edirdi;*

*onları saxlama kameraları vasitəsi ilə alırdısa, onlar harada yerləşir və onların şifrələrini necə bilirdi, onların və şifrələrin seçmə sistemi mövcuddurmu;*

*əgər onları ictimai yerlərdə alırdısa, həmin yerlər, necə seçilirdi, harada müəyyən edilirdi, hansı qablaşdırma növlərində və şərti işarələrlə alırdı;*

**Əgər satışla məşğul olanlar bir neçə nəfər daxil olan qrupdan ibarətdirsə, belə halda əlavə olaraq müəyyən edilir:**

*nə vaxt, harada və kim tərəfindən bu qrup yaradılıb, ona kim rəhbərlik edir, qrupun üzvləri biri-birini tanıyırmı;*

*bu qrupun üzvləri hansı rolu oynayır, bu qrupun üzvlərinə hüquq mühafizə orqanlarından, dövlət hakimiyyət və digər orqanlarından himayədarlıq edən varmı, varsa onlar kimdir;*

*qrup üzvləri arasında əlaqə necə saxlanılır, onlar tapşırıq və göstərişləri necə alır, bu məqsədlə kompüter, mobil telefon və digər texniki vasitələrdən, poçt rabitəsi və teleqrafdan istifadə edilirmi;*

*bu qrupun üzvləri hansı maskalanma və pərdələnmə üsullarından istifadə edirlər;*

**Narkotik vasitələr və psixotrop maddələrin hazırlanması ilə məşğul olan şəxslərin dindirilməsi və sorğusu prosesində aşağıdakı məsələlər müəyyən edilir:**

*narkotik vasitə və psixotrop maddələrin hazırlanmasında hansı xammaldan, prekursorlardan istifadə etmişdir;*

*xammalı, prekursorları haradan, kimdən, nə vaxt əldə edirdi (kimdən alırdı, yığırdı, yetişdirirdi və s.);*

*nə vaxt, harada, kimin köməyi və hansı üsulla narkotik vasitələri, psixotrop maddələri hazırlayırdı və bunun üçün hansı ləvazimat, cihaz, alət, həllediciləndən, kimyəvi prekursorlardan (kimyəvi maddələrdən) və s. istifadə edirdi və sonuncuları necə əldə edirdi;*

*hazırlanan və qeyd edilən vasitə və maddələri necə qablaşdırdı;*

*narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması prosesini necə öyrənmişdir;*

*narkotik vasitə və psixotrop maddəni kimlə hazırlayırdı, bu barədə daha kimlər bilir, hansı miqdarda, hansı növ narkotik vasitə və psixotrop maddə hazırlayırdı;*

*onları hansı vaxtlarda və neçə dəfə hazırlamışdır;*

*hansı məqsəd üçün hazırlayırdı;*

*narkotik vasitəni hansı istiqamətlərdə, kanallarla, kimlərə, harada, günün hansı vaxtlarında, hansı maskalanma və üsullardan istifadə etməklə xırıd edirdi;*

*hal-hazırda hazırlanmış narkotik vasitə və psixotrop maddələrin qalığı, onların tullantıları və hazırlanması üçün istifadə edilən ləvazimat, alət və avadanlıqlar haradadır;*

*özü narkotik vasitə və psixotrop maddə istehlak (qəbul) edirmi, edirsə onun hansı növü və gündəlik normasını, kimlə, harada və hansı üsulla qəbul edir;*

*qeyd edilən vasitə və maddəni affekt halı üçün kimə təklif etmiş, vermiş, bağışlamış və s., onları istehlak edən şəxslərdən kimləri tanıyır;*

*qeyd edilən vasitə və maddələri mütəmadi olaraq qəbul edən şəxslərdən kimi tanıyır, onları istehlak məqsədilə istifadəçilərin toplaşdığı yerlər hansılardır;*

*səhiyyə orqanlarında (psixonevroloji, narkoloji, dəri-zöhrəvi dispanser və s.) uçotdadırmı, tibbi müalicə almışdırmı, nəticələri necədir.*

Yuxarıda göstərilən bütün hallarda şəxsin, kriminal aləmə məxsus olmasından, şəxsiyyət-psixoloji xüsusiyyətlərindən, mövcud əməliyyat şəraiti vəziyyətindən, keçirilmiş əməliyyat-axtarış tədbirlərinin nəticələrindən asılı olaraq, habelə dindirmə və sorğu prosesində həmin şəxslə yaranmış ünsiyyətin səviyyəsini nəzərə alaraq onu Cinayət Məcəlləsinin 59.1.9. və 234-cü maddələrinin qeyd hissəsinin müddəaları ilə tanış etmək və onlara mahiyyətini izah etmək olar.

Narkotik sərxoşluq və "aclığı" vəziyyətində olan şəxsin, narkomanın dindirilməsi və sorğusu müəyyən çətinliklərlə bağlıdır, belə hallarda onlardan alınan məlumatlar daha çox təhrif oluna

bilər. Bu vəziyyətdə onun qeyd edilən halının müayinəsi və ya ekspert rəyi ilə təsdiqlənməli və onunla sorğunun keçirilməsi narkotik sərxoşluq vəziyyətindən çıxana qədər təxirə salınmalıdır.

Lakin belə halda olan şəxsin sorğusu prosesində əməliyyat marağı kəsb edən məlumatların əldə edilməsi ehtimalı da istisna edilmir.

Ona görə də hüquq mühafizə orqanlarının təcrübəsində qeyd edilənləri nəzərə alaraq əməliyyat axtarış və operativlik nöqteyi-nəzərdən bu şəxslərin halı nəzərə alınmaqla sorğu keçirilə bilər.

Narkomanın dindirilməsi (sorğusu) prosesində onun səhhəti ilə əlaqədar emosional dəyişiklikləri xüsusiyyətləri (güclü əsəbilik, hövsələsizlik, səbirsizlik və s.) nəzərə alaraq onunla güclü psixoloji təsir üsullarından istifadə etmək bir çox hallarda məqsədəuyğun deyil, sakit tonda və onun maraqları çərçivəsində söhbətdən başlayıb, ünsiyyət yaratmaq lazımdır.

Bu halda sorğunun keçirilməsini aşağıdakı amillərlə şərtləndirilir:

– cinayətinin digər iştirakçılarını tez bir zamanda müəyyən edilməsi izlərin, dəlillərin məhv edilməsi və cinayət törətmiş şəxslərin aradan çıxıb gizlənməsi imkanlarının mövcudluğu, cinayət təqibi üçün çox vacib hesab edilən və əldə edilməsi ehtimalı yüksək olan digər mühüm məlumatların əldə edilməsi, həmçinin digər cinayətlərin aşkar edilməsi və qarşısının alınması.

Dindirmənin və sorğunun nəticələri digər tədbirlərin, o cümlədən əməliyyat-axtarış tədbirləri keçirilməsi prosesində (zərurət olan hallarda) yoxlanılır.

### *Narkotik vasitələrin. psixotrop maddələrin tədqiqi və ekspertizası*

Narkotik vasitələrin və psixotrop maddələrin müasir ekspert tədqiqi, bir çox hallarda ona kompleks yanaşmanı tələb edir. Belə yanaşma morfoloji, kimyəvi, fiziki, bioloji, kriminalistik və digər növ tədqiqləri əhatə edir. Kriminalistik tədqiq və kriminalistik ekspertiza ilə həll edilən suallar aşağıdakı kateqoriyalara bölünə bilər:

**1. İdentifikasiya (eyniləşdirmə sualları)**

**– tədqiq olunan obyektin, mənsubiyyətin müəyyən edilməsi:**

*Təqdim edilən maddə narkotik vasitədirmi, narkotik vasitədirsə, hansı narkotik vasitədir?*

*Təqdim olunan avadanlıq və ləvazimatda narkotik vasitənin hazırlanması üçün istifadə edilən maddə varmı, varsa hansı maddədir?*

**– tədqiq olunan obyektin qrup mənsubiyyətinin müəyyən edilməsi:**

Ekspertiza üçün təqdim olunan maddə hazırlanma üsuluna görə ümumi mənşəli mənbəyə malikdirmi (və ya narkotik vasitənin hazırlanmasında istifadə edilən bitki mənşəli xammalın bitdiyi yerə görə)?

*– tədqiq olunan obyektin fərdi aidiyyatının müəyyən edilməsi:*

*Tədqiqat üçün təqdim olunan maddə əvvəl vahid kütləni təşkil edirdimi?*

*– obyektlərdə narkotik vasitənin izlərinin müəyyən edilməsi.*

Təqdim olunan obyektlərdə narkotik vasitələrin izləri varmı, varsa hansı narkotik vasitənin izləridir?

**2. Qeyri identifikasiya (qeyri eyniləşdirmə, diaqnostika) sualları.**

*Narkotik vasitənin (adi) ekspertizaya təqdim edilən maddə, avadanlıq və materiallardan istifadə etməklə alınması mümkündürmü?*

*Narkotik vasitənin hazırlanması təqdim edilən sintez metodikası ilə mümkündürmü?*

*Ekspertizaya təqdim olunmuş narkotik vasitənin hazırlanması üçün maddə, material və avadanlıq tələb edilirmi?*

*Ekspertizaya təqdim olunmuş narkotik vasitə hansı üsulla hazırlanmışdır?*

*Bu narkotik vasitənin hazırlanması üçün hansı bitki kütləsi və onun nə qədər miqdarı tələb olunur?*

**Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsi ilə bağlı törədilən cinayətlərin istintaqı prosesində aşağıdakı məhkəmə ekspertizaları keçirilə bilər:**

– aşkar edilib götürülmüş narkotik vasitə, psixotrop maddə və prekursorun dəqiq çəkisi, növü, kimyəvi tərkibi, digər kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməsi üçün məhkəmə-kimyəvi ekspertizası;

– obyektin təbiətini (o cümlədən bitki obyektlərini, onların hissə və toxumalarının, bitmə yerlərini və şəraitini və s.) növ və qrup mənsubiyyətini, fərdi eyniləşdirilməsini (məhkəmə-aqrotexniki ekspertizasını);

– cinayət törətmiş şəxslərin narkoman olub-olmamasının, əgər narkomandırsa məcburi xarakterli tibbi müalicəyə ehtiyacının olub-olmamasının müəyyən edilməsi məqsədi ilə məhkəmə-narkoloji ekspertizası;

– cinayət törətmiş şəxsin ruhi xəstəliyi və psixi pozuntuları olması ilə bağlı əsaslı şübhələr olduqda, yaxud şəxsin qeyd olunan psixi pozuntularla əlaqədar tibbi müəssisədə qeydiyyatda olması ilə bağlı sənədlər əldə edildikdə məhkəmə-psixiatrik ekspertizası;

– cinayət törətmiş şəxsin psixi emosional hallarının, fərdi, psixi xüsusiyyətlərinin müəyyənləşdirilməsi zərurəti yarandıqda məhkəmə-psixoloji ekspertizası;

**Narkotik vasitələrin, psixotrop maddələrin tədqiqi məqsədi ilə mütəxəssis-ekspert qarşısında aşağıdakı suallar qoyula bilər:**

1. Ekspertiza üçün təqdim olunmuş maddə narkotik vasitədirmi (psixotrop maddə və s.), əgər cavab müsbətdirsə, onda hansı narkotik vasitə (psixotrop maddədir) və onun miqdarı nə qədərdir?
2. Ekspertizaya təqdim olunmuş bitki hansı növə aiddir və onun tərkibində narkotik vasitə varmı?
3. Ekspertizaya təqdim olunmuş maddədə narkotik xüsusiyyətli aktiv komponentlər varmı?
4. Götürülən narkotik vasitə hansı üsulla (sənaye, kustar və s.) hazırlanmışdır?
5. Ekspertizaya təqdim olunmuş daşıyıcı obyektlərdə (şpris, iynə, tampon, flakon və s.) narkotik vasitənin (psixotrop maddənin) izləri varmı, varsa onlardan hansılarına məxsusdur?
6. Təqdim olunmuş bitki mənşəli hissələr, qab, cihaz, avadanlıq, reaktivlər narkotik vasitənin hazırlanması və emalı üçün istifadə edilə bilərdimi?
7. Ekspertizaya təqdim olunmuş tənbəkidə, siqaretdə və onun kötüyündə narkotik vasitələr varmı, varsa hansı narkotik vasitədir?
8. Götürülmüş narkotik vasitələr (müxtəlif yerlərdən, şəxslərdən götürülmüş narkotik vasitələr) ümumi mənşəyə malikdirmi (istifadə edilən xammalı, bitmə yerinə, hazırlanma üsuluna və s. görə).
9. Aşkar edilərək götürülmüş qeydlər və yazılar olan materiallarda narkotik vasitələr (psixotrop maddələr və s.) alınması üsulu və texnologiyasına dair məlumatlar mövcuddurmu?
10. Aşkar edilən xammaldan hansı və nə miqdarda narkotik vasitə (psixotrop maddə və s.) hazırlamaq olarmı?

11. Qablaşdırılma obyektinin (flakon, kapsul və s.) üstündə olan, yazılan, onda yerləşdirilən maddəyə uyğundurmu?

12. Aşkar olunub götürülən obyektin (ampula, kapsulaların və s.) ağızlarının yenidən lehimlənməklə bağlanması izləri varmı?

13. Nəzarət edilən narkotik vasitələrin (psixotrop maddələrin və s.) standart qablaşdırılması materiallarında onlara uyğun vasitə və maddələr varmı?

14. Götürülmüş obyektin etiketkasının (zavod və ad göstəriciləri qeyd olunan kağızının) və onun yapışqanının maddəsi onunla müqayisə üçün təqdim olunmuş obyektin adı, çəkilən hissələri ilə eynidirmi?

Tədqiqatçı, müstəntiq yaranmış əməliyyat şəraiti və vəziyyətindən, həmçinin istintaq vəziyyətindən asılı olaraq öz səlahiyyətlərinə müvafiq olaraq kriminalistik tədqiqatı və ekspertizanın bu və ya digər növünün (kriminalistik məhkəmə-kimyəvi, kimyəvi-botaniki və məhkəmə-aqrotexniki, narkoloji, məhkəmə-tibbi, məhkəmə-psixiatriya ekspertizası) keçirilməsini təşkil edir və təyinatı üzrə sualları ekspert qarşısında irəli sürür.

Yuxarıda qeyd edilən şərait və vəziyyətlərdən asılı olaraq ənənəvi kriminalistik ekspertizalar (daktiloskopik, frazeoloji, ballistik, sənədlərin ekspertizası və s.) keçirilə bilər.

### *Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin aşkar edilməsi və açılmasında istintaq orqanları ilə təhqiqat orqanlarının qarşılıqlı əlaqələri*

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin aşkar edilməsi və açılmasında təhqiqat orqanları (əməliyyat işçiləri) ilə istintaq orqanlarının (müstəntiqin) qarşılıqlı əməkdaşlığı mühüm rol oynayır.

İbtidai istintaqın həyata keçirilməsinin bütün hallarında müstəntiq dərk etməlidir ki, onun qarşısında duran vəzifələri, o cümlədən cinayətin (xüsusilə latent xarakterli və qeyri-aşkar

şəraitdə törədilən) tam və tez açılmasına əməliyyat-axtarış tədbirləri keçirmədən nail olmaq mümkün olmur.

Bu tədbirlər cinayət və onu törədən şəxslər barəsində geniş və lazımı məlumatların əldə edilməsində əvəzedilməz və çox vacib mənbədir.

İstintaq orqanları (müstəntiq) ilə təhqiqat orqanlarının (əməliyyat işçisinin) qarşılıqlı (birgə) əməkdaşlığının mükəmməl elmi-nəzəri və qanunvericilik əsasları müvafiq olaraq təşkil edilir.

Cinayət-prosessual Məcəlləsinin 85.4.5. maddəsinə əsasən müstəntiq müvafiq təhqiqat orqanına icraatında olan cinayət işi üzrə cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq hüququna malikdir.

Məcəllənin 85.4.6. maddəsinə əsasən müstəntiq tutulma, məcburi gətirilmə və digər prosessual məcburiyyət tədbirlərinin aparılmasını müvafiq təhqiqat orqanına tapşırmaq, habelə ondan istintaq və digər prosessual hərəkətlərin keçirilməsinə kömək göstərilməsini tələb etmək, 85.4.7. maddəsinə əsasən isə müvafiq təhqiqat orqanına və ya təhqiqatçıya ayrı-ayrı istintaq hərəkətlərinin keçirilməsini tapşırmaq hüququna malikdir.

Cinayət-prosessual Məcəlləsinin 277.5. (247.5.1.-277.5.3.) maddəsinə müvafiq olaraq müstəntiq cinayət işi üzrə icraatı dayandırdıqdan sonra təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin, təqsirləndirilən şəxsin olduğu yerin müəyyən edilməsi, istintaqdan gizlənmiş təqsirləndirilən şəxsin axtarışı üçün özü və ya tədqiqat orqanı vasitəsi ilə tədbirlər görür.

Məcəllənin 278.2. maddəsinə əsasən təqsirləndirilən şəxsin olduğu yer məlum olmadıqda və ya təqsirləndirilən şəxs cinayət təqibi orqanından gizləndikdə, müstəntiq öz qərarı ilə axtarışı müvafiq təhqiqat orqanına tapşırır.

Cinayət-prosessual Məcəlləsinin 137-a maddəsinə əsasən əməliyyt-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar "ƏAF haqqında" Qanuna uyğun əldə edildikdə həmin Məcəlləsinin

tələblərinə uyğun təqdim ediləndə və yoxlandıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

**Qanunvericilikdə konkret norma ilə təqdim edilmə qaydası müəyyən edilməmişdir və bu məsələnin konkret normada təsbit edilməsi vacibdir** (Bax. XXI bölməyə).

“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunun 6-cı maddəsinin 2 və 3-cü bəndinə əsasən əməliyya-axtarış fəaliyyəti subyektlərinin üzərinə əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair istintaq orqanlarının qərarlarını, cinayət işləri üzrə işə yazılı tapşırıqlarını yerinə yetirmək, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş məlumatları, onların mənbəyini və əldə edilməsi üsullarını yaymadan konkret cinayət işi üzrə təhqiqatı və istintaqı aparan şəxsə vermək vəzifələri qoyulmuşdur.

**ƏAF nəticəsində əldə olunan məlumatları vermək ifadəsi də istər “Dövlət sirləri haqqında” Qanunun, istərsə də elmi-nəzəri əsaslar və təcrübi baxımdan uğurlu saymaq olmaz. Bu məsələlərə dair XX Bölmədə təkliflər verilmişdir.**

Qeyd edilən qanunun 16-cı maddəsinin VII-ci hissəsinə əsasən hər hansı bir cinayətin törədilməsi ilə bağlı əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş məlumatlarla tanış olmaq hüququ məlumatların mənbəyini aşkarlamamaq şərti ilə yalnız həmin cinayət işi üzrə istintaqı aparan şəxsə, prokurora və məhkəməyə verilir. Bu məsələ də problemlidir. Belə ki, bəzi hallarda bu növ məlumatların verilməsi insan hüquq və azadlıqları baxımından məqsədə müvafiq deyildir və cinayətin açılmasında problemlər yarada bilər (Bax əvvəldə və XXI Bölmədə göstərilibdir).

Əməliyyat-axtarış tədbirlərinin nəticələrinin müstəqil olaraq sübut əhəmiyyətinə malik olmadığını nəzərə alaraq HMO-ın, o cümlədən gömrük orqanlarının əməliyyat işçiləri tərəfindən əldə olunan məlumatların istintaq orqanlarına verilməsində 7 sentyabr 2009-cu il tarixli “Dövlət sirri haqqında” Qanunun 5.4. maddəsinin və “ƏAF haqqında” Qanunun 14-cü maddəsinin VIII hissəsinin, 16-cı maddəsinin I,VII hissələrinin, 20-ci maddənin III, IV hissələrinin müddəalarının tələblərinə ciddi riayət edilməlidir. ƏAF nəticəsində

əldə edilən materiallara, o cümlədən məlumat daşıyıcılarına (raport, izahat, protokol, arayış-memarandum, icmal, arayış, fonoqrama, fotoşəkillər, maqnit və lazer disklər, videoçəkilişləri və s.) qanunda və idarədaxili normativ aktlarda aydınlıq gətirilmir. Həmçinin, "ƏAF haqqında" Qanunun 16-cı maddənin 1-ci hissəsində ƏAF-ın nəticələrini (O cümlədən ƏAT-ın nəticələrini) hansı qaydada cinayət prosesinə daxil edilməsi qaydalarına aydınlıq gətirilməmişdir. Məhz ona görə də 16-cı maddənin I hissəsinin tətbiqində bir sıra anlaşılmazlıq yaranır. Bu məsələlərə də qeyd edilən maddədə və yaxud ƏAF-ın idarələrarası normativ aktlarında aydınlıq gətirilməlidir. Daha dəqiq desək, bu məsələlər konkret norma ilə təsbit edilməlidir.

"Dövlət sirri haqqında" və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunların yuxarıda qeyd edilən maddələrinə əsaslanaraq əməliyyat aparatlarının rəhbərlərinin nəzarət altında əməliyyat-axtarış fəaliyyətinin, o cümlədən əməliyyat-axtarış tədbirlərinin nəticələrini əks etdirən sənədlərin, xüsusən də əməliyyat xidməti sənədlərin, cinayət-mühakimə icraatına aidiyyatını və əhəmiyətini müəyyən edilməli və onların konkret cinayət işinə əlavə edilməsi və ya müstəntiqə cinayət işinin başlanması ilə bağlı məsələlər həll edilməsi üçün verilməsinə qərar qəbul edilməlidir.

Yuxarıda qeyd edilən materialların, o cümlədən məlumat daşıyıcılarının istintaq orqanına verilməsi üçün, ilk öncə nəzərə almaq lazımdır ki, əməliyyat axtarış tədbirlərinin keçirilməsi prosesində istifadə edilən qeyri-aşkar qüvvə, vasitə, mənbə, metodlar, əməliyyat-axtarış fəaliyyətinin nəticələri, cinayətkar qruplara və kriminogen obyektlərə daxil edilən ƏAF-ın subyektləri ilə məxfi əməkdaşlıq edən şəxslər, ştatda olan məxfi əməkdaşlar, həmçinin əməliyyat-axtarış tədbirlərinin təşkili və taktikasına dair məlumatlar əvvəldə qeyd etdiyimiz qanunların göstərilən müddəalarına görə dövlət sirrini təşkil edir.

Zərurət olan hallarda bu məlumatların açıqlanması üçün "Dövlət siri haqqında" Qanunun 13, 14-cü, "ƏAF haqqında" Qanunun 14-cü maddəsinin X hissəsinin və 16-cı maddəsinin VII

hissəsi və 20-ci maddəsinin III-IV hissələrinin müddəalarının tələbləri rəhbər tutulmaqla əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli vəzifəli şəxsi tərəfindən qərar qəbul edilməlidir.

"ƏAF haqqında" Qanunun 16-cı maddəsinin I hissəsinə əsasən əməliyyat-axtarış fəaliyyəti, (o cümlədən əməliyyat-axtarış tədbirləri) nəticəsində əldə edilmiş materiallar qeyd edilən Qanuna müvafiq əldə edildikdə və Azətrbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin tələblərinə uyğun təqdim edildikdə və yoxlanıldıqda cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər. Məhz ona görə də bu fəaliyyətin, o cümlədən əməliyyat-axtarış tədbirlərinin nəticələri, konkret şəxsin (şəxslərin) təqsirli olmasını əsaslandıran dəlil kimi istifadə edilə bilməz, həmin nəticələr istintaq hərəkətlərinin keçirilməsi yolu ilə əldə olunan sübutlarda öz əksini tapmalıdır. Belə halda ibtidai istintaqa aid olan istintaq (prosessual) sənəddə əməliyyat-axtarış fəaliyyətinin (axtarış tədbirləri) nəticələri öz təsdiqini tapır və cinayət-prosessual Məcəlləsinin 124-128-ci maddələrinin tələbləri təmin edilir.

Təcrübədə elə vəziyyətlərə rast gəlmək olur ki, əməliyyat-axtarış tədbirlərinin nəticələri ilə əlaqədar istintaq hərəkətləri keçirmək mümkün olmur, belə hallarda bu nəticələri özündə əhatə edən sənədlər (sorğu ilə bağlı raport, akt və s.) cinayət işinə (cinayət-prosessual Məcəlləsinin 127.2.5 maddəsi) qismində əlavə edilə bilər. Belə vəziyyəti gömrük orqanın əməliyyat işçisi tərəfindən ekstremal, qəflətən, qabaqcadan məlum olmayan və qaçılmaz və operativliyin təmin edilməsi şəraitlərində, qısa müddətdə, təxirəsalınmaz hallarda aparılan müşahidəyə də aid etmək olar.

**Sözsüz ki, onların prosessual qaydada leqallaşdırılmasında da problemlər mövcuddur.**

Əgər əməliyyat-axtarış fəaliyyəti (o cümlədən əməliyyat-axtarış tədbirləri) nəticəsində əldə edilmiş məlumatların dürüstlüyü şübhə doğurur və ya onları istintaq hərəkətləri keçirməklə təsdiq etmək mümkün deyilsə, belə halda əldə olunan məlumatların

yoxlanılması və yeni faktiki məlumatların əldə edilməsi üçün əlavə əməliyyat-axtarış tədbirlərinin keçirilməsini planlaşdırmaq olar.

Bundan sonra əldə edilmiş materiallara əsasən cinayət işinin bağlanmasına dair qərar qəbul edilərsə, əməliyyat işçisi ilə müstəntiq əməliyyat-axtarış fəaliyyəti (o cümlədən əməliyyat-axtarış tədbirlərinin nəticələrinin – məlumat və materialların) realizə edilməsinə dair birgə plan hazırlamalıdırlar. Bu plan həyata keçirilməsi zəruri olan istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirlərindən ibarət olub istintaq orqan və əməliyyat aparatının rəhbərləri tərəfindən təsdiq edilir. Planda əsas yeri o istintaq hərəkətləri tutur ki, onlar əməliyyat-axtarış məlumatları və sənədlərinin leqallaşdırılmasını (cinayət-prosessual sənədləşdirmə yolu ilə) təmin etsin. Əksər hallarda aşağıdakı istiqamətlərdə hərəkət və tədbirlər həyata keçirilir:

- *sübut səciyyəli məlumatların daşıyıcıları olan aşkar edilmiş şəxslərin dindirilməsi (bu şəxslərin əməliyyat işçiləri tərəfindən keçirilmiş sorğuları ilə bağlı izahatları; dindirmənin müstəntiq tərəfindən keçirilməsi zəruri hesab edilir);*
- *sübut səciyyəli məlumatların və maddi sübutların əldə ediləməsi məqsədi ilə axtarış istintaq hərəkətlərinin keçirilməsi (müstəntiqin tapşırığı ilə əməliyyat işçisi həyata keçirə bilər);*
- *nəzarət qaydasında mal alınması tədbirinin keçirilməsi (əməliyyat işçisi tərəfindən və ya belə tədbirdə alıcı qismində iştirak etməyə razılıq verən mülki şəxs və s. tərəfindən);*
- *nəzarət qaydasında mal alınmasında iştirak edən şəxslərin dindirilməsi;*
- *narkotik vasitənin, psixotrop maddələrinin və ya onların prekursorlarının alınma yerinə baxışının keçirilməsi;*
- *kriminalistik tədqiqatın (əməliyyat işçisinin təşəbbüsü ilə) və ekspertizanın (müstəntiqin qərarı ilə) keçirilməsi;*
- *cinayətdə şübhəli olan şəxslərin müstəntiqin rəsmi göstərişi ilə CPM-in 147-148-ci maddəsinin tələbləri təmin edilməklə tutulması;*

- *yuxarıda qeyd edilən şəxslərin tutulması və onların şəxsi axtarışı (üstünün yoxlanılması);*
- *izlərin müəyyən edilməsi məqsədi ilə tutulmuş şəxslərin paltarlarının götürülməsinə dair qərarın çıxarılması (müstəntiq qəbul edir);*
- *paltarların götürülməsi və ona dair protonların tərtib edilməsi (müstəntiq edə bilər və ya onun göstərişi ilə əməliyyat işçisi həyata keçirə bilər);*
- *şübhəli qismində tutulan şəxslərin dindirilməsi;*
- *narkorik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının götürülməsinə dair protokolun tərtib edilməsi;*
- *narkotik vasitəni satan şəxsdən, onların alınması üçün istifadə edilən pul vəsaitləri, xarici valyutaların götürülməsinə və onlara baxışın keçirilməsinə dair protokolun tərtib edilməsi;*
- *tutulmuş şəxslərdən bioloji nümunələrin, mikroizlərin götürülməsi və onlarda narkotik vasitələrin, psixotrop maddələrin və ya prekursorların izlərin olmasını müəyyən etmək üçün ekspertizanın keçirilməsinə dair qərarın qəbul edilməsi (müstəntiqin qərarı ilə);*
- *tədbirdə məlumatların gizli yolla əldə edilməsinə dair texniki vasitədən istifadə edilmişdirsə, həmin texniki vasitənin götürülməsi, ona baxışın keçirilməsi, nümayiş etdirilməsinə və qulaq asılmasına dair protokolun tərtib edilməsi;*
- *tutulmuş şəxslər və onların cinayətkar əlaqələrinin və cinayətlərdə iştirakının müəyyən edilməsi məqsədilə əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair müstəntiqin tapşırığı və s.*

**Əməliyyat-axtarış tədbirlərinin nəticələrinin (əldə edilən məlumatların, sənədlərin və s.) realizə prosesində, əməliyyat işçisi ilə müstəntiqin qarşılıqlı əməkdaşlığı aşağıdakı qaydada həyata keçirilir. Müstəntiq əməliyyat aparılan rəhbərinin göstərişi ilə əməliyyat işçisi tərəfindən təqdim edilən materiallarla tanış olur:**

– vətəndaşlardan alınan işə aidiyyatı olan izahatlarla;

– təqdim edilən arayışlar, müqayisəli tədqiqat üçün nümunələr və onların götürülməsinə dair sənədlərlə;

– nəzarət qaydasında alınmasına dair protokollar, alış üçün istifadə edilən pul vəsaiti (xarici valyuta) və onun predmeti ilə (narkotik vasitə, psixotrop maddə və ya prekursor);

– sənəd və əşyaların tədqiqinə dair arayışlarla, onların tədqiqat obyektləri ilə birgə;

– müşahidənin aparılmasına dair raport və aktlarla, o cümlədən onun nəticələrini özündə əks etdirən sənədlərlə (akustika qeydləri, videoyazılar, fotoşəkillər, binaların, yaşayış yerlərinin xidməti otaqların, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin baxışına dair protokollarla) və s.

Müstəntiq qeyd edilən materialları nəzərdən keçirdikdən sonra müvafiq ekspertizaların keçirilməsinə dair qərarın nəticəsinə əsaslanaraq cinayət işi başlayır və müvafiq istintaq hərəkətləri həyata keçirir (təqdim olunan əşya sənədlərin baxışını keçirir, onların maddi sübut qismində işə əlavə edilməsinə dair qərar qəbul edir, tədbirlərin iştirakçılarını, cinayətdə şübhəli şəxsləri dindirir və s.).

**Cinayət işinin başlanması ilə bağlı məsələdə ən mühüm və təcrübə üçün problemli aspektlərdən biri ondan ibarətdir ki, əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilən məlumatlar (materiallar) cinayət işinin başlanması üçün səbəb və əsas deyildir (baxmayaraq ki, bu materiallarda bir çox hallarda cinayətin əlamətlərinə işarə edən kifayət qədər dəlillər mövcuddur). Yaxşı olardı ki, cinayət-prosessual Məcəlləsinin 46-cı maddəsində qeyd edilənlər nəzərə alınsın** (XXI Bölmədə təkliflər verilir).

Əməliyyat-axtarış materiallarının realizə edilməsi prosesinin ən vacib elementlərindən biri cinayətdə şübhəli şəxslərin cinayət başında yaxalanmasıdır. Belə əməliyyatların həyata keçirilməsində aşağıdakı məsələlər diqqət mərkəzində olmalı və müzakirə edilməlidir:

- *istintaq-əməliyyat qrupunun tərkibinin dəqiq müəyyən edilməsi;*
- *xarici müşahidənin müəyyən edilməsi;*
- *şəraitdən asılı olaraq videoçəkilişinin təmin edilməsi: burada yaşayış yerlərinə (CPM-in 7.0.34-cü maddə), binaya, tikiliyə, torpaq sahələrinə və s. yerlərə kənar şəxslərdən gizlin və ani olaraq daxil olma, nəqliyyat vasitələrini saxlama. Ona baxış keçirmə mexanizmi nəzərdə tutulur;*
- *fiziki şəxsin bədənindən nümunələrin götürülməsi üçün qayçı, su-spirt qarışığı, pambıq və s. materiallar hazırlanır;*
- *yaşayış yerinə, bunaya, tikiliyə, torpaq sahəsinə, qurğuya və s. daxil olma və oradan çıxış yerlərinə, avtomobilin qapılarına nəzarətin təmin edilməsi;*
- *tutmaya dair protokolda, nəyin, harada götürülməsi və qablaşdırılmasına dair məsələlər öz əksini tapmalı, kimya elminə dair kitablara, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların hazırlanması metodikasına dair qeydlərə, sintezə dair sxemlərə, kimyəvi reaktivlərə diqqət vermək lazımdır;*
- *mütəxəssislərin, (o cümlədən texniki kinoloji xidmətin işçilərinin) imkanlarından istifadə edilməsi nəzərdə tutulur;*

**Müstəntiqlə əməliyyat işçisinin qarşılıqlı fəaliyyəti (əməkdaşlığı) aşağıdakı formada həyata keçirilə bilər:**

- *istintaq-əməliyyat qrupunun tərkibində müstəntiqlə əməliyyat işçisinin birgə işi, qrupun üzvləri arasında vəzifə bölgüsü;*
- *cinayətin bütün iştirakçılarının, cinayətin törədilmə səbəb və şəraiti, bütün cinayət hadisələrinin (epizodlarının, faktlarının) müəyyən edilməsinə dair müstəntiqin tapşırığı və göstərişinin təhqiqat orqanı (əməliyyat işçisinin) tərəfindən icra edilməsi;*
- *istintaq orqanının (müstəntiqin) tapşırığı və ya göstərişi ilə ona istintaq hərəkətlərinin keçirilməsində köməkliyin göstərilməsi və ya müstəntiq tərəfindən daha əhəmiyyətli, mürəkkəb hesab edilən ayrı-ayrı istintaq hərəkətlərinin həyata keçirilməsi;*

- *istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin razılaşdırılmış qaydada planlaşdırılması;*
- *taktiki səciyyəli əməliyyatların birgə planlaşdırılması və həyata keçirilməsi;*

Müstəntiq tərəfindən təhqiqat orqanına (əməliyyat işçisinə) verilən tapşırıq və ya göstərişlər məqsədəuyğun və konkret olmalıdır.

Əməliyyat işçisi əməliyyat-axtarış tədbirlərinin keçirilməsində (əməliyyat aparatının rəhbərləri və digər səlahiyyətli, vəzifəli şəxslər istisna edilməklə) sərbəstdir.

**Müstəntiqin tapşırığı və ya göstərişinin məzmunu ilə işin mühüm məsələləri əhatə edilməlidir. Onlara aşağıdakılar aiddir:** cinayət törədilən obyektin qısa təşvişi, səciyyəvi xüsusiyyətləri, cinayətin iştirakçıları, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların mənbələri, daxil olma kanalları, qablaşdırma üsulları, daşınma və gizlədilmə üsulları, onların saxlanma yerləri, gizli satış üsulları, cinayətin iştirakçılarının yaxın əlaqələri və onların ölkə daxilində və xaricə getdikləri yerlər haqqında və s.

Bir çox hallarda cinayətdə təqsirli olan şəxslərin bütün iştirakçılarını, yuxarıda qeyd edilən məsələlərin müəyyən edilməsinə nail olmaq mümkün olmur. Belə vəziyyətin mövcud olmasına aid əsas səbəblərdən biri də əməliyyat aparatlarının (əməliyyat işçisinin) və istintaq orqanın, (müstəntiqin) Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə qarşılıqlı əlaqəli fəaliyyətinin lazımi səviyyədə olmamasıdır.

**Məhz ona görə də şəraitdən asılı olaraq zəruri hallarda tutulan və həbs edilən şəxslərin istintaq təcridxanaları və cəzaçəkmə müəssisələrində məqsədyönlü əməliyyat tədqiqinin keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bunun üçün icraatında cinayət işi olan müstəntiq və cinayət işinin əməliyyat axtarış fəaliyyəti ilə təmin edilməsinə təhkim edilmiş əməliyyat işçisi və penitensiar xidməti müvafiq əməliyyat işçisi həll edilməsi zəruri olan vəzifələrə istinadən müvafiq əməliyyat-axtarış tədbirləri-**

**nin və istintaq hərəkətlərinin keçirilməsini planlaşdırmalıdırlar. Bu istiqamətdə əməkdaşlıq mütəşəkkil cinayətkar qrupların ifşa edilməsində mühüm rol oynayır. Qeyd edilən istiqamətdə əməkdaşlıqda "ƏAF haqqında" Qanun 14-2 maddəsinin tələbləri rəhbər tutulur. Bu məsələlərdə də problemlər mövcuddur və onların aradan qaldırılmasına dair XXI Bölmədə təkliflər verilmişdir.**

İstintaq təcridxanaları və azadlıqdan məhrum olma yerlərində saxlanılan şəxslər (cinayətlərin törədilməsində təqsirli olan şəxslər, məhbuslar) istintaqa bəlli olmayan faktlar, narkotiklərin satışı, daşınması kanalları barədə azadlıqda qalan cinayətkarlar barədə bir-biri ilə söhbətlər aparır, belə şəxslərlə əlaqə yaratmağa çalışırlar (onlara maliyyə və s. yardımın göstərilməsi məqsədi ilə). Bu kateqoriyadan olan şəxslər əksər hallarda cinayətkarlığa qarşı mübarizə üçün mühüm əhəmiyyətə malik olan məlumatların daşıyıcıları kimi xarakterizə oluna bilərlər.

Məhz ona görə də həmin şəxslərlə əlaqədar olaraq HMO-ın əməliyyat aparatları qeyd edilən müəssisələrin əməliyyat hissələri ilə birgə qanunvericiliyin tələblərini rəhbər tutaraq ƏAT keçirməklə əməliyyat marağı kəsb edən məlumatlar əldə edə bilərlər.

İstintaq orqanları ilə əməliyyat aparatlarının qarşılıqlı əməkdaşlığı qeyd edilən forma və metodlar ilə məhdudlaşmır, digər forma və metodlardan da istifadə edilə bilər.

# XVII BÖLMƏ

## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ DÖVRİYYƏSİ İLƏ BAĞLI CİNAYƏTLƏRİN İSTİNTAQI ZAMANI MÜSTƏNTİQİN TƏHQİQAT ORQANI İLƏ (ƏMƏLİYYAT APARATI) İLƏ QARŞILIQLI ƏLAQƏSİ

Müstəntiq HMO-ın bölmələri (əsasən əməliyyat aparatları) ilə qarşılıqlı əlaqəni peşəkarcasına və bacarıqla təşkil etmədən qeyd olunan cinayətlərin uğurla qarşısının alınması, açılması və araşdırılmasına nail olmaq mümkün deyil. Azərbaycan Respublikasının «ƏAF haqqında» Qanunu ƏAF-ın həyata keçirilməsi ilə bağlı hüquqi münasibətləri tənzimləyir, həm də ƏAT-ın tətbiqində hüquqi təminatlar sistemini müəyyən edir. Bu hal DİO-nun və digər HMO-un fəaliyyət sahəsini genişləndirir və narkobizneslə mübarizədə işin səmərəliliyinə xidmət edir.

**Bu növ cinayətlərlə bağlı araşdırma adətən aşağıdakı hallarda başlanır:**

- Hava limanı, gömrük məntəqələrində nəzarət zamanı fiziki şəxsin üzərində, yükündə, nəqliyyat vasitəsində narkotik maddələr aşkar edilibsə. Bu zaman toplanmış sənədlər müstəntiqə ötürülür.
- Hüquq pozuntusuna görə PPX-ın əməkdaşları tərəfindən vətəndaşlar inzibati qaydada saxlanılaraq, DİO-nun növbətçi hissəsinə gətirildiyi zaman üzərinə və əl yükünə baxış keçirərkən, narkotik maddələr aşkar edilərsə. İlkin sənəd tərtib olunduqdan sonra sonuncu müstəntiqə ötürülür.
- Narkotiklərlə bağlı olmayan digər cinayətlərin törədilməsinə görə cinayət məsuliyyətinə cəlb edilən şəxsin yaşayış və ya

iş yerində baxış keçirilərkən narkotik maddələr aşkar edilərsə. Müstəntiq belə faktları araşdırdığı cinayət işi çərçivəsində tədqiq edir.

- Narkotiklərin qanunsuz dövriyyəsi barəsində material – ƏAT-ı, həmçinin «Xaşxaş» əməliyyatlarının sonunda sənədləşdirilibsə və onlar cinayətlərə aiddirsə, belə material müstəntiqə ötürülür.
- Xəstəxanadan, əczaxanadan, səhiyyə ocağının bazasından və ya fiziki şəxsdən narkotikin və ya psixotrop maddənin oğurlanması barədə ərizə, məlumat DİO-ya daxil olduqda, ilkin təxirəsalınmaz hərəkətlər həyata keçirilərək, qanunvericiliyə müvafiq olaraq öz səlahiyyətləri çərçivəsində tədbirlər görür (ərizəni müstəntiqə təqdim edir, məlumatları yoxlayır və s.).
- Yaşayış yerində, o cümlədən qonşu mənzildə, narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı şübhəli hərəkətlər barədə vətəndaşlardan ərizə daxil olduqda, onun qeydə alınması təmin edilir, qanunvericiliyə əsasən təhqiqat orqanı ilkin təxirəsalınmaz hərəkətlər etdikdən sonra, belə materiallar rəhbərliyə məruzə olunmaqla müstəntiqə ötürülür.

Narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı ibtidai istintaq üzrə icraatının bütün hallarında müstəntiqin təhqiqat orqanları ilə qarşılıqlı əlaqə zərurəti onunla müəyyən edilir ki, HMO-ın əməliyyat aparatının imkanları istifadə edilməsə, hərtərəfli və obyektiv araşdırmanın aparılmasına nail olmaq mümkün deyil, həyata keçirilməsinə nail olunmur.

Əməliyyat-axtarış-profilaktikası zamanı, o cümlədən «Xaşxaş» əməliyyatı çərçivəsində PPX və DİO-nun digər xidmətlərinin əməkdaşları narkotiklərin əldə edilməsi, saxlanması, daşınması, satışı faktını aşkar edərsə, aşkar olunmuş hüquq pozuntusunu dərhal sənədləşdirməli və iş üzrə sübut olunmalı digər amilləri müəyyən edilməlidir. Buna görə də müstəntiqin təhqiqat orqanı (əməliyyat aparatı) ilə qarşılıqlı əlaqəsi, toplanmış material barədə müstəntiqə məlumat verildikdə və cinayət işinin başlanması üçün əsaslar qiymətləndirildikdə başlanır.

Bu mərhələdə müstəntiqin təhqiqat orqanı ilə qarşılıqlı əlaqəsi materialların sənədləşdirilməsi, istintaqdan qabaq yoxlama hərəkətlərinin icrası, araşdırmanın perspektivləri barədə müstəntiqin tövsiyələrində təzahür olunur. **Cinayət işi başlandıqda, müstəntiqin təhqiqat orqanı ilə qarşılıqlı əlaqəsi aşağıdakı zəruri hərəkətlər nəzərə alınmaqla aparılır:**

- cinayətin bütün iştirakçılarının aşkar edilməsi zərurəti;
- təşkilatçıdan istehlakçıya qədər – narkotiklərin qanunsuz dövriyyəsində iştirak edən bütün şəxslərin müəyyən edilməsi;
- onların təqsirinin sübut edilməsi prosesinin həyata keçirilməsi.

Əməliyyat materialları birgə öyrənildikdə nəzərə almaq lazımdır ki, hal-hazırda Azərbaycanda "narkotik bazarını" ayrı-ayrı (pərakəndə) tiryək və xaşxaş istehsalçıları deyil, müxtəlif narkotik vasitələrin mütəşəkkil istehsalı və yayımı ilə məşğul olan qruplaşmalar müəyyən edir. Onlar həmçinin aşağı qiymətlə narkotik alan gələcək satıcıların da qeydinə qalır.

Müstəntiqlər başa düşməlidirlər ki, ƏAT cinayətlərin tam və çevik açılmasını təmin edir və onu törətmiş şəxslər barədə mühüm məlumat mənbəyi kimi çıxış edir.

Müstəntiq və təhqiqatçının qarşılıqlı əlaqəsi hüquqi tənzimlənmə əsasında qurulmalıdır. Bunun mənbəyi ilk növbədə CPM-in müvafiq maddələridir və onda ƏA və digər tədbirlərin keçirilməsi üzrə təhqiqat orqanının vəzifələri müəyyən edilmişdir. Bağlı qalmış cinayətlər üzrə təhqiqat orqanı (əməliyyat aparatı), cinayətkarları müəyyən etmək üçün ƏA xarakterli tədbirlər görməli və onların nəticələri barədə müstəntiqi məlumatlandırmalıdır.

Müstəntiqin təhqiqat orqanına axtarış və istintaq hərəkətlərinin icraatı barədə tapşırıq və göstərişləri vermək, ayrı-ayrı istintaq hərəkətlərinin icraatı zamanı yardım tələb etmək hüquqi müvafiq normativ aktlarda (CPM-in 85-ci mad.) öz əksini tapıb və qarşılıqlı əlaqənin əsas formaları və məqsədini müəyyən edir. **Məsələn, təh-**

**qiqat orqanı ilə müstəntiqin qarşılıqlı əlaqə hüquqi məsələlərinə (o cümlədən, narkotiklərin qanunsuz dövriyyəsi barədə işlər üzrə) bilavasitə aiddir:**

- cinayətlərin istintaqı və açılmasında HMO-ın xidmət və bölmələrinin qarşılıqlı əlaqəsinin təşkili üzrə Təlimat;

- əməliyyat materiallarının təhlili, qiymətləndirilməsi və ƏAT-ın nəticələrinin cinayət təqibində maddi sübut qismində istifadəsi imkanları və qaydaları üzrə metodiki tövsiyələr.

Müstəntiq və təhqiqatın qarşılıqlı əlaqəsinin təşkili üçün qeyd olunmuş mənbələr «ƏAF haqqında» Qanun bu istiqaməti əhatə edən müddəalarının icrası üçün mühüm əhəmiyyət kəsb edir.

**Əməliyyat yolu ilə əldə edilmiş informasiyanın sübutlar sisteminə daxil edilməsi qaydası haqqında aşağıdakı tövsiyələri vermək olar**.

Nəzərə alsaq ki, ƏAT-ın istənilən nəticələri müstəqil sübutedici əhəmiyyətə malik deyil, konkret şəxsin təqsirini əsaslandırmaq üçün ayrılıqda istifadə edilə bilməz. Odur ki, ƏAT nəticəsində əldə olunmuş məlumatlar, istintaq hərəkətlərinin icraatı nəticəsində əldə olunmuş sübutarda təsbit olunmalıdır.

«ƏAF haqqında» Qanunun 16-cı, CPM-in 137-ci maddələrinin müddəalarına görə, ƏAF nəticəsində əldə edilmiş materiallar «ƏAF haqqında» Qanuna müvafiq əldə edildikdə və Azərbaycan Respublikasının CPM-in tələblərinə uyğun təqdim edildikdə və yoxlanıldıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər. Burada Azərbaycan Respublikası Konstitutsiya Məhkəməsinin 12 fevral 2015-ci il tarixli Plemiununun qərarı da nəzərə alınmalıdır.

«ƏAF haqqında» Qanuna uyğun olaraq ƏAT-ın təşkili və taktikası, həmçinin HMO ilə əməkdaşlıq edən şəxslər barədə məlumat dövlət sirrini təşkil edir və açıqlana bilməz.

Qeyd etmək lazımdır ki, «ƏAF haqqında» Qanunun 10-cu maddəsi ilə nəzərdə tutulmuş bəzi əməliyyat-axtarış tədbirləri – sorğu, soraqlaşma, müqayisəli tədqiqat üçün nümunələrin toplan-

ması, nəzarət qaydasında mal alınması, əşya və sənədlərin tədqiqi, şəxsiyyətin eyniləşdirilməsi (açıq, leqal hərəkətlər) faktiki olaraq istənilən HMO-nun, o cümlədən polis orqanının əməkdaşları qanunvericiliyin tələbləri təmin olunmaqla, onların keçirilməsində iştirak edə bilər və əməliyyat-axtarış fəaliyyətinin məxfi (qeyri-aşkar) üsulları ilə bağlı olmaya bilər. Bu yolla əldə edilmiş informasiyanı cinayət prosesinə daxil etmək kifayət qədər sadədir. Dindirmə, baxış, tanıma, ekspertizanın təyin edilməsi və s. bu kimi istintaq-prosessual hərəkətlərini keçirmək olar ki, bunlar da bir növ artıq keçirilmiş ƏAT-ni təkrarlayacaq və istintaq sənədində əldə olunmuş nəticəni təsbit edəcəkdir. Əgər istintaq hərəkətini keçirmək mümkün deyilsə, onda ƏAT nəticəsində tərtib olunmuş sənəd (izahat, arayış, akt və s.) cinayət işinə tədbiri keçirmiş əməkdaşın raportu ilə birlikdə digər sənədlər qismində əlavə edilir (CPM, mad. 124.2.5., 137). Bu materiallar müstəntiq tərəfindən rəsmiləşdirilmiş sübutlarla əksər halda uzlaşır və sübutedilmədə nəzərə alına bilər. Bunu həmçinin bilavasitə əməliyyat işçisi tərəfindən keçirilmiş müşahidə və yaşayış yerlərinə, hasarlanmış tikintilərə (qurğu, tikili, ərazi) və nəqliyyat vasitələrinin baxışının keçirilməsinin nəticələrinə də aid etmək olar.

Əgər ƏAT zamanı əldə olunmuş informasiyanın doğruluğu şübhə yaradırsa və ya onu istintaq hərəkətləri ilə təsdiq etmək çətin-dirsə, belə halda cinayət işinin başlanmasına tələsmək məsləhət görülmür və yeni faktların müəyyən edilməsi üçün əlavə ƏAT-ın keçirilməsini planlaşdırmaq lazımdır. Cinayət işinin başlanması barədə məsələ müsbət həll olundaqda, müstəntiq və əməliyyat işçisi tədbirin nəticələrinin reallaşdırılması üzrə plan tərtib edirlər. Bu planı HMO-nun əməliyyat aparatının və istintaq orqanının rəhbərləri təsdiq edirlər. Planda əsas diqqət əməliyyat informasiyasını daşıyan materialların leqallaşdırılan istintaq hərəkətlərinə verilir.

**Əksər hallarda bura aid edilir:**

- *sübutedici informasiyaya malik olan şəxslərin dindirilməsi (müstəntiq aparır);*

- *sübutedici informasiya və maddi sübutların əldə edilməsi məqsədilə axtarışların keçirilməsi (əməliyyat aparatının əməkdaşlarına tapşırılır);*

- *nəzarət qaydasında mal alma tədbirinin hazırlığı və həyata keçirilməsi (əməliyyat aparatının əməkdaşları həyata keçirir);*

- *nəzarət qaydasında mal almaqda iştirak etmiş şəxslərin dindirilməsi;*

- *alınan əşyanın – narkotik vasitə, psixotrop maddə və onların prekursorlarının və s. baxışdan keçirilməsi;*

- *ekspertizaların təyin edilməsi (müstəntiq təyin edir);*

- *cinayət törətməkdə şübhəli olan şəxslərin saxlanması barədə qərarın qəbulu (qərarı müstəntiq qəbul edir);*

- *həmin şəxslərin saxlanması və onların şəxsi axtarışı;*

- *izlərin aşkar edilməsi üçün saxlanmış şəxslərin paltarının götürülməsi barədə qərarın çıxarılması (müstəntiq çıxarır);*

- *paltarın götürülməsi (müstəntiq və ya təhqiqatçı icra edir);*

- *saxlanmış şəxslərin dindirilməsi;*

- *saxlanmış şəxslər ətrafında ƏAT-ın keçirilməsi barədə müstəntiqin tapşırığı.*

ƏAT-ın reallaşdırılması və ilkin istintaq hərəkətlərinin və ƏAT-ın həyata keçirilməsi planında digər istintaq hərəkətləri də nəzərdə tutula bilər.

**Müstəntiqin və təhqiqat orqanı ilə qarşılıqlı əlaqə şəraitində mümkün olan ƏAT-ın nəticələrinin reallaşdırılması prosesi aşağıdakı qaydada baş verir. Müstəntiq aşağıdakı qeyd edilən materiallarla tanış olur:**

- vətəndaşların izahatları ilə;

- təqdim olunan arayışlarla, müqayisəli tədqiqat üçün nümunələrlə;

- nəzarət qaydasında mal alma aktı (protokolla), pul və alış predmeti ilə;

- əşya və sənədlərin müayinəsi haqqında arayışlarla, tədqiqat obyektləri ilə;

- müşahidə ilə bağlı raportlarla, müşahidənin nəticələrini əhatə edən sənədlərlə – akustik yazılarla, videoyazılarla, fotoşəkillərlə, fotoplyonkalarla, tikili, bina, qurğu, ərazi və nəqliyyat vasitələrinin baxış aktları və s.

Cinayət işinin açılması barədə qərar qəbul edilibsə, müstəntiq həmin materialları işə əlavə edir. Əgər müstəntiq cinayət işinin başlanması üçün yetərli sayda əsas tapmazsa, o, sadalanmış materialları ilkin yoxlama xarakterli sənədlər kimi dəyərləndirir. Cinayət işinin araşdırılması çərçivəsində müstəntiq təqdim olunmuş sənədləri, əşyaları nəzərdən keçirir, qanunvericiliklə müəyyən olunmuş qaydada maddi sübut qismində onları işə əlavə edir. ƏAT-də iştirak etmiş şəxsləri dindirir, zəruri halda həmin əşyaların tanınmasını həyata keçirir, onlara dair ekspertizalar təyin edir.

**Şübhəli şəxslərin cinayət törədərkən maddi sübutlarla yaxalanması əməliyyat materiallarının istifadəsində olduqca vacib elementdir. Bu əməliyyat planlaşdırılarkən, aşağıdakı məsələlər müzakirə edilir və müəyyənləşdirilir:**

- *istintaq-əməliyyat qrupunun tərkibi və onun üzvləri arasında vəzifə bölgüsü, rabitə və s. əlaqə vasitələri və yollarının müəyyən edilməsi;*

- *zahiri müşahidənin təmin edilməsi;*

- *videoçəkilişin təmin edilməsi;*

- *mənzilə giriş mexanizmi qabaqcadan düşünülməlidir, giriş gözlənilmədən həyata keçirilməlidir, əks halda maddi sübutlar məhv edilə bilər;*

- *fiziki şəxsin bədənindən nümunələrin götürülməsi üçün qayçı, şpirt-su qarışığı, pambıq və digər əlaltı materiallar hazırlanır;*

*- digər iştirakçıların yaxalanması məqsədilə tədbirin keçirildiyi yerə və girişə nəzarət təmin edilir;*

*- saxlanma barədə tərtib olunmuş protokolda nəyin və haradan götürüldüyü, necə qablaşdırıldığı qeydə alınır, kimya elmi üzrə kitab və vəsaitlərin mövcudluğuna, narkotik vasitə və psixotrop maddələrin, onların prekursorlarının hazırlanması metodikası üzrə yazılara, sintez sxemlərinə, kimyəvi reaktivlərə diqqət yetirilir;*

*- mütəxəssis, kinoloq və xüsusi texnikanın istifadəsi nəzərdə tutulur;*

*- tədbirin keçirilməsi prosesində meydana çıxa biləcək (ehtimal olunan) ekstremal vəziyyətlər və ona müvafiq qərarların qəbul edilməsi.*

Bu tədbirin keçirilməsindən əvvəl mütləq qaydada cinayətkar haqqında zəruri məlumata (onun şəxsi-psixoloji keyfiyyətləri, həmçinin hüquq-mühafizə orqanlarına münasibəti, aqressivliyi, silahla təmin edilməsi, fiziki hazırlığı və s.) malik olmaq mühüm əhəmiyyət kəsb edir.

**Müstəntiqin təhqiqat orqanı ilə qarşılıqlı əməkdaşlığı aşağıdakı formalarda baş tuta bilər:**

*- müstəntiq və əməliyyat aparatı əməkdaşlarının istintaq-əməliyyat qrupu tərkibində birgə işi;*

*- cinayətin bütün iştirakçılarının, bütün cinayət faktlarının və amillərin aşkar edilməsi üzrə müstəntiqin göstəriş və tapşırıqlarının təhqiqat orqanı əsasən əməliyyat aparatı tərəfindən yerinə yetirilməsi;*

*- ayrı-ayrı istintaq hərəkətlərinin icrasında təhqiqat orqanı tərəfindən müstəntiqə köməkliyin göstərilməsi;*

*- təhqiqat orqanı tərəfindən müstəntiqin ayrı-ayrı tapşırıqlarının icrası, istintaq hərəkətləri və ƏAT-ın razılaşdırılmış formada planlaşdırılması;*

*- digər bölgələrdə keçiriləcək istintaq və əməliyyat tədbirlərinin birgə planlaşdırılması;*

*- cinayətin açılması və iş üçün əhəmiyyətli olan amillərin müəyyən edilməsi məqsədilə taktiki əməliyyatların birgə planlaşdırılması və həyata keçirilməsi;*

*- transmilli xarakter daşıyan mütəşəkkil cinayətkar qruplaşmaların ifşa edilməsində İnterpolun (DİN-in, MMB-nin) qüvvə vasitə informasiya sistemlərindən istifadə edilməsi.*

**Müstəntiq tərəfindən təhqiqat orqanına verilən tapşırıqlar konkret və məqsədyönlü olmalıdır. Məsələn, onlar iş üzrə aşağıdakı bütün vacib amilləri əhatə etməlidir: obyektin xarakteri, cinayətin törədilmə yeri, narkotik vasitələrin dövriyyəsinin uçotu və sənədləşməsi qaydası haqqında və s.; cinayət iştirakçıları haqqında; narkovasitə və psixotrop maddələrin daxil olması və satışı kanalları, cinayətin törədilməsi üsulları barədə; narkotiklərin qablaşdırılması və nəql edilməsi yolları haqqında; təqsirləndirilən şəxslərin ölkə daxilində hərəkəti və xaricə gedişləri barədə və s.**

BƏSİİ, KTİ, İnterpolun Azərbaycan Respublikası DİN-in MMB-nin, ÜMB-nin, səhiyyə orqanlarının uçotlarından və zəruri olan hallarda digər orqanların məlumat bazalarından istifadə etməlidir.

Müstəntiq, həmçinin DİO-nun cəmləşən kriminalistik uçotlardan istifadə etməlidir. Narkomanların, narkotik yayanların, tiryəkxana və əxlaqsız yuva saxlayanların, belə cinayətlərə görə əvvəllər məhkumluğu olan şəxslərin uçotu, saxta reseptlərin və onları tərtib etmiş şəxslərin xəttinin uçotu, insan alveri ilə və fahişələrin də uçotundan istifadə edilir.

Azadlıqdan məhrum etmə yerlərində əməliyyat-axtarış aparatları əməkdaşlarının imkanlarından istifadə edilməsinin vacibliyini ayrıca qeyd etmək lazımdır. Belə yerlərdə cinayətkarlar (məhbuslar) istintaqa bəlli olmayan faktlar barədə, narkotiklərin satışı və daşınması kanalları barədə, cinayətkar fəaliyyətlə məşğul olan azadlıqda qalmış şəxslər barədə öz aralarında açıq söhbətlər apara bilərlər.

Sonda qeyd etmək lazımdır ki, qarşılıqlı əlaqənin sadalanmış forma və metodları bununla tükənmir. Cinayətin xarakterindən, cinayət işinin xüsusiyyətlərindən və əldə edilən əməliyyat xarakterli məlumatlardan asılı olaraq müstəntiqin HMO-ın əməliyyat xidmətləri ilə qarşılıqlı əməkdaşlığının digər forma və metodları da istifadə oluna bilər.

**Belə əməkdaşlıqda əməkdaşların təcrübəsi, işgüzarlığı, şəxsiyyət-psixoloji xüsusiyyətləri, peşə hazırlığı, hüquq-mühafizə fəaliyyətinin müxtəlif istiqamətlərində dolğun və müasir biliklərə malik olması, habelə mənəvi keyfiyyətləri (göstəriciləri) mühüm rol oynayır.**

# XVIII BÖLMƏ

## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ GİZLƏDİLMƏ YERLƏRİ VƏ ONLARDA BAXIŞIN KEÇİRİLMƏSİNİN BƏZİ TAKTİKİ FƏNDLƏRİ

### 18.1. Nəqliyyat vasitələrinə baxış keçirmə

**I. Avtomobilin qabaq hissəsi:**
* nömrə nişanının əks tərəfi (yapışqanlı lentlə bərkidilmə);
* bamperin daxili hissəsi;
* radiatorun boşluğunda;
* ventilyasiya sistemində;
* hava filtri və karbürator arasında boşluq;
* yağ filtri;
* akkumulyatorun altında, içərisində;
* qabaq təkərlərin qapaqları;
* qabaq qanadlarla faralar arasında boşluq.

**II. Avtomobilin salonuna baxış keçirərkən yoxlanılır**:
* cihaz lövhəsinin (şit) arxa tərəfi (yapışqanlı lentlə, sancaqla bərkidilmə);
* radioqəbuledicinin arxasında boş yer;
* ventilyator sisteminin hava gələn yerləri;
* külqabı;
* döşəmə xalçalar;
* salonda olan əşyalar (paketlər, bağlamalar);
* ayaq linglərinin arxa tərəfi (pedal);

* oturacaqlar arasında boşluq;
* təhlükəsizlik kəmərlərinin korpusunun çarxı;
* qapıların və tavanın üzlükləri;
* sükan və başaltılarda boşluqlar;
* sürət qutusunda;
* sükanda (boşluqda).

**I. Avtomobilin arxa hissəsi**

* baqajın içindəkilər;
* ehtiyat təkəri;
* baqajın qapağının içəri hissəsi;
* arxa qanadlar, bamper, qabarit fənərlər;
* arxa təkərlərin qapaqları;
* benzin bakı (yalançı baklar da qoyula bilər);
* benzin bakının içərisində germetik konteynlərin olması;
* aparıcı körpü (most);
* yük avtomobillərinin çərçivələrində yerləşən yanacaq bakları.

## 18.2. Gəmidə baxış keçirmə

Baxış şərti olaraq 3 hissəyə bölünür:

* göyərtə;
* maşın və anbar;
* mətbəx və restoran.

**I. Göyərtəyə (gəmidə paluba) baxış**

* göyərtənin bütün əsas zonaları, üst tikililəri;
* ekipajın (heyətin) otaqları;
* ayaqyolular;
* kanat, buraz qutuları;
* ventilyasiya sistemi;
* kanat və kabellər.

**II. Maşın bölməsinə və anbara baxış**

* kayutalar (otaqlar);
* avarlı valın tunneli, anbarlar, tarazlıq saxlamaq üçün çən (rezervuar);
* maşın bölməsinin bütün zonaları;
* yanacaq çənləri;
* tavanın panelləri;
* arakəsmə ayrıcıları.

**III. Gəmi mətbəxi və restorana baxış**

* otaqlar, ərzaq saxlanılan dolablar (şkaf), anbarlar;
* möhürlənmiş anbarlar və s.

## 18.3. Təyyarəyə baxış keçirmə

* ayaqyolular;
* oturacaqların altında boşluq;
* yük bölməsi;
* oksigen balonları;
* xilasetmə jiletləri saxlanılan yer;
* külqabılar;
* zibil üçün qutular;
* idarəolunma kabinəsinin altında boşluq;
* təyyarənin quyruq hissəsi;
* qanadlarda boşluqlar;
* nəzarət lyukları;
* şassinin lyuku;
* arakəsmə ayrıcıları;
* mətbəx;
* radiolokasiya avadanlıq bölməsi;
* arxa oturacaqlar arxasında arakəsmələr;
* motor bölməsi;
* əlavə yanacaq çənləri.

## 18.4. Dəmiryol qatarının daha çox ehtimal olunan yerlərində narkotik vasitələrin gizlədilməsi

* işıq plafonları;
* tamburun yuxarı lyuku;
* bələdçilik otağında elektrik pultu;
* kupe və plaskart vaqonların 3-cü yuxarı rəfləri;
* akkumulyator bölməsi;
* vaqonun dəhlizində təsərrüfat bölmələri (döşəmədə);
* ayaqyolundakı su çənində;
* kupedəki ventilyasiya lyukunda;
* pəncərənin pərdəsinin arxası;
* vaqon-restoranda;
* işləməyən gecə işığının plafonu (tavan abajuru) – maşinistin kabinəsi.

## 18.5. Otaqlara baxış (axtarış)

Mənzillərin, otaqların baxışı yaxşı planlaşdırılmalıdır. Baxış keçirilən mənzil şərti olaraq sektorlara bölünməlidir və çox hallarda spiralvari metoddan istifadə edilir.

Yaşayış otaqlarında narkotik vasitələrin gizlədilmə yeri:

* qapıların, pəncərə altlıqlarının, pərdə üçün karnizlərin boşluqları;
* qapıların, pəncərə qutularının, yaşmaqların (plintus) altında;
* televiziya antenalarında;
* sobanın borularında;
* yalançı tavanlarda və bacalarda;
* istilik radiatorlarının arxasındakı boşluqlarda;
* pilləkənlərin dirəklərində, sürahilərdə;
* su sisteminin nəzarət lyuklarında;
* parketin, xalçaların altında;

* üz çəkilmiş kaşıların arxasında;
* yanğın təhlükəsizliyi sistemlərində;
* kondisionerlərdə, çilçıraqlarda;
* işıqlandırma sistemində, zənglərdə;
* telefon aparatlarında (gövdə, dəstək);
* soyuducuda (meyvə, tərəvəzin, ətin və s. içində);
* teleradio cihazlarında, çıraqlarda;
* lyuminesensiya lampalarında;
* qızdırıcılarda;
* yazı makinalarında və onların qutularında (futlyar);
* musiqi alətlərində və onların futlyarlarında;
* rəsm əsərlərinin arxasında;
* ev heyvanları saxlanılan yeşiklərdə;
* mebelin üzlüklərində və ayaqlarında, döşəklərdə, yataqda;
* pərdələrin büzmələrində;
* uşaq yataqlarında, oyuncaqlarında;
* heyvanların müqəvvələrində, saxsı və gildən düzəldilmiş heykəlciklərdə;
* şkaflara qoyulan paltarlarda;
* silahlarda, patronlarda, fotoaparatlarda, kitab və dəftərlərdə;
* mətbəx əşyalarında, qablarında, bıçaqların dəstəklərində və s.
* qida məhsullarında, meyvə və tərəvəzlərdə, yumurtada, çörəkdə və s.;
* tərəvəz konservləşdirilmiş bankalarda;
* zibil və yemək qalıqları yığılan paketlərdə;
* alətlər saxlanılan yeşikdə;
* döşəmə əskilərində, tualet kağızlarının döşəmələrində və s.
* ayaqyolu çanağının (unitaz), vannanın arxasında;
* duşxananın su püskürücüsündə;
* aerozol qablarında, krem, vazelin bankalarında, diş pastalarının tyubikində, sabunda, ülgüclərin qablarında, üz təraş etmək üçün sürtgəclərin (kist) dəstələrində, flakonlarda və s.;

* dərman qutusunda, dərman qablarında;
* pariklərdə;
* bağlanmış, möhürlənmiş siqaret paçkalarında (qutularında);
* ayaqqabı kremlərinin qutularında;
* tozsoranların borularında;
* ziynət əşyaları mücrüsində;
* idman avadanlığında;
* saçqurudanlarda;
* iynə, sancaq yastıqlarında və s.

## 18.6. Şəxsi baxış

**1. Paltara baxış aşağıdakı qaydada keçirilir:**
* üst paltarlar, papaqlar, ayaqqabılar;
* kəmər, qalstuk və alt paltarlar;
**2. Paltarda narkotik vasitələrin gizlətmə yerləri:**
* paltonun, pencəyin, gödəkçənin, plaşın yaxaları;
* ikidibli ciblər;
* astarların altına tikilmiş əlavə gizli ciblər;
* yaxalıq: manjet (paltarın qolunun qatlanmış hissəsi);
* şalvar, üzgücü tumanı, karset (enli kəmər);
* hərbçilərdə – kokarda, paqonlarda, aşırma və s. bel kəmərlərində;
* kəmərin toqqasında;
* büshalter, xüsusi kəmərlər;
* qalstukların, ləçəklərin düyünlərində;
* kişi çiyin bağlarında.
**3. Vətəndaşların əşyalarında narkotiklərin gizlətmə yerləri**:
* çemodanların, əl çantalarının, pul qablarının astarları;
* kosmetikada dodaq boyalarının, kremlərin tyubiklərində;
* qadın gigiyena paketlərində, tamponlarda, uşaq əsgilərində;

* alışqanlarda və siqaret qutularında;
* saqqızlarda;
* şüşə və dəmir bankalarda;
* termoslarda;
* üzlüklərdə, medalyonlarda, düymələrdə;
* tütünlə doldurulmuş paketlərdə, müştüklərdə, oyun kartlarında, təsbehlərdə, qalstuk sancaqlarında;
* eynəyin futlyarında, eşitmə aparatlarında, protezlərdə, əl ağacının, əsanın korpusunun boşluqlarında, çətirin dəstəyində;
* saatların korpuslarında;
* müxtəlif gips sarğılarında və s.;
* mobil telefonlarda.

Bədəndə narkotik vasitələrin gizlətmə yerləri
* ayaq barmaqlarının arasında və ya leykoplastrların arasında və ya leykoplastrların altında;
* xüsusi dəbdə qoyulmuş saçların arasında, pariklərdə;
* qabaqcadan sapla dişə bağlanmış və udulmuş konteynerlər;
* ağızda, burunda, qulaqlarda;
* uşaqlıq yolunda;
* bağırsaqlarda və s.

## XIX BÖLMƏ

# MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNƏ DAXİL OLAN ÖLKƏLƏRDƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ, İSTEHLAKI İLƏ MƏŞĞUL OLAN ŞƏXSLƏR ARASINDA İSTİFADƏ EDİLƏN BƏZİ JARQON SÖZLƏRİ VƏ İFADƏLƏRİ

| | |
|---|---|
| AN-DEŞ | - həşiş |
| ANTARİST | - kokain |
| BABAY | - Orta Asiyadan olan narkotiklərin alveri ilə məşğul olan şəxs |
| BALDEY | - narkotiklərin qəbulu nəticəsində baş dumanlanması |
| BANKİR | - çox böyük miqdarda narkotikin alveri ilə məşğul olan şəxs |
| BANKOVAT | - 1. narkotiki satmaq;<br>2. kartı paylamaq;<br>3. qiymət haqqında razılaşmaq; |
| BAŞ | - nəşənin birdəfəlik qəbul dozası (miqdarı) |
| BAYAN | - tibbi şpris |
| BEKAS | - narkotik olan papiros kötüyü |
| BELEŞKİ | - promedol, omnopol |
| BELYAŞKA | - morfiy |
| BONQ | - nəşə |
| BONDAR | - tiryəkxana saxlayan şəxs |
| BRİKET | - narkotik qutusu (narkotik bağlaması) |
| BROŞ NA SOBAKU | - qurban seçilmişi narkotiklə yatızdırmaq |
| VOLOKUŞA | - narkotik sərxoşluq vəziyyəti |

| | |
|---|---|
| VTIKAT morfiy (u) | - kokain qəbul etmək |
| QLOTEKEŞA | - tərkibində narkotiklər olan güclü təsir edən maddələri, tozları (həbləri) qəbul edən şəxs |
| QLOTAR | - narkotiki qəbul edən |
| QUŞA | - narkotik maddə |
| DAT TOLÇOK | - narkotikin dozasını qəbul etmək |
| DVİNUTSYA | - narkotiki inyeksiya yolu ilə qəbul edən şəxs |
| DEREVNYAŞKA | - morfinin ampulası |
| DJAMBA | - həşiş, nəşə |
| DOLBEY, DOLBOTA | - narkotik aclıq halı |
| DOPİNQ | - kodein, fenamin, fenatin |
| DORİ | 1. araq<br>2. narkotiklər |
| DRAP | 1. nəşə<br>2. narkotiklər (şərq) |
| DRAPARİK | - narkoman |
| DRYAR | - tiryək, promedol, omnopol |
| DUB | - nəşə |
| DURYOXA | - narkotiklər |
| DUR, DURSA | - tiryək |
| DUR, JENATAYA | - nəşə tütün ilə |
| ZABİT KOSYAK | - nəşə, həşişli papirosu çəkmək |
| ZVER | - narkotik alverçisi |
| ZOL | - papirosda nəşə dozası (miqdarı) |
| KAYF | - narkotik sərxoşluq vəziyyəti |
| KALİKİ | - kodein həbləri |
| KARA-XAN | - tiryək (şərqdə) |
| KAŞKAR | - narkotik maddə |
| KVİTUXA | - narkotiki almaq üçün resept |
| KELDİM | - tiryəkxana |
| KENAF | - həşiş, nəşə |
| KOKA | - kokain həbləri |

| | |
|---|---|
| KOKNAR, KUKNAR | - yağlı və tiryək xaşxaşının tinkturası (nastoykası) |
| KOKS | - kokain |
| KOLESO | - həb halında olan narkotiklər |
| KOROLEVA MARQO | - tibb bacısı |
| KOSYAK | - nəşənin dozası |
| KROVOSOS | - narkotik alverçisi |
| KUB | - narkotikin 1 qramı |
| KUKİŞ | - həşişin 1 qramı |
| KUMARNİY, KUMAR | - narkotik aclığı hiss etmək |
| KRNALO | - çətənə |
| LALA | - tiryək |
| LASLA | - həkim |
| MARAFET | - kokain |
| MARİYA | - məhlulda olan morfiy |
| MARFA | - morfiy |
| MARFET | - kokain |
| MAŞİNKA | - tibbi şpris |
| MEKON | - opium |
| MOL | - nəşə |
| MOROZ | - nəşə, həşiş |
| NOKS | - nəşə, həşiş |
| OXRANİK, OXNAR | - siqaret kötüyü |
| PAL | - nəşə, həşiş |
| PAXTAL, PAXTAÇ | - nəşə |
| PERXALKİ | - papiroslar |
| PESOK | - nəşə |
| PLAN | - nəşə |
| PANYUŞKA | - kokain porsiyası (miqdarı) |
| POSTAVİT FANU | - tibb müəssisəsindən narkotikin oğurlanması |
| PURN | - kodein |

| | |
|---|---|
| REZİDENT | - narkotiki daşıyan |
| PUMER | - narkotiki satan |
| ŞUŞNYAK | - opium, morfiy |
| FUFLO | - saxtalaşdırılmış narkotik |
| XANKA | - narkotik maddə tiryək tinkturası (nastoykası) |
| XUMAR | - narkotik aclıq |
| XURUS | - nəşə, həşiş |
| XUTAR | - narkotik sərxoşluq vəziyyəti |
| ÇEK | - toz halında narkotikin satılması ölçüsü (10 qrama qədər) |
| ÇERNOTA, ÇERNUXA, ÇERNYUŞKA | - tiryək |
| ÇERNYAQA | - morfinin dozası (zəif) |
| JAN (şərqdə) | - həşiş, nəşə |
| ŞİLO | - şpris üçün iynə |
| YAMA | - narkotik əldə edilən yer |
| ÇİFİR | - həddən artıq tünd dəmlənmiş çay və s. |
| ŞİRƏKEŞ | - narkotik maddəni iynə vurmaqla qəbul edən şəxs |
| ŞEYXOR | - narkotik maddəni siqaret, papiros çəkməklə qəbul edən şəxs |
| UYUB, UYMUŞDUR | - narkotik maddə qəbul etmiş və onun təsiri altında olan şəxs |
| UYDUR | - narkotik maddə qəbul edəndir |
| UYDURUBLAR | - narkotik maddəni çəkdiriblər, iynə vurmaqla bədənə yeridiblər, çayın və s. içkilərin içində güclü təsiredici dərmanlar verilmiş şəxs |
| MAŞİNKA | - şpris |
| ATIB, ATANDIR | - tiryək və güclü təsiredici həblər qəbul edən şəxs |

PUZIR - hazırlanmış narkotik maddə saxlanılan pensilin şüşə qablar. Belə qablardan tiryək və ya güclü təsir edən həbləri qoymaq üçün də istifadə edilir

**MST-də və CÇM-də həbsdə olan və məhbuslar arasında narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı işlədilən şifrlənmiş bəzi söz və ifadələr**

| | |
|---|---|
| QARAMAL | - tiryək (rus ifadəsi çernyuşka) |
| AĞ, AĞQUYRUQ | - heroin |
| AĞ, AĞBALADAN ÇƏKMƏK | - heroin çəkmək |
| AĞ, AĞQUYRUQ ÇƏKMƏK | - kokainli siqaret çəkmək |
| MULKA | - narkotik tərkibli məhlul |
| QABIQ ALDIM | - küknar aldım |
| BURUN GEDƏK | - kokain iyləmək |
| SARIMTILA ÇALAN HEROİN | - kakos |

Bir kameradan başqa bir kameraya narkotik göndərilməsini istəyən halda qeyd olunur: bir gülməli kitab göndər (Rusiyada isə deyilir: yumor göndər).

Kamerada tiryək var, qonşu kameradakı istəyəndə – şərbət qabını göndər (dolu şpris).

* yaxşı nəşə – yaxşı koşkar var;
* cəzaçəkmə müəssisəsinə narkotik göndərilməsi tələbi – məhəbbətə aid kitab göndər;
* qaramal göndər – tiryək (rus ifadəsi – çernyaşka);
* ağ, ağ quyruq göndər - heroin göndər;
* ağ, ağbaladan göndər – heroin göndər;
* ağ quyruq çəkək – kokainli siqaret çəkək;
* mülka – narkotik tərkibli məhlul;
* qabıq aldım – küknar aldım;

* burun gedək – kokain iyləmək;
* sarımtıla çalan heroin – kakos;
* heroin almaq üçün getmək – bir ədəd ağ köynək almaq üçün getmək;
* kiminsə evində narkotik var, istəyir ki, cəzaçəkmə yerlərinə gətirilsin – vəkilimi gördün, yemək istəyir;
* əgər evə xəbər göndərirsə ki, ona tiryək və ya digər narkotik göndərsinlər – bir toyuq çığırtması göndər.

# XX BÖLMƏ
# NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ SAHƏSİNƏ DAİR APARILAN TƏDQİQATLARIN NƏTİCƏLƏRİNƏ ƏSASƏN İRƏLİ SÜRÜLƏN TƏKLİFLƏR

Narkotik vasitələrin, prosxotrop maddələrin və onların prokursorlarının dövriyyəsi sahəsində qanunvericiliyin, hüquq-mühafizə orqanlarının təcrübəsi ilə bağlı materialların, elmi-nəzəri əsasların təhlilinə və bu istiqamətdə beynəlxalq təcrübə nəzərə alınmaqla apardığımız tədqiqatların nəticələrinə əsaslanaraq aşağıdakı təkliflərin verməsi zəruri hesab edilir:

1. “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanuna “əsas anlayışlar” adlı yeni maddə daxil edilsin və onda “əməliyyat-axtarış tədbirləri” və ƏAF haqqında qanunvericilikdə nəzərdə tutulmuş 19 növ ƏAT, o cümlədən “nəzarətli göndəriş” və “nəzarət qaydasında mal alınması”, “cinayətkar qruplara kriminogen obyektlə daxil olma” ƏAT-in anlayışlarının məzmun tutumları açıqlansın. Əməliyyat-axtarış tədbiri “nəzarətli göndəriş” və “nəzarət qaydasında mal alınması” tədbirlərinin məzmun tutumu aşağıdakı redaksiyalarda verilsin:

“ƏAT – Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunla müəyyən edilmiş vəzifələrin həlli üçün zəruri olan faktiki və digər məlumatların əldə edilməsinə bilavasitə istiqamətlənmiş aşkar və gizli qüvvə, metod və vasitələrin uzlaşdırılması əsasında bu Qanuna və digər normativ-hüquqi aktlara müvafiq olaraq səlahiyyətli dövlət orqanları tərəfindən həyata keçirilən hərəkətlərdir”.

“Nəzarətli göndəriş” – cinayətlərin xəbərdarlığı, qarşısının alınması, aşkar edilməsi, açılması və ƏAF-ın digər vəzifələrinin həlli məqsədilə malların, maddi sərvətlərin, valyutaların, həmçinin sərbəst dövriyyəsi qadağan edilmiş predmet, maddə və məhsulların, cinayət yolu ilə əldə olunmuş və özündə cinayətin izlərini saxlamış əşyaların, habelə cinayətin törədildiyi alət və vasitələrin, ƏAF-ın

həyata keçirən orqanın gizli nəzarəti altında yerinin dəyişdirilməsinə yol verilməsidir.”

Bu anlayışdan sonra aşağıdakı redaksiyanın verilməsi qanunvericilikdə təsbit edilən nəzarətli göndərişin predmeti anlayışının konkretləşdirməsinə və qanunvericilikdə mövcud olan boşluqların aradan qaldırılmasına imkan verir və hüquq tətbiqçilərinin təcrübi fəaliyyəti prosesində meydana çıxan bir sıra problemlərin həllinə xidmət edir və elmi əsaslarla uzlaşır:

“Nəzarətli göndərişin” və “nəzarət qaydasında mal alınması” ƏAT-in predmetinə aid edilir: narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, zəhərli maddələr və onların hazırlanması üçün istifadə edilən avadanlıq; radioaktiv maddələr və onların alınmasında istifadə edilən avadanlıq, qurğu və cihazlar; silahlar, döyüş sursatları, kütləvi qırğın silahları və onların hazırlanmasında istifadə edilən maddələr, avadanlıq, cihaz və qurğular; mədəni, arxeoloji və tarixi sərvətlər; parnoqrafik materiallar; saxta sənədlər, ştamp, möhür, blanklar və dövlət təltifləri; cinayətlərin törədilməsində istifadə edilən alət və vasitələr; qaçaqmalçılığın predmeti, həmçinin qanunvericiliklə nəzərdə tutulmuş digər əşya və maddələr”.

2. “ƏAF haqqında” Qanunun 10-cu maddəsinin I hissəsinin 10-cu bəndində nəzərdə tutulmuş tədbirinin adı “müşahidə” adı kimi verilsin və bu tədbirin ictimai yerlərdə müxtəlif obyektlərə və cinayətlərdə şübhə doğuran şəxslərə və nəqliyyat vasitələri üzərində keçirilməsi hüquqları verilsin. Bu hüquqlar ƏAF-ın bütün subyektlərinə öz səlahiyyətlərinə müvafiq olaraq verilsin.

3. 2-ci bənddə göstərilənlər nəzərə alınmaqla, DGK-yə təhqiqatı, istintaqı onun səlahiyyətlərinə aid olan cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması məqsədilə CPM-ın 445.1.5. maddəsində nəzərdə tutulmuş ƏAT istisna olmaqla, müşahidə ƏAT-nin keçirilməsi hüquqlarının verilməsi qanunvericilikdə (Prezidentin 19.06.2001-ci il tarixli fərmanında) nəzərdə tutulsun.

4. “ƏAF haqqında” Qanunun 14-cü maddəsinin ayrıca hissəsində və CPM-in 84, 85 və 86-cı maddələrində ƏAF-ı həyata keçirən orqanın (onun əməkdaşının) ƏAT-nin hansı növünün tətbiq edilməsinin seçimində müstəqil olmasını ehtiva edən müddəa təsbit edilsin.

5. ƏAT-in nəticələrinin sənədləşdirilməsində CPM-də nəzərdə tutulmuş istintaq hərəkətləri (baxış, axtarış və götürmə, poçt, teleqraf və digər göndərişlərin baxışı və götürülməsi, dindirmə, şəxsin və əşyaların tanınması və s.) ilə qismən oxşar cəhətləri olan ƏAT-ın nəticələrinin CPM-in qeyd edilən istintaq hərəkətlərinin sənədləşməsinə müvafiq olaraq, “qanunun analogiyası” prinsipindən istifadə edilməsinin mümkünlüyünü əks etdirən norma “ƏAF haqqında” Qanunda əhatə edilsin.

6. “ƏAF haqqında” Qanunun 7-ci maddəsinə aşağıdakı redaksiyada norma daxil edilsin:

“ƏAF-ı həyata keçirən orqanın əməkdaşını və bu orqanlarla konfidensiallıq əsasında əməkdaşlıq edən şəxslərin” cinayətkar qruplara kriminogen obyektinə daxil etmək, “nəzarət qaydasında mal alınmasında” öz şəxsiyyətini, idarə mənsubiyyətini pərdələməklə iştirak etmək”.

7. “Azərbaycan Respublikasının narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Qanunun 31-ci maddəsində tədbirin keçirilməsinin məqsədi kimi sübutların əldə edilməsi göstərilmişdir. Bu cinayət-prosessual qanunvericiliyin (CPM-in 124, 125, 137-ci maddələrinin) “ƏAF haqqında” Qanunun 16-cı maddəsinin və elmi əsasların tələblərinə ziddir, belə ki, ƏAF-ın həyata keçirilməsində bilavasitə sübutlar deyil, sonradan (gələcəkdə) sübut qismində istifadə edilə biləcək faktiki məlumatlar əldə edilir.

Qanunda bu maddənin aşağıdakı redaksiyada verilməsini düzgün hesab edirik:

“Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayətkar fəaliyyət

haqqında sübut qismində edilə biləcək məlumatları (faktiki məlumatları) əldə etmək məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarına narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, həmçinin onların hazırlanması üçün istifadə olunan alət və avadanlığın alınması hüquqları verilir.”

Bu hissədə aşağıdakı məzmunda norma nəzərdə tutulsun: DGK-nə qaçaqmalçılığın predmetləri ilə bağlı “nəzarətli göndəriş”in və “nəzarət qaydasında mal alınması” ƏAT-nin öz səlahiyyətləri çərçivəsində həyata keçirmək hüququna malikdir.

Bu məzmunda norma Azərbaycan Respublikası Prezidentinin 19.06.2001-ci il tarixli və ya 22 may 2007-ci il tarixli Fərmanlarına yeni Prezident Fərmanı ilə əlavə və dəyişikliklərin edilməsi yolu ilə də edilə bilər və s.

8. ƏAF-ın təşkili, həyata keçirilməsi ilə bağlı beynəlxalq qanunvericiliyə, cinayətkarlığa qarşı mübarizə siyasətinə, nəzəri əsaslara, təcrübi materiallara, apardığımız tədqiqat materiallarının nəticələrinə əsaslanaraq DGK və ƏAF-in digər subyektlərinə, öz səlahiyyətləri çərçivəsində “ƏAF haqqında” Qanun 14-2 maddəsinin müddəalarında DİN və xüsusi xidmətlərə verilən hüquqlar şamil edilməsi və CPM-in 445.1.5. maddəsində göstərilən tədbirlər istisna olmaqla digər tədbirləri həyata keçirmək hüquqlarının verilməsini məqsədəuyğun hesab edirik. Bizim fikrimizcə, belə halda operativlik, məlumatların sızmasına yol verilməməsi, praktiki və məqsədəuyğunluq kimi əsas şərtlər, xüsusilə də cinayətkarlığa qarşı mübarizə siyasətinin prinsipləri təmin edilmiş olur və cinayətkarlığa qarşı mübarizədə daha yüksək nəticələrə nail olmaq olar.

9. Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli “Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında” Fərmanın 1-ci bəndində göstərilən məhdudiyyətlər nəzərə alınmaqla tətbiq edilən tədbirlərdə onun keçirilməsinə sorğu verən ƏAF-ın subyektinin iştirakının mümkünlüyünün qanunvericilikdə əhatə

edilməsini məqsədəmüvafiq edirik. Bu təcrübədə mövcud olan şübhəli məqamların, bəzi problemlərin, mübahisəli məsələlərin həllinə xidmət edir.

10. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" 28 iyun 2005-ci tarixli Qanun 15-ci maddəsində ("ƏAF-da narkotik vasitələr, psixotrop maddələrin və prekursorlardan istifadə") qeyd edilir ki, ƏAT-ın həyata keçirilməsində qeyd edilən vasitə, maddə və onların prekursorlarından istifadə "ƏAF haqqında" Qanunla müəyyən edilmiş qaydada həyata keçirilir. Lakin bu gün də qeyd edilən qanunda və heç bir normativ-hüquqi aktla bu qaydalar müəyyən edilməmişdir.

Qanunda belə bir normanın nəzərdə tutulması narkotik vasitələrin, psixotrop maddələrin və prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin aşkar edilməsi, açılması, onları hazırlayan, törədən və törətmiş şəxslərin ifşa edilməsi məqsədilə daha çox tətbiq edilən "cinayətkar qruplara kriminagen qruplara daxil olması", "əməliyyat eksperimenti", "müqayisəli tətbiq üçün nümunələrin toplanması", "əşya və sənədlərin tədqiqi" "nəzarətli göndəriş", "nəzarət qaydasında mal alınması" ƏAT-ın və s. agentura – əməliyyat-axtarış tədbirlərinin müvəffəqiyyətlə keçirilməsi prosesində əlverişli şəraitlərinin yaradılması üçün çox uğurlu bir hüquqi vasitədir. Təəssüflər olsun ki, bu hüquq normasının icra mexanizmi, onun tətbiq edilməsini müəyyən edən qanunqüvvəli normativ aktlar işlənib hazırlanmamışdır və bu norma formal xarakter daşıyır. Məhz bu səbəbdən qanunun bu maddəsində ehtiva olunan norma formal xarakter daşıyır, ona görə də qeyd edilən məsələlərin qanunvericilik səviyyəsində həll edilməsini vacib bilirik.

Qeyd edilən məsələlərə aydınlığın gətirilməsinin digər və daha səmərəli yolu ondan ibarətdir ki, 28 may 2005-ci il tarixli Qanunun 15-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"ƏAF-ı həyata keçirən orqanlar öz səlahiyyətləri hədlərində "nəzarətli göndəriş", "nəzarət qaydasında mal alınması", "əməliyyat

M a d d ə 6. **Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsi, onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar fəaliyyət növlərinə icazənin və ya lisenziyanın (xüsusi razılığın) verilməsi**

6.1. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsində, onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən şəxslərin fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən icazə və ya lisenziya (xüsusi razılıq) əsasında həyata keçirilir.

6.2. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsində, onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən şəxslərə verilmiş hər bir icazə və yalisenziya (xüsusi razılıq) barədə bildiriş dərhal narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə, onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair ümummilli məlumat bankına daxil edilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına

göndərilir. Həmin bildirişdə hüquqi və fiziki şəxsin tam adı, fəaliyyət növü, ünvanı, onlar barədə məlumatlar, lisenziyanın (xüsusi razılığın) müddəti, istifadə olunan narkotik vasitələrin və psixotrop maddənin, onların prekursorlarının adı (azərbaycanca və latınca), saxlanılma yeri, istifadə üçün yararlıq müddəti və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş digər məlumatlar əks olunur.

6.3. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsində, onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak etmək səlahiyyətinə malik olan şəxslər həmin dövriyyə çərçivəsində hər hansı əməliyyatları yalnız müvafiq fəaliyyət növü ilə məşğul olmaq üçün icazəsi və ya lisenziyası (xüsusi razılığı) olan əks tərəflə aparmalıdırlar. Bu tələbin pozulması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

6.4. Narkotik vasitələrin və psixotrop maddələrin təcrübəvi hazırlanması yalnız dövlət orqanları tərəfindən həyata *keçirilir*. Alınmış hər bir yeni narkotik vasitə və psixotrop maddə barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına dərhal məlumat verilir. Həmin məlumat 10 gün müddətində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq beynəlxalq təşkilatlara göndərilir.[1]

Maddə 7. **Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsi və onların prekursorlarının idxalı,**

**ixracı, tranzit nəql edilməsi və istehsalı sahəsində dövlət orqanlarının vəzifələri**

7.1. Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinin və onların prekursorlarının idxalının, ixracının, tranzit nəql edilməsinin və istehsalının tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı:

7.1.1. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahılarının layihələrini tərtib edir;

7.1.2. bu Qanuna əsasən narkotik vasitələrin və psixotrop maddələrin alınması, saxlanılması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi qaydasını müəyyən edir;

7.1.3. narkotik vasitələrin və psixotrop maddələrin təcrübəvi hazırlanması qaydasını və bu fəaliyyətlə məşğul olan dövlət orqanlarının dairəsini müəyyən edir;

7.1.4. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin,

psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi, habelə məhv edilməsi nəzərdə tutulan narkotik vasitələrdən müvafiq icra hakimiyyəti orqanlarının kinoloji xidmətləri tərəfindən narkotik vasitələrin axtarışı üzrə aparılan təlimlərdə istifadə olunması qaydasını müəyyən edir;[2]

7.1.5. narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair Milli İnformasiya Mərkəzini yaradır;

7.1.6. narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankını təşkil edir, həmin məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması qaydasını müəyyən edir;

7.1.7. narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydasını və şərtlərini, habelə narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi qaydasını müəyyən edir; 7.1.8. qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi üçün təhvil verilməsi qaydasını müəyyən edir;

7.1.9. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi, onların prekursorlarının qanunsuz

idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı, habelə narkomanlığın yayılması ilə mübarizə üzrə məqsədləri, vəzifələri və fəaliyyət istiqamətləri, o cümlədən tələb olunan maliyyə vəsaitləri və onların mənbələri göstərilməklə dövlət proqramının layihəsini hazırlayır.

7.2. Bu Qanunun 7.1. 1-ci maddəsində göstərilən siyahılar~~, habelə 7.1.9-cu maddəsində nəzərdə tutulmuş dövlət proqramı~~ Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilir.[3]

Maddə 8. **Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə, onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair ümummilli məlumat bankının yaradılması**

8.1. Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə, onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair ümummilli məlumat bankı yaradılır və bununla bağlı məlumatlar daxil edilir.

8.2. Ümummilli məlumat bankı üç bölmədən ibarətdir:

8.2.1. narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair, habelə belə dövriyyədə iştirak edən şəxslərə dair məlumat bölməsi;

8.2.2. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair, habelə belə dövriyyədə iştirak edən şəxslərə dair məlumat bölməsi;

8.2.3. narkomanlıq xəstəliyinə düçar olan və narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərə dair məlumat bölməsi.

8.3. Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin qeydiyyatını aparan narkoloji - tibb müəssisəsi həmin şəxslər, habelə narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən digər şəxslər barəsində yalnız kəmiyyət göstəricilərini əks etdirən məlumatları ümummilli məlumat bankına daxil *edir*.[4]

Maddə 9. **Narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsinə dair Milli İnformasiya Mərkəzinin yaradılması**

9.1. Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair Milli İnformasiya Mərkəzi yaradılır.

9.2. Milli İnformasiya Mərkəzinin əsas məqsədi narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair şəxsi həyat sirri olmayan və obyektiv məlumatların məcmusunu təşkil etməkdir.

9.3. Milli İnformasiya Mərkəzi aşağıdakı məlumatları özündə əks etdirir:

9.3.1. narkotik vasitələrin və psixotrop maddələrin qeyri-tibbi və tibbi istifadəsi, onların tibbi, iqtisadi və digər nəticələri haqqında;

9.3.2. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və onun nəticələri haqqında;

9.3.3. narkotik vasitələrə və psixotrop maddələrə olan tibbi və qeyri-tibbi tələbat haqqında;

9.3.4. narkotik vasitələrin və psixotrop maddələrin insanlara və cəmiyyətə vura biləcəyi zərərin və onlara olan qeyri-tibbi məqsədlərlə təklifin azaldılmasına yönəlmiş tədbirlər haqqında;

9.3.5. narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və reabilitasiyası ilə bağlı şəxsi həyat sirri olmayan məlumatlar;

9.3.6. narkotik vasitələrin və psixotrop maddələrin yayılmasına qarşı mübarizə sahəsində qeyri-hökumət təşkilatlarının həyata keçirdikləri tədbirlər haqqında;

9.3.7. narkotik vasitələrə və psixotrop maddələrə dair ölkədə aparılan epidemioloji tədqiqatların yekunları və ölkədə mövcud epidemioloji vəziyyətin qiymətləndirilməsi haqqında;

9.3.8. narkotik vasitələrə dair dövlət siyasətini və normativ hüquqi *tənzimlənmə məsələləri* əhatə edən məlumatlar.[5]

## III fəsil
## NARKOTİK VASİTƏLƏRDƏN, PSİXOTROP MADDƏLƏRDƏN VƏ ONLARIN PREKURSORLARINDAN İSTİFADƏ

Maddə 10. **Narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından tibbi məqsədlərlə istifadə**

10.1. Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsində tibbi məqsədlərlə istifadə olunan narkotik vasitələrin və dövriyyəsi məhdudlaşdırılan və nəzarət edilən psixotrop maddələrin yalnız dövlət narkoloji-tibb müəssisələrində tətbiqinə icazə verilir.

10.2. Bir yaşayış məntəqəsində iki paralel əvəzedici müalicə proqramlarının tətbiqinə və stasionar bölməsi olmayan narkoloji-tibb müəssisələrində əvəzedici müalicə proqramlarının tətbiqinə yol verilmir.

10.3. Əvəzedici müalicə proqramlarına qəbul olunmuş hər bir xəstə barəsində 3 gün müddətində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına məlumat verilir.

10.4. Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsində istifadə olunan əvəzedici müalicə proqramlarının tətbiqinin şərtləri və qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 11. **Tranzit sərnişinlərin müalicəsi məqsədilə narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə**

11.1. Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xəstə müalicə məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada və istifadə miqdarı həddində narkotik vasitələr və psixotrop maddələr apara bilər.

11.2. Əgər müalicəsini davam etdirmək üçün bu Qanunun 11. 1-ci maddəsində nəzərdə tutulmuş şəxsin narkotik vasitələrə və psixotrop maddələrə əlavə tələbatı yaranarsa, həmin tələbatın ödənilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

Maddə 12. **Baytarlıq məqsədləri ilə narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından istifadə**

Baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısı və onlardan istifadə qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 13. **Elmi məqsədlərlə, tədris və təlim məqsədləri ilə narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə**[6]

13.1. Elmi məqsədlərlə və tədris məqsədləri ilə narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə hüquqi şəxslər tərəfindən yalnız icazə əsasında Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.[7]

13.2. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhv edilməsi nəzərdə tutulan narkotik vasitələrdən müvafiq icra hakimiyyəti orqanlarının kinoloji xidmətləri tərəfindən narkotik vasitələrin axtarışı üzrə aparılan təlimlərdə istifadə olunması Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.[8]

Maddə 14 . **Narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından ekspert fəaliyyətində istifadə**

Ekspertizanın aparılması məqsədilə narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından istifadə yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Maddə 15 . **Əməliyyat-axtarış fəaliyyətində narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından istifadə**

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından istifadə *Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu* ilə müəyyən edilmiş qaydada həyata keçirilir.[9]

Maddə 16 . **Fiziki şəxslərə narkotik vasitələrin və psixotrop maddələrin buraxılması**

Tibbi məqsədlərlə fiziki şəxslərə narkotik vasitələrin və psixotrop maddələrin buraxılması belə fəaliyyət növünə lisenziyası (xüsusi razılığı) olan apteklərdən və müalicə-profilaktika müəssisələri tərəfindən həyata keçirilir.

Maddə 17. **Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsi və onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı faəliyyət haqqında hesabat**

Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsi və onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı fəaliyyət növünə icazə və ya lisenziya (xüsusi razılıq) almış şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada buna səlahiyyəti olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına öz fəaliyyəti haqqında hesabat verirlər.[10]

M a d d ə 18 . **Narkotik vasitələrin və psixotrop maddələrin inventarlaşdırılması**

18.1. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə icazə almış şəxslər hər ay onların sərəncamında olan narkotik vasitələrin və psixotrop maddələrin inventarlaşdırılmasını aparmalı, malların və digər maddi dəyərlərin balansını tərtib etməlidirlər.[11]

18.2. Balansda üzə çıxan fərqlər, yaxud balansda olan rəqəmlərlə aparılan inventarlaşdırılmanın nəticələri arasında uyğunsuzluqlar aşkar edildikdə, bu barədə 3 gün müddətində icazə almış şəxslər tərəfindən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına məlumat verilir.[12]

18.3. Narkotik vasitələrin və psixotrop maddələrin sayı və vəziyyəti haqqında bütün dəyişikliklər operativ şəkildə xüsusi jurnalda qeyd olunur. Belə jurnalların aparılması və saxlanılması qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

## IV f ə s i l

## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ İDXALI, İXRACI, TRANZİT NƏQL EDİLMƏSİ VƏ İSTEHSALI İLƏ ƏLAQƏDAR MÜBARİZƏ TƏDBİRLƏRİ

M a d d ə 19 . **Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların**

**prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar mübarizə tədbirləri**

19.1. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi zamanı narkomanlığın əleyhinə təbliğata və narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı hüquq pozuntularının profilaktikasına yönəlmiş fəaliyyətə üstünlük verilir.

19.2. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinin və onların prekursorlarının qanunsuz idxalının, ixracının, tranzit nəql edilməsinin və istehsalının qarşısının alınması məqsədilə:

19.2.1. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı yolları və üsulları aşkar edilir və onların qarşısı alınır;

19.2.2. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən şəxslər aşkar edilir və məsuliyyətə cəlb olunur;

~~19.2.3. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə~~

~~üzrə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən ixtisaslaşdırılmış bölmələr yaradıla bilər;~~[13]

19.2.4. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz hazırlanması, təchiz edilməsi və saxlanılması faktları aşkar edilir və bununla əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlər həyata keçirilir;

19.2.5. tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz əkinləri aşkar və məhv edilir;

19.2.6. narkomanlığın profilaktikası, narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və onların reabilitasiyası, narkomanlığın yayılmasına təkan verən səbəblərin aradan qaldırılması üçün zəruri olan tədbirlər həyata keçirilir;

19.2.7. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində görülən tədbirlər və onların nəticəsi barədə məlumatlar dərc edilməsi üçün kütləvi informasiya vasitələrinə verilir;

19.2.8. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə dair tədbirlər həyata keçirilir.

Maddə 20. **Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit**

**nəql edilməsində və istehsalında iştirak etmiş şəxslər barəsində tətbiq olunan məhdudiyyətlər**

20.1. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsinə aşağıdakı hallarda yol verilir:

20.1.1. şəxs narkomanlıq xəstəliyinə düçar olduqda;

20.1.2. şəxs narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından sui-istifadəyə yol verdikdə;

20.1.3. şəxs narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak etdikdə.

20.2. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak etmiş və bununla əlaqədar məhkum olunmuş şəxslər, narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsi, onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı peşə növlərinə buraxılmırlar və mülkiyyət formasından asılı olmayaraq narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsində və onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən idarə, müəssisə və təşkilatlarda işə qəbul edilə bilməzlər.

20.3. Vətəndaşların hüquqlarının, qanuni mənafelərinin və dövlətin təhlükəsizliyinin müdafiəsi məqsədilə narkomanlıq xəstəliyinə düçar olan şəxslər, o cümlədən narkotik vasitələrin, psixotrop maddələrin istehlakı ilə məşğul olan və ya onlardan sui-istifadə edən şəxslər üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olmağa məhdudiyyətlər qoyulur. Belə peşə növlərinin və vəzifələrin siyahısı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

20.4. Peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslər işə qəbul olunduqda, işlədiyi müddətdə ildə bir dəfədən az olmayaraq dövlət narkoloji-tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan) keçirlər. Belə şəxslərin tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 21. **Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak miqdarı**

21.1. Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak üçün nəzərdə tutulan miqdarı şəxsi istehlak üçün mümkün, hər bir narkotik vasitənin və ya psixotrop maddənin ayrı-ayrılıqda birdəfəlik istehlakı həcminə əsasən müəyyən edilir. Şəxsi istehlak üçün nəzərdə tutulan narkotik

vasitələrin və psixotrop maddələrin miqdarı onların təmiz və qarışıq vəziyyətində ayrılıqda müəyyən olunur.

21.2. Qazanc əldə etmək məqsədilə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən edilməsi, belə şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarı, habelə onların külli miqdarı müəyyən edilir.

21.3. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilir.

Maddə 22. **Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar qanun pozuntularına qarşı inzibati-hüquq tədbirləri**

22.1. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar inzibati məsuliyyət Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda yaranır.

22.2. Prekursorlarla və onların hazırlanması üçün nəzərdə tutulmuş avadanlıqla bağlı törədilən hüquq pozuntularına görə inzibati məsuliyyət yalnız onların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz

dövriyyəsində istifadə edildiyi və ya belə istifadə üçün nəzərdə tutulduğu hallarda yaranır.

22.3. Narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi və ya narkomanlıq xəstəliyinə düçar olması ilə əlaqədar müalicə olunmuş şəxs narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və prekursorların qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar inzibati məsuliyyətə cəlb edildikdə onun müalicə olunduğu narkoloji-tibb müəssisəsi bu barədə məlumatlandırılır.

Maddə 23. **Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayət-hüquq tədbirləri**

23.1. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət məsuliyyəti Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə nəzərdə tutulduğu hallarda yaranır.

23.2. Narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi və ya narkomanlıq xəstəliyinə düçar olması ilə əlaqədar müalicə olunmuş şəxs narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayət məsuliyyətinə cəlb edildikdə onun müalicə olunduğu narkolojitibb müəssisəsi bu barədə məlumatlandırılır.

## V fəsil
## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ İDXALI, İXRACI, TRANZİT NƏQL EDİLMƏSİ VƏ İSTEHSALI İLƏ ƏLAQƏDAR HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR

Maddə 24 . **Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar həyata keçirilən tədbirlər**

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına qarşı mübarizəni həyata keçirən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada nəzarətli göndərişi həyata keçirmək, göndərilən yükləri, poçt göndərişlərini yoxlamaq, nəzarət qaydasında narkotik vasitələri və psixotrop maddələri almaq və qanunla nəzərdə tutulmuş digər əməliyyat-axtarış tədbirlərindən istifadə etmək hüququna malikdirlər.

Maddə 25 . **Tibbi müayinə**

25.1. Tibbi müayinə yalnız narkotik sərxoşluq vəziyyətinin, narkotik vasitələrin və psixotrop maddələrin

istehlakı və insan bədəni daxilində narkotik vasitələrin və psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata *keçirilir*. Narkotik sərxoşluq vəziyyətində olması və ya öz bədəni daxilində narkotik vasitələr və psixotrop maddələr daşıması haqqında əsaslı şübhələr olan, habelə özündə narkotik vasitələr və psixotrop maddələr aşkar edilmiş şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tibbi müayinədən *keçirilir*. Tibbi müayinə dövlət narkoloji-tibb müəssisələrində həyata keçirilir.[14]

25.2. Tibbi müayinə həkim-narkoloq, həkim olmadıqda isə feldşer-narkoloq tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata *keçirilir*. Şəxsin tibbi müayinədən keçməsi haqqında tərtib edilən rəydə onun narkotik sərxoşluq vəziyyətində olub-olmaması, orqanizmdə insanın bioloji mühitlərinin tədqiqatı nəticəsində aşkarlanan narkotik vasitələrin və psixotrop maddələrin növü, ehtiyac olduqda miqdarı və təxmini istehlak etmə vaxtı əks etdirilməlidir.

25.3. Şəxsin tibbi müayinədən keçməsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Maddə 26. **Narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi**

26.1. Cinayət törətmiş narkomanlıq xəstəliyinə düçar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə

müəyyən edilmiş qaydada məcburi müalicə olunurlar. Narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində bu xəstəliklə əlaqədar məcburi müalicə tədbirləri, həmin şəxsə cinayət törətdiyinə görə cəza verməklə yanaşı, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəmə tərəfindən tətbiq edilir. Məcburi tədbirlərin tətbiqi zamanı istifadə olunan tibbi üsullar könüllü müalicəyə müraciət etmiş xəstələrə tətbiq edilən üsullardan fərqlənmir və tibb elminin son nailiyyətlərinə əsaslanır. Məcburi müalicəyə cəlb edilmiş xəstələrin cəzaçəkmə yerlərində saxlama və müalicə rejimləri Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən olunur.

26.2. Azadlıqdan məhrumetmə ilə əlaqədar cəzaya məhkum edilməklə yanaşı, barəsində məcburi müalicə tədbirləri tətbiq edilmiş şəxslər cəza çəkdikləri müddət ərzində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müalicə olunurlar.

26.3. Azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, barəsində məcburi müalicə tədbirləri tətbiq edilmiş şəxslər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı yanında təşkil edilmiş ixtisaslaşdırılmış tibb müəssisəsində stasionar və ya ambulator müalicə olunurlar. İxtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicənin şərtləri və qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

*26.3-1. İnzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərə inzibati həbs*

*tənbeh növü tətbiq edilərkən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəmə tərəfindən məcburi müalicə təyin edilir.*[15]

26.4. Cinayət *və ya inzibati həbs nəzərdə tutan inzibati xəta* törətməmiş, lakin öz davranış və hərəkətləri nəticəsində dəfələrlə yaxın qohumlarına maddi və mənəvi zərər yetirmiş, uşaqların tərbiyəsinə mənfi təsir göstərmiş, onların hüquqlarını kobudcasına pozmuş, təklif olunmuş könüllü müalicədən dəfələrlə imtina etmiş narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində Azərbaycan Respublikasının *Mülki Prosessual Məcəlləsinə* uyğun olaraq məcburi tibbi tədbirlər tətbiq *edilir.*[16]

26.5. Əlillər, sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər, hamilə qadınlar və südəmər uşaqları olan analar, 60 yaşından yuxarı olan kişilər və 55 yaşından yuxarı olan qadınlar, eləcə də siyahısı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş xəstəlikləri olan şəxslər barəsində müalicə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydalara əsasən tətbiq olunur.[17]

26.6. Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin məcburi müalicəyə göndərilməsi Azərbaycan Respublikasının *Mülki Prosessual Məcəlləsi, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi* ilə müəyyən edilmiş qaydada həyata keçirilir.[18]

Maddə 27. **Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan**

**şəxslərin məcburi müalicədən vaxtından əvvəl azad edilməsi**

27.1. Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslər aşağıdakı hallarda məcburi müalicədən vaxtından əvvəl azad *edilirlər*:[19]

27.1.1. narkoloji-tibb müəssisəsində qalmasına maneçilik törədən ağır xəstəliyə düçar olduqda;

27.1.2. narkomanlıq xəstəliyindən müalicənin başlanması vaxtından azı 6 ay keçdikdən sonra müalicənin davam etdirilməsinə olan zərurət aradan qalxdıqda.

27.2. Məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslərin narkoloji-tibb müəssisəsindən vaxtından əvvəl azad edilməsi həmin müəssisənin müdiriyyətinin təqdimatı və tibbi rəyi nəzərə alınmaqla yerli məhkəmənin qərarı əsasında həyata keçirilir.

Maddə 28. **Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslərin məcburi müalicə müddətinin uzadılması**

Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslər mütəmadi olaraq müalicə rejimini pozduqda və bununla əlaqədar həyata keçirilən müalicə tədbirləri müsbət nəticə vermədikdə, *Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət-Prosessual*

*Məcəlləsinə uyğun olaraq* məhkəmənin qərarı əsasında belə şəxslərin məcburi müalicə müddəti uzadıla bilər.[20]

Maddə 29. **Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar əməliyyat-axtarış fəaliyyəti**

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar hüquq pozuntularının aşkar edilməsi məqsədilə bu Qanunun 24-cü maddəsində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

Maddə 30. **Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi**

30.1. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi - narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində ibtidai araşdırma aparmaq səlahiyyətinə malik olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının nəzarəti altında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının ərazisində qanunsuz hesab edilən və ya şübhə doğuran

narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının daşınması, göndərilməsi və ya digər üsulla yerinin dəyişdirilməsidir.

30.2. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişinin həyata keçirilməsinə yalnız mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı sahəsində törədilən və ya hazırlanan cinayətlərin qarşısının alınması, açılması, həmin cinayətləri törədən şəxslərin vaxtında aşkar edilməsi və onların cinayət məsuliyyətinə cəlb edilməsi məqsədilə yol verilir.

30.3. Nəzarətli göndərişin keçirilməsinə dair qərar yalnız narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində ibtidai araşdırma aparmaq səlahiyyətinə malik olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul *edilir*.[21]

Həmin qərarda istifadə edilən narkotik vasitənin, psixotrop maddənin və ya onların prekursorlarının əldə edilməsinin mənbəyi və miqdarı barədə məlumatlar mütləq göstərilməlidir.

30.4. Nəzarətli göndərişin həyata keçirilməsinə dair qərarı qəbul etmək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları həmin əməliyyatın Azərbaycan Respublikasının ərazisində aparılmasına bilavasitə rəhbərlik edirlər.

**Maddə 31. Nəzarət qaydasında qanunsuz hesab edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının alınması**

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayətkar fəaliyyət haqqında sübut əldə etmək məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşları "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzarət qaydasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarını almaq hüququna malikdirlər.

**Maddə 32. Müsadirə**

32.1. Qanunsuz dövriyyədə olan narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, eləcə də onların qanunsuz hazırlanması üçün istifadə edilən alət və avadanlıq, habelə narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında istifadə edilən və bunun nəticəsində əldə olunan əmlak və maliyyə vəsaitləri aşkar edildikdə onlar barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlər görülür.

32.2. Qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi yalnız Azərbaycan Respublikasının məhkəmə, prokurorluq və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının nümayəndələrindən ibarət tərkibdə yaradılmış komissiya tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

32.3. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayət-hüquq tədbirlərinin tətbiq edilməsi nəticəsində müsadirə olunmuş və dövlət hesabına yönəldilmiş əmlak, yalnız narkomanlığın profilaktikasına və narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsinə və sosial reabilitasiyasına sərf edilir.

## VI fəsil
## YEKUN MÜDDƏALAR

### Maddə 33 . **Qanunun qüvvəyə minməsi qaydası**

33.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

33.2. Bu Qanun qüvvəyə mindiyi gündən "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" 1999-cu il 18 iyun tarixli

Azərbaycan Respublikasının Qanunu qüvvədən düşmüş hesab edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 iyun 2005-ci il
№ 959-IIQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 17 aprel 2007-ci il tarixli 316-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 437**)
2. 1 oktyabr 2007-ci il tarixli 418-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 932**)
3. 9 oktyabr 2007-ci il tarixli 429-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 938**)
4. 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 602**)
5. 30 dekabr 2008-ci il tarixli 753-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 16 yanvar 2009-cu il, № 16, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 6)**
6. 28 oktyabr 2014-cü il tarixli **1101-IVQD** nömrəli Azərbaycan Respublikasının

Qanunu **("Respublika" qəzeti, 2 dekabr 2014-cü il, № 263; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1374)**

7. 6 oktyabr 2015-ci il tarixli **1366-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 14 noyabr 2015-ci il, № 250)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 9 oktyabr 2007-ci il tarixli 429-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 938**) ilə 6-cı maddənin adında, 6.1-6.3-cü maddələrdə ismin müvafiq hallarında "**lisenziya**" sözündən əvvəl "**icazə və ya**" sözləri əlavə edilmişdir.

28 oktyabr 2014-cü il tarixli **1101-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 2 dekabr 2014-cü il, № 263; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1374)** ilə 6.4-cü maddənin birinci cümləsində "**keçirilə bilər**" sözləri "**keçirilir**" sözü ilə əvəz edilmişdir.

[2] 30 dekabr 2008-ci il tarixli 753-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti**

**16 yanvar 2009-cu il, № 16, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 6)** ilə 7.1.4-cü maddədə "**edilməsi**" sözündən sonra "**, habelə məhv edilməsi nəzərdə tutulan narkotik vasitələrdən müvafiq icra hakimiyyəti orqanlarının kinoloji xidmətləri tərəfindən narkotik vasitələrin axtarışı üzrə aparılan təlimlərdə istifadə olunması**" sözləri əlavə edilmişdir.

[3] 1 oktyabr 2007-ci il tarixli 418-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 932**) ilə 7.2-ci maddəsindən "**, habelə 7.1.9-cu maddəsində nəzərdə tutulmuş dövlət proqramı**" sözləri çıxarılmışdır.

[4] 28 oktyabr 2014-cü il tarixli **1101-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 2 dekabr 2014-cü il, № 263; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1374)** ilə 8.3-cü maddədə "**edə bilər**" sözləri "**edir**" sözü ilə əvəz edilmişdir.

[5] 28 oktyabr 2014-cü il tarixli **1101-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 2 dekabr 2014-cü il, № 263; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1374)** ilə 9.3.8-ci maddədə "**məsələləri**" sözü "**tənzimlənmə məsələləri**" sözləri ilə əvəz edilmişdir.

[6] 30 dekabr 2008-ci il tarixli 753-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 16 yanvar 2009-cu il, № 16, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 6)** ilə 13-cü maddənin adında "**və tədris**" sözləri "**, tədris və təlim**" sözləri ilə əvəz edilmişdir.

[7] 9 oktyabr 2007-ci il tarixli 429-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 938**) ilə 13-cü maddədən "**bu növ fəaliyyət üçün lisenziya (xüsusi razılıq)**" sözləri "**icazə**" sözü ilə əvəz edilmişdir.

[8] 30 dekabr 2008-ci il tarixli 753-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 16 yanvar 2009-cu il, № 16, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 6)** ilə 13-cü maddənin mətni 13.1-ci maddə hesab edilsin və yeni məzmunda 13.2-ci maddə əlavə edilmişdir.

[9] 28 oktyabr 2014-cü il tarixli **1101-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 2 dekabr 2014-cü il, № 263; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1374)** ilə 15-ci maddədə "**Azərbaycan Respublikasının qanunvericiliyi**" sözləri

**“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu**” sözləri ilə əvəz edilmişdir.

[10] 9 oktyabr 2007-ci il tarixli 429-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 938**) ilə 17-ci maddədə "**lisenziya**" sözündən əvvəl "**icazə və ya**" sözləri əlavə edilmişdir.

[11] 9 oktyabr 2007-ci il tarixli 429-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 938**) ilə 18.1-ci maddədə "**dövriyyəsi ilə bağlı fəaliyyət növünə lisenziya (xüsusi razılıq)**" sözləri "**dövriyyəsinə icazə**" sözləri ilə əvəz edilmişdir.

[12] 9 oktyabr 2007-ci il tarixli 429-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 938**) ilə 18.2-ci maddədə "**lisenziya (xüsusi razılıq)**" sözləri "**icazə**" sözü ilə əvəz edilmişdir.

[13] 17 aprel 2007-ci il tarixli **316-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 437**) ilə **19.2.3**-cü maddəsi çıxarılmışdır.

[14] 28 oktyabr 2014-cü il tarixli **1101-IVQD** nömrəli Azərbaycan Respublikasının

Qanunu (**“Respublika” qəzeti, 2 dekabr 2014-cü il, № 263; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1374)** ilə 25.1-ci maddənin birinci və ikinci cümlələrində və 25.2-ci maddənin birinci cümləsində “**keçirilə bilər**” sözləri “**keçirilir**” sözü ilə əvəz edilmişdir.

[15] 6 oktyabr 2015-ci il tarixli **1366-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 14 noyabr 2015-ci il, № 250)** ilə yeni məzmunda 26.3-1-ci maddə əlavə edilmişdir.

[16] 28 oktyabr 2014-cü il tarixli **1101-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 2 dekabr 2014-cü il, № 263; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1374)** ilə 26.4-cü maddədə “**edilə bilər**” sözləri “**edilir**” sözü ilə əvəz edilmişdir.

6 oktyabr 2015-ci il tarixli **1366-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 14 noyabr 2015-ci il, № 250)** ilə 26.4-cü maddəyə “**Cinayət**” sözündən sonra “**və ya inzibati həbs nəzərdə tutan inzibati xəta**” sözləri əlavə edilmişdir, “**qanunvericiliyinə**” sözü “**Mülki Prosessual Məcəlləsinə**” sözləri ilə əvəz edilmişdir.

[17] 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 602**) ilə 26.5-ci

maddəsində **"Əlillər"** sözündən sonra **", sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər"** sözləri əlavə edilmişdir.

[18] 28 oktyabr 2014-cü il tarixli **1101-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 2 dekabr 2014-cü il, № 263; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1374)** ilə 26.6-cı maddədə "**qanunvericiliyi**" sözü "**Mülki Prosessual Məcəlləsi**" sözləri ilə əvəz edilmişdir.

6 oktyabr 2015-ci il tarixli **1366-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 14 noyabr 2015-ci il, № 250)** ilə 26.6-cı maddədə "**Mülki Prosessual Məcəlləsi**" sözlərindən sonra "**, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi**" sözləri əlavə edilmişdir.

[19] 28 oktyabr 2014-cü il tarixli **1101-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 2 dekabr 2014-cü il, № 263; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1374)** ilə 27.1-ci maddədə "**edilə bilərlər**" sözləri "**edilirlər**" sözü ilə əvəz edilmişdir.

[20] 28 oktyabr 2014-cü il tarixli **1101-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 2 dekabr 2014-cü il, №**

**263; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1374)** ilə 28-ci maddədə "**qanunvericiliyinə**" sözü "**Mülki Prosessual Məcəlləsinə**" sözləri ilə əvəz edilmişdir.

6 oktyabr 2015-ci il tarixli **1366-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 14 noyabr 2015-ci il, № 250)** ilə 28-ci maddədə "**narkoloji-tibb müəssisəsinin müdiriyyətinin təqdimatı və tibbi rəyi nəzərə alınmaqla Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq yerli**" sözləri "**Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq**" sözləri ilə əvəz edilmişdir.

[21] 28 oktyabr 2014-cü il tarixli **1101-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 2 dekabr 2014-cü il, № 263; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1374)** ilə 30.3-cü maddədə "**edilə bilər**" sözləri "**edilir**" sözü ilə əvəz edilmişdir.

## "Əməliyyat-axtarış fəaliyyəti" haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu qanun əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hüquqi münasibətləri tənzimləyir və əməliyyat-axtarış tədbirlərinin tətbiqində hüquqi təminatlar sistemini müəyyən edir.

B i r i n c i f ə s i l

### ÜMUMİ MÜDDƏALAR

M a d d ə 1 . **Əməliyyat-axtarış fəaliyyətinin anlayışı, məqsədləri və vəzifələri**

I. Əməliyyat-axtarış fəaliyyəti - müvafiq dövlət orqanları tərəfindən aşkar və qeyri-aşkar üsullarla bu qanunla müəyyən edilmiş tədbirlərin həyata keçirilməsidir.

II. Əməliyyat-axtarış fəaliyyəti insan həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət sirrini, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etmək məqsədi ilə həyata keçirilir.[1]

III. Əməliyyat-axtarış fəaliyyətinin vəzifələri aşağıdakılardır:

1) hazırlanan və törədilən cinayətlərin qarşısının alınması;

2) törədilmiş cinayətlərin aşkar edilməsi və açılması;

3) cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi;

4) məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslərin axtarılması;

5) naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi.

M a d d ə 2 . **Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericilik**

I. Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

II. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar (bundan sonra əməliyyat-axtarış fəaliyyətinin subyektləri adlanacaq) öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq əməliyyat-axtarış tədbirlərinin təşkilini və taktikasını tənzimləyən normativ hüquqi aktlar qəbul edirlər.

M a d d ə 3 . **Əməliyyat-axtarış fəaliyyətinin prinsipləri**

I. Əməliyyat-axtarış fəaliyyəti qanunçuluq, humanistlik, insan hüquq və azadlıqlarına hörmət, konspirasiya, aşkar və gizli iş üsullarının uzlaşdırılması prinsiplərinə əsaslanır.

II. Azərbaycan Respublikasının qanunvericiliyində başqa hal nəzərdə tutulmamışdırsa, hər hansı şəxsin vətəndaşlığı, milliyyəti, cinsi, yaşayış yeri, sosial və əmlak vəziyyəti, qulluq mövqeyi, ictimai birliklərə mənsubiyyəti,

dinə münasibəti və siyasi baxışları əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə mane ola bilməz.

M a d d ə 4. **İnsan və vətəndaş hüquq və azadlıqlarının təminatları**

I. Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar:

1) bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmayan məqsədləri güdmək və ya vəzifələri yerinə yetirmək;

2) hər hansı şəxsin razılığı olmadan onun şəxsi həyatının toxunulmazlığına, o cümlədən şəxsi və ailə həyatının sirrinə, habelə onun şərəf və ləyaqətinə dair əldə edilmiş məlumatları yaymaq qadağandır.

II. Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş insan və vətəndaş hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini pozmaq qadağandır. Əməliyyat-axtarış tədbirlərinin tətbiqi ilə bağlı insan və vətəndaş hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılmasına yalnız bu Qanunla müəyyən edilmiş qaydada cinayətlərin qarşısının alınması, onların açılması, məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran şəxslərin, itkin düşənlərin axtarışı zamanı yol verilə bilər.

III. Əməliyyat-axtarış fəaliyyəti subyektinin hər hansı bir siyasi partiyanın və ya digər ictimai birliklərin mənafeyi naminə hərəkətlər etməsi, qanunvericilik və ya məhkəmə hakimiyyəti orqanlarının, habelə qanunla müəyyən edilmiş qaydada qeydiyyatdan keçmiş ictimai birliklərin və dini

təşkilatların işində onların qanuni fəaliyyətinə təsir etmək məqsədilə məxfi iştirak etməsi qadağandır.

IV. Əməliyyat-axtarış fəaliyyəti subyektinin hərəkəti nəticəsində hüquq və azadlıqları pozulmuş hər bir şəxs həmin əməliyyat-axtarış fəaliyyətinin subyektinin tabe olduğu yuxarı orqanının rəhbərinə, prokurora və ya məhkəməyə şikayət etmək hüququna malikdir.

V. Belə şikayətin mahiyyəti üzrə qərar qəbul etmək üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada müvafiq olaraq xidməti yoxlama və ya məhkəmə baxışı aparılmalıdır. Onun hərtərəfliyini və dolğunluğunu təmin etmək məqsədi ilə əməliyyat-axtarış fəaliyyətinin subyekti məhkəmənin qərarına əsasən dövlət sirrinin və xidməti sirrinin yayılması və əməliyyat-axtarış fəaliyyətinin keçirilməsinə gizli surətdə yardım göstərən şəxslər haqqında məlumatlar istisna olmaqla, əməliyyat-qeydiyyat işinin məzmunu ilə şikayətçini tanış etməyə borcludur. [2]

M a d d ə 5 . **Əməliyyat-axtarış fəaliyyətinin subyektləri**

I. Əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş təhqiqat orqanları, korrupsiya ilə bağlı cinayətlər üzrə isə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı həyata keçirir.[3]

II. Əməliyyat-axtarış tədbirlərin əməliyyat-axtarış fəaliyyətinin hansı subyekti tərəfindən və hansı həcmdə tətbiqinin mümkünlüyünü Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. [4]

III. Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkili olunmuş şəxsləri öz vəzifələrini yalnız bu orqanların səlahiyyətləri daxilində həyata keçirirlər. [5]

IV. Poçt göndərişlərinin, teleqraf və digər məlumatların yoxlanılması, mülkiyyət formasından asılı olmayaraq rabitə xidmətləri göstərən, rabitə vasitələri təqdim edən idarə, müəssisə və təşkilatların, fiziki və hüquqi şəxslərin stansiya avadanlığına qoşulmaqla telefon danışıqlarının qulaqasması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması ilə bağlı əməliyyat-axtarış tədbirləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları və ya korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı tərəfindən tətbiq edilir. [6]

V. Korrupsiya ilə bağlı cinayətlər üzrə əməliyyat-axtarış tədbirlərini yalnız korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı, yaxud həmin prokurorluq orqanının yazılı tapşırığı əsasında təhqiqat orqanları həyata keçirirlər. [7]

M a d d ə 6 . **Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifələri**

Bu Qanunun 1-ci maddəsində göstərilən məqsədlərə nail olmaq üçün əməliyyat-axtarış fəaliyyəti subyektlərinin aşağıdakı vəzifələri vardır:

1) insan və vətəndaş hüquq və azadlıqlarının, fiziki və hüquqi şəxslərin qanunla müdafiə olunan mənafelərinin, ictimai və dövlət təhlükəsizliyinin qorunması üçün öz səlahiyyətləri daxilində bütün qanuni tədbirləri görmək;

2) əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair məhkəmə qərarlarını, istintaq orqanlarının qərarlarını və ya cinayət işləri üzrə yazılı tapşırıqlarını, habelə əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarlarını yerinə yetirmək;

3) əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş məlumatları, onların mənbəyini və əldə edilməsi üsullarını yaymadan, konkret cinayət işi üzrə təhqiqatı və ya istintaqı aparan şəxsə və yaxud məhkəməyə vermək;

4) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və müvafiq beynəlxalq təşkilatlarının sorğularına cavab vermək;

5) Azərbaycan Respublikasının ərazisində əməliyyat-axtarış fəaliyyətinin digər subyektlərinin səlahiyyətinə aid olan faktların aşkar edildiyi təqdirdə təxirəsalınmaz tədbirlər keçirməklə onları xəbərdar etmək və lazımi kömək göstərmək;

6) əməliyyat-axtarış fəaliyyətini həyata keçirərkən konspirasiya qaydalarına riayət edilməsi üçün müvafiq tədbirlər görmək;

7) öz qulluq mövqeyinə görə məxfi məlumatlara və ya xüsusi icazə tələb edən işlərə buraxılacaq şəxslər barədə yoxlama tədbirlərini "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirmək; [8]

8) öz əməkdaşlarının, onların yaxın qohumlarının, əməliyyat-axtarış fəaliyyəti subyektlərinə kömək edən şəxslərin, onların yaxın qohumlarının, habelə cinayət prosesi iştirakçılarının, onların yaxın qohumlarının şəxsi

təhlükəsizliyini və əmlakını hüquqazidd qəsdlərdən qorunmasını təmin etmək;

9) hər hansı şəxslə əməkdaşlığın məxfiliyini və anonimliyini təmin etmək;

10) hadisələrin, faktların, əşyaların və digər informasiya mənbələrinin əməliyyat uçotunu aparmaq.

M a d d ə 7 . **Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin hüquqları**

Əməliyyat-axtarış fəaliyyətinin subyektləri öz səlahiyyətlərini bilavasitə yerinə yetirərkən aşağıdakı hüquqlara malikdirlər:

1) bu Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş qaydada əməliyyat-axtarış tədbirlərini aşkar və gizli üsullarla həyata keçirmək;

2) əməliyyat-axtarış fəaliyyəti subyektlərinə məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq etmək;

3) əməliyyat-axtarış fəaliyyətini təmin etmək üçün informasiya sistemi yaratmaq və ondan istifadə etmək;

4) əməliyyat-axtarış fəaliyyəti zamanı müqavilə və ya şifahi razılığa əsasən fiziki və hüquqi şəxslərin yaşayış və qeyri-yaşayış binalarından və otaqlarından, nəqliyyat vasitələrindən və digər əmlakından istifadə etmək;

5) konspirasiya məqsədi ilə uydurma idarə, müəssisə və ya təşkilat (hüquqi şəxs) yaratmaq, bu məqsədlə əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxslərinin şəxsiyyətini, bu orqanların bölmə, təşkilat, bina və nəqliyyat vasitələrinin idarə mənsubiyyətini, eləcə də bu orqanlara

məxfilik əsasında əməkdaşlıq edən vətəndaşların şəxsiyyətini pərdələndirən sənədlərdən istifadə etmək.

M a d d ə 8 . **Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin səlahiyyətlərinin həddi**

I. Əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə öz səlahiyyətlərinin icra edilməsi zamanı:

1) insanların həyatını, sağlamlığını, əmlakını və qanuni mənafelərini təhlükə altına alan hərəkətlərə yol vermək;

2) hər hansı şəxsi qanun pozuntularına təhrik etmək;

3) zor işlətmək, hədələmək və şantaj etmək, habelə insan və vətəndaşların hüquq və azadlıqlarını, qanunla müdafiə olunan mənafelərini məhdudlaşdıran digər qanunsuz tədbirlərə əl atmaq;

4) səlahiyyətindən kənara çıxan tədbirləri həyata keçirmək qadağan olunur.

M a d d ə 9 . **Əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə kömək göstərilməsi**

I. Azərbaycan Respublikasının dövlət və yerli özünüidarəetmə orqanlarının vəzifəli şəxsləri əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə kömək göstərmək borcludurlar.

II. Azərbaycan Respublikasının ərazisində olan hər bir şəxs əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə onların səlahiyyətlərinin yerinə yetirilməsində kömək göstərə bilər. Heç kəs əməliyyat-axtarış fəaliyyətində məcburi qaydada iştirak edilməsinə cəlb edilə bilməz.

III. Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifəli şəxslərinin qanuni tələblərinin yerinə yetirilməməsi və ya

onlara maneçilik törədilməsi Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulan məsuliyyətə səbəb olur.

İ k i n c i f ə s i l

## ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ

M a d d ə 1 0 . **Əməliyyat-axtarış tədbirləri**

I. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri bu Qanunla müəyyən edilmiş qaydada aşağıdakı əməliyyat-axtarış tədbirləri tətbiq edə bilərlər:

1) vətəndaşların sorğusu;

2) soraqlaşma;

3) telefon danışıqlarına qulaqasma;

4) poçt, teleqraf və digər göndərişlərin yoxlanılması;

5) texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması;

6) məhkumların məktublarının yoxlanılması;

7) nəqliyyat vasitələrinə baxış keçirilməsi;

8) binalara, o cümlədən yaşayış binalarına, habelə digər qapalı tikililərə, qurğulara və torpaq sahələrinə daxil olma və baxış keçirmə;

9) binaların, o cümlədən yaşayış binaların, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi;

10) insanların güdülməsi;

11) şəxsiyyətin eyniləşdirilməsi;

12) nəzarət qaydasında mal alınması;

13) əşya və sənədlərin tədqiqi;

14) müqayisəli tədqiq üçün nümunələrin toplanılması;

15) nəzarətli göndəriş;

16) cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi;

17) hüquqi şəxsin yaradılması;

18) əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi.

II. Bu maddənin I hissəsində göstərilmiş əməliyyat-axtarış tədbirlərin siyahısı yalnız Qanunla dəyişdirilə bilər.

III. Bu maddənin I hissəsinin 3 - 5, 8 və 10-cu bəndlərində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə başqa yolla nail ola bilmədikdə məhkəmənin (hakimin) qərarı əsasında həyata keçirilə bilər.

IV. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş əsaslar olduğu hallarda əməliyyat-axtarış fəaliyyətinin subyektləri hakimin qərarı olmadan:

1) şəxsiyyət əleyhinə ağır cinayətlərin və ya xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması üçün telefon danışıqlarına qulaq asa, poçt, teleqraf və digər göndərişlərini yoxlaya, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanı çıxara, habelə insanları güdə bilərlər;

2) cinayəti hazırlayan, törədən, törətmiş, cəzaçəkmə müəssisələrindən və ya həbsdən qaçmış və gizlənən şəxslərin yaxalanması, yanğın, partlayış və ictimai təhlükəsizliyə qəsd edən və ya qəsd edə biləcək halların aradan qaldırılması üçün binalara, o cümlədən yaşayış binalarına, habelə digər qapalı

tikililərə, qurğulara və torpaq sahələrinə baxış keçirə bilərlər. [9]

V. Bu maddənin IV hissəsində nəzərdə tutulmuş hallarda əməliyyat-axtarış fəaliyyətinin subyektləri həyata keçirilmiş tədbirlər barəsində 48 saat ərzində məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora əsaslandırılmış qərarı təqdim etməlidirlər. [10]

VI. Hər hansı bir şəxsə zor işlədilməsi, hədə-qorxu ilə tələb etmə və ya hüquqazidd digər hərəkətlər tətbiq edilməsi təhlükəsinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görülməsi zərurəti olduqda onların telefonu və ya digər danışıq cihazları ilə aparılan danışıqlara həmin şəxsin ərizəsi əsasında müvafiq əməliyyat-axtarış fəaliyyətinin subyekti tərəfindən qulaq asıla bilər.

VII. Bu maddənin I hissəsinin 16-cı və 17-ci bəndlərində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirlərinin, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişinin tətbiqinə yalnız mütəşəkkil cinayətkar qurumlar tərəfindən hazırlanan və ya törədilən ağır cinayətlərin, habelə xüsusi təhlükəli dövlət cinayətlərin qarşısının alınması, həmin cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar yol verilir.[11]

VIII. Bu Qanunla müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən əməliyyat-axtarış tədbirlərinin aparılması, habelə gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən (yəni əməliyyat-axtarış tədbirləri çərçivəsində informasiyanın gizli yolla əldə

olunması məqsədilə xüsusi olaraq yaradılmış, işlənib hazırlanmış, istehsal olunmuş, proqramlaşdırılmış, təkmilləşdirilmiş avadanlıqlar, cihazlar, qurğular, ləvazimatlar və digər texniki vasitələr) istifadə olunması qadağandır.[12]

IX. Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələr mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyalara aiddir. Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən onların istehsalı, satışı, əldə edilməsi, ölkəyə gətirilməsi və ölkədən çıxarılması yalnız qanunvericiliklə müəyyən edilmiş qaydada verilən xüsusi icazə əsasında həyata keçirilə bilər.[13]

X. Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin növləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.[14]

M a d d ə 1 1 . **Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəblər və əsaslar**

I. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün əməliyyat-axtarış fəaliyyətinin subyektlərində bu maddədə nəzərdə tutulmuş səbəblər və əsaslar olmalıdır.

II. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəblər aşağıdakılardır:

1) fiziki şəxslərin ərizələri;

2) müəssisə, idarə, təşkilatların vəzifəli şəxslərinin müraciətləri;

3) kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlar;

4) əməliyyat-axtarış fəaliyyəti subyektlərinin bilavasitə əldə etdikləri məlumatlar;

5) əməliyyat-axtarış fəaliyyətinin digər subyektlərinin yazılı sorğuları;

6) Azərbaycan Respublikasının ali dövlət hakimiyyəti orqanlarını və xüsusi obyektlərini mühafizə edən orqanlarının yazılı sorğuları;

7) cinayət işləri üzrə təhqiqatı və ya istintaqı aparan şəxslərin yazılı tapşırıqları;

8) xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və ya müvafiq beynəlxalq təşkilatlarının rəsmi sorğuları.

9) kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin yazılı sorğuları. [15]

III. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün əsaslar aşağıdakılardır:

1) məhkəmənin (hakimin) qərarları;

2) istintaq orqanlarının qərarları;

3) əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarları.

IV. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi barədə məhkəmənin (hakimin), istintaq orqanının və ya əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektinin qərarı yalnız aşağıdakı hallarda qəbul oluna bilər:

1) başlanmış cinayət işi mövcud olduqda:

2) (Çıxarılıb); [16]

3) cinayət işinin başlanmasına kifayət qədər əsaslar olmasa da, cinayət hazırlayan, törədən və ya törətmiş şəxs

barəsində etimad doğuran, məlum və qərəzsiz mənbədən məlumat daxil olduqda;

4) dövlət təhlükəsizliyinə və ya müdafiə qabiliyyətinə təhlükə yaradan hadisə baş verdikdə, yaxud onun qarşısı alındıqda;

5) şəxs məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizləndikdə, cəza çəkməkdən boyun qaçırdıqda, yaxud itkin düşdükdə;

6) naməlum meyit aşkar edildikdə.

M a d d ə 1 2 . **Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair qərarlar, yazılı tapşırıqlar və sorğular**

I. Əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə qərar, yazılı tapşırıq və ya rəsmi sorğu yalnız Azərbaycan Respublikasının qanunvericiliyinin əsasında belə səlahiyyətə malik olan şəxs tərəfindən verilə bilər.

II. Əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə qərarda, yazılı tapşırıqda və ya rəsmi sorğuda belə tədbirin zəruriliyi əsaslandırılmalıdır.

III. Bu Qanunun 10-cu maddəsinin I hissəsinin 3 - 5, 8 və 10-cu bəndlərində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə qərarda bundan başqa aşağıdakılar mütləq öz əksini tapmalıdır:

1) müvafiq tədbir keçirmək təklifi verən əməkdaşın soyadı, adı, atasının adı və vəzifəsi;

2) haqqında tədbir keçirilməsi təklif edilən şəxsin soyadı, adı, atasının adı və ya obyektin təsviri;

3) müdaxilə xarakterli üsul və vasitələrin tətbiq olunması haqqında tələbi əsaslandıran faktlar;

4) adi təhqiqat üsulu vasitəsi ilə zəruri məlumatın alınmasının qeyri-mümkünlüyünün əsaslandırılması;

5) müdaxilə xarakterli üsul və vasitələrin tətbiqinin nəzərdə tutulan müddəti;

6) tədbir keçirməsi ilə əlaqədar əldə edilə bilən nəticə.

M a d d ə 13. **Əməliyyat-axtarış tədbirlərinin tətbiqinin şərtləri**

I. Qanunla mühafizə edilən yazışma, telefon, poçt-teleqraf və digər rabitə üsulları ilə ötürülən məlumatların sirrinin qorunması, eləcə də mənzil toxunulmazlığı ilə əlaqədar əməliyyat-axtarış tədbirlərinin tətbiqinə ancaq cinayət hazırlayan, cinayət törətməyə sui-qəsd edən, cinayət törədən, həmçinin məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran şəxslər barədə məlumat toplamaq, habelə oğurlanmış əmlakı tapmaq, dəlillərinin gizlədilməsinin və məhv edilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilən tədbirlər nəticəsində əldə olunmuş məlumatların cinayət işi üzrə sübut ola biləcəyini və axtarılan şəxslərin tutula biləcəyini güman etmək üçün kifayət qədər əsas olduğu halda icazə verilir.

II. Telefon və digər danışıqlara qulaqasması və onların yazılması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması, poçt-teleqraf göndərişlərinin yoxlanılması və mənzillərə baxış keçirilməsi ilə əlaqədar tətbiq edilən əməliyyat-axtarış tədbirlərdə əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxslərində həmin tədbirlərin tətbiqinə dair qərar və özlərinin xidməti vəsiqələri olmalıdır.

III. Şəxs tərəfindən cinayətin törədilməsi və ya hazırlanması barədəki kifayət qədər əsas olduqda onun özü və əlaqələri haqqında məlumat almaq məqsədilə tətbiq edilən əməliyyat-axtarış tədbirində insanın səhhətinə və ətraf mühitə ziyan vuran texniki vasitə, psixotrop, kimyəvi və digər maddələrdən istifadə edilməsi qadağandır.

IV. Əməliyyat-axtarış tədbirlər tətbiq edilərkən əməliyyat-axtarış fəaliyyəti subyektinin müvəkkil edilmiş şəxsləri, həmin tədbirlərin cinayətkar qəsdlərin dövlətin və cəmiyyətin mənafeyinə vura biləcəyi ziyanın ictimai təhlükəsizlik dərəcəsinə uyğunluğunu gözləməyə borcludurlar.

M a d d ə 1 4 . **Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi**

I. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi əməliyyat-axtarış fəaliyyəti subyektinin rəhbərliyinin nəzarəti altında həyata keçirilir.

II. Əməliyyat-axtarış fəaliyyəti subyektinin müvəkkil edilmiş şəxsi əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi zamanı bilavasitə və birbaşa rəisinə tabedir. Rəisindən açıq-aşkar qanunsuz əmr və ya göstəriş aldıqda o qanunu rəhbər tutmalı və əməliyyat-axtarış fəaliyyəti subyektinin tabeliyi üzrə yuxarı orqanına bu barədə məlumat verməlidir. Əməliyyat-axtarış fəaliyyəti subyektinin müvəkkil edilmiş şəxsi tərəfindən rəisinin əmrini və yaxud göstərişini yerinə yetirdiyi vaxtda cinayət baş verərsə və ya verəcəyi ehtimal olunarsa, bu barədə əməliyyat-axtarış fəaliyyəti subyektinin tabeliyi üzrə yuxarı orqanına və yaxud məhkəməyə şikayət verə bilər.

III. Qanunla birbaşa buna müvəkkil edilmiş şəxslər istisna olmaqla əməliyyat-axtarış fəaliyyəti subyektlərinin və onların vəzifəli şəxslərin qanuni hərəkətlərinə heç kəs müdaxilə edə bilməz.

IV. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya sistemlərindən, video və səsyazmadan, kino və fotoşəkillərdən, həmçinin vətəndaşların həyatı və sağlamlığına, ətraf mühitə zərər vurmayan digər texniki və başqa vasitələrdən istifadə edilə bilər.

V. Obyektiv səbəblərdən əməliyyat-axtarış tədbirlərinin tətbiqini qeyri-mümkün edən şərait yarandıqda (qarşısı alına bilməyən fövqəladə hadisə baş verdikdə və ya qarşısı alına bilməyən qüvvə mane olduqda və yaxud ictimai təhlükəsizliyə real təhlükə yarandıqda) belə tədbirlərin həyata keçirilməsi dayandırılır.

VI. Həyata keçirilən əməliyyat-axtarış tədbirlərinə aşağıdakı hallarda son qoyulur:

1) bu qanunun 1-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə nail olunduqda;

2) haqqında keçirilən şəxsin hərəkətlərində cinayət tərkibinin mövcudluğu 6 ay ərzində müəyyən edilmədikdə.

VII. Əməliyyat tapşırığını yerinə yetirərkən əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxsin cinayətkar qrupların və ya kriminogen obyektlərin daxilində olması, habelə bu zaman zəruri özünümüdafiə və ya son zərurət halında onun tərəfindən yol verilmiş hərəkətlər Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət tərkibini yaratmır.

VIII. Əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi, habelə əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunvericilikdə nəzərdə tutulmuş digər məlumatlar dövlət sirrinin bir növü kimi müvafiq qanunla müəyyən edilmiş qaydada mühafizə olunur. [17]

IX. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirərkən dövlət sirri və xidməti sirr sayılan, əməliyyat-axtarış fəaliyyətinin təşkilinə, əməliyyat məlumatların mənbəyinə, üsul və metodlarına, eləcə də vətəndaşların şəxsi və ailə həyatına aid olan məlumatlar aşkarlanmamalıdır.[18]

X. Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə məxfi əməkdaşlıq etmiş və edən şəxslər barədə məlumatlar yalnız həmin şəxslərin yazılı razılığı ilə qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda aşkarlana bilərlər. [19]

M a d d ə 1 4 - 1 . **Əks-kəşfiyyat fəaliyyətində əməliyyat-axtarış tədbirlərinin tətbiq edilməsi** [20]

I. Əks-kəşfiyyat fəaliyyətində əməliyyat-axtarış tədbirlərinin tətbiq edilməsi bu Qanuna, "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə müvafiq həyata keçirilir.

II. Əks-kəşfiyyat fəaliyyətində əməliyyat-axtarış tədbirlərinin keçirilməsi üçün səbəblər və əsaslar, onların tətbiqi şərtləri, həyata keçirilməsi, tətbiqinə nəzarət, bu tədbirlərə dair qərarların, yazılı tapşırıqların və sorğuların verilməsi, habelə keçirilən tədbirlərin nəticələrindən istifadə edilməsi qaydaları bu Qanunla və digər qanunvericilik aktları ilə tənzimlənir.

*M a d d ə 14-2.* ***Həbs yerlərində və cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış fəaliyyəti***[21]

*I. Həbs yerlərində və cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış tədbirləri bu Qanunla müəyyən edilmiş qaydada tətbiq edilir.*

*II. Həbs yerlərində və cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış fəaliyyətini müvafiq olaraq həbs yerlərinin və cəzaçəkmə müəssisələrinin müdiriyyəti həyata keçirir. Müvafiq icra hakimiyyəti orqanları öz səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə əməliyyat-axtarış fəaliyyətini həbs yerlərinin və ya cəzaçəkmə müəssisələrinin müdiriyyəti ilə birgə həyata keçirirlər.*

*III. Həbs yerlərində və cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı qanunların icrasına nəzarəti bu Qanunun 20-ci maddəsi ilə müəyyən edilmiş qaydada prokurorluq orqanları həyata keçirirlər.*

M a d d ə 1 5 . **Əməliyyat-qeydiyyat işi**

I. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi olduqda bu qanunun 11-ci maddəsinin III hissəsində nəzərdə tutulmuş qərarların əsasında əməliyyat-qeydiyyat işi başlanılmalı və bu iş əməliyyat-axtarış fəaliyyətinin subyekti tərəfindən mütləq qeydiyyata alınmalıdır.

II. Əməliyyat-axtarış fəaliyyətinin subyektində məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizlənilən, cəza çəkməkdən boyun qaçıran, cinayət törətməkdə şübhəli olan və ya itkin düşən şəxslər haqqında eyni hüquqazidd hərəkətlərə görə yalnız bir əməliyyat-qeydiyyat işi aparılmalıdır.

III. Əməliyyat-axtarış tədbirlərinin nəticələri əməliyyat-qeydiyyat işində əks edilməli və sistemləşdirilməlidir.

IV. Əməliyyat-qeydiyyat işi onu aparan əməliyyat-axtarış fəaliyyətinin subyektində saxlanılır.

V. Ədalət mühakiməsi naminə hallar istisna olunmaqla, cinayətin törədilməsində qanunla müəyyən olunmuş qaydada təqsiri sübuta yetirilməyən şəxs haqqında əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş materiallar bir il müddətində saxlanılır, sonra isə məhv edilir.

M a d d ə 16. **Əməliyyat-axtarış tədbirlərinin nəticələrindən istifadə edilməsi**

I. Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar bu qanuna müvafiq əldə edildikdə və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun təqdim edildikdə və yoxlanıldıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər. [22]

II. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi nəticəsində əldə edilmiş məlumatlar bu tədbirlərin məqsədlərinə uyğun olmadıqda onların aşkar edilməsi və ya hüquqi və fiziki şəxslərin əleyhinə istifadə edilməsi qadağandır.

III. Şəxs haqqında xüsusi texnikanın köməyi ilə əldə edilmiş məlumat açıqlandıqda həmin şəxs bu məlumatın qanunsuz əldə edilməyinə və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsində xüsusi texnikanın tətbiqinə icazə alınmamasına əsaslanaraq ifadələrindən imtina və məhkəməyə şikayət edə bilər. Belə vəziyyətdə məhkəmə əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi qanuniliyini araşdırıb mübahisəli məlumatların qanuni yolla əldə edilməsini və ya hüquqi baxımdan qüvvəsiz hesab olunmasını elan edir.

IV. Bu qanunun tələblərinə riayət olunmadan əldə edilmiş məlumatlar dərhal məhv edilməlidir.

V. İnsanın şəxsi və ailə həyatına, şərəfinə və ya ləyaqətinə aid olan, lakin tərkibində qanunla qadağan edilməmiş hərəkətlərin törədilməsindən xəbər verən əməliyyat-axtarış tədbirlərinin nəticəsində əldə edilmiş məlumatlar saxlanıla bilməz və onlar məhv edilməlidir.[23]

VI. Açılmamış cinayətlər üzrə insanların təhlükəsizliyinə və ya istintaqa ziyan vura biləcək əməliyyat-axtarış tədbirlərin nəticəsində əldə edilmiş məlumatlarını yaymaq qadağandır.

VII. Hər hansı cinayətin törədilməsi ilə bağlı əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş məlumatlarla tanış olmaq hüququ məlumatların mənbəyini aşkarlamamaq şərti ilə yalnız həmin cinayət işi üzrə istintaqı aparan şəxsə, prokurora və ya məhkəməyə verilir.

Ü ç ü n c ü f ə s i l

## YEKUN MÜDDƏALAR

M a d d ə 17. **Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərin hüquqi və sosial müdafiəsi**

I. Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslər dövlət tərəfindən müdafiə olunurlar.

II. Əməliyyat-axtarış tədbirlərində şəxslərin könüllü iştirakı bağlanmış müqavilə əsasında həyata keçirilə bilər.

III. Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərin əmək haqqı, mükafat və digər maddi təminatlar almaq hüququ vardır.

IV. Əməliyyat-axtarış fəaliyyətində iştirak etmələri ilə əlaqədar şəxslərin, eləcə də onların yaxın qohumlarının həyatına, sağlamlığına və əmlakına real təhlükə yarandıqda səlahiyyətli orqanlar onların mühafizəsi və dəymiş zərərin ödənilməsi, həmçinin təqsirləndirilən şəxslərin məsuliyyətə cəlb edilməsi üçün zəruri tədbirlər görürlər.

V. Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.[24]

VI. Əməliyyat-axtarış tədbirlərində iştirak edərkən həlak olmuş, yaxud şikəst olmuş şəxslərin ailəsinə müvafiq olaraq min yüz manat və beş yüz əlli manat birdəfəlik müavinət verilir. Həmin şəxslərin ailəsinə həmçinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada pensiya təyin edilir.[25]

VII. Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərin cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi ilə əlaqədar vəzifələrini yerinə yetirilməsi müddəti və müvafiq surətdə onun maddi təminatı birin üçə nisbəti hesabı ilə hesablanır.

VIII. Əməliyyat-axtarış fəaliyyətinin subyekti ilə əməkdaşlığa cəlb olunmuş və cinayətin açılmasında fəal iştirak etmiş cinayətkar qrupun üzvü, tərkibində cinayət əməlləri olan və ağır nəticələrə səbəb olmayan əməllər törədilibsə və vurulmuş zərəri ödəyibsə, Azərbaycan

Respublikasının qanunvericiliyinə müvafiq olaraq cinayət məsuliyyətindən azad olunur.

M a d d ə 18. **Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin maddi-texniki və maliyyə təminatı**

I. Əməliyyat-axtarış fəaliyyətini və avtomatlaşdırılmış informasiya sistemlərinin qurulmasını, saxlanılmasını və mühafizəsini bu qanunun tələblərinə uyğun surətdə həyata keçirilməsi üçün əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə zəruri maliyyə vəsaitləri və maddi-texniki təminat verilir.

II. Əməliyyat-axtarış fəaliyyətinin maddi-texniki və maliyyə təminatı Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaitləri, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda digər mənbələr hesabına maliyyələşdirilir. Bu vəsaitlərin xərclənməsi qaydalarını və normalarını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. [26]

III. Əməliyyat-axtarış subyektlərinin maddi-texniki təminatının qaydalarını və normalarını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

IV. Əməliyyat-axtarış fəaliyyəti subyektlərinə ayrılan maliyyə vəsaitinin xərclənməsinə həmin subyektlərin rəhbərləri tərəfindən nəzarət edilir.

M a d d ə 19. **Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində qanunçuluğun təminatı**

Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin rəhbərləri əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi zamanı qanunçuluğa əməl olunmasına nəzarət edirlər və buna görə fərdi məsuliyyət daşıyırlar.

Maddə 19-1. **Əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarəti** [27]

Əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarəti Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Maddə 20. **Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarəti**

I. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən qanunların icrasına nəzarəti Azərbaycan Respublikasının baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar həyata keçirirlər. Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanının əməliyyat-axtarış fəaliyyətini yerinə yetirməsi zamanı qanunların icrasına nəzarəti Azərbaycan Respublikasının Baş prokuroru həyata keçirir. [28]

II. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı qanun pozuntularına yol verilməsi barədə materiallar, məlumatlar və ya vətəndaşların yazılı ərizələri daxil olduqda, habelə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair müəyyən olunmuş qaydalar və qəbul olunmuş qərarların qanuniliyi yoxlanıldıqda, prokurorların sorğuları əsasında əməliyyat-axtarış fəaliyyəti subyektlərinin rəhbərləri əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəb və əsaslarına dair sənədləri təqdim etməlidirlər.

III. Cinayət məsuliyyətinə cəlb olunması halları istisna edilməklə cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil olmuş şəxslərin, əməliyyat-axtarış subyektlərinin ştatdan kənar və məxfi əməkdaşlarının şəxsiyyəti haqqında məlumatlar həmin şəxslərin yazılı razılığı olduqda

qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda prokuror nəzarətinin subyektinə təqdim edilə bilər.[29]

IV. Əməliyyat-axtarış tədbirlərinin təşkili, taktikası, üsul və vasitələrinə dair məlumatlar (korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanının əməliyyat-axtarış tədbirləri ilə bağlı məlumatları istisna olmaqla) prokuror nəzarətinin predmetinə daxil deyil.[30]

V. Əməliyyat-axtarış fəaliyyətinə nəzarəti həyata keçirən Azərbaycan Respublikasının baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar onlara verilən sənədlərdə əks olunan məlumatların məxfiliyini təmin etməlidirlər.

M a d d ə 2 1 . **Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı qanunçuluğun pozulmasına görə məsuliyyət**

I. Əməliyyat-axtarış fəaliyyətinin bu qanunla müəyyən edilmiş məqsədlərə, əsaslara və ya şərtlərə əməl edilmədən təşkili və həyata keçirilməsi, onun keçirilməsi üçün etibar olunmuş və ya iş və xidmətlə əlaqədar belə məlumatlarla tanış olmuş şəxslər onları yaymağa görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müvafiq olaraq cinayət, inzibati və intizam məsuliyyəti daşıyırlar.

II. İnsanın hüquq və azadlıqları, hüquqi şəxslərin qanuni mənafeləri pozulduqda, habelə haqqında əməliyyat-axtarış tədbirləri keçirilmiş şəxsin hüquqpozmaya aidiyyəti təsdiq olunmadıqda əməliyyat-axtarış fəaliyyətinin subyekti pozulmuş hüququ bərpa etməyə və vurulmuş maddi və mənəvi ziyanı ödəməyə borcludur.

III. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən bu Qanunda nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirlərinin tətbiqi istisna olmaqla, şəxsin onun xəbəri olmadan və ya etirazına baxmayaraq kütləvi informasiya vasitələrinin nümayəndələri və başqa şəxslər tərəfindən izlənilməsi, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qalması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur.[31]

## KEÇİD MÜDDƏALARI

I. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

II. Hakimlərin əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar bu qanunda nəzərdə tutulmuş səlahiyyətləri yeni cinayət-prosessual qanunvericiliyi qəbul olunduqdan və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən hakimlər təyin edildikdən sonra qüvvəyə minir.

II. Hakimlərin əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar bu qanunda nəzərdə tutulmuş səlahiyyətləri qüvvəyə minənədək, həmin səlahiyyətlər mövcud cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Azərbaycan Respublikasının prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 28 oktyabr 1999-cu il
№ 728-IQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 17 may 2002-ci il tarixli **324-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 250**)
2. 24 may 2002-ci il tarixli **333-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 6, maddə 328**)
3. 5 mart 2004-cü il tarixli **598-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-ci il, № 3, maddə 133**)
4. 30 sentyabr 2005-ci il tarixli **1022-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 12, maddə 1079**)
5. 23 dekabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 fevral 2006-cı il**)
6. 23 dekabr 2005-ci il tarixli **32-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 64**)
7. 20 oktyabr 2006-cı il tarixli **171-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 933**)
8. 20 oktyabr 2006-cı il tarixli **167-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan**

**Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1005**)

**9.** 17 aprel 2007-ci il tarixli **313-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 560**)

**10.** 1 aprel 2008-ci il tarixli **577-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 4, maddə 252**)

**11.** 2 iyun 2008-ci il tarixli **618-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 462**)

**12.** 12 fevral 2010-cu il tarixli **953-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 mart 2010-cu il, № 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 03, maddə 172)**

**13.** 31 may 2010-cu il tarixli **1015-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 5 iyun 2010-cu il, № 120, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 6, maddə 487)**

**14.** 4 mart 2011-ci il tarixli **77-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 22 aprel 2011-ci il, № 82 Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 4, maddə 252)**

**15.** 18 mart 2011-ci il tarixli **95-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 aprel 2011-ci il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 4, maddə 268)**

**16.** 25 oktyabr 2011-ci il tarixli **214-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 23 noyabr 2011-ci il, № 252; "Azərbaycan" qəzeti, 24 noyabr 2011-ci il, № 259; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 989)**

**17.** 27 dekabr 2013-cü il tarixli **871-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 88)**

**18.** 20 iyun 2014-cü il tarixli **986-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 11 iyul 2014-cü il, № 147; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 764)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 20 oktyabr 2006-cı il tarixli **171-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 933**) ilə 1-ci maddəsinin II hissəsindən "və hərbi" sözləri çıxarılmışdır.

[2] 20 oktyabr 2006-cı il tarixli **171-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11,**

**maddə 933**) ilə 4-cü maddəsinin V hissəsindən “, hərbi” sözləri çıxarılmışdır.

[3] 18 mart 2011-ci il tarixli **95-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 10 aprel 2011-ci il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 4, maddə 268)** ilə 5-ci maddənin I hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~I. Əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş təhqiqat orqanları həyata keçirirlər.~~

[4] 18 mart 2011-ci il tarixli **95-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 10 aprel 2011-ci il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 4, maddə 268)** ilə 5-ci maddənin II hissəsində “**hansı təhqiqat orqanı**” sözləri “**əməliyyat-axtarış fəaliyyətinin hansı subyekti**” sözləri ilə əvəz edilmişdir.

[5] 18 mart 2011-ci il tarixli **95-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 10 aprel 2011-ci il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 4, maddə 268)** ilə 5-ci maddənin III hissəsində “**Təhqiqat orqanlarının**” sözləri “**Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin**” sözləri ilə əvəz edilmişdir.

[6] 18 mart 2011-ci il tarixli **95-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 aprel 2011-ci il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 4, maddə 268)** ilə 5-ci maddənin IV hissəsində "**müvafiq icra hakimiyyəti orqanları**" sözlərindən sonra "**və ya korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı**" sözləri əlavə edilmişdir.

[7] 18 mart 2011-ci il tarixli **95-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 aprel 2011-ci il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 4, maddə 268)** ilə 5-ci maddəyə yeni məzmunda V hissə əlavə edilmişdir.

[8] 20 iyun 2014-cü il tarixli **986-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 11 iyul 2014-cü il, № 147; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 764)** ilə 6-cı maddəsinin birinci hissəsinin 7-ci bəndində "**buraxılan şəxsləri yoxlamaq**" sözləri "**buraxılacaq şəxslər barədə yoxlama tədbirlərini "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirmək**" sözləri ilə əvəz edilmişdir.

[9] 24 may 2002-ci il tarixli **333-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 6, maddə 328**) ilə 10-cu maddənin IV hissəsinin 2-ci bəndində "**azadlıqdan**

**məhrum etmə yerlərindən**" sözləri "**cəzaçəkmə müəssisələrindən**" sözləri ilə əvəz edilmişdir.

[10] 5 mart 2004-cü il tarixli **598-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 10-cu maddənin V hissəsində "**məhkəməyə**" sözü "**məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora**" sözləri ilə əvəz edilsin.

[11] 17 aprel 2007-ci il tarixli **313-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 560**) ilə 10-cu maddəsinin VII hissəsinə "**əməliyyat-axtarış tədbirlərinin**" sözlərindən sonra "**, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişinin**" sözləri əlavə edilmişdir.

[12] 31 may 2010-cu il tarixli **1015-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 5 iyun 2010-cu il, № 120, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 6, maddə 487)** ilə 10-cu maddəsinin VIII hissənin birinci cümləsində "**xüsusi və digər texniki vasitələrdən**"sözləri "**texniki vasitələrdən (yəni əməliyyat-axtarış tədbirləri çərçivəsində informasiyanın gizli yolla əldə olunması məqsədilə xüsusi olaraq yaradılmış, işlənib hazırlanmış, istehsal olunmuş,**

**proqramlaşdırılmış, təkmilləşdirilmiş avadanlıqlar, cihazlar, qurğular, ləvazimatlar və digər texniki vasitələr)**" sözləri ilə əvəz edilmişdir.

[13] 4 mart 2011-ci il tarixli **77-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 22 aprel 2011-ci il, № 82, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 4, maddə 252)** ilə 10-cu maddəsinin IX hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~IX. Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən işlənilməsi, istehsalı, satışı, alınması, ölkəyə gətirilməsi və ölkədən çıxarılması Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada lisenziyalaşdırılmalıdır.~~

[14] 31 may 2010-cu il tarixli **1015-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 5 iyun 2010-cu il, № 120, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 6, maddə 487)** ilə 10-cu maddəsinin X hissədə "**Gizli informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin**" sözləri "**Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin**" sözləri ilə əvəz edilmişdir.

[15] 30 sentyabr 2005-ci il tarixli 1022-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 12, maddə 1079**) ilə 11-ci maddənin II hissəsinə 9-cu bənd əlavə edilmişdir.

[16] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 11-ci maddənin IV hissəsinin 2-ci bəndi çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~2) cinayət işi başlananadək cinayət əlamətlərinin mövcudluğuna görə ibtidai istintaqın aparılması məcburi olduqda;~~

[17] 23 dekabr 2005-ci il tarixli **32-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 64**) ilə 14-cü maddənin VIII hissəsində "**həyata keçirilməsi**" sözlərindən sonra "**,habelə əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunvericilikdə nəzərdə tutulmuş digər məlumatlar**" sözləri əlavə edilmişdir.

[18] 20 oktyabr 2006-cı il tarixli 171-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 933**) ilə 14-cü maddəsinin IX hissəsində "**, hərbi**" sözü "**sirri**" sözü ilə əvəz edilmişdir.

20 oktyabr 2006-cı il tarixli 167-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1005**) ilə 14-cü maddəsinin IX hissəsində "**şəxsi**" sözündən sonra "**və ailə**" sözü əlavə edilmişdir.

[19] 23 dekabr 2005-ci il tarixli **32-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 64**) ilə 14-cü maddənin X hissəsində "**və ya qanunda birbaşa nəzərdə tutulmuş**" sözləri "**qanunvericiliklə müəyyən edilmiş qaydada və**" sözləri ilə əvəz edilmişdir.

[20] 30 sentyabr 2005-ci il 1022-IIQD nömrəli tarixli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 12, maddə 1079**) ilə Qanuna 14-1-ci maddə əlavə edilmişdir.

[21] 27 dekabr 2013-cü il tarixli **871-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 88)** ilə 14-2-ci maddə əlavə edilmişdir.

[22] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 16-cı maddənin I hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~I. Cinayət işi başlandıqdan sonra təhqiqat və ya istintaq zamanı əməliyyat-axtarış tədbirlərinin nəticələri cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq yoxlanıldıqdan sonra həmin cinayət işində sübut kimi istifadə edilə bilər.~~

[23] 20 oktyabr 2006-cı il tarixli 167-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1005**) ilə 16-cı maddəsinin V hissəsində "**şəxsi**" sözündən sonra "**və ailə**" sözü əlavə edilmişdir.

[24] 1 aprel 2008-ci il tarixli **577-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 4, maddə 252**) ilə "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 17-ci maddəsinin **V hissəsi** yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~V. Əsas fəaliyyət növü kimi şəxslərin əməliyyat-axtarış fəaliyyətinin subyektləri ilə əməkdaşlıq etdiyi dövr onların əmək stajına daxil edilir və bu şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada pensiya verilir.~~

[25] 2 iyun 2008-ci il tarixli **618-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6,**

**maddə 462**) ilə 17-ci maddəsinin VI hissəsinin birinci cümləsində "**şərti maliyyə vahidinin bir min misli miqdarında və beş yüz misli miqdarında**" sözləri "**min yüz manat və beş yüz əlli manat**" sözləri ilə əvəz edilmişdir.

[26] 17 may 2002-ci il tarixli 324-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 250**) ilə 18-ci maddənin ikinci hissəsinin birinci cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Əməliyyat-axtarış fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaitləri hesabından maliyyələşdirilir.~~

[27] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133)** ilə 19-1-ci maddə əlavə edilmişdir.

[28] 18 mart 2011-ci il tarixli **95-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 aprel 2011-ci il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 4, maddə 268)** ilə 20-ci maddənin I hissəsinə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[29] 23 dekabr 2005-ci il tarixli **32-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 64**) ilə 20-ci maddənin III hissəsində "**razılığı olduqda**" sözlərindən sonra "**qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda**" sözləri əlavə edilmişdir.

18 mart 2011-ci il tarixli **95-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 aprel 2011-ci il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 4, maddə 268)** ilə 20-ci maddənin III hissəsində "**prokurora**" sözü "**prokuror nəzarətinin subyektinə**" sözləri ilə əvəz edilmişdir.

[30] 25 oktyabr 2011-ci il tarixli **214-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 23 noyabr 2011-ci il, № 252; "Azərbaycan" qəzeti, 24 noyabr 2011-ci il, № 259; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 989)** ilə 20-ci maddəsinin IV hissəsində "**məlumatlar**" sözündən sonra "**(korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanının əməliyyat-axtarış tədbirləri ilə bağlı məlumatları istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

[31] 12 fevral 2010-cu il tarixli **953-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 mart 2010-cu il, № 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 03, maddə 172)**

**ilə** 21-ci maddəsinə III hissə əlavə edilmişdir. 23 dekabr 2005-ci il tarixli **32-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 64**) ilə 20-ci maddənin III hissəsində "**razılığı olduqda**" sözlərindən sonra "**qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda**" sözləri əlavə edilmişdir.

## “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 612; 2002, № 5, maddə 250, № 6, maddə 328; 2004, № 3, maddə 133; 2005, № 12, maddə 1079; 2006, № 2, maddə 64, № 11, maddə 933, № 12, maddə 1005; 2007, № 6, maddə 560; 2008, № 4, maddə 252, № 6, maddə 462; 2010, № 3, maddə 172, № 6, maddə 487; 2011, № 4, maddələr 252, 268, № 11, maddə 989; 2014, № 2, maddə 88, № 7, maddə 764) aşağıdakı dəyişikliklər edilsin:

1. 10-cu maddə üzrə:

1.1. I hissənin:

1.1.1. 8-ci bəndində “yaşayış binalarına, habelə digər qapalı tikililərə” sözləri “yaşayış yerlərinə,

hasarlanmış tikinti obyektlərinə" sözləri ilə əvəz edilsin;

1.1.2. 9-cu bəndində "yaşayış binalarının, habelə digər qapalı tikililərin" sözləri "yaşayış yerlərinin, hasarlanmış tikinti obyektlərinin" sözləri ilə əvəz edilsin;

1.2. III hissə aşağıdakı redaksiyada verilsin:

"III. Bu maddənin I hissəsinin 3-5, 8, 9 (texniki vasitələrdən istifadə etməklə və ya səsyazan, video, foto, kino və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə yaşayış yerinə münasibətdə) və 10-cu bəndlərində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri bu maddənin IV hissəsində göstərilən hallar istisna olmaqla, məhkəmənin (hakimin) qərarı əsasında həyata keçirilir.";

1.3. IV hissənin 2-ci bəndində "yaşayış binalarına, habelə digər qapalı tikililərə" sözləri "yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə" sözləri ilə əvəz edilsin;

1.4. aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Bu Qanunun 10-cu və digər maddələrində "yaşayış yeri" dedikdə, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 7.0.34-cü maddəsində nəzərdə tutulmuş yerlər başa düşülür.".

2. 12-ci maddənin III hissəsinə “8” rəqəmindən sonra “, 9 (texniki vasitələrdən istifadə etməklə və ya səsyazan, video, foto, kino və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə yaşayış yerinə münasibətdə)” sözləri əlavə edilsin.

3. 13-cü maddənin II hissəsində “mənzillərə” sözü “binalara, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğu və ya torpaq sahələrinə” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 fevral 2016-cı il
№ 121-VQD

## Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 1999-cu il 28 oktyabr tarixli Qanununa müvafiq əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektləri arasında səlahiyyət bölgüsünün aparılması məqsədi ilə **qərara alıram:**

I. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri Azərbaycan Respublikasının milli təhlükəsizlik, daxili işlər, ədliyyə (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi), vergilər nazirlikləri, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, Xüsusi Dövlət Mühafizə Xidməti, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən bu orqanların səlahiyyətləri daxilində, əməliyyat-axtarış subyektlərinin tələbatları və aşağıdakı məhdudiyyətlər nəzərə alınmaqla tətbiq edilsin:[1]

poçt, teleqraf və digər göndərişlərin yoxlanılmasını~~, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılmasını~~ Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, beynəlxalq göndərişlərin yoxlanılmasını ~~isə~~ həmçinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi~~, barəsində əməliyyat-axtarış tədbirləri həyata keçirilən mobil rabitə~~

~~istifadəçisinin baza antenaları üzrə yeri (yerdəyişməsi) haqqında məlumatların və telefon danışıqları apardığı şəxslərin siyahısının texniki rabitə kanallarından və digər texniki vasitələrdən real vaxt rejimində çıxarılmasını həmçinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi~~ həyata keçirirlər; [2]

telefon danışıqlarına qulaqasmanı, *texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılmasını* Azərbaycan Respublikasının milli təhlükəsizlik və daxili işlər nazirlikləri həyata keçirirlər; [3]

İnsanların güdülməsini, binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsini Azərbaycan Respublikasının milli təhlükəsizlik və daxili işlər nazirlikləri, Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər. [4]

iqtisadi sahədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə ilə əlaqədar öz səlahiyyətləri çərçivəsində binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsini Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir;[5]

məhkumların məktublarının yoxlanılmasını Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər; [6]

hərbi hissələrdə və hərbi idarələrdə əməliyyat-axtarış tədbirlərinin tətbiqini təhlükəsizlik orqanları üçün müəyyən edilmiş həcmdə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həyata keçirir; [7]

mühafizə edilən şəxslərin və obyektlərin təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış fəaliyyətini

Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirir;[8]

korrupsiya ilə bağlı cinayətlər üzrə əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi həyata keçirir. [9]

II. Əməliyyat-axtarış fəaliyyəti prosesində hüquqi şəxsin yaradılması Azərbaycan Respublikasının milli təhlükəsizlik, daxili işlər və vergilər nazirliklərinə həvalə edilir.[10]

III. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri bu Fərmanın 1-ci bəndi ilə tətbiqi məhdudlaşdırılmış əməliyyat-axtarış tədbirlərini qanunvericiliklə müəyyən edilmiş qaydada onların icrası həvalə edilmiş orqanlara sorğu göndərməklə həyata keçirirlər.

*IV. Rabitə xidmətləri göstərən hüquqi və fiziki şəxslər üçün rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin təminatına dair texniki-təşkilati şərtlərin müəyyənləşdirilməsi Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi tərəfindən, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid olan hissədə isə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən həyata keçirilir. Rabitə şəbəkələrində aparılan əməliyyat-axtarış tədbirləri üzrə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik və Daxili İşlər nazirliklərinin rabitə şəbəkələrinə qoşulması Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən "Rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Qaydalar"a uyğun olaraq həyata keçirilir.*[11]

V. (Çıxarılıb) [12]

VI. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 19 iyun 2001-ci il
№ 507

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 24 avqust 2002-ci il tarixli **758** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 8, maddə 478**)

2. 23 oktyabr 2003-cü il tarixli **980** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 585**)

3. 9 yanvar 2004-cü il tarixli **12** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 1, maddə 19**)

4. 19 aprel 2005-ci il tarixli **224** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 4, maddə 299**)

5. 28 fevral 2006-cı il tarixli **375** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 92**)

6. 13 aprel 2010-cu il tarixli **249** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 15 aprel 2010-cu il, № 79, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 289**)

7. 08 aprel 2011-ci il tarixli **403** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 10 aprel 2011-ci il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 4, maddə 272)**

8. 26 may 2011-ci il tarixli **430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 5, maddə 381)**

9. 24 iyul 2014-cü il tarixli **236** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 25 iyul 2014-cü il, №**

**158; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 818)**

10. 1 iyun 2015-ci il tarixli **539** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 2 iyun 2015-ci il, № 116, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 695)**
11. 2 oktyabr 2015-ci il tarixli **639** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 3 oktyabr 2015-ci il, № 214)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 28 fevral 2006-cı il tarixli **375** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 92**) ilə 1-ci bəndində "**vergilər**" sözündən sonra "**fövqəladə hallar**" sözləri əlavə edilmişdir.

24 avqust 2002-ci il tarixli **758** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 8, maddə 478**) ilə I bəndin birinci abzasında "**ədliyyə**" sözündən sonra "**(Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi)**" sözləri əlavə edilmişdir.

9 yanvar 2004-cü il tarixli **12** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 1, maddə 19**) ilə I bəndin birinci abzasında "**vergilər nazirlikləri**" sözlərindən sonra "**,Dövlət Sərhəd Xidməti**" sözləri əlavə edilmişdir.

19 aprel 2005-ci il tarixli **224** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 4, maddə 299**) ilə I bəndin birinci abzasından "**Hərbi Əks-kəşfiyyat Xidməti**" sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri Azərbaycan Respublikasının milli təhlükəsizlik, daxili işlər, ədliyyə (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar RespublikasınınƏdliyyə Nazirliyi), vergilər nazirlikləri, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, Hərbi Əks-kəşfiyyat Xidməti, Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsi tərəfindən bu orqanların səlahiyyətləri daxilində, əməliyyat-axtarış subyektlərinin tələbatları və aşağıdakı məhdudiyyətlər nəzərə alınmaqla tətbiq edilsin:~~

08 aprel 2011-ci il tarixli **403** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 10 aprel 2011-ci il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 4, maddə 272)** ilə I bəndində birinci abzasda “**Xüsusi Dövlət Mühafizə Xidməti**” sözlərindən sonra “**, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi**” sözləri əlavə edilmişdir.

24 iyul 2014-cü il tarixli **236** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 25 iyul 2014-cü il, № 158; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 818)** ilə I hissəsinin birinci və doqquzuncu abzaslarında “**İdarəsi**” sözü “**Baş İdarəsi**” sözləri ilə əvəz edilmişdir.

[2] 26 may 2011-ci il tarixli **430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 5, maddə 381)** ilə I bəndinin ikinci abzasında “**isə**” sözü çıxarılmışdır, “**həyata keçirirlər**” sözlərindən əvvəl “**, barəsində əməliyyat-axtarış tədbirləri həyata keçirilən mobil rabitə istifadəçisinin baza antenaları üzrə yeri (yerdəyişməsi) haqqında məlumatların və telefon danışıqları apardığı şəxslərin siyahısının texniki rabitə kanallarından və digər texniki vasitələrdən real vaxt rejimində**

**çıxarılmasını həmçinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi**" sözləri əlavə edilmişdir.

1 iyun 2015-ci il tarixli **539** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 2 iyun 2015-ci il, № 116, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 695)** ilə I bənddə ikinci abzasdan "**, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılmasını**" və "**, barəsində əməliyyat-axtarış tədbirləri həyata keçirilən mobil rabitə istifadəçisinin baza antenaları üzrə yeri (yerdəyişməsi) haqqında məlumatların və telefon danışıqları apardığı şəxslərin siyahısının texniki rabitə kanallarından və digər texniki vasitələrdən real vaxt rejimində çıxarılmasını həmçinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi**" sözləri çıxarılmışdır.

[3] 9 yanvar 2004-cü il tarixli **12** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 1, maddə 19**) ilə I bəndin üçüncü abzasından "**,insanların güdülməsini, binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsini**" sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~telefon danışıqlarına qulaqasmanı, insanların güdülməsini, binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsini Azərbaycan Respublikasının milli təhlükəsizlik və daxili işlər nazirlikləri həyata keçirirlər;~~

1 iyun 2015-ci il tarixli **539** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 2 iyun 2015-ci il, № 116, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 695)** ilə I bənddə üçüncü abzasda "**qulaqasmanı**" sözündən sonra "**, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılmasını**" sözləri əlavə edilmişdir.

[4] 9 yanvar 2004-cü il tarixli **12** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 1, maddə 19**) ilə I bəndə dördüncü abzas əlavə edilmiş və dördüncü-altıncı abzaslar müvafiq olaraq beşinci-yeddinci abzaslar hesab edilmişdir.

[5] 13 aprel 2010-cu il tarixli **249** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 15 aprel 2010-cu il, № 79, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 289**) ilə I bəndin 5-7-ci abzasları 6-8-ci abzaslar hesab edilmişdir və həmin bəndə 5-ci abzas əlavə edilmişdir.

[6] 24 avqust 2002-ci il tarixli **758** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 8, maddə 478**) ilə dördüncü abzasda "**həyata keçirir**" sözləri "**və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər**" sözləri ilə əvəz edilmişdir.

[7] 19 aprel 2005-ci il tarixli **224** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 4, maddə 299**) ilə I bəndin altıncı abzasından "**Hərbi Əks-kəşfiyyat Xidməti**" sözləri "**Milli Təhlükəsizlik Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[8] 13 aprel 2010-cu il tarixli **249** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 15 aprel 2010-cu il, № 79, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 289**) ilə I bəndin birinci və yeddinci abzaslarında "**Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsi**" sözləri "**Xüsusi Dövlət Mühafizə Xidməti**" sözləri ilə əvəz edilmişdir.

[9] 08 aprel 2011-ci il tarixli **403** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 10 aprel 2011-ci il, № 75,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 4, maddə 272)** ilə I bəndində səkkizinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və həmin bəndə yeni məzmunda doqquzuncu abzas əlavə edilmişdir.

[10] 13 aprel 2010-cu il tarixli **249** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 15 aprel 2010-cu il, № 79, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 289**) ilə II bənddə "**və daxili işlər**" sözləri "**, daxili işlər və vergilər**" sözləri ilə əvəz edilmişdir.

[11] 1 iyun 2015-ci il tarixli **539** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 2 iyun 2015-ci il, № 116, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 695)** ilə IV bənddən "və **bu tədbirlərin keçirilməsini təmin edən avadanlıqların istismarını**" sözləri çıxarılmışdır və həmin bəndə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

2 oktyabr 2015-ci il tarixli **639** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 3 oktyabr 2015-ci il, № 214)** ilə IV hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~IV. Rabitə xidmətləri göstərən hüquqi və fiziki şəxslər üçün rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin təminatına dair texniki-təşkilati şərtləri müəyyənləşdirilməsini və bu tədbirlərin keçirilməsini təmin edən avadanlıqların istismarını Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həyata keçirir.~~ ~~*Rabitə şəbəkələrində əməliyyat axtarış tədbirləri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik və Daxili İşlər nazirlikləri tərəfindən avtonom rejimdə istismar olunan avadanlıqlar tətbiq edilməklə həyata keçirilir.*~~

[12] 23 oktyabr 2003-cü il tarixli **980** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının**

**Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 585**) ilə V bölmə çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~V. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 4 oktyabr tarixli, 637 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin və onları verən icra hakimiyyəti orqanlarının Siyahısı"na aşağıdakı məzmunda 79-cu bənd əlavə edilsin:~~

| | |
|---|---|
| ~~"79. Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş hüquqi və fiziki şəxslər tərəfindən gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin işlənilməsi, istehsalı, alınması, ölkəyə gətirilməsi və ölkədən çıxarılması~~ | ~~Milli Təhlükəsizlik Nazirliyi"~~ |

**“Rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. “Rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Qaydalar” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə

saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin təşkilini bu Fərmanla təsdiq edilən Qaydalara uyğunlaşdırsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 oktyabr 2015-ci il
№ 638

Azərbaycan Respublikası adından

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

**Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə iclas katibi Fəraid Əliyevin, maraqlı subyektlərin nümayəndələri Qəbələ rayon Məhkəməsinin sədri Vahid Sadıqovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati qanunvericilik sektorunun müdiri Fuad Məmmədovun, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının professor əvəzi, hüquq üzrə elmlər doktoru Midhəd Qəfərovun və müstəqil ekspert hüquq üzrə fəlsəfə doktoru Aydın Yusubovun, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifovun, Azərbaycan Respublikası Baş Prokurorluğunun Daxili işlər orqanlarında istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti Munis Abuzərlinin, Azərbaycan Respublikası Milli

Təhlükəsizlik Nazirliyinin Baş istintaq idarəsinin şöbə rəisi Mahir Qasımovun, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş cinayət axtarışı idarəsinin əməliyyat müvəkkili Ceyhun Əliyevin iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair Qəbələ rayon Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertlərin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Qəbələ rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra — Konstitusiya Məhkəməsi) müraciət edərək, keçirilmiş əməliyyat-axtarış tədbiri nəticəsində əldə edilən materiallara münasibətdə məhkəmə nəzarətini həyata keçirən məhkəmənin səlahiyyətlərini müəyyənləşdirmək məqsədilə Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin (bundan sonra — CPM) 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilmişdir ki, Qəbələ rayon Məhkəməsinin icraatına CPM-in 445.2-ci maddəsinin

tələblərinə uyğun olaraq Qəbələ rayon polis şöbəsi tərəfindən "Əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair" 8 iyul 2014-cü il tarixli qərar və bu qərar əsasında həmin tarixdə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə bağlı "Baxış keçirilməsi haqqında" iki protokol daxil olmuşdur.

Müraciətedənin fikrincə, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materialların sübut kimi qəbul və istifadə edilməsinə yalnız həmin materialların cinayət-prosessual qanunvericiliyinin tələblərinə uyğun təqdim edilməsi və yoxlanılması şərti ilə yol verilir (CPM-in 137-ci maddəsi). Bu isə CPM-in 445.2-ci maddəsinə əsasən əməliyyat-axtarış tədbirinin aparılması barədə qərarın məhkəməyə sadəcə məlumatlandırmaq üçün təqdim edilməsini deyil, həm də məhkəmənin əməliyyat-axtarış tədbiri nəticəsində əldə edilmiş materiallar üzrə müvafiq tədbirin keçirilməsinin qanuniliyini yoxlamaq səlahiyyətini nəzərdə tutur. Əməliyyat-axtarış materiallarının təqdim edilməsi və yoxlanılması qaydaları isə cinayət-prosessual qanunvericiliyində müəyyən edilməmişdir.

Qeyd edilənlərə əsaslanaraq, Qəbələ rayon Məhkəməsi CPM-in 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarətinin hədləri baxımından şərh edilməsinin zəruri olduğu qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıları qeyd etməyi vacib hesab edir.

Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu sahəsində aparılan islahatların əsas istiqamətlərindən biri də məhkəmə-hüquq islahatlarıdır. Azərbaycan Respublikasının

Konstitusiyasında (bundan sonra — Konstitusiya) ali dəyər olan insan və vətəndaş hüquq və azadlıqlarının təminatında məhkəmələrin rolu xüsusi qeyd olunmuşdur. Hüquqi dövlətdə insan hüquqlarının məhdudlaşdırılması yalnız qanun əsasında mümkündür. İnsan hüquqlarının məhdudlaşdırılmasının qanuniliyinə, mütənasibliyinə və ədalətliliyinə nəzarəti isə məhkəmələr həyata keçirirlər.

Məhkəmə nəzarəti cinayət-prosessual qanunvericiliyi sahəsində əsasən məhkəməyədək icraat mərhələsində öz funksional yükünü daşıyır. Məhkəmə nəzarəti cinayət-prosesi çərçivəsində təhqiqatçının, müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun fəaliyyəti nəticəsində insan və vətəndaş hüquq və azadlıqlarına qanunsuz müdaxilələrin qarşısını almağa, pozulmuş hüquqların bərpasına xidmət edən məhkəmə fəaliyyətinin müstəqil növüdür.

Məhkəmə nəzarətinin hüquqi əhəmiyyəti Konstitusiya və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr ilə müəyyən edilir.

Konstitusiyanın 60-cı maddəsinə əsasən hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasının qanuniliyinin məhkəmələr tərəfindən həll edilməsi məhz Konstitusiyanın 71-ci maddəsinin VII hissəsindən irəli gəlir. Belə ki, Konstitusiyanın həmin normasına görə insan və vətəndaş hüquqlarının və

azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir. Hər kəs əmin olmalıdır ki, dövlət orqanları tərəfindən hər hansı qanuni təqib həyata keçirilirsə, həmin fəaliyyətə müstəqil məhkəmə orqanı tərəfindən nəzarət mövcuddur.

Bununla yanaşı, ayrı-ayrı konstitusiya normalarında insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasında məhkəmə nəzarətinin vacibliyi xüsusi qeyd edilir. Məsələn, Konstitusiyanın 33-cü maddəsinin II hissəsində göstərilir ki, qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra — Konvensiya) 5-ci maddəsində azadlıq və toxunulmazlıq hüququnun təminatında məhkəmə nəzarətinin vacibliyi birbaşa vurğulanmışdır.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində məhkəməyədək icraat mərhələsində məhkəmə nəzarəti nisbətən yeni institutdur. Prokuror nəzarətindən fərqli olaraq, məhkəmə nəzarəti məhkəməyədək icraat mərhələsində ibtidai araşdırma subyektlərinin fəaliyyətinin insan hüquq və azadlıqlarına qanunsuz müdaxiləsinin qarşısının alınmasına yönəlmişdir. Prokuror nəzarəti ümumilikdə təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunçuluğa riayət edilməsinə yönəldiyi halda, məhkəmə nəzarəti əməliyyat-axtarış fəaliyyəti subyektləri tərəfindən insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasının qanuniliyi, əsaslılığı,

mütənasibliyi, məqsədəmüvafiqliyi və təxirəsalınmazlığının yoxlanılması funksiyasını daşıyır.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 1999-cu il 28 oktyabr tarixli Qanununa (bundan sonra — "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanun) əsasən əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarəti prokuror nəzarətindən fərqli olsa da, onlar arasında oxşar cəhətlər də mövcuddur.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 20-ci maddəsinin I hissəsində göstərilir ki, əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən qanunların icrasına nəzarəti Azərbaycan Respublikasının Baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar həyata keçirirlər. Həmin maddənin IV və V hissələrinə görə əməliyyat-axtarış tədbirlərinin təşkili, taktikası, üsul və vasitələrinə dair məlumatlar prokuror nəzarətinin predmetinə daxil deyil və əməliyyat-axtarış fəaliyyətinə nəzarəti həyata keçirən Azərbaycan Respublikasının Baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar onlara verilən sənədlərdə əks olunan məlumatların məxfiliyini təmin etməlidirlər.

Beləliklə, məhkəmə nəzarəti ilə prokuror nəzarəti arasında nəzarətin predmeti baxımından fərqlilik müşahidə olunsa da, əməliyyat-axtarış fəaliyyətinin spesifik xüsusiyyətlərini nəzərə alaraq, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 20-ci maddəsinin IV və V hissələrinin tələblərini məhkəmə nəzarəti fəaliyyətinə də aid etmək olar.

Məhkəmə prosessual funksiyaların bölüşdürülməsi prinsipini rəhbər tutaraq, əməliyyat-axtarış və ya ibtidai

araşdırma subyektlərinin fəaliyyəti sahəsində bütövlükdə qanunçuluğa nəzarət etmək vəzifəsini daşımır. Belə ki, cinayət barədə məlumatların qeydiyyatı, ibtidai araşdırmanın başlanması haqqında qərar və ya digər insan hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə bağlı olmayan prosessual tədbirlər məhkəmə nəzarətinin predmeti ola bilməz.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin şərh edilməsinə dair" 5 avqust 2009-cu il tarixli Qərarında qeyd edilmişdir ki, məhkəmə nəzarəti icraatında məhkəmə əsasən iki vəzifə daşıyır: cinayət təqibi üzrə müvəkkil edilmiş orqanlar və vəzifəli şəxslər tərəfindən edilən ayrı-ayrı hərəkətlərin və qəbul olunan qərarların qanuniliyinin təmin olunması; cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının qorunması (əsassız və qanunsuz məhdudlaşdırılmasının istisna edilməsi, hüquqların pozulmasına son qoyulması və pozulmuş hüquqların bərpası).

Beləliklə, prokuror nəzarətindən fərqli olaraq, məhkəmə nəzarətinin predmetini — insan və vətəndaş hüquq və azadlıqlarının təminatı ilə əlaqədar təhqiqat, istintaq və prokurorluq orqanları tərəfindən qəbul edilən qərarların qanuniliyi və əsaslılığı təşkil edir.

Qeyd edildiyi kimi, məhkəmə nəzarəti Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nisbətən yeni institutdur. 2000-ci il 1 sentyabr tarixindən qüvvəyə minmiş CPM-in 442.2-ci maddəsi məhkəmə nəzarətinin obyektini müəyyən edərək göstərir ki, məhkəmə

nəzarətinin həyata keçirilməsi qaydasında məhkəmə aşağıdakılara baxır: hər kəsin azadlıq, mənzil toxunulmazlığı, şəxsi toxunulmazlıq, mülkiyyət hüququnu, şəxsi sirrinin (o cümlədən ailə həyatının, yazışmaların, telefon danışıqlarının, poçt, teleqraf və başqa məlumatların) saxlanılması hüququnu məhdudlaşdıran, habelə dövlət, peşə və ya kommersiya sirrini özündə əks etdirən məlumatları ilə bağlı istintaq hərəkətlərinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsinə və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair vəsatət və təqdimatlara, bununla yanaşı cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinə və ya qərarlarına dair şikayətlərə.

Məhkəmə nəzarəti sahəsinə aid olan məsələlər, habelə onların həyata keçirilməsi qaydası CPM-in 443-454-cü maddələri ilə müəyyən edilir. Bu maddələr cinayət prosesində istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi, habelə əməliyyat-axtarış tədbirinin keçirilməsi halında mütləq qaydada məhkəmə nəzarətinin mövcudluğunu nəzərdə tutur.

Bununla yanaşı, əməliyyat-axtarış fəaliyyətinin əsasları "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanun ilə tənzimlənir. Bu Qanun insanların konstitusiya hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönələn hər hansı bir əməliyyat-axtarış tədbirinin yalnız məhkəmənin qərarı əsasında keçirilməsini və ya keçirildikdən dərhal sonra məhkəməni həmin tədbir haqqında məlumatlandırmağı nəzərdə tutur.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra — Avropa Məhkəməsi) bir sıra qərarlarında məhkəmə nəzarətinin vacibliyini vurğulamışdır. Belə ki, Avropa Məhkəməsi Xudobin Rusiyaya qarşı iş üzrə 26 oktyabr 2006-cı il tarixli Qərarında bildirmişdir ki, istintaq tədbirlərinə sanksiya verən, nəticələrini öncədən görmək mümkün olan aydın prosedur mövcud olmalı, eləcə də həmin tədbirlərə lazımi qaydada nəzarət təşkil edilməlidir ki, hakimiyyət orqanlarının vicdanlı davranması və hüquqa zidd olmayan hüquq mühafizə məqsədlərinə riayət edilməsi təmin olunsun. Eyni hüquqi mövqe Avropa Məhkəməsinin Klass və başqaları Almaniyaya qarşı iş üzrə 6 sentyabr 1978-ci il, Lüdi İsveçrəyə qarşı iş üzrə 15 iyun 1992-ci il tarixli Qərarlarında da ifadə edilmişdir.

Avropa Məhkəməsi öz qərarlarında göstərir ki, əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarəti sui-istifadənin qarşısının alınmasına və qüvvənin mütənasib istifadəsinə nəzarət edir. Avropa Məhkəməsi Uzun Almaniyaya qarşı işi üzrə 2 sentyabr 2010-cu il tarixli Qərarında bildirmişdir ki, şübhəli şəxslərin avtomobilində quraşdırılan və güdmə funksiyasını daşıyan GPS (qlobal təsvir sistemi) hazırlanan cinayətin qarşısının alınması məqsədi ilə məhkəmə nəzarəti altında istifadə edildiyinə görə adekvat və effektiv təminatlarla aparılıb. Bu isə istifadə olunan əməliyyat-axtarış tədbirlərinin aparılmasında sui-istifadənin qarşısının alınması üçün faydalı vasitədir.

Məhkəmə nəzarətinin mövcudluğu, ilk növbədə, əməliyyat-axtarış fəaliyyətinə qərəzsiz orqanın nəzarətinin mövcudluğunu ifadə edir. Avropa Məhkəməsi Avropaya

inteqrasiya və insan hüquqları naminə Assosiasiya və Ekimciyeva Bolqarıstana qarşı iş üzrə 28 iyun 2007-ci il tarixli Qərarında qeyd etmişdir ki, məxfi müşahidənin tətbiqinə ümumi nəzarətin bilavasitə xüsusi vasitələrin tətbiq edilməsini həyata keçirən daxili işlər orqanlarına həvalə edilməsi nəticə etibarı ilə əməliyyat-axtarış fəaliyyətinə qərəzsiz orqanın nəzarətinin olmadığını bildirir, bu isə Konvensiyanın 8-ci maddəsinin tələblərinin pozulduğunu göstərir.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq cinayət prosesində istifadə olunan əməliyyat-axtarış fəaliyyətinin nəticələri iki yolla əldə oluna bilər: 1) məhkəmənin razılığı ilə aparılan tədbirlər nəticəsində; 2) əvvəlcədən məhkəmənin razılığını almadan, lakin sonradan həmin tədbir barəsində məhkəməyə məlumat vermək şərti ilə, keçirilən tədbirlər nəticəsində.

Birinci halda, məhkəmə qərarının əvvəlcədən alınması qaydasında əməliyyat-axtarış fəaliyyətinin aparılmasına məhkəmə nəzarətinin həcmi (həddi) problemi təcrübədə hər hansı mübahisə yaratmır. CPM-in 446.4-cü maddəsindən görünür ki, istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyini təsdiq edən materiallar vəsatətə əlavə edilməlidir. Həmin materiallar kifayət etmədikdə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə nəzarəti funksiyalarını həyata keçirən hakim onların tamamlanmasını tələb etmək hüququna malikdir.

Qanunverici əməliyyat-axtarış tədbirini həyata keçirən orqanın rəhbərinin vəsatətinin əsaslandırılması üçün bir sıra tələblər irəli sürür. Məsələn, vəsatətdə əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyi əsaslandırılmalı, əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində hansı nəticənin əldə edilməli olduğu və nə üçün həmin nəticənin digər üsul və vasitələrlə əldə edilməsinin mümkün olmaması, əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin hansı müddətdə, harada və hansı üsullarla nəzərdə tutulduğu və digər əhəmiyyətli məlumatlar göstərilməlidir.

Əməliyyat-axtarış tədbirini həyata keçirən orqanın vəsatətində qeyd olunan müddəalar əsaslandırılmaqla prokurora təqdim edilir. Prokuror öz növbəsində əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi haqqında materialları nəzərdən keçirməklə müvafiq qərar qəbul edir, yəni vəsatətin müdafiə edilməsindən imtina haqqında əsaslandırılmış qərar çıxarır, yaxud zəruriliyini təsdiq edən materialları vəsatətə əlavə etməklə müvafiq qərarın qəbul edilməsi üçün məhkəməyə təqdimat göndərir.

Beləliklə, məhkəmənin razılığı ilə aparılan tədbirlərə dair məhkəmə nəzarətini həyata keçirən hakimin qanunvericiliklə müəyyən edilən səlahiyyətləri kifayət qədər genişdir. Əvvəla, məhkəmənin razılığını almaq məqsədi ilə qaldırılan vəsatətə istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyini təsdiq edən materiallar əlavə

edilməlidir. Həmin materiallar kifayət etmədikdə, hakim onların tamamlanmasını tələb etmək hüququna malikdir.

Göründüyü kimi, CPM-də əməliyyat-axtarış tədbirləri keçirilərkən şəxsi toxunulmazlıq, yazışma, telefon danışıqları, poçt, teleqraf və poçt rabitəsi şəbəkələri ilə ötürülən digər məlumatların sirri, eləcə də mənzil toxunulmazlığı barədə hər bir kəsin konstitusiya hüquq və azadlıqlarının məhdudlaşdırılmasına dair materiallara məhkəmə qaydasında baxılması nəzərdə tutulmuşdur. Məhkəmə nəzarəti qaydasında daxil olan əməliyyat-axtarış sənədlərində göstərilən məlumatların məxfiliyinin təmin edilməsi üçün məhkəmədə şərait yaradılır.

CPM-in 448-ci maddəsinə görə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi məsələlərinə dair məhkəmə iclasının nəticələri üzrə hakim müvafiq əməliyyat-axtarış tədbirinin keçirilməsinə icazə verir və ya onun keçirilməsindən imtina edir, bu barədə əsaslandırılmış qərar qəbul edir. Həmin qərar əməliyyat-axtarış tədbirinin keçirilməsinin təşəbbüskarına verilir və təqdim olunmuş materiallar geri qaytarılır. Eyni zamanda, məhkəmə nəzarəti qaydasında qəbul edilən qərar hakim tərəfindən tam əsaslandırılmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən Qəbələ rayon Məhkəməsinin müraciəti araşdırılarkən müəyyən edilmişdir ki, təxirəsalınmaz tədbirlərin keçirilməsindən sonra məhkəmə nəzarəti qaydasında keçirilmiş tədbirlər barəsində məhkəməni məlumatlandırmaq qaydası təcrübədə fərqli tətbiq edilir. Bunun səbəbi isə ilk növbədə, qanunu tətbiq edən subyektlərin normanın tələblərinə tam formal

yanaşmasıdır. Belə ki, CPM-in 445.2-ci maddəsinin tələblərinə görə "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanununun 10-cu maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş hallarda CPM-in 445.1-ci maddəsində göstərilən əməliyyat-axtarış tədbirləri məhkəmənin qərarı olmadan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsinin əsaslandırılmış qərarı ilə həyata keçirilə bilər. Bu halda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsi müvafiq tədbir aparıldıqdan sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirinin aparılması barədə əsaslandırılmış qərarı məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etməlidir.

CPM-in qeyd edilən norması əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqandan məhkəmə nəzarəti qaydasında, formal olaraq müvafiq tədbir keçirildikdən sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirinin aparılması barədə yalnız əsaslandırılmış qərarı məhkəmə nəzarətini həyata keçirən məhkəməyə təqdim etməsini tələb edir.

Məsələyə formal cəhətdən yanaşıldığı təqdirdə məhkəmə yalnız həyata keçirilmiş əməliyyat-axtarış tədbirinin zəruriliyini və qanuna uyğun aparıldığını yoxlamaqla müvafiq qərar çıxarmalıdır. Bu qərarın surəti əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqana və ibtidai istintaqa rəhbərlik edən prokurora göndərilir. Gələcəkdə işə mahiyyəti üzrə baxılarkən bu əməliyyat tədbirinin nəticələrinə ümumi qaydada baxılır. Yəni digər sübutlar kimi əməliyyat-axtarış tədbirlərinin nəticələri də yoxlanılıb qiymətləndirilir.

Məhkəmə nəzarətinin formal olması məhkəmə nəzarəti funksiyasını "passiv legitimləşdirmə" fəaliyyətinə oxşar edə bilər. Bu terminin izahı ətraflı olaraq Konstitusiya Məhkəməsi Plenumunun "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 2.1-ci və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2.2 və 2.2.1-ci maddələrinin şərh edilməsinə dair" 19 may 2014-cü il tarixli Qərarında verilmişdir. Lakin məhkəmə qarşısında məhkəməyədək mərhələdə nəzarətə dair xüsusi prosessual vəzifə — insan və vətəndaş hüquq və azadlıqlarına qanunsuz müdaxilənin qarşısının alınması vəzifəsi qoyulmuşdur.

Nəzərə alınmalıdır ki, məhkəmə nəzarətinin obyekti iki əsas elementdən ibarətdir: 1) konstitusiya hüquq və azadlıqlarının qorunması; 2) həmin hüquq və azadlıqların qorunması ilə əlaqədar təhqiqat, istintaq və prokurorluq orqanları tərəfindən qəbul edilən qərarların qanuniliyi və əsaslılığı. Bu elementlərə nəzarətin təminatı üçün məhkəmələrin kifayət qədər məhkəmə nəzarəti funksiyalarını həyata keçirmək səlahiyyətləri olmalıdır.

CPM-in 143.2-ci maddəsində qeyd edilir ki, məhkəmə cinayət prosesi tərəflərinin vəsatəti, yaxud öz təşəbbüsü ilə sübutların toplanması prosesində fiziki, hüquqi və vəzifəli şəxslərdən, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlardan cinayət təqibi üzrə əhəmiyyət kəsb edən sənəd və əşyaları təqdim etməyə, yoxlama və təftişin keçirilməsini səlahiyyətli orqanlardan və vəzifəli şəxslərdən tələb etməyə haqlıdır.

Məhkəmənin bu səlahiyyətləri sübutların toplanması prosesinə aiddir. Əməliyyat-axtarış tədbirlərinin məhkəmə

nəzarəti altında aparılması isə sonda həmin tədbirin nəticələrinin cinayət-prosessual qaydada sübut qismində istifadəsinə əsas verir. Beləliklə, məhkəmələr sübutların gələcək məhkəmə prosesində faydalı və obyektiv istifadəsini təmin etmək məqsədi ilə məhkəməyədək mərhələdə məhkəmə nəzarəti funksiyasının geniş və hərtərəfli aparılmasında səlahiyyətli olmalıdırlar.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, hakim məhkəməyə qədər mərhələdə məhkəmə nəzarətini həyata keçirən zaman aşağıdakı səlahiyyətlərə malikdir:

• əməliyyat-axtarış tədbirinin keçirilməsinə icazə vermək və tədbirin keçirilməsinə dair qaldırılan vəsatəti təmin etmək və ya etməmək;

• şəxsin konstitusiya hüquq və azadlıqlarının qanuni məhdudlaşdırılması haqqında qərarın güvədə olma müddətini uzatmaq;

• əməliyyat-axtarış tədbirinin keçirilməsinin əsaslarına dair əlavə materialları tələb etmək;

• hüquq və azadlığı məhdudlaşdırılan şəxsi dinləmək və ehtiyac olduğu halda (əməliyyat-axtarış tədbirlərinin gizli və ya aşkar keçirilməsindən asılı olaraq) ərizəçini ona qarşı aparılan əməliyyat-axtarış tədbirlərinin səbəbləri haqqında məlumatlandırmaq;

• şəxsin konstitusiya hüquq və azadlıqlarının təminatı məqsədi ilə digər tədbirlər görmək.

Nəzərə alınmalıdır ki, qanunvericiliklə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin məhkəmənin razılığı ilə aparılan tədbirlər nəticəsində və ya

əvvəlcədən məhkəmənin razılığını almadan, lakin sonradan bunun barəsində məhkəməyə məlumat vermək şərti ilə, keçirilən tədbirlər nəticəsində əldə edilməsindən asılı olmayaraq, həmin tədbirlərin keçirilməsinə məhkəmə nəzarətinin hədləri dəyişilməzdir. Öz növbəsində, məhkəmə nəzarəti qaydasında keçirilən yoxlamanın nəticəsində məhkəmələr müvafiq qərar qəbul edirlər. Məhz bu baxımdan, məhkəmələr əməliyyat-axtarış tədbiri keçirildikdən sonra məhkəmə nəzarəti qaydasında həmin tədbirin insan hüquq və azadlıqlarının təminatı baxımından qanuni, əsaslı, mütənasib, məqsədəmüvafiq və təxirəsalınmaz keçirilməsini yoxlayaraq CPM-in 448-ci maddəsinə əsasən müvafiq qərar qəbul etməlidirlər.

